Abstract. In many countries of the world, education statistics are measured in high figures at the expense of quantitative indicators. However, in terms of quality, the fact that the education system in a number of countries, especially in developing countries, does not meet modern requirements is reflected in the reports adopted by the relevant international educational and financial institutions. The process of financing the education system is considered from two important aspects: the amount of funds allocated for education and their effective use. All countries that pay attention to education have adopted strategic action plans, one way or another related to the development of education. On the whole, it is clear that the problem of financing education as a whole is adjacent to the problem of the quality of education, since they are closely interconnected. In the last decade, much of the attention at international meetings has been focused on the lack of funding for basic education, rather than on the efficiency and effectiveness of recurrent spending. Education is always among the topical issues, because it determines the present and future of every society. In democratic societies, the creation of conditions for every citizen to receive education on fair terms is necessarily linked to funding. It is also worth noting that the financing of the education system in world practice covers several areas and has certain methods.

Автор:

Гумеир Ахмедов
Образовательный институт Азербайджанской Республики
доктор педагогических наук, профессор,
Иностранный член Российской академии образования,
Заслуженный деятель науки и образования РТА
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

О механизме финансирования системы образования в Азербайджане

Ключевые слова:
образовательная стратегия, образовательная система, бизнес-кластер, финансирование, образовательные гранты, инновации, образовательное законодательство, квалификация

Аннотация. Во многих странах мира статистика образования измеряется высокими цифрами за счет количественных показателей. Однако с точки зрения качества тот факт, что система образования в ряде стран, особенно в развивающихся странах, не отвечает современным требованиям, находит свое отражение в отчетах, принятых соответствующими международными образовательными и финансовыми институтами. Процесс финансирования системы образования рассматривается с двух важных аспектов: объем средств, выделяемых на образование, и их эффективное использование. Во всех странах, уделяющих внимание образованию, приняты стратегические планы действий, так или иначе связанные с развитием образования. В целом понятно, что к проблеме качества образования примыкает, и проблема финансирования образования в целом, так-как они тесно связаны между собой. В последнее десятилетие большая часть внимания на международных встречах была сосредоточена на недостатке финансирования базового образования, а не на эффективности и действенности текущих расходов. Образование всегда находится в числе актуальных вопросов, потому что оно определяет настоящее и будущее каждого общества. В демократических обществах создание условий для получения каждым гражданином образования на справедливых условиях обязательно связано с финансированием. Также стоит отметить, что финансирование системы образования в мировой практике охватывает несколько направлений и имеет определенные методы.

Giriş. Yeni maliyyə mənbələrinin, onların səfərbər edilməsi üsullarının, o cümlədən təhsil sisteminin maliyyə mexanizminin təkmilləşdirilməsi strategiyası və taktikasını vahid təşkilati-metodoloji əsasda birləşdirən dövlət-özəl tərəfdaşlığının ortaq cəhətlərinin tapılmasına ehtiyac var. Bu prosedurun həyata keçirilməsinin normativ-hüquqi əsasları, müvafiq prosesə xidmət edən investisiya infrastrukturu mövcud olduğu təqdirdə dövlət və özəl sektorun birgə əməkdaşlığının həyata keçirilməsində dövlət idarəetmə orqanları, özəl kapital, peşə təhsili müəssisələri birlikdə iştirak edə bilər.

Təhsilin büdcədəndənkənar maliyyələşdirilməsinin bir neçə yolu mövcuddur:

1. Əhalinin təhsilə ayırdığı vəsait.
2. Beynəlxalq təhsil fondları.
3. Qrant layihələri.
4. Repetitorlar.
5.Publik hüquqi şəxs və ya özəl statuslu təhsil müəssisələri.

Təhsil sisteminin maliyyələşdirilməsində bir sıra fərdi amillər də mövcuddur ki, burada müəyyən fəlsəfi və kulturoloji doğmalar önəmli rol oynayır. Məsələn, dövlət idarəçiliyində meritokratiyanı əsas götürən bir sıra ölkələr vardır ki, bu idarəçilik sisteminin kökündə valideynlərin övladına yüksək təhsil verməsi və gələcəkdə inzibati idarəetmədə öz bilik və bacarıqları sayəsində yer alması üçün önəmli ölçüdə vəsait sərf olunur.

Ali təhsilin modernləşdirilməsi mərhələsində onun maliyyə cəhətdən sağlamlaşdırılması probleminin çoxşaxəliliyini, təhsil sahəsində iqtisadi proseslərin modernləşdirilməsinin xüsusiyyətlərini nəzərə alaraq, təhsil müəssisələrinin, o cümlədən dövlət təhsili institutunun gəlir bazasının genişləndirilməsi istiqamətində səmərəli səylər göstərilir və bu zaman özəl tərəfdaşlıq və çevik maliyyə idarəetmə modelinin qurulması araşdırma çərçivəsindən kənarda qalır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin və təhsil hüququ ilə bağlı digər beynəlxalq sənədlərin şərhlərinə müraciət etmədən onlara rasional və qeyri-ideoloji yanaşmaq lazımdır.

Azərbaycan dövlətinin təhsilin inkişafı sahəsində əldə etdiyi ən böyük nailiyyətlərdən biri irqindən, cinsindən, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq, qanunvericilik çərçivəsində hər kəsin bərabərhüquqlu təhsil almaq imkanlarının mövcudluğudur. Xüsusilə qız uşaqlarının təhsil alması istiqamətində hələ yüz iyirmi il əvvəl 1901-ci ildə Bakıda inşa edilən Qızlar Məktəbinə özəl sahədən maliyyə vəsaitinin ayrılması (görkəmli messenat Hacı Zeynalabdin Tağıyevin əməyi və şəxsi vəsaiti sayəsində) faktı Azərbaycanda bərabərhüquqlu təhsilin dərin tarixi köklərinin olduğunu əyani şəkildə sübut edir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının əsas strateji komponentlərindən biri maddi-texniki təminat bazasının gücləndirilməsidir. Burada iki əsas sahədə yenilənmə (modernləşmə) həyata keçirilir. Birinci sahə təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsidir. Mərkəzdə və regional müstəvidə keyfiyyətli təhsilin təmin olunması məqsədilə bir sıra tikinti və təmir-bərpa işləri mütəmadi şəkildə icra olunur. Son onilliklərdə ölkədə 3600-dən artıq məktəb binası və infrastrukturu yeniləşdirilib. İkinci sahə təhsil sahəsində qanunvericiliyin təkmilləşdirilməsidir. Beynəlxalq müstəvidə qəbul olunan tədris metodlarının tətbiqi məqsədilə qanunvercilikdə bir sıra dəyişikliklər həyata keçirilir ki, bu da pedaqoji istiqamətdə təhsilin keyfiyyətinin artırılmasına xidmət edir. Burada müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması da xüsusi qeyd edilməlidir. Təhsilin inkişafında yer alan iqtisadi meyarlara bir sıra digər amillər də daxildir. Müasir dövrün tələblərinə, həmçinin, təhsil alanların psixoloji hazırlıq durumuna uyğun olan çevik proqramlar əsasında tədris resurslarının hazırlanması və məktəblərin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması bu qəbildəndir. Bütün bu proseslər mərhələli şəkildə həyata keçirilir.

Təhsilin maliyyələşdirilmə prosesində xüsusi əhəmiyyətə malik sahələr də vardır. Bunlar inklüziv təhsil meyarlarının müəyyənləşdirilməsi və hər bir Azərbaycan vətəndaşının əmək bazarına inteqrasiyası, eyni zamanda peşə hazırlığı məktəblərinin də fəaliyyətinin genişləndirilməsidir.

Bir tərəfdən, büdcədən maliyyələşmənin təhsil müəssisələri arasında bölüşdürülməsindən maliyyə vəsaitlərinin birbaşa tələbələrə ayrılmasına (“adambaşına maliyyələşmə”) yönəldilməsi, eləcə də birbaşa maliyyələşdirmə metodlarından dolayı istifadəyə keçidin həyata keçirilməsi baş verməlidir. Digər tərəfdən, təhsilə yönəldilmiş özəl resursların (özəl kreditləşdirmə və təhsil sığortası) toplanması üçün maliyyə alətləri formalaşdırılmalıdır. Dünyada ali təhsilin maliyyələşdirilməsinin yeni formalarına təhsil kreditləri,

əldə olunan qrantlar, təhsil sığortası və tələbələrin maliyyə dəstəyi sistemləri daxildir. Yuxarıda deyildiyi kimi, Azərbaycanda təhsil tələbə kreditinin formalaşması bu istiqamətdə atılmış ən önəmli addımlardan biridir.

“Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət strategiyası” əsasında hazırlanmış “Fəaliyyət planı”na uyğun olaraq, 2017-ci ildən etibarən müəllimlərin yeni əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin təsdiqi, yeni sistem üçün maliyyə vəsaitinin ayrılması mexanizmi işə salınmışdır. Daha çox gəlir əldə etmək məqsədilə müəllimlərin peşəkarlığının yüksəldilməsi təhsilin ümumi inkişafına təkan verən mühüm amillərdəndir. Təhsilin idarəolunmasının məlumat sistemləri və yeni hesabatvermə modelinin yaradılması özündə bir sıra elektron prosedurları birləşdirir. Bu, əsasən, iki istiqamətdə həyata keçirilir: təhsil müəssisələrində məlumat bazalarının, məzun-koordinasiya-informasiya sistemlərinin yaradılması, yenilənməsi və idarəetmə prosesində istifadəsinin təmin edilməsi; əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması və tətbiqi. Əmək bazarında tələb və təklifin monitorinqi sayəsində ali və orta ixtisas təhsili müəssisələrində plan yerlərinin müəyyənləşdirilməsi gələcəkdə sosial-iqtisadi inkişafa təsir göstərən ən mühüm amillərdəndir. Belə ki, bir peşə sahəsi üzrə kifayət qədər mütəxəssis olduğu halda, bu sahəyə daha çox yer ayrılması və əksinə, kadr çatışmazlığının mövcud olduğu sahələr üzrə təhsil planında az yer nəzərdə tutulması sosial balansın pozulması ilə nəticələnə bilər. Bu yaxınlarda dövlət başçısı tərəfindən təsdiq olunmuş (22 iyul 2022-ci il tarixli Sərəncamla) “Azərbaycan Respublikasının 2020-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda gəlirindən asılı olmayaraq, bütün ailələrin övladları üçün ali təhsilə əlçatanlığın təmin olunması, nəticədə ali təhsilə qəbul olan tələbələrin sayının əlavə olaraq 20 min nəfər artırılması nəzərdə tutulmuşdur.

Təhsilin maliyyələşdirilməsi üzrə Azərbaycan modelində yer alan mühüm layihələrdən biri də AR NK-nın 1 mart 2020-ci il tarixli 68 nömrəli qərarı ilə Təhsilin İnkişafı Fondunun yaradılmasıdır. Fondun gəlirləri sırasında yer alan ən mühüm vəsaitlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələrinin büdcədənkənar vəsaitləri, ödənişli təhsil xidmətləri göstərilməsindən əldə etdikləri gəlirlərdən ayırmalar; ianələr, qrantlar və cəlb edilən investisiyalar; həmçinin Fondun fəaliyyətindən əldə olunmuş gəlirlərdir. Bu layihə təhsil müəssisələri tərəfindən təhsilin inkişafına sərf edilən vahid vəsait bazasının mövcudluğnu təmin edir. Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılan digər bir publik hüquqi şəxs isə Peşə Təhsilinin İnkişafı Fondudur. Bütün bu tip qurumların strukturu və statusu “dövlət-biznes partnyorluğu”nun inkişafına yönəlmiş əsas istiqamətləri müəyyən edir.

Hazırda təhsilin maliyyələşdirilməsi mexanizminin müasirləşdirilməsinin ümumi istiqaməti təhsil sistemində özünütənzimləmə proseslərinin başlanmasını nəzərdə tutan maliyyə resurslarının sərəncamında təhsil müəssisələrinin müstəqilliyinin genişləndirilməsi və onlardan istifadənin səmərəliliyinin artırılmasını nəzərdə tutur.

Ədəbiyyat

1. Arrow, Kenneth J. (1962). “The Economic Implications of Learning by Doing”. The Review of Economic Studies. 29 (3): pp. 155–173. URL: https://www.jstor.org/stable/2295952
2. Education 2030: Incheon Declaration and Framework for Action for the implementation of Sustainable Development Goal 4: Ensure inclusive and equitable quality education and promote lifelong learning opportunities for all. https://unesdoc.unesco.org/ark:/48223/pf0000245656_rus
3. Global Partnership for Eucation. URL: https://www.globalpartnership.org
4. Max Roser and Esteban Ortiz-Ospina (2016) - “Financing Education”. Published online at OurWorldInData.org. Retrieved from: https://ourworldindata.org/financing-education [Online Resource]
5. Nicholas Burnett, Strategies for financing of education: A global view. Results for Development Institute /URL: https://www.r4d.org/wp-content/uploads/Strategies-for-Financing-of-Education. pdf
6. Siavash Omidinia, Maslin Masrom, Harihodin Selamat, An Examination of the Concept of Smart School: An Innovation to Address Sustainability, 2nd International Conference on Advances in Computer Science and Engineering (CSE 2013) July 2013, pp. 326-329
7. 244 миллиона детей не начнут новый

учебный год (доклад ЮНЕСКО), URL: https://www.unesco.org/ru/articles/244-milliona-detey-ne-nachnut-novyy-uchebny-y-god-doklad-yunesko

8. Федорчук, Ю.М. Морозов, А.В. Стратегия развития образования: от международного уровня до уровня образовательной организации // Глобальная Экономика и Образование 2021;1(2): с.73-81

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 44-46
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p.44-46
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4, с.44-46

UOT

Ali təhsil müəssisələri tələbələrinin pedaqoji təcrübəsinin təşkilinin elmi əsaslarına dair

Müəlliflər:

Niyazi Quliyev
Biologiya üzrə fəlsəfə doktoru, dosent

Muğan Quliyev
Riyaziyyat üzrə elmlər doktoru, professor

Samirə Cəfərova
Fizika üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
E-mail: quliyev.niyazi@list.ru

Açar sözlər:
pedaqoji təcrübə, bacarıq, fəaliyyət, təlim-tərbiyə işi, elmi-metodiki iş, təşkilati-metodiki iş

Annotasiya. Pedaqoji təcrübənin əsas məqsədi fizika müəlliminin ixtisas-pedaqoji fəaliyyətinin formalaşması tələbələri fənn müəllimi və sinif rəhbəri kimi müəllim funksiyasının bütövlükdə yerinə yetirilməsinə hazırlamaq, eləcə də müəllim şəxsiyyətinin ixtisas-şəxsi keyfiyyətlərini formalaşdırmaqdan ibarətdir. Tələbələrin pedaqoji təcrübəsi, peşə-pedaqoji bacarıqların psixoloji quruluşunu və məzmununu əks etdirən fəaliyyət təcrübəsi kimi təşkil olunmalıdır. Tədris materialının, onun çətinliyi baxımından öyrənilməsi və analizi, elmi təfəkkürün nəzəri və təcrübi metodlarının fiziki anlayış, qanun və nəzəriyyələrin tədrisi metodikasının xüsusiyyətlərinin öyrənilməsi, təcrübə keçən tələbənin pedaqoji fəaliyyətinin planlaşdırılması və həyata keçirilməsinə düşüncəli yanaşmaya təkan verir. Tələbələrin dərslərinin qrup şəklində müzakirəsi, analiz və öz-özünü analiz, təcrübə keçən tələbələrin metodik səhvlərinin və onları aradan qaldırılması üsullarının vaxtında üzə çıxarılması tədris materialının daha dərindən mənimsənilməsinə və metodik bacarıqların formalaşdırılmasının yaxşı nəticə verməsinə kömək edir.

On the scientific basis of organizing the pedagogical experience of students of higher educational institutions

Authors:

Niyazi Guliyev
Doctor of Philosophy in Biology, Associate Professor

Mughan Guliyev
Doctor of sciences in mathematics, professor

Samira Jafarova
PhD in Physics
Ganja State University
E-mail: quliyev.niyazi@list.ru

Key word:
pedagogical experience, skill, activity training - education, scientific - methodical work, organizational - methodical work

Abstract. The main goal of the pedagogical experience is the formation of the professional-pedagogical activity of the physics teacher, preparing students for the full performance of the teacher's function as a subject teacher and class leader, as well as forming the professional-personal qualities of the teacher's personality. Pedagogical experience of students should be organized as activity experience reflecting the psychological structure and content of professional-pedagogical skills. The study and analysis of the teaching material in terms of its difficulty, the physical understanding of the theoretical and experimental methods of scientific thinking, the study of the characteristics of the methodology of teaching laws and theories, encourages a thoughtful approach to the planning and implementation of the student's pedagogical activity. Discussion of students' lessons in a group, analysis and self-analysis, timely disclosure of methodological mistakes of practicing students and methods of their elimination contribute to a deeper assimilation of the teaching material and the formation of methodological skills.

О научных основах организации педагогической практики студентов высших учебных заведений

Авторы:

Ниязи Гулиев
Доктор философии по биологии, доцент

Муган Гулиев
Доктор математических наук, профессор

Самира Джафарова
Доктор философии по физике
Гянджинский Государственный Университет
E-mail: quliyev.niyazi@list.ru

Ключевые слова:
педагогическая практика, умение, деятельность, учебно-воспитательная работа, научно-методическая работа, организационно-методическая работа

Аннотация. Основная цель педагогической практики - формирование квалификационно-педагогической деятельности учителя физики состоит в подготовке учащихся к выполнению функций учителя как учителя-предметника и классного руководителя в целом, а также в формировании квалификационно-личностных качеств личности учителя. Педагогическая практика студентов должна быть организована как практическая деятельность, отражающая психологическую структуру и содержание профессионально-педагогических умений. Изучение и анализ учебного материала с точки зрения его сложности, изучение особенностей теоретических и экспериментальных методов научного мышления, методики преподавания законов и теорий дает толчок к продуманному подходу к планированию и осуществлению педагогической деятельности обучающегося, проходящего практику. Обсуждение уроков учащихся в группах, анализ и самоанализ, своевременное выявление методических ошибок обучающихся, проходящих практику, и методов их устранения способствуют более глубокому усвоению учебного материала и хорошему результату формирования методических умений.

Pedaqoji təcrübə, gələcək müəllimin ixtisas hazırlığında məsuliyyətli mərhələ - nəzəri biliklərin praktiki biliklərə çevrilməsi dövrüdür.[1]

Pedaqoji təcrübənin əsas məqsədi fizika müəlliminin ixtisas – pedaqoji fəaliyyətinin formalaşması tələbələri fənn müəllimi və sinif rəhbəri kimi müəllim funksiyasının bütövlükdə yerinə yetirilməsinə hazırlamaq, eləcə də müəllim şəxsiyyətinin ixtisas-şəxsi keyfiyyətlərini formalaşdırmaqdan ibarətdir.

Tələbələrin pedaqoji təcrübəsi, peşə-pedaqoji bacarıqların psixoloji quruluşunu və məzmununu əks etdirən fəaliyyət təcrübəsi kimi təşkil olunmalıdır.[2]

Hal-hazırda Azərbaycan Respublikasında "Fizika müəllimi" ixtisası üzrə tədris planına əsasən pedaqoji təcrübənin səkkizinci semestrdə keçirilməsi nəzərdə tutulur. 14 həftə ərzində bir təcrübə keçirilir. Bu dövr ərzində tələbələr eyni zamanda əsas və tam orta məktəblərdə pedaqoji ustalığın əsaslarına yiyələnməlidirlər. Pedaqoji təcrübənin belə təşkili əsas ixtisas üzrə nəzəri təlimin həmçinin mütləq yerinə yetirilməsi zərurəti ilə əlaqədardır.

Təcrübə göstərir ki, pedaqoji təcrübənin II, III və IV kurslarda müxtəlif vaxtlarda qısamüddətli aparılması onun effektivliyini azaldır. Metodiki bacarıqların formalaşdırılması və inkişafı, uzun müddət ərzində müəyyən metodiki hərəkətlərin dəfələrlə və sistematik təkrarlanmasını tələb edən uzunmüddətli prosesdir[3]. Pedaqoji təcrübənin müddətinin qısaldılması və onun vəzifələrinin bir yerə yığılması mütəxəssis hazırlığının keyfiyyətinə mənfi təsir göstərir. Baxılan şəraitdə pedaqoji praktikanın vəzifələrinin birləşdirilməsini təşkil etmək, onun məzmununu optimallaşdırmaq, eləcə də tələbələrin ixtisas-pedaqoji fəaliyyətinin effektivliyini yüksəltmək lazımdır.

Pedaqoji təcrübənin təşkili zamanı biz iki paralel və ardıcıl yanaşmalardan istifadə etmişik. Paralel yanaşmada tələbələr eyni zamanda həm əsas, həm də tam orta məktəbdə dərs aparırlar. Pedaqoji fəaliyyətin ilk mərhələsində tələbələr öz davranışlarını yenidən qurmaq və müxtəlif yaş qruplarından olan şagirdlərlə ünsiyyət formasına yiyələnmək zərurəti qarşısında qalırlar. Bu isə heç də həmişə uğurla nəticələnmir. Təcrübə keçən tələbələr 6,7,8 və 9-11 siniflərdə dərslərin aparılması xüsusiyyətlərini dərk edə bilmirlər, yeniyetmə və yuxarı məktəb yaşının psixoloji xüsusiyyətlərini nəzərə almağı bacarmırlar, daha mürəkkəb tədris materialında və s. pis istiqamətlənirlər. rdıcıl yanaşmada təcrübənin əvvəlcə əsas, sonra isə tam orta məktəbdə keçirilməsi fərz olunur. Təcrübənin birinci mərhələsində tələbələrdə peşə bacarıqlarının formalaşması və psixoloji uyğunlaşmaları üçün dərslərin paralel siniflərdə keçirilməsi məqsədəuyğundur. İkinci mərhələdə tələbələr yuxarı siniflərdə dərs aparırlar. Ardıcıl yanaşma tələbələrə peşə fəaliyyətinə tədricən yiyələnməyə imkan verir. Bu zaman bacarıqların fasiləsiz formalaşması təmin olunur.

Universitet tələbələrinin pedaqoji praktika keçmələri zamanı, onların peşə fəaliyyətində altı komponent əsas götürülməlidir: 1) tanışlıq; 2) öyrənmə; 3) müşahidə və analiz; 4) təlim-tərbiyə prosesinin planlaşdırılması və keçirilməsi; 5) elmi-metodik iş; 6) təşkilati – metodik iş [4]

1. Tanışlıq tələbələrin tədris-peşə fəaliyyətinin vacib şərtidir. Bura fizika müəlliminin tədris – metodiki iş sistemi, dövlət standartları, müxtəlif yönümlü siniflərdə fizikanın tədrisinin xüsusiyyətləri və özünəməxsusluğu, fizika kabinəsindəki avadanlıqla, sinifdənkənar iş sistemi ilə tanışlıq daxildir.

2. Öyrənmədə tələbələrin uğurlu tədris-peşə fəaliyyətini təmin edəcək işlərin tədqiqi fərz olunur. Bu konkret tədris vəziyyətinin amillərinin əsas və tam orta məktəblərdə fizikanın tədrisi metodikasının xüsusiyyətlərinin, dərs vəsaitlərinin və proqramlarının öyrənilməsinə yönəlmişdir. Universitet təhsilli mütəxəssislər tədrisdə səviyyəli differensiallaşmanın həyata keçirilməsinə, məktəblərdə də fizikanı dərindən öyrənən siniflərdə işlərə hazırlanmalıdırlar. Fizika müəlliminin işinin öyrənilməsi və iş sisteminin ümumiləşdirilməsi, tələbəyə təcrübəli pedaqoqun yaradıcılıq laboratoriyasına daxil olmağa onun iş metod və üsullarını görməyə imkan verir.

Tədris materialının, onun çətinliyi baxımından öyrənilməsi və analizi, elmi təfəkkürün nəzəri və təcrübi metodlarının fiziki anlayış, qanun və nəzəriyyələrin tədrisi metodikasının xüsusiyyətlərinin öyrənilməsi, təcrübə keçən tələbənin pedaqoji fəaliyyətinin planlaşdırılması və həyata keçirilməsinə düşüncəli yanaşmaya təkan verir.

3. Təlim – tərbiyə prosesinin müşahidəsi və analizi tədris – peşə fəaliyyətinin məz¬mu¬¬nunun mühüm komponentini təşkil edir və aşağıdakı vacib məsələləri həll edir: nəzəri biliklərin dərinləşdirilməsi, onların konkretləşdirilməsi və ümumiləşdirilməsi, nəzəriyyə və təcrübənin in-

teqrasiyası və metodiki refleksiyanın formalaşdırılması[4]. Pedaqoji təcrübədə nəzəri və təcrübi hazırlıq arasında parçalanma daha aydın şəkildə özünü biruzə verir. Nəzəri biliklərin təcrübi fəaliyyətdə tətbiqi tələbələr üçün ən böyük çətinliyi yaradır. Deməli, pedaqoji təcrübənin məzmununda nəzəri seminarların, kollekvumların, məsləhətlərin təşkil olunması nəzərdə tutulmalıdır.

Tələbələrin dərslərinin qrup şəklində müzakirəsi, analiz və öz – özünü analiz, təcrübə keçən tələbələrin metodik səhvlərinin və onları aradan qaldırılması üsullarının vaxtında üzə çıxarılması tədris materialının daha dərindən mənimsənilməsinə və metodik bacarıqların formalaş¬dırıl¬-ma¬sının yaxşı nəticə verməsinə kömək edir.

4. Təlim – tərbiyə prosesinin planlaşdırılması və aparılması pedaqoji təcrübənin nüvəsini təşkil edir. Pedaqoji təcrübə müddəti ərzində tələbələr ən azı 14 dərs aparmalıdırlar. Tələbələrin dərsi həm quruluş, həm də istifadə olunan metodlar, vasitələr və təlim üsulları baxımından rəngarəngliyi ilə seçilməlidir.

Tələbələrdə metodik bacarıqların formalaşdırılmasını və təkmilləşdirilməsini dərsə bütöv sistem kimi baxmaq əsasında təşkil etmək lazımdır. Burada məzmun xüsusiyyətləri və təlim prosesi nəzərə alınmalıdır. Məzmun xüsusiyyətləri özünü onda biruzə verir ki, dərsin planlaşdırılması zamanı fiziki nəzəriyyənin quruluşuna uyğun bilik elementləri ayrılır. Metod, forma, təlim vasitələrini dərsin vahid toxumasında birləşdirmək, bütöv pedaqoji əsas yaratmaq xüsusilə vacibdir.

Keçirilmiş dərs müvafiq özü-özünün analizini tələb edir. Bu analiz, ehtiyat bacarıqlarını görməyə imkan verir ki, həmin ehtiyat sonrakı işlərdə nəzərə alına bilər. Yeni işə başlayan müəllim üçün, öz işini analiz edə bilməsi, apardığı işləri dərk etməsi vacibdir. Bu ona sinfin dəyişən iş şəraitində asan istiqamətlənməsinə kömək edər. Dərsdə tələbənin üstünlük təşkil edən peşə məsələsinin uğurlu həlli mövqeyindən onun fəaliyyətinin analizi və qiymətləndirilməsi aşağıdakı meyarlara uyğun aparılır: tələbənin fəaliyyətinin bütövlükdə və ayrı – ayrı hərəkət¬lə¬rinin məqsədəuyğunluğu; peşə hərəkətlərinin dərk edilməsi; verilən materialın və şagirdlərin təlimtərbiyəsinə yanaşmanın elmiliyi; fəaliyyətin nəticə verməsi; ünsiyyətdə və öyrədici hərəkətlərin yerinə yetirilməsində mədəniyyətin təzahürü [5].

5. Elmi – metodiki iş pedaqoji təcrübənin ayrılmaz hissəsidir. Tələbə təhsil prosesini tədqiq edərək, təkcə təhsil və peşə haqqında biliklərini nizamlamır, özünün pedaqoji dəst-xəttini peşə və şəxsi dünyagörüşünü formalaşdırır. Öz-özünə sistematik maariflənmədə tədqiqatın mövzusunu, əsas problemini müəyyən etmək çox vacibdir. Ona görə ki, bu tələbənin peşə marağının mərkəzi ola bilər.

6. Təşkilatı – metodiki iş pedaqoji təcrübənin məzmununun quruluşunda mühüm yer tutur. Pedaqoji təcrübənin keçirildiyi şəraitdə tələbənin işinin dəqiq təşkili lazımdır. Bura aşağıdakıların aparılması daxildir: nəzəri biliklərin aktuallaşdırılması, onları tədris təcrübəsində tətbiq edə bilmək bacarıqlarının formalaşdırılması məqsədi ilə fizikanın öyrədilməsi meto¬dikasının ümumi məsələləri üzrə nəzəri kollokviumların keçirilməsi; dərslərə hazırlığın effektivliyi üçün təcrübə rəhbəri ilə seminar və məsləhətlərin keçirilməsi; avadanlıq və lazım olan materialların dərsə hazırlanması üzrə məsləhətlər; keçirilmiş dərslərin qrup daxilində müzakirəsi; təşkilati məsələlərin həlli üçün universitetdə həftəlik görüşlər; pedaqoji təcrübənin yekunlarına əsasən pedaqoji şura; yekun sənədlərin kafedrada müdafiəsi.

Pedaqoji təcrübədə tələbələrin peşə fəaliyyətinin məzmunu, praktiki, texnoloji və tədqiqat fəaliyyəti sahələrində qarşıya qoyulmuş məsələlərin həllini təmin etməlidir.

Ədəbiyyat

1. “Ali (orta) ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübələrinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2008-ci il tarixli 221 saylı əsasnaməsi
2. Сластенин – М. Магистр // Пресс 2000.
3. Məmmədov, M.M, Qarayev C.İ., Pedaqoji təmayüllü ixtisaslar üzrə təcrübələrin həyata keçirilməsinə dair (Metodik tövsiyyə) / M.M. Məmmədov, C.İ. Qarayev. Gəncə: – 2018, – 38 s.
4. Языкова Н.В. Формирование профессионально – методической деятельности студентов педагогических факультетов иностранных языков. // Улан – Уде: Бурятское книжное издательство, –1994.
5. Решетников П.Е. Нетрадиционная технологическая система подготовки учителей: Рождение мастера – М. Владос, 2000.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 47-51
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 47-51
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4, с. 47-51

UOT

İbtidai sinif şagirdlərinin psixologiyasının formlaşamasında pedaqoqların yeri və rolu

Müəllif:

Kamal Camalov
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə elmlər doktoru, dosent
Azərbaycan Respublikasının Əməkdar müəllimi
Email: kamal.camalov@gmail.com

Açar sözlər:
pedaqoq; müəllim-şagird münasibətləri; ibtidai sinif şagirdlərinin dünyagörüşü; ehsas və qavrayış; şagird təcrübəsinin zənginləşdirilməsi

Annotasiya. Məqalədə ibtidai sinif şagirdlərinin psixologiyasının formalaşdırılmasında pedaqoqun yeri və rolu tədqiq-təhlil obyektinə çevrilmişdir. Qeyd edilir ki, hər bir müəllim ibtidai sinif şagirdinin psixologiyasını bilməyi özü üçün vacib şərtlərdən biri hesab etməlidir. Bunula yanaşı, hər bir müəllim uşağın hafizə xüsusiyyətini öyrənməklə diqqət psixologiyasını və uşaq diqqətinin xüsusiyyətini bilməlidir. Məqalədə o da vurğulanır ki, müəllim məktəblinin qavrayış dairəsini genişlətməli; onda müşahidə qabiliyyətini mümkün olduqca yaxşı inkişaf etdirməli; məktəblini planlı, məqsədyönlü və mütəşəkkil fəaliyyət kimi müşahidə bacarığını formalaşdırmalıdır. Məqalədə gəlinən nəticə onu göstərir ki, hər bir müəllim uşağın qavrayışını, hiss orqanlarını və ya hiss dərəcəsini nə qədər inkişaf etdirmiş olarsa, uşağın zehni inkişafını da bir o qədər yaxşı inkişaf etdirmiş olacaqdır. Müəllim təlimdə əyanilik prinsipindən istifadə etməklə şagirdlərin fəal müşahidəsini və fəal zehni fəaliyyətini möhkəmləndirəcəkdir. Eləcə də müəllim şagirdin təcrübəsini nə qədər zənginləşdirərsə, biliyini nə qədər artırarsa onun qavrayışı da bir o qədər cisim və hadisələrin cəhətlərini daha çox görməsinə zəmin yaradacaqdır.

The place and role of educators in the formation of the psychology of elementary school students

Author:

Kamal Jamalov
Nakhchivan Teachers Institute
Doctor of science in pedagogy, associate professor
Honored teacher of the Republic of Azerbaijan
Email: kamal.camalov@gmail.com

Key word:
educator-teacher; teacher-student relations; outlook of elementary school students; feeling and perception; enriching the student experience

Abstract. In the article, the place and role of the teacher in shaping the psychology of elementary school students has become the object of research and analysis. It is noted that every teacher should consider knowing the psychology of elementary school students as one of the important conditions for him. In addition, every teacher should know the psychology of attention and the characteristics of children's attention by studying the child's memory. The article also emphasizes that the teacher should expand the scope of the student's perception; then he should develop his observation ability as well as possible; the student should form the ability to observe as a planned, purposeful and organized activity. The conclusion reached in the article shows that the more each teacher has developed the child's perception, sense organs or sense level, the better he will have developed the child's mental development. The teacher will strengthen the active observation and active mental activity of the students by using the principle of visualization in the training. Likewise, the more the teacher enriches the student's experience, the more he increases his knowledge, the more his perception will create the basis for him to see more aspects of objects and events.

Место и роль педагогов в формировании психологии школьников начальных классов

Автор:

Кямал Джамалов
Нахчыванский институт учителей
Доктор наук по педагогике, доцент
Заслуженный учитель Азербайджанской Республики
Email: kamal.camalov@gmail.com

Ключевые слова:
педагог; отношения учитель-ученик; мировоззрение младших школьников; чувство и восприятие; обогащение студенческого опыта

Аннотация. В статье объектом исследования и анализа стали место и роль учителя в формировании психологии младших школьников. Отмечено, что знание психологии младших школьников каждый учитель должен считать одним из важных для себя условий. Кроме того, каждый педагог должен знать психологию внимания и особенности детского внимания, изучая память ребенка. В статье также подчеркивается, что учитель должен расширять рамки восприятия ученика; затем он должен как можно лучше развить свою наблюдательность; у школьника должно формироваться умение наблюдать как планомерную, целенаправленную и организованную деятельность. Вывод, сделанный в статье, показывает, что чем больше каждый педагог развил у ребенка восприятие, органы чувств или уровни чувств, тем лучше он разовьет психическое развитие ребенка. Преподаватель будет усиливать активное наблюдение и активную мыслительную деятельность учащихся, используя в обучении принцип наглядности. Точно так же, чем больше учитель обогащает опыт ученика, чем больше он увеличивает свои знания, тем больше его восприятие создает основу для того, чтобы он мог видеть больше аспектов объектов и событий.

Uşaqların tərbiyəsi, təhsili və təlimi üzərində rəhbərlik etmək üçün müəyyən yaşda uşağın təfəkküründün, hafizəsinin, diqqətinin, xəyalının, hissinin, iradəsinin, xüsusiyyətinin necə olduğunu, məktəb uşağının psixologiyasını bilmək vacib şərtlərdəndir.

Bu bilik olmasa müəllim öz işində tez-tez səhv edəcək, uşağa yanaşmaq üçün düzgün yol tapmayacaqdır. Məsələn, o uşaqların zehni qüvvələrini həddindən artıq qiymətləndirərək dərsini elə ifadə edər ki, uşaqlar heç bir şey anlamaz və ya elə tapşırıq verər ki, onu uşaqlar yerinə yetirə bilməzlər. Müəllim uşağın hafizəsinin xüsusiyyətini bilməsə, öyrənilən dərsi uşağın necə yadında saxlaya bilməsi üçün müəllim nəticə əldə edə bilməz. Müəllim diqqət psixologiyasını və uşaq diqqətinin xüsusiyyətini bilməsə dərs aparmaq onun üçün çox çətin olacaqdır. Pedaqoq, uşağın inkişafı ilə əlaqədar olaraq onun psixikasındakı dəyişikliklərin nədən ibarət olduğunu bilməlidir. Pedaqoq bu dəyişiklikləri nəzərə almasa o təlim-tərbiyə işini düzgün qura bilməz.

Uşaqların tərbiyəsinin qarşısında son dərəcə nəcib və şərəfli vəzifə durur. Uşaqlar biliyə həvəs göstərirlər; onlar enerji ilə doludur. Bu enerjini düzgün yola sövq etməli, hər uşağının qabiliyyətinin düzgün şəkildə inkişaf etməsinə yardım göstərməlidir; digər tərəfdən uşaqların həddindən artıq və birtərəfli maraqlanmasının, onlar üçün vaxtı çatmamış olan ciddi işlə məşğul olmasının qarşısını almalıdır.

Məktəblinin psixologiyasını bilmək pedaqoqun tərbiyə-təhsil işinin ən effektli bir hala salınmasına yardım edəcəkdir.

Psixologiyanın bütün sistematik kursunun ifadə edilməsi, əlbəttə pedaqogika kitabının vəzifəsi deyildir. Hər bir müəllim belə kursu xüsusi olaraq öyrənməlidir. Çünki insan şüuru predmetlərlə həyat hadisələri arasındakı mühüm rabitələri və qarşılıqlı münasibətləri əks etdirməyə qadirdir. Yəni insan şüuru bir çox şey üçün ümumi olan cəhəti qeyd etməyə, ulu Tanrının yaratdığı ana təbiətə və cəmiyyətdə qanuna uyğunluğu tapmağa qadirdir. İnsan, dərk etmiş olduğu qanunları, ümumiləşdirmələri rəhbər tutaraq hərəkət edir.

Hərəkətlər üçün məqsəd qoyulması və planlılıq mühitə şüurlu təsir etməyin şərtidir. İnsanın zəhmət əsnasında inkişaf edən psixi fəaliyyəti (alətlər, istehsal vəsaiti hazırlanıb işlədilməsi) ana təbiətə və cəmiyyətə qarşı şüurlu və məqsədli münasibətlərində meydana gəlmirmi? Deməli, ətraf varlığa qarşı münasibətində ifadə olunan insan psixikasının bu xüsusiyyətləri şüur adlanır. Şüur da ulu Tanrı tərəfindən yalnız insana verilibdir.

Ümumiyyətlə, böyük yaşlı insanların psixi fəaliyyəti kimi, uşağın da psixikası çox mürəkkəbdir və cürbəcür formalarda üzə çıxır. Həqiqətdə isə psixi hadisələrin üzə çıxması hər zaman bir-birilə sıxı surətdə əlaqədar olur: ehsas, qavrayış, təfəkkür, hafizə, hiss, xəyal, iradə bir-birindən ayrılıqda olmurlar. İnsan bu və ya başqa hissi keçirərkən, eyni zamanda fikirləşir, düşünür, onda arzu yaranır, o, hərəkət etməyə başlayır. Bundan sonra qavrayışların, ehsasların, fikirlərin, hisslərin, arzuların və sairənin arası kəsilməyən yeni-yeni axınları davam edir. Bundan sonra biz məktəbli uşağın psixoloji xarakteristikasını verməyə başlayaraq onun ayrı-ayrı psixi funksiyalarını gözdən keçirmək yolu ilə, yəni uşağın psixi fəaliyyətinin ayrı-ayrı formalarını gözdən keçirmək yolu ilə öyrənə bilərik. Eyni zamanda unutmamalıyıq ki, bu funksiyalar həqiqətdə bir-biri ilə ayrılmaz surətdə əlaqədardırlar və vəhdət halında yaşayırlar.

Üzərində işlədiyimiz məqalədə uşaqların tərbiyəsi, təhsili və təlimi üzərində rəhbərlik etmək üçün əsasən qavrayış və ehsas üzərində dayanacağıq (Hafizə və yadda saxlama; xəyal; təfəkkür və nitq; diqqət; maraq anlayışı və təlim işində onun rolu; iradə; xarakter anlayışından bir başqa məqaləmizdə bəhs edəcəyik).

Qavrayış (və yaxud – persepsiya) “cisim və hadisələrin hiss üzvlərinə bilavasitə təsiri nəticəsində onların insan beynində bütövlükdə inikasından ibarət olan psixi prosesdir” [1, s.234]. Yaxud belə də deyə bilərik: Qavrayış və ehsas cisimlərin, şeylərin, təbiətin bizim hiss orqanlarımıza təsir etməsinin nəticəsidir. Bunlar bizim şüurumuzdan asılı olmayaraq yaşayan xarici aləm obrazıdır. Qavrayışla ehsas arasındakı fərq bundan ibarətdir: predmetlər, şeylər, bunların məcmusu bizim şüurumuzda əks etdikdə biz buna qavrayış deyirik. Bizim qavrayışımız bizim mütabiq hiss orqanlarımıza təsir edən predmetin bir keyfiyyət cəhəti ilə kifayətlənirsə biz buna ehsas deyirik. İnsanda görmə, eşitmə, dad bilmə və iy bilmə ehsasları var. Bununla bərabər dəri ehsasları qruppası (məsələn, sürtünmə, temperatura, ağrı ehsasları), orqanik ehsasları (məsələn, susuzluq, aclıq) vəziyyət və hərəkət ehsasları da var.

Qavrayış və ehsas bizim təfəkkürümüzü bilavasitə xarici aləmlə əlaqədar edir. Real aləmin anlaşılması ehsas və qavrayışlardan başlanır. İnsan psixikasının inkişafında ən mühüm nöqtə müşahidə, yəni bizim hiss orqanlarımız vasitəsilə cisim və hadisələrin hiss edilməsi ilə qavranılmasıdır. Buna görə də müşahidə təlim prosesində çox böyük yer tutur. Uşağın qavrayış və hiss dərəcəsi nə qədər geniş isə, bunların keyfiyyəti nə qədər yaxşı isə, uşağın hiss orqanları nə qədər artıq inkişaf etmişsə, uşağın zehni inkişafı da qədər yaxşı gedir. Məktəbin qarşısında duran vəzifə – məktəblinin qavrayış dairəsini genişlətmək, onda müşahidə qabiliyyətini mümkün olduqca yaxşı inkişaf etdirmək, demək onun hiss orqanlarını inkişaf etdirmək, onda "sensor kultura" (sensus – hiss deməkdir) yaratmaqdır. Bu vəzifə uşaqlarla aparılan bütün təlim-tərbiyə işində həll edilir. "İnsanın insanı qavraması müəyyən spesifik xüsusiyyətlərə malik olduğundan onu qavrayışın xüsusi növü kimi ayırd edirlər" [2, s.271]. Xarici hiss orqanları artıq məktəbə qədər yaşdan inkişaf edir. Pedaqoq tərəfindən uşaqların görmə və eşitmə orqanlarına böyük diqqət yetirilməlidir.

Professor Ramiz Əliyev "hərəkət qavrayışında əsas rolu görmə və hərəkət analizatorları oynayır" [3, s.174] – deyir. Məktəblilərdə uzağı görməmə xəstəliyinin inkişafı çox böyük qorxu törədə bilər. Buna görə də bunun qarşısı alınmalıdır. Uşağın görmə duyğusuna ciddi diqqət yetirilməlidir. Uşaqların görmə qüvvəsindən asılı olaraq onların sinifdə yerləşdirilməsi çox mühümdür. Pis işıq şəraitində uşaqları kitab və ya başqa şey (jurnal, qəzet və s.) oxumağa qoymamalıdır. Uşaqlara alışdırılmalıdır ki, kitab və ya dəftəri gözlərindən 30 sm-dən yaxında tutmasınlar, xırda şiriftlə çap olunmuş kitabların oxunmasına yol verməməlidir. Uzaqdan görən uşaqlar kitab oxumaqda və yazıda başqalarından tez yorulurlar. Müəllim tapşırıq verərkən bunu nəzərə almalıdır. Xüsusilə əyani tədris, rəsm məşğələsi uşaqların görmə (habelə eşitmə) hisslərinin inkişafına yaxşı təsir göstərir və eləcə də "tədris prosesi təfəkkür müstəqilliyinin inkişafına, düşünmə, məlumatları ümumiləşdirib təhlil etmə məharəti aşılamağa köməklik etməlidir" [4, s.165].

Eşitmə hissi üzrə uşaqlarda çox böyük fərqlər vardır; tonun yüksək və alçaqlığını duymaqda bu fərq daha da böyükdür. Yaş artdıqca bu bacarıq da artır. Bütün uşaqlarda az miqdar müstəsna olmaqla musiqi və nəğmə məşqləri sayəsində tonun yüksək-alçaqlığını, intervalları seçmək, takt hissi və melodiya hafizəsi çox müvəffəqiyyətlə inkişaf edə bilər.

Uşaqları sinifdə yığıncaqda oturdurkən bunların eşitmə hisslərinin kəskinliyini (səsi eşitdikləri məsafəni) nəzərə almalıdır.

7-10 (yaxud 8-11) yaşlı uşaqlarda qavrayış hissində aşağıdakı xüsusiyyətlər olur: bu yaşda olan uşaqlar üçün qavranan cismin mühüm xassələrini seçmək çətindir. Onlar qavranılan cisimlərin təsvirini verə bilər, cisimləri və bunların əlamətlərin təsvirini verə bilər, ancaq böyüklərin köməyi olmadan bu təsviri sistematik verə bilməz və adlarını sistematik söyləyə bilməzlər. Onlar qavranılan cisimlər arasında başlıca olaraq zahiri əlaqələrini və ya bunların əlamətlərini təyin edə bilərlər, ancaq qavranılan şeyi daxili əlaqələrinə görə birləşdirmək bunlar üçün hələ çətindir.

Ən kiçik məktəblilər qavrayış zamanında cisimləri və hərəkətləri seçirlər. Onlar cisimlərin daha parlaq xassələrini də asanlıqla mənimsəyirlər. Uşaqlar böyüdükcə, onlar cisimlərin cürbəcür və ətraflı əlamətlərini də o qədər çox və yaxşı mənimsəyirlər. Uşağın danışığında bir çox zərf və söz əmələ gəlməsi göstərir ki, uşaq cisimləri mənimsəyir və bunlar arasındakı münasibətə diqqət yetirir. Əlbəttə, bu yaşda uşaqların hamısı cisimləri bərabər şəkildə mənimsəyirlər və cürbəcür yaş dərəcələri arasındakı fərq hər zaman belə kəskin surətdə qarşıya çıxır. Buna baxmayaraq biz yenə də qavrayışın ümumi inkişafın xətdini belə təyin edə bilərik: bu xətt bir-biri ilə əlaqədar olmayan və parçalanmış ayrı-ayrı cisimlərin qavranılmasından, cisimlər arasındakı münasibətlərin düşüncəli surətdə mənimsənilməsinə doğru gedir. "Kiçik məktəblilər, xüsusən I-II sinif şagirdləri çox asanlıqla təsirə məruz qalır, təlqinə qapılırlar. Nəzarətsiz buraxılan uşaqlarda bu hal özünü daha qabarıq göstərir" [5, s.247].

Məktəb, şagirdlərin biliklərini zənginləşdirərək onların qavrayışının yüksək formasını inkişaf etdirir. Bu zaman tək-tək faktlar ümumi bir şeyin xüsusi hissəsi kimi mənimsənə bilər. Müşahidə zamanında məktəblilərdə bacarıq yaranmalıdır. Məsələn, onlarda müşahidə zamanı təcrübə bacarığı əmələ gəlməli və onlar hər hansı bir halda müşahidə edilən faktlarda qarşıya çıxan nəticəni ümumi qanunauyğunluğu bütün hallara keçirmək lazım gəldikdə buna müstəqil olaraq

hər şeyi aid etməyi bacarmalıdırlar. Çox təəssüf ki, "bəzi müəllimlər, bütün nüfuzlarını uşaqlarla az danışmaq, onların yanında heykəl kimi gəzişərək, itə sümük atan kimi tapşırıqlar vermək, sonradan, bu tapşırıqlar müvəffəqiyyətsiz icra olunanda hirslənib özündən çıxmaq üzərində qurulur. Bu şagirdlərin təbii meyllərini əzmək və zorla onlarda məşğələlərə qarşı nifrət oyatmaqdan başqa bir şey deyildir. Sən nəsən – bütsən? Sənin dilin var – və sən danışmırsan? Sənin qulağın var – və sən eşitmirsən? Sənin gözlərin var – və sən görmürsən? Sən istəyirsən ki, sənə təzim etsinlər? Əgər sən büt olmaqdan əl çəkməsən öz şagirdlərin üçün Allah ola bilməzsən; ata kimi (və ya ana kimi – K.C.) hərəkət etməyi öyrənməsən sən müəllimlik işini apara bilməzsən" [6, s.318].

Müəllim, həmçinin pedaqoji nəticələr üçün uşaqlarda məkan və zaman qavrayışının xüsusiyyətini də qeyd etməlidir. "Zamandan baş çıxarmaq insanda beynin qabıq şöbələrinin köməyi ilə həyata keçirilir" [7, s.292]. 6-8 (və ya 7-9) yaşlı uşaqlar zaman arasındakı uzun məsafəni zəif başa düşürlər. Praktika göstərir ki, I və II siniflərin uşaqları əsr və il anlayışını çətin mənimsəyirlər, demək onlar xronoloji materialı da çətin mənimsəyirlər. Yaxud, "vaxtı, fasiləni qavramaqda bir qədər çətinlik çəkirlər" [8, səh.109]. III və IV siniflərin uşaqlarına da həddindən artıq xronoloji material vermək olmaz, onlara xatırlandırma işi ilə yadda saxlamaq hər yol ilə asanlaşdırmalıdır.

Məkan (fəza) formalarının mənimsənilməsinə gəlincə dərslərdə, xüsusilə arifmetika tədrisində kifayət qədər əyanilik tətbiq edilsə ibtidai məktəb yaşında olan uşaqlarda məkanı yaxşı başa düşmək bacarığını yaxşı inkişaf etdirmək olar. Çünki "qavramanın hələ tam sistemləşdirilməmiş fəaliyyəti təlimdə əyani vəsaitlərdən istifadə zərurəti yaradır" [9, s.263].

Müşahidə edilən cisimlərdən alınan təəssürün parlaq və intensiv (şiddətli) olması ehsas keyfiyyətinin və növ qavrayış bacarığı keyfiyyətinin yaxşılaşdırılmasına yardım göstərir. Yan Amos Komenski yazır ki, "Güzgünün şeyləri yaxşı əks etdirməsi üçün əvvələn şeylərin kifayət qədər sıx və aydın olması və xarici duyğuların inikası sahəsində yerləşməsi lazımdır. Axı duman və duman kimi seyrək tərkibli şeylər özündən az şüa əks etdirir və güzgüdə çox zəif əks olunur; mövcud olmayan şeylər isə əks olunmur. Beləliklə, öyrənmək üçün uşaqlara tərtib edilən (Kursiv bizimdir – K.C.) şeylər duyğulara və xəyala yaxşı təsir edən sıx həqiqi, faydalı şeylər olsun, qoy şeylərin kölgələri olmasın. Şeylərin özü isə bizdə yalnız o zaman təsir oyadacaqlar ki, onlar duyğu tərədəcək yaxın məsafəyə gətirilsinlər. Buna görə də mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək, qoy müəllimlər üçün qızıl qayda olsun..." [6, səh.176]. Buradan da əyani vəsaitə veriləcək müəyyən tələb meydana gəlir. Məsələn, şəkildə cisimlərin aydın və həqiqətə uyğun verilməsi tələbi. Deyildiyi kimi, "sadəcə olaraq baxmaq yox, görə bilmək lazımdır" [10, səh.24].

Ehsasın aydınlığını qüvvətləndirmək üçün olan mühüm vəzifəsindən biri bu ehsasları əmələ gətirən müşahidələrin təkrar edilməsidir. Müəllim tədris işi təşkilində bunu hər zaman nəzərdə tutmalıdır. Bir növ ehsas digər növ ehsasla tamamlandıqda daha da aydın olurlar. Muzeydə hər bir vətəndaş daha çox maraq kəsb edən eksponata baxdıqda ona əlini də vurmaq istəyir, yəni ona toxunmaq, görmə ehsasına bir də toxunma ehsasını əlavə edir. Burada eksponatın xarab olmasına yol verməmək üçün "Əlinizi vurmayın" lövhəsi asılıdır. Bəzi muzeylər, cisimləri öyrənərkən cürbəcür ehsasların birləşməsinin pedaqoji effektini nəzərə alaraq xüsusi şöbələr təşkil edirlər və burada cisimlərə əl vurulmasına icazə verilir. Biz də bu hadisəni nəzərə alaraq təklif irəli sürürük ki, məktəbdə mövzunun məzmununa görə, mümkün olduqca hər zaman müəllim tərəfindən cismi söz vasitəsilə ifadə edilməsindən alınan eşitmə hissləri həmin cisimlərin göstərilməsi ilə, şəkillərin çəkilməsi ilə, təcrübələr keçirilməsi ilə, toxunmaq, iyini, dadını bilmək mümkün olan materialların paylanması ilə tamamlansın. Aydın qavrayışın zəruri şərti hiss orqanlarının və nerv sistemasının sağlam vəziyyətdə olması, insanın beynində müvafiq orqanların normal işlənməsidir. Buna görə də bu nöqteyi-nəzərdən insanın orqanizminə hijyenik nəzərdən baxılması, hiss orqanlarının xəstələnməsinin qarşısının alınması bu qədər mühümdür.

Ehsas və qavrayışın keyfiyyəti yalnız qavranılan şeyi bilavasitə seyr etməklə, onlara bilavasitə toxunmaqla təyin edildiyini zənn etmək düzgün olmazdı. İnsanın əvvəlki təcrübəsi qavrayışın keyfiyyətinə təsir edir. Hər bir mütəxəssis öz sahəsində hər şeyi, həmən ixtisasdan başı çıxmayan və ya anlamayan adamdan daha incə qavrayır, müşahidə zamanı daha çox şeyi daha dərindən seçir. Hiss orqanlarına məşq etdirilməsinin

çox böyük əhəmiyyəti var. "Payız günü", "Yağışdan sonra", "Ağcaqayın meşəsi", "Qızıl payız", "Yay axşamı", "Tayalar" və s. kimi əsərlərində təbiətin, hava və işığın müxtəlif effektlərini daha dolğun göstərən Levitan İsaak İliç (1860-1900) hələ balaca yaşlarından çox vaxt yalnız naturadan kiçik etüdlər götürmüşdür. Sonra o, öz emalatxanasında böyük mənzərə yaradaraq kölgələrin formasını, rəngini və mövqeyini elə vermişdir ki, bu böyük mənzərənin özü bilavasitə naturadan alınmış kimi görünür. Mənzərə çəkməkdə şöhrət qazanan Levitanda qavrayışın belə olmasına səbəb onun görmə ehsaslarının müstəsna dərəcədə inkişaf etmiş olması deyilmidir?

İnsanda ehsas və qavrayış sadəcə hiss aktları deyildir; bunlar fikrin işləməsi ilə bərabər gedir. Bunların inkişafı üçün mütəşəkkil hazırlıq işləri görülə bilər. Bu hazırlıq səbəbi ilə də o daha parlaq, daha aydın, qüvvətli və tam olaraq öyrənilən cismin daha çox cəhətini əhatə edir. Hər kəsə məlumdur ki, mütəşəkkil ehsasa nisbətən təsadüfi ehsaslar insanın zehnini daha az zənginləşdirir, insanın inkişafı üçün daha az şey verir.

İnsan ulu Tanrının yaratdığı ana təbiəti öyrənməklə ona təsir edir. İnsan, öyrənilən hadisəni yeni şəraitə qoyur, təbiət şeylərini dəyişdirir və sairə. Təbiətə edilən bu təsir ehsas və qavrayışın keyfiyyətini yoxlamağa imkan verir və buna görə də mükəmməlləşməyə səbəb olur.

Sonda belə nəticəyə gəlirik:

- hər bir müəllim ibtidai sinif şagirdinin psixologiyasını bilməyi vacib şərtlərdən biri hesab etməlidir;

- hər bir müəllim uşağın hafizə xüsusiyyətini öyrənməlidir;

- hər bir müəllim diqqət psixologiyasını və uşaq diqqətinin xüsusiyyətini bilməlidir;

- hər bir müəllim məktəblinin qavrayış dairəsini genişlətməli, onda müşahidə qabiliyyətini mümkün olduqca yaxşı inkişaf etdirməlidir;

- hər bir müəllim məktəblini planlı, məqsədyönlü və mütəşəkkil fəaliyyət kimi müşahidə bacarığını formalaşdırmalıdır;

- hər bir müəllim uşağın qavrayışını, hiss orqanlarını və ya hiss dərəcəsini nə qədər inkişaf etdirmiş olarsa, uşağın zehni inkişafını da bir o qədər yaxşı inkişaf etdirmiş olacaqdır;

- hər bir müəllim təlimdə əyanilik prinsipindən istifadə etməklə şagirdlərin fəal müşahidəsini və fəal zehni fəaliyyətini möhkəmləndirəcəkdir;

- hər bir müəllim şagirdin təcrübəsini nə qədər zənginləşdirərsə, biliyini nə qədər artırarsa onun qavrayışı da bir o qədər cisim və hadisələrin cəhətlərini daha çox görməsinə zəmin yaradacaqdır.

Ədəbiyyat

1. Psixologiya (Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə). - Naxçıvan: Əcəmi, - 2017, - 608 s.
2. Bayramov, Ə., Əlizadə. Ə. Psixologiya (Dərslik) / Ə.Bayramov, Ə.Əlizadə. - Bakı: Çinar-çap, - 2009, - 620 s.
3. Əliyev, R. Psixologiya / R.Əliyev, - Bakı: Nurlan, - 2008, - 352 s.
4. Həsənli O. Təhsilin müasir psixoloji problemləri / Həsənli O. - Naxçıvan: Əcəmi, - 2017, - 416 s.
5. Həsənli, O., Camalov K. Sosial psixopedagikada istedadlı uşaqlar problemi / Həsənli, O., Camalov K. - Bakı: Elm və təhsil, - 2011, - 392 s.
6. Yan Amos Komenski. Böyük didaktika. - Bakı: Elm və təhsil, - 2012, - 388 s.
7. Ümumi psixologiya (Prof. A.V.Petrovskinin redaktorluğu ilə). - Bakı: Maarif, - 1982, - 496 s.
8. Məmmədov A. Təlimin psixoloji əsasları / A.Məmmədov, - Bakı: Maarif, - 1993, - 296 s.
9. Əmrahlı, Limunət, Rzayeva, Nurangiz. Uşaq psixologiyası (Dərs vəsaiti). L.Əmrahlı, N.Rzayeva, - Bakı: Nurlar, - 2015, - 344 s.
10. Əliyeva G. Psixologiya (Dərslik) / G. Əliyeva, - Bakı: ADPU, - 2015, 172 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 52-59
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 52-59
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4, с. 52-59

UOT

Fasiləsiz pedaqoji təhsil sistemində magistratura təhsilinin yeri və rolu

Müəllif:

Lalə Allahverdiyeva
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: lale.allahverdiyeva.@bk.ru

Açar sözlər:
fasiləsiz təhsil, Avropa meyarları, magistratura səviyyəsi, çoxpilləli təhsil, sərbəst yaradıcılıq

Annotasiya. Məqalədə çoxpilləli təhsil mühitində fasiləsiz təhsil sistemində magistratura təhsilinin yeri və rolu, bu inkişaf xüsusiyyətləri təhlil edilir. Yeniləşməkdə olan Avropada təhsilin məqsəd və vəzifələrinin əhatə dairəsi genişlənmişdir. Avropada gedən sosial, siyasi və iqtisadi dəyişikliklər təhsilin qarşısına ümumavropa əməkdaşlığı şəraitində, istehsal məhsulları və informasiya mübadiləsi sistemində yaşayacaq, müxtəlif ittifaq, birlik, təşkilat vasitəsi ilə əməkdaşlıq edə biləcək insan hazırlamaq vəzifəsi qoyulmuşdur. Bu məqsədlə ölkəmizdə fasiləsiz pedaqoji təhsilin tərkib hissəsi olan magistratura təhsilinin təşkili məqsədilə müvafiq qərarlar qəbul edilmiş, təhsilin bu səviyyəsinin Avropa standartlarına uyğun hazırlanması məqsədilə müvafiq addımlar atılmışdır. Fasiləsiz təhsil anlayışının təhlilinə dair elmi-pedaqoji ədəbiyyatda yer alan fikirlərə nəzər salınmış, fasiləsiz təhsilin təmin edilməsində magistratura səviyyəsinin rolu araşdırılmışdır.

Place and role of master's education in continuous pedagogical education system

Author:

Lale Allahverdiyeva
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: lale.allahverdiyeva.@bk.ru

Key word:
continuing education, European criteria, master's level, multilevel education, free creativity

Abstract. The article analyzes the features of the development of master's education in the system of continuous education in a multilevel educational environment. The range of goals and objectives of education in modernizing Europe has expanded. The socio-political and economic changes taking place in Europe have set the task of preparing people who will live in conditions of pan-European cooperation, in the system of production of products and information exchange, capable of cooperating through various unions, unions. and organizations. To this end, appropriate decisions have been made on the organization of training in the magistracy, which is part of continuous pedagogical education in our country, and appropriate steps have been taken to prepare this level of education according to European standards. The ideas contained in the scientific and pedagogical literature on the analysis of the concept of lifelong education are considered, and the role of the magistracy in providing lifelong education is also investigated.

Место и роль магистратуры в системе непрерывного педагогического образования

Автор:

Лале Аллахвердиева
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail: lale.allahverdiyeva.@bk.ru

Ключевые слова:
непрерывное образование, европейские критерии, степень магистра, многоуровневое образование, свободное творчество

Аннотация. В статье анализируются место и роль магистратуры в системе непрерывного образования в многоуровневой образовательной среде, особенности ее развития. В развивающейся Европе расширился круг целей и задач образования. Социальные, политические и экономические изменения, происходящие в Европе перед образованием поставлена задача подготовить человека, который сможет жить в условиях общеевропейского сотрудничества, в системе производственного обмена продуктами и информацией, сотрудничать через различные союзы, объединения, организации. С этой целью были приняты соответствующие решения в целях организации магистерского образования, являющегося составной частью непрерывного педагогического образования в нашей стране, были предприняты соответствующие шаги для подготовки этого уровня образования в соответствии с европейскими стандартами. Рассмотрены идеи, содержащиеся в научно-педагогической литературе по анализу понятия непрерывного образования, исследована роль уровня магистратуры в обеспечении непрерывного образования.

Müasir dünyada baş verən qloballaşma prosesi dünya dövlətləri kimi, Azərbaycanda da çoxpilləli təhsil sisteminin yaranmasını zəruri etmişdir. Məhz bu zərurət vahid təhsil məkanında təhsilin əsas məqsədləri, məzmunu və nəticələrinin yaradılmasını şərtləndirmişdir.

Təhsil sahəsində milli maraqları əks etdirən və dünya ictimaiyyətinə təqdim edən Azərbaycan Respublikasının təhsil siyasəti, eyni zamanda, təhsil sistemində əhəmiyyətli dəyişiklikləri zəruri edən dünya inkişafının ümumi tendensiyalarını nəzərə alaraq formalaşmışdır.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da təhsilin bütün səviyyələrinə, eləcə də ali təhsilə münasibətdə dövlətin və hökumətin rolunun güclənməsi baş vermişdir.

Çoxpilləli təhsil dedikdə, insanın bütün ömrü boyu aldığı təhsil başa düşülür. Bu müddət ərzində o, özünün təhsilə olan tələbatını reallaşdırmaq üçün üsul və metodlar əldə etmiş olur.

Təhsil kəsilməz və dinamik proses olduğundan onun qarşısında duran məqsəd və vəzifələr daim dəyişir. Ona görə də dünyanın inkişaf etmiş ölkələri mütəmadi olaraq öz təhsil sistemlərini yeniləşdirməyə çalışırlar. Hər bir dövlət çalışır ki, YUNESKO-nun təhsillə bağlı tələblərinə cavab verən sistem yaratsın. Müasir təhsil insanlara bilik verməklə yanaşı, onlara kəşf etmək, birgə yaşamaq və yaşama mədəniyyəti öyrətməlidir. Bu ümumi tələblərlə yanaşı, hər bir dövlətin təhsillə bağlı xüsusi məqsədi var.

Müasir dünya təhsili üçün olduqca vacib olan meyllər müşahidə olunur:

1) elit təhsildən hamı üçün yüksək ixtisaslı təhsilə keçilməsi;

2) təhsil sahəsində dövlətlərarası əməkdaşlığın güclənməsi;

3) təhsilin humanitarlaşdırılması;

4) milli adət və ənənələri, milli xüsusiyyətləri saxlamaqla innovasiyaların geniş yayılması.

Yeniləşməkdə olan Avropada təhsilin məqsəd və vəzifələrinin əhatə dairəsi genişlənmişdir. Avropada gedən sosial, siyasi və iqtisadi dəyişikliklər təhsilin qarşısına ümumavropa əməkdaşlığı şəraitində, istehsal məhsulları və informasiya mübadiləsi sistemində yaşayacaq, müxtəlif ittifaq, birlik, təşkilat vasitəsi ilə əməkdaşlıq edə biləcək insan hazırlamaq vəzifəsi qoyulmuşdur.

"Avropa eyniliyini", "vətəndaşlığını", "təhsildə Avropa meyarı"nı bərqərar etmək meyli təhsil və mədəniyyət sahələrində bir sıra Avropa layihələrinin həyata keçirilməsinə səbəb oldu. Birlik ideyası 1990-cı illərdən Qərbi Avropa ölkələrində həyata keçirilən təhsil islahatlarının əsasını təşkil etdi.

1993-cü ilin noyabrından qüvvədə olan Maastrix müqaviləsinə görə, Birlik təhsildə Avropa meyarlarını iştirakçı dövlətlərin dillərini öyrətməklə inkişaf etdirmək məqsədi güdür, müəllin və tələbələrin mobilliyinin yüksəldilməsinə zəmin yaradır, diplomların qarşılıqlı tanınmasını və təhsilin pillələrini müəyyən edir, Avropa ölkələrinin təhsil sistemlərindəki problemlərin müzakirəsini və təcrübə mübadiləsini nəzərdə tutur.

Respublikamızda elmin və təhsilin intibah dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hakimiyyətinin birinci və ikinci mərhələsində ümummilli lider Azərbaycan təhsilinin, elminin inkişafı məqsədilə çoxsaylı tədbirlər görmüş, kadr hazırlığı prosesində düşünülmüş, planlı addımlar atmışdır. Görkəmli dövlət xadimi ölkəyə birinci hakimiyyəti dövründə Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın maddl-intellektual resurslarının gücləndirilməsinə, bir neçə on ildən sonra dövlət müstəqilliyini elan edəcək Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdi.

Respublikamızda çoxpilləli təhsilə keçid müstəqillik dövrünün ilk illərinə təsadüf edir. Azərbaycan Respublikasının Təhsil Nazirinin 07 may 1993-cü il tarixli, 399 nömrəli əmri ilə "Azərbaycan Respublikasında ali təhsilin çoxpilləli strukturu haqqında müvəqqəti əsasnamə" [1] təsdiq edilmişdir. Əsasnamənin "Ümumi qaydalar"ında qeyd olunmuşdur:

1. Azərbaycan Respublikasında çoxpilləli ali təhsil strukturunun təsdiq edilməsi xalq təsərrüfatının tələbatına əsasən mütəxəssisin elmi, professional və ümumi hazırlığını dünya standartlarına uyğun təmin edir.

2. Bu strukturda inkişaf etmiş ölkələrdə ali təhsilin inkişaf təcrübəsindən, YUNESKO tərəfindən qəbul edilmiş təhsilin Beynəlxalq standartlarından istifadə olunur.

3. Hal-hazırda təhsil alan tələbələr üçün mövcud təhsil sistemi saxlanılmaqla, yeni çoxpilləli təhsil sisteminə keçid 1993-1994-cü ildən başlanır.

Ali təhsilin strukturunun xüsusiyyətlərində

göstərildiyi kimi, Azərbaycan Respublikası Ali təhsil tədris müəssisələrinin kadr potensialını, maddi-texniki bazasını nəzərə almaqla ixtisasların xüsusiyyətlərindən asılı olaraq üçpilləli (bakalavr, magistratura, doktorantura) təhsil həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 fevral 1997-ci il 15 №-li qərarı ilə "Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə" [2] təsdiq edilmişdir. Əsasnamənin qəbul edilməsində məqsəd çoxpilləli ali təhsil sisteminin ikinci pilləsi olan magistraturada müəyyən ixtisas üzrə sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlanması olmuşdur. Əsasnamədə qeyd olunur ki, magistr hazırlığı yüksək ixtisaslı elmi-pedaqoji kadrları, müasir tədris və elmi-tədqiqat laboratoriyaları, tədris və fənn kabinələri, zəngin elmi kitabxanası, tədris-təcrübə və istehsalat sahələri, elmi-tədqiqat institutları olan ali təhsil müəssisələrində ali təhsilin Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş təhsil istiqaməti və ixtisasları üzrə açılır.

M.Mahmudov yazır ki, 1990-cı illərin başlanğıcından (Boloniya Bəyannaməsinin qəbulundan hələ xeyli əvvəl, 1992-ci ildə "Təhsil haqqında" Qanunun qəbulundan sonra) Azərbaycan təhsil sistemində çoxpilləli hazırlığın reallaşdırma imkanı reqlamentləşdirilmişdir. İlk anda nəzərdə tutulurdu ki, ali təhsil sistemində çoxpilləli sistem mövcud ola bilər. Çoxpilləli sistem dedikdə, ümumidən xüsusiyə hərəkət nəzərdə tutulur, yəni əvvəlcə tələbə hər hansı bir istiqamət üzrə geniş təhsil almalı, sonra isə tədricən proqramlar və ixtisaslar vasitəsilə daha dar hazırlığa keçməlidir. İxtisas üzrə hazırlıq dedikdə peşə fəaliyyətinin dar konkret sahəsinə keçid başa düşülür [3, s.11].

Ölkəmizdə təhsil sisteminin böyük qurucusu kimi qiymətləndirilən ümummilli lider Heydər 15 iyun 1999-cu il tarixində təsdiqlədiyi "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" da [4] təhsil sahəsində islahatların məhz tədricən, mərhələlərlə həyata keçirilməsi, Azərbaycanda təhsil standartlarının yeni dövrün şərtlərinə uyğunlaşdırılması prosesini təmin etdi. "Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı"nın əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə, mərhələlərlə aparılması tarixən formalaşmış zəngin, mütərəqqi, ənənələrin, təcrübənin qorunub saxlanılması, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiy-yətləri ilə qovuşan prinsiplərinin tətbiqi məsələləri təşkil edirdi.

Azərbaycanda ali təhsilin inkişafı ilə bağlı əldə edilən ən ciddi nailiyyətlər sırasında respublikamızın təhsil sahəsində Boloniya prosesinə qoşulması faktının özünəməxsus yeri var. Azərbaycan 19 noyabr 2005-ci il tarixdə Boloniya prosesinə qoşulmaqla faktiki olaraq, təhsil sistemimizdə aparılacaq islahatların əsas istiqamətlərini müəyyənləşdirmiş, Təhsil Nazirliyi, Avropanın norma və standartlarına müvafiq olaraq ali təhsil sahəsində qanunvericiliyin təkmilləşdi-rilməsi, bu sektorda islahatların aparılması, vahid Avropa təhsil məkanına inteqrasiyasını sürətləndirmək məqsədilə informasiya və təcrübə mübadiləsi kimi öhdəliklər götürmüşdür.

H.Əhmədovun qeyd etdiyi kimi, təhsildə "Avropa standartları" var və bu standartlar "Boloniya prosesi" çərçivəsində formalaşır. 1999-cu ildə 29 Avropa ölkəsinin təhsil nazirləri 2010-cu ilə qədər konsensus və əməkdaşlıq içərisində Avropa Ali Təhsil Zonasını yaratmaq məqsədi ilə Boloniya deklarasiyasını imzalamışlar. Boloniya Deklorasiyasının məqsədləri asanlıqla başa düşülən və müqayisə edilə bilən dərəcələr sisteminin adaptasiya edilməsi, iki əsas pillə üzərində qurulan bir sistemin adaptasiya edilməsi (bakalavr – magistratura), kredit sisteminin qurulması, keyfiyyət təminatı kimi Avropa əməkdaşlığının təqdimi, ali təhsil proqramlarında Avropa aspektlərinin dəstəklənməsi şəklindədir [5, s.149].

Azərbaycanda təhsil islahatlarının beynəlxalq təcrübəyə uyğun səmərəli həyata keçirilməsini təmin etmək məqsədi ilə bu prosesə Dünya Bankının mütəxəssisləri cəlb edilmişdir. Bununla əlaqədar islahat proqramının təsdiqindən az sonra, 1999-cu il iyunun 29-da Azərbaycan hökuməti ilə Dünya Bankının beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında saziş" imzalanmış və bu sənəd dövlət başçısının Sərəncamı ilə təsdiq edilmişdir.

Ulu öndər Heydər Əliyevin 6 mart 2000-ci il tarixində "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə"[6] Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır.

Azərbaycan ali məktəblərində çoxpilləli sistem sistemə keçid zamanı alınmış biliklərin,

bacarıqların və vərdişlərin terminlərində ilk öncə bakalavrlar, magistrlər və fəlsəfə doktorları hazırlığının əsas vəzifələri səlis şəkildə şərh olunmuşdur. Əgər bakalavr hazırlığının başlıca vəzifələri hazırlığın geniş profili üzrə müəyyən bilik həcminə nail olmaq və onların minimal bacarıqlarının əldə edilməsindən ibarətdirsə, onda magistraturada oxumaq çox zaman ixtisaslaşdırılmış biliklərin mümkün vərdiş və peşə fəaliyətinin aşılanmasına yönəlmişdir. Müvafiq olaraq fəlsəfə doktorları dərin ixtisaslaşdırılmış biliklərlə yanaşı, həm də yeni ideyalar generasiya etməli, formalaşdırmalı və reallaşdırmalıdır [3, s.12].

Boloniya Bəyannaməsində "bakalavr-magistr" çoxpilləli təhsilin məzmununun layihələndiril-məsində metodoloji əsas kimi müəyyən edilmiş səriştəli yanaşma tələb edir. Bu isə bakalavr və magistr hazırlığı üçün yeni nəslin yeni dövlət standartlarının yaradılmasını zəruriləşdirdi. Bu məsələ öz həllini, xüsusilə də təhsil proqramlarının psixoloji, pedaqoji və xüsusi bloklarının məzmununa yenidən baxılmasını, orada peşə fəaliyyət üsullarının, informasiya-kommunikasiya texnologiyalarının məzmununun yenilənməsini tələb edirdi. Çoxpilləli təhsilin bu cür başa düşülməsi müəllim hazırlığı-nın məzmununa yenidən baxılmasını, yəni respublikada, regionda yaranmış təhsil vəziyyətindən asılı olaraq yeni mexanizmlər hesabına öz təcrübəsini daim zənginləşdirməyə imkan verən bacarıqların formalaşmasını tələb edir.

Boloniya prosesinə qoşulmaqla mütəxəssis hazırlığının artıq öz təşəkkülünü tapmış ənənəvi modeldən çoxpilləli "bakalavr-magistr" modelinə keçid alması bir sıra problemləri aktuallaşdırdı.

Azərbaycanda təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini, Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" [7] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış 31 yanvar 2008-ci i tarixli Sərəncamı bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini istiqamətləndirən mühüm sənəddir. Həmin sənədin icrası ilə əlaqədar 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramının layihəsi hazırlanmışdır.

Şəxsiyyətin inkişafının, təhsil prosesinin, təhsil xidmətlərinin və təhsilin təşkilinin davamlı həyata keçirilməsi fasiləsiz təhsildir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" [8] təsdiq edilmişdir. Sənədin əsas məzmunu fasiləsiz pedaqoji təhsil sisteminə daxil olan müəssisələrin sosial statusunun gücləndirilməsinə, uzun illər ərzində formalaşmış milli ənənələr və müasir beynəlxalq təcrübə əsasında pedaqoji təhsilin məzmununun və strukturunun yeniləşdirilməsinə, təlim və tərbiyənin vahidliyinin, sistemin dövlət, ictimai və şəxsi prioritetlərinin balanslaşdırılmasının təmin edilməsinə yönəlmişdir.

Fasiləsiz təhsilin əsasını insanın bütün ömrü boyu inkişaf prosesi, onun təhsil məkanında hərtərəfli hərəkəti və bu hərəkət üçün optimal şəraitin yaradılması təşkil edir. Fasiləsizliyin mənası şəxsiyyətin qabiliyyətinin və tələbatının inkişafından, hər bir adama şəxsi təhsil almaq imkanı verilməsindən və təhsil funksiyalarının tam həyata keçirilməsindən ibarətdir [8].

"Fasiləsiz" anlayışı insanın bütün həyatının əhatəsini vurğulayır və səviyyədən-səviyyəyə keçidə əsaslanır. Fasiləsizliyin pedaqoji mənası təhsilin sistemli xarakterində, davamlılıqda və perspektivdədir.

Vahid fasiləsiz təhsil sisteminin müasir təhsilin məzmununun metodik vasitələrinin dünya inkişaf tendensiyalarına uyğun fəaliyyət göstərməsinin yeni prinsipləri V.V.Davıdov, D.D.Elkonin, K.Y.Lyaudis, Q.P.Zinçenko, F.İ.Ferequdov və b. tərəfindən öyrənilmişdir.

Təhsil sisteminin bütün hissələrinin fəaliyyətinin təşkili çoxpilləli sistem vasitəsilə hərəkətə keçirilir. Bu sistem davamlılıq və magistratura təhsili vasitəsilə əsas təhsillə doktorantura arasında orta səviyyəni təmin etməklə, əsas səviyyədən daha yüksək səviyyəyə hamar keçid etməyə imkan verir.

Ədəbiyyatlarda qeyd olunur [3, s.9] ki, magistratura təhsilinin ömürboyu təhsil strukturuna daxil edilməsi ideyası XX əsrin sonlarında müşahidə edilir və o, fasiləsiz təhsil ideyalarına əsaslanır. Fasiləsiz təhsil ideyasının yaranma tarixi və ideya müəllifi ilə bağlı mülahizələr mövcuddur. T.Yesenskayanın [9] təhlillərinə istinadən qeyd edə bilərik ki, ideyanın "qədim" mənşə-

yinin tərəfdarları onun bəşəriyyətin özü olduğu müddətcə mövcud olduğuna inanır, digərləri isə bu ideyanın elmi-texniki inqilab nəticəsində indiki dövrün yaratdığını iddia edirlər. Tədqiqatçı A.P.Vladislavlev və V.G.Anuskinin fikrincə, fasiləsiz təhsil ideyası çoxdan yaranıb, fenomenin özü isə bu yaxınlarda yaranıb.

XIX əsrin II yarısında Rusiyada pedaqoji fikrin aparıcı simalarından olan K.D.Uşinski, məktəbin əsas vəzifələrindən birini şagirdlərin zehni qabiliyyətlərinin oyandırılması və öyrənmə vərdişindən xəbərdar edilməsində, onlarda müəllimsiz müstəqil, yeni biliklər əldə etmək istəyi və bacarığının inkişaf etdirilməsində görürdü. Bu qabiliyyətlər sayəsində insan bütün həyatı boyu öyrənəcək [10, s.54].

Müasir dünyada sivilizasiyaların inkişafı və inteqrasiyası özünün yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu mərhələ də bütün sahələrdə olduğu kimi təhsil sahəsində də islahatların sürətləndi-rilməsi, qloballaşan dünyanın tələblərinə uyğun təhsil sistemində inifikasiya proseslərinin gücləndirilməsi əsas problem kimi dəyərləndirilməlidir.

Müasir şəraitdə fasiləsiz təhsil anlayışı ondan irəli gəlir ki, sürətlə inkişaf edən sosial-iqtisadi vəziyyət şəraitində işçinin peşəkar potensialını birdəfəlik formalaşdırmaq mümkün deyil. Mövcud vəziyyət kütləvi reproduktiv ömür boyu təhsilin mövcud konsepsiyasının ali təhsilin professor-müəllim heyətinin hazırlanmasına fərdi yaradıcı yanaşma konsepsiyasına çevrilməsinin və onların sonradan təkmilləşdirilməsinin zəruriliyini vurğulayır. Fasiləsiz təhsil magistratura proqramı çərçivəsində yeni sosial şəraitdə inamla hərəkət edən, ləyaqətlə yaşayan, fəal və peşəkar kadrlar hazırlaya bilən vasitəyə çevrilsin. Magistr dərəcəsi həm pedaqoji cəhətdən təşkil edilmiş strukturlar şəraitində, həm də özünüinkişaf yolu ilə peşəkar dəyəri və təkmilləşmə imkanını həyata keçirməyə imkan verir. Bunlar fasiləsiz təhsilin düsturudur. Belə təhsilin əsas mənası hər bir insanın həyatı boyu daim inkişafı, yaradıcılıq yenilənməsi və təkmilləşməsi üçün şəraitin yaradılmasıdır.

Fasiləsiz təhsil ideyası bir neçə mərhələdən keçmişdir. Onun məzmunu çoxpilləli təhsil konsepsiyasının yaradılması üçün ilkin şərtdir ki, bunun əsasında magistratura təhsili ideyası təhsil səviyyələrindən biri kimi daha da inkişaf etmişdir.

Dünya praktikasında fasiləsiz təhsil problemi haqda İkinci Dünya Müharibəsi başa çatandan sonra fikirlər ifadə edildi. Bir çoxlarının fikrincə, fasiləsiz təhsil "formal" təhsil sistemindən narazılığa reaksiya kimi formalaşıb. Bəziləri isə yetkin əhalinin təhsilə olan tələbatının mövcud təhsil sisteminin nəzərindən kənarda qalması səbəbini göstərir. Yaşlıların təhsilinə yaranan maraq ixtisasartırma, kadrların yenidən hazırlanması məsələsini gündəmə gətirdi və təşkilatlanma yarandı. Məhz bu şəraitdə çoxpilləli təhsil konsepsiyası və magistratura təhsilinin tətbiqi formalaşmağa başladı. Ömür boyu təhsilin bir hissəsi kimi təqdim edilən magistratura təhsili təhsil sahəsində vəziyyəti kökündən yaxşılaşdırmaq, mövcud strukturları əsaslı şəkildə yenidən qurmaq və yenilərini yaratmaq üçün nəzərdə tutulmuş çoxpilləli təhsilə kecid vasitəsi kimi görünməyə başlayır" [9, s.53].

Tədqiqatçı T.Yesenskaya qeyd edir ki, fasiləsiz təhsil konsepsiyasının yaranması və inkişafı tarixində 50-ci illərin sonu 60-cı illərin ortaları birinci, ilkin mərhələ kimi qəbul edilir. Bu mərhələdə ömür boyu təhsilin formalaşan konsepsiyasının mücərrəd, bəyan edilmiş nəzəriyyələri ilə artıq mövcud olan magistratura və yaşlılar üçün təhsilin digər yeni formalarının konkret tədqiqatlarının nəticələri arasında uçurumun yaranması ilə müşahidə olunmuşdur.

Fasiləsiz təhsil sistemində çoxpilləli təhsil səviyyələrindən biri kimi magistratura təhsili konsepsiyasının inkişafının ikinci mərhələsi, yəni 60-cı illərin ikinci yarısı, 70-ci illərin əvvəlləri fasiləsiz və çoxpilləli təhsil hadisələrini hərtərəfli təsvir etmək cəhdləri ilə xarakterizə olunur. Burada hərtərəfli təsvir dedikdə fasiləsiz və çoxpilləli təhsilin strukturu, prinsipləri, təşkil formaları, məzmunu nəzərdə tutularaq əsas müddəaları sadələşdirmək, baxışlarda hökm sürən çaşqınlığı aradan qaldırmaq, ömrü boyu təhsilin nəzəri və praktik əhəmiyyətini adekvat şəkildə dərk edilməsinə nail olundu. Nəhayət, 1968-ci ildə YUNESKO "ömür boyu təhsil terminini ən mühüm, fundamental anlayışlardan biri kimi qəbul etdi və bu sahədə genişmiqyaslı tədqiqatlara başlamaq qərarına gəldi.

T.Yesenskaya üçüncü mərhələni metodoloji adlandırmışdır. Bu mərhələdə metodik qaydada fasiləsiz və magistratura təhsilinin ən mürəkkəb problemlərin intensiv və səmərəli inkişafı baş verir. Məhz bu mərhələdə konseptual əsaslar qoyu-

lur, sosial, iqtisadi, siyasi, təşkilati və idarəetmə şəraitinin bütün spektri öyrənilir ki, bunun əsasında magistratura təhsilinin ömür boyu təhsil konteksində həyata keçirilməsi mümkün olur. Eyni zamanda, ömür boyu təhsilin magistr komponentinin yaranması üçün sosial-psixoloji əsasların və ilkin mərhələnin problemləri hərtərəfli işlənir. Nəticədə bu mərhələdə davamlı təhsilin ümumiləşdirilmiş, konseptual modelləri yaranmağa başladı.

Fasiləsiz təhsil çərçivəsində magistratura təhsili konsepsiyasının işlənib hazırlanmasının dördüncü mərhələsini xronoloji olaraq təsvir etmək çətindir. Bu mərhələ təxminən 80-ci illərin əvvəllərinə aiddir. O illərdə xüsusi nəzəri tədqiqatlara və ayrı-ayrı formaların, metodların, təhsil prosesinin yenidən qurulması məsələlərinin öyrənilməsinə, magistraturada bəzi praktiki aspektlərin inkişafı, ömürlük təhsilin həyata keçirilməsinə ehtiyac yarandı. Bu dövrdə intensiv olaraq problemin nəinki pedaqoji, sosial və psixoloji aspektləri inkişaf etdirilir, həm də sistemin ayrı-ayrı əlaqələrinin və elementlərinin strukturu, funksiyaları, səlahiyyətləri, vəzifələri və məqsədləri, onların birləşdirilməsi müəyyən olunur. Magistratura təhsilinə, bu təhsilin proqramına və onlarda tələbələrin ömür boyu təhsilə müsbət münasibətinin formalaşmasına və möhkəmlənməsinə töhfə verən elementlərin gücləndirilməsinə, magistrlərin şəxsi keyfiyyətlərinin inkişafına yönəlmiş tədris metodlarının işlənib hazırlanmasına xüsusi diqqət yetirilir.

Beşinci mərhələ 80-ci illərdə başlayır və ömürboyu təhsil ideyalarından istifadə etməklə çoxpilləli təhsil strukturunda magistraturada təhsilin praktiki həyata keçirilməsi istəyi ilə səciyyələnir. Magistratura təhsilini həyata keçirmək istəyi fasiləsiz təhsil prinsipi əsasında qurulmuş vahid sistem yaratmağı qarşısına məqsəd qoyan ənənəvi təhsil sisteminin ayrı-ayrı hissələrinin yenidən qurulması cəhdləri şəklində özünü göstərir. Bu mərhələnin xüsusiliyi ondadır ki, ilk dəfə olaraq magistratura təhsilinin praktik təcrübəsini öyrənmək və dərk etmək imkanı yaranır. Bu mərhələdə mürəkkəb, inteqrativ, fənlərarası əlaqələr tədqiqat mərkəzlərinin intellektual potensialının cəmlənməsi səbəb oldu. Xarici tədqiqatçıları bu mərhələ üçün xarakterik olan mövzuları bu yöndə olmuşdur: post-sənaye cəmiyyəti üçün fasiləsiz təhsil; fasiləsiz təhsil kurikulumları; fasiləsiz təhsil və magistratura təhsili; gələcək təhsil və təhsil siyasəti məsələləri; yeni minillik üçün təhsil. Tədqiq olunmuş bu əsərlərdə ömürboyu təhsilin nəzəriyyəsi və praktikanın öyrənilməsi əsasında strategiya müəyyən edilmiş, ömürboyu təhsilin inkişafının optimal yolları təklif edilmişdir.

Rus tədqiqatçıları ömür boyu təhsil konsepsiyası üzərində yalnız 1979-cu ildə işləməyə başlamışlar. A.P.Vladislavlevin [11] işi xüsusilə seçilmişdir. Tədqiqatçı bir sıra nəzəri problemlərin ətraflı müzakirəsi ilə yanaşı, daxili təhsil sisteminin fasiləsiz təhsil sisteminin yenidən qurulması zamanı onun qarşısında duran praktiki vəzifələri təhlil etmiş, həmçinin konkret tədbirlər proqramı təklif edir.

Respublikamızda fasiləsiz pedaqoji təhsilin mahiyyəti və nəzəri əsaslarına dair məqalə və tesizlərə rast gəlinsə də, fasiləsiz pedaqoji təhsil sistemində magistratura təhsilinin inkişafı məsələlərinin təhlilinə az təsadüf edilir.

Müasir dünyada və uyğun olaraq respublikamızda baş verən müvafiq dəyişikliklər, müəllimin peşəkarlığına və fəaliyyətinə müasir dövrdə verilən tələblər, eləcə də respublikamızda fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemində mövcud vəziyyətin təhlili zamanı aşkar edilən problemlər və nöqsanlar Konsepsiyanın yaradılmasını zəruri edən səbəblərdir.

Ölkəmizdə 2007-ci ildə qəbul edilmiş Konsepsiya və Strategiya sənədində [8] beynəlxalq standartlara uyğun gələn, yüksək keyfiyyətli fasiləsiz müəllim hazırlığı sisteminin uğurla formalaşdırılması və tətbiqi üçün vacib olan strateji fəaliyyət istiqamətləri müəyyən edilmişdir:

1) müəllim hazırlığı kurikulumunun keyfiyyəti;

2) müəllimlərin hazırlanması və təhsil sisteminin müəllimlərlə təmin edilməsi;

3) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları;

4) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin təminatı;

5) müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri;

6) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı.

Göründüyü kimi, mütəxəssis hazırlığının artıq öz təşəkkülünü tapmış ənənəvi modeldən çoxpilləli "bakalavr-magistr" modelinə keçid alması bir sıra problemləri aktuallaşdırır.

Fasiləsiz pedaqoji təhsil sistemi özündə beş

pilləni birləşdirir:

1) peşə təhsilinə qədərki pedaqoji təhsil;

2) pedaqoji baza – peşə təhsili;

3) ali təhsildən sonrakı pedaqoji təhsil;

4) əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi;

5) sosial peşəkarlığın inkişaf etdirilməsi (özünütəsdiqi, özünürealizəsi).

Fasiləsiz pedaqoji təhsil sistemində yer alan pedaqoji baza – peşə təhsili magistratura səviyyəsini nəzərdə tutur. Pedaqoji baza peşə təhsilinin əsas məqsədi, məzmunu müstəqil peşə və elmi-pedaqoji fəaliyyətə hazırlamaqdan ibarətdir. Bu səviyyənin əsas vəzifələri aşağıdakı kimi müəyyən edilmişdir:

- subyektin ümumi və pedaqoji mədəniyyət əldə etməsi, təhsil sferasında tədqiqatlar aparması üçün qabiliyyətlərin formalaşdırılması məqsədi ilə prosesin kompleks (təşkilati-pedaqoji, elmi-metodiki, informativ və s.) fəaliyyətinin təmin edilməsi;

- təlim alanın pedaqoji təcrübəyə qoşulması üçün təşkilati-pedaqoji şəraitin yaradılması və subyektdə peşə fəaliyyəti üzrə öz müqəddəratını təyin etməsi, pedaqoji fəaliyyətdə özünü-təşkili, peşəkarlıq səviyyəsini inkişaf etdirməsi üçün qabiliyyətlərin formalaşdırılması;

- şəxsi pedaqoji və elmi-tədqiqat fəaliyyətinin layihələndirilməsi, elmi əsaslandırılması və təhlili üçün qabiliyyətlərin inkişaf etdirilməsi prosesinin elmi cəhətdən əsaslandırılmış sistematik diaqnostikasının təşkili [8].

Konsepsiyada qeyd edilmiş fasiləsiz pedaqoji təhsilin və məllim hazırlığının prinsiplərinin və dəyər əlamətlərinin reallaşdırılması gələcək müəllimin peşə baxımından öz müqəddəratını təyin etməsi (özünütəyini), peşə fəaliyyətində onun özünü təşkili və özünüinkişafı üçün qabiliyyətlərinin formalaşdırılmasına yönəldilməsini ehtiva edir. Bu baxımdan fasiləsiz pedaqoji təhlil və müəllim hazırlığı sistemi bir-biri ilə qarşılıqlı əlaqədə olan beş mərhələdən ibarətdir: peşə baxımından müəllimin özünütəyini (öz gələcək müqəddəratını təyin etməsi), özünütəşkil, elmi-pedaqoji təşəkkül, elmi-pedaqoji cəhətdən özünütəkmilləşdirmə, pedaqoji yenilikçiliyə meylli olmaq baxımından özünürealizə (subyektin daxili imkanlarının həyata keçirilməsi, özünütəsdiqi).

Magistratura təhsilindən səmərəli istifadə etmək, onu fərdin yaradıcı özünütərbiyəsi üçün tədris texnologiyası səviyyəsinə çatdırmaq üçün "özünütəhsil", fərdin fasiləsiz peşə təhsili kimi anlayışları pedaqoji və fəlsəfi cəhətdən dərk etmək lazımdır.

Qeyd edilən təhlillər və mövcud qanunvericilikdə əksini tapan meyarlara əsasən, magistratura təhsili fasiləsiz peşə təhsilinin tərkib hissəsi kimi qəbul edilir. Magistratura təhsili insanın öz iradəsinin aktiv və müstəqil fəaliyyəti olan peşəkar biliklərin genişləndirilməsinə, peşə ehtiyaclarının ödənilməsinə yönəlmiş nisbətən şəxsi müstəqil sistem kimi xarakterizə edilə bilər. Magistratura təhsilinin köməyi ilə magistrantların bilik, bacarıq və qabiliyyətlərinin genişləndirilməsi nəticəsində müəyyən vəzifələr həll edilir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında ali təhsilin çoxpilləli strukturu haqqında müvəqqəti əsasnamə". https://edu.gov.az/az/esas-huquqi-aktlar/781
2. "Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında Əsasnamə". https://edu.gov.az/az/esasnameler_353/784
3. Mahmudov, M. Azərbaycanın Boloniya prosesinə daxil olmasının reallığa çevrilməsi / M.Mahmudov. -Bakı: ADPU, -2009.-249 s.
4. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı". https://e-qanun.az/framework/5363
5. Əhmədov, H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası / H.H.Əhmədov. - Bakı: Elm, -2010. - s.149-150.
6. "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə". https://e-qanun.az/framework/431
7. "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında". https://e-qanun.az/framework/13145
8. "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası". https://e-qanun.az/framework/13540
9. Есенская Т.В. Проектирование программы магистерского образования. https:// www.dissercat.com/content/proektirovanie-programmy-magisterskogo-obrazovaniya.
10. Основы педагогического мастерства / Под

ред. М.Зазюна. - Киев, - 1989.
11. Владиславлев, А.П. Непрерывное образование: Проблемы и перспективы / А.П.Владиславлев. -М., -1988. - с.175.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 60-63
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 60-63
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4, с. 60-63

UOT

Qrammatikanin tədrisində aktual problemlər

Müəllif:

Sədaqət Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor
E-mail: sadaqathasanova@gmail.com

Annotasiya. Məqalə Azərbaycan dilinin tədrisi məsələlərinə həsr olunub. Bu baxımdan qrammatikanın tədrisi zamanı qarşıya çıxan problemlərə toxunulur. Məqalədə cümlənin əsas üzvlərindən biri olan xəbərlərin öyrədilməsi məsələsi ön plana çəkilir. Fənnin tədrisində qarşıya çıxan bir sıra problemlər təhlil edilir. Xüsusilə xəbərin tərifi məsələsi müzakirə olunur. Belə ki, Azərbaycan dilinin qrammatikasına aid kitablarda xəbərin tərifinin düzgün olmadığı bildirilir və bu fikir dil faktları ilə təsdiqlənir. Demək olar ki, demək olar ki, bütün qrammatika dərsliklərində xəbərə verilən tərifl ərdə onun mübtəda ilə əlaqəsi məsələsi qeyd olunur. Ancaq dildə elə cümlələr var ki, onların müəllimi yoxdur. Belə olan halda xəbərin peyğəmbərə aid olması fikri düzgün sayılmır. Məqalədə irəli sürülən elmi-nəzəri fikirlər dil faktlarına əsaslanır.

Açar sözlər:
dil, qrammatika, cümlə, xəbər, cümlə üzvü

Current problems in teaching grammar

Author:

Sadagat Hasanova
Nakhchivan Teachers Institute
Doctor of science philology, professor
E-mail: sadaqathasanova@gmail.com

Abstract. The article is dedicated to the issues of teaching the Azerbaijani language. In this regard, the problems encountered during the teaching of grammar are touched upon. In the article, the issue of teaching news, which is one of the main members of the sentence, is brought to the fore. A number of problems encountered in teaching the subject are analyzed. In particular, the issue of the definition of news is discussed. Thus, the books on the grammar of the Azerbaijani language state that the definition of news is incorrect, and this opinion is confirmed by language facts. It can be said that in the definitions given to news in almost all grammar textbooks, the question of its connection with mubtada is mentioned. However, there are sentences in the language that do not have a teacher. In such a case, the opinion that the news belongs to the prophet is not considered correct. The scientific-theoretical ideas put forward in the article are based on linguistic facts.

Key word:
language, grammar, sentence, news, part of sentence

Актуальные проблемы обучения грамматике

Автор:

Садагат Гасанова
Нахчыванский институт учителей
Доктор наук по филологии, профессор
E-mail: sadaqathasanova@gmail.com

Аннотация. Статья посвящена вопросам преподавания азербайджанского языка. В связи с этим затрагиваются проблемы, возникающие при обучении грамматике. В статье на первый план выдвигается вопрос обучения сообщению, которое является одним из главных членов предложения. Анализируется ряд проблем, возникающих при обучении предмету. В частности, обсуждается вопрос определения новости. Так, в книгах по грамматике азербайджанского языка указано, что определение новости неверно, и это мнение подтверждается языковыми фактами. Можно сказать, что в определениях, данных новости почти во всех учебниках грамматики, упоминается вопрос о ее связи с подлежащем. Однако в языке есть предложения, у которых нет учителя. В таком случае мнение, что новость принадлежит пророку, не считается правильным. Выдвинутые в статье научно-теоретические идеи опираются на лингвистические факты.

Ключевые слова:
язык, грамматика, предложение, новость, часть предложения

Dilçilik elminin ən böyük bölməsi olan qrammatika mövzu zənginliyi ilə diqqəti çəkən sahələrdəndir. Onun tədrisi zamanı bəzi mövzuların öyrədilməsi prosesində problemli məsələlərlə qarşılaşmaq olur. Bu baxımdan, "xəbər" maraqlı mövzulardandır. Mövzunun öyrədilməsinə xəbər haqqında məlumatla başlanılır. Məlumdur ki, xəbər cümlənin baş üzvüdür. Dilçilik ədəbiyyatlarının çoxunda, xüsusilə də orta məktəb qrammatikalarında xəbərin mübtədaya aid iş, hal, hərəkət, hadisə və hökmü bildirməsi qeyd edilir. Bu tərif özünü doğrultmur. Ona görə ki, dilimizdə mübtədası olmayan cümlələr də vardır. Yuxarıdakı tərif mübtədası olan cümlələri səciyyələndirə bilər. Lakin tərkibində mübtəda iştirak etməyən cümlələr haqqında həmin fikir dəqiqlik ifadə etmir. Çağdaş qrammatikamızda yenidən araşdırılmağa, haqqında yeni fikirlər deyilməyə layiq olan bir sıra mövzular vardır ki, onlardan biri də xəbərdir.

Əslində, xəbər cümlənin məlumat mənbəydir, informasiya yükünü daşıyan baş üzvüdür. Formasından (şəkilçi qəbul edib-etməməsindən) asılı olmayaraq cümlədəki fikrin reallaşması vəzifəsi daha çox xəbərə aiddir. Bütün xəbərlərdə hansısa məlumat əks olunur. Bu mənada, B.Xəlilov yazır: "Xəbər cümlənin elə bir baş üzvüdür ki, həm cümlədə, həm də təklikdə bütöv bir fikri ifadə edə bilir" [2, s.108].

Xəbər müəyyən şəxsli cümlələrdə yanlız mübtədadan asılı olur, yəni əsas tərəf kimi iştirak etmir. O, uzlaşma yolu ilə mübtədaya tabe olur. Belə cümlələrdə mübtəda müstəqil üzvdür, lakin qeyri-müəyyən şəxsli, ümumi şəxsli cümlələrdə müstəqil üzv xəbərdir. Xəbər zaman şəxs, modallıq xüsusiyyətlərinə malik olur, ədəbi dil normalarına əsasən cümlənin sonunda işlənir. Cümlədə mübtəda fikir predmentini adlandırsa da, onun haqqında məlumatı xəbər verir. Xəbər fikir predmetini aydınlaşdıraraq onun hərəkəti, işi, əlaməti, xüsusiyyətləri barədə məlumatı ifadə edir. Həmin məlumat müəyyən zaman və şəxslə bağlı olub, modal münasibət ifadə edir. Cümlədə hökm və fikir xəbər vasitəsilə təsdiq və ya inkar edilir.

Xəbər ifadə vasitələrinin genişliyinə və kəmiyyətcə çoxluğuna görə digər cümlə üzvlərindən fərqlənir. O həm substantiv söz və söz birləşmələri ilə; həm atributiv söz və söz birləşmələri ilə; həm də adverbial söz və söz birləşmələri ilə ifadə olunur. Halbuki digər cümlə üzvlərində bunlardan biri ilə qarşılaşırıq. Bu o deməkdir ki, xəbər cümlənin önəmli, çoxcəhətli üzvlərindəndir.

Xəbər də mübtəda kimi cümlənin qrammatik əsaslarından biridir. Cümlənin ən müstəqil üzvü mübtəda olsa da (çünki mübtəda cümlədə heç bir üzvdən asılı deyil), ikinci dərəcəli üzvlərlə müqayisədə xəbər müstəqillik təşkil edir. Belə ki o, sintaktik əlaqə baxımından yalnız mübtədadan asılı olur, tamamlıq, təyin və zərfliklə sintaktik əlaqəyə girdikdə hər zaman əsas, yəni tabe edən tərəf kimi özünü göstərir. Beləliklə, ikinci dərəcəli üzvlərlə əlaqədə xəbər həmişə əsas tərəf olur.

Çağdaş Azərbaycan dilindəki xəbərlər, əsasən, aşağıdakı vasitələrlə işlənir:

1. Şəxs- xəbərlik şəkilçiləri ilə. Məsələn:

Mən Miləm!
Mən Muğanam!
Qoşqaram!
Savalanam!
Mən odlar yurduyam,
Azərbaycanam!

Mən rəssamam!
Nəqqaşam!
Musiqiyəm!
Dastanam!
Mən odlar yurduyam,
Azərbaycanam!

Sən mənim ən əziz sirrim, istəyim,
Sən mənim ən acı həqiqətimsən.
İtmiş gəncliyimdən xəbər gətirən
Sən mənim ikinci məhəbbətimsən.

İllər ömürlərin sahilləridir.

İnsansız təbiət yetim kimidir.
Xəzər damlası da Xəzər qədərdir.

Gəlirik, gedirik xoş arzularla.
Siz qaynar həyatsınız,
Arzuya qanadsınız və s.

Şəxs-xəbərlik şəkilçiləri həm adlara, həm də feillərə qoşula bilir və belə məqamlarda qoşulduğu sözlərə xəbərlik məzmunu verir.

2. Sözlərə xəbərlik məzmunu verən vasitələrdən biri idi, imiş, isə hissəcikləridir. Məsələn: Onun əlindəki kitab idi. Gördükləri yuxu imiş.

"İsə" hissəciyi qoşulduğu sözlə birlikdə xəbər olsa da, müstəqil cümlənin xəbəri vəzifəsini da-

şıya bilmir. O yalnız tabeli mürəkkəb cümlənin budaq cümləsində işlənir. Məsələn: Bunları oxuya bilirsə, deməli bacarığı vardır.

3. Xəbər zaman kateqoriyasının morfoloji əlamətləri ilə də reallaşa bilir. Məsələn: Ağarır dağların sinəsi qarla. Təbiət qovuşur təzə baharla.

Tədris zamanı xəbərin ifadə vasitələrinə də diqqət etmək lazımdır. Xəbər ifadə vasitələri baxımından iki cür olur:

1. Feli xəbər, yəni hərəkət məzmunlu xəbər.

2. İsmi xəbər, yəni adlarla (feildən başqa yerdə qalan nitq hissələri ilə) ifadə olunan xəbər.

Feli xəbərin özünəməxsus zəngin forma və məna xüsusiyyətləri vardır. Fel zaman, şəxs, təsirlik, növ, forma inkarlıq və tərz kateqoriyalarına malik olmaqla daha çox predika¬tivlik əlaqəsi yaradır və cümlədə adətən, feli xəbər olur.

Feli xəbər aşağıdakılarla ifadə olunur:

I. Felin təsriflənən, yəni dəyişən formaları ilə. Məsələn:

1. Əmr şəkli ilə ifadə olunan xəbər: Gəlin dəstə-dəstə toplaşaq, dostlar!

2. Arzu şəkli ilə:

Yazaydım, yaradaydım,
Şah nəğməni mən, Bakı!
Oxuyayadım hər yerdə
Onu ürəkdən, Bakı!

3. Xəbər şəkli ilə:

Mən səni görməyə adət etmişəm,
Gözündə çağlayan mehribanlığa
heyrət etmişəm.

4. Vacib şəkli ilə:

Vaxtında biz yetib el harayına
Bütün yer üzünü oyatmalıydıq.

5. Lazım şəkli ilə:

Hələ yollar yorub gələsiyəm mən.
Hələ düşmən bağrı dələsiyəm mən.
Elə bilməyin ki, öləsiyəm mən,
Günlər, aylar, illər, tələsməyin siz.

6. Şərt şəkli ilə:

Əgər görüşməsək, bizə dağ olar.

II. Frazeoloji birləşmələrlə: Mən qulaq asmadım onun səsinə. Təəssüf ki, bəzi dilçilik ədəbiyyatlarında feli xəbərin frazeoloji birləşmələrlə ifadə olunması göstərilmir: “Feli xəbərlər yalnız feillə ifadə olunur” [1, s.116]. Q.Kazımov feli xəbərdən bəhs edərkən onun quruluşca mürəkkəb növündə “sabit feli birləşmələrin” işləndiyini göstərir və o, burada “asılı məsdərin başlamaq, istəmək, bilmək, olmaq sözləri ilə əlaqəsini mühüm ifadə vasitəs” hesab edir [3, s.113]. Yəni frazeoloji ifadələr yenə də kənarda qalır.

Feli xəbər müxtəlif şəxs və zamanlarda olan nə etmək? nə olmaq? suallarına cavab verir.

İsmi xəbər iki yerə ayrılır:

a) Suala cavab verən ismi xəbər.

b) Suala cavab verməyən ismi xəbər.

Suala cavab verən ismi xəbər müxtəlif şəxslərdə kim idi? nə idi? (idik) hara idi? necə idi? nə cür idi? neçənci idi? nə qədər idi? kim imiş? nə imiş? hara imiş? necə imiş? nə cür imiş? neçə imiş? neçənci imiş? nə qədər imiş? kim isə? nə isə? hara isə? necə isə? neçə isə? neçənci isə? nə qədər isə? kimdir? nədir? haradır? necədir? nə cürdür? neçədir? neçəncidir? nə qədərdir? və kim, nə, hara sözlərinin ismin adlıq, yiyəlik, yönlük, yerlik, çıxışlıq hallarında işlənərək şəxs-xəbərlik şəkilçiləri qəbul etməsi ilə formalaşan suallara cavab verir. Suala cavab verən ismi xəbər aşağıdakılarla ifadə olunur:

1. İsimlə. Məsələn: Vətəni sevmək ən gözəl hissdir.

2. Sifətlə. Məsələn:

Yaxşı adamların üzü ağ olsun,
Pislərin, onsuz da, üzü qaradır.

3. Sayla. Məsələn: Dünyada ağıllı adamlar çoxdur.

4. Əvəzliklə. Məsələn: Yolumuz hayanadır?

5. Zərflə. Məsələn: Söyüdlü arx aşağıdadır.

6. Məsdərlə. Məsələn: Məqsədimiz oxumaqdır.

7. Məsdər tərkibi ilə. Məsələn: Arzum vətəni qarış-qarış gəzməkdir.

8. Feili sifətlə. Məsələn: Bu tələbə oxuyandır.

9. Feli sifət tərkibi ilə. Məsələn: Yuxarıda əyləşənlər Bakıdan gələnlərdir.

11. Qoşmalı sözlərlə. Məsələn: Onun işi səninlədir. Bunlar vətən üçündür və s.

Suala cavab verməyən ismi xəbər dilçilik ədəbiyyatlarının çoxunda “söz-xəbər” adlandırılır. Lakin bu, düzgün ifadə deyil. Ona görə ki, bütün xəbərlər sözlərdən təşkil olunur. Onların bir qrupuna “söz-xəbər” demək dəqiqliyi pozur. Bu xəbərlər aşağıdakılardır: vardır, var, yoxdur, gərəkdir, lazımdır, bəsdir, kifayətdir, mümkündür.

Xəbərin öyrədilməsində onun quruluşu haqqında məlumat da unudulmamalıdır. Quruluş baxımından xəbərin iki növü vardır:

1. Sadə xəbər.

2. Mürəkkəb xəbər.

Nitq hissələri ilə, yəni sözlərlə ifadə olunan xəbərə sadə xəbər deyilir. Sadə xəbər həm əsas,

həm də köməkçi nitq hissələri ilə ifadə olunur. Məsələn:

Mən az görməmişəm bu sarayları.

Bu örnəkdə xəbər feillə ifadə olunmuşdur. Aşağıdakı cümlənin xəbəri isə şəkilçi qəbul etmiş modal sözdür:

Ümidin yarısı bəlkədir.

Mürəkkəb xəbər söz birləşmələri və mürəkkəb adlarla ifadə olunur:. Bunlar aşağıdakılardır:

a) I növ təyini söz birləşməsi ilə ifadə olunan xəbər. Məsələn: İndi XXI yüzillikdir.

b) II növ təyini söz birləşməsi ilə ifadə olunan xəbər. Məsələn: Bizi səsləyən vətən torpağıdır.

c) III növ təyini söz birləşməsi ilə ifadə olunan xəbər. Məsələn: Elbrus İsayev universitetin rektorudur.

ç) Mürəkkəb adlarla: Qaşımızda görünən Naxçıvan Dövlət Universitetidir.

Göründüyü kimi, xəbər forma və məzmunca zəngin cümlə üzvlərindəndir. Dilimizdə xəbərin çox sayda ifadə vasitələri olsa da, onun daha çox felin xəbər şəkli ilə ifadəsi geniş yayılmışdır. Xüsusilə də ədəbi dilin funksional üslublarında bu ifadə forması ilə çox qarşılaşmaq mümkündür. Digər ifadə formalarına daha çox bədii üslubda rast gəlirik. Həmin üslubda bəzən xəbər, xüsusilə də suala cavab verməyən ismi xəbər morfoloji əlamət olmadan da işlənə bilər. Məsələn:

Olan olub, keçən keçib bəlkə də,

İndi daha kövrəlməyin yeri yox.

Ədəbi dilin digər üslublarında xəbər kimi işlənən “yox” sözü, əsasən, -dır4 şəkilçisi ilə işlənir.

Beləliklə, xəbər maraqlı cümlə üzvlərindəndir və hazırda onun konkret tərifə ehtiyacı vardır. Xüsusilə də mübtədaya aid olub-olmaması fikrinin aydınlaşdırılması zəruri məsələ-lərdəndir. Bu məsələdə mübtədasız cümlələr də nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Abdullayev, Ə., Seyidov, Y., Həsənov, A. Xəbər. Müasir Azərbaycan dili. Sintaksis./ Ə.Abdullayev., Y. Seyidov., A. Həsənov; – Bakı: Şərq-Qərb, – 2007. – 114-126 s.
2. Xəlilov B. Xəbər. Müasir Azərbaycan dili Sintaksis. / B. Xəlilov, – Bakı: Təhsil, –2007. – 110-117 s
3. Kazımov, Q. Xəbər. Müasir Azərbaycan dili. Sintaksis. / Q. Kazımov, Bakı: Adiloğlu, –2017. – 108-118. s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 64-68
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 64-68
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 64-68

UOT

Birləşmələr nəzəriyyəsi anlayışlarının nəzəri-çoxluq anlayışı vasitəsilə təyin edilməsi məsələsi

Müəllif:

Rövşən Həsənov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: hrovsen.2020@gmail.com

Açar sözlər:
nəzri-çoxluq, təkrarlı və təkrarsız birləşmələr, nizamlanmış çoxluq, kotej, kortejin tərkibi

Annotasiya. Məşhur sovet riyaziyyatçısı P.S.Aleksandrov riyaziyyatın ilkin, ən mühüm, geniş istifadə olunan çoxluq anlayışı haqqında demişdir [1]: “Çoxluqlar nəzəriyyəsinin ideya və anlayışları müasir riyaziyyatın bütün bölmələrinə nüfuz etmiş və onun simasını əsaslı surətdə dəyişmişdir”. XX əsrdə fransız riyaziyyatçılarının bir qrupunun “Burbaki” təxəllüsü altında birləşərək müasir riyaziyyata aid yazdıqları “Riyaziyyatın elementləri” başlıqlı traktat məhz irəli sürülən konsepsiyasının bariz nümunəsidir. Ümumiyyətlə çoxluq anlayışının riyaziyyatın bütün bölmələrinə nüfuz etməsi riyazi nəzəriyyələrin ciddi formal şərhinə güclü təkan verir. Təqdim edilən işdə çoxluq və onun bəzi tiplərindən istifadə etməklə birləşmələr nəzəriyyəsinin əvvəlcə təkrarsız və təkrarlı birləşmə (yerləşdirmə, yerdəyişmə, birləşdirmə) anlayışlarının tərifləri verilmiş və onların saylarının yeni formatda müəyyənləşdirilməsi məsələləri şərh və həll edilmişdir. Bu zaman nizamlanmış çoxluq, kortej, kortejin tərkibi anlayışlarından istifadə edilmişdir.

The problem of determining the concepts of the theory of combinations through the concept of set theory

Author:

Rovshan Hasanov
Nakhchivan Teachers Institute
E-mail: hrovsen.2020@gmail.com

Key word:
propositional set, repeated and non-repeated combinations, ordered set, cottage, tuple composition

Abstract. The famous Soviet mathematician P.S. Aleksandrov said about the first, most important, widely used set concept of mathematics [1]: “Ideas and concepts of set theory penetrated all sections of modern mathematics and fundamentally changed its face.” In the 20th century, a group of French mathematicians united under the pseudonym “Burbaki” and wrote a treatise on modern mathematics entitled “Elements of Mathematics” is a clear example of the proposed concept. In general, the penetration of the concept of set into all sections of mathematics gives a strong impetus to the strict formal interpretation of mathematical theories. In the presented work, the definitions of the concepts of unrepeated and repeated combination (placement, displacement, combination) of the theory of combinations using the set and some of its types were given, and the issues of determining their numbers in a new format were interpreted and resolved. At this time, the concepts of ordered set, tuple, tuple composition were used.

Вопрос определения понятий теории соединений посредством теоретико-множественное понятие

Автор:

Ровшан Гасанов
Нахчыванский институт учителей
E-mail: hrovsen.2020@gmail.com

Ключевые слова:
пропозициональное множество, повторяющиеся и неповторяющиеся сочетания, упорядоченное множество, коттедж, кортежная композиция

Аннотация. В статье указано, что по словам известного советского математика П.С.Александрова о первом, важнейшем, широко употребительном понятии «множество» в математике, «Идеи и понятия теории множеств проникли во все разделы современной математики и коренным образом изменили ее лицо». В XX веке группа французских математиков, объединившихся под псевдонимом «Бурбаки» и написавших трактат по современной математике под названием «Элементы математики», является ярким примером предложенной концепции. Вообще проникновение понятия множества во все разделы математики дает сильный толчок строгому формальному толкованию математических теорий. В представленной работе даны определения понятий комбинаторики: перестановки, размещения, сочетания теории сочетаний с помощью множества и некоторых его видов, а также рассмотрены, истолкованы и решены вопросы определения их количества в новом формате. В это время использовались понятия упорядоченного множества, кортежа, кортежной композиции.

Birləşmələr nəzəriyyəsinin əsas anlayışlarının, aranjeman (yerləşdirmə), permutasiyası (yerdəyişmə), kombinezon (birləşdirmə) müxtəlif tərifləri vardır, məsələn [198,213]. Bu tərifləri ciddi şəkildə nəzəri – çoxluq anlayışına əsaslanaraq vermək olar. Bu cür yanaşma, onlara bir nöqteyi nəzərdən baxmağa imkan verməklə, onların müqayisəli şərhinə təkan verir.

I. Təkrarsız permutasionlar (yerdəyişmələr).

Əgər n elementli A çoxluğunun elementləri hər hansı qayda ilə nömrələnmişsə, onda alınan $A=(a_1,a_2,...,a_n)$ - ya nizamlanmış çoxluq deyilir. Qeyd etməliyik ki, nizamlanmış çoxluq kortej anlayışının xüsusi halıdır. Belə ki, kortejdə elementlər təkrar oluna bildiyi halda nizamlı çoxluqda elementlər təkrar olunmur. Məsələn, (a,b,a,c,c) korteji nizamlanmış çoxluq deyil. Çünki, burada a və c elementləri təkrar olunur. $[a,b,c,d,e,f]$ korteji isə nizamlanmış çoxluqdur. Çünki bu kortejdə təkrar olunan element yoxdur.

Tutaq ki, n elementli X çoxluğu verilmişdir. Bu çoxluğu nizamlamaq üsullarını tapaq.

Qeyd edək ki, hər hansı bir nizamlama ondan ibarətdir ki, X çoxluğunun hər hansı elementi 1 nömrəsini, hər hansı elementi 2 nömrəsini və s. hər hansı elementi n nömrəsini alır. Aydındır ki, X çoxluğunun hər bir elementi 1 nömrəsini ala bilər. Onda X çoxluğu n sayda elementdən ibarət olduğuna görə 1-ci nömrəli elementi n üsulla seçmək olar. 1- ci nömrəli element seçildikdən sonra $n-1$ sayda element qalır. Deməli 2- ci elementi $n-1$ üsulla seçmək olar və s. Bu qayda ilə axırıncı elementi bir üsulla seçmək olar. Beləliklə göstərdik ki, X çoxluğunun x_1 elementi n üsulla, x_2 elementi $n-1$ üsulla və s. x_n elementini bir üsulla seçmək olar. Onda hasil qaydasına görə $(x_1,x_2,...,x_n)$ nizamlanmış çoxluğunu

$$n(n-1)....2\cdot 1=n!$$

üsulla seçmək olar.

Göstərdik ki, n elementli X çoxluğunun elementlərini $n!$ üsulla nizamlamaq olar. Aydındır ki, bunların hər birində n element iştirak etdiyindən və onların hər biri müxtəlif olduğundan, onlar yalnız bir-birindən elementlərin hansı nizamla yazıldığı ilə fərqlənir. Yəni nizamlanmış çozluqların heç birində ayrılıqda elementlər təkrar olunmur.

Tərif. n elementli X çoxluğunun elementlərindən düzəldilmiş ixtiyari nizamlanmış çoxluğa n elementli təkrarsız permutasion və ya permutasiya (yerdəyişmə) deyilir. n elementli təkrarsız yerdəyişmələrin sayı P_n ilə işarə olunur. Göstərildiyi kimi $P_n=n!$ olur.

II. Təkrarsız aranjemanlar (yerləşdirmələr).

Əvvəlki bənddə baxılan məsələni ümumiləşdirək. n elementli X çoxluğu verilir. $k\le n$ olmaqla hər birində k element iştirak etməklə necə nizamlanmış çoxluq düzəltmək olar?

Bu məsələni əvvəlki bənddə qoyulan məsələ ilə müqayisə etsək, görərik ki, bunun əvvəlkindən fərqi ondadır ki, hər birində k element olan nizamlı çoxluğun tərtibi k sayda elementi götürdükdən sonra başa çatır. Bu zaman əvvəlki mühakimə ilə deyə bilərik ki, birinci element n üsulla, ikinci element $(n-1)$ üsulla və s. bu qayda ilə k-cı element $n-(k-1)=n-k+1$ üsulla seçilə bilər. Ona görə də n elementli X çoxluğunun elementlərindən düzəldilmiş k elementli nizamlanmış çoxluqların sayı $n(n-1)...(n-k+1)$ bərabərdir.

Tərif. n elementli X çoxluğunun k elementindən tərtib olunmuş nizamlanmış çoxluğa n elementdən k elementli təkrarsız aranjeman (yerləşdirmə) deyilir. n elementdən k elementli aranjemanların sayı A_n^k ilə işarə edilir.

Deməli, $A_n^k=n(n-1)..(n-k+1)$. Bu düsturu aşağıdakı kimi çevirmək olar.

$$A_n^k=\frac{n\,(n-1)...(n-k+1)(n-k)...2\cdot 1}{1\cdot 2...(n-k)}=\frac{n!}{(n-k)!}$$

III. Təkrarsız kombinezonlar (birləşdirmələr).

Məsələ. X n elementli çoxluqdur. Onun k $(k<n)$ elementli altçoxluqlarının sayını tapın.

X çoxluğundan k elementli ixtiyari A çoxluğu ayıraq. Yuxarıda göstərdik ki, k elementli hər bir altçoxluğu $k!$ üsulla nizamlamaq olar. Qeyd etmək lazımdır ki, yalnız A altçoxluğu deyil, X çoxluğunun hər birində k element olan hər bir altçoxluğunu $k!$ üsulla nizamlamaq olar. Bu o deməkdir ki, n elementli X çoxluğunun k elementli nizamlı çoxluqlarının sayı k elementli altçoxluqlarının sayından $k!$ dəfə çoxdur.

Tərif. n elementli çoxluğun k elementli altçoxluqlarına n elementdən k elementli təkrarsız kombinezonlar (birləşdirmələr) deyilir. n elementdən k elementli kombinezonların sayı C_n^k ilə işarə edilir.

Məsələ həllindən görünür ki, $A_n^k = k! \cdot C_n^k$. Beləliklə,

$$C_n^k = \frac{A_n^k}{k_1} = \frac{n!}{k!(n-k)!}$$

IV. Təkrarlı aranjemanlar (yerləşdirmələr).

Məsələ. n elementli çoxluğun elementlərindən uzunluqları k - ya bərabər olan neçə kortej düzəltmək olar ?

Aydındır ki, bu məsələni həll etmək üçün k sayda vuruqdan ibarət olan $\underbrace{A \times A \times A \times \ldots \times A}_{k \ sayda}$ dekart hasilindəki kortejlərin sayını tapmaq lazımdır. Hasil qaydasına əsasən bu dekart hasilindəki elementlərin sayı

$$\gamma\underbrace{(A \times A \times \ldots \times A)}_{k \ sayda} = \underbrace{\gamma(A) \times \gamma(A)\gamma \ldots \gamma(A)}_{k \ sayda} = \underbrace{n \cdot n \cdot \ldots \cdot n}_{k \ sayda} = n^k$$

olar.

Tərif . n elementli çoxluğun elementlərindən düzəldilmiş hər bir k uzunluqlu kortejə n elementdən k elementli təkrarlı aranjeman deyilir.

n elementdən k elementli aranjemanların sayı $\tilde{A}_n^k$ kimi işarə edilir.

Yuxarıdakı məsələdə aldıq ki, $\tilde{A}_n^k = n^k$.

V. Təkrarlı permutasionlar (yerdəyişmələr).

Məsələ. "Riyaziyyat" sözündə hərflərin yerini dəyişməklə neçə müxtəlif söz düzəltmək olar?

Aydındır ki, əgər bu sözdə hərflərin hamısı müxtəlif olsaydı, onda on elementli təkrarsız permutasionlar alardıq ki, onların sayı

$$P_{10} = 10! = 3628800$$

müxtəlif sözdən ibarətdir. Göründüyü kimi "riyaziyyat" sözündə i,y,a hərfləri təkrarlanır. Bu o deməkdir ki, verilmiş sözdə 2-cı və 6-cı yerdə i hərfinin, 3-cü, 7-ci və 8-ci yerdə dayanan y hərfinin və nəhayət 4-cü və 9–cu yerdə duran a hərfininin yerlərini bir-biri ilə dəyişsək sözlər dəyişməyəcək. Məlumdur ki, 2 hərfin bir-biri ilə yerini 2 üsulla, 3 hərfin bir-birilə yerini 3! üsulla dəyişmək olar. Bu o deməkdir ki, "riyaziyyat" sözündə hərflərin yerini dəyişməklə 3628800 müxtəlif söz yox, ondan 2!3!2! dəfə müxtəlif, yəni $\frac{10!}{2!3!2!} = 151280$ söz alacayıq.

Məsələni ümumiləşdirmək və onu həll etmək üçün kortejin "tərkibli" deyilən bir anlayış daxil edək.

Tutaq ki, α uzunluğu n - ə bərabər olan kortejdir. Bu kortejin komponentlərinin m elementli $X = \{x_1, x_2, \ldots, x_m\}$ çoxluğunun elementləri olduğunu fərz edəcəyik. $1 \le k \le m$ bərabərsizliklərini ödəyən hər bir k ədədinə α kortejində x_k elementinin neçə dəfə iştirak etdiyini göstərən n_k ədədini qarşı qoyaq. əgər bu ədədləri müəyyən qayda ilə, yəni nizamlı qaydada bir-birinin ardınca yazsaq onda yeni $(n_1, n_2, \ldots, n_m)$ kortejini alarıq. Bu kortejə α kortejinin "tərkibi" deyilir.

Misal. $X=\{x_1,x_2,x_3,x_4,x_5\}$ çoxluğunun elementlərindən düzəldilmiş, uzunluğu 8-ə bərabər olan $\alpha=(x_1,x_2,x_1,x_3,x_3,x_5,x_1,x_5)$ kortejinin tərkibi $(3,1,2,0,2)$ kortejidir. Aydındır ki, eyni tərkibə malik olan iki kortej yalnız komponentlərinin sırası (nizamı) ilə fərqlənə bilərlər. Məsələn, $(x_1,x_2,x_1,x_2,x_3,x_3,x_5,x_5)$ kortejinin də tərkibi $(3,1,2,0,2)$ kortejidir. Belə kortejlərə verilmiş tərkibli təkrarlı permutasionlar deyilir.

Tərif . m elementli çoxluğun elementlərindən düzəldilmiş $(n_1,n_2,\ldots,n_m)$ tərkibli n uzunluqlu kortejə, burada $n_1+n_2+\ldots+n_m=n$ - dir, m elementdən $(n_1,n_2,\ldots,n_m)$ tərkibli təkrarlı permutasion deyilir.

m elementdən $(n_1,n_2,\ldots,n_m)$ tərkibli, $n_1+n_2+\ldots+n_m=n$, təkrarlı permutasionların sayı $P(n_1,n_2,\ldots,n_m)$ kimi işarə edilir.

$P(n_1,n_2,\ldots,n_m)$ - nin tapılması həll edilmiş məsələdəki mühakimə əsasında həyata keçirilir.

$X=\{x_1,x_2,\ldots,x_m\}$ çoxluğunun elementlərindən düzəldilmiş $(n_1,n_2,\ldots,n_m)$ tərkibli $n=n_1+n_2+\ldots+n_m$ uzunluqlu bir kortejə baxaq. Bu kortejin elementlərinin yerini dəyişməklə həmin tərkibli kortej alınır. əgər bütün elementlər eyni olsa belə kortejlər təkrarsız permutasionlar olur və onların sayı $n!=(n_1+n_2+\ldots+n_m)!$ kimi hesablanır. Elementlər müxtəlif olarsa, x_1 elementi n_1 dəfə, x_2 elementi n_2 dəfə,..., x_m elementi n_m dəfə olarsa, onda bu elementlərin öz aralarında ayrılıqda yerdəyişmələri nəticəsində kortejlərin sayı dəyişməyəcəkdir. n_1 sayda element $n_1!$ üsulla, n_2 sayda element $n_2!$ üsulla və bu qayda n_m sayda element n_m üsulla yerini dəyişə bildiyindən alınan kortejlərin sayı $(n_1+n_2+\ldots+n_m)!$ - dən $n_1!n_2!..n_m!$ dəfə azdır. Bu o deməkdir ki,

$$P(n_1,n_2,\ldots,n_m)=\frac{(n_1+n_2+\ldots+n_m)!}{n_1!n_2!..n_m!}$$

VI.Təkrarlı kombinezonlar (birləşdirmələr).

Məsələ. m elementli $X=\{x_1,x_2,\ldots,x_m\}$ çoxluğunun elementlərindən təşkil olunmuş və n uzunluqlu kortejlərin müxtəlif tərkiblərinin sayını tapın.

Aydındır ki, hər bir belə tərkib $n_1+n_2+\ldots+n_m=n$ bərabərliyini ödəyən m sayda $n_1+n_2+\ldots+n_m$ ədədlərindən ibarət kortejdir. Bu kortejlərin hər birini vahidlər və sıfırların köməyilə yazaq. Bunun üçün kortejin axırıncı komponentindən başqa digər kopmonentlərin hər birinin aralarında sıfır qoymaq şərti ilə uyğun sayda vahidlər qrupu ilə əvəz edirlər. Məsələn, (4,0,0,3) kortejinin yerinə (1,1,1,1,0,0,1,1,1) ; (1,2,3) kortejinin yerinə (1,0,1,1,0,1,1,1) yazırıq. Bu kortejlərdən görünür ki, onları təşkil edən vahidlərin sayı $n_1+n_2+\ldots+n_m=n$ (məsələn, 1+2+3=6) sıfırların sayı isə $m-1$ - dir (misalda 3-1=2). Ona görə də, bu şəkildən müxtəlif kortejlərin sayı n sayda vahiddən və $(m-1)$ sayda 0-dan ibarət təkrarlı permutasiyaların sayına bərabərdir.

Bu say təkrarlı permutasiyonlara görə

$$P(n,m-1)=\frac{n+m-1}{n!(m-1)!}=C_{n+m-1}$$

olar.

Beləliklə, göstərdik ki, komponentləri m elementli çoxluğun element-lərindən ibarət olan uzunluğu n - ə bərabər olan tərkiblərin sayı C_{n+m-1}^{n} ədədinə bərabərdir.

Tərif. Komponentləri m elementli çoxluğun elementlərindən ibarət olan n uzunluqlu tərkiblərə m elementdən n elementli təkrarlı kombinezonlar deyilir. Onların sayını $\overline{C}_m^n$ kimi işarə edirlər.

Yəni

$$\overline{C}_m^n=C_{n+m-1}^{n}$$

Beləliklə, göstərildi ki, birləşmələr nəzəriyyəsinə anlayışlar və müəyyən olunan düsturlar nəzəri-çoxluq anlayışı əsasında daxil edilir. Təkrarlı və təkrarsız yerdəyişmələr (permutasionlar), yerləşdirmələr (arenjimanlar), birləşdirmələr (kombinazonlar) çoxluq və onunla bağlı olan nizamlanmış çoxluq, kortej, tərkib anlayışlarının əsasında müəyyən edilir.

Çoxluq anlayışından istifadə edilməklə qurulan nəzəriyyə daha ciddi riyazi xarakter daşıyır və tətbiqi baxımdan səmərəli və məqsədəuyğundur.

Ədəbiyyat

1. Александров, П.С. Введение в общую теорию множеств и функций. / П.С. Александров – Москва: Гостехиздат, – 1948 г.
2. Виленкин, Н.Я. Комбинаторика. / Н.Я Виленкин.– Москва: Изд-во «Наука», – 1969 г.
3. Савальев, Л.А. Комбинаторика и вероятность./ Савальев Л.А. – Новосибирск: Наука, – 1975 г.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 69-72
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 69-72
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 69-72

UOT

Bilik, bacarıq və səriştələrin formalaşmasında rəqəmsal materialların tətbiqi

Müəlliflər:

Rəşid Həbibullayev
Əmək Bazarı Araşdırmaları İnstitutu
E-mail: rashidxabibullayev@gmail.com

Gülnarə Aripova
Daşkənd Kimya Texnologiya İnstitutu
E-mail: shuhgul711@gmail.com

Açar sözlər:
rəqəmsal savadlılıq, 21-ci əsr bacarıqları, çevrilmiş sinif otağı, mobil öyrənmə, Google tətbiqləri

Annotasiya. Bu işin məqsədi Daşkənd Kimya Texnologiya İnstitutunun bakalavrlarında "Elmi fəaliyyətin əsasları" və "Xüsusi fənlərin tədrisi metodikası" fənlərinin tədrisi zamanı 21-ci əsrin rəqəmsal savadını və bacarıqlarını inkişaf etdirməkdir. Təcrübələrdə istifadə olunan üsullar və onların nəticələri təqdim olunur. Flipped Classroom metodundan istifadə edilərkən əvvəlcədən distant sistemdə tədris materialları şagirdlərə təqdim edilib, siniflərdə dərslər təşkil olunub. M-öyrənmə və birgə öyrənmə metodları mobil cihazlar vasitəsilə öyrənmənin təşkilinə yönəlib, burada bütün təhsil məzmunu Google proqramlarından istifadə etməklə mobil uyğun veb formatında yaradılır. Veb-əsaslı tapşırıqlar hər bir tələbəyə interaktiv düymələr və sensor ekranlardan istifadə etməklə fərdi işləməyə imkan verirdi, Google Tətbiq tapşırıqları isə böyük lüğətlərin qısa müddətdə komanda şəklində birlikdə qurulmasına imkan verirdi. Yekun olaraq deyə bilərik ki, rəqəmsal məzmun tələbələri həvəsləndirməklə yanaşı, həm də peşəkar fəaliyyət üçün vacib olan XXI əsrin müasir bilik və bacarıqlarını formalaşdırır.

Authors:

Rashid Habibullayev
Institute for Labor Market Research
E-mail: rashidxabibullayev@gmail.com

Gulnara Aripova
Tashkent Institute of Chemical Technology
E-mail: shuhgul711@gmail.com

Key word:
digital literacy, 21st century skills, flipped classroom, mobile learning, Google apps

Application of digital materials in the formation of knowledge, skills and competences

Abstract. The purpose of this work is to develop the digital literacy and skills of the 21st century during the teaching of the subjects "Basics of scientific activity" and "Methodology of teaching special subjects" in the undergraduates of the Tashkent Institute of Chemical Technology. The methods used in the experiments and their results are presented. When using the Flipped Classroom method, educational materials were presented to the students in advance in the remote system, and lessons were organized in the classrooms. M-learning and collaborative learning methods focus on organizing learning through mobile devices, where all educational content is created in a mobile-friendly web format using Google applications. Web-based assignments allowed each student to work individually using interactive buttons and touch screens, while Google App assignments allowed large vocabularies to be built together as a team in a short amount of time. In conclusion, we can say that digital content not only motivates students, but also forms modern knowledge and skills of the 21st century, which are important for professional activity.

Авторы:

Рашид Хабибуллаев
Институт исследований рынка труда
E-mail: rashidxabibullayev@gmail.com

Гулнора Арипова
Ташкентский химико-технологический институт
E-mail: shuhgul711@gmail.com

Ключевые слова:
цифровая грамотность, навыки 21 века, перевернутый класс, мобильное обучение, приложения Google

Применение цифровых материалов при формировании знаний, навыков и компетенций

Аннотация. Целью данной работы является развитие цифровой грамотности и навыков 21 века у магистрантов Ташкентского химико-технологического института при преподавании предметов «Основы научной деятельности» и «Методика преподавания специальных предметов». Приведены методы, использованные в экспериментах, и их результаты. При использовании метода Flipped Classroom учебные материалы предъявлялись обучающимся заранее в дистанционной системе, а занятия организовывались в учебных аудиториях. Методы m-learning и совместное обучения направлены на организацию обучения через мобильные устройства, при котором весь учебный контент создается в удобном для мобильных устройств в веб-формате, с помощью приложений Google. Задания в веб-формате позволили каждому учащемуся работать индивидуально с помощью интерактивных кнопок и сенсорного экрана, а задания в приложениях Google позволили вместе в команде сформировать большие глоссарии за короткий промежуток времени. В заключение можно сказать, что цифровой контент не только мотивирует студентов, но и формирует современные знания и навыки 21 века, важные для профессиональной деятельности.

В последние годы во всем мире, в том числе и в Республике Узбекистан, серьезное внимание уделяется цифровизации системы высшего образования. В связи с этим был издан ряд постановлений правительства [1, 2]:

- Указ Президента Республики Узбекистан от 8 октября 2019 года № УП-5847 «Об утверждении Концепции развития системы высшего образования Республики Узбекистан до 2030 года».

- Указ Президента Республики Узбекистан от 5 октября 2020 года № УП-6079 «Об утверждении Стратегии «Цифровой Узбекистан-2030» и мерах по ее эффективной реализации».

- Постановление Президента Республики Узбекистан ПКМ-60 от 24 декабря 2021 года «О дополнительных мерах по обеспечению академической и организационно-управленческой самостоятельности государственных высших учебных заведений».

В этих документах перечислены основные направления развития высшего образования - формирование у студентов навыков 21 века, использование элементов мобильного обучения, в частности, дальнейшее совершенствование системы HEMIS (Higher Education Management Information System).

Для повышения цифровой грамотности студентов необходимо развивать такие навыки у преподавателей вузов. Затем преподаватели могут создавать цифровой контент. В связи с этим на платформе Главного научно-методического центра по переподготовке педагогов и руководителей системы высшего образования, подведомственных Высшему и среднему специальному образованию Республики Узбекистан представлены набор цифровых материалов, необходимых для создания цифрового контента (https:// mk. bimm.uz) [3, 4].

Проведенные нами исследования вились на двух направлениях:

1. Применение метода Flipped Classroom в образовательных процессах.

2. Разработка контента, подходящего для мобильного обучения.

При исследованиях были применены модели смешанного обучения «Face-to-face Driver», при котором учебные материалы были представлены обучающимся заранее в дистанционной системе, а занятия были организованы в учебных аудиториях. Метод Flipped Classroom представляет собой особую форму смешанного метода обучения, при котором теоретические занятия организованы в основном в форме вопросов и ответов, так как учащиеся заранее готовятся к занятиям. На практических занятиях в аудитории студенты выполняли самостоятельные задания под контролем преподавателя.

Реализация этого метода потребовала решения ряда задач. Во-первых, преподаватели предоставили учащимся информацию, необходимую для самостоятельной подготовки к занятиям. К ним относилис силлабус, основная литература, тексты лекций, глоссарий, раздаточные материалы. тематические, видео- и аудиоматериалы, водкасты, дайджесты, кейсы, контрольные задания и другие.. Также следует отметить, что основная литература по предмету представлена учащимся в электронном виде, представлен перечень вопросов для изучения по каждому источнику. Эта информация повысила мотивацию учащихся, обеспечила их необходимыми учебно-методическими материалами для заблаговременной подготовки к занятиям.

Во-вторых, в целях повышения активности студентов в промежуточные и итоговые контрольные работы были включены задания, включающие навыки 21-века. В частности, были созданы 120 тестовых вопросов, вопросы для устных ответов, эссе, видеопрезентации, Google-задания по созданию интерактивных тестов. А также был создан форум для обсуждения студентами проблем науки.

В-третьих, принципиально изменена технологическая карта аудиторных занятий. Например, 80-минутные лекционные занятия были организованы в следующем порядке:

- организационная часть - 5 минут;

- краткое пояснение содержания урока – 10 минут;

- основная часть (вопросы и ответы по теме, дебаты, мозговой штурм, фронтальный опрос, общее тестирование и т.д.) - 60 минут;

- заключительная часть - 5 минут.

Организация теоретических занятий исходя

из потребностей учащихся повысила их активность. На некоторых занятиях вопросов и ответов было так много, что вопросы и ответы продолжались и на форумах.

Также следует отметить, что в связи с тем, что занятие организовано в творческом духе, в более коммуникативной форме, в некоторых случаях вопросы и ответы охватывали практически все вопросы науки.

Одним из уникальных аспектов метода Flipped Classroom в организации практических занятий является то, что в этом методе учебные материалы и задания по предмету предъявляются студенту заранее и практически полностью выполняются на занятиях. За время, отведенное на самостоятельную работу, студенты укрепляют свои знания и навыки, изучая дополнительные материалы самостоятельно от преподавателей естественных наук.

В методе Flipped Classroom в технологической карте практических занятий, в отличие от традиционного метода, произошли следующие изменения:

- был организован четырехступенчатый метод усвоения материала: 1) преподаватель показывает пример на уроке; 2) студенты выполняют задания по образцу; 3) проверяется выполненные работы, вносятся исправления и оценивается; 4) студенты закрепляют свои знания, работая с дополнительными материалами.

Начальный этап этого метода теряет свою первоначальную сущность из-за того, что материалы предъявляются заранее. А следующие этапы будут еще интереснее. Кроме того, время, отведенное на первый этап, выделяется на следующие этапы.

Метод малых групп приобретает свое оригинальное содержание при использовании метода Flipped Classroom. То есть в этом случае на уроке материал не излагается, а урок организуется в виде презентации.

В-четвертых, во время лекции в аудитории визуальные материалы были представлены студентам онлайн через приложения Google. Стоит сказать, что анимации, слайды, таблицы, видео и другие материалы в приложениях Google полностью заменили классную доску, видеопроектор и другие технические средства. Ознакомление студентов с научными материалами через мобильное устройство, слежение за ними в образовательном процессе, общение через форумы и чаты полностью заменили бумажные материалы. Даже столы и парты в аудиториях не понадобились, так как процессы письма были трансформированы мобильные приложения.

В-пятых, организация урока по методу Flipped Classroom требовала предварительного планирования вопросов и ответов. В некоторых случаях, у студентов заканчивались вопросы, потому что на предыдущих уроках получали ответы на эти вопросы. В таких случаях мы использовали следующие способы активизации аудитории:

- попросить студентов ответить на вопросы заданными самим студентов, организовать дополнение ответа и другие;

- были проведены фронтальные опросы в форме цепочки вопросов «Почему?»;

- были применены метод «сократовский вопрос», т. е. задавать вопросы отвечая на вопрос учащихся;

- организация риторических вопросов;

- презентация и обсуждение видео кейса.

Также следует отметить, что в описанных выше случаях монолог преподавателя не превышала 60-80%, иначе в аудитории появляется шум. Для того, чтобы держать аудиторию в активном состоянии, использовались вопросы знатоков «что-где-когда», рассказывались жизненные опыты, обсуждались кейсы. В исследованиях выяснилось, что кейсы экономического содержания особенно привлекают студентов.

В исследованиях были применены методы m-learning и совместного обучения, которые были направлены на организацию обучения через мобильные устройства и при котором весь учебный контент создалось для мобильных устройств в веб-формате с внедрением приложений Google. Задания в веб-формате позволили каждому студенту работать индивидуально с помощью интерактивных кнопок и сенсорного экрана, а задания в приложениях Google позволили сформировать результаты командных работ. На основе данного метода за короткий промежуток времени создавались веб-глоссарии.

Мы начали организовывать мобильное

обучение с трансформации учебных материалов в мобильный формат. При этом:

- журналы преподавателей были переведены к мобильному формату, то есть, в отличие от традиционного журнала, посещения были организованы отдельно, оценки организованы отдельно, а календарный план организован на отдельных страницах.

- тексты лекций были представлены в веб-формате через приложение Google, что было очень удобно для студентов;

- индивидуальное расписание занятий студентов, глоссарии, силлабусы, мультимедийные кейсы разрабатывались непосредственно в интерфейсе мобильного устройства;

- тесты были формализованы через Google-формы и представлены непосредственно студентам в облачной среде, результаты тестирования были организованы путем автоматической публикации показателей успеваемости студентов на определенном сайте;

- глоссарии были организованы на больших аудиториях с помощью презентаций Google.

- организованы контрольные материалы с использованием Google-форм с целью развития письменной речи учащихся по специальным предметам.

- мультимедийные виртуальные стенды оформлены в формате, адаптированном к интерфейсу мобильных устройств.

Литературы

1. Указ Президента Республики Узбекистан от 8 октября 2019 года № УП-5847 «Об утверждении Концепции развития системы высшего образования Республики Узбекистан до 2030 года».
2. Указ Президента Республики Узбекистан от 5 октября 2020 года № УП-6079 «Об утверждении Стратегии «Цифровой Узбекистан-2030» и мерах по ее эффективной реализации».
3. http://bimm.uz – Главный научно-методический центр по организации переподготовки педагогов и руководителей системы высшего образования и повышения их квалификации.
4. https://mk.bimm.uz/ - Дистанционные курсы для профессоров и преподавателей высших учебных заведений.
5. https://moodle.org/
6. https://coderlessons.com/tutorials/akademicheskii/izuchite-oblachnye-vychisleniia/obzor-oblachnykh-vychislenii
7. https://classroom.google.com/h

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 73-76
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 73-76
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 73-76

UOT

İbtidai sinif müəllimi hazırlığında riyaziyyatdan təkrarların keçirilməsi, əhəmiyyəti və rolu

Müəlliflər:

Yaqub Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: yagubmammadov@yahoo.com

Samirə Həsənli
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Açar sözlər:
təkrar, təkrarlama prosesi, biliklər sistemi, tematik təkrar, yekunlaşdırıcı təkrar

Annotasiya. Təlim keyfiyyətinin yüksəldilməsində şagirdlərin bilik və bacarıqlarının sistemləşdirilərək ümumiləşdirilməsində təkrarlama prosesi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin bilikləri o zaman əhatəli və dayanıqlı olur ki, yeni materialın öyrədilməsi keçmiş materiala əsaslansın. Yəni yeni biliklə şagirdlərin malik olduğu əvvəlki bilikləri sıx əlaqələndirsin. Təcrübə göstərir ki, bu əlaqə zəif olduqda şagirdlər öyrəndikləri nəzəri bilikləri yaxşı tətbiq edə bilmir, tezliklə unudur və fikirlərini əsaslandırmaqda çətinlik çəkirlər. Buna görə də təkrarlama prosesinə xüsusi diqqət verilməlidir. Məqalədə ibtidai siniflərin riyaziyyat təlimində təkrarın keçirilməsi, əhəmiyyəti və rolundan bəhs olunur. Göstərilmişdir ki, mənimsənilmiş biliklərin müntəzəm surətdə möhkəmləndirilməsi şagirdin hafizəsini inkişaf etdirib təkmilləşdirir, onda hər bir şeyi möhkəm yadda saxlamaq bacarığını tərbiyə edir. Beləliklə, yadda möhkəm və dərin saxlama şagirdin zarakterinə daxil olur, onun zehni qabiliyyətlərinin inkişafına müsbət təsir edir.

Authors:

Yagub Mammadov
Nakhchivan Teachers Institute
E-mail: yagubmammadov@yahoo.com

Samira Hasanli
Azerbaijan State Pedagogical University

Key word:
repetition, repetition process, knowledge system, thematic repetition, summative repetition

Repetition, importance and role of mathematics in primary school teacher training

Abstract. In improving the quality of education, the process of repetition in the systematization and generalization of knowledge and skills of students is of particular importance. Students' knowledge is comprehensive and sustainable when the teaching of new material builds on previous material. In other words, it must closely link new knowledge with the students' previous knowledge. Experience shows that if this connection is weak, students cannot apply the acquired theoretical knowledge well, quickly forget it and find it difficult to substantiate their ideas. Therefore, special attention should be paid to the replication process. The article talks about repetition, its meaning and role in the mathematical education of primary school. It is shown that the regular consolidation of the acquired knowledge develops and improves the student's memory, educating in him the ability to memorize everything firmly. Thus, a strong and deep memory enters into the character of the student, positively affects the development of his mental abilities.

Авторы:

Ягуб Мамедов
Нахчыванский институт учителей
E-mail: yagubmammadov@yahoo.com

Самира Гасанлы
Азербайджанский Государственный Педагогический Университет

Ключевые слова:
повторение, процесс повторения, система знаний, тематическое повторение, заключительное повторение

Проведение, значение и роль повторений по математике в подготовке учителя начальных классов

Аннотация. В систематизации и обобщении знаний и умений учащихся в повышении качества обучения особое значение приобретает процесс повторения. Знания учащихся становятся всеобъемлющими и устойчивыми, так что преподавание нового материала основано на прошлом материале. То есть пусть новое знание будет тесно связано с предыдущим знанием, которым обладают учащиеся. Практика показывает, что когда эта связь слаба, учащиеся не могут хорошо применить полученные теоретические знания, вскоре забывают об этом и испытывают трудности с обоснованием своих идей. Поэтому процессу повторения следует уделять особое внимание. В статье рассказывается о проведении, значении и роли повторения в обучении математике начальных классов. Было показано, что регулярное закрепление усвоенных знаний развивает и совершенствует воображение ученика, воспитывает в нем умение твердо запоминать все. Таким образом, твердое и глубокое запоминание проникает в характер ученика, положительно влияет на развитие его умственных способностей.

Təkrar prosesində şagirdlərin təfəkkür fəaliyyətləri formalaşır, məqsədləri aydınlaşır, maraq və təşəbbüskarlıqları artır. Bu zaman şagirdi elə vəziyyətə gətirmək lazımdır ki, şagird yeni materialı öyrənməyin zəruriliyini duysun və buna görə də keçmiş bilikləri sistemindən mövcud şərait üçün lazım olanını seçərək tətbiq etməyi bacarsın [1]. Deməli təkrarlama prosesi şagird üçün həm də yaradıcı prosesdir.

Təkraralanma prosesində müəllim əsasən aşağıdakılara diqqət verməlidir:

1) Hər bir fənnin və yaxud hər bir mövzunun özünəməxsus spesifik xüsusiyyətlərinin nəzərə alınmasına;

2) Şagirdlərin müxtəlif xüsusiyyətlərinə, imkan və qabiliyyətə, maraq və təşəbbüskarlığa malik olmasına;

3) Yeni materialla keçmiş materialın nə dərəcədə əlaqədə olmasına;

4) Təkrarlanma prosesinin aparılması üçün müəllimin tətbiq etdiyi suallar sisteminin şagirdlərin gücünə müvafiq olmasına;

5) Təkrar üçün seçiləcək materialın sistemləşdirilməsinə.

Məlumdur ki, ibtidai siniflərdə riyaziyyat təliminin əsas məqsədi şagirdlərə fundamental biliklərin verilməsindən ibarət olmayıb, onları gələcək həndəsi və cəbri materialın yaxşı mənimsədilməsinə, müxtəlif qrafiki formalarda verimiş məlumatları təqdim etməyə, hadisələrin baş vermə ehtimallarını hesablamağa və statistik təhlilər aparmağa hazırlamaqdan ibarətdir [2].

Yadda saxlamaq lazımdır ki, təkrar unudulmuş bilikləri yadda saxlamaq üçün deyil, unutmanın qarşısını almaq üçün aparıldıqda daha səmərəli olur.

Təcrübə göstərir ki, təkrar unudulmuş biliyin qarşısını almalıdır. Onun bərpa olunaraq mövcud şərait üçün tətbiq edilməsində şagirdlərin əksəriyyəti çətinlik çəkir. Çox vaxt belə təkrar səmərə də vermir. Ona görə də müəllim tərarlama prosesində aşağıdakılara ciddi diqqət verməlidir:

- Nəyi təkrar etməli? (Yəni təkrar üçün materialın seçilməsi).
- Necə təkrar etməli? (Yəni təkrarlama metodikasını müəyyənləşdirməli).
- Nə vaxt təkrar etməli? (Yəni təlim prosesinin düzgün təşkili və təkrarın yerinin müəyyənləş¬dirilməsi). Burada hər bir sualın cavabı müəllimin özündən xüsusi bacarıq və hazırlıq tələb edir.

Keçirilənlərin hamısını təkrar etmək lazım deyil. Dərslikdən əsas suallar, anlayışlar və mövzular təkrar üçün seçilməlidir. Eyni zamanda şagirdlərin çətin mənimsədiyi mövzular, suallar və anlayışlar təkrar edilməlidir. Təkrar üçün material əvvəlcədən seçilməli və sistemləşdiril¬məlidir.

Təkrarın aparılması üçün müəllim bütün mövzunu kompleks şəkildə qruplaşdırır, şagirdin çətinlik çəkəcəyi məsələləri təxmini müəyyən edir, onların təfəkkürünü istiqamətləndirmək üçün diktə xarakteri daşımayan suallar sistemi tərtib edir. Təcrübə göstərir ki, təkrarlama prosesi çalışmalar həllində daha səmərəli yerinə yetirilir. Bu zaman şagirdlərin keçmiş biliklərini yaxşı tətbiq etmək üçün verilmiş misalın müxtəlif həll üsulları tələb olunur. Yadda saxlamaq lazımdır ki, bir neçə çalışmanı eyni üsulla həll etdirməkdəndirsə, eyni bir çalışmanı müxtəlif üsulla həll etdirmək daha səmərəli olur.

Təkrar təsadüfdən-təsadüfə deyil, ardıcıl, sistemli və riyaziyyatın metodları əsasında bütün dərs ilində aparılmalıdır. Təkrar formasının seçilməsi ətraflı düşünülməli və təşkil edilməlidir. Bu formalar bir-birini tamamlamalı və ümumi sistem əmələ gətirməlidir. Məlum “Oxu, öyrən və yadda saxla” fikrini heç vaxt unutmaq olmaz. Çünki bir fikir tam yerinə yetirilmədikdə, nə qədər çox təkrar aparılsa belə, heç bir nəticə əldə edilmir.

Müşahidələr göstərir ki, təkrar dərslərinin aparılmasında bir çox müəllimlər aşağıdakı nöqsanlara yol verirlər:

- Təkrar dərslərinə müəllim nadir hallarda hazırlaşır və səhv olaraq, elə fikirdədir ki, təkrar dərs xüsusi hazırlıq tələb etmir.
- Təkrar dərsi ancaq ilin sonunda aparılır. Bu da şagirdlərin həddən artıq yuklənməsinə və təkrarın səthi aparılmasına gətirib çıxarır.
- Mövcud dərsliyi təkrar üçün lazım olan hissələrə ayırmır.
- Təkrar dərslərində müəllim, ev tapşırıqlarını verərkən, dərslikdən ancaq paraqrafları və çalışmaların nömrəsini deyir. Əslində müəllim hansı paraqrafın, hətta hansı sualın, anlayışın başa düşülməsi və mənimsənilməsindəki çətinliyi nəzərə alaraq, şagirdlərə ora daha çox diqqət yetirmələri haqqında göstəriş verməlidir. Eyni zamanda, hansı mövzudan gələcək dərslərdə geniş istifadə ediləcəyini nəzərə alaraq şagirdlərin diqqəti həmin mövzulara cəlb edilməlidir.

Təkrarı məqsədinə görə aşağıdakı qrupla-

ra ayırmaq olar: tədris ilinin əvvəlində aparılan təkrar; yeni materialın öyrənilməsi ilə əlaqədar aparılan təkrar; bilavasitə, yeni materialın öyrədilməsi ilə bağlı olmayan təkrar; tematik təkrar; yekunlaşdırıcı təkrar [3].

Təlim prosesində proqram materillarının şagirdlər tərəfindən möhkəm və dərindən mənimsənilməs, məktəblərdə dərs keyfiyyətinin yüksəldilməsi işində ən mühüm məsələlərdən biridir.

Biliklərin möhkəm mənimsənilməsi didaktikanın əsas prinsiplərindən biridir. Bu prinsipə əsasən, bilikləri möhkəm mənimsəmək – onları istənilən vaxtda, tez və düzgün yada sala bilməkdən, şüurlu surətdə, dərində və ardıcıl şəkildə hafizədə bərpa etməkən ibarətdir. Biliklərin yaxşı mənimsənilməsi, hər şeydən əvvəl, proqram materiallarının aydın, dərin və ardıcıl şəkildə şərhi üzvi surətdə əlaqədardır. Digər tərəfdən biliklərin möhkəm mənimsənilməsi, yeni əldə edilmişlərin müntəzəm surətdə təkrarlanması və möhkəmləndirilməsindən asılıdır. Buna görə də müəllim hər bir dərsdə mənimsənilən biliklərin möhkəmlənməsini hökmən təmin etməlidir.

Biliklər sisteminə yiyələnmək, elmin bütün tərkib hissələrini müntəzəm surətdə mənimsəməklə əlaqədardır. Elmin hər bir tərkib hissəsi isə başqaları ilə ayrılmaz surətdə bağlı olduğundan, sonrakı tərkib hissəni isə mənimsəmək üçün ondan qabaqkı hissələri dərindən və möhkəm bilmək lazımdır; yalnız bu şərtə riayət olunduqda biliklər sisteminə əsaslı surətdə yiyələnmək olar.

Deməli, keçmişdə mənimsənilmiş bilik həmişə yeni öyrəniləcək biliklərin mənimsənilməsi üçün sarsılmaz özül rolunu oynayır. Bu özül olmadan biliklərin mənimsənilməsində müvəffəqiyyət qazanmaq olmaz. Şagirdlərin əldə etdikləri biliklər müntəzəm surətdə möhkəmləndirilmədikdə, onlar bilikləri unudur, beləliklə də, təlim prosesində biliklərə yiyələnmək işində irəliyə doğru hərəkət mümkün olmaz. Bunun nəticəsində müəllimin çəkdiyi böyük əmək hədər yerə sərf olunmuş olar. Beləliklə, biliklərin sistemlə keçilməsi, keçilmiş proqram materialının tamamilə və əsaslı surətdə möhkəmləndirilməsini təmin etməyi nəzərdə tutur və onu tələb edir.

Mənimsənilmiş biliklərin müntəzəm surətdə möhkəmləndirilməsi şagirdin hafizəsini inkişaf etdirib təkmilləşdirər, onda hər şeyi möhkəm yadda saxlamaq bacarığını tərbiyə edər. Beləliklə, yadda möhkəm və dərin saxlama şagirdin xarakterinə daxil olar, onun zehni qabiliyyətlərinin inkişafına müsbət təsir edər. Əksinə, əgər mənimsənilmiş biliklər müntəzəm surətdə təkrar edilməzsə, şagirdin yaddaşı davamsız, biliyi səthi olar.

Böyük slavyan pedaqoqu Y.A.Komenski, təlim materiallarının əsaslı mənimsənilməsi, mənimsənilmişlərin hafizədə uzun müddət saxlanılması işində təkrara böyük qiymət vermişdir.

Y.A.Komenskiyə görə material tez -tez təkrar edilməzsə, qavranılmış biliklər əsaslı dərəcəyə çatdırıla bilməz, alınmış biliklər isə hafizədən süzülər, müəllimin (eləcə də şagirdin) əməyi hədər gedər. Hədər yerə sərf olunmuş əmək isə "xəlbirlə su daşımağa" bənzər [4].

Tədrisdə təkrarın böyük əhəmiyyəti olduğu şübhəsizdir. O da şübhəsizdir ki, pedaqoji təkrarın növləri, təşkili və s. haqqında verilən məlumat riyaziyyat tədrisindəki təkrara da aiddir.

Müəllimin arzusundan asılı olmayaraq təkrar riyaziyyatın təbiətinə mənsub olan bir sifətdir, riyazi biliklərin daxili məntiqi əlaqəsi səbəbi ilə bu elmin anlayışları təkrar olunur. Özü də buradakı təkrar çox vaxt anlayışın inkişafı xarakterini daşıyır. Şagirdlərin II-III siniflərdə kəsrlər haqqında aldıqları biliklər IV sinifdə təkrar olunur, bu anlayışın həcmi və məzmunu genişlənir, sonra VII sinifdə kəsrlər haqqında biliklər yenə də təkrar olunur və daha ümumi olan cəbri kəsrləri kəsrləri əhatə edir. Bu misal proqramda materialın düzülüşündən doğan təkrarı göstərir. Lakin təkrar olduqca çox müxtəlif səbəblərdən, müxtəlif ölçü və müxtəlif şəkildə baş verə bilər. Məsələn, hesab əməllərinin komponentləri ilə nəticələri arasındakı əlaqə riyaziyyatla məşğul olan hər bir şəxsin dəfələrlə rast gəldiyi faktdır. Müəllim tədrisdə təkrarın rəhbəri, təşkilatçısı olmalıdır; istər qarşıdakı bir dərsdə, istərsə də yeni tədrisə başlayacağı və ondan gözlənilən bütün faydaları almağa hazır olmalıdır. Ancaq belə bir halda təkrar həqiqətən bilik və bacarıqları möhkəmlətdmək vasitəsi olacaqdır. Qeyd edək ki, təkrarın əhəmiyyətli olması üçün onun planı tərtib edilməlidir.

Təkrar zamanı şagirdlərin fəallığı olduqca lazımdır, bu isə müəllimin əvvəldən məlum materiala daxil edəcəyi yenilik elementləri ilə mütənasibdir.

Təkrarın sonunda müəllim qısa və məzmunlu sözləri ilə dərsi yekunlaşdırraraq biliyi ümumiləşdirir, dərin və möhkəm mənimsəməyə kömək edir, bəzi ümumi və fərdi tapşırıqlar verir. Dərs təkrar olunan mövzuya aid məsələlər həllini

evə tapşırmaqla bitir.

Təkrar nəinki bir dərsdə, hətta sır ilə gələn bir neçə dərsdə də aparılır. Belə təkrar, adətən, rübün və ya dərs ilinin son həftəsində təşkil edilən təkrardır.

Hər bir fəndə olduğu kimi riyaziyyat fənni tədrisində təkrar sadəcə mexaniki təkrar deyildir. Təkrar nəticəsində şagirdin biliyi yeni kəmiyyət kəsb edir. İbtidai sinifdə şagirdlərin öyrəndikləri ayrı-ayrı qaydalar və hesablama üsullarını qavrayarkən onların görüş dairəsi dar olur, gələcəkdə nə olacağını bilmirlər. Təkrar isə çatmayan bu cəhətləri təmin etməlidir. Yaxşı təşkil olunmuş təkrar nəticəsində şagird öyrəndiklərinin mənasını və bir-biri ilə əlaqəsini anlayır.

İbtidai siniflərdə riyaziyyatdan materialın təkrarında məsələlər, misallar həlli və başqa çalışmalar çox böyük rol oynayır. Ümumiyyətlə, təkrar riyazi məsələlərin təbiətinə mənsub bir sifətdir. Təcrübə göstərir ki, təkrar vasitəsilə şagirdlərin biliyini möhkəmlətmək üçün məsələ və misallar çox yaxşı vasitədir. Qeyd edək ki, proqram üzrə cari iş ilə paralel olaraq əvvəl keçirilmiş bir bəhsi təkrar etdirmək üçün hər dərsdə bu bəhsə aid məsələ və misallardan bir neçəsini evdə həll etmək üçün şagirdlərə tapşırmaq çox yaxşı nəticə verir.

Ədəbiyyat

1. Süleymanov, S.P. Riyaziyyat dərslərində təkrarın təşkili. İbtidai məktəb və məktəbəqədər tərbiyə. №5, –1985.
2. İbtidai siniflərin proqram və dərslikləri. – Bakı, – 2018.
3. Həmidov, S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. / S.S.Həmidov – Bakı: ADPU, – 2008, – 332 s.
4. Seyidov, Ə. Prdaqogika tarixi. / Ə.Seyidov, – Bakı, – 1968.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 77-83
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 77-83
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 77-83

UOT

"Kaspi" qəzeti böyüyən nəslin müasir düşüncə sahibi kimi formalaşmasında məktəbin və müəllimin rolu haqqında

Müəlliflər:

Vahid Rzayev
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: vahidrzayev23@gmail.com

Ayşən İmanlı
Naxçıvan Dövlət Universiteti
E-mail: ayshan_imanli@hotmail.com

Açar sözlər:
"Kaspi" qəzeti, maarifçi-pedaqoji hərəkat, təhsilin məzmunu ümumtəhsil məktəbləri, müəllimlər

Annotasiya. Məqalədə XIX əsrin sonları və XX əsrin əvvəllərində "Kaspi" qəzetində böyüyən nəslin müasir düşüncə sahibi kimi formalaşmasında məktəbin və müəllimin rolu məsələlərindən bəhs olunur. 38 illik bir dövr ərzində rus dilli mətbuat numunəsi kimi "Kaspi" Azərbaycan həyatının bütün sahələrinin güzgüsü olmaqla yanaşı, milli maarifçiliyin, yeni pedaqoji düşüncənin və məktəb təhsilinin inkişaf etdirilməsi, həmçinin yeni baxışlara malik müəllimlərin formalaşdırılmasının nəzəri və təcrübi məsələlərini işıqlandıran qabaqcıl nəşrlərdən biri olmuşdur. Görkəmli Azərbaycan maarifçiləri H.Zərdabi, Ə.M.Topçubaşov, F.Köçərli, Ə.Ağaoğlu və başqalarının böyüyən nəslin təlim və tərbiyəsi işində köhnə məktəbin və onun müəllimlərinin zamanın tələblərinə cavab verməməsi haqqında tənqidi fikirləri təhlil olunmuş və bu sahədə yeni düşüncənin möhkəmlənməsi işinə xidmət edən məktəblər və müəllimləri haqqında fikirləri öyrənilmişdir.

Authors:

Vahid Rzayev
Nakhchivan State University
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: vahidrzayev23@gmail.com

Ayshan Imanli
Nakhchivan State University
E-mail: ayshan_imanli@hotmail.com

Key word:
The newspaper "Kaspi", educational-pedagogical movement, content of education, secondary schools, teachers

"Kaspi" newspaper about the role of the school and the teacher in the formation of the growing generation as a modern thinker

Abstract. The article deals with the issues of the role of schools and teachers in the formation of the growing generation as a modern thinker. During a period of 38 years, the newspaper "Kaspi", as an example of Russian-language press, has been a mirror of all spheres of Azerbaijani life. In addition to being a mirror of all spheres of life, it is also one of the leading publications covering the theoretical and practical issues of national education, the development of new pedagogical thought and school education, as well as the formation of teachers with new perspectives. The article analyzes the critical opinions of prominent Azerbaijani intellectuals G. Zardabi, A. M. Topchubashov, F. Kocherli, A. Agaoglu and others about the inconsistency of the old school and its teachers with the requirements of the teaching and educating the younger generation. Their opinions about schools and teachers strengthening new thought in this area is studied. Meanwhile, the ideas about schools and teachers in the direction of the formation of new manner of thinking are highlighted in the article.

Авторы:

Вахид Рзаев
Нахчыванский государственный университет
доктор философии по педагогике, доцент
E-mail: vahidrzayev23@gmail.com

Айшен Иманлы
Нахчыванский государственный университет
E-mail: ayshan_imanli@hotmail.com

Ключевые слова:
газета "Каспий", просветительско-педагогическое движение, содержание образования, общеобразовательные школы, учителя

Газета «Каспий» о роли школы и учителя в формировании подрастающего поколения, обладающего современным мышлением

Аннотация. В статье рассматриваются вопросы о роли школы и учителя в формировании подрастающего поколения как носителя современного мышления, нашедшие свое отражение в газете "Каспий" конца XIX - начала XX веков. В течение 38-летнего периода "Каспий", как образец русскоязычной прессы, стал зеркалом всех сфер жизни Азербайджана, а также одним из ведущих изданий, освещающих теоретические и практические вопросы развития национального просвещения, новой педагогической мысли и школьного образования, а также формирования учителей с новыми взглядами. В работе были проанализированы критические взгляды выдающихся азербайджанских просветителей Г.Зардаби, А.М.Топчубашева, Ф.Кочарли, А. Агаоглу и других о несоответствии требованиям времени деятельности старой школы и ее учителей по обучению и воспитанию подрастающего поколения, а также изучены мысли о школах и их учителях, которые служат делу укрепления нового мышления в этой области.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ziyalıları Rusiyanın müstəmləkəçilik siyasətinin ağırlığını dərk edərək, öz xalqının milli zülmdən azad edilməsi uğrunda mübarizə aparmağa, doğma dilin və mədəniyyətin inkişafına, milli məktəblərin yaradılmasına, milli təhsilin yeni məzmun istiqamətində formalaşmasına bilik və bacarıqlarını kömək etməyə cəhd göstərirdilər. Çarizmin ayrı-seçkilik və ruslaşdırma siyasəti şəraitində ziyalılar və ictimai həyatın bütün sahələrində fəaliyyət göstərən qabaqcıl insanlar xalqı oyatmaq üçün çox vacib vasitə kimi yeni təhsil müəssisələrinin açılmasına və bu məktəblərin cəmiyyətin bütün təbəqələrini əhatə etməsinə böyük səy və qüvvə sərf edirdilər. Dövrünün qabaqcıl ideyalarını xalqın ruhuna hopdurmaq istəyən “Kaspi” qəzeti də öz səhifələrində maarif, tərbiyə, mənəviyyat, mədəniyyət məsələlərinə geniş yer ayırırdı. “Tərbiyə-insan həyatında başlıca amildir” qəzetin əsas devizi idi, desək səhv etmərik. Tərbiyə ocağı isə məktəbdir, yeni təhsil-tərbiyə müəssisələridir. Məhz məktəb və müəllimlər təlim-tərbiyə işini sistemli, ardıcıl, elmi-pedaqoji əsasda və yüksək metodiki səviyyədə təşkil edə bilərlər.

“Kaspi”də yeni məktəb və yeni pedaqoji düşüncə sahibi müəllim haqqında ilk fikir və mülahizələr XIX əsrin sonlarındakı Azərbaycan maarifçiliyinin bayraqdarı Həsən bəy Zərdabi olmuşdur. H.Zərdabi 1884-cü ildən özünün maarifçi ideyalarını yaymaq üçün “Kaspi” qəzetindən əsl tribuna kimi istifadə etmişdir. Onun məqalələri maarifçilik ideyalarını əhali arasında yaymaq məqsədlərinə xidmət edən cəsarətli çıxışlar kimi dövrünün ictimai fikrinə əsaslı təsir göstərmişdir. Yeni üsullu məktəblərin açılması, gənc nəslin savad təliminə yiyələnməsi, dünyavi elmlərin sirlərinə bələd olması, cəmiyyət həyatına baxışlarının yeniləşməsi və onun fəal iştirakçısına çevrilməsi, digər bu kimi məsələlər böyük maarifçinin təbliğ etdiyi əsas fikir, düşüncə qatı idi.

“Kacпи”də H.Zərdabinin maarifçi fəaliyyəti Azərbaycanın ictimai-siyasi həyatının bütün tərəflərini və ideya - məzmununu əks etdirən baxışlar sistemidir. H.Zərdabinin maarifçi fəaliyyətinin “Kaspi” dövrü onun yaradıcılığının xüsusi bir mərhələsi, Azərbaycan maarifçilik hərəkatının çox əhəmiyyətli səhifələrindən biridir. Böyük maarifçinin bütün həyatı elm və maarifin, məktəb təhsilinin əhali arasında yayılmasına həsr olunmuşdur.

Tədqiqat sübut edir ki, H.Zərdabinin pedaqoji-maarifçi görüşlərində məktəb təhsili məsələləri xüsusi yer tutmuşdur. Təhsil, məktəb insanın bəsirət gözünün açılmasına, özünü və milli mənsubiyyətini dərk etməsinə, həyat tərzini yaxşılaşdırmasına, hərəkət və davranışının cəmiyyət normaları ilə tənzimlənməsinə istiqamətlənmiş tərbiyə prosesidir. Böyük maarifçi məktəb məsələsini özünün ictimai fəaliyyətindən ayrı təsəvvür etmir, əksinə bütün fəaliyyətinin məqsədi, məzmunu, məğzi kimi qiymətləndirirdi. H.Zərdabi biliyi işığa bənzədir və yazırdı ki, kim bilikdən məhrumdursa, o işıqdan məhrumdur. Onun fikrincə, məhz yaxşı təşkil olunmuş məktəblərin sayını artırmaqla, bir millət kimi öz yaralarımızı sağalda bilərik [8].

Xalqın öz hüquqlarını dərk etməsi məqsədilə müstəqil məhkəmə vəkilliyi, əhalinin savadlanması üçün məktəblərin açılmasına səy və təşəbbüs göstərmək, ana dilində qəzet nəşr etmək və digər mədəniləşdirici vasitələrin-milli teatrın, yoxsul uşaqların təhsilə cəlb edilməsi üçün xeyriyyə cəmiyyətinin təşkili, qızların təhsili və tərbiyəsi və s. bu kimi maarifçi tədbirlər H.Zərdabinin çoxşaxəli fəaliyyətinin tərkib hissəsi idi. Böyük maariçinin “Kaspi” qəzetində 280-nə yaxın məqaləsi çap olunmuşdur. Təhlillərimiz göstərir ki, “Kaspi”nin 1881-1897-ci illərə aid nəşr olunmuş saylarında azərbaycanlı jurnalist kimi ən çox nəşr olunan Həsən bəy Zərdabi olmuşdur. Onun yazıları Azərbaycanda və rusiya müsəlmanları arasında qabaqcıl ideyaların yayılmasında, əhali arasında elmi biliyin və maarifin təbliğində böyük rol oynamışdır.

H.Zərdabi bəy və şeyxlərin əlbir olaraq kəndliləri idarə etmək, öz təsir və nüfüzü altında saxlamaq kimi bəd niyyətlərini tənqid edir, bu cür qara qüvvələrlə mübarizə aparmaqdan qorxmayan böyük ziyalı camaatı onların bəd niyyətlərindən, mənfur məqsədlərindən xəbərdar etməyi və qorumağı özünə borc bilirdi. Hamıya məlumdur ki, cahillikdən, avamlıqdan xilas olmaq üçün bir yol var, o da məktəbdir – deyən H.Zərdabi heç olmazsa əhalisi çox olan kəndlərdə tezliklə dövlət tərəfindən məktəblər açılmasını gündəmə gətirirdi. Yeni məktəblərin yaradılmasını əhali arasında savad, bilik və mədəniyyəti yaymaq üçün çox mühüm, alternativi olmayan vasitə hesab edən böyük maarifçi bu sahədə dövlət idarəçilik orqanlarının məsuliyyətini dönə-dönə xatırlatmalı olurdu. H.Zərdabiyə görə bu işdə qu-

bernatorun, xalq məktəbləri direksiyasının, qəza rəisinin, polisin və digər yerli idarəçilik orqanlarının (zemstvoların, xeyriyyə cəmiyyətlərinin, tavanalı şəxslərin) birgə səyi xüsusi rol oynaya bilər. Məhz onlar yeni tipli təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılmasının təminatçısı ola bilərdi [9].

Həsən bəy Zərdabi hələ "Əkinçi" qəzetində müəyyənləşdirdiyi maarifçi kredonu "Kaspi" qəzetində də davam və inkişaf etdirmişdir. "Kaspi"dəki fəaliyyəti dövründə böyük maarifçi dünyavi elmləri təlim edən məktəblərin şəbəkəsinin genişləndiriməsi ilə bağlı daha ardıcıl və davamlı şəkildə mübarizə aparır, bu sahə üzrə hər hansı bir təşəbbüsü təqdir edir, onların verəcəyi faydanı yüksək qiymətləndirirdi. H.Zərdabi məqalələrinin birində ("Bizim kənd məktəbləri") göstərdiyi kimi Zaqafqaziyanın bütün quberniyalarında açılması nəzərdə tutulmuş bu məktəblər kəndlərdə dəyişikliklərə səbəb olar, tez bir vaxtda faydalı nəticələr verə bilər. Müəllif yazırdı: "Bu cür dəyişikliklər bizim diyara intibah erası gətirəcək: məktəbdə əldə olunmuş biliklər kənd əhalisinin fəaliyyətində tətbiq olunacaq; belə bir öyrənmənin təsadüfi yox, faydalı olduğu görünəcək və xalqın qaranlıqdan, cəhalətdən qurtarmasına kömək edəcək və cəsarətlə demək olar ki, əhali böyük sevinclə belə bir məktəbin görüşünə gedər və onların əksəriyyəti ictimai danışıq və söhbətlərdə iştirakçı olar, tezliklə diyarımız öz yaralarını sağaldar, dinc yaşayış yoluna doğru gedər, məktəblərin açılmasına vəsait toplanması işində həvəslə iştirak edər, diyarın ictimai sabitliyinin mühafizəsi üzrə yerli müdafiə işlərinə böyük fayda verər" [10, s.219-220].

"Bizim kənd məktəbləri" məqaləsi Həsən bəy Zərdabinin dünyavi təhsil haqqında baxışları dövrünün sosial sifarişlərinə cavab verə biləcək məktəblərin struktur-məzmun xüsusiyyətlərinə aid fikir və düşüncələrinin aydın və konkret ifadəsidir. Yazının başlanğıcında müəllif oxucunu, pedaqoji mühiti belə bir parodoskal vəziyyətlə tanış edir. İndiki halda xüsusi qeyd edilməlidir ki, bizim şərqi Zaqafqaziyada Qafqaz ölkəsinin digər hissələrinə nisbətən xalq təhsili üzrə işlər hissi olunacaq səviyyədə aşağıdır. Əgər, Tiflis quberniyasında ibtidai kənd məktəbləri yetmişinci illərdə açılmışdırsa, şərqi Zaqafqaziyada bu cür məktəblərin təsis olunması ancaq son dövrlə bağlıdır. Lakin həm də qeyd etməliyik ki, açılan məktəblərin hər zaman uğur və müəyyən nailiyyətlər əldə etdiyi qənaətini yaratmaq olmaz-deyən Həsən bəy Zərdabi bu cəhətin yerli xüsusiyyətlərdən, buradakı məktəblərin fəaliyyət prinsiplərindən, təlim-tərbiyə prosesinin məzmunundan asılı olduğu qənaəti ilə razılaşmamaq mümkün deyil. Müəllif məxsusi olaraq diqqətə çatdırırdı ki, kənd məktəblərində izlənilən məqsədə nail olmaq yolunda yerli xüsusiyyətlərin əsaslı maneə olduğu şübhəsizdir. Bəzi hallarda bu xüsusiyyətlər əsas məqsədlə ziddiyyət təşkil edir, işığın mənbəyi olan biliyin məktəbdə tədris zamanı mənfi nəticələr doğurmasına səbəb olur, böyüyən nəslin mənəviyyatını korlayır, onu eybəcər hala salır, əməyə, zəhmətə qatlaşmasına və düzgün münasibət göstərməsinə mane olur, onu ziyanlı ünsürə çevrilir [10, s.218].

Həsən bəy Zərdabi özünün haqlı olduğunu təsdiq etmək məqsədilə sözünə davam edərək yazırdı: "Bizim fəaliyyət göstərən məktəblərin yerli əhali üzərində müsbət təsirlərdən məhrum edən bu "xüsusiyyətlərə" toxunmağı niyə vacib hesab etdiyimiz aydın oldu. Hələlik çox təəssüflə qeyd etməliyik ki, əhalinin əksəriyyəti bizim ibtidai ümumtəhsil kənd məktəblərini faydalı hesab etmirlər. Bu isə başlıca olaraq ondan asılıdır ki, bizim müsəlman kəndlərindəki məktəblər tədris-tərbiyə işləri üçün arzu olunmaz şəraitdə fəaliyyət göstərir. Bu məktəblər müsaid olmayan ərazidə yerləşir. Bu məktəblərdə əldə edilmiş biliklər daşlıq əraziyə düşmüş sağlam toxuma bənzəyir. Onlar böyüyüb yetişə bilmirlər. Əgər bu toxumlardan hər hansı biri yaxşı bir torpaq qatına, müəyyən təbəqəyə düşsə belə gec, yaxud tez məhvə məhkumdur" [10, s.218].

Məqalədə ana dilinin tədrisi məsələlərinə də toxunan Həsən bəy Zərdabi doğru olaraq göstərir ki, sadə xalq bu prosesdə heç də qənaətbəxş olmayan vəziyyətin və onu doğuran səbəblərin yalnız hiss olunan, gözə çarpan nəticələrini görə bilər. Lakin bu nəticələr rus dilinə münasibətdə, yerli dil kimi Azərbaycan dilinə münasibətdə vacib deyil. Kənd ibtidai məktəblərində Azərbaycan dilinin tədrisi elə müəllimlərə həvalə edilmişdir ki, onlar bu fənnin tədrisinə aid kursları bitirməmiş, savadsız şəxslərdən ibarətdir. Şübhəsiz ki, belə müəllimlərdən tədris zamanı xüsusi müvəffəqiyyət gözləmək olmaz. Tədris-metodiki işdən məlumatlı olmadıqları üçün bu müəllimlər çətin ki, uğur qazana bilsin. Məktəbə təyin olunmuş nəzatətçilər də (məktəb müdirləri-A.İ.) yerli dili bilmədiklərindən bu fənni tədris edən müəllim-

lərin uğursuzluqlarının nədən ibarət olduğunu, yaxud hansı uğurlara nail olduğunu müəyyənləşdrə bilmir, təəccüb doğuran cəhət isə ondan ibarətdir ki, çox vaxt bu sahəyə, yəni Azərbaycan dilinin tədrisinin gedişinə nəzarət məsələlərinə məhəl qoymur. Nəticədə üç il məktəbə davam edən uşaq Azərbaycan dilində öz familiyasını düzgün yaza bilmir [10, s.218].

Təhsilin, məktəbin böyüyən nəslin inkişafında yeri və rolunu, həyati mənasını doğru düzgün qiymətləndirən maarifçi Əli Mərdan bəy Topçubaşov məktəb xalqların ümumi rifahının ən etibarlı təminatıdır, yaxşılığın, xeyrin şər üzərində əsl qələbəsidir deyirdi. Müəllif təəssüf hissi ilə göstərirdi ki, hələ bizdə icbari təhsil sistemi yoxdur. Çox az bir qism fəaliyyət göstərən təhsil müəssisələri isə varlıların kiçik bir azlığının imtiyazındadır. Lakin məktəb təhsilinə xalqın bütün təbəqələrində maraq artır, bu sahəyə ehtiyac gün-gündən getdikcə daha da güclənir. Ə.M. Topçubaşova görə bu cəhət məhz ictimai həyatın sferası olmalıdır. Məktəb təhsilində "şəxslər, rütbələr və dövlətlər" fərqi qoyulmadan bütün əhalini əhatə etmək, onun inkişafı və çiçəklənməsinə sevinmək, hər bir sakinin təhsil ala bilmək imtiyazı nəzərə alınmalıdır.

Ə.M.Topçubaşov təhsil müəssisələrinin yaradılmasına, tədris-tərbiyə işinin düzgün təşkilinə ümumin vəzifəsi kimi baxır və yazırdı ki, təhsil müəssisələrinin inkişafına xeyriyyəçi fəaliyyəti ilə yardımçı olan, tədris-maddi bazanın yaxşılaşmasına imkanı olan hər kəsin köməklik göstərməsi müqəddəs borcudur.

Ə.M.Topçubaşov məktəbdə tədris-tərbiyənin düzgün təşkili işinə kömək etmək kimi çox mühüm vəzifəni də müəyyənləşdirirdi. O, göstərirdi ki, hər şeydən əvvəl bu vəzifə məktəbə ən yaxın olanların-müəllimlərimizin üzərinə düşür. Təhsil müəssisələri müəllimlər məktəbin bütün yaxşı və pis cəhətləri haqqında xəbərdar olmalıdırlar. Fədakar müəllimlər işlərini sevirlər və müəllim bayrağını uca tuturlar, gənclərimizin tərbiyəsində və təhsilində var qüvvəsi ilə çalışırlar [11, s.104].

Ə.M.Topçubaşov da məktəb və ümumiyyətlə təhsillə bağlı məsələləri müntəzəm olaraq izləyir, yeri gəldikcə öz fikir və düşüncələrini mətbuat vasitəsi ilə pedaqoji mühitə çatdırır, əhalinin savadlı təbəqəsilə bölüşürdü. Görkəmli maarifçi və ictimai xadim təhlilə cəlb etdiyimiz bu məqaləsində yazırdı: "Xalq təhsili nazirinin sədrlik etdiyi komissiyanın gəldiyi qənaətlər hələlik nəinki səlahiyyətli qurumlar, hətta mətbuatda da müzakirə olunacaq. Bu cür ciddi məsələlərlə bağlı deyilən hər bir yeni canlı söz islahata hər tərəfdən yanaşmağa imkan verəcək və bununla da onun düzgün həllinə kömək edəcəkdir. Xüsusilə, məktəb yerli xüsusiyyətlərə görə öz ehtiyacları üçün xüsusi tələblər irəli sürdüyü yerdə bu cür kömək lazımdır və vacibdir.

Bu baxımdan Qafqaz məktəbinin ən çox təfərrüatlı araşdırmaya ehtiyacı var. Aramızda tayfa, dini və s. münasibətlərdə mövcud olan, təbii olaraq orta məktəbin daxili həyatına təsir edən elə kəskin fərqlər yaradır ki, bu xüsusiyyətlər ilk növbədə, pedaqoji baxımdan nəzərə alınmalıdır" [11, s.105].

Ə.M.Topçubaşov Qafqaz məktəblərində geniş yayılmış ana dillərinin siniflərdə tədris olunan fənlərin sayına daxil edilməsi, Qafqaz regionunun, coğrafiyası və tarixinin, ticarət və sənayesinin vəziyyətinin və s. daha ətraflı öyrənilməsinin zəruriliyini xüsusi olaraq qeyd edirdi. Gənc yaşda olan uşaqların yaş və bilik səviyyələrinə daha çox uyğunlaşdırılmış dərsliklər məsələsinə də xüsusi əhəmiyyət verirdi. Məqalə müəllif haqlı olaraq göstərirdi ki, Qafqaz məktəbi ilə bağlı məsələlərin özünəməxsus səciyyəvi cəhətləri var ki, (dillərin və dinlərin müxtəlifliyi mənasında - A.İ.) onlar məhz indiki dövrdə, orta məktəbin yenidən təşkili nəzərdə tutulan şəraitdə mətbuatda yer almalı, əsas müddəalarının müzakirəsinin keçirilməsindən sonra layihədə təsbit olunmalı, tərbiqinə göstəriş verilməlidir.

Müəllif göstərirdi ki, bu məsələlərdə söz ilk növbədə qafqazlı müəllimlərə verilməlidir ki, onların arasında, əminik ki, əlverişli məqamdan istifadə edərək orta məktəbin yenidən qurulması istiqamətində qarşıya qoyulan böyük işlərə öz töhfəsini verəcək və bununla da qarşıya qoyulan vəzifələri yerinə yetirəcəklər. Bütün bunlar öz peşəsini sevən və bilikli qafqazlı müəllimin üzərinə düşən vəzifədir [11, s.105].

Tədqiqatçıların göstərdiyi kimi dövrünün türk dünyasının görkəmli maarfçisi Əhməd bəy Ağaoğlu "Kaspi" qəzeti ilə 1897-ci ildən əməkdaşlığa başlamışdır. O bu qəzetdə daha çox islam dini ilə bağlı məqalələr yazmışdır. O "Bizim müəllimlərimiz", "İran və inqilabı", "Sərbəst insanlar ölkəsində", "İslamda qadın", "Dövlət və fərd" və digər əsərlərində özünəməxsus maarifçi baxışları ilə seçilən mütəfəkkirlərimizdən biri kimi tanınmışdır.

Ə.Ağaoğlu "Bizim müəllimlər" məqaləsində 20-ci əsrin əvvəllərində Azərbaycan müəllimlərinin fəaliyyətini təhlil edir, o dövrün Azərbaycan məktəbinin acınacaqlı vəziyyətini sübuta yetirən faktlar, dəlillər əsasında yazırdı: "Ümumiyyətlə ali təhsilli müsəlmanlar özlərinin əqli və əxlaqi maariflənməsi üçün barmaqlarını tərpətməzlər. ... İnsanlardan çox uzaqdırlar, onun dilini, tarixini bilmirlər: xalqa xidmət etmək fikrində deyillər..." [1].

F.Köçərli də belə bir acınacaqlı vəziyyətin yaranmasına biganə qalmamışdır. O, dönə-dönə söyləyirdi ki, təhsil işinə yaramayan müəllimlərdən çox şey gözləməyin. Böyük maarifçi onlardan xalqı maarifləndirmək sahəsində böyük şücaət gözləməyin mümkün olmadığını təəssüf hissilə qeyd edərək yazırdı: "...Azərbaycan müəllimləri arasında çox təəssüf ki, öz baxışlarının geriliyi ilə ziyalı insanın mənəvi yükünü təşkil edən hər şeyə ziyan vuran belə müəllimlər az deyildir. Qəzet, jurnal, kitab oxumayanlar, savadsızlar, ifrat dərəcədə məhdud olanlar da vardır" [2]. Lakin F. Köçərli az da olsa xaqın maariflənməsi işinə əsl xidmət nümunəsi göstərən pedaqoqların da olduğunu qeyd edir, onların millətin maariflənməsində gördüyü işləri təqdir edərək yazırdı ki, "bizim pedaqoqlar arasında öz məqsədini kifayət qədər düzgün və aydın dərk edən, tam şüurlu olaraq öz zülmətdə qalan və məzlum qardaşının maariflənməsi üçün çalışacaq adamlar da var" [2].

Bir cəhəti də qeyd edək ki, bəhs olunan dövrdə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının azərbaycanlı məzunları xalqın təhsillənməsi işində qabaqcıl pedaqoq-müəllimlər dəstəsi kimi yetişdi. Bu seminariyanı bitirən gələcək müəllimlərin seçdikləri peşəyə sonsuz məhəbbət və xalqına nəcib xidmət ruhundan ilham alması nümunələri XX əsrin əvvəllərində daha da qüvvətləndi. XIX əsrin 60-70-ci illərinin məktəb təhsilində yeniləşmənin, maarifçi hərəkatın nəzəri-təcrübi prinsiplərini hazırlayan Həsən bəy Zərdabi, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Mahmudbəy Mahmudbəyov və başqalarının pedaqoji fəaliyyəti yeni şəraitdə, yeni əlamət və keyfiyyətlərlə zənginləşdi. Ə.Ağayevin müdrikcəsinə dediyi kimi, qaranlıq səltənətdə məktəblər açıldı, qəzetlər nəşr olundu və tələbələri, oxucuları cəlb etdi.

Müşahidə və təhlillərimiz göstərir ki, "Kaspi" qəzeti Bakı quberniyasının Bakı şəhəri və quberniyanın kəndlərində məktəbin, maarifin vəziyyəti haqqında yazılara daha çox yer ayırmışdır. Qəzetin səhifələrində məktəblərin ümumi vəziyyətinə aid statistik məlumatlar da vaxtaşırı görünürdü. Məsələn, bir statistik məlumatda göstərilir ki, Bakıda dini məktəb müəllimləri də daxil olmaqla 400 nəfərə yaxın orta və aşağı məktəb müəllimləri var idi [3]. Burada qeyd olunurdu ki, bu müəllimlər rəsmi xarakter daşıyan görüşlər istisna olmaqla, bir-biri ilə ünsiyyət qurmur, bir-biri ilə heç bir fikir və təəssüratlarını bölüşmür, əməli-təcrübi,işgüzar mübadilə aparmır. Xüsusi qeyd olunurdu ki, təkcə nəzəri bilik kifayət deyil, təcrübə də lazımdı, öz biliyini başqalarına ağılla, müəyyən pedaqoji tələbləri gözləməklə ötürmək bacarığı, uşaqların psixologiyasına bələd olmaq, tədris metodlarını mənimsəyib tətbiq etməklə təcrübi işdə müvəffəqiyyət qazanmaq olar.

Qəzetin sonrakı saylarının birində belə bir təklif edilirdi ki, bu məqsədlə məktəb işlərinin səmərəli təşkili və formalaşdırılması, müəllimlərin əldə etdiyi müsbət təcrübələrinin, pedaqoji-metodik fəaliyyətinin bir mərkəzdə birləşdirilməsi üçün təhsil ixtisasına görə fərq qoyulmadan bütün Bakı müəllimlərindən ibarət klubun yaradılması vacibdir [4].

Kənd məktəblərində də az-çox təlim keçmiş müəllim kontingentinə kəskin ehtiyac duyulurdu. Ölkədə kənd məktəbləri üç yerə ayrılırdı: məsid məktəbləri, rus dövlət ibtidai məktəbləri, çox az qism ana dili məktəbləri. Bu məktəblər onu kimin saxlamasından asılı olmayaraq: xəzinə, kənd yerli idarəçilik cəmiyyəti (zemstvolar), təhsil və xeyriyyə cəmiyyətləri və ya fərdi şəxslər tərəfindən təşkil olunurdu. Onlarda xüsusilə ana dilində tədris zəif təşkil olunmuşdu. Bu cür məktəblər tədris işinə az-çox uyğun müəllim olmadığından dəfələrlə bağlanırdı.

"Kaspi" qəzeti kənd məktəbləri ilə bağlı "Açıq sez" qəzetinə istinadən bu məktəblərdə müəllimlərin bilik səviyyəsinin aşağı olmasına işarə edərək yazırdı: "Müəllimlərin çoxu keçmiş mollalar olub, daimi qazancı olmayan, dini qanunları öyrədən müəllim olublar. Elə vaxtlar olub ki, kəndlərdə dərviş rolunu da oynayıblar. Bu müəllimlərin pedaqogikadan, hətta onun elementar formasından mütləq məlumatsızlığı diqqəti cəlb edir" [5].

Bütün bunlar tədris prosesində mənfi ab-hava yaradırdı. Təcili olaraq müəllimlərin qurultayını çağırmaq, onlar üçün xüsusi və qısamüddətli kurslar təşkil etmək zərurəti yarandı. Bu kursların başlıca məqsədi ondan ibarət idi ki, müəlim-

lər tədris üsulları ilə tanış olsunlar, sonra onların məktəbə uyğunluğunu müəyyən etsinlər.

İstər şəhərlərdə, istərsə də kəndlərdə hər il ibtidai məktəblər açıldığı üçün müəllimə ehtiyac da artırdı. Bu məqsədlə Məktəblər Direksiyası Bakıda ibtidai sinif müəllimlərinin hazırlanması üçün ikillik pedaqoji kurs açmışdır [6]. “Starıya” təxəllüslü müəllifə görə bu kurslar palliativ, yəni Bakı quberniyasının geniş bölgəsi və Dağıstan vilayəti üçün müəllimlərin hazırlanması məsələsində yarımçıq tədbirdir [6]. İki ildən sonra kurslar ibtidai məktəbdə işləmək üçün müəllimlər hazırladı. Lakin qeyd edək ki, pedaqoji kurslar müəllimlər seminariyasının surroqatı idi, yəni müəllim seminariyasının bəzi xüsusiyyətlərinə malik olmaqla, onu əvəz edirdi. Bəzi yaxşı xüsusiyyətlərnə baxmayaraq, müəllimlər üçün nəzərdə tutulmuş pedaqoji kurslar təbii ki, cəmiyyətin artan tələbatını ödəmək iqtidarında deyildi. “Müəllim aclığını” aradan qaldırmaq üçün kəskin tədbirlər görülməli idi.

Pedaqoji kursların kifayət qədər maraqlı yaranma tarixi var. Pedaqoji kurslar Qafqaz təhsil dairəsinin müvəkkili N.F.Rudolf tərəfindən 1912-ci ildə layihələndirilmişdir. Bakı quberniyasının ehtiyacları üçün nəzərdə tutulmuş pedaqoji kurslar, N.F.Rudolfun planına görə, 1907-ci ilin kursun Qaydaları əsasında fəaliyyət göstərməli idi. Bu Qaydalardakı istifadəsi zəruri və əhəmiyyətli olan tələblərdən biri ondan ibarət idi ki, pedaqoji kursların müdavimləri ana dilini öyrətmək bacarığına malik olmalı, uşaqların ana diil üzrə məcburi biliyə yiyələnməsinə xüsusi diqqət yetirməlidirlər. Qəzetin qeyd etdiyi kimi, kursların müəllimləri hələ 1881-ci ilin tədris ilindən nəzərdə tutulmuş yerli dövlət məktəbində uşaqlara ana dilinin məcburi tədris fənni kimi öyrədilməsi tələbi həqiqətə çevrilsin [7].

XX əsrin ikinci onilliyində qısamüddətli kurslar ideyası sanki köhnəlmişdi və görkəmli təhsil və maarif xadimlərimiz artıq Bakıda müstəqil müəllim seminariyası yaratmaq arzusunda idi və buna nisbətən yaxınlaşmada açıq hissi olunurdu. Tədqiqatçı E.Vahabova bu vəziyyəti düzgün qiymətləndirərək yazırdı: “Lakin müharibə dövrünün şəraiti, əsasən də maliyyə çətinlikləri bu yaxşı ideyanın həyata keçirilməsinə mane oldu. Amma həyat, davam edirdi. Hər il Bakı quberniyasının kəndlərində müəllimlərə tələbat daha da kəskinləşir, məktəblərin sayı artdıqca müəllim çatışmazlığı da öz təsirini göstərirdi. İxtisaslı müəllim heyəti Dilləri bilənlər və onları öyrətməyi və dərs aparmağı bacaran ixtisaslı müəllim heyəti şəhərlərdə, xüsusən də müəllimlərin maaşının daha çox olduğu, mühitin münasib olduğu, gənc müəllimlərin mədəni-mənəvi ehtiyaclarının ödənildiyi Bakı şəhərində qalmağa üstünlük verirdilər. Kəndlərdəki məktəblər yenidən müəllim kadrlarından məhrum oldu. Hətta pedaqoji kursları bitirmiş keçmiş ali ibtidai məktəb şagirdlərinin müəllimləri də əlçatmaz oldu. Bu münasibətlə “Kaspi” müəllimlərin belə bir arzusunu dilə gətirirdi ki, “Bir tikə qara çörək arzusunda olan dilənçi vəziyyətindəydik. Buna görə də, ilk fürsətdə daha çoxunu əldə etmək üçün təklif olunanı götürməli oldum [7].

Beləliklə, göstərməliyik ki, Azərbaycan maarifçiliyinin qarşısında əhalinin oyanışı və milli ruhun dirçəlişi yolunda mübarizə amallarının gücləndirilməsi, onların fikir və düşüncəsinin zamanın tələblərinə uyğunlaşdırılması, mövhumat və cəhalət dumanının qarşısının alınması, həyata və dünyaya yeni, təmiz və saf baxışların yaradılması başlıca məqsəd idi. Böyüyən nəsli savadlandırmaq və onda yüksək vətəndaşlıq və vətənpərvərlik kimi tərbiyə keyfiyyətləri formalaşdırmaq, azadlıq və müstəqillik ruhu aşılamaq, yaşadığı cəmiyyət həyatına hazırlamaq maarifçi ziyalıların çox aspektli fəaliyyətinin tərkib hissəsi idi. Maarifçi hərəkat belə bir müqəddəs amalları həyata keçirmək üçün çoxlu vasitələrdən istifadə edirdi ki, bu vasitələrdən biri dövrü mətbuatın qabaqçıl nümunəsi “Kaspi” qəzeti idi. Burada insanın beynini işıqlandıran, onun zəkasını ətraf aləm, cəmiyyət həyatı haqqında bilik və təsəvvürlərlə zənginləşdirən məktəb və müəllimlə bağlı fikirlər pedaqoji fikrimizin əhəmiyyətli səhifələri hesab edilə bilər.

Ədəbiyyat

1. Агаоглы, А.б. Наши учителы. // Каспий. – 1903, 3 oktyabr.
2. Каспий. – 1905, 5 oktyabr.
3. Каспий. – 1902, 12 dekabr.
4. Каспий. – 1902, 21 dekabr.
5. Каспий. – 1916, 29 iyun.
6. Каспий. – 1915, 25 sentyabr.
7. Каспий. – 1915, 8 oktyabr.
8. Гасан бек Зардаби, Наши сельские школы. // Каспий. 1899, 18 август. – № 176.
9. Зардаби, Захолустная картинка. // Каспий.

– 1885, –№ 189.
10. Меликов-Зардаби Гасан-бек, Гасан бек Зардаби, Избранные статьи и письма, состаление, предисловие, комментарии и примечания З.Б.Геюшова, – Баку: Академии Наук Азербайджанской ССР, – 1962, с.488.
11. Топчибашев, А.М.б. Избранное: В 4-х томах / Составитель Гасан Гасанов. Т.1. – Баку: –2014. – 576 стр.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 84-88
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 84-88
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 84-88

UOT

Məktəbdə psixoloji xidmət fəaliyyətlərində müəllimin rolu və vəzifələri

Müəllif:

Solmaz Həsənli
Azərbaycan Dövlət Pedaqoji Universiteti, dosent
E-mail:
solmazhasanli@hotmail.com

Açar sözlər:
psixoloji xidmət, praktik psixoloq, müəllim, məktəbə psixoloji rəhbərlik, müəllimin psixoloji xidmət fəaliyyətlərinə yardım vəzifələri

Annotasiya. Təhsilin keyfiyyətinin yüksəldilməsində şübhəsiz ki, psixoloji xidmətin rolu böyükdür. Bu işin əsas məsuliyyəti məktəb psixoloqunun üzərinə düşsə də öz vəzifələrini yerinə yetirmək, qarşıya qoyduğu məqsədə çatmaq, şagirdlərin psixoloji sağlamlığına, onların təhsil sahəsində uğurlarına, müvəffəqiyyətli sosiallaşmasına nail olmaq üçün müəllimlərlə birgə fəaliyyət göstərməsi və onlara gərəkli məsləhətlər verməsi vacibdir. Məktəblərdə müəllimlərlə məktəb psixoloqu arasında sıx əlaqə həm pedaqoji prosesin, həm də psixoloji rəhbərlik fəaliyyətlərinin uğurla həyata keçirilməsinə zəmin yaradır. Şübhəsiz ki, məktəbdə müəllimin əsas fəaliyyəti təlim və tərbiyə fəaliyyətidir. Onun üzərinə məktəbdə bu fəaliyyətləri uğurla yerinə yetirilməsi üçün məsuliyyət düşür. Lakin bununla yanaşı müəllim eyni zamanda məktəbdə psixoloji xidmət fəaliyyətlərinin təşkili və həyata keçirilməsi işində məktəb psixoloqunun əsas köməkçisidir. Çünki müəllim şagirdin hər tərəfli inkişafına ilk növbədə cavabdeh olan və bunu birbaşa izləyən şəxsdir.

Author:

Solmaz Hasanli
Azerbaijan State Pedagogical University, docent
E-mail:
solmazhasanli@hotmail.com

Key word:
psychological service, practical psychologist, teacher, school psychological guidance, duties of assisting the teacher in psychological service activities

The role and duties of the teacher in psychological service activities at school

Abstract. Undoubtedly, the role of psychological service in improving the quality of education is great. Although the main responsibility of this work falls on the school psychologist, it is important to work together with teachers and give them the necessary advice in order to fulfill their duties, achieve their goals, achieve the psychological health of students, their success in the field of education, and successful socialization. In schools, close contact between teachers and school psychologists creates a foundation for the successful implementation of both the pedagogical process and psychological guidance activities. Undoubtedly, the main activity of a teacher in a school is training and educational activities. He is responsible for the successful implementation of these activities at school. However, at the same time, the teacher is the main assistant of the school psychologist in the organization and implementation of psychological service activities in the school. Because the teacher is the person who is primarily responsible for the all-round development of the student and who directly monitors it.

Автор:

Солмаз Гасанлы
Азербайджанский государственный педагогический университет, доцент
E-mail:
solmazhasanli@hotmail.com

Ключевые слова:
психологическая служба, практический психолог, учитель, школьная психологическая помощь, обязанности по оказанию помощи учителю в деятельности психологической службы

Роль и обязанности педагога в деятельности психологической службы в школе

Аннотация. Несомненно, велика роль психологической службы в повышении качества образования. Хотя основная ответственность за эту работу лежит на школьном психологе, важно, чтобы он выполнял свои обязанности, осуществлял совместную с учителями деятельность по достижению поставленной цели, психологическому здоровью учащихся, их успехам в учебе, успешной социализации, давал им необходимые консультации. В школах тесный контакт педагогов и школьных психологов создает основу для успешного осуществления как педагогического процесса, так и психолого-координационной деятельности. Несомненно, основной деятельностью учителя в школе является учебно-воспитательная деятельность. Он отвечает за успешное выполнение этих мероприятий в школе. Однако в то же время учитель является главным помощником школьного психолога в организации и осуществлении деятельности психологической службы в школе. Потому что учитель – это человек, который в первую очередь отвечает за всестороннее развитие ученика и непосредственно следит за ним.

İnsan yaşamının önəmli bir hissəsini əhatə edən məktəb həyatı sosial həyata paralel olaraq mürəkkəb və bir çox hallarda problemlərlə qarşılaşma ehtimalı olan bir sistemdir. Sosial varlıqdan şəxsiyyətə gedən yolda insana qarşılaşdığı problemlərin həllində yardım fəaliyyətləri mahiyyətini daşıyan və bu məqsədlə ortaya çıxan "təhsildə sosial-psixoloji xidmət" bu gün təhsil sisteminin və psixoloji-pedaqoji elm sahəsinin ən önəmli alt sistemlərindən biridir.

Təhsil müəssisələrində həyata keçirilən psixoloji xidmət fəaliyyətləri şagirdlərin intellektual potensialları, qabiliyyətləri, maraq və meyillərinin vaxtında aşkara çıxarılması, təlim və tərbiyə prosesi vasitəsilə maksimum inkişaf etdirilməsi, problemlərini həll etməsi, sosiallaşması, özünü dərk etməsi, ətrafdakı imkanları dəyərləndirməsi, düzgün qərarlar qəbul etməsi, yaşadığı toplumun məsuliyyətli üzvü olması, bir sözlə, gənc nəslin sağlam psixo-sosial inkişafa sahib insanlar kimi formalaşdırılması üçün həyata keçirilən sistemli və peşəkar psixoloji yardım prosesidir.

Məktəbdə psixoloji xidmət fəaliyyətlərinin həyata keçirilməsi işi nisbətən yeni sahədir. 90-cı illərdən başlayaraq psixoloji xidmət fəaliyyətləri ilk olaraq Bakı məktəblərində qeyri-ixtisas, ya da digər fənn müəllimlərinin qısamüddətli ixtisasartırma yolu ilə yenidən hazırlanmış kadrlarla həyata keçirilmişdir. Nazirlər Kabinetinin Ümumi təhsil müəssisələrində psixoloq ştatının sayının müəyyən edilməsi haqqında 27 fevral 2020-ci il qərarına əsasən dövlət və bələdiyyə ümumi təhsil müəssisələrində psixoloq ştatının sayı belə müəyyən edilib: 1. şagird sayı 1000-dək olduqda, 1 vahid; 2. şagird sayı 1000-dən 3000-dək olduqda, 2 vahid; 3. şagird sayı 3000-dən çox olduqda, 3 vahid. Özəl ümumi təhsil müəssisəsində psixoloq ştatının sayı həmin təhsil müəssisəsinin ali idarəetmə orqanı tərəfindən müəyyən olunur.

Günümzdə təhsil müəssisələrində uşaq, yeniyetmə və gənclərin sağlam psixo-sosial xüsusiyyətlərə sahib insanlar kimi formalaşdırılması işi sadəcə məktəb psixoloqunun vəzifəsi deyil. Bu bir reallıqdır ki, orta məktəblərdə 1 psixoloqun ən azı 1000 şagirdlə işləməsi çox çətindir və belə halda işin effekti də aşağı olur. Bu işdə məktəbin pedaqoji kollektivinin də üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan pedaqoji kadrların səmərəli fəaliyyəti onların peşə hazırlığı ilə yanaşı psixoloji biliklərinin səviyyəsindən də çox asılıdır.

Məktəbdə həyata keçirilən psixoloji xidmət fəaliyyətlərinə yardım çərçivəsində müəllimdən gözlənilən əsas yanaşma məktəb psixoloqunu bu işdə məsuliyyət daşıyan mütəxəssis kimi qəbul etmək, onun təcrübəsindən faydalanmaq, məktəbin psixoloji xidmət proqramının hazırlanması və həyata keçirilməsində psixoloqa kömək etmək, dəstək olmaq və əməkdaşlıq etməkdir. Təəssüf ki, bir çox müəllimlər məktəbdə psixoloji xidmət fəaliyyətlərinin gərəkliliyi barədə lazımi qədər məlumatlı deyillər. Onların psixoloji xidmətin hədəfləri ilə bağlı şübhələri var. Demək ki, peşəyə hazırlıq prosesində belə müəllimlər lazımi psixoloji bilik və bacarıqlar əldə etməmişdir. Üstəlik bir çox müəllimlər bu məsələdə öz çatışmazlıqlarını "itki" kimi görmürlər. Bu işdə əsl uduzan şagirdlər, uzunmüddətli perspektivdə isə toplum olur.

Mütəxəssislərə görə müəllimin psixoloji səriştəliliyinin yüksəldilməsində aşağıdakı amillər nəzərə alınmalıdır:

1. Psixologiya üzrə qazanılmış bilik, bacarıq və vərdişlərin səviyyəsi;

2. Müəllimin öz işində psixoloji biliklərin rolunu və əhəmiyyətini aydın dərk etməsi;

3. Şagirdlərlə iş prosesində psixoloji biliklərdən istifadə bacarıqları;

4. Uşaqların idrak proseslərinin, emosional və iradi aləminin, xarakter əlamətlərinin formalaşdınlmasında, psixoloji situasiyanın qiymətləndirilməsində təsir metodlarından istifadə bacarıqları;

5. Uşağın hərtərəfli inkişafı üçün onun psixikasına uzunmüddətli təsir imkanları [2, s.129].

Müəllimlərlə aparılan psixoloji maarifləndirmə işlərində bu məsələlərə diqqət edilməlidir:

1. Müəllimlərin ümumi psixoloji savadının yüksəldilməsinə kömək etmək;

2. Şagirdin inkişafı prosesini öyrənmək üçün sadə diaqnostik metodikaları mənimsəməkdə onlara kömək etmək;

3. Şagirdlərin və şagird kollektivlərinin psixi inkişafında müşahidə olunan qüsurların aradan qaldırılmasında psixoloji biliklərə istinad edilməsini təmin etmək [2, s.130].

Tədris prosesində iştirak edən bütün kadrların, məktəb rəhbərlərinin, müəllimlərin praktik psixoloqun və digər işçi heyətin birlikdə ümumi məqsədi şagirdin təlim-tərbiyəsi və sağlam psixoloji inkişafı üçün əlverişli mühitin yaradılmasını təmin etməkdir. Şübhəsiz ki, müəllim,

dərs dediyi şagirdlə, sinif kollektivi ilə daha çox ünsiyyətdə olduğu üçün onun inkişafını daha yaxından izləməklə, təhsil, peşə, şəxsi və sosial problemlərini daha yaxşı bilmək və onlara kömək etmək üçün münasib mövqedədir. Bu vəziyyət, psixoloji yardım fəaliyyətləri baxımından müəllimə mühüm vəzifə və məsuliyyətlərin verilməsinin əsas səbəblərindəndir. Lakin psixloji xidmət fəaliyyətlərinə yardım baxımından müəllimlərin vəzifələri bir çox çətinliklər və rol qarışıqlığı yaradır. Bu məqalənin əsas məqsədi təhsil sistemində məktəbə psixoloji xidmət baxımından müəllimlərin rolunu və vəzifələrini müəyyənləşdirməyə çalışmaq və pedaqoji-psixoloji baxımdan bu mövzuya diqqəti cəlb etməkdir.

Təhsil müəssisələrində psixoloji xidmət fəaliyyətlərinə yardım işində ibtidai siniflərdə sinif müəllimlərinin, yuxarı siniflərdə isə daha çox sinif rəhbərlərinin üzərinə böyük məsuliyyət düşür. Çünki istər sinif müəllimləri, istərsə də sinif rəhbərləri şagirdlərin təlim və tərbiyəsindən, sinifdə sağlam psixoloji iqlim yaradılmasından, effektiv münasibətlərin qurulmasından və s. məsələlərdə birbaşa məsuliyyət daşıyırlar. Bu yanaşma digər fənn müəllimlərinin məsuliyyətini təbii ki, azaltmır və onların da bu sahədə məktəb psixoloqları ilə birgə fəaliyyəti önəmlidir.

İbtidai təhsildə sinif müəllimləri həftədə 5 gün, gündə 6 saat şagirdlərlə ünsiyyətdə olurlar. Eyni zamanda bu ünsiyyət uzunmüddətli xarakter daşıyır və adətən illərlə davam edir. Məlumdur ki, hər hansı inkişaf dövründə müəllimin şagirdi istiqamətləndiriməsinin əhəmiyyəti kiçik məktəb yaşı dövründəki kimi yüksək olmur. Şagirdlər valideynlərindən başqa digər yaşlıların yanında bu qədər uzun müddət olmurlar. Sinif rəhbərləri də rəhbərlik etdikləri sinifin şagirdlərini tanıma və onları lazımi istiqamətdə yönləndirmə baxımından önəmli rol oynayırlar.

Məktəbdə psixoloji xidmət fəaliyyətlərinə yardım baxımından sinif müəllimi və sinif rəhbəri məktəbdəki digər mütəxəssislərdən daha mühüm mövqedədir. Onlar sinifdəki hər bir şagird haqqında daha geniş və əhatəli məlumata sahibdirlər və bu şagirdlərlə daha yaxın münasibətdədir. Şagirdin inkişafını izləmək, problemlərini görmək, onu dinləmək, məsləhət vermək, istiqamətləndirmək kimi vəziyyətlərdə sinif müəllimi və sinif rəhbərləri ən uyğun insanlardır. Sinif müəllimi və sinif rəhbərinin psixoloji xidmət fəaliyyətlərinə yardım baxımından işi güvən üzərində qurularsa, müəllim-şagird münasibətləri daha sıx və sağlam olar.

Müəllimdən məktəbdə psixoloji xidmətə yardım fəaliyyətlərində gözlənilən digər rol isə problemini ona deyən və ya problemli olduğunu müşahidə etdiyi şagirdi dinləmək, onu istiqamətləndirmək, mütəxəssis yardımına ehtiyacı olanları isə məktəb psixoloquna yönləndirməkdir. Müəllim mütəxəssisin köməyinə ehtiyacı olan şagirdin məktəbdə mütəxəssis olmadığı halda kömək üçün başqa müvafiq quruma yönləndirilməsini təmin etməlidir.

Sinif müəllimi kiçik məktəb yaşı dövründə olan uşaqların inkişaf xüsusiyyətləri haqqında kifayət qədər biliyə, yüksək kommunikativ qabiliyyətə sahibdirsə, şagirdlərdə meydana gələn dəyişiklikləri əvvəlcədən aşkar edib, gərəkli tədbirləri görür və uşaqda problemin inkişafının qarşısını alır. Əks təqdirdə şagirdi mütəxəssis yardımı almağa yönləndirir, vəziyyəti izləyir, mütəxəssislə əlaqə saxlayır və bacardığı kömək və dəstəyi göstərməyə çalışır. Bu məsələdə ailə ilə əməkdaşlıq etmək müəllimin borcudur.

Müəllim şagirdlərə istedad və qabiliyyətlərinin fərqinə varmağa kömək edir, uşaqlara öz potensiallarını üzə çıxarmaq və istedadlarını kəşf etmək üçün imkanlar yaradır. Şagirdin özünü tanıması, potensial imkan və qabiliyyətlərini dərk etməsi, güclü və çatışmayan cəhətlərini öyrənməsi, özünəinamı və özünüdərki ona yaradılan imkanların əsasında meydana gəlir.

Şagirdin fərdi psixoloji xüsusiyyətlərini nəzərə alaraq onu hər hansı bir peşə sahəsinə və ya peşə təhsili proqramlarına yönləndirmək müəllimin ən önəmli vəzifələrindəndir. Məktəbdə şagirdlərin öz qabiliyyət və imkanlarını tanıyaraq, uyğun ali təhsil müəssisələrinə yönəlməsinə, onların bu istiqamətdə lazımi bilik və bacarıqlara yiyələnməsinə köməklik göstərmək məktəb psixoloqunun rəhbərliyi altında müəllimin də üzərinə düşən əsas vəzifədir.

Məktəbdə psixoloji xidmətə yardım fəaliyyətləri baxımından müəllimin rollarından biri də sinifdə effektiv münasibətlərin inkişafına kömək etməkdir. Şagirdlərin bir-biri ilə və müəllimlə səmərəli münasibətlər qurmasında müəllim dominant mövqedədir. O, şagirdlər üçün effektiv ünsiyyətdə nümunə olur. Bu rol qarşılıqlı münasibətlərdə emosional yetkinlik, yumor hissi, empatiya, humanistlik, səbir və dözüm kimi kommunikativ qabiliyyətlərdən asılıdır. Müəllim bu

xüsusiyyətləri özündə inkişaf etdirə bildiyi üçün sinifin atmosferinə müsbət təsir göstərə, ünsiyyət maneələrini müəyyənləşdirib aradan qaldıra və beləliklə də şagirdlərin özünü ifadə etmə, empatiya və ünsiyyət bacarıqlarının inkişafına kömək edə bilər.

Məktəbdəki bütün müəllimlər əməkdaşlıq anlayışı əsasında məktəbdə psixoloji yardım fəaliyyətləri haqqında şagirdlərə geniş məlumatı verməli, onları bu xidmətlərdən yararlanmağa həvəsləndirməli, məktəbin psixoloji xidmət proqramında nəzərdə tutulmuş praktik işləri sinifdə və məktəbdə həyata keçirməyə yardım etməlidirlər.

Düşünürük ki, əsas işinin müəllimlik olduğunu diqqətdə saxlayaraq müəllimlərin psixoloji xidmət fəaliyyətlərinə yardımla bağlı vəzifələrini aşağıdakı kimi sıralamaq olar:

1. Məktəbə psixoloji xidmət proqramı çərçivəsində sinif müəllimləri və sinif rəhbərlərinin psixoloji xidmətə yardım fəaliyyətləri ilə bağlı öz sinifləri üçün illik iş proqramı hazırlamaq;

2. Sinifdə psixoloji xidmət fəaliyyətlərində məktəb psixoloqlarına köməklik göstərmək;

3. Məktəb psixoloqunun istiqamətləndirməsi ilə sinifdə problemli şagirdlər üzərində müşahidələr aparmaq, fərdi söhbətlər təşkil etmək, lazım gəldikdə onların problemlərini həll etmək üçün məktəb rəhbərliyi, digər müəllimlər və ailə ilə əməkdaşlıq etmək.

4. Təlimdə geridə qalan şagirdlərlə bağlı məktəb psixoloqu ilə birgə fəaliyyəti təmin etmək.

6. Sinifdə effektiv öyrənmə mühiti yaratmaqla şagirdlərə səmərəli öyrənmə bacarıqları və vərdişləri əldə etməyə kömək etmək.

7. Məktəb psixoloqu ilə birgə şagirdlərin psixoloji xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə müşahidə kartları, anketlər, testlər və s. tətbiq etmək;

8. Məktəbə yeni gələn şagirdlərin şəxsi qovluqlarında qeyd olunan, gizlilik xüsusiyyəti daşımayan məlumatları məktəb psixoloqu ilə birlikdə araşdırmaq və təhlil etmək;

9. Şagirdlərin real mənlik təsəvvürlərinin formalaşmasına kömək etmək.

10. Sinifdəki asosial şagirdləri müəyyənləşdirmək və məktəb psixoloqunun rəhbərliyi ilə bu şagirdlərdə sosial münasibətləri inkişaf etdirməyə yönələn tədbirlər planı hazırlamaq.

11. Tədris ilinin sonunda həyata keçirilən psixoloji xidmət fəaliyyətlərinə yardım işinin dəyərləndirilməsini aparmaq, nöqsanlar və görülən tədbirlərlə bağlı hesabat vermək;

12. Sinifdə müsbət emosional- psixoloji iqlimin təmin edilməsi.

13. Şagirdlərə özlərini tanımağa, problemlərini başa düşməyə və sosial münasibətlərini daha da inkişaf etdirməyə kömək etmək.

14. Şagirdlərin idrak maraqlarının, təlim motivlərinin müəyyənləşdirilməsi, onlara gərəkli yardımın göstərilməsi ilə bağlı məktəb psixoloqu ilə məsləhətləşmələr aparmaq;

15. Çətin tərbiyə olunan uşaqlarla işin istiqamətlərini məktəb psixoloqu ilə müəyyənləşdirmək və lazım gəldikdə belə uşaqları məktəb psixoloquna yönləndirmək.

16. Pedaqoji şura və valideyn iclaslarında şagirdlərin problemlərinin müzakirə edilməsi və həlli yollarının müəyyənləşdirilməsi.

17. Sinifdə dərsdən yayınan şagirdlərin müəyyən edilməsi və səbəblərinin araşdırılması.

18. Şagirdlərin özlərinin güclü və zəif tərəflərini öyrənməyə kömək etmək.

19. Görmə və eşitmə qüsuru olan şagirdlərin öyrənmə və uyğunlaşma problemlərini təhlil edilmək, aradan qaldırmaq və lazım gəldikdə məktəb psixoloquna yönləndirmək.

20. İstedadlı şagirdləri aşkara çıxarmaq və onlarla işin mexanizmini hazırlamaq.

21. Şagirdlərə özlərini təsdiq üçün hər cür imkanlar yaratmaq və onları bu imkanlardan faydalanmağa təşviq etmək.

22. Məktəbin psixoloji xidmət proqramına daxil olan fəaliyyətlərin həyata keçirilməsinə köməklik göstərmək və bu məqsədlə ona həvalə edilmiş vəzifələri yerinə yetirmək.

23. Sosiometriyadan əldə edilən faktları məktəb psixoloqu ilə birlikdə dəyərləndirmək.

24. Universitetlər, kolleclər, peşə məktəbləri, eləcə də peşələr haqqında məlumatların toplanması və bu məlumatların şagirdlərə izah edilməsi.

4. Məktəb psixoloqları ilə əməkdaşlıq şəraitində şagirdlərin peşəseçimi və peşəyə istiqamətlənməsində köməklik göstərmək və s.

Göründüyü kimi, yuxarıda sadalanan vəzifələrin demək olar ki, hamısı psixoloji xidmət sahəsi ilə sıx bağlıdır. Bununla belə, sinif müəllimləri, sinif rəhbərləri və fənn müəllimlərinin psixoloji xidmət fəaliyyətləri sahəsindəki vəzifələri daha dəqiq müəyyən edilməlidir. Digər tərəfdən, bu aktual mövzu üzrə araşdırmaların aparılması

məktəblərdə psixoloji xidmət fəaliyyətlərinin uğurlu təşkilinə mühüm köməklik göstərə bilər.

Məktəbdə psixoloji xidmət fəaliyyətlərində müəllimin kommunikativ (şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almağı bacarmaq, onlarla pedaqoji-psixoloji baxımdan məqsədəuyğun qarşılıqlı münasibət yarada bilmək bacarığı və s.) və perseptiv (şagirdin daxili aləminə nüfuz edə bilmək, şagirdin psixologiyasını, onun psixi vəziyyətini qavramaq, onların emosional vəziyyətini obyektiv qiymətləndirmək, psixikasının xüsusiyyətlərini üzə çıxarmaq və s.) qabiliyyətləri önəmli rol oynayır.

Müəllimin psixoloji biliklərinin lazımi səviyyədə olması eyni zamanda onun özünün psixi sağlamlığı ilə bağlı məlumata, empatik düşüncəyə, şagirdlər və onların problemləri haqqında gizli məlumatlara görə məsuliyyət hissinə, yüksək kommunikativ bacarığa, səbir və dözümlülüyə, özünə inam və məsuliyyət hissinə sahib olması, qərəzli mövqedən uzaq və özünü daim inkişaf etdirməsi kimi xüsusiyyətlərinin mövcudluğu ilə xarakterizə olunur.

Təhsil müəssisələrində müəllimlərin psixoloji biliklərinin artırılması üçün davamlı olaraq təlim kursları və seminarlar təşkil olunmalıdır. Eyni zamanda müəllimlərin maarifləndirilməsi fəaliyyətləri də məktəb psixoloqunun ən önəmli vəzifələrindəndir. Ali təhsil müəssisələrində pedaqoji kadrların gərəkli psixoloji biliklərə sahib mütəxəssislər kimi hazırlanması da məktəbdə psixoloji xidmət fəaliyyətlərinin uğurlu təşkilində çox vacib amildir.

Nəticə etibarı ilə orta təhsil müəssisələrində çalışan müəllimlərin məktəbdə psixoloji xidmət fəaliyyətləri baxımından rol və vəzifələrini bilmələri onların bu xidmətlərin həyata keçirilməsinə gərəkli yardımını təmin edəcəkdir. Lakin unutmamaq lazımdır ki, hər hansı şagirdin ciddi psixoloji probleminin həllində istər sinif müəllimləri, istər sinif rəhbərləri, istərsə də fənn müəllimləri ona lazımi yardımı göstərə bilməz. Bu işdə mütəxəssislərin- məktəb psixoloqlarının yardımı vacibdir.

Ədəbiyyat

1. Bəylərov, E. Məktəb psixoloqunun stolüstü kitabı. / E.Bəylərov, N.Çələbiyev, L.Cəfərova, S.Həsənli, N.Quliyeva, E.Hacıyev, Ə.Qafarlı, G.Qasımova, B.Əlizadə. – Bakı, – 2022.
2. Çələbiyev, N. Təhsil sistemində psixoloji xidmət (nəzəriyyə və təcrübə). [I hissə]. – Bakı, –2008.
3. Детская практическая психология. (Под. ред. Т.Д.Марцинковской), – Москва, – 2003.
4. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. – Bakı, – 2004.
5. Əliyev, R., Əliyeva, G., Əliyev, C. Prsktik psixologiya məsələləri. – Bakı, – 2011.
6. Əmrahlı, L.Ş. Psixoloji xidmətin əsasları. [I kitab]. – Bakı, – 2006.
7. Gordon T. Etkili Öğretmenlik Eğitimi, (Çev.E.Aksay-B.Özkan), – İstanbul, – 1993.
8. Немов, Р.С. Практическая психология. – Москва, – 2001.
9. Tan H. Psikolojik Danışma ve Rehberlik, , – İstanbul: Milli Eğitim Basımevi – 1992.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 89-93
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 89-93
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 89-93

UOT

Pedaqoji ünsiyyət müəllimin yaradıcılığına əsaslanır

Müəlliflər:

Səyyad Vəliyev
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
seyyadveliyev75@gmail.com

Şahrza Ağayev
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail:
shahrza-a@mail.ru

Açar sözlər:
pedaqoji ünsiyyət, peşə hazırlığı, interaktiv təlim, təlim-tərbiyə, pedaoji proses, psixoloji şərait

Annotasiya. Mövzu ilə əlaqədar aparılan elmi təhlildə ünsiyyətsiz cəmiyyətin, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək qeyri-mümkündür. Yəni ünsiyyət vasitəsilə yaşadığımız cəmiyyətdə sosial bir varlıq kimi ailədə, ailədən kənarda, məktəb və başqa yerlərdə adamlarla ünsiyyətə giririk. Pedaqoji proses zamanı müəllimin məktəblilərlə həyata keçirdiyi peşə ünsiyyəti isə pedaqoji ünsiyyət kimi dəyərləndirilə bilər. Yəni hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş belə ünsiyyət, pedaqoji prosesdə əlverişli psixoloji iqlim yaratmaqla, kollektiv daxilində sosial-psixoloji proseslərin həyata keçirilməsinə imkan vermiş olur. Ona görə də məqalədə hər bir müəllimin pedaqoji ünsiyyətin mahiyyəti, onun sosial-psixoloji mexanizmləri ilə dərindən tanış olması və şagirdlərlə birgə fəaliyyəti zamanı ondan səmərəli şəkildə istifadə etməsi məsələlərinə aydınlıq gətirilmişdir.

Pedagogical communication is based on the teacher's creativity

Authors:

Sayyad Valiyev
Nakhchivan Teachers Institute
E-mail:
seyyadveliyev75@gmail.com

Shahrza Agayev
Azerbaijan State Pedagogy University
E-mail:
shahrza-a@mail.ru

Key word:
pedagogical communication, professional training, interactive training, training and education, pedagogical process, psychological conditions

Abstract. In the scientific analysis of the subject: it is impossible to imagine the existence of a society without communication and without society. That is, through communication, as a social being in the society we live in, we communicate with people in the family, outside the family, at school and in other places. Pedagogical communication is the professional communication carried out by the teacher in the process of training and education. From this point of view, such communication, aimed at creating conditions for the formation of a fully developed personality, makes it possible to create an effective psychological climate and manage social-psychological processes in the collective in the process of training and upbringing. Therefore, in the article, the essence of pedagogical communication, its socio-psychological mechanisms, and its effective use by each teacher during their joint activities with students have been clarified.

Педагогическое общение основано на творчестве учителя

Авторы:

Сайяд Велиев
Нахчыванский институт учителей.
E-mail:
seyyadveliyev75@gmail.com

Шахрза Агаев
E-mail:
shahrza-a@mail.ru
Азербайджанская Государственная Педагогика
Университет

Ключевые слова:
педагогическое общение, профессиональное обучение, интерактивное обучение, обучение и воспитание, педагогический процесс, психологические условия

Аннотация. В научном анализе, проведенном по теме, невозможно представить существование общества без общения, а также общения без общества. То есть через общение мы вступаем в контакт с людьми в семье, вне семьи, в школе и в других местах, как социальное существо в обществе, в котором живем. А профессиональное общение, осуществляемое учителем со школьниками в ходе педагогического процесса, можно расценить как педагогическое общение. То есть такое общение, направленное на создание условий для формирования всесторонне развитой личности, позволяет осуществлять социально-психологические процессы внутри коллектива, создавая благоприятный психологический климат в педагогическом процессе. Поэтому в статье уточняются вопросы глубокого ознакомления каждого педагога с сущностью педагогического общения, его социально-психологическими механизмами и эффективного его использования в ходе совместной деятельности с учащимися.

Ölkə başçısının “Azərbaycan 2030: sosial - iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı 2021-ci il 2 fevral tarixli Sərəncamında XXI əsrin tələblərinə uyğun təhsil haqqında qeyd olunur: ”Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir.”

Bu baxımdan gənclərin keyfiyyətcə yüksək təhsilə yiyələnmə imkanları yaxşılaşdırılmalı, kadrların hazırlıq səviyyəsi müasir əmək bazarının qoyduğu tələblərə uyğunlaşmalı, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.

“Pedaqoji ünsiyyət müəllimin yaradıcılığına əsaslanır” mövzusu məhz bu sənəddə qar-şıya qoyulan sosial və iqtisadi inkişaf üçün hər hansı bir fəaliyyəti həyata keçirməkdə ilk görü-ləsi, birinci həll ediləsi işlərin inkişafına yönələn elmi düşüncələrimizdir. Milli Prioritetlər, gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaqdır. Bu işdə pedaqoji sahədə çalışan müəllim adını şərəflə daşıyanların mənəvi borcu böyükdür [1].

Ünsiyyət dedikdə, idrak və ya emosional-qiymətləndirici xarakterli məlumat mübadiləsi olan iki və ya daha çox insanın qarşılıqlı əlaqəsi başa düşülür. Pedaqoji ünsiyyət müəllimin işində informasiyanı vermək, uşaqların fərdi xüsusiyyətlərini bilmək, şagirdlərlə əməkdaşlıq münasibətlərinin yaradılmasında, həmçinin psixofizioloji xüsusiyyətini nəzərə almaq kimi mühüm bacarıqlarında kommunikativ, interaktiv və perseptiv tələblər öz ifadəsini tapır.

Pedaqogikanın texnoloji funksiyası üç səviyyədə həyata keçirilir: layihə səviyyə-si (buraya tədris planları, proqramları, dərslik və dərs vəsaitlərinin, pedaqoji tövsiyələrin işlənib hazırlanması və s. daxildir); dəyişdirici səviyyə (bu səviyyədə pedaqoji elmin nailiyyətləri təhsil praktikasını təkmilləşdirmək və yenidən qurmaq məqsədilə tətbiq olunur); refleksiv və korrektiv səviyyə (bu səviyyə elmi-tədqiqatların nəticələrinin təhsil-tərbiyə praktikasına təsirinin yekunlarını qiymətləndirməyi və sonradan elmi-nəzəriyyə ilə praktik fəaliyyətin qar-şılıqlı təsirini korreksiya etməyi nəzərdə tutur) [2].

Pedaqoji prosesin mərhələlərinin və onların həyata keçirilmə texnologiyasının müəllim tərəfindən reallaşdırılması onun səriştə və peşəkarlığından asılı olub təhsilin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Həmin mərhələlərə aşağıdakılar aiddir: pedaqoji ünsiyyətin modelləş-dirilməsi; onun bilavasitə təşkili və idarə edilməsi; pedaqoji ünsiyyətin texnologiyasının həyata keçirilməsi və alınan nəticələrin təhlili. Yuxarıda qeyd etdiyimiz ardıcıllıq təlim-tərbiyə pro-sesində təşəkkül tapan daha mürəkkəb vəziyyətlərin müəyyən edilməsinə imkan verir. Müasir təhsilin inkişafında məqsədəuyğun qarşılıqlı münasibətləri yaratmağın texnologiyası pedaqoji ünsiyyətlə qırılmaz surətdə bağlıdır. Ona görə də müəllimlərin şagirdlərlə qarşılıqlı şəkildə anlaşması onlar arasında təşəkkül tapan münasibətlərin əsasını təşkil edir. Ünsiyyətin kommunikativ, interaktiv və perseptiv tələbləri pedaqoji aspekt baxımından öyrədən və öyrə-nənin qanunauyğun fəaliyyəti olub, onun tədqiqi məqsədə uyğun hesab edilir.

Ünsiyyətin kommunikativ tərəfi dedikdə, ilk növbədə pedaqoji prosesdə informasiya mübadiləsi olması nəzərdə tutulur. Kommunikasiyanın - verbal və qeyri-verbal olduğu qeyd olunur.

Dərsdə şifahi ünsiyyət söz, nitq vasitələrindən istifadə etməklə hər iki tərəf arasında təlim məqsədləri məlumat mübadiləsi ilə həllini tapır. Pedaqoji prosesdə şifahi ünsiyyət zamanı öyrənənlər əməkdaşlıqla və qarşılıqlı əlaqədə olmaqla bir-biri ilə emosional hisslərini və duyğularını sözlə çatdırırlar.

Şifahi ünsiyyət ilə yanaşı, qeyri-şifahi ünsiyyət (məlumatların sözlər olmadan, mimika, jestlər, pantomima vasitəsilə ötürülməsi) praktikada bir-biri ilə birbaşa əlaqəlidir.

Aparılan təcrübələr göstərir ki, müasir təlimdə bədən dili həmişə nitqi tamamlayır və ona “nüfuz edir”. Müəyyən sözlər toplusunu tələffüz edərək və onların vasitəsilə həmsöhbətinə hansısa məlumatı çatdırmağa çalışarkən müəyyən intonasiya, mimika, jest, duruş dəyişikliyi və s. ilə öz fikrini çatdırır. Bu sahədə pedaqoji prosesdə səmərə qazanılması müəllimin yaradıcı əməyi ilə bağlı olub öyrənənlərin tədqiqatçı özünün bələdçiliyi ilə səciyyələnir. Çıxış - məlumat mübadiləsinin universal, zəngin və ifadəli vasitəsidir. Təcrübədən məlum olur ki, çıxış vasitəsilə 35% məlumat ötürülür. 65% informasiya isə şifahi olmayan ünsiyyət vasitələrindən istifadə etməklə ötürülür.

Ünsiyyətin interaktiv tərəfi - qarşılıqlı təsir prosesidir. Əməkdaşlıq zamanı həmkarından nə isə öyrənmək, onunla dostluq etmək və yersiz hərəkətlərdən uzaqlaşmaq məqsədi güdülür. Buradan görünür ki, ünsiyyətin nəzərdə tutulan məqsədi o halda öz müsbət bəhrəsini verə bilər ki, onun hər iki iştirakçısının birgə fəaliyyəti tələbata uyğun olsun. Təhsil sisteminin inkişaf tendensiyası, fəal və interaktiv metodlar sahəsində müəllif məktəblərinin, novator müəllimlərin iş üsullarına dair toplanmış faydalı təcrübələr, pedaqoji-psixoloji tədqiqatların nəticələrinin daima sistemləşdirilməsini, ümumiləşdirilməsini və təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini tələb edir. Bu problemlərin həlli təhsil sferasına, pedaqoji prosesə fəal və interaktiv metodlar anlayışının elmi əsaslarla gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır. Tədrisdə ünsiyyətin perseptiv tərəfi pedaqoji prosesdə iştirakçıların bir-birilərini qavraması və anlamasını nəzərdə tutur.

Ümummilli lider Heydər Əliyev vaxtı ilə demişdir: "Bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üz-vünü hazırlamaqdır".

Müasir müəllim pedaqoji ünsiyyət zamanı bu konseptual ideyaların qarşıya qoyduğu tə-ləblərin həllinə əməli işləri ilə nail olmağa çalışmalıdır. Sokrat (e.ə.469-399) haqlı olaraq demişdir: "Fikir-həyat həqiqətləri mənim beynimdən çıxıb-şagirdlərin beyninə dolmur. Bilik onların beynində hasil olur. Mən ancaq kömək edirəm. İstiqamət verirəm". Hər bir tədris fənni (texnologiya) özünəməxsus xüsusiyyətlərə malikdir, özünün qanunauyğunluqları vardır və təlimin xüsusi metodları və təşkili formaları əsasında həyata keçirilməsini tələb edir. Həmin məsələlərlə xüsusi didaktikalar (məsələn, "Texnologiya və onun tədrisi metodikası") məşğul olur [3].

Pedaqoji ünsiyyət texnoloji planda müəllimin yaradıcılığını onun təhsilalanları indiki dövrün qarşıya qoyduğu tələblərə uyğun olan lazımi bilik, bacarıq, vərdiş və dəyərlərə yiyə-ləndirməklə şərtlənir. Ümumtəhsil məktəblərimizdə təlim mühitinin yaradılması və bu proses zamanı tətbiq edilən üsul, forma və vasitələrdən asılı olaraq məktəblilərin formalaşdırılması yu-xarıda qeyd edilən kompetensiyaların davamlı olaraq həyata keçirilməsindən və inkişaf etdirilməsindən asılıdır. Yəni şagirdlərin biliyə müstəqil şəkildə yiyələnmələri müasir təlimin başlıca vəzifələrindən biri olmaqla onlara öyrənməyin yollarını öyrətməkdən ibarət olmalıdır. Bu baxımdan hər bir dərsdə motivasiya yaratmaqla şagirdlərdə idrak prosesi və təfəkkür fəallaşdırılmalı və belə keyfiyyətlər təlimdə şagirdlərin yaş xüsusiyyətlərinə, anlama səviyyə-lərinə, fərdi xüsusiyyətlərinə və eyni zamanda yaradıcılıq qabiliyyətlərinə uyğun şəkildə təşkil olunmalıdır. Müəllimin bələdçi, istiqamətləndirici rolu, düzgün qurulmuş şagird-müəllim, şa-gird-müəllim-şagird və şagird-şagird münasibətləri məktəblilərin özlərnə inamını artırmaqla onları fəallaşdırır ki, bu da müəllimin fasilitatorluq qabiliyyətindən çox asılıdır. Kollektiv işlərin şagirdlər tərəfindən keyfiyyətli şəkildə yerinə yetirilməsi prosesində onlar öz fikirlərini bölüşür, biliklərini artırır, bacarıqlarını yaxşılaşdırmaqla, daha səmərəli nəticələr əldə edirlər. Belə işlər zamanı şagirdlər həmçinin bir-birini anlama - başa düşmə, yoldaşının əməyinə hör-mətlə yanaşma, verilənlərdən səmərəli istifadə etmək və s. bu kimi yüksək əxlaqi keyfiyyətlər əldə etməklə qarşılıqlı şəkildə faydalanmış olurlar.

İnteraktiv təlim prosesində sinifdə yaradılan işgüzar, psixoloji şərait, tədqiqat prosesinin təşkili, biliklərin müstəqil "kəşfi", sosial bərabərlik, öyrənənin biliyinin obyektiv qiymətlən-dirilməsi və s. təlimdən gözlənilən nəticənin alınmasına müsbət təsir edir.

Burada vacib məsələlərdən biri də öyrənənin dərsə olan həvəsini müxtəlif üsullarla və vasitələrlə formalaşdırmaqdan və artırmaqdan ibarətdir. Kiçik yaş dövründə öyrənənlərin dərs dinləməyə və öyrənməyə müsbət münasibəti ardıcıl və davamlı olmur. Təbii ki, uşağı öyrətmək o vaxt asan və rahat olacaq ki, onun özündə öyrənməyə müəyyən həvəs yaranmış olsun. Məlum olduğu kimi müəllimlərlə şagirdlərin bir-biri ilə qarşılıqlı əlaqəsi əsasən pedaqoji proses zamanı həyata keçirilə bilər və belə qarşılıqlı əlaqə pedaqoji prosesin təminatı üçün əsas sayılır. Pedaqoji prosesə öz müsbət təsirini göstərməklə, belə qarşılıqlı əlaqə bir sıra amillərlə səciyyələnir və onların hər birnin bu pedaqoji prosesdə öz payı vardır. Bu baxımdan müəllimin yüksək təşkilatçılıq qabiliyyəti belə prosesin daha səmərəli

həyata keçirilməsi üçün əsas amillərdən biri kimi qeyd edilə bilər. Ona görə də pedaqoji prosesin yerinə yetirilməsinə pozitiv təsir göstərməklə onun daha səmərəli və əhəmiyyətli edilməsi bilavasitə müəllimin təşkilatçılıq qabiliyyətinin yüksək səviyyədə təşkil edilməsindən asılıdır. Hər bir müəllimin pedaqoji qabiliyyətlərindən olan təşkilatçılığın əsas və aparıcı olması onun fəaliyyət dairəsində xüsusi yer tutması ilə bağlıdır. Pedaqoji fikrin ən görkəmli nümayəndəsi A.S. Makarenko tərbiyə işini ilk növbədə təşkilatçılıq işi adlandırırdı. Bu bir həqiqətdir ki, təşkilatçılıq işinin zəif olması təkcə bir dərsdə, bir prosesdə deyil, bütövlükdə məktəbin ümumi işində, bütün müəllimlərin fəaliyyətində öz mənfi təzahürlərini göstərir [4].

Müəllimin xüsusi peşə qabiliyyətlərinə malik olmasını tələb edən amillərdən biri də, öyrədənin pedaqoji fəaliyyətdə yaradıcılıq qabiliyyətinə malik olması və onu həyata keçirə bil-məsidir. Bu baxımdan öyrədən və öyrənənin qarşılıqlı münasibətlərində öyrədənin əqli, emosional və iradi keyfiyyətlərini ünsiyyət baxımından xarakterizə edən əsas amil onun peda-qoji qabiliyyətidir. Pedaqoji qabliyyətlər belə təxmin edilir: şəxsi; didaktik; təşkilatçılıq; kom-munikativ; perseptiv (insanların bir birlərini anlayıb, dərketməsi); suqqestiv (təlqinedici); diq-qəti paylaya bilmək; pedaqoji refleksiya; müəllimin aktyorluq; müəllimin tədqiqatçılıq; müəlli-min elmi-idraki (akademik) kimi qabiliyyətləri və pedaqoji təxəyyül.

Müəllim-şagird münasibətlərini tədqiqatçılar əsasən üç növünü ayırırlar: dəyişməz – müs-bət ünsiyyət; passiv - müsbət ünsiyyət; dəyişən ünsiyyət. Uzun illər pedaqoji fəaliyyətdə ol-duğumuz problemlə bağlı fikirlərimizi inamla söyləməyə əsas verir. Bu ondan ibarətdir ki, bəzi hallarda olsa da dəyişən və dəyişməz mənfi ünsiyyət növlərinə də rast gəlmək mümkündür. Belə ünsiyyət zamanı müəllim özünə qarşı neqativ münasibət yaratmış olur. Müəllim-şagird qarşılıqlı münasibətlərində aşağıdakı ünsiyyət tərzlərindən istifadə edilir: birgə həvəs və yaradıcılığa əsaslanan ünsiyyət; dostluğa əsaslanan mehriban ünsiyyət; şagirdlərlə müəyyən “məsafə” - pərdə saxlamaqla aparılan ünsiyyət; qorxudulmaqla hökmedici ünsiyyət; ələ salınmaqla edilən rişxəndli ünsiyyət və s..

Birgə həvəs və yaradıcılığa əsaslanan ünsiyyət müəllim və şagirdlərin mənəvi yaxınlığı əsasında qurulur. Yəni ünsiyyət dostluq, mehribanlıq, qarşılıqlı hörmət əsasında qurulmalıdır və bu o demək deyildir ki, müəllim və şagird arasında “sərhəd” götürülməlidir. Məsafəli ünsiyyətdə müəllim-şagird əlaqəsi məhdudlaşdırılır. Bu zaman aşağıdakı sözlərdən daha çox istifadə edilir: “Mən sizdən böyüyəm, mənə qulaq asın,”; “Mən hər şeyi bilirəm, siz heç nə bilmirsiniz” və s. Qarşılıqlı əməkdaşlığın və yaradıcılığın pozulması və nəticədə pedaqoji uğursuzluğa səbəb kimi, belə ünsiyyət və yanaşma tərzindən istifadə edilməsidir. Qorxudul-maqla hökmedici ünsiyyət zamanı isə müəllimin bizə tanış olan belə müraciəti vardır: “Mənə qulaq asın, yoxsa çağıraram lövhəyə…”; “İmtahanda baxarıq necə cavab verəcəksən, sənin üçün çox çətin olacaq”; “Siz məni hələ yaxşı tanımırsınız…görəcəksiniz… və s.”.

Ələ salınaraq, rişxəndli ünsiyyət şagird şəxsiyyətini alçaldır. Yəni müəllim uşaqlara çox yuxarıdan baxmaqla, onların şəxsiyyətinə məhəl qoymur, şit zarafatlar və rişxənd etməklə onların şəxsiyyətini bir növ alçaltmış olur..

Lakin bir çox müəllimlər də var ki, ucuz hörmət qazanmaq xətrinə kollektivin qılığına gi-rir, maraqlı söhbətlər edir, lətifələr söyləyir və özünü yaxşı kimi göstərmək fikrinə düşür. Lakin, belələrinin də “fəaliyyətinin” gec-tez məğzi məlum olur.

Yuxarıda qeyd olunanlara əsaslanıb demək olar ki, əgər ünsiyyətdə bərabərlik yoxdursa, o heç vaxt səmərəli və effektiv ola bilməz. Pedaqoq alimlərin fikrincə, müəllimin şagirdlərlə ünsiyyət və münasibətini daha uğurlu və optimal qurması üçün aşağıdakı şərtlərə də əməl etməlidir: müəllim ünsiyyət və münasibətində diqqətli və həssas olmalı, müsahibinin vəziyyətini, əhval ruhiyyəsini “üzündən oxumalı”, əgər uyğun olarsa, bir situasiyadan digər situasiyaya keçməyi, qarşılıqlı ünsiyyət və münasibətində davranışını, eyni zamanda hərəkət-lərini idarə etməyi, öyrənənləri düşdüyü çətin situasiyadan çıxarmaq üçün onlara yardımçı olmağı bacarmalıdır. Müəllim həmçinin həm nitqli, həm də nitqsiz ünsiyyətini mənalı şəkildə aparmalı, məktəblilərlə olan ünsiyyəti və münasibətini ardıcıl olaraq təhlil etməklə, özü üçün lazımi nəticələr çıxarmalıdır.

Təcrübə və müşahidələrdən məlum olur ki, müəllim və şagird əməkdaşlığı bütövlüklə məktəbin humanistləşməsinin və demokratikləşməsinin əsasını təşkil edir. Çünki o mahiyyət etibarı

ilə insanı sevməklə, ona dərin hörmət və məhəbbət ideyası üzərində qurulmuşdur.

Nəticə olaraq sonda deyə bilərik ki, nəzəri və praktik olaraq təhlil olunan ölkə əhəmiy-yətli məsələlərin uğurlu həlli pedaqoji ünsiyyətlə bağlı olub müəllimin yaradıcılığına əsaslanır.

Ədəbiyyat

1. Ağayev, Ş.O. İbtidai sinif müəllimlərinə kömək. – Bakı: İmza, – 2022, – 184 s.
2. Ağayev, Ş.O., Hacızadə, R. Dərs: ənənə və müasirlik. – Bakı: MM-S, – 2020, – 192 s.
3. Ağayev, Ş.O. Texnologiya və onun tədrisi metodikası (Bakalaviratlar üçün mühazirə mətn-ləri). – Bakı: ADPU, – 2021. – 294 səh.
4. İlyasov, M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2018, – 208 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 94-99
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 94-99
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 94-99

UOT

Tələbələrin müasir peşə hazırlığı sistemində distant təhsil imkanlarından istifadə edən müəllimin rolu və funksiyaları

Müəlliflər:

Abdulla Mustafayev
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru,
dosent
E-mail: abdulla.mustafayev.1965@mail.com

Ruhiyyə Rzayeva
Naxçıvan Dövlət Universiteti
E-mail: ruhiya.rzayeva@mail.com

Açar sözlər:
distant təhsil, tyutor, fdministrator, rurs dizayneri, rurator, dinləyici, yeni texnologiyalar

Annotasiya. Məqalədə müəlliflər müasir universitetdə distant təhsilin təşkilinə yanaşmaları və bununla bağlı müəllimin rolunda baş verən dəyişiklikləri təhlil edir. Təhlil əsasında distant təhsil sistemi çərçivəsində müəllimin fəaliyyətinin təşkilinin müxtəlif modelləri və onun funksiyaları haqqında fikir formalaşır. Məqalədə eyni zamanda, ali təhsil müəssisələrində müəllimlə yanaşı, tyutorun, kuratorun, kurs dizaynerinin, dinləyicinin, yəni tələbələrin hüquq və vəzifələri araşdırılır. Ümumiyyətlə, distant təhsilinin mahiyyəti təhlil edilir. Distant təhsilin müsbət cəhətləri ilə yanaşı, çatışmayan cəhətləri də məqalədə öz əksini tapıb.

Authors:

Abdulla Mustafayev
Nakhchivan State University
Doctor of philosophy in history,associate professor
E-mail: abdulla.mustafayev.1965@mail.com

Ruhiyya Rzayeva
Nakhchivan State University
E-mail: ruhiya.rzayeva@mail.com

Key word:
distance education, Tutor, Administrator, Course developer, Curator, Listener, New technologies

The role and functions of the teacher who uses distance education opportunities in the modern vocational training system of students

Abstract. In the article, the author analyzes approaches to the organization of distance education in a modern university and changes in the teacher's role in this regard. Based on the analysis, an idea is formed about various models of the organization of the teacher's activity and its functions within the distance education system. At the same time, the article examines the rights and duties of tutors, curators, course designers, listeners, i.e. students, in higher education institutions. In general, the nature of distance education is analyzed. In addition to the positive aspects of distance education, the article also reflects its shortcomings.

Авторы:

Абдулла Мустафаев
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
E-mail: abdulla.mustafayev.1965@mail.com

Рухия Рзаева
Нахчыванский государственный университет
E-mail: ruhiya.rzayeva@mail.com

Ключевые слова:
дистанционное обучение, тьютор, администратор, курсодизайнер, куратор, слушатель, новые технологии

Роль и функции педагога, использующего возможности дистанционного обучения в современной системе профессиональной

Аннотация. В статье авторы анализируют подходы к организации дистанционного обучения в современном вузе и связанные с этим изменения в роли преподавателя. На основе анализа формируется представление о различных моделях организации деятельности педагога в рамках системы дистанционного образования и ее функциях. В статье также рассматриваются права и обязанности тьютора, куратора, конструктора курсов, слушателя, то есть студентов, а также преподавателя в высших учебных заведениях. В целом анализируется сущность дистанционного обучения. Наряду с положительными сторонами дистанционного обучения, в статье нашли отражение и его недостатки.

Bu gün Azərbaycan ali təhsilinin müasir sistemi ali məktəblərin informasiya təhsil mühitini təşkil edərək, yeni təhsil sistemində pedaqoji fəaliyyətin məzmununun ənənəvi olandan əhəmiyyətli dərəcədə fərqləndiyini nümayiş etdirir. Ali məktəblərin rəqabətqabiliyyətli təhsil təşkilatı olaraq qalması üçün həm müasir informasiya texnologiyalarından istifadə etməklə, həm də tədris prosesinin özünün təşkilinin müasir formalarından istifadə etməklə tələbələrin tədrisi prosesini təşkil etmək və həyata keçirmək lazımdır. Xüsusilə, konseptual olaraq azad proqram təminatı ideologiyası üzərində qurulmuş proqramlardan istifadə etməklə tələbələr üçün distant təhsil sistemi belə bir formaya çevrilə bilər.

Ali təhsil müəssisələrində tələbələr üçün distant təhsil sistemlərindən istifadə müəllimin rolunun dəyişməsini nəzərdə tutur, daha dəqiq desək, müəllimin rolu daha da nəzərə çarpır, onun funksiyaları genişlənir. Bu, bütün təhsil müəssisələrində distant təhsil proseslərinin təşkili, habelə müəllimlərin özlərinin öhdələrinə götürmək məcburiyyətində qaldıqları rol və funksiyaları başa düşmək, bununla da tədris prosesində öz yerini dəyişmək şərti ilə mümkündür.

Qeyd etmək lazımdır ki, müasir təhsil müəssisəsi özünün informasiya təhsil mühitini dizayn etmədən edə bilməz, bu da faktiki olaraq, elektron təhsil bazası əsasında qurulmuş distant təhsil sistemindən istifadəni əhatə edir.

Distant təhsil dedikdə, informasiya texnologiyaları, onun işlənməsini təmin edən texniki vasitələr, habelə göstərilən məlumatların rabitə xətləri ilə ötürülməsini, tələbə və müəllimlərin qarşılıqlı fəaliyyətini təmin edən informasiya-telekommunikasiya şəbəkələrin köməyindən istifadə etməklə təhsil fəaliyyətinin təşkili başa düşülür. Bügünkü dünyanın qloballaşması şəraitində distant təhsildən istifadə etməkdə məqdəd innovasiyalardan, yəni yeni təlim texnologiyalarından istifadə edərək tələbələrin ixtisasını, onların biliklərini artırmaqdan ibarətdir. Baxmayaraq ki, ilk dəfə distant təhsildən 1840-cı ildə Birləşmiş Krallıqda istifadəyə cəhd edilmişdir, lakin zaman keçdikcə həm texnoloji yanaşmalar, həm də tələblər dəyişilmişdir [2].

Tədris prosesində elektron vasitələrdən, telekommunikasiyalardan istifadə distant təhsildir. Burada müəllim və tələbələr arasında olan əlaqəni kompüter və telekommunikasiya şəbəkəsi yaradır. Distant təhsil zamanı tələbələrlə müəllim arasında əlaqə virtual şəklində saxlanılır. Bu termin elektron təhsilə əsaslanan təhsil prosesinin təşkilində hansı məzmunun olması barədə aydın təsəvvür yaradır. Distant təhsil texnologiyaları dedikdə, əsasən, informasiya və telekommunikasiya şəbəkələrinin istifadəsi ilə tələbələrlə müəllimlər arasında dolayı (məsafədən) qarşılıqlı əlaqə ilə həyata keçirilən təhsil texnologiyaları başa düşülür.

Tədris prosesində müəllimin yeni rolu, təlim prosesində müxtəlif vasitə və texnologiyalardan istifadə, tədris prosesinin gedişinə nəzarət distant təhsilin xarakterik xüsusiyyətlərinə daxildir. Bü gün dünyada distant təhsildən istifadə çox geniş yayılıbdır. Distant təhsildən istifadə yuxarı yaşlı gənclər, təhsilalanlar üçün çox əlverişlidir. Çünki, onlar istehsalatdan ayrılmadan məsafədən təhsil ala bilirlər. Və yaxud da, vaxtının böyük hissəsini işlədiyi müəssisədə keçirən insanların bilik və bacarıqlarını inkişaf etdirmək, peşə qabiliyyətlərini inkişaf etdirmək üçün yeganə əlverişli yol distant təhsil almaqdır. Ümumiyyətlə götürdükdə, distant təhsil cəmiyyətin bütün təbəqələri üçün çox əlverişlidir.

Lakin ali təhsil müəssisələrinin distant təhsilə keçməsi üçün bir vacib şərt vardır ki, bu da ondan ibarətdir ki, distant təhsil prosesinə keçmək istəyən ali məktəblərin internet şəbəkəsinə çıxışı tam şəkildə təmin edilməlidir. Bu mənada deyə bilərik ki, Naxçıvan Dövlət Universitetinin internet şəbəkəsinə çıxışı demək olar ki, tam şəkildə təmin olunmuşdur.

Təhsil sahəsində çalışan ekspertlərin apardıqları araşdırmaların nəticələrinə görə əgər tələbə tədris prosesində mühaziəni dinləyərkən tədris materialını maksimum 10 % mənimsəyirsə, tədris materialının qrup şəklində müzakirə edilməsi zamanı bu mənimsəmə 50 %-ə qədər yüksələ bilir [6].

Beləliklə, ali təhsil müəssisələrində elektron təhsil prinsiplərinin həyata keçirilməsi əsasında təşkil edilən distant təhsil sistemi tədris prosesində informasiya və telekommunikasiya texnologiyalarından istifadə etməklə və bu prosesin bütün iştirakçılarını birləşdirən proqram təminatı mühitlərindən istifadə etməklə, yəni proqram çərçivəsində qurulmalıdır. Elektron təhsilin təşkili və tətbiqi ilə universitet müasir rəqabətədavamlı təhsil təşkilatına çevrilir.

Ali təhsil müəssisələrinin informasiya təhsil mühitinin formalaşmasında baş verən dəyişik-

liklərə gəldikdə isə, həmin müəssisələrin tədris prosesinin layihələndirilməsində, təşkilində və həyata keçirilməsində universitet müəllimlərinin rolunu və yerini aydın dərk etmək probleminə xüsusi diqqət yetirilməlidir. Tələbələr üçün distant təhsilin təşkilində müəllimin rolunun və yerinin müəyyənləşdirilməsi problemi olduqca yüksək və aktualdır, çünki onun prinsiplərinin və məzmununun səhv başa düşülməsi təhsil prosesinin effektivliyinin azalmasına, tələbələrin peşə hazırlığının aşağı düşməsinə, habelə nəticələrin əldə edilməsində çətinliklərə səbəb ola bilər.

Distant təhsil problemlərinə həsr olunmuş müxtəlif elmi və pedaqoji mənbələri təhlil edərkən, ilk növbədə əsas anlayışlar üzərində, yəni repetitor, fasilitator və s. diqqət yetirmək lazımdır. Məhz distant təhsil anlayışları ilə distant təhsildə iştirakçıların əsas rol və funksiyaları bu anlayışların izahı zamanı aydın olur.

Pedaqogika elmləri doktoru, professor, Rusiyanın Sankt-Peterburq şəhərində "Distant Tədris Laboratoriyası"nın müdiri, distant təhsilin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatların müəllifi olan Evqeniya Semyonovna Polatın sözlərinə görə distant təhsil təhsil prosesinə xas olan bütün komponentləri, yəni məqsədləri, məzmun və metodları, təşkilati formalarını, tədris vəsaitlərini əks etdirən və internet texnologiyaları və ya digər vasitələrlə həyata keçirilən müəllimlə tələbələrin öz aralarında məsafədən qarşılıqlı əlaqəsidir [5].

Belə bir tərif göstərir ki, distant təhsil prosesi yalnız tədrisin təşkili üçün müasir informasiya və telekommunikasiya vasitələrindən istifadə etməklə öyrənmə formalarından biridir. Burada olan əsas məsələ təlim prosesinin bütün iştirakçılarının bir-birindən məsafədə olmasıdır, bu o deməkdir ki, distant təhsil zamanı müəllimin rolu daha da mürəkkəbləşir, çünki o, nəzərdə tutduğu nəticəni əldə etmək üçün bu vasitələrdən istifadə metodologiyasını aydın şəkildə mənimsəməlidir.

Distant təhsil haqqında maddə "Təhsil haqqında" Azərbaycan respublikasının 19 iyun 2009-cu il tarixli, 833-IIIQ saylı qanununda öz əksini tapmışdır. "Təhsil haqqında qanun"da Azərbaycanda təhsilin əyani, qiyabi formaları ilə yanaşı, məsafədən, yəni distant təhsil forması da öz əksini tapmışdır [7]. Müasir təhsil sistemində distant təhsil texnologiyalarına olan tələbat gündən-günə artmaqdadır. Təhsilin əyani və qiyabi formaları ilə müqayisə edildikdə, distant təhsilin xeyli üstünlüklərə malik olduğunu görürük. Ona görə də, distant təhsilə maraq son dövrlərdə daha da artmaqdadır.

Ümumiyyətlə, Azərbaycanda təhsilin dörd forması mövcuddur və bu "Təhsil haqqında Qanun"da öz əksini tapmışdır. Bunlar əyani, qiyabi, distant və sərbəst (eksternat) təhsil növləridir [1, s.79-84].

Ali təhsil müəssisələrinin müasir informasiya-təhsil mühitində müəllimin rolunun və funksionallığının dəyişməsinin xüsusiyyətlərini başa düşmək üçün distant təhsili həyata keçirən ali məktəb müəlliminin əsas rolunu dəqiq müəyyən etmək lazımdır.

Distant təhsil sistemini tədris prosesinin təşkili forması kimi nəzərə alaraq qeyd etmək lazımdır ki, prosesin özü də distant təhsilin bütün iştirakçılarının qarşılıqlı əlaqəsini təmin edən avtomatlaşdırılmış informasiya sistemindən istifadə çərçivəsində təşkil edilməlidir. Belə bir sistem bir məlumat mərkəzidir və çox vaxt hər bir iştirakçının mənimsəməli olduğu proqram şəklində təqdim olunur. Bununla əlaqədar olaraq, distant təhsilin həyata keçirildiyi universitetin müəllimi aşağıdakı rollardan birini və ya bir neçəsini yerinə yetirməlidir. Bu rol siyahısını effektiv və keyfiyyətli təhsil prosesinin təşkili üçün zəruri olan distant təhsil sisteminin bütün iştirakçılarının ideal birləşməsi kimi nəzərdən keçirmək lazımdır. Distant təhsil prosesində iştirak edənlərin vəzifələrini nəzərdən keçirək:

Distant təhsil sisteminin inzibatçısı (administratoru). Onun müəllim olmaq ehtimalı ən azdır, çünki onun əsas funksiyası bütün sistemin texniki səviyyədə işləməsini təmin etməkdir. Çox vaxt bu rolu avtomatlaşdırılmış informasiya sistemlərinin təşkili, tənzimlənməsi və sınaqdan keçirilməsi sahəsində səlahiyyətlərə malik olan texniki mütəxəssis və ya universitet müəllimi oynayır.

Kurs dizayneri. Distant təhsil sistemində təlimin məzmununu və məntiqini tərtib edənin rolu universitet müəlliminin əsas rollarından birinə çevrilə bilər, çünki funksional olaraq tam materiallar paketini hazırlamaq və tədris metodologiyasını formalaşdırmaq lazımdır. Kurs dizayneri kimi çıxış edən müəllim, əslində, tədris-metodiki sənədləri hazırlayarkən əyani təhsildə olduğu kimi, eyni rolu yerinə yetirir. Funksionallıq arasındakı yeganə fərq bütün tədris materiallarının mümkün qədər interaktiv olması zərurətidir ki, bu da müəllimin müasir informasiya texnologiyaları haqqında kifayət qədər biliyə malik olması

deməkdir.

Müəllim. Distant təhsilin təşkilatçısı kimi universitet müəlliminin əsas rolu ondan ibarətdir ki, kursun tərtibatçısından fərqli olaraq, müəllimin rolu bilavasitə öyrənmə (tədris) prosesi ilə məhdudlaşır. Bu rolda müəllim yalnız tədris prosesini öyrədə və nəzarət edə bilər, lakin kursun müəllifi ola bilməz. Burada əsas funksiyalar ondan ibarətdir ki, müəllim həm də köməkçidir, o, təlimi müşayiət edir, onun vəzifəsi əks əlaqəni təşkil etmək və öyrənmə prosesində tələbələrlə əlaqəni itirməməkdir. Bu rol, funksiyalar kimi, repetitorun rolu ilə çox sıx bağlıdır və çox vaxt onlar bir və eynidir.

Tyutor. O, ali məktəblərdə akademik məsləhətçidir. Onun rolu distant təhsilin təşkilində ən mühüm və ümumi rollardan biridir. Onun əsas vəzifəsi ondan ibarətdir ki, o, bütün tələbələri yaxşı tanımaqla bərabər, onların hüquqlarını, akademik maraqlarını qorumalı, tədris prosesi ilə bağlı olan bütün məlumatları onlara çatdırmalı, tələbələrin fərdi planlarının tərtib edilməsində onlara köməklik göstərməli, tədris prosesinə aid olan bütün materialları elektron formada yaymalı, tələbələrin hüquq və vəzifələrinə dair daim onlarla söhbətlər aparmalı, onları təlimatlandırmalıdır [8]. Onun əsas rolu tələbələrin fərdi təhsil proqramlarının təşkil edilməsinə və aparılmasına rəhbərlik etməkdən ibarətdir. Tyutor ali məktəbdə təhsil alanı daima müşayiət edir. Tyutor tələbələrin müstəqil sinifdənkənar işinə ümumi rəhbərliyi həyata keçirən müəllimdir. Repetitorluq fərdi planlar üzrə təlim-tərbiyə fəaliyyətinə və informasiya mənbələri ilə müstəqil işləməyə böyük əhəmiyyət verilən təhsil müəssisələrində tətbiq edilir. Beləliklə, məlum olur ki, repetitorun əsas vəzifəsi fərdi təlimə dəstək vermək və tələbələrin müstəqil fəaliyyətini təşkil etmək, həmçinin onu idarə və nəzarət etməkdir. Çox vaxt repetitorun roluna müəllimin və kurs dizaynerinin rolları daxildir, bu, distant təhsil sisteminin effektiv işləməsi baxımından qəbuledilməzdir, çünki distant təhsilin təşkilində mühüm rolların kəsişməsində uğursuzluğa gətirib çıxarır və ya onun bütün iştirakçıları arasında ümumi qarşılıqlı əlaqəni pozur.

Kurator və ya fasilitator (təşkilatçı, koordinator). Bu rol təlim prosesinin təşkilatçısı funksiyasını öz üzərinə götürür. Bu rolun əsas funksiyaları tələbələr tərəfindən təlim prosesinin təşkilində və ya onların fəaliyyətinin əlaqələndirilməsində köməklik göstərməkdir. Yəni, bu rolu universitet müəllimi yerinə yetirirsə, o zaman dərs cədvəlinin və tapşırıqların yerinə yetirilməsi cədvəlinin vaxtında yerinə yetirilməsinə nəzarət etməli, kursa məsləhət dəstəyi verməli və bütün iştirakçılarla ünsiyyət prosesini həyata keçirməlidir və s. Ümumiyyətlə, bu rol müəllimdən ciddi fəaliyyət və təlim prosesinin məntiqini yaxşı bilməyi tələb edir.

Xüsusi funksiyaları yerinə yetirən mütəxəssislər (nəzarət sistemi üzrə mütəxəssis (invingilator), moderator, məsləhətçi). Bir neçə rolu bu kateqoriyada birləşdirərək, onların ümumi cəhətlərini qeyd etmək olar, yəni hər bir rol distant təhsil çərçivəsində universitet müəlliminin yerinə yetirdiyi konkret funksiyanı ifadə edir. Əgər distant kurs proqramında biliyə nəzarət prosesini təmin etmək lazımdırsa, onda burada nəzarətçi tələb olunur (hərfi mənada ingilis dilindən. invigilator-tələbələrin imtahan zamanı saxtakarlıq etməməsini təmin edən imtahan nəzarətşisi) [9]. Əgər telekonfrans və ya forum rejimində əks əlaqə formasında distant təhsil prosesinin iştirakçıları arasında ünsiyyət prosesini, eləcə də digər formalarda həyata keçirmək zərurəti yaranarsa, o zaman bu halda moderator rolu, yəni, müəllim tələb olunur. Dar və spesifik funksiyaları təmin edən bütün digər rolları da müəllim öz üzərinə götürə bilər, çünki əksər hallarda bu, təhsil zamanı onun birbaşa funksional məsuliyyətidir.

Dinləyici. Bu rol ümumiyyətlə tələbələrlə əlaqələndirilir. Əsas funksiyası öyrənmə, yəni distant təhsil prosesində bilik və bacarıqların mənimsənilməsidir. Lakin müəllim özünütəhsil prosesində və ya universitetin professor-müəllim heyətinin hazırlanması prosesində iştirak edərsə, o zaman o dinləyici də ola bilər.

Distant təhsilin həyata keçirilməsi çərçivəsində universitet müəlliminin əsas rollarının yuxarıda göstərilən siyahısı və onların xüsusiyyətləri müasir universitet müəlliminin funksional xüsusiyyətlərini və dəyişikliklərini aydın şəkildə göstərir. Universitet müəllimi ilk növbədə distant təhsilin təşkili zamanı oynayacağı rolu seçərək müasir informasiya-təhsil mühitində yerini müəyyənləşdirməlidir. Gələcəkdə peşəkar fəaliyyətin təşkili sistemi formalaşmalıdır ki, bu da o deməkdir ki, universitetdə distant təhsilin təşkili və aparılması üçün öz metodologiyamız hazırlanmalıdır.

Distant təhsilin bir sıra prinsipləri də vardır

ki, onlardan biri bir və ya bir neçə informasiya vasitələrindən istifadə etmək, müəllim və tələbələrin ayrı-ayrı məkanlarda olmaları, öz-özünə öyrənmə və s-dir [4, s.62-65].

Yekun olaraq qeyd etmək lazımdır ki, müasir universitetdə müəllimin rolu bir sıra dəyişikliklərə məruz qalır ki, bu da tələbələrin peşə hazırlığı sistemində müəllimin özünün yerinin yüksək əhəmiyyətinə doğru dəyişməyə səbəb olur. İlk növbədə, kursun tərtibatının texnoloji bazası sürətlə inkişaf etdiyi üçün onun mürəkkəbləşməsi istiqamətində kurs dizaynerinin rolu əhəmiyyət kəsb edir. Universitet müəllimi hazırlanmış tədris materiallarının keyfiyyətinə əlavə tələblər irəli sürən müasir informasiya texnologiyalarından istifadə etməklə xüsusi bacarıqların, pedaqoji iş metodlarının inkişafına ehtiyac duyur. İkincisi, müasir pedaqoji prosesin özəlliyi ondan ibarətdir ki, müasir informasiya texnologiyalarından istifadə zamanı əsas ağırlıq mərkəzi tədricən öz təhsil prosesini fəal şəkildə qurmaq məcburiyyətində qalan tələbəyə ötürülür, o, informasiya təhsil mühitində müəyyən inkişaf trayektoriyasını seçir. Bu vəziyyətdə müəllimin əsas funksiyası tələbəyə təhsil nəticələrinin müvəffəqiyyətlə əldə edilməsində, təhsil məlumatlarının mənimsənilməsinndəə kömək etmək, onun fəaliyyətində dəstək olmaq, ortaya çıxan problemlərin həllinə kömək etməkdir. Üçüncüsü, universitet müəllimindən tədris prosesinin bütün iştirakçılarından fəal və intensiv rəy tələb olunur. Müasir informasiya-kommunikasiya texnologiyaları bu qarşılıqlı əlaqəni daha aktiv və interaktiv edir, lakin bu, müəllimdən əlavə səylər, eləcə də peşəkar səriştələr tələb edir. Tədris materialları toplusunu formalaşdırmaq üçün universitet müəllimi təhsil məlumatlarını təqdim edərkən daha çox interaktivlikdən istifadə etməlidir, effektiv tədris təqdimatları və interaktiv tədris filmləri kimi vasitələrdən, habelə interaktiv tədris materiallarının layihələndirilməsi və inkişafı üçün effektiv metodlardan istifadə etmək üçün bilik və bacarıqlar əldə etməlidir.

Bütün bunlarla yanaşı, distant təhsilin çatışmayan cəhətlərini də nəzərdən qaçırmaq olmaz. Belə ki, distant təhsil tələbələrin fərdi fərqlərini nəzərə almağa mane olur. Halbuki, tədris prosesində ən vacib məsələlərdən biri tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınmasıdır. Bundan əlavə, distant təhsil zamanı telekommunikasiya xətlərində nasazlıq yarana bilər və bu tədrisin aparılmasına mane ola bilər. Çünki, bütün ölkələrdə internet şəbəkəsinin ötürücülük qabiliyyəti eyni deyil. Distant təhsil zamanı müəllimlərlə tələbələr arasında canlı ünsiyyət kəsilə bilər. Bu isə elə bir problemdir ki, hər zaman metodistlərin, tədqiqatçıların diqqət yetirdiyi ən önəmli məsələlərdən biridir. Ünsiyyət sosial münasibətləri tənzimləyən prosesdir. Tədris prosesində tələbələrin müəllimlərlə canlı ünsiyyəti onlarda mühakimə yürütmək bacarığını inkişaf etdirir. İndiki dövrdə ünsiyyət vasitəsini texnologiyalar və müxtəlif əlaqə vasitələri təşkil edir. Distant təhsil prosesində təlim kursları lazımi səviyyədə interaktiv olmur. Dərsin interaktiv şəkildə keçirilməsi isə onun səviyyəsini yüksəldir. Distant təhsil zamanı müəllim tələbələrlə üz-üzə deyil, virtual şəkildə əlaqə yaratdığından burada interaktiv prosesi həyata keçirmək mümkün olmur. Distant təhsilin yekunu olaraq verilən diplomlar cəmiyyət arasında keyfiyyətli təhsil almağın göstəricisi kimi qəbul edilmir.

Lakin bunlarla yanaşı, distant təhsil qarşılarına məqsəd qoyanlar, bu təhsilin onlar üçün nəyə görə lazım olduğunu başa düşənlər üçün səmərəli bir təhsil formasıdır [3, s.32].

Beləliklə, ali təhsil sahəsində pedaqoji fəaliyyətdə, müəllimin tədris prosesində yeri və rolunda, onun əsas funksiyalarında dəyişikliklər baş verir ki, bu da müəllimlərin peşə fəaliyyətinin səmərəliliyinin və rəqabətqabiliyyətliliyinin artırılmasına kömək edir.

Ədəbiyyat

1. Abbasova, A. Təhsilə yeni baxış: Distant təhsil prosesində tələbə-müəllim münasibətlərinin psixoloji problemləri // Qərbi Kaspi Universitetinin “Elmi xəbərlər”i, № 4, - 2020-ci il, -s.79-84
2. Ağayev Şahrza. Tədrisdə distant təhsil // “Azərbaycan müəllimin” qəzeti, 29 avqust, 2020-ci il
3. Əhmədov, H. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları / H.Əhmədov. - Bakı, - 2013
4. İsgəndərova, V. Distant təhsilə keçid: problem və perspektivlər // “Pandemiya dövründə keyfiyyətli təhsilin təşkili problemləri” mövzusunda Beynəlxalq elmi konfransın materialları, 5 may, 2021-ci il, - Bakı, - 108 s.
5. Термины и определения дистационного обучения. http://distant.ioso.ru/do/termin.

htm
6. https://muallim.edu.az
7. https://e-qanun.az
8. https://az.facebook.com
9. https://www.seslisozluk.net.invigilator ne demek

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 100-102
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 100-102
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 100-102

UOT

İbtidai siniflər üzrə şifahi nitq və oxu ilə bağlı problemlərə dair

Müəllif:

Vaqif Qurbanov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqoqika üzrə elmlər doktoru, professor

Açar sözlər:
vahid nitq rejimi, oxu və nitq bacarıq və vərdişləri, təlim məqsədləri, təlim nəticələri, dərsləri dinləmək, şagirdlərin oxu vərdişlərini müşahidə etmək

Annotasiya. Orta məktəbdə şagirdlərin oxu və nitq vərdişlərinə diqqət həmişəkindən daha artıq olmalıdır. Çünki Azərbaycan dili dərsliklərində mətn didaktikası geniş yer tutur. Mətnlər də ədəbi-bədii, publisistik, yəni kütləvi mövzulardan seçilir. Oxu və nitq üçün belə mətnlər geniş imkanlar verir. Kurikulum tələbləri elədir ki, hər dərsdə normalarla oxu və nitq vərdişlərinə imkanlar verilir. Ancaq şagirdlərin oxu və nitq vərdişləri kurikulum tələblərindən geri qalır. Bunun da obyektiv və subyektiv səbəbləri mövcuddur. Məqalədə həmin məsələlərin bir çoxu ya elmi müddəalar kimi verilir, ya da konkret faktların təhlili əsasında araşdırılır.

Author:

Vagif Gurbanov
Azerbaijan State Pedagogical University
Doctor of science in pedagogy, professor

Key word:
unified speech mode, reading and speaking skills and habits, learning objectives, learning outcomes, listening to lessons, observing students’ reading habits

On problems related to oral speech and reading in elementary grades

Abstract. In secondary school, students’ reading and speaking skills should be paid more attention than ever. Because text didactics occupies a large place in Azerbaijani language textbooks. The texts are also selected from literary-artistic, journalistic, that is, mass topics. Such texts provide ample opportunities for reading and speaking. Curriculum requirements are such that opportunities are provided for reading and speaking skills with norms in each lesson. However, students’ reading and speaking skills lag behind curriculum requirements. There are objective and subjective reasons for this. In the article, many of those issues are presented either as scientific propositions or are investigated based on the analysis of specific facts.

Автор:

Вагиф Гурбанов
Азербайджанский Государственный Педагогический Университет
доктор педагогических наук, профессор

Ключевые слова:
целостный речевой режим, умения и навыки чтения и речи, цели обучения, результаты обучения, слушание уроков, наблюдение за навыками чтения и речи учащихся

К проблемам устной речи и чтения в начальных классах

Аннотация. Сегодня в нашей средней школе внимание к чтению и речи учащихся должно быть больше, чем когда-либо. Потому что в учебниках азербайджанского языка большое место занимает текстовая дидактика. Тексты также выделяются из литературно-художественных, публицистических, то есть массовых тем. Для чтения и устной речи такие тексты предоставляют широкие возможности. Требования учебной программы таковы, что каждому уроку предоставляются возможности для чтения и речи с нормами. Однако навыки чтения и речи учащихся отстают от требований учебной программы. Этому тоже есть объективные и субъективные причины. В статье многие из этих вопросов либо изложены в виде научных положений, либо исследуются на основе анализа конкретных фактов.

Əsas hissə. Mədəniyyətşünanslıq dil, nitq, milli təfəkkür, milli şüur kimi məsələlərdən bəhs edir. Məktəbin vəzifəsi şagirdlərdə bütün bunları aşılamaqdan ibarətdir. Ona görə də deyirlər "Təhsil millətin gələcəyidir". "Milli təhsil mədəni dilə yiyələnmək arzusu ilə yaşayan gənclər yetişdirməlidir". Bu baxımdan şagirdlərdə milli qürur hissini coşduran şüarlar var. "Mədəniyyəti yüksək olan xalq həmişə inkişaf edəcək, həmişə irəli gedəcək". "Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam" (Heydər Əliyev).

Müqəddəs ayələr kimi səslənən bu ifadələr ibtidai siniflərdə Azərbaycan dili fənni vasitəsi ilə, habelə onun təlim məqsədləri və təlim nəticələri ilə də necə də gözəl səsləşir. Budur qürur hissini coşduran çağırışlar:

Xüsusi təyinatlılar, xüsusi təyinatlılar,
Gedib Qarabağa çatdılar.
Təzə döyüş yaratdılar,
Şuşanı bıçaqla aldılar.
Pəncəlilər Poladdırlar,
Bizə sevinc yaşatdılar.
Yarısı gedib şəhid oldu,
Yarısı gedib qazi oldu,
Yarısı sağ-salamtdırlar.
Xüsusi təyinatlılar.

Pedaqoqlarımız ibtidai təhsilə özül və ya baza təshili deyirlər. Çoxlarına elementar görünən ibtidai təhsilin polad dirəkləri daha möhkəmdir. Cəmiyyətin inkişafının, mədəni səviyyəsinin yüksəldilməsinin bu mərhələdən asılı olması fikrini təsadüfən işlətməmişlər. K.D.Uşinski məktəbinin müqtədir davamçıları olan Qori Müəllimlər Seminariyasının müdavimləri ibtidai sinif filosofları idilər. Onların oxu, yazı, nitq vərdişləri haqqında yaratdıqları didaktika bu gün də bizi öyrədir və I-IV sinif şagirdlərinin normativ oxu, nitq bacarıq, vərdişləri ilə sıralandırılmasında istinad mənbəyi olaraq qalır. Bununla belə, ibtidai siniflərdə şifahi nitq və oxu ilə bağlı problemlər də yox deyildir. Onları həll etməkdən ötürü kurikulumda nəzərdə tutulanları, o cümlədən mətn üzərində işin metodikasını təkmilləşdirməyə ehtiyacı nəzərə almalıyıq. Poblemin həlli baxımından biz aşağıdakı müddəalarla çıxış etmək və müəllimlərin, tələbələrin, metodist alimlərin diqqətini həmin müddəalara yönəltməliyik.

1. İbtidai sinif müəllimlərinə əbədi dilin normaları ilə oxumaq və danışmağın linqvistik, didaktik və metodik əsaslarına dair məsləhətlər verməyə, onlarla müntəzəm təmasda olmağa çox böyük ehtiyac var.

2. Müəllimlərə müasir təhsilin məzmunu, şagirdlərin şifahi nitq və oxusunun tənzimləyicisi faktoru olan fonetik normaların mənimsədilməsi fəlsəfəsi geniş anlamda şərh edilməlidir.

3. Ənənəvi və müasir təhsildə ədəbi tələffüz vərdişlərinin yaradılması metodikası geniş müqayisə olunmalıdır:

a) müəllim hazırlığında fonetik hadisələrin öyrədilməsinə yeni baxış formalaşdırılmalı ; fonetik hadisələrin ədəbi dil norması yaratmaq imkanları nəzərə alınıb, onun seçmə fənnə çevirilməsi məqsədə uyğun sayılmalıdır ;

b) səsartımı, səsdüşümü, səsuyuşması, səsyerdəyişməsi, səsəvəzlənməsinin linqvistik əsasları ilə gələcək ibtidai sinif müəllimləri bakalavr və magistratura təhsilində silahlandırılmalıdır;

c) ədəbi dilin fonetik normaları üzrə vahid nitq rejimində tələffüzdə asanlıq prinsipi konkret faktların təhlili əsasında şərh olunmalıdır və s.

4. Metodistlərimiz məktəblərə müntəzəm getməli, ibtidai siniflərdə dərsləri müşahidə etməli və şagirdlərin oxu və danışıq fəaliyyətində orfoepik normalara monitorinqlər keçirməli və nəticələri ümumiləşdirməlidirlər.

5. İbtidai siniflərdə nitq rejimi lövhələri yaradılmalı və nəzarət mexonizmi gücləndirilməlidir. Yazıldığı kimi oxu və danışığa yol verilməməli, bu sahədə maraqdoğrucu tədbirlər, o cümlədən disput, debatlar və dialoq - disskusiyalar keçirilməsi planlaşdırılmalıdır.

6. Məktəbdə intonasiya və orfoepiya normalarının stabil fəaliyyətə çevirilməsi məqsədi ilə oxu və nitq yarışları, ədəbi-bədii tədbirlər təşkil edilməlidir.

7. Məktəbdə normalarla oxu və danışmaq klubu yaradılmalı və oraya sinfin liderləri seçilərək daxil edilməlidir. Bu zaman istiqamətləndirilmiş oxudan istifadə edilməlidir [1, s.42].

8. Məktəbdə və siniflərdə "belə yazılır", "belə oxunur" stend bulokları nümayiş etdirilməli və ümumiləşdirici dərslərdə onlardan əyani vasitələr kimi də istifadə olunmalıdır.

9. "Orfoepiya qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2021-ci il tarixli qərarı müəllimlər arasında müzakirə olunub öyrənilməli və ona münasibət bildirilməsi nəzərdə tutulmalıdır.

10. İbtidai siniflərdə Azərbaycan dilindən mətn oxusuna dair müəllimlərin fəaliyyəti pedaqoji şuraların iclas gündəliyinə salınmalı, mü-

zakirə edilərək müvafiq qərarlar qəbul edilməlidir.

Konfrans iştirakçılarına müəllim hazırlığında mövzu baxımından mövcud vəziyyəti çatdırarkən onu da vurğulamaq lazımdır ki, son illər orfoepik normalarla danışmaq kimi mədəni tələblərə əhəmiyyət verilmir, həmçinin bu məsələyə nəzərət edən, məsuliyyət daşıyanlar da nəzərə çarpmır. Halbuki 30-40 il bundan qabaq bu işə cavabdehliyi öz üzərlərinə götürən Əziz Əfəndizadə, Müseyib Məmmədov, Ələsgər Məmmədov və b. insanlar var idi. Onlar həm ciddi nəzarət mexanizmi yaratmışlar. Təəssüf ki, həmin ənənə indi davam etdirilmir.

Konfransımızın təşviqedici əhəmiyyətini biz həm də bunda görürük.

Yeri gəlmişkən, bir məsələni də xüsusi olaraq qeyd edək. Məktəblərimizdə qabaqcıl Azərbaycan dili müəllimləri fəaliyyət göstərir. Onların içərisində innovativ təcrübələrlə işləyən sinif müəllimləri də az deyil. “İlin qabaqcıl müəllimləri” adını ilk dəfə onlar almışlar. Kurikulum fəlsəfəsini ilk dəfə onların vasitəsi ilə dərk etmişik. Bütün nə yeniliklər olubsa, treninqlərdən ibtidai sinif müəllimləri uğurla çıxmışlar. Bəs yeni orfoepiya qaydaları niyə sinif müəllimlərinin müzakirəsindən keçirilməsin? Yeni qaydalar 2021-ci ilin 18 iyulundan təsdiq olunub. Ancaq sinif müəlliminin onun məzmunundan xəbəri yoxdur. İkinci tədris ilidir ki, bu kimi sözlərin tələffüzündə ciddi orfoepik dəyişiklik edilib: səadət, fəaliyyət, müalicə, müəllim, müavin, müasir və s. kimi sözlər yazıldığı kimi tələffüz edilir. Yeni qaydalarda dərsliklərindən fərqli olaraq bir çox sözlərin tələffüzü ilə bağlı dəyişikliklər var. Bundan əlavə, yeni qaydalarda xeyli diqqətsizliklərə yol verilib. Məsələn, əmək toxunulmazlığı ifadəsinin ədəbi tələffüzü də səhv göstərilib. Ümumiyyətlə, yeni qaydalar müəllimlərə rəyə verilməli idi. Çünki müəllimlər, necə deyərlər, əsl nəzarət-buraxılış məntəqəsidir. Sadəcə onlara əhəmiyyət verilməmişdir. Atalar deyiblər: “məsləhətli don gen olar”. Təəssüf ki, bizdə belə hallar sanki başı çıxanlardan gizlədilir. Yaxud da təcrübəli müəllimlə məsləhət olunmayan bir çox sözlərin tələffüzü və yazılışı tələsik təsdiq edilir. Nəticədə elmi səhvlər tədris işinə ziyan vurur. Müəllim deyir: K burada hərf hesab edilib, ancaq əlifbada 32 hərfin olduğu göstərilir. Fikrimizin canı odur ki, konfranslar məhz belə məsələləri açıb-söyləmək və ümumiləşdirici qərarlar qəbul etmək üçündür. Təcrübəli müəllimlər belə vəsilələrlə çox qarşılaşmışlar. Onların fikri etalon olmalıdır ki, hərc-mərciliyə az yer qalsın.

Biz bu müddəalarla konfrans iştirakçıları qarşısına çıxmağı, eyni zamanda bu işdə müəllimlərin nümunəsi ilə bağlı qeydlərimizlə həmkarlarmızı tanış etməyi nəzərdə tutmuşuq. Məqsədimiz ibtidai sinif müəllimlərinin oxu və nitq normalarına dair şagirdlərdə optimal vərdişlər yaratmaqda innovativ metodika nümayiş etdirməsinə köməklik göstərməkdən ibarətdir. Həmkarlarımıza bu işdə uğurlar arzulayırıq və yenilikləri izləməyi məsləhət bilirik.

Ədəbiyyat

1. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Layihənin rəhbəri Elmina Kazımzadə. Azərbaycan. – Bakı, AZ. 10.95, – 206 s.
2. Kurikulumların hazırlanması və tətbiqinə dair (Metodik tövsiyyə). – Bakı: Mütərcim, – 2008. – 224 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 103-110
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 103-110
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 103-110

UOT

VII sinif fizika dərslərində kompüter modellərindən istifadə sistemi

Müəllif:

Tofiq Hacıyev
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail:
tofiq.haciyev.62@mail.ru

Açar sözlər:
fizika, virtual nümayiş və təcrübə, araşdırma, mexaniki hərəkət, sistem

Annotasiya. Tam orta məktəblərdə təlimin İKT əsasında təşkili, şagirdlərin interaktiv dərslərdə biliklər alması ilə yanaşı idraki və ünsiyyət bacarıqları da formalaşır. Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etmək müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur. Tədrisdə yeni texnologiyalardan istifadə edilməsi şagirdlərin dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Mövzulara aid virtual nümayiş və təcrübələrdən istifadə şagirdlər üçün çox cəlbedici və yaddaqalan olur. Orta məktəbdə fizikanın tədrisi prosesində multimedia vasitələrindən, virtual nümayiş və təcrübələrindən, eləcə də rəngarəng illüstrasiyalardan istifadə şagirdlərin idrak aktivliyinə müsbət təsir göstərir.Nəticədə şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır. Tədqiqat işində VII sinif fizika kursunun tədrisində virtual nümayiş və təcrübələrin təlim prosesi-nə təsiri və rolu nəzərdən keçirilmişdir. Şagirdlərin tədqiqatçılıq bacarıqlarının və bilik keyfiyyət-lərinin artırılmasında mühüm rol oynayan mövzular üzrə sistemi müəyyənləşdirilmiş və bəzi nümunələr verilmişdir.

System of using computer models in class VII physics classes

Author:

Tofig Hajiyev
Azerbaijan State Pedagogical University
E-mail:
tofiq.haciyev.62@mail.ru

Key word:
physics, virtual demonstration and experience, research, mechanical move-ment, system

Abstract. In secondary schools, education is organized on the basis of ICT, cognitive and communi-cation skills are formed in addition to the students' learning in interactive lessons. World experience shows that the modern educational model of using ICT imposes new requirements and tasks on the teaching staff of the school. The teachers of the new generation are required to select and apply technologies that make their harmonious development possible, taking into account the individual characteristics of the students, in accordance with the structural content and purpose of the subject they are teaching. The use of new technologies in teaching allows to stimulate students' interest and desire for lessons. Using virtual demonstrations and experiences related to the topics is very engaging and memorable for students. The use of multimedia tools, virtual demonstrations and experiments, as well as colorful illustrations in the process of teaching physics in high school has a positive effect on the cognitive activity of students. As a result, the quality of results shown by students in Olympiads and various intellectual competitions increases significantly. The effect and role of virtual demonstrations and experiments on the learning process in the teaching of the VII grade physics course was considered in the research work. The system of topics that play an important role in improving students' research skills and knowledge is defined and some examples are given.

Система использования компьютерных моделей на уроках физики VII класса

Автор:

Тофик Гаджиев
Азербайджанский Государственный Педагогический Университет
E-mail:
tofiq.haciyev.62@mail.ru

Ключевые слова:
физика, виртуальная демонстрация и эксперимент, исследования, механическое движение, система

Аннотация. Организация обучения на основе ИКТ в общеобразовательных школах, где учащиеся получают знания на интерактивных занятиях, а также формируются познавательные и коммуникативные навыки. Мировой опыт показывает, что использование ИКТ в современной образовательной модели ставит новые требования и задачи и перед педагогическим коллективом школы. Использование новых технологий в обучении позволяет стимулировать интерес и желание учащихся к уроку. Использование виртуальных демонстраций и экспериментов, связанных с темами, становится очень увлекательным и запоминающимся для учащихся. Использование мультимедийных средств, виртуальных демонстраций и экспериментов, а также красочных иллюстраций в процессе обучения физике в средней школе положительно сказывается на познавательной активности учащихся. В результате значительно повышается качество результатов, показываемых учащимися на олимпиадах, различных интеллектуальных соревнованиях. В исследовательской работе рассмотрено влияние и роль виртуальных демонстраций и экспериментов на учебный процесс при преподавании курса физики VII класса. Определена система по темам, играющим важную роль в повышении исследовательских навыков и качества знаний учащихся, приведены некоторые примеры.

Müasir dövrdə ümumtəhsil orta məktəblərdə fizikanın tədrisi prosesində nəzəri məlumatlar araşdırmalar aparmaqla şagirdlərə çatdırılır. Buna görə də təlimin həyata keçirilməsi fizika müəllimlərindən elm və texnikanın ən yeni nailiyyətləri ilə yaxından tanış olmağı və onlardan fizika dərslərində səmərəli istifadə etməyi tələb etdi.

VII sinif fizika dərsliyində şagirdlərin dərs materiallarını daha dərindən mənimsəməsi və fənnə maraqlarının artırılması məqsədi ilə bəzi layihələr təklif olunmuşdur. Apardığımız tədqiqatlardan məlum oldu ki, VII sinif fizika kursunun quruluş və məzmunu şagirdlərin daha çox bilik və bacarıqlarını reallaşdırmağa imkan verir. Fikrimizcə, şagirdlərin bacarıqlarının və bilik keyfiyyətlərinin artırılmasında virtual nümayiş və təcrübələrin (fiziki animasiya və si-mulyasiyanın) sistemli icrasının təşkili tədris prosesində aktual problemlərdən biridir.

Elmi tədqiqat işinin yeniliyi şagirdlərin fizikadan bacarıqlarının inkişaf etdirilməsinə dair praktik iş sistemini hazırlamaq və bunun icra metodikasını işləməkdən ibarətdir.

Elmi tədqiqat işimizdə ümumtəhsil məktəblərinin VII sinif fizika dərsliyində verilmiş araşdırmalarla əlaqəli virtual nümayiş və təcrübələr verilmişdir. Təklif olunmuş virtual nümayiş və təcrübələr müəllimlərin işini asanlaşdıra, şagirdlərin isə nəzərdə tutulmuş mövzunu daha dərindən başa düşməsinə kömək edə bilər.

Tədris prosesində müəllimin əsas vəzifəsi proqram materialına mümkün qədər müəyyən sistemlə istifadə oluna bilən nümayiş və təcrübələri seçib, bacarıqla nümayiş etdirməkdən ibarətdir.

Müəllim virtual nümayiş və təcrübələrini seçərkən aşağıdakı prinsiplərə riayət etməlidir.

1. Seçilən nümayiş və təcrübə materialı tədris mövzusuna uyğun olmalı, yəni öyrənilən fiziki hadisə və qanun təcrübədə tam əksini tapmalıdır.

2. Təqdim olunan nümayiş və təcrübələrindən şagirdlərin necə istifadə etməsi yoları tam izah olunmalıdır.

3. Mövzuya uyğun seçilmiş nümayiş və təcrübələr şagirdlərin bilik və ümumi inkişaf səviyyəsinə uyğun olmalıdır.

Şagirdlərdə bacarıqların yaranması üçün əsas şərt əməliyyatın fiziki mahiyyətini, eləcə də nümayiş və təcrübələri başa düşməkdən ibarətdir. Ona görə də müəllim mövzuya uyğun virtual nümayiş və təcrübələrdən necə istifadə olunmasına aid təlimatın və nümunə üçün müəllim tərəfindən göstərilməsinin böyük əhəmiyyəti vardır.

Müəllimlər və şagirdlər mövcud dərslikdəki layihələrin bir çoxunu yerinə yetirməkdə çətinlik çəkir. Çünki, lazım olan ləvazimatların çoxu məktəbdə olmur və yaxud onları təşkil etmək müəyyən qədər maddi vəsait tələb edir. Bizim təklif etdiyimiz virtual nümayiş və təcrübələrin tətbiqi onlara nisbətən daha asandır. İstər məktəbdə aparılması, istərsə də evdə yerinə yetirilməsi nəzərdə tutulan layihələr asanlıqla yerinə yetirilə bilir və dərsin mahiyyətini başa düşməyə imkan yaradır.

Tədqiqatın nəzəri əhəmiyyəti VII sinifdə fizikadan tədris vahidləri üzrə virtual nümayiş və təcrübələr sistemini yaratmaqdan ibarətdir.

Qeyd edək ki, VII sinif fizika dərsliyində tədris vahidləri üzrə aşağıdakı layihələr verilmişdir (Cədvəl 1) [1, 2, 3]:

Cədvəl 1.

Tədris vahidləri və mövzular	**Təklif olunan virtual nümayiş və təcrübələr. (animasiya/simulyasiya)**
1. Mexaniki hərəkət.	1. Hesablama cismi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kolo&l=ru
1.1. Mexaniki hərəkətin təsviri.	
1.2.Düzxətli bərabərsürətli hərəkət. 1.4.Düzxətli dəyişənsürətli hərəkət. 1.5. Hərəkətin qrafik təsviri.	2. Hərəkət https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_pohyb&l=ru

1.6. Çevrə üzrə bərabərsürətli hərəkət. 1,7. Çevrə üzrə bərabərsürətli hərəkətdə sürət və təcil.	3. Çevrə üzrə hərəkət https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kruznice&l=ru
2. Qüvvə.	4. Nyutonun I qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_newton1&l=ru
2.2. Cismin ətalətliliyi. Nyutonun I qanunu.	
2.3. Nyutonun II qanunu.	5. Nyutonun II qanunu https://www.vascak.cz/data/android/physicsatschool/templateimg.php?s=mech_newton2&l=ru
2.4. Nyutonun III qanunu.	6. Nyutonun III qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_newton3&l=ru
2.5. Ümumdünya cazibə qanunu. 2.6. Ağırlıq qüvvəsi.	7. Qravitasiya sahəsi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_centralni_pole&l=ru
2.8. Çəki.	8. Çəkisizlik https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_beztizny&l=ru 9. Sərbəstdüşmə https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_padostroj&l=ru 10. Havada və vakuumda cisimlərin sərbəst düşməsi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_newtonova_trubice&l=ru
2.9. Sürtünmə qüvvəsi.	11. Sürtünmə və havanın müqaviməti https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_rovina&l=ru
3. Mexaniki iş və enerji.	12. Mexaniki iş https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_prace&l=ru
3.1. Mexaniki iş.	
3.9. Enerjinin saxlanması qanunu.	13. Enerjinin saxlanması qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_zze&l=ru
4. Təzyiq	14. Təzyiq https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_tlak&l=ru
4.2. Qazın təzyiqi. Manometr.	
4.3. Mayelərin təzyiqi.	15. Hidrostatik təzyiq https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_hydrotlak&l=ru
4.4. Maye və qazlarda təzyiqin ötürülməsi.	16. Paskal qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_pascal&l=ru
4.5. Birləşmiş qablar.	16. Birləşmiş qablar qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_nadoby&l=ru
4.6. Hidravlik maşın.	17. Hidravlik qaldırıcı https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_lis&l=ru

4.7 Atmosfer təzyiqi.	18. Yerin atmosferi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_atmosfera&l=ru
4.8.Atmosfer təzyiqinin ölçülməsi.	19. Atmosfer təzyiqi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_vyska_tlak&l=ru
4.9. Arximed qanunu.	20. Arximed qanunu https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_archimedes&l=ru
4.10. Cisimlərin üzmə şərti.	21. Katezian üzgəc https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kartezian&l=ru
5. Sadə mexanizmlər. Cisimlərin tarazlığı.	22. Ling https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_paka&l=ru
5.1.Sadə mexanizmlər. Ling.	
5.2. Bloklar.	23. Blok https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kladky&l=ru
5.3. Mail müstəvi.	24. Mail müstəvi https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_sily&l=ru
5.5. Cismin tarazlığı.	25. Tarazlığın növləri-1. https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_rovnovazna&l=ru 26. Tarazlığın növləri-2. https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_stabilita&l=ru
6. Mexaniki rəqslər və dalğalar.	27. Nyuton rəqqası https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_houpacka&l=ru
6.1. Rəqsi hərəkət. Mexaniki rəqslər.	
6.2. Rəqsi hərəkəti xarakterizə edən kəmiyyətlər.	28. Riyazi rəqqas https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_kyvadlo&l=ru 29. Yaylı rəqqas https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_mechanicky_oscilator&l=ru
6.3. Dalğa. Mexaniki dalğa.	30. Dalğa https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_vlneni&l=ru
6.4. Mexaniki dalğanın növləri. Dalğanı xarakterizə edən kəmiyyətlər.	31. Dalğa maşını https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_vlnostroj&l=ru
6.5. Səs dalğaları.	32. Səs https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_zvuk&l=ru

6.6. Səsin sürəti. Əks səda.	33. Səsin sürəti https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=kv_rychlost_zvuku&l=ru

VII sinif fizika kursunda ***"Mexaniki hərəkətin təsviri"*** mövzusunda kinematika anlayışlarının (hesablama cismi, hesablama sistemi, maddi nöqtə, trayektoriya, yol, yerdəyişmə, zaman fasiləsi, sürət və s.) formalaşması ilə başlayır. Tədris zamanı müəllimə elə gəlir ki, kinematikanın ilk anlayışları şagirdlər tərəfindən yaxşı mənimsənilir. Kinematika anlayışlarının formalaşdırılması şagirdlərdən mücərrəd düşünmə qabiliyyəti tələb etdiyindən, bu da təlim prosesində müəllimdən metodiki olaraq düzgün yanaşmanı tələb edir.



Şəkil 1.

Başqa sözlə desək, tədris prosesində şagirdlərdə mexaniki hadisələr haqqında düzgün təsəvvür yaratmaq lazımdır.

Kinematika anlayışlarının formalaşmasına qədər şagirdlər sözlə izah edilən hərəkət növlərini müşahidə etməlidirlər. Ona görə də şagirdlərdə elmi təfəkkürü inkişaf etdirmək üçün tədrisin birinci mərhələsində şifahi olaraq onlarda konkret hərəkət haqqında aydın təsəvvür yaradır.

Fiziki anlayışların formalaşdırılması prosesində nümayiş eksperimentinin rolu çox böyükdür. Ona görə də təlim prosesində virtual nümayiş və təcrübələrdən istifadə şagirdlərdə müşahidələrə, müqayisə və nəticələrə marağı oyatmaqla, onları əhatə edən həyatı praktika və həyat hadisələri əsasında onlarda fiziki anlayışların formalaşması sürətlənir.

Maraqoyatma dərslikdə verilən material əsasında da aparıla bilər. Tədris prosesində müəllim mexaniki hərəkət və onu təsvir edən bəzi anlayışları–*"hesablama cismi, hesablama sistemi, maddi nöqtə, trayektoriya, yol, yerdəyişmə, zaman fasiləsi, sürət"* və s. anlayışları təkrarlamaqla ***"Hesablama cismi"*** adlı virtual təcrübəni nümayiş etdirə bilər [3] (şəkil 1.).

Nümayiş zamanı velosiped hansı trayektoriya üzrə hərəkət edir?, velosipedin hərəkətinə mexaniki hərəkət kimi baxmaq olarmı?

Təqdim olunan nümayişdə hesablama cismi kimi nə götürülə bilər? və s. kimi verilən suallar şagirdləri düşünməyə təhrik edir. Şagirdlərin fərziyyələri dinlənilir və elektron lövhədə qeyd olunur və sonra tədqiqat sualları formalaşdırılır.

Tədqiat sualı: *Hansı hərəkət mexaniki hərəkət adlanır? Mexaniki hərəkət hansı kəmiyyətlərlə xarakterizə olunur?*

Dərsin ***"Araşdırma"*** hissəsi ilə maraqoyatma işi məqsədyönlü davam etdirilir və şagirdlərdən tapşırığa yaradıcı yanaşmaq tələb olunur.

Məlumat mübadiləsi və müzakirəsində şagirdlərə təqdim olunan suallar müxtəlif ola bilər. Məsələn,

1. Cismin mexaniki hərəkət etdiyini necə müəyyənləşdirmək olar?
2. Trayektoriya nədir?
3. Yol və yerdəyişmə nəyə deyilir?
4. Gedilən yol yerdəyişmədən nə ilə fərqlənir?
5. Trayektoriya hansı formalarda ola bilir?



Şəkil 2.

Şagirdlərə təqdim olunmuş virtual təcrübə əsasında suallar da təqdim etmək olar. Məsələn,

1. Hərəkət edən iki idmançının vəziyyətlərinin dəyişməsini necə müəyyən etmək olar?
2. Onların hərəkət trayektoriyalarının forması necədir?
3. Birinci idmançının velosipedinin təkərinin oxa və ikinci idmançının isə yola nəzərən (dizinin, pedalın, təkərin və s.) trayektoriyasının forması necədir?

Nümayiş əsasında şagirdlər müşahidə edərək, hərəkətdə olan idmançıların vəziyyətlərinin ətrafdakı ci-simlərə nəzərən dəyişdiyi qərarına gəlirlər. Həm də hər iki idmançının velosipedlərinin təkərlərinin hərəkət trayektoriyası ayrı–ayrı cisimlərə görə müxtəlifdir (şəkil 2.). [1, $s.2$].

"Düzxətli bərabərsürətli hərəkət" mövzusunun tədrisində müəllim əsas diqqəti *"bərabərsürətli hərəkət"* anlayışının formalaşdırılmasına yönəltməlidir.

Bərabərsürətli hərəkətin sadə görünməsinə baxmayaraq onun sözlə təsvir edilməsi ilə kifayətlənmək olmaz. Ona görə də tədris zamanı şagirdlərə virtual təcrübənin təqdim olunması məqsədəuyğundur.



Şəkil 3.

Maraqoyatma hissəsində təqdim olunmuş virtual təcrübədə hər iki idmançının hərəkətlərinin necə fərqləndiyini aydınlaşdıraraq, tədqiqat sualı formalaşdırılır.

Tədqiqat sualı: *Bərabər zaman fasilələrində bərabər yerdəyişmələr icra edən cismin hərəkəti necə adlanır?*

Araşdırma hissəsində hər iki idmançının hərəkət trayektoriyası və sürətləri haqqında müzakirə aparılır [1,2].



Şəkil 4.

"Sürət" anlayışı şagirdlərdən mücərrəd təfəkkür qabiliyyəti tələb edir. Sürət haqqında həyat müşahidələrindən şagirdlərin ilk təsəvvürləri olmasına baxmayaraq virtual təcrübəni təqdim etmək olar.

"Hərəkət" adlı virtual təcrübəni təqdim edərək, şagirdlərdən avtomobilin qət etdiyi yolun və sərf etdiyi zamanın qiymətlərini bir neçə dəfə qeyd etməklə, onun sürətinin

$$sürət = \frac{yol}{zaman};\qquad \vartheta = \frac{s}{t}$$

düsturu ilə hesablaması tələb olunur (şəkil 3). Hesablama nəticəsində şagirdlər avtomobilin sürətinin qiymətinin dəyişmədiyi qənaətinə gəlirlər [1, 2, 3].



Şəkil 5.

"Düzxətli dəyişənsürətli hərəkət" mövzusunun tədrisində isə şagirdlərin əvvəlki mövzularda aldıqları biliklər təkrarlanır. Sonra şagirdlərin diqqəti hərəkət zamanı cismin (avtomobil) sürətinin dəyişməsinə yönəldilir. Şagirdlərin fikirləri dinlənilir və tədqiqat sualları formalaşdırılır.

Tədqiqat sualı: *Bərabər zaman fasilələrində bərabər yerdəyişmələr icra edən cismin hərəkəti, bərabər zaman fasilələrində müxtəlif yerdəyişmələr icra edən cismin hərəkətindən necə fərqlənir? Düzxətli dəyişənsürətli hərəkət düxxətli bərabərsürətli hərəkətdən necə fərqlənir?*

Araşdırma hissəsində ***"Hərəkət"*** adlı virtual təcrübə şagirdlərə təqdim etməklə avtomobilin qət etdiyi yolun və sərf etdiyi zamanın qiymətlərini bir neçə dəfə qeyd etməklə, onun sürətinin qiymət-lərini bir neçə dəfə hesablayırlar. Hesablama nəticəsində şagirdlər avtomobilin sürətinin qiymətinin dəyişdiyi qənaətinə gəlirlər (şəkil 5).

"Hərəkətin qrafik təsviri" mövzusunun tədrisində isə şagirdlərin riyaziyyat və coğrafiya fənlərindən qrafik və diaqramlar haqqındakı bilikləri təkrar edilir.

Riyaziyyatdan öyrəndikləri xətti və funksiyanın düsturunu yazıb, qrafikini çəkməklə, dərslikdə verilən suallar əsasında şagirdlərin fərziyyələri dinlənilir. Sonra bunun əsasında tədqiqat sualı formalaşdırılır [1,2,3].

Tədqiqat sualı: *Düzxətli bərabərsürətli və dəyişənsürətli hərəkətin qrafikləri bir-birindən necə fərqlənir?*

Araşdırma hissəsində müəllim sürət və yolun zamandan asılılıq qrafiklərini çəkərək izahat verir. Sonra müəllim ***"Hərəkət"*** adlı virtual təcrübəni yenidən nümayiş etdirərək, avtomobilin hərəkəti zamanı onun get-diyi yolun və sürətinin zamandan asılılıq qrafiklərinin necə qurulduğunu şagirdlərə izah edir (şəkil 4, 5).

Müəllim dərsi ümumiləşdirərək, alınan nəticələri şagirdlərə təqdim edir.

Düzxətli bərabərsürətli hərəkətdə:	***Düzxətli dəyişənsürətli hərəkətdə:***
1. Sürət zamana görə sabit qalır və zaman oxuna paralel olur.	**1.** Sürət zamana görə sabit qalmır.
2. Yol–zaman qrafiki koordinant başlanğıcından keçən düz xətdir.	**2.** Yol–zaman qrafiki koordinant başlanğıcından keçən paraboladır.
3. Sürət qrafikinin altındakı fiqurun (düzbucaqlının) sahəsi ədədi qiymətcə gedilən yola bərabərdir.	**3.** Sürət qrafikinin altındakı fiqurun sahəsi ədədi qiymətcə gedilən yola bərabərdir. [1,2,]

Tədris olunan hər mövzunun sonunda şagirdlərə müstəqil olaraq virtual nümayiş və təcrübələri evdə müstəqil olaraq təkrarlamaq tapşırılır.

1. "Mexaniki hərəkət" tədris vahidinə aid nümayiş təcrübələri.	
Təcrübə -1.	***Hesablama cismi və hesablama sistemi. Cismin hərəkət trayektoriyası və yerdəyişməsinin nümayişi.***
Məqsəd:	*Cisimlərin müxtəlif hesablama cisimlərinə* ***(hesablama sistemlərinə)*** *nəzərən hərəkətinin öyrənilməsi.*
Avadanlıq:	Fizikaya aid virtual nümayiş və təcrübələr.
İşin gedişi:	
1.	Qovluqdan ***"Hesablama sistemi"*** adlı virtual nümayişi seçin.
2.	Ekranın sol tərəfindəki ***"göy rəngli"*** (1) düyməsini mausun sol düyməsi ilə sıxaraq, hərəkət edən cisimləri (idmançıları) seçin.
3.	***"Yaşıl rəngli"*** (2) düyməni mausun sol düyməsi ilə sıxaraq, velosiped ilə hərəkət edən idmançıların ətrafdakı cisimlərə nəzərən vəziyyətlərinin necə dəyişməsini müşahidə edin. (2).
4.	Hər iki idmançının eyni zaman müddətində qət etdikləri yerdəyişmə və yolları müqayisə edin.
5.	İlkin vəziyyətdə ***"narıncı rəngli"*** (3) düymələrdən istifadə edərək, velosipedin diskinin, pedalının, zəncirinin və idmançının dizinin hərəkət trayektoriyalarını müşahidə edərək müqayisə edin (4).
6.	*Ekranın sağ tərəfindəki* ***"qırmızı rəngli"*** *(5) düyməni mausun sol düyməsi ilə sıxıb, buraxın və ilkin vəziyyətə qayıdın.*
7.	***Qeyd: "Sarı rəngli"*** *düyməni sıxaraq təcrübəni tədricən müşahidə etmək olar.*







Təcrübə -2.	***Düzxətli bərabərsürətli və bərabərtəcilli hərəkətin öyrənilməsi.***
Məqsəd:	*Cisimlərin hərəkətinin öyrənilməsi: yol (S), sürət (ϑ) və təcilin (a) zamandan asılılıq qrafiklərinin qurulmasını müşahidə etmək və qurmaq.*
Avadanlıq:	Fizikaya aid virtual nümayiş və təcrübələr.
İşin gedişi:	

1.	Qovluqdan ***“Bərabərsürətli və bərabərtəcilli hərəkətlələrin öyrənilməsi”*** adlı virtual təcrübəni seçin.
2.	Ekranın aşağı hissəsindəki ***“üçbucağabənzər”*** (1) düyməni mausun sol düyməsi ilə sıxaraq, avtomobilin hərəkət sürətini seçin. (1).
3.	Ekranda sağ tərəfdəki ***“yaşıl rəngli”*** (2) düyməni mausun sol düyməsi ilə sıxın və bərabərsürətlə hərəkət edən avtomobilin hərəkətini müşahidə edin.(2).
4.	Ekranın aşağı hissəsində mausun sol düyməsinin köməyi ilə ***“üçbucağabənzər”*** (3) düymədən istifadə edərək avtomobilin sürətini (bir neçə dəfə) dəyişin və onun hərəkətini müşahidə edin.
5.	Ekranın yuxarı hissəsindəki yerdəyişmənin, sürət və təcilin (S, ϑ və a) işarələrini mausun sol düyməsi ilə ayrı-ayrı seçin və avtomobilin qət etdiyi yolun (yerdəyişmənin), sürət və təcilin zamandan asılılıq qrafiklərinin qurulmasını müşahidə edin. (4).
6.	Ekranın sağ tərəfində aşağıda olan ⇒ düyməsini sıxın və sonra ***“yaşıl rəngli”*** (5) düy-məni sıxaraq bərabəryeyinləşən hərəkət edən avtomobilin hərəkətini müşahidə edin.
7.	Sonra avtomobilin hərəkət sürətini bir neçə dəfə dəyişərək, bərabəryeyinləşən hərəkətdə onun qət etdiyi yolun, sürətinin və təcilinin (S, ϑ və a) zamandan asılılıq qrafiklərinin qurulmasını müşahidə edin. (4).
8.	Ekranın sağ tərəfində aşağıda olan ⇒ düyməsini sıxın və sonra ***“yaşıl rəngli”*** (5) düyməsini sıxaraq bərabəryavaşıyan hərəkət edən avtomobilin hərəkətini müşahidə edin.
9.	Sonra avtomobilin hərəkət sürətini bir neçə dəfə dəyişərək, bərabəryavaşıyan hərəkətdə onun qət etdiyi yolun, sürətinin və təcilinin (S, ϑ və a) zamandan asılılıq qrafiklərinin qurulmasını müşahidə edin. (4).
10.	Ekranın sağ tərəfindəki ***“qırmızı rəngli”*** (6) düyməni mausun sol düyməsi ilə sıxıb, ilkin vəziyyətə qayıdın.
11.	***Qeyd: “Sarı rəngli”*** *düyməni sıxaraq təcrübəni tədricən müşahidə etmək olar.*







Ədəbiyyat

1. Murquzov, M.İ. Fizika 7. Dərslik. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev, D.Z. Əliyeva. – Bakı: Bakınəşr, – 2018. – 144 s.
2. Murquzov, M.İ. Fizika 7. Müəllimlər üçün metodik vəsait. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev, D.Z.Əliyeva. – Bakı: Bakınəşr, – 2018. – 144 s.
3. Физика в школе – HTML5 (Физика. Анимации/Симуляции). https://www.vascak.cz/physicsanimations.php?l=ru , 2021.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 111-115
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 111-115
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 111-115

UOT

Təlim prosesinin təşkilində müəllimin roluna ənənəvi və yeni baxışlar

Müəllif:

Südabə Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: s.mammadova@list.ru

Açar sözlər:
təlim, müəllim, idrak, təfəkkür, metod

Annotasiya. Məqalədə müasir təlim prosesinin təşkilində müəllimin roluna ənənəvi və yeni baxışlardan bəhs edilir. Müasir təhsil konsepsiyasında interaktiv təlim forma və metodları vasitəsi ilə müəllimlərin şagirdin fənnə marağının artırılmasına, onun düşüncə tərzində dönüş yaratmasına qabil şəxslər olmasından bəhs edilir. Qeyd olunur ki, fərdi yanaşmaqla tədqiqatçılıq bacarıqlarını vaxtında üzə çıxarıb düzgün müəyyənləşdirən müəllimin şagirdi istiqamətləndirməklə ona yardım göstərmiş olduğu qeyd edilir. Təlim prosesinin təşkilində müəllimin roluna ənənəvi baxışlara görə, müasir təlimdə həm canlı müşahidə, həm abstrakt təfəkkür və həm də praktik tətbiqin vəhdətinin təmin edilməsi töfsiyə edilir. Həmçinin təlimdə rast gəlinən ənənəvi problemlər, artıq 14 ildir məktəblərimizdə tətbiq olunan yeni təlim prinsipinin tətbiqi ilə gözlənilən müsbət təlim nəticələrinin əldə edilməsindəki problemlərin həlli yollarını birgə axtarmaqla bağlı konfrans iştirakşılarına çağırış edilir.

Author:

Sudaba Mammadova
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: s.mammadova@list.ru

Key word:
training, teacher, cognition, thinking, method

Traditional and new views on the role of the teacher in the organization of the educational process

Abstract. The article talks about the possibilities of full application of modern teaching principles through interactive training forms and methods during training, and the ability of teachers to change the student's interest in science and way of thinking. It is noted that the teacher, who revealed and correctly identified the student's research ability with an individual approach, helped him by directing him to the right path. During training, it is recommended to ensure the unity of both live observation, abstract thinking, and practical application. It is also noted that the problems encountered in training, it is not possible to get the positive training results expected in the training principle applied in our schools for 14 years, and the participants of the conference are called on to find solutions to these problems.

Автор:

Судаба Мамедова
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail: s.mammadova@list.ru

Ключевые слова:
обучение, преподаватель, познание, мышление, метод

Традиционные и новые взгляды на роль учителя в организации учебного процесса

Аннотация. В статье рассматриваются традиционные и новые взгляды на роль учителя в организации современного учебного процесса. В современной образовательной концепции говорится о том, педагоги - это люди, призванные повысить интерес ученика к предмету, изменить его образ мышления посредством интерактивных форм и методов обучения. Отмечается, что учитель, своевременно выявивший и правильно определивший исследовательские навыки при индивидуальном подходе, оказжвает помощь ученику, направив его. Согласно традиционным взглядам на роль учителя в организации учебного процесса, в современном обучении целесообразно обеспечить единство как живого наблюдения, абстрактного мышления, так и практического применения. Также приглашаются к обсуждению на конференции традиционных проблем, встречающихся в обучении, вести совместный поиск путей решения проблем в достижении ожидаемых положительных результатов обучения с применением нового принципа обучения, который уже 14 лет внедряется в наших школах.

Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramının tələblərinə uyğun olaraq, şagirdlərdə təfəkkürün daha yüksək səviyyəsinin formalaşdırılması kimi qanunauyğunluğu müasir elmi-nəzəri təfəkkür səviyyəsinə çatdırmaq üçün biz müəllimlərinin də qarşısında mühüm öhtəliklər durur. Müəllim – biliklərin əldə olunması yolunda bələdçi, fasilitator, şagird isə bilikləri kəşf edən, tədqiqatçıdır. Bilirik ki, təhsilin müxtəlif mərhələləri arasında varislik və qarşılıqlı ardıcıllıq mövcuddur. Təhsil sisteminin bütün mərhələləri öz uyğun işini əvvəlkilərin davamı olaraq qurur. Tərbiyə və təlimin həlli, onların müxtəlif mərhələlərinin arasında olan qarşılıqlı əlaqə prinsipi əsasında müəyyənləşdirilir. Qabiliyyətlərin üzə çıxarılması və inkişaf etdirilməsi şagirdlərin dərs zamanı fəallığının hansı yollarla yüksəldilməsindən birlavasitə asılıdır. Fikir və düşüncələrini hər vaxt və hər yerdə sərbəst olaraq ifadə edə bilən, müstəqil mühakimə yürüdən insan formalaşdırmaq məktəbin, həmçinin də müəllimin qarşısında duran ən ümdə vəzifədir. Bu gün dərslər elə qurulmalıdır ki, şagirdlər maksimum fəallığa nail olsunlar.

Standartlar əsasında nəticəyönlü təhsil kurikulumu təhsilalanlar tərəfindən standartların mənimsənilməsini və təlimin düzgün təşkilini nəzərdə tutur. Tədris prosesində ardıcıllıq elə götürülür ki, əvvəl əldə olunmuş bacarıqlar sonrakı təlimin bazasını formalaşdırsın. Təlim elə təşkil olunmalıdır ki, yeni alınan biliklərlə yanaşı, onları tətbiqetmə bacarıqlarına yiyələnmək üçün şagirdlərin imkanı olsun. Və beləliklə də şagirdlər aldıqları informasiyanı möhkəmləndirmək fürsəti əldə etmiş olarlar.

Təlim prosesi zamanı motivasiya yartmaq üçün müxtəlif iş formalarından istifadə olunması məqsədəuyğundur. Yəni, prosesdə təlimin ənənəvi formalarından əlavə, qeyri-standart: dərs-müzakirə, dərs-seminar, dərs-çalışma, dərs-konfrans və s. kimi qeyri standart formalardan da istifadə etmək zəruri sayılır. Bu cür iş formaları tətbiq edilərkən dərsin fəallığını təmin edərək, şagirdlərin tədqiqat aparmasına zəmin yaratmaqla onu interaktiv bir prosesə çevirə bilərik.

Ümumi təhsil – hər bir şəxsin, ailənin, dövlətin və ümumilikdə cəmiyyətin marağına, həm ümumbəşəri və həm də milli dəyərlərə, dünyəvilik, varislik, inteqrativlik, demokratiklik və sistemlilik prinsiplərinə əsaslanan, şagirdlərin təhsilini sonrakı pillədə davam etdirməsinə, nəzəri və praktik fəaliyyətin köməyi ilə şəxsiyyətlərin formalaşmasına, onların sosial, intellektual və fiziki keyfiyyətlərinin inkişafına, həmçinin, əmək fəaliyyətini başlamaq üçün ciddi zəmin verən məqsədyönlü proses olaraq psixoloji, fizioloji, fərdi və yaş xüsusiyyətləri, həmçinin, potensial imkanları nəzərə alınaraq, dəyişən dünyamızda sürətlə gedən inkişaf tendensiyalarını dərk etmək, prosesləri və problemləri başa düşmək, zəruri bilikləri və bacarıqları əldə etmək, qiymətləndirmək, öyrəndiklərinin tətbiq istiqamətlərini bilmək, sərbəst surətdə və ya distant olaraq əlavə biliklər əldə etmək bacarıqlarına, bazar iqtisadiyyatı şəraitində məhsuldar cəmiyyət üzvünə çevrilməsinə, şəxsiyyətin müstəqil inkişafına zəmanət verən vasitədir.

Ümumtəhsilin məqsədi həyatda bizə lazım ola biləcək zəruri bilikləri aşılamaq və bir şəxsiyyət olaraq mənəviyyatımızı və zehnimizi inkişaf etdirməkdən ibarətdir. Bu baxımdan, zəruri fənlərin orta məktəbdə tədrisi zamanı üstünlük, ona praktik ehtiyacın olması və şəxsiyyətin inkişafında əhəmiyyətlilik dərəcəsinə görə verilir. Məsələyə bir qədər ciddi yanaşsaq, proqramlarda zəruri dəyişikliklər aparmağı - nələrisə ixtisar etmək, nələrisə artırmağın vacibliyinin qaçılmaz olduğunu ortaya çıxarmış olarıq. Lakin bu məsələni hər fənn üçün ciddi qoymaq və obyektiv həlletmək, elədə asan deyil.

Ənənəvi təlim sistemində elmilik didaktik prinsipi mühüm yer tutsa da, onun məqsədəmüvafiq reallaşdırılması üçün uyğun vasitələr yox səviyyəsindədir. Təlimin metodik sisteminin komponentləri, əsasən, şagirdlərdə empirik təfəkkürün əsaslarını və qaydalarını yaratmağa yönəldilmişdir. Bu da lazımdır, lakin hazırkı səmərəli idrakın ən təsirli forması deyil. İndi ümumi intellektual bacarığın (analiz, sintez, ümumiləşdirmə, xüsusiləşdirmə və s.) formalaşdırılmasının zəruriliyi daha çox dərk edilməyə başlanmışdır.

Təlim prosesinin metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edir. İdrak fəlsəfənin tərkib hissəsi olub, dünyanın insan şüuruna inikasını əhatə edən mürəkkəb prosesdir. Dünyanın dərk olunması duyğu və qavrayış kimi hisləri idrakdan başlayır. Əldə edilən bütün informasiya məntiqi təfəkkürdə təhlil olunur, idrak pilləsində mücərrədləşdirilir, ümumiləşdirilir və konkretləşdirilir. Çıxarılan nəticə praktik şəkildə yoxlanılır.

Qanunauyğunluqlar bu cür öyrənilir və elmi qanunlar bu əsasda müəyyənləşdirilir. Sxematik

olaraq idrakın elmi yolu belə göstərilir:

canlı müşahidə → abstrakt təfəkkür → praktik tətbiq.

Təlim prosesi isə idrak fəaliyyətinin növü sayılır. O da idrakın növləri kimi(elm, əmək, oyun, incəsənət) dünyanın dərk edilməsinə kömək edir. Təhsilalanların öyrənmə yolu elə idrak yoluna əsaslanır. Bunu sxematik şəkildə ifadə etsək onda, təlim yolu:

qavrama → anlama → möhkəmlətmə → tətbiqetmə.

Gördüyümüz kimi, təhsilalanların öyrənmə yolu elə idrak yolu ilə hardasa üst-üstə düşür: qavrama canlı müşahidə ilə, anlama - abstrakt təfəkkür ilə, tətbiqetmə isə praktik tətbiqlə uyğundur. Lakin öyrənmə ilə elmi idrak bir-birilə eyni deyildir. Öyrənmə prosesi təşkili qaydasından, möhkəmlətmə ehtiyacı, məqsədi və müddətindən, müəllimin rəhbərliyinin zəruriliyindən, praktikanın rolunadək elmi idrak prosesindən fərqlənir.

Müəllim təlim prosesində şagirdlərin idraki fəaliyyətlərinin təşkili zamanı bu xassələri nəzərə almalı və elmi idraka tədricən yaxınlaşmasına şərait yaratmalıdır. Təlimin təşkili elə olmalıdır ki, şagird müşahidələr apara bilsin, faktlar toplasın, həmin faktları mücərrəd təfəkküründə təhlil edib, fikri əməliyyatlar apara bilsin, qarşılaşdığı problemlərin həllini bacarsın, əldə etdiyi nəzəri bilikləri həyatda və çalışmaların həllində tətbiq etsin, yaradıcı düşünmək və müstəqil işləmək qabiliyyətinə yiyələnsin.

Təlim müddətində həm canlı müşahidə, həm abstrakt təfəkkür və həm də praktik tətbiqin vəhdəti təmin edilməlidir.

Məktəblərimizin qarşısında ən mühüm vəzifə olaraq yaradıcı, fenamen gənclər yetişdirmək durur ki, onlar cəmiyyətin aparıcı qüvvələri sayılır. Çünki, müstəqil ölkələrin hər birinə istedadı və qabiliyyəti ilə seçilən şəxslər lazımdır.

Təlimin hansı dərəcədə məqsədəuyğun qurulmasından asılı olaraq, şagirdlərin tədqiqatçılıq qabiliyyəti və istedadları tez bir zamanda üzə çıxa və inkişaf edə bilər. Deməli, müəllim, şagirdlərin qəribə və sirli dünyasını ilk kəşf edən, şagirdin elmə marağında, düşüncə tərzində dönüş yaratmağa qabil şəxsdir. Şagirdə fərdi yanaşmaqla tədqiqatçılıq bacarıqlarını vaxtında üzə çıxarıb düzgün müəyyənləşdirən müəllim, onu inkişaf etdirəcək yola istiqamətləndirməklə şagirdə yardım göstərmiş olur.

Müasir istehsalat sahələri texnika ilə elmin son naliyyətləri əsasında təchiz edilir. Bu cür texnikaların ərsiyə gəlməsi və istifadə olunması peşəkar mütəxəssislər qarşısında ciddi tələblər irəli sürür. Belə ki, mütəxəssislərin peşə hazırlığı kifayət edəcək həcmdə, ardıcıl və sistematik elmi biliklərə və əqli inkişafın ümumi və müvafiq səviyyəsinə əsaslanmaqla aparılır.

Müasir təlim prinsiplərinə nəzər salsaq aşağıdakı istiqamətlər önə çəkilir:

Şəxsiyyətyönlü təlim prinsipi;
Fəal idrak prinsipi;
İnkişafyönlü təlim prinsipi;
«Qabaqlayıcı təlim» prinsipi;
Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi;
Əməkdaşlıq prinsipi;
Dialoji təlim prinsipi.

Təlim prinsiplərinin həyata keçirilməsi sagirdlərdə daim dəyişən şəraitə adaptasiya olunma, həyat fəaliyyətlərinin səmərəli formalaşması və zəruri bacarıqlar əldə etmək üçün müvafiq şərait yaradır. Sadalanan bu prinsiplərin təlim zamanı interaktiv təlim forma və metodları vasitəsi ilə dolğun tətbiqi mümkündür.

Tədqiqatçıların elmi araşdırmalarından belə nəticə alınır ki, insanlar həyatlarında əldə etdikləri məlumatın haradasa 70%-ni 6 yaşadək qazanırlar. Onda haqlı olaraq belə sual yaranır: "Görəsən uşaq məktəbə getdiyi andan etibarən niyə idrak fəallığında müəyyən ləngimələr baş verir?"

1. Məsələ bundadır ki, məktəbəqədərki dövrdə uşaq bir tədqiqatçı kimi dünyanı dərk edirdi: həm suallar verir, həm bu suallara, öz imkanı daxilində, ayrı-ayrı məlumat mənbələrindən istifadə edərək cavab axtarır və ilkin variantda həmin sahədəki müşahidəçilik təcrübəsinə dayanırdı. Artıq, təlim mühitinə düşmüş uşaq adət etdiyi tərbiyə metodlarından uzaqlaşıb, yeni öyrənmə metodları ilə, təlimlə tanış olur.

Müəllimin uşaqdan tələbi odur ki, ona diqqətlə qulaq asıb, dediklərini yadda saxlasın, təlimatları dəqiq olaraq yerinə yetirsin və təlimata aid olmayan suallardan istifadə etməsin. Bununla da şagird, passiv mövqeyə, tətqiqatçılıqdan imtina etməyə və müəllimin verdiyi məlumatla kifayətlənməyə təhrik edilir. Müəllim nəyin necə dərk edilməsini şagirdə diktə edir və təlim prosesində özü fəal iştirakçı olur. Bununla da şagirdin maraq və ehtiyacları, dərketmə imkanları və qabiliyyətləri nəzərə alınmır. Belə təlim prosesinin mərkə-

zində, sözsüz ki, şagird dayanmır və bununla da təlimat kobud şəkildə pozulmuş olur. Əgər şagirdə tez-tez irad tutulub, şəxsiyyət kimi önəmsənməzsə, bu onun müstəqil mühakimə yürütməsinə imkan verməyəcəkdir. Təlim uşağın, haradasa, imkan və qabiliyyətlərinə, maraq və tələbatlarına, bilik səviyyəsinə yönəldilməli, təlimdə uşaq mərkəzi obyek rolunda çıxış etməlidir. Müəllim şagirdə şəxsiyyət olaraq münasibət göstərməli, fərdi keyfiyyətlərini nəzərə almalı və hörmət əsasında yanaşmalıdır.

2. Təfəkkürün fəallaşdırılması isə İdrakın fəallığını təmin edir. Bunu reallaşdırmaq üçün təlim prosesində əvvəlcə problemli situasiya yaradılır, problemin uşaqda həlli tələbatı idrak prosesini də fəallaşdırır və yeni biliklərin kəşfinə yönəlir. Tədris prosesinin təşkilində fikir verilməlidir ki, təbii öyrənmə fəaliyyəti əmələ gəlsin, şagird «ilk kəşf» sevincini keçirə bilmə imkanı əldə etsin, onda yeni bilikləri əldə etmək həvəsi yaransın.

3. Bu barədə müasir rus pedaqoqu və psixoloqu L.S.Vıqotskinin nəzəriyyəsinə əsaslanmaq olar. Deyə bilərik ki, uşağın yaxın zamanda gözlənilən «inkişaf zonasına» yönəlməsi, burada uşağın potensial imkanlarının mərkəzləşməsi üçün xüsusi təlim şəraitinin yaradılması vacibdir. Nailiyyət qazanmaq üçün şagirdlərə imkanları daxilində və bir az mürəkkəb tapşırıqların müstəqil həll edilməsi təklif edilməlidir. Eyni zamanda, müəllim suallar verməklə şagirdləri problemin düzgün və optimal həllinə istiqamətləndirməlidirlər. Yəni təlim böyüklərin köməyilə uşağı müstəqil fəaliyyətə və ya şagirdlərin potensial imkanlarının gerçəkləşdirilməsinə yönəltməlidir. İnkişafedici təlim əvvəlcə təfəkkürü və yaradıcılığı formalaşdırmalıdır. Problemin həlli üçün tələbatın yaranmasından idrak prosesləri də fəallaşır və yeni biliklərin kəşfinə yönəlir.

4. Dövrümüzdəki qlobal dəyişikliklər təlimin qarşısına daha sərt şəkildə şagirdlərin həyata hazırlanması problemini qoyur. Odur ki təlim, ilk növbədə, cəmiyyətin inkişaf istiqamətlərini əks etdirməli, müasir nəsli yeni yaşayış şəraitinə hazırlamalıdır. Təlim zəruri informasiyanı şagirdə düzğün tətbiq etməyi, onu yenidən işləməyi və müstəqil şəkildə əldə etməyi öyrətməlidir. Şagirdə baza bilik-bacarıqları və vərdişləri verməklə məktəb kifayətlənə bilməz. Odur ki, hər şeyi öyrənməyə həvəsləndirməklə birgə, idraki fəallığı və digər zəruri keyfiyyətləri formalaşdırmalıdır.

5. Təlim-tərbiyənin çevikliyi reallığa uyğunlaşmaq qabiliyyətinə malik olmaqdır. İctimaiyyətin və şagirdlərin tələblərinin dəyişməsini nəzərə alaraq, təlim-tərbiyə işinin təşkili, məzmunca tədris planı və proqramları, pedaqoji texnologiyaların sistemi mütəmadi olaraq təzələnməlidir. Çevik təlim-tərbiyə işində, ən çox, şagirdlərin müxtəlif məlumatları sistemli şəkildə işləməsi və mənimsəməsinə üstünlük verilir. Bundan ötrü müəllim şagirdlərə fərdiyanaşmağa, müxtəlif mənbələrdən biliklər əldə edərək, məlumatı təqdimetmə üsullarından (eşitmə, görmə, hiss etmə və s. kimi duyğulara əsaslanan) istifadə etməyə can atmalıdır. Təlim-tərbiyənin çevikliyi biliklərin tətbiqi və yaradıcı olmasında özünü göstərir, şagirdlər təlimin məqsədlərini özləri qoymağa cəhd edirlər.

6. «Müəllim-şagird» münasibətləri sistemində, subyektlər, təlim prosesində tərəfmüqabili qismində iştirak etməlidirlər. Əgər şagird müəllimlə təlim prosesində bərabərhüquqlu şəxs olaraq çıxış edirsə, onda şagirdin fəaliyyətində bir keyfiyyət yaratmış olur: onda özünəinam artır, fikrini çatdırmaqdan qorxmur və potensial imkanlarını artırır və gerçəkləşdirir. Əməkdaşlıq təlim prosesinin dinamik və kollegial keçməsinə imkan verir. Bu prinsip müəllimi qiymətləndirmə zamanı dəstəkləyici qiymətlərdən istifadə etməyə sövq edir. Əməkdaşlıq şagird üçün daha əlverişli, fəallaşdırıcı və ruhlandırıcı təlim mühiti formalaşdırır.

7. Təlim prosesində şagirdlərin fikirlərini və müxtəlif mövqelərini nəzərə almaqda, dialoji təlim tədrisin məzmununu zənginləşdirməyə və fikir müxtəlifliyinə imkan yaradır, nəticəçıxarmaya müsbət təsiri də vardır. Şagirdlərin hər birinin qrupun işində və müzakirələrdə iştirakı təmin edilməlidir. Özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədi ilə məsələlərin birgə həlli təşkil edilir.

Az müəllim tapılar ki, müasir təlim prinsipindən xəbərsiz olsun. Bəs səbəb nədir ki, artıq 14 ildir məktəblərimizdə tətbiq olunan təlim prinsipində gözlənilən müsbət təlim nəticəsini almaq mümkün olmur:

Müəllimlərin istəyilə “Formativ qiymətləndirmə” jurnalları aradan qaldırılır;

Standart çap olunan “Məktəbli gündəlikləri”ndə ikili qiymətləndirmə aparmaq üçün qraflar qoyulur;

Valideynlərin böyük əksəriyyəti evə gələn öv-

ladlarından “bu gün neçə aldın?” deyə soruşurlar;

Konkret fənn müəllimlərinin əksəriyyəti məzmunun ibtidai hissəsindən xəbərsiz təlim aparır;

Şagirdlərin təlim zamanı tədqiqatçılığı nəzərə çarpmır;

Hələ də repititor hazırlığına getməyən abiturient qəbul zamanı müsbət nəticə göstərə bilmir və ya “ümumiyyətlə” buna risk etmir ...

Artıq təhsilin qlaballaşması məqsədilə 2008/09 tədris ilindən ümumtəhsil məktəblərimizdə milli kurikulumun tətbiqilə başlanan tam orta təhsili 2019-cu ildə bitirən ilk məzunlar ali məktəblərin son kurslarında təhsil alırlar. Əvvəlki tələbələrin intellekt səviyyəsi və təhsilə münasibətilə, yaxud yaradıcılığı və özünüifadəsilə, elmə marağı ilə indiki tələbələr arasında ciddi bir dəyişiklik görürükmü? – Xeyir.

Bugünkü konfransımızda bu kimi problemlərin öz həllini tapmasını diləyərək, konfransın işinə və iştirakçılarına müvəffəqiyyətlər arzu edirəm.

Ədəbiyyat

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. – Bakı: Kövsər, – 2008, – 224 s.
2. I-IV siniflərin riyaziyyat kurikulimu. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. –Bakı: Təhsil, – 2008, – s. 53-104.
3. Məmmədova, S.K. Riyaziyyatın ibtidai kursu tədrisinin ümumi metodikası üzrə dərs vəsaiti. – Bakı: Elm və təhsil, – 2017.
4. Müseyib İlyasov. Müasir təhsil. Ənənədən innovasiyaya. – Bakı, – 2021.
6. İnternet http:// www.qooqle.az.
7. http:// www.psi.lib.ru

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 116-118
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 116-118
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 116-118

UOT

Ali məktəbdə tələbələrin mədəniyyətlərarası ünsiyyətinin formalaşdırılması haqqında

Müəllif:

Nərmin Hüseynova
Naxçıvan Dövlət Universitetinin doktorantı
E-mail: alievanarmin92@gmail.com

Açar sözlər:
mədəniyyətlərarası ünsiyyət, xari dil, tədris, yeni təlim metodları, ali məktəb

Annotasiya. Məqalədə xarici dillərin tədrisi prosesində mədəniyyətlərarası təlimin məzmun istiqamətindən bəhs olunur. Göstərilirki yeni təlim metodları vasitəsilə xarici dillərin tədrisinin real ünsiyyət şəraitinə istiqamətləndirilməsi beynəlxalq əlaqələrin mütərəqqi inkişafına xidmət edir. Bununlada mədəniyyətlərarası ünsiyyət xarici dilin tədrisi üçün yeni istiqamətin müəyyənləşməsi şərtidir. Məqalədə mədəniyyətlərarası ünsiyyətin proqramlaşdırılırması, onun bir sıra nəzəri və praktiki problemləri, xarici dillərin tədrisinin ünsiyyət şəraiti, mədəniyyətlərarası ünsiyyətin əsas komponentləri, tədris işində gözlənilməsi vacib olan tələblər və digər məsələlər şərh olunur. İndiki halda mədəniyyətlərarası ünsiyyət ali təhsil daxilində universal yanaşmaya çevrilməkdədir.

About formation of intercultural communication of students in higher school

Author:

Narmin Huseynova
Doctoral student of Nakhchivan State University
E-mail: alievanarmin92@gmail.com

Key word:
intercultural communication, foreign language, teaching, new teaching methods, higher school

Abstract. The article deals with the content direction of intercultural training in the process of teaching foreign languages.It is shown that the orientation of teaching foreign languages to the conditions of real communication through new teaching methods serves the progressive development of international relations. In this regard, intercultural communication is a condition for determining a new direction for teaching a foreign language. The article presents the programming of intercultural communication, a number of its theoretical and practical problems, the communication conditions of teaching foreign languages, the main components of intercultural communication, the requirements that are important to expect in the educational work, etc. issues are commented on. In this case, intercultural communication should become a universal approach within higher education.

О формировании межкультурного общения учащихся в высшей школе

Автор:

Нармин Гусейнова
Докторант Нахчыванского Государственного Университета
E-mail: alievanarmin92@gmail.com

Ключевые слова:
межкультурное общение, иностранный язык, преподавание, новые методы обучения, высшая школа

Аннотация. В статье рассматривается содержательная направленность межкультурного обучения в процессе обучения иностранным языкам. Показано, что ориентация обучения иностранным языкам в реальных условиях общения посредством новых методов обучения служит прогрессивному развитию международных отношений. При этом межкультурное общение является условием определения нового направления обучения иностранному языку. В статье рассматривается Программирование межкультурной коммуникации, ряд ее теоретических и практических проблем, коммуникативные условия обучения иностранным языкам, основные компоненты межкультурной коммуникации, требования, которые важно ожидать в учебной работе, и другие вопросы. В настоящее время межкультурная коммуникация становится универсальным подходом в рамках высшего образования.

Müasir ali təhsildə mədəniyyətlərarası ünsiyyət məsələlərinə xüsusi diqqət yetirilir. Yeni təlim metodları vasitəsilə xarici dillərin tədrisinin real ünsiyyət şəraitinə istiqamətləndirilməsi beynəlxalq əlaqələrin mütərəqqi inkişafına xidmət edir. Xarici dillərin tədrisi üçün yeni istiqamətin müəyyənləşməsi mədəniyyətlərarası ünsiyyətin aktuallığını şərtləndirir. Əcnəbi tələbələr ilk günlərdən tələbə və qisməndə müəlim olmaqla müxtəlif mədəniyyətlərin nüma-yəndələri ilə qarşılıqlı əlaqə prosesinə qoşulur. Ona görə də ali məktəblərdə mədəniyyətlərarası ünsiyyətin və qarşılıqlı anlaşmanın təmin edilməsi çox vacibdir. Yadda saxlamaq lazımdır ki, müəllimlə əcnəbi tələbələr arasında ünsiyyət müxtəlif situasiyalarda baş verə bilər. Bu zaman ünsiyyət, ya uğurlu ola bilər və ya əksinə, mədəniyyətlərarası ünsiyyətdə soyuqluq, xoşagəlməz hallar yaranar. Uğurlu ünsiyyət üçün şərait təhsil prosesinin düzgün qurulmasından, sosial-psixoloji və digər uyğunlaşma növlərindən, ətraf mühitlə təmasdan, tədris materiallarının mövcudluğundan, xarici vətəndaşlar üçün fakültələrin səriştəli mütəxəssislərlə təmin edilməsindən və bir çox digər zəruri komponentlərdən asılıdır.

Mədəniyyətlərarası ünsiyyətin formalaşması üç əsas komponentin nəzərə alınmasını vacib hesab edir: etno-psixoloji, davranış və milli-mədəni linqvistik məzmun. Nəticədə xarici tələbələrlə auditoriya məşğələləri aparan müəllimlər bu üç komponent üzrə problemlərlə və xüsusən dil hazırlığı ilə məşğul olurlar. Bu zaman müxtəlif ölkələrdən gələn əcnəbilərin bilik səviyyəsinin yüksəlgilməsi, tədris materialının ciddi "dozalaşdırılması" və müxtəlif mərhələlərdə akademik fənlər arasında tarazlığın müəyyən edilməsi onların əcnəbi hazırlığında başlıca tələblər kimi üzə çıxır.

Xarici dilin mənimsənilməsi və onun sonrakı tətbiqi prosesi mədəniyyətlərarası ünsiyyət kimi, mədəniyyətlərin dialoqu kimi proqramlaşdırılır ki, bu da bir sıra nəzəri və praktiki problemlərlə bağlıdır. Bu problemlər aşağıdakılardan ibarətdir: mədəni xarakterli müxtəlif termin və anlayışların müəyyən edilməsi; materialın təqdim edilməsi üçün üsul və vasitələrin tapılması, onun konsolidasiyası və tətbiqi; orijinal materialların qruplaşdırılması və onlarla işləmə üsulları.

Əcnəbi tələbələrin mədəniyyətlərarası əməkdaşlıq şəraitinə qoşulmasının və öyrənilən dildən qarşılıqlı əlaqə vasitəsi kimi istifadə etmək bacarığının inkişafı təhsilin məzmununa və onun mənimsənilməsi texnologiyasının seçiminə əsaslı təsir göstərir. Öyrənmənin özəlliyi daha çox müəllimin tədris edilən dildəki həyat haqqında aktual və maraqlı materialları seçmək bacarığından, tələbələr üçün mənalı olan koqnitiv mətnlərdən, ölkənin reallıqlarını təsvir edərkən yenilik və özünəməxsusluğu ilə fərqlənən milli-mənəvi keyfiyyətləri ehtiva etməsindən çox asılıdır.

Qeyri dili mənimsəyərkən, əcnəbi tələbə eyni vaxtda onun üçün yeni bir milli mədəniyyətə daxil olmaq və onu dərk etmək imkanı qazanır. Ona görə də təhsil prosesinin mədəniyyətlərarası oriyentasiyası xarici dilin tədrisi sistemini tələbələrin doğma olmayan dil mədəniyyəti ilə fərdi ünsiyyət təcrübəsinin mənimsənilməsi prosesi kimi modelləşdirməlidir. Modelləşdirilmə ən yeni psixoloji, pedaqoji və metodiki həllərin axtarılması ehtiyacını müəyyən edir. Bu zaman əcnəbi tələbənin dil vasitəsilə araşdırmalarının intellektual səviyyəsi, yaradıcı keyfiyyəti üzə çıxır. Müasir tədqiqatlar müxtəlif konseptual sistemləri müqayisə edərək, belə bir həqiqəti üzə çıxarır ki, əcnəbi tələbə dünyanı doğma mədəni reallığın və onun strukturlaşdırılması vasitələrinin hüdudlarından kənara çıxararaq öyrənir və bu sistemləri öz təbii imkanları səviyyəsində zənginləşdirir. Deməli, burada belə bir cəhəti yadda saxlamalıyıq ki, dil aspektlərinə münasibətdə təhsilin məzmun aspektlərinin əhəmiyyətinin artırılmasını həmişə nəzərdə tutmalı, diqqətdə saxlamalıyıq.

Universitetlərdə xarici ölkə tələbələri ilə aparılan tədris işində gözlənilməsi zəruri olan bir çox tələblər var. Bu tələblərə aşağıdakılar daxildir:

a) müəyyən bir yaşda olan tələbənin real maraqlarını və ehtiyaclarını nəzərə almaq;

b) təhsilin mənimsənilmiş məzmununa emosional və qiymətləndirici münasibəti həm tədrisdə, həm də məktəbdənkənar mədəniyyətlərarası əməkdaşlıqda inkişaf etdirmək;

c) yeni dil kodunun köməyi ilə təbii ünsiyyət motivləri yaratmaqla öyrənənin başqa dil mədəniyyətinə yiyələnmək motivasiyasını artırmaq [3, s.95-96].

Adətən, digər bir dili öyrənən əcnəbi tələbələrdə hələ universitet auditoriyasında mədəniy-yətlərarası fikir mübadiləsinə maraq yaratmaq lazımdır. Beynəlxalq gecələr, məktəblərdə görüşlər, ekskursiyalar, regionla tanışlıq məqsədi daşıyan müxtəlif növ tədbirlərə qatılmaq üçün motivasiya yaratmaqda çox faydalıdır. Yuxarıda göstərilən və sadalanan bu tədbirlərin həyata keçirilməsi işində kamil metodikaya yiyələnmiş müəllimin ayrıca qeyd etmək lazımdır. Bu prosesdə müəllimin diqqət yetirməli olduğu məsələlər əsasən bunlardır: təhsil prosesinin tər-

kib hissəsi kimi mədəniyyətlərarası mübadilənin təşkili; müxtəlif səviyyəli və xarakterli mədəniyyətlərarası layihələrin həyata keçirilməsi; bu məqsədlər üçün tədqiqat qrupunun və regionun mədəniyyətlərarası qarşılıqlı əlaqə üçün təmin etdiyi bütün imkanlardan istifadə edilə bilməsi; hər bir tələbənin dil mədəniyyətini öyrənmək üçün motivasiyasını müəyyən edə və real ünsiyyət üçün çıxış yolu tapa bilməsi.

Buradan belə bir qənaətə gəlmək olar ki, linqvomədəni səriştə kommunikativ səriştənin bir hissəsidir. Çünki ünsiyyət üçün o zaman şərait yaranır ki, insanların ünsiyyət prosesində malik olduqları anlayışların, assosiasiyaların və obrazların tanınması səviyyəsi təkmil və yüksək olsun.

Linqvistik və mədəni biliklər özündə aşağıdakıları ehtiva edir: müxtəlif dil mədəniyyətlərinin nümayəndələri ilə şəxsiyyətlərarası ünsiyyətdə nitq davranışının xarakterik xüsusiyyətləri; ekvivalent və qeyri-ekvivalent lüğət; mədəni məlumatlar; ana dilinin reallıqlarını xarici dilə tərcümə etmək üsulları.

Əcnəbi tələbələr üçün verilmiş material milli mədəniyyətin xüsusiyyətlərini aydın ifadə etməli və ana dili olmayanlar tərəfindən başa düşülməyən dil vahidlərini seçmək və öyrətmək lazımdır. Tələffüz üçün lüğətlərdən istifadə etmək əhəmiyyətlidir. Frazeoloji vahidlər və atalar sözləri də xüsusi diqqətə layiqdir. Dilçilik tələbələrin xarici dil üzrə kommunikativ səriştəsinin formalaşdırılması işinin tərkib hissəsidir.

Mədəniyyətlərin dialoqu ilə yanaşı, mədəniyyətlərarası ünsiyyətdə də üç tərəfin (istiqamətin) vəhdətini nəzərə almaq lazımdır. Üçlüyün vəhdətinə informasiya və kommunikasiya (informasiya mübadiləsi), interaktiv (qarşılıqlı əlaqə) və perseptual (qarşılıqlı) ünsiyyət kateqoriyaları aid edilir və onların həlledici olduğunu unutmaq olmaz [4, s.98]. Üçlüyün vəhdəti xarici auditoriyada (ana dili olmayan mühitdə) qeyri-ana dilinin tədrisi məqsədlərinin realaşdırılması amilidir.

Mədəniyyətlərarası ünsiyyətin tələblərinə uyğun olaraq, xarici tələbələrə (müxtəlif bilik səviyyələrində) aşağıdakıları öyrətmək lazımdır:

- mədəniyyətlərarası qarşılıqlı əlaqənin autentik vəziyyətlərində (bacarıq və bacarıqların inkişafı prosesi) xarici dildən istifadə etmək;
- müəyyən səviyyədə həyat tərzini, davranışını izah etmək və mənimsətmək;
- öyrənilən dildə danışanları-əcnəbi tələbələri dünyanın yeni dil mənzərəsi ilə tanış etməklə dünya haqqında onun fərdi baxışlarını zənginləşdirmək.

Nəticə etibarı ilə qeyri-ana dilinin tədrisində məqsəd öyrənənlərin tərbiyəsi, inkişafı və təhsili prosesində xarici dil üzrə ünsiyyətin əsaslarını mənimsətməkdir. Bu, təbii ünsiyyət şəraitində xarici dildən praktiki olaraq istifadə etməyə, məsələn, orijinal mətnləri oxumağa, qeyri-standart vəziyyətlərdə danışanlarla ünsiyyət qurmağa imkan verəcək ki, kommunikativ səriştənin belə bir səviyyəsinə nail olmaq mədəniyyətlərarası ünsiyyətin keyfiyyət dərəcəsinin göstəricisidir. Öyrənmənin son nəticəsi kimi kommunikativ səriştə arzusu təkcə müvafiq xarici dil texnologiyasına malik olmağı deyil, həm də adekvat mədəniyyətlərarası dialoq və qarşılıqlı anlaşma üçün zəruri olan ekstralinqvistik məlumatların mənimsənilməsini nəzərdə tutur.

Göründüyü kimi, mədəniyyətlərarası ünsiyyətin tədrisi ali təhsil daxilində universal yanaşmaya çevrilir. Ona görə də müasir təhsil mühitində mədəniyyətlərarası ünsiyyət nəzəriyyə-sinin mexanizminin işlənməsi və əcnəbi tələbələrinin xarici dildə ünsiyyət qurma qabiliyyətinin yaranma və inkişaf yolları və tədris metodikası ilə bağlı ümumi qanunauyğunluqlarının formalaşdırılması günün tələbidir. Bütövlükdə xarici dil mədəniyyətlərarası ünsiyyətin məzmun-texnoloji aspektləri üzərində qurulmalı və konkret tədris-metodiki komplekslər şəklində həyata keçirilməlidir.

Ədəbiyyat

1. Əhədova, S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər / S.Əhədova, – Bakı: Elm, – 2014. – 348 s.
2. Haçımzadə, S. Mədəniyyətlərarası ünsiyyət. / S.Haçımzadə (Araşdırma) https://thesamiran.wordpress. com › – 2014/01/05.
3. Гальскова, Н. Д. Теория обучения иностранным языкам: учеб. Пособие / Н. Д.Гальскова, – Moskva: Академия, 2005. – С. 95-122.
4. Леонтьев, А. А. Психология общения. – 2-е изд., испр. и доп. / А. А. Леонтьев. – М.: Смысл, 1997. – 365 с.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 119-126
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 119-126
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 119-126

Fasiləsiz pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli tətbiqi modeli: təcrübələr, nəticələr

Müəllif:

Afət Süleymanova
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Xəzər Universiteti
E-mail: afet.suleymanova@edu.gov.az

Açar sözlər:
pedaqoji təhsil, məzmun, texnologiyalar, mərhələlilik, elmi-təcrübi əsas

Annotasiya. Tədqiqatın əsas məqsədi fasiləsiz pedaqoji təhsilin məzmun və tex¬no¬logiyalarının mərhələli tətbiqinin yeni modelin səmərəlilik səviyyəsini fərqli situasi¬yada təkrar qiymətləndirməkdən ibarət olmuşdur. On üç il ərzində fərqli müstəvilərdə davam edən təcrübələrin nəticələri göstərmişdir ki, pedaqoji təhsilin məzmun və texnologiyalarının beş mərhələdə tətbiqi pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir, aşağıda qeyd edilən səriştələrə malik müəllimlərin hazırlanmasına imkan yaradır: öz peşəkar kimliyni təyin edən (I mərhələ), fəaliyyətini təhsilin hüquqi-normativləri əsasında quran, təhsildə dövlət siyasətini anlayan və üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirən (II mərhələ), tədqiqatçı və yaradıcı (III mərhələ), özünü şəxsiyyət və peşəkar kimi daim inkişaf etdirən (IV mərhələ), yaradıcı fəaliyyəti ilə hər zaman peşəkar aktuallığını qoruyub saxlayan (V mərhələ). Bu nəzəri-təcrübi mövqeyin pedaqoji səmərəliliyini qiymətləndirmək üçün eksperimental tədqiqat əhəmiyyətli hesab edilmişdir. Xəzər Universitetində bakalavr səviyyəsində tarix və ingilis dili müəllimliyi ixtisasları üzrə təhsil alan iki qrup "Kurikulum və qiymətləndirmə strategiyaları" fənni çərçivəsində eksperimental və kontrol olmaqla tədqiqata cəlb edilmişlər. Kontrol qrupda prosesə müdaxilə edilməmişdir. Pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli tətbiqinin təklif etdiyimiz modelinin hətta bir fənn çərçivəsində belə əhəmiyyətli fərq yaratması bir daha təsdiqini tapmışdır.

Stages of implementation model of content and technologies of continuous pedagogical education: experiences, results

Authors:

Afet Suleymanova
Ministry of Science and Education of the Republic of Azerbaijan
Khazar University
E-mail: afet.suleymanova@edu.gov.az

Key word:
pedagogical education, content, technologies, gradation, scientific-practical basis

Abstract. The main goal of the study was to re-evaluate the level of efficiency of the new model of the phased application of the content and technologies of continuous pedagogical education in a different situation. The results of ongoing experiments at different levels over the course of thirteen years have shown that the application of the content and technologies of pedagogical education in five stages increases the effectiveness of pedagogical education. serves to improve the quality, provides an opportunity to train teachers with the following competencies: defining their professional identity (stage I), suspending their activities to the legal norms of education, who understands the state policy in education and fulfills his duties responsibly (stage II), researcher and creator (stage III), who constantly develops himself as a man and professional (stage IV), who always maintains the level of professional relevance with his creative activity (stage V). Experimental research was considered important to evaluate the pedagogical efficiency of this theoretical-practical position. Two groups studying history and English teaching at Hazar University participated in experimental and controlled research on "Curriculum and evaluation strategies". It has been confirmed once again that the proposed model of the gradual application of the content and technologies of pedagogical education makes a significant difference even within one subject.

Модель поэтапного внедрения содержания и технологий непрерывного педагогического образования: опыт и результаты

Авторы:

Афет Сулейманова
Министерство Науки и Образования Азербайджанской Республики
Хазарский университет
E-mail: afet.suleymanova@edu.gov.az

Ключевые слова:
педагогическое образование, содержание, технологии, градация, научно-практическая основа

Аннотация. Основная цель исследования заключалась в переоценке уровня эффективности новой модели поэтапного применения содержания и технологий непрерывного педагогического образования в иной ситуации. Результаты проводимых опытов на разных уровнях в течение тринадцати лет показали, что применение содержания и технологий педагогического образования на пяти этапах служит повышению качества педагогического образования, позволяет подготовить педагогов со следующими компетенциями: кто определяет их профессиональную личность (I этап), деятельность образования, строящегося на основе правовых норм, понимающего государственную политику в сфере образования и ответственно выполняющего свои обязанности (II этап), исследователя и творца (III этап), постоянно развивающего себя как личность и профессионал (стадия IV), всегда поддерживает свою профессиональную актуальность за счет сохраняющей его творческой активности (стадия V). Экспериментальное исследование считалось важным для оценки педагогической эффективности этой теоретико-практической позиции. Две группы, изучающие историю и преподавание английского языка в Университете Хазар, участвовали в экспериментальных и контролируемых исследованиях по предмету «Учебный план и стратегии оценивания». В контрольной группе процесс не нарушался. В очередной раз подтверждено, что предлагаемая модель поэтапного применения содержания и технологий педагогического образования имеет существенное значение даже в рамках одного предмета.

Giriş. Təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı istənilən strateji addım, qərar, sərəncam müəllimin fəaliyyəti ilə reallaşır. Nəzərdə tutulmuş dəyişikliyin həyata keçirilməsi səviyyəsi müəllimin peşə bacarıqlarının səviyyəsi qədərdir. Yalnız peşə bacarıqları yüksək olan müəllimlər sayəsində islahatlar reallaşa, dəyişikliklər baş tuta bilər. Bu səbəbdəndir ki, XXI əsr təhsilinə müəllim hazırlığı məsələsi aktuallığını heç zaman itirmir. Pedaqoji təhsilin aktuallıq təşkil edən istiqamətlərdən biri də onun məzmun və texnologiyalarının təşkili və tətbiqidir.

Əvvəlki tədqiqatlarda fasiləsiz pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkili baxımından dünya təcrübəsi öyrənilmiş, elmi ədəbiyyat və hüquqi-normativ sənədlər dəyərləndirilmişdir. Hər mərhələni səciyyələndirən xüsusiyyətlər çoxçeşidli məlumat mənbələrindən araşdırılmış və müəyyən edilmiş, əldə edilən nəticələr ümumiləşdirilmişdir. Mərhələlər üzrə səriştələr hazırlanmış, qanunvericiliklə təsdiq edilmiş ixtisas kompotensiyalara müvafiqliyi dəyərləndirilimişdir. Fənn blokları məzmun və texnologiyaların mərhələli tətbiqi prinsipi baxımından layihələndirilmiş yeni kontekstdə pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələlərinin nəzəri-təcrübi əsasları və modeli hazırlanmışdır. Modellər bakalavr səviyyəsində (4 illik), magistratura səviyyəsində (2 illik) tədris planları nümunəsində hazırlanmaqla yanaşı, həm də ayrı-ayrı fənn proqramları nümunəsində layihələndirilmişdir. Modeli təşkil edən mərhələlər bunlardır:

1. Özünütəyin - müəllimin pedaqoji yanaşması, fəlsəfəsi, pedaqoji kimliyi;
2. Özünütəşkil - müəllimin vətəndaş təfəkkürü, dövlətçilik təfəkkürü, iqtisadi təfəkkürü;
3. Elmi-pedaqoji təşəkkül - müəllimin elmi-pedaqoji formalaşması;
4. Elmi-pedaqoji cəhətdən özünütəkmilləşdirmə - müəllimin strateji düşüncəsi, özünü-qiymətləndirməsi, elmi metodoloji yetkinləşməsi;
5. Özünürealizə - yaradıcı, peşəkar müəllim şəxsiyyəti.

Hər mərhələnin öz məqsəd və vəzifəsinin olması, onların birinin digərindən təcrid edilməsi kimi dəyərləndirilmir, əksinə dərin qarşılıqlı əlaqənin olması ilə səciyyələnir. Mərhələlər arasındakı sıx inteqrasiya, əslində müəllim hazırlığında pedaqogika, psixologiya, sosiologiya, hüquq, insan anatomiyası, fiziologiyası, gigiyenası, bir qədər də siyasi və iqtisadi savad kimi zəruri məsələlərin daxili əlaqəsindən ibarətdir. Pedaqoji təhsilin bütün səviyyə və pillələrində modelin tətbiqinə geniş imkanlar mövcuddur. Belə ki, ali təhsilin bakalavriat, magistratura səviyyələrində ixtisas, doktorluq pilləsində tədqiqat mövzusu, əlavə təhsil pillələrində təlim kursu mövzusu baxımından xüsusiləşdirməklə tətbiq edilə bilər. Belə mərhələliyin gözlənilməsi ilə fasiləsiz pedaqoji təhsilin bütün səviyyə və pilləsi arasında məntiqi əlaqəni təmin edilməklə bərabər, təhsilin məzmun və texnologiyalarının tərtibinin elmiliyi və sistemliliyi gözlənilmiş olar.

Metodologiya. Eksperimental tədqiqat bu araşdırmada əhəmiyyətli hesab edilmiş, təcrübəyə dair məlumatların təhlili, müqayisəsi, müşahidəsi, statistik işlənməsi kimi silsilə metodlar vasitəsi ilə həyata keçirilmişdir. Həm tədqiqatların birinci mərhələsində (mövcud vəziyyəti "ölçmək"), həm də ikinci mərhələsində (əldə edilən nəticəni "ölçmək") statistikanın və sorğu vərəqlərinin təhlili metodları kompleks istifadə edilmişdir. Eksperimentin iştirakçıları Xəzər Universitetinin 2021-2022-ci tədris ilinin ikinci semestrində "Tarix müəllimliyi" və "İngilis dili müəllimliyi" ixtisasları üzrə 45 (24 +21) nəfər III kurs tələbəsindən ibarət olmuşdur. Eksperimentlərin aparılmasında istifadə ediləcək instrumentlərin (tətbiq ediləcək təlim materialları və sorğu vərəqləri) eksperimentin məqsədi baxımından müvafiqliyi dəyərləndirilmiş, ixtisas üzrə təhsil proqramında müəyyən edilmiş kompetensiyalarla əlaqələndirilmiş, ondan sonra istifadəsinə qərar verilmişdir.

Eksperimentin hipotizaları aşağıda qeyd edilənlərdən ibarət olmuşdur:

Hipotiza 0 (H_0). Pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkilinin tərəfimizdən işlənmiş modelinin tətbiqi müəllim kadrların yetişdirilməsində fərq yaratmır.

Hipotiza 1 (H_1). Pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkilinin yeni modelinin tətbiqi özünütəyin və özünütəşkil etmiş, elmi-pedaqoji təşəkkül tapmış, özünütəkmilləşdirmə və özünüreallaşdırmaya dair zəruri səriştələrə malik olan müəllim kadrların yetişdirilməsində əhəmiyyətli fərq yaradır.

"Kurikulum və qiymətləndirmə strategiyaları" fənninin tədrisindən əvvəl və sonra aparılmış sorğunun nəticələrinin təhlili. Sorğu vərəqlərinin (Cədvəl 1) məzmunu pedaqoji təhsilin

məzmun və texnologiyalarının "özünütəyin", "özünütəşkil", "elmi-pedaqoji təşəkkül" "özünütəkmilləşdirmə" və "özünürealizə" mərhələlərinin xüsusiyyətləri və bu mərhələlər üzrə səriştələr rəhbər götürülməklə tərtib edilmişdir. Tədqiqatlara başlamazdan əvvəl hər iki qrupda sorğu keçirməklə ilkin səviyyə ölçülmüş, fənnin tədrisi başa çatandan sonra yenə həmin sorğu vərəqləri ilə baş vermiş dəyişikliyin səviyyəsi müəyyən edilmiş, dəyərləndirilmişdir. Sorğu vərəqlərində gözlənilən cavablar "Bəli" (4 bal), "Qismən" (3 bal), "Xeyr" (2 bal), "Bilmirəm" (1 bal) olmaqla cəmi 80 bal üzərindən qiymətləndirilmişdir.

Sorğu vərəqlərinin məzmunu

Cədvəl 1.

№	Suallar	Mərhələlər
1.	Müəllimlik peşəsini seçərkən müstəqil qərar vermisiniz?	Özünütəyin
2.	Bu peşəni seçdiyinizə görə məmnunsunuz?	
3.	Təhsilinizi başa vurandan sonra müəllim kimi fəaliyyət göstərəcəksiniz?	
4.	Gələcək müəllim kimi fəaliyyət istiqamətlərinizi təsəvvür edə bilirsinizmi?	
5.	Seçdiyin peşə sahəsində müvəffəq olacağına inanırsanmı?	
6.	Hədəflərinizə istiqamətlənmiş fəaliyyətinizdə yanlış etdiyinizi hiss etsəniz, qərarlarınızı yenidən nəzərdən keçirməyi sevirsinizmi?	Özünütəşkil
7.	Öz fəaliyyət keyfiyyətinizi yüksəltmək istədikdə bu baş verirmi? *Özü-özümə əmr verirəm, özümü stimullaşdırıram və hətəkətə keçirəm, məqsədə çatana qədər davam edirəm*	
8.	Bu cəhət sizə aiddirmi: fəaliyyətimdə özümütənqidə meyilliyəm, öz səhvlərimi görüb düzəliş edirəm.	
9.	Bu fikirlə razısınızmı? *Müəllim icraçı deyil, idarəçi olub sinifdə təlim prosesini, təhsil keyfiyyətini, təhsil iştirakçıları arasındakı münasibətləri idarə edən, istənilən istiqamətdə yaranmış problemləri araşdıran, səbəblərini müəyyən edib həlli yollarını planlaşdıran və reallaşdıran tədqiqatçı, araşdırmaçı olmalıdır.*	Elmi-pedaqoji təşəkkül
10.	Bu fikirlə razısınızmı: *Bir təlim prosesi bir tədqiqat həm-prosesidir: müəllim tədqiqatçı, şagird yenilikçi olur və öyrənmə yeni məzmun daşıyır.*	
11.	Özünüzü fiziki, intellektual və emosional baxımdan daha yaxşı bir insan halına gətirməyə ehtiyac duyursunuzmu?	Özünütəkmilləş-dirmə
12.	Nailiyyət əldə edəndən sonra əldə edilmiş nailiyyəti yenidən qiymətləndirirsinizmi?	
13.	Öz enerjinizin səmərəli istifadəsini yüksəltməyə, onun səmərəsiz sərfiyyatını minimuma endirməyə çalışırsınızmı?	
14.	Özünün bilik, vərdiş, bacarıq, iradə, məsuliyyət, mənəviyyat və nəticə etibarilə səmərəli yaradıcı fəaliyyətinizi daim inkişaf etdirmək hesabına şəxsiyyət olmağa "can atma" ehtiyacınız varmı?	
15.	Hər hansı müvəffəqiyyətsizlik baş verəndə bunları hiss edirsinizmi: həyəcan, peşmançılıq, özündən narazılıq, özünü qiymətləndirmə və yenidən qiymətləndirmə".	
16.	Özünüz, öz imkanlarınız, öz xarakter və şəxsiyyətinizlə bağlı hər hansı arzu və istəyinizi həyata keçirə bilmisinizmi?	Özünürealizə
17.	Öz maraqlarınız və imkanlarınızla bağlı məlumatlısınızmı?	
18.	Həyatınızdan, fəaliyyətinizdən, mənəvi, əqli, əxlaqi inkişaf səviyyənizdən məmnunsunuzmu?	
19.	Həlli zəruri olan bütün məsələlərin həllinə səriştəlilik və yaradıcı özünəməxsusluqla yanaşa bilirsinizmi?	
20.	Müxtəlif təlim fəaliyyətləri və kommunikasiyalar şəraitində intellektual bacarıqlarınızı üzə çıxarır və realizə edə bilirsinizmi?	

İştirakçı davranışı ilə eksperimentin daxili səmərəliliyinə xətər gətirilməsinin (diffuziyanın) qarşısının alınması məqsədi ilə kontrol və eksperimental qruplarda tələbələrə eksperimentlərə cəlb edildikləri ilə bağlı məlumat verilməmiş, qruplar arası məlumat mübadiləsinə stimullaşdırılmamışlar. Tədqiqatın əvvəlində və sonunda keçirilmiş sorğunun nəticələri Cədvəl 2-də təqdim edildiyi kimidir.

Eksperimental və kontrol qruplarda təlimdən əvvəl və təlimdən sonra aparılmış sorğunun nəticələri

Cədvəl 2.

№	Birinci sorğu eksperiment	İkinci sorğu eksperiment	Birinci sorğu kontrol	İkinci sorğu kontrol
1.	68	73	68	68
2.	67	69	55	54
3.	55	67	62	65
4.	70	79	61	61
5.	75	78	60	63
6.	64	71	58	63
7.	63	72	62	63
8.	65	68	66	69
9.	64	74	60	64
10.	70	76	68	69
11.	63	76	68	74
12.	60	69	63	63
13.	70	77	72	74
14.	65	73	66	69
15.	59	67	60	66
16.	59	62	60	64
17.	65	68	69	69
18.	74	82	73	74
19.	63	74	65	68
20.	58	67	61	62
21.	65	68	69	71
22.	63	70		
23.	57	73		
24.	62	69		

Dəyişikliklərin baş verməsi səviyyəsini müəyyən etmək üçün ilk növbədə ümumi statistika və diaqramlarla məlumatlar araşdırılmış, ümumiləşdirilmiş, cədvəllərdə ifadə edilmişdir. Eksperimental və kontrol qruplarda təlimdən əvvəl və təlimdə sonra aparılmış qiymətləndirmə nəticələrinin hesablanması, qruplarda dəyişiklik səviyyəsinin aşkar edilməsi, habelə, onların qarşılıqlı müqayisəsi ANOVA Sosial Elmlər Statistikası kalkulyatoru vasitəsi ilə aparılmış, F statistik dəyər müəyyən edilmişdir. F statistik dəyər iki nümunənin iki standart sapmasını müqayisə etmək və dəyişkənliyin səviyyəsini yoxlamaq üçün istifadə olunur (1). F dəyəri iki istiqamətdə hesablamışdır:

1. Təlimdən əvvəl və təlimdən sonra həm eksperimental, həm də kontrol qrupların ortalamalıdakı dəyişikliyin əhəmiyyətlilik səviyyəsinin f dəyəri ilə müəyyənləşdirilməsi;

2. Eksperimental və kontrol qrupların təlimdən əvvəl və sonra nəticələrindəki fərqinin əhəmiyyətlilik səviyyəsinin f dəyəri ilə müqayisəsi

ANOVA-da F-dəyəri nə qədər yüksək olarsa, qrup daxilindəki dəyişikliyə nisbətən qrupların ortalamaları arasındakı fərq bir o qədər yüksək olar. F-dəyəri nə qədər yüksək olarsa, müvafiq p-dəyəri bir o qədər aşağı olar.

p-dəyəri sıfır fərziyyənin (müdaxilənin hər hansı fərq yaratmadığının) doğru olduğunu fərz edərək, müşahidə edilən nəticələrin əldə edilməsi ehtimalını ölçür. p-dəyəri nə qədər aşağı olarsa, müşahidə olunan fərqin statistik əhəmiyyəti bir o qədər yüksək olar. 0,05 və ya daha aşağı p-dəyəri ümumiyyətlə statistik cəhətdən əhəmiyyətli hesab olunur. p dəyərinin 0,001 və 0,01 arasında olması güclü sübut, p dəyərinin < 0,001 olması çox güclü sübut hesab edilir (2).

Təlimdən əvvəl və təlimdən sonra həm eksperimental, həm də kontrol qrupların ortalamalarındakı dəyişikliyin əhəmiyyətlilik səviyyəsinin f dəyəri ilə müəyyənləşdirilməsi. Eksperimental və kontrol qruplar təlimdən əvvəl keçirilmiş sorğu hər iki qrupun problem baxımından ilkin səviyyəsinin öyrənilməsinə imkan yaratmışdır. Bu mərhələdə aparılan sorğu təlimdən sonra

aparılacaq sorğu nəticələri ilə müqayisələrin aparılmasına və dinamikanın qiymətləndirilməsi baxımından əhəmiyyətlidir.

Eksperimental və kontrol qrupların təlimdən əvvəl nəticələrinin fərqinin əhəmiyyətlilik səviyyəsi (f dəyəri) "Müstəqil ölçülər üçün birtərəfli ANOVA kalkulyatoru" ("One-Way ANOVA Calculator for Independent Measures") statistika kalkulyatorundan yararlanmaqla hesablanmışdır. Eksperimentdən əvvəl keçirilmiş sorğunun nəticələrinə əsasən eksperimental və kontrol qrupların ortalamaları arasında fərq (f dəyəri) (Cədvəl 3) hesablanmışdır:

Eksperimentdən əvvəl keçirilmiş sorğunun nəticələrinə əsasən eksperimental və kontrol qrupların ortalamaları arasında fərq

Cədvəl 3.

Verilənlərin məcmusu

	Qruplar		
	1	2	Toplam
N	24	21	45
∑X	1544	1346	2890
Ortalama	64.3333	64.0952	64.222
$\sum X^2$	99926	86732	186658
Standart sapma (SD)	5.0876	4.7948	4.8985

Result Details

Mənbə	***SS***	***df***	***MS***	
Qruplararsı	**0.6349**	1	0.6349	*F* = 0.02588
Qrupdaxili	1055.1429	43	**24.5382**	
Toplam	1055.7778	44		

"Müstəqil ölçülər üçün birtərəfli ANOVA kalkulyatoru"na görə F statistikasının hesablanması üçün qruplararası ortalama kvadratı qruplardaxili ortalama kvadratına bölünür. Bu statistika hər iki qrup üçün orta balın bərabər olub-olmadığını göstərir. Bu tədqiqatda F statistikası = 0.6349 / 4.5382 = 0,02588, *p*-dəyəri 0,87296 dır. F statistikasının alfa = 0,05 ($p<5$) baxımından F-paylanma cədvəlindən istifadə edərək, *yanaşmalaarası sərbəstlik dərəcəsi* (df) 1 və *qruplardaxili dərəcəsi* (df) 43 ilə F kritik dəyərinin 4,0847 olduğu müəyyən edilmişdir. F statistik göstəricin (0,0712) F kritik dəyərdən (4,0847) kiçik olduğu üçün bu iki qrup fərqləri arasında statistik əhəmiyyətli fərqin olmadığı qənaətinə gəlinmişdir (3). Eksperimentə cəlb edilmiş eksperimental və kontrol qruplar arasında ilkin səviyyədə fərqin əhəmiyyətli olmaması faktı eksperimentin sonunda əldə ediləcək nəticənin etibarlılığı baxımından əhəmiyyət daşıyır.

Eksperimental qrupda təlimdən əvvəl və sonra aparılan sorğu nəticələri arasında fərqlərin əhəmiyyətlilik səviyyəsi. Eksperimentlər başa çatandan sonra eksperimental və kontrol qruplarda təkrar sorğu keçirilmişdir. Əldə edilmiş nəticələr təlimdən əvvəl müəyyən edilmiş nəticələrlə müqayisə edilmiş, fərqlər (F dəyəri) "One-Way Repeated Measures ANOVA Calculator"da müəyyən edilmişdir. Eksperimental qrupun təlimdən əvvəl və təlimdən sonra ortalamalarındakı dəyişikliyin əhəmiyyətlilik səviyyəsi (f dəyəri) Cədvəl 4-dəki kimidir.

Eksperimental qrupda təlimdən əvvəl və sonra aparılan sorğuların nəticələri arasında fərqlərin

Cədvəl 4.

Verilənlərin məcmusu

	Qruplar		
	1	2	Toplam
N	24	24	48
∑X	1544	1722	3266
Ortalama	64.3333	71.75	68.042

$\sum X^2$	99926	124060	223986	
Standart sapma (SD)	5.0876	4.6927	6.1227	
Nəticələrin təfərrüatları				
Mənbə	***SS***	***df***	***MS***	
Qruplararası	660.0833	1	660.0833	*F* = 104.04512
Qrupdaxili	1101.8333	46	23.9529	
Xəta	145.9167	23	6.3442	

ANOVA-da F statistikası eksperimental qrup MS (ortalama kvadratı) /(bölünür) "xəta" ortalama kvadratı (Error MS) kimi hesablanır. Bu statistika hər iki qrup üçün orta balın bərabər olub-olmadığını göstərir. Bu tədqiqtda F statistikası = 660.0833 / 6.3442 = 104,04512, *p*-dəyəri < .00001-dir. F statistikasının alfa = 0,001 ($p < .001$) baxımından əhəmiyyətlilik əsas götürülərsə, Alfa = 0,001 üçün F-paylanma cədvəlindən istifadə edərək, *yanaşmalararası sərbəstlik dərəcəsi* (df) 1 və *xəta üçün sərbəstlik dərəcəsi* (df) 23 ilə F kritik dəyərinin 14,195 olduğu müəyyən edilmişdir (3). F statistik göstərici (104.04512) F kritik dəyərdən (14.195) böyük olduğu üçün bu iki qrup fərqləri arasında statistik əhəmiyyətli fərqin olduğu qənaətinə gəlinmişdir. Oxşar təhlillər kontrol qruplarda da aparılmışdır. Nəticələrin cədvəl 5-dəki kimi olduğu aşkar edilmişdir.

Kontrol qrupda təlimdən əvvəl və sonra aparılan sorğuların nəticələri arasında fərqlərin əhəmiyyətlilik səviyyəsi

Cədvəl 5.

Verilənlərin məsmusu				
	Qruplar			
	1	2	Toplam	
N	21	21	42	
$\sum X$	1346	1393	2739	
Ortalama	64.0952	66.3333	65.214	
$\sum X^2$	86732	92891	179623	
Std.Sapma (SD)	4.7948	4.943	4.9413	
Nəticənin təfərrüatlar				
Mənbə	***SS***	***df***	***MS***	
Qruplararası	52.5952	1	52.5952	*F* = 25.71595
Qrupdaxili	948.4762	40	23.7119	
Xəta	40.9048	20	2.0452	

F-dəyərinin 25.71595; p *dəyərinin*), 000058 olduğu və nəticənin p< 0,05 baxımından əhəmiyyətli olduğu müəyyən edilmişdir. Bu tədqiqtda F statistikası = 52,5952 / 2,0452 = 25,71595 və *p*-dəyəri <0,05 dir. F statistikasının alfa = 0,05 ($p < .05$) baxımından əhəmiyyətlilik əsas götürülərsə, Alfa = 0,05 üçün F-paylanma cədvəlindən istifadə edərək, (https://www.statology.org/f-distribution-table/) *yanaşmalaarası sərbəstlik dərəcəsi* (df) 1 və *xəta üçün sərbəstlik dərəcəsi* (df) 20 ilə F kritik dəyərinin 4,3512 olduğu müəyyən edilmişdir. F statistik göstəricin (25,71595) F kritik dəyərdən (4.3512) böyük olduğu üçün qrupun təlimdən əvvəl və təlimdən sonra göstəriciləri arasındakı fərqin statistik əhəmiyyət daşıdığı qənaətinə gəlinmişdir. Hesablamalar göstərmişdir ki, eksperimental qrupda təlimdən əvvəl və təlimdən sonra nəticələrin ortalamaları arasınbdakı fərq *F* = 104.0451, kontrol qrupda bu fərq F=25,71595 olmuşdur. Göründüyü kimi hər iki qrupda dişiklik səviyyəsi əhəmiyyətli hesab edilsə də eksperimental sinifdə əhəmiyyətlilik səviyyəsi kontrol qrupdakından 4,04 dəfə ardıqdır.

Eksperimental və kontrol qrupda təlimdən sonra aparılan sorğu nəticələri arasında fərqlərin əhəmiyyətlilik səviyyəsinin müəyyən edilməsi. Eksperiment başa çatandan sonra aparılmış ikinci dönəm sorğuların nəticələrinə əsasən eksperimental və kontrol qrupların nəticələrinin ortalamalar arasında fərq yenidən hesablanmışdır (Cədvəl 6).

Eksperimental və kontrol qrupda təlimdən sonra aparılan sorğu nəticələri arasında fərqlər

Cədvəl 6.

Verilənlərin məcmusu				
	Qruplar			
	1	2	Toplam	
N	21	24	45	
∑X	1393	1722	3115	
Ortalama	66.3333	71.75	69.222	
$\sum X^2$	92891	124060	216951	
Standar sapma (SD)	4.943	4.6927	5.4851	
Nəticələrin təfərrüatları				
Mənbə	***SS***	***df***	***MS***	
Qruplararası	328.6111	1	328.6111	*F* = 14.19891
Qrupdaxili	995.1667	43	23.1434	
Toplam	1323.7778	44		

Birtərəfli ANOVA təkrarlanan ölçülər üçün hesablayıcı ("One-Way ANOVA Calculator for Repeated Measures") vasitəsi ilə aparılmış hesablamalara görə F statistikası =328,6111/23,1434= 14.19891, p=0,000496. $p < 0,05$. baxımından əhəmiyyətlilik əsas götürülərsə, Alfa=0,05 üçün F-paylanma cədvəlindən istifadə edərək, (https://www.statology.org/f-distribution-table/) *yanaşmalararası sərbəstlik dərəcəsi* (df) 1 və *qrupdaxili sərbəstlik dərəcəsi* (df) 43 ilə F kritik dəyərinin 4,0847 olduğu müəyyən edilmişdir. F statistik göstəricinin (14.19891) F kritik dəyərdən (4.0847) böyük olduğu üçün qrupların təlimdən sonra göstəriciləri arasındakı fərqin statistik əhəmiyyət daşıdığı qənaətinə gəlinmişdir. Buna görə də, eksperimental və kontrol qruplar arasında heç bir fərq olmadığına dair sıfır fərziyyədən (Ho) imtina edilir. Eksperimental və kontrol qruplar arasında fərqlər mövcuddur (H_1) və onlar təsadüfi deyil.

Nəticələr. Fasiləsiz pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli tətbiqi modeli pedaqoji təhsilin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi baxımından əhəmiyyətlil hesab edilmişdir.

Fəlsəfi-tarixi, sosial-psixoloji-pedaqoji və təcrübi-metodoloji əsaslara söykənərək mərhələli şəkildə tərtib edilmiş məzmun və texnologiyalar peşəkar təhsilverənlərin hazırlanması baxımından əhəmiyyət daşıyır.

Fasiləsiz pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli təşkilinin yeni modeli pedaqoji kadr hazırlığına verilmiş minimum tələblərə nail olunmanın sistemli yanaşmanı təmin etmiş olur.

Aparılmış təcrübələr, statistik təhlillər belə nəticəyə gəlməyə əsas verir ki, fasiləsiz pedaqoji təhsilin məzmun və texnologiyalarının mərhələli tətbiqi ilə pedaqoji təhsilin keyfiyyətini yüksəltməyə nail olmaq mümkündür.

Ədəbiyyat

1. Fraenkel, J.R. (2012). How to design and evaluate research in education/ Jack Fraenkel, Norman Wallen, Helen, Hyun. - 8th ed. ISBN-13: 978-0-07-809785-0 (hardback); ISBN-10: 0-07-809785-1
2. Glatthorn Alan A. 1924, Developing a quality curriculum/ İSBN: 0-87120-234-4
3. Jones, W. Paul, Jeffery A. Kottler, 2006 Understanding research:becoming a competent and criticalconsumer. ISBN 0-13-119844-0
4. Education Research and Foresight, Paris, ERF Working Papers Series, No.14. – 2015.

5. Avery, C. Learning to research/researching to learn. In M. Olson (Ed.), Opening the door to classroom research (pp. 32-44). Newark, DE: International Reading Association. - 1990.
6. Süleymanova, A.Y. Təhsilin əsasları. - Bakı:Təhsil, - 2014, - s.400.
7. https://askanydifference.com/difference-between-t-test-and-f-test/
8. https://towardsdatascience.com/the-statistical-analysis-t-test-explained-for-beginners-and-experts-fd0e358bbb62
9. https://www.statology.org/f-distribution-table/

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 127-131
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 127-131
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 127-131

Pedaqoji internatura: dünya təcrübəsi və Azərbaycan

Müəllif:

Qurban Qurbanlı
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: qurbanliqurban1@gmail.com

Açar sözlər:
Azərbaycan, ali pedaqoji təhsil, pedaqoji internatura, stajkeçmə, dünya təcrübəsi

Annotasiya. Müasir mərhələdə müəllim hazırlığının aktual problemləri sırasında pedaqoji internaturanın yer alması şəksizdir. Bu institut Azərbaycanda müəllim hazırlığı prosesinin mühüm komponenti olmaq ərəfəsindədir. Belə ki, ölkəmizdə ali pedaqoji təhsil müəssisələri (və ya pedaqoji fakültələr) 2020-2021-ci tədris ilindən tətbiq edilən Təhsil proqramlarına görə növbəti 2023-2024-cü tədris ilində müəllim hazırlığının pedaqoji internatura mərhələsinə daxil olurlar. Deməli, pedaqoji internaturanın faktoloji və pedaqoji problem kimi qoyuluşu xüsusi aktuallıq kəsb edir. Dünya təcrübəsində pedaqoji internaturanın tətbiqi tarixi, mahiyyəti və xüsusiyyətləru, müəllim hazırlığında yeri və rolu, tədqiqatçıların bu problemə baxışları, müqayisəli tədqiqatların nəticələri və sairə məsələlərin bu məqalədə əks olunması qarşıya qoyulan vəzifələrdəndir. Başlıca məqsəd Azərbaycanda pedaqoji internatura institutunun tətbiqi, təşəkkülü və inkişaf etdirilməsi üçün qabaqcıl dünya təcrübəsini elmi-nəzəri və praktiki aspektdə tədqiq etməkdən ibarətdir.

Author:

Gurban Gurbanli
Nakhchivan Teachers Institute
Doctor of philosophy in philology, associate professor
E-mail: qurbanliqurban1@gmail.com

Key word:
Azerbaijan, higher pedagogical education, pedagogical internship, internship, world experience

Pedagogical internship: world experience and Azerbaijan

Abstract. There is no doubt that pedagogical internship is among the current problems of teacher training at the modern stage. This institute is on the verge of becoming an important component of the teacher training process in Azerbaijan. Thus, higher pedagogical educational institutions (or pedagogical faculties) in our country enter the pedagogical internship stage of teacher training in the next 2023-2024 academic year according to the Educational programs implemented from the 2020-2021 academic year. Therefore, the establishment of pedagogical internship as a factual and pedagogical problem is of particular relevance. The history, essence and characteristics of the application of pedagogical internship in the world experience, its place and role in teacher training, researchers' views on this problem, the results of comparative studies and other issues are reflected in this article. The main goal is to study the advanced world experience in the scientific-theoretical and practical aspects for the implementation, organization and development of the pedagogical internship institute in Azerbaijan.

Автор:

Гурбан Гурбанлы
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
E-mail: qurbanliqurban1@gmail.com

Ключевые слова:
Азербайджан, высшее педагогическое образование, педагогическая интернатура, стажировка, мировой опыт

Педагогическая интернатура: мировая практика и Азербайджан

Аннотация. Бесспорно, что педагогическая интернатура входит в число актуальных проблем подготовки учителей на современном этапе. Этот институт находится накануне становления важным компонентом процесса подготовки учителей в Азербайджане. Так, в нашей стране высшие педагогические учебные заведения (или педагогические факультеты) в соответствии с реализуемыми с 2020-2021 учебного года образовательными программами переходят на следующий 2023-2024 учебный год на интернатурный этап подготовки учителей. Поэтому особую актуальность приобретает постановка педагогической интернатуры как фактологической и педагогической проблемы. История внедрения педагогической интернатуры в мире, ее сущность и особенности, место и роль в подготовке учителей, взгляды исследователей на данную проблему, результаты сравнительных исследований и др. Главная цель состоит в изучении передового мирового опыта в научно-теоретическом и практическом аспектах для введения, становления и развития института педагогической интернатуры в Азербайджане.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 24 oktyabr 2013-cü il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası"nın "Strateji hədəflər" adlanan 7-ci bölməsinin 2.3.3 bəndində "müəllim hazırlığı sistemində internatura modelinin tətbiq edilməsi" müddəası qeyd olunmuşdur [3].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" adlı dövlət sənədində internatura termininə rast gəlinmir [4]. Lakin 2.10.4.1. Əlavə pedaqoji təhsil və peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsinin tərkib hissələri adlı bənddə 6 tərkib hissədən biri kimi stajkeçmə (ixtisasartırma təhsili, yenidənhazırlanma təhsili və digərləri ilə yanaşı) göstərilir. Sənəddə göstərilir ki, "Stajkeçmə xüsusi ayrılmış müəssisələrdə yüksək ixtisaslı mütəxəssisin rəhbərliyi altında nəzəri biliklərin təcrübi bacarıq və vərdişlərlə əlaqələndirilməsini nəzərdə tutur. Pedaqoji işçilərin stajkeçməsi pedaqogika, psixologiya və metodika sahələri üzrə bilik və bacarıqların artırılması ilə tamamlanaraq, həmin kateqoriyadan olan müəllimlərin tam ixtisasartırmasını təmin edir. Stajkeçmə ikimərhələli proses olmaqla, peşə-ixtisas təhsili müəssisələrində çalışan professor-müəllim, pedaqoji kadr, mühəndis-müəllim kimi kateqoriyalı işçilərin ixtisasartırma təhsili pilləsidir" [4].

2009-cü ildə təsdiq edilmiş və sonralar edilmiş bir çox əlavə və düzəlişlərlə birlikdə hazırda qüvvədə olan "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda da "pedaqoji internatura" termininə rast gəlinmir. [5].

Lakin Azərbaycan Respublikası Təhsil Nazirliyinin 381 saylı 21.08. 2020-ci il il tarixli qərarı ilə təsdiq edilmiş "Bakalavriat səviyyəsinin müəllimlik ixtisasları üzrə Təhsil proqramları"da "internatura" termininə "pedaqoji internatura" adı altında rast gəlirik. Belə ki, "Təhsil propqramının strukturu" adlanan 3-cü bölmədə 240 kreditin fənlər üzrə bölüşdürülməsi cədvəlində Ümumi fənlərə -30 kredit, İxtisas fənlərinə - 120 kredit, Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən (seçmə xarakterli ixtisas) fənlərə - 60 kredit və Pedaqoji internaturaya – 30 kredit ayrılması öz əksini tapır. Adı çəkilən, hazırda qüvvədə olan sənədin 8-ci bölməsi Pedaqoji internatura adlanır. Bu bölmədə qeyd olunur ki, "8.1. Pedaqoji internatura tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir". 8.2.-də yazılır ki, Pedaqoji internatura ümumi təhsil müəssisələrində tətbiq oluna bilər. Növbəti bənddə pedaqoji internaturanın təşkili yerinə dair (müqavilə və s.) müddəalar öz əksini tapır. Sonuncu 8.4.-də isə deyilir ki, pedaqoji internaturanın qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara əsasən həyata keçirilir [2].

Rəsmi dövlət sənədləri ilə tanışlıqdan sonra pedaqoji ədəbiyyata müraciət etdikdə görürük ki, pedaqoji internatura ölkəmizdə elmi pedaqoji problem kimi qoyulmamışdır. Bununla belə, Pedaqoji elmlər doktoru, professor Akif Abbasovun, habelə bəzi digər müəlliflərin KİV-də, o cümlədən "Azərbaycan müəllimi" qəzetin bir neçə sayında pedaqoji internatura mövzusunda bir neçə yazısı çıxmışdır. Bunlar sırasında prof. A.Abbasovun "Pedaqoji internatura" kitabı xüsusi yer tutur [1]. Kitab giriş, 5 paraqrafdan ibarət əsas hissə, nəticə, təkliflər və Pedaqoji internatura haqqında Əsasnamə layihəsindən ibarətdir. Kitabın giriş hissəsində qeyd olunur ki, mövzuya müraciət edənlər bəzi xarici pedaqoji internaturanın imkanlarını təsvir və təhlil edirlər. Müəllif öz tədqiqatda həmin imkanları araşdırmağı, pedaqoji internaturanın mahiyyətini, məqsəd və vəzifələrini, fəaliyyətinin əsas istiqamətlərini, işinin məzmununu, internaturaya qəbul qaydalarını və s. diqqət mərkəzinə gətirməyi qarşısına məqsəd qoymuşdur [1].

Ümumiyyətlə götürsək, bu işi ölkəmizdə pedaqoji internaturaya həsr olunmuş ilk sistemli əsər kimi dəyərləndirmək olar. Lakin bütün məziyyətləri ilə bu əsərdə bir neçə mühüm suala kifayətləndirici cavab tapa bilmədik. Məsələn, elmi cəhətdən hərtərəfli əsaslandırılmış Bugünkü Azərbaycan realığı üçün pedaqoji internaturanın aktuallığını şərtləndirən amillər hansılardır? sualına qaneedici cavab tapa bilmirik. İkincisi, təklif olunan pedaqoji internatura institutunun pedaqoji təcrübədən fərqi nədədir? Üçüncüsü, müəllimlik ixtisasları üzrə bakalavriat təhsili, pedaqoji internatura və magistratura təhsilinin qarşılıqlı əlaqə və münasibətlərinin aydın təsvirinə rast gəlmirik. Dünya təcrübəsində bunlar necə birgə fəaliyyət göstərirlər? Və s...

Araşdırmalarımız göstərir ki, müasir lüğətlərdə internatura termini "stajkeçmə" (stajirovka) sözünün sinonimi olduğundan, pedaqoji interna-

turadan təcrübi fəaliyyətin formalarından (növlərindən) biri kimi danışa bilərik. "Stajkeçmə" (stajirovka) termini isə pedaqoji ədəbiyyatda məzunların tədrisin ilk ilində bacarıq və qabiliyyətlərini nümayiş etdirmək üçün inkişaf dəstəyi aldıqları bir proses kimi başa düşülür [15].

Pedaqoji ədəbiyyatda [1,6,8,12,13] qeyd olunur ki, pedaqoji sahədə bakalavrların peşə hazırlığının praktik innovativ istiqamətini təmin etmək üçün əsas fikir stajkeçmə təcrübəsinin universitetin təhsil prosesinə inteqrasiyasıdır. İnternatura yalnız tələbələrin təkcə aktual problemlərin həllinə cəlb edilməsini deyil, həm də təhsil məkanında adi universitet kurslarının praktik yönümlü tədrisini əhatə edən fərdi təhsil marşrutu ilə illik təcrübənin (bakalavr dərəcəsinin dördüncü ili) xüsusi bir forması kimi çıxış edir. İnternatura dediyimiz praktik təlim anlayışımız məzmun və təşkilati cəhətdən universitet təhsili ilə sıx bağlıdır.

Beləliklə, pedaqoji internatura dedikdə, təcrübəsiz bir müəllimin müəyyən bir təşkilatı-təhsil şəraitində stajkeçmə və uyğunlaşma dövrü başa düşülür ki, bunun nəticəsində də nəzəri pedaqoji kursun məzunu tədricən peşəkar müəllimə çevrilir.

Bakalavr hazırlğında ənənəvi pedaqoji təcrübədən pedaqoji internaturaya keçid müəyyən qanunvericilik və müvafiq maliyyə təminatını tələb edir. Beləliklə, ali pedaqoji təhsil sistemində internaturanın təşkili məsələlərində xarici təcrübənin təhlili xüsusi aktuallıq kəsb edir.

Tədqiqatçı E.A.Lenskaya Böyük Britaniyanın timsalında müəllim hazırlığının keyfiyyət aspektini nəzərə alaraq [9], internatura sisteminin İngiltərədə təxminən on il əvvəl (2008) tətbiq olunduğunu və məktəb üçün müəllim hazırlığının keyfiyyətinə nəzarət etmək üçün səmərəli bir yol olduğunu qeyd edir. Bütün ili sinifdə keçirdikdən sonra gənc mütəxəssis əksər hallarda məktəbdə daimi işləmək üçün qalır: uşaqlarla işləmək qorxusu yox olur, təmasları genişlənir, kollektivin üzvü olur. Buna görə Böyük Britaniyada uzun müddət müəllimlik peşəsində qalan pedaqoji ixtisas məzunlarının faizi olduqca yüksəkdir. Bundan əlavə, Böyük Britaniya məktəbində sınaq ili – internatura ərzində gənc mütəxəssis xüsusi dəstək alır: onun rəsmi tədris yükü azaldılır ki, planlaşdırma və təlim üçün əlavə vaxtla təmin olunsun.

Təcrübə keçmənin bütün mərhələlərində gənc müəllimlər yüksəkixtisaslı müəllimlər (tyutorlar) tərəfindən himayə olunur. Bunlar adətən gənc mütəxəssislər üçün nümunə kimi çıxış edən təcrübəli, yüksək ixtisaslı müəllimlər olur; bu müəllimlər şagirdlər və valideynlər, habelə aparıcı, baş statusu daşıyan müəllimlər, məktəb və kollec direktorları tərəfindən böyük hörmət və ehtiram qazanmış şəxslər olur. Onlar didaktik bacarıqlara, təcrübəçilər üçün pedaqoji məktəb təcrübəsinin şəxsi, fəlsəfi və konseptual aspektlərini açıb göstərmək və aktuallaşdırmaq qabiliyyətinə malik olmalıdırlar. Qeyd etmək lazımdır ki, bütün məktəblər və kolleclər müəllim-mentorun fəaliyyəti ilə bağlı pedaqoji dəstək çərçivəsində ətraflı təlimat alırlar ki, bu da stajçı müəllimin təcrübəsinin ilk günündən həyata keçirilməlidir [9].

M. Barber və M. Murşed, dünyanın ən yaxşı məktəb təhsil sistemlərinin fəaliyyətini təhlil edərək və müəllim hazırlığının xüsusiyyətlərini təsvir edərək [6], Yaponiyada 1989-cu ildə ilk ilini məktəbdə çalışan müəllimlər üçün məcburi intensiv təlim proqramının tətbiq olunduğunu qeyd edirlər. Bu proqram praktik tədris bacarıqlarının mənimsənilməsini təmin edir. Yeni müəllimlər tam dərəcədə işləyirlər, lakin məktəbin ilk ili ərzində həftədə iki günə qədər onlara fərdi mentor verilir. Müəllim-mentorlar öz yetirmələrinə kömək edir, lakin sinifdəki işlərini qiymətləndirmirlər.

Almaniyada pedaqoji internaturanı müəyyənləşdirmək üçün "referendiat" anlayışından istifadə olunur. Müəllim vəzifəsinə hər bir iddiaçı Dövlət seminarı adlanan rəsmi sənəd əsasında 18-24 ay ərzində (regional qanunlardan asılı olaraq) fərdi peşə bacarıqlarını təsdiq etməlidir [7]. Stajçı (referendar), bir təhsil seminarının iştirakçısı olaraq, mentorun (haminin) rəhbərliyi altında nəzəri olaraq pedaqogika və fənn didaktikasını öyrənir və praktik olaraq birbaşa məktəbdə peşə və pedaqoji bacarıqlarını inkişaf etdirir. Referendariat dövlət imtahanı ilə başa çatır, onun keçməsi müəllim vəzifəsini əldə etmək üçün şərtdir [12].

T.V.Luçkina Kanadada təcrübəsiz müəllimin peşəkar formalaşmasına köməkliyin xüsusiyyətlərini açıqlayaraq, "Peşəyə giriş proqramı"nı ətraflı təsvir edir. Qeyd edr ki, bu proqramı uğurla keçərək sertifikat almaq məcburidir. Kanadada Peşəyə giriş proqramı aşağıdakı komponentləri əhatə edir: oriyentasiya, mentorluq, peşəkar inkişaf və təlim, stajçı müəllimin fəaliyyətinin qiymətləndirilməsi. Bu proqramın həyata keçirilməsinin nəticəsi bunlardır: 1) yeni müəllimin peşəkar səriştəsinin və fəaliyyətinin səmərəliliyinin artırılması; 2) peşədə yeni müəllimin uğur qazanması; 3) dinamik təhsil mühitində işləmək hüququ verən

ixtisas sertifikatının alınması; 4) məktəbdə yeni müəllimlərin payının artırılması [10].

M.V.Şirokova ABŞ-da müəllim hazırlığı keyfiyyətinin idarə edilməsi texnologiyalarını nəzərdən keçirir [14], mentorluq (hamilik) və pedaqoji internatura daxil olmaqla Amerikada dimlomdan sonrakı hazırlığı təhlil edir.

Yüksək ixtisaslı mütəxəssislərin nəzarəti altında çalışan stajçı müəllimlər bir tərəfdən xüsusi hazırlığın son mərhələsində, digər tərəfdən praktik peşə fəaliyyətinin ilkin mərhələsində olurlar. Stajçı müəllimlərin ixtisaslaşması təhsil subyektlərinin qarşılıqlı əlaqəsindən birbaça asılı olur. Bu qarşılıqlı əlaqə belədir: müəllim-mentor internə gündəlik və ya həftəlik yardım göstərir. Bu onun stajçı müəllimlərlə fəaliyyəti kimi iş yükünə daxil edilir, yəni əlavə ictimai vəzifə sayılmır. Qeyd edək ki, yüksək ixtisaslı müəllim-mentorlar pedaqoji universitetlərdə müqavilə əsasında 3 il işləyirlər. Universitetlərin professor-müəllim heyəti və uyğun rayonlarının məktəb metodistləri ilə birlikdə internatura proqramları hazırlayır və yeni başlayan müəllimlər üçün müxtəlif seminarlar keçirirlər [14].

ABŞ-da pedaqoji universitet məzunlarının peşə fəaliyyətinə inteqrasiya və mentorluq institutlarının təkmilləşdirilməsi (mentorluq) müəllimin müəyyən bir məktəbdə sınanma mərhələsindən tam uyğunlaşma mərhələsinə keçdiyi peşəkar formalaşmasının ən məsuliyyətli, ilk mərhələsi kimi müəyyən edilir. Mentorinqin ən mühüm məqsədi təcrübəsiz müəllimlərin fərdi peşəkar üslubunun, fəaliyyətinin və müstəqilliyinin formalaşdırılmasıdır [14].

İ.M.Kel üç illik təcrübə keçmiş amerikalı müəllimlərin müstəqil işləyən həmkarlarından daha bacarıqlı və metodik cəhətdən bacarıqlı olduqlarını da qeyd edir [16].

Tədqiqatçılar M.Barber və M. Murşed, Boston nümunəsində xüsusiyyətlərini ortaya qoyaraq Amerika pedaqoji internaturası haqqında yazırlar ki, burada böyük miqdarda praktik iş, güclü nəzəri təlim və nüfuzlu magistr dərəcəsini birləşdirən tibbi rezidentura modelinə əsaslanan müəllim hazırlığı proqramı tətbiq olunur. Altı həftəlik yay təlim kursundan sonra gələcək müəllimlər bir ili məktəblərdə stajçı kimi fəaliyyət göstərirlər. Onlar bu il ərzində həftədə dörd gün təcrübəli bir müəllimin nəzarəti altında işləyirlər və həftədə bir gün kurs işi ilə məşğul olurlar. İkinci il ərzində təhkim olunmuş mentor (hami) həftədə iki saat yarım öz yetirməsinin dərslərində iştirak edir. Mentorlar "nümunə göstərir, birlikdə işləyir, müşahidə aparır və tədris prosesini təşkil etmək, dərsi planlaşdırmaq və pedaqoji strategiya hazırlamaqda gənc müəllimə köməklik edirlər". Proqram çərçivəsində mentorluğun keyfiyyətini artırmaq üçün Bostonda xüsusi olaraq hər biri 14 yeni gənc müəllimə dəstək verən müəllim-mentorları işə götürülür [6].

Dünyanın inkişaf etmiş ölkələrində pedaqoji internaturanın xüsusiyyətlərini nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, internatura stajsız müəllimlərə pedaqoji dəstəyə yönəlmiş müxtəlif tədris layihələrinin fəal birləşməsinin həyata keçirildiyi unikal təhsil məkanıdır. Pedaqoji ədəbiyyatdan əxz edilmiş bu cədvəldən görümdüyü kimi, adlar, müddətlər, iş formaları və bəzi digər detallardakı fərqlərə baxmayaraq, dünyanın inkişaf etmiş ölkələrində pedaqoji internatura metodiki (və sözsüz ki həm də maliyyə) cəhətdən təmin edilmiş və stajsız müəllimin işinin səmərəliliyinin qiymətləndirilməsini ehtiva edən məqsədyönlü bir prosesin vacib mərhələsidir.

Beləliklə, dünyanın inkişaf etmiş ölkələrində pedaqoji internaturanın təşkili ilə bağlı apardığımız təhlil xarici pedaqoji internaturanın aşağıdakı ümumi xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir: 1) ümumən tədrisin keyfiyyətinin yaxşılaşdırılması; 2) perspektivli stajsız müəllimlərin, yəni gənc mütəxəssislərin, qeyri-pedaqoji fəaliyyət sahələrinə axınının qarşısının alınması; 3) stajsız müəllimin şəxsi və peşəkar yüksəlişini təşviq etmə; 4) müəyyən bir bölgədə (kənd rayonu, ucqar ərazilər) müəllimlərə olan ehtiyacın kəmiyyət və keyfiyyətcə ödənilməsi; 5) gənc müəllimin ilkin sınanma mərhələsindən tam uyğunlaşma mərhələsinə uğurla irəliləməsi; 6) peşəyə tədrici giriş üçün şəraitin təmin edilməsi.

Güman edirik ki, dünyanın inkişaf etmiş ölkələrində aşkarladığımız pedaqoji internaturanın ümumi xüsusiyyətləri ölkəmizdə də belə bir təcrübəkeçmənin (internaturanın) əsaslandırılması və inkişafı üçün müəyyən baza, əsas ola bilər.

Bu təhlillərdən sonra, problem üzrə aşağıdakıları təklif edirik:

1.İlk növbədə ali pedaqoji təhsil sahəsində internaturanın konsepsiya və proqramı işlənib hazırlanmalıdır.

2.Ən qısa zamanda internaturanın həyata keçirilməsinin məqsəd və vəzifələrini, məzmun və formasını, qiymətləndirmə meyarlarını və s.

özündə əks edən müvəqqəti nümunəvi sənəd səlahiyyətli dövlət orqanı tərəfindən tərtib və təsdiq edilib, ali pedaqoji təhsil müəssisələrinə çatdırılmalıdır. Mükəmməl və əsaslandırılmış rəsmi sənədin işlənilməsi və qəbulu proseduru xeyli vaxt tələb edə biləcəyindən müvəqqəti sənədin qəbulu daha məqsədəuyğun sayıla bilər.

3. Fikrimizcə, internaturanın konsepsiya və proqramının əsas ideyası ali peşə-ixtisas təhsilin davamlılığına, universitet bakalavr təhsil proqramının real peşə fəaliyyətindən uzaqlaşmasının aradan qaldırılmasına və gənc müəllimlərin müəllim-mentorların (himayəşilərin) müşayiəti ilə peşəkar uyğunlaşmasının təşkilinə əsaslanan-malıdır.

4.Ali təhsil diplomu olan hər bir gənc pedaqoji mütəxəssisin stajçı kimi təcrübəli müəllimin rəhbərliyi altında uyğun ödənişli məcburi funksional fəaliyyət göstərərək müəyyən edilmiş praktiki prosedurlardan uğurla keçməklə pedaqoji fəaliyyətə qəbul edilməsi instututu ölkəmiz üçün nümunə ola bilər.

5. Bu həm də Dövlət imtahanı verərək diplomunu yenicə almış gənc müəllimlərin işə qəbul edilməsi yolunda süni baryer kimi dəyərləndirilən MİQ imtahanlarının ləğv edilməsini və yaxud onun təyinat və məzmununu dəyişərək internaturanın buraxılış imtahanına çevrilməsini təmin etmiş olar.

6.Hazırda çox aktuallıq kəsb edən məsələlərdən biri də təhsil standartlarının, təhsil proqramlarının yeni peşə standartları ilə əlaqələndirilməsidir.

Ədəbiyyat

1.Abbasov A. Pedaqoji internatura. -Bakı,"-Mütərcim", 2016, 47 s.

2.Azərbaycan Respublikası Təhsil Nazirliyinin 381 saylı 21.08. 2020-ci il il tarixli qərarı ilə təsdiq edilmiş Bakalavriat səviyyəsinin müəllimlik ixtisasları üzrə Təhsil proqramları.

3."Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". -https://e-qanun.az/framework/29145

4. "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" -https://e-qanun.az/framework/13540

5."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/18343

6. Барбер М., Муршед М. Как добиться стабильно высокого качества обучения в школах // Вопросы образования. ГУ-ВШЭ. 2008. №3. – С.7-60.

7.Блинов В.М. Теория и практика профессионально-педагогической подготовки гуманистического учителя в Германии. М.: Московский психолого-социальный институт, 2005. - 248 с.

8.Джиффорд Б.Р. Педагогическое об¬разование: реформа на словах или на деле? / Б.Р. Джиффорд, Т. Стодарт // Суд над системой образования: Стратегия на будущее: пер. с англ. / под ред. У.Д. Джон¬стона. М.: Педагогика, 1991.

9. Ленская Е.А. Качество образования и качество подготовки учителя // Вопросы образования. 2008. №4. – С.81-95.

10.Лучкина Т.В. Особенности содействия профессиональному становлению начинающего учителя в Канаде // Известия Российского государственного педагогического университета им. А.И. Герцена. 2009. №112. – С.36-45.

11.Лучкина Т.В., Грачёва Е.Ю. Роль интернатуры в профессиональном становлении начинающего учителя в Германии // Актуальные проблемы гуманитарных и естественных наук. - 2010. №9. - С.281-290.

12. Пусвацет В.С. Сравнительный анализ подготовки педагогических кадров в Германии и России: автореф. дис. ... канд. пед. наук. СПб., 2007. – 22 с.

13.Сабирова В.С. Пробный год работы в школе // Высшее образование в России. 2007. №9. – С.138-141.

14.Широкова М.В. Технология управления качеством подготовки выпускников педагогических вузов в США // Высшее образование сегодня. 2009.№11.– С.5-6.

15.Ушаков Д.И. Толковый словарь современного русского языка. М.: Альта-Принт, 2008. – 512 с.

16.Kehl E.M. The Effects of First-Year induction Program on teacher Competence / E.M. Kehl, College of Education, University of Oregon, 1981

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 132-136
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 132-136
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 132-136

UOT

Azərbaycan dili tədrisi metodikasının müasir tələblər baxımından yeniləşmə imkanları

Müəllif:

Asif Hacıyev
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: haciyev asif@mail.ru

Açar sözlər:
Azərbaycan dili, fənn, təlim, tədris, metodika, məzmun, yeniləşmə

Annotasiya. Ümumtəhsil məktəblərində təlimin keyfiyyətinə təsir göstərən amillərdən biri pedaqoji kadrların, xüsusən fənn müəllimlərinin peşəkarlıq səviyyəsi ilə bağlıdır. Hər bir müəllim fənnin nəzəri-metodik əsaslarına ali məktəblərdə yiyələnməklə onun özünəməxsus cəhətlərini mənimsəyir və məktəb təcrübəsində öz üzərində işləməklə peşə bacarıqlarını daha da təkmilləşdirir. Ona görə də fənlərin tədrisi metodikası xüsusi əhəmiyyət daşıyıb gələcəyin müəllimi olacaq tələbələrin ixtisasla bağlı bilik və bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Bu yanaşmada Azərbaycan dilinin tədrisi metodikası da istisnalıq təşkil etmir. Onun məzmun və sturktur baxımından müasir tələblərə uyğun işlənilməsi və tələbələrin istifadəsinə verilməsi oduqca aktual pedaqoji problemlərdəndir. Təhlil göstərir ki, mövcud məktəb təcrübəsi ilə fənnin tədrisi metodikası arasında müəyyən ziddiyyətli məqamlar var və əksər hallarda fənnin spesifik cəhətləri nəzərə alınmadan işlənilmişdir. Məqalədə həmin məqamlara toxunulmaqla fənnin yenilənmə imkanları üzərində dayanılmış və müvafiq təkliflər irəli sürülmüşdür.

Possibilities of modernization of Azerbaijani language teaching methodology in terms of modern requirements

Author:

Asif Hajiyev
Educational Institute of the Republic of Azerbaijan
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: haciyev asif@mail.ru

Key word:
Azerbaijani language, subject, education, teaching, methodology, content, innovation

Abstract. One of the factors affecting the quality of education in secondary schools is related to the level of professionalism of pedagogical personnel, especially subject teachers. Each teacher learns the theoretical-methodical foundations of the subject in higher schools, learns its unique aspects, and further improves his professional skills by working on himself during school experience. Therefore, the teaching methodology of the subjects is of special importance and plays an important role in the formation of the knowledge and skills of the students who will be the future teachers. In this approach, the methodology of teaching the Azerbaijani language is not an exception. Its processing in accordance with modern requirements in terms of content and structure and making it available to students is one of the most urgent pedagogical problems. The analysis shows that there are certain conflicting points between the current school experience and the teaching methodology of the subject, and in most cases, it was developed without taking into account the specific aspects of the subject. In the article, by touching on those points, the possibility of updating the subject was emphasized and relevant proposals were put forward.

Возможности обновления методики обучения азербайджанскому языку с точки зрения современных требований

Автор:

Асиф Гаджиев
Образовательный институт Азербайджанской Республики
доктор философии по педагогике, доцент
E-mail: haciyev asif@mail.ru

Ключевые слова:
Азербайджанский язык, предмет, обучения, преподавание, методика, содержание, модернизация

Аннотация. Один из факторов, влияющих на качество образования в общеобразовательных школах, связан с уровнем профессионализма педагогических кадров, особенно учителей-предметников. Каждый учитель осваивает теоретико-методические основы предмета в вузах, познает его своеобразные стороны и дополнительно совершенствует свое профессиональное мастерство, работая над собой на школьном опыте. Поэтому методика преподавания предметов носит особое значение и играет важную роль в формировании знаний и умений будущих учителей. В этом подходе методика обучения азербайджанскому языку не является исключением. Его разработка в соответствии с современными требованиями с точки зрения содержания и структуры и доведение его до студентов является одной из актуальнейших педагогических проблем. Анализ показывает, что между современно школьным опытом и методикой преподавания предмета имеются определенные противоречия, и в большинстве случаев она разрабатывалась без учета специфики предмета. В статье, затрагивая эти моменты, подчеркивалась возможность актуализации темы и выдвигались соответствующие предложения.

Gənc nəslin hərtərəfli inkişafında təhsil müqayisə edilməz təsir gücünə malikdir. Məhz təhsil vasitəsilə qazanılmış tarixi təcrübə, müxtəlif elm sahələrinin nailiyyətləri yeni nəslə ötürülür, onların ümumbəşəri və milli dəyərlər əsasında sərişt-əli şəxsiyyət kimi formalaşması həyata keçirilir. Buna görə də ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq işlənilmiş "Azərbaycan Respubli¬kasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun əsaslı şəkildə yenidən qurulması prioritet vəzifə kimi qarşıya qoyulmuşdur [1, s.13]. Mövcud istiqamətlər sırasında müəllim hazırlığına ayrıca yer verildiyi diqqəti çəkir. Pedaqoji kadr hazırlığının təməli isə universitetlərdə qoyulmaqla gələcəyin müəllimi olacaq tələbələrin müvafiq ixtisaslar üzrə dərin bilik və bacarıqlara yiyələnməsini şərtləndirir. Təbii ki, həmin prosesdə fənn metodikaları önəmli rol oynayır. Bu baxımdan Azərbaycan dilinin tədrisi metodikası filoloq tələbələrin peşə hazırlığının vacib komponenti kimi, nəzəri bilikləri praktik bacarıqlarla qarşılıqlı əlaqədə mənimsətməyə və məktəb təcrübəsinə yönəltməyə xidmət edir. Lakin araşdırmalar [2; 3] və müşahidələr göstərir ki, hazırda ali məktəb proqramları ilə ümumtəhsil məktəbləri qarşısında qoyulmuş tələblər arasında müəyyən ziddiyyət mövcuddur. Bunun nəticəsidir ki, müvafiq ixtisas üzrə müəllimlik diplomu alan tələbə Təhsil Nazirliyi tərəfindən yenidən yoxlanılır, yəni müəllimlərin işə qəbulu (MİQ) üzrə imtahandan keçməli olur və əksər hallarda bu mərhələni adlamaqda çətinlik çəkir. Fikrimizcə, bu çətinliyin yaranmasının obyektiv və subyektiv amilləri vardır ki, onları aradan qaldırmadan problemin həlli yolunu tapmaq mümkün deyil. Bunlar sırasında aşağıdakıları ayrıca qeyd etmək lazım gəlir:

Birincisi, fənlərin tədrisi metodikası, o cümlədən Azərbaycan dilinin tədrisi metodikası məzmunca günün tələblərinə uyğun müasirləşdirilməmişdir. Proqram və dərsliklərin təhlili göstərir ki, təlim texnologiyalarını çıxmaq şərti ilə fənnin məzmunu keçən əsrin elmi-metodik baxışları əsasında şərh olunur.

İkincisi, tələbələrin pedaqoji təcrübəsinin təşkili və onlara ayrılan vaxt qaneedici sayıla bilməz və tamamilə yenidən qurulmalıdır.

Üçüncüsü, ixtisası tədris edən müəllimlərin peşəkarlığı əksər hallarda lazımi səviyyədə deyil.

Dördüncüsü, müəllimlərin işə qəbulu ilə bağlı Təhsil Nazirliyi tərəfindən hazırlanan proqramlar ali məktəblərdə tətbiq edilən proqramlarla tam şəkildə uyğunlaşdırılmır.

Bəs bu həlledici amilləri aradan qaldırmaq üçün çıxış yolu nədədir? Hansı yenilikləri həyata keçirməklə təlimin keyfiyyətini müəllim hazırlığına qoyulan tələblər səviyyəsinə qaldırmaq mümkündür? İlkin mülahizələrimizi Azərbaycan dili tədrisi metodikasının məzmunu ilə bağlı bölüşmək istərdik.

Mövcud reallıq odur ki, fənnin məzmununda tələbələrin peşə həyatına atılması üçün ən zəruri bilik və bacarıqlar konkret standartlar şəklində ifadəsini tapmamışdır. Məsələn, ümumtəhsil məktəbləri üçün hazırlanmış Azərbaycan dili proqram və dərslikləri haqqında tarixi məlumatlar verildiyi halda, hazırki məktəb təcrübəsində istifadə olan proqram və dərsliklər, demək olar ki, təhlilə cəlb edilmir. Əslində, təhsilin bakalavr səviyyəsində məhz müasir proqram və dərsliklər üzərində iş aparılmalı, onlarda əksini tapmış məsələlər incəliyinə qədər tələbələrə izah olunmalıdır ki, təcrübədə çətinliklərlə üzləşməsinlər. Tələbə müasir fənn kurikulumunun (proqramının) əsas anlayışları, xüsusən məzmun xətləri, əsas və alt standartlar barəsində aydın təsəvvürə malik olmalı, buradan irəli gələn fəaliyyətlərin dərsliklərdə necə ifadə olunduğunu dərk etməli və təlim prosesində hansı üsul, vasitə və alətlərlə reallaşdırılmasını mənimsəməlidir. Proqram və dərsliklərin tarixi ilə bağlı məlumatlar isə magistratura təhsili səviyyəsində tədqiqatçılıq bacarıqlarına yiyələnən tələbələr üçün nəzərdə tutulmalıdır. Bildiyimiz kimi, ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənn proqramında (kurikulumunda) bilik və bacarıqlar 4 məzmun xətti üzrə konkret fəaliyyətə yönəlmiş standartlar formasında əksini tapmışdır ki, bu da təlim prosesində əldə edilmiş nəticələrin konkret meyarlar əsasında qiymətləndirilməsinə imkan yaradır [4, s.10-32]. Burada dinləmə, danışma, oxu və yazı ilə bağlı nitqin fəaliyyət növləri üç məzmun xətti (dinləyib-anlama və danışma, oxu və yazı) və linqvistik səriştələr bir məzmun xətti (dil qaydaları) üzrə qurulmaqla təlim prosesində həyata keçiriləcək işləri istiqamətləndirir və beləliklə, qazanılması vacib olan təlim nəticələrini dəqiqliyi ilə ortaya qoyur. Buna görə də Azərbaycan dili fənn metodikası məzmun xətləri üzrə aparılması gərəkli bilinən iş prosesini əhatə etməklə tələ-

bələrdə konkret səriştələr formalaşdırmağa xidmət etməlidir. Hətta bu istiqamətdə aparılan işlər konkret bilik və fəaliyyəti əks etdirən standartlar şəklində tələbələrin diqqətinə çatdırlmalıdır ki, son nəticədə onlardan nəyin tələb olunduğunu aydın qavrasınlar. Məsələn, şagirdlərin dinləyib-anlama bacarıqlarının formalaşması məqsədilə dərs zamanı istifadə olunan dinləmə mətnlərinin seçimi, tərtibi və üzərində aparılacaq işlərin xüsusiyyətləri barəsində tələbəyə əhatəli məlumat verilməlidir. Yaxud, mövcud məktəb təcrübəsində qarşıya çıxan başlıca çətinliklər sırasında şagirdlərin düzgün oxu bacarıqlarının zəifliyi və bunun nəticəsində sürətli (rəvan) oxu, həmçinin oxuyub-anlama bacarıqlarının aşağı səviyyədə olması özünü qabarıq şəkildə göstərir. Mövcud problemi aradan qaldırmaq üçün oxu prosesinin səmərəli təşkili, şagirdlərin oxu maraqlarının artırılması məqsədilə hansı səmərəli üsul və vasitələrdən istifadə edilməsi fənn metodikasında açıqlanması tələb olunan mövzulardan biri kimi öyrədilməlidr. Bundan əlavə, təcrübə göstərir ki, şagirdlərin müxtəlif nitq situasiyalarında ünsiyyətqurma bacarıqları gözlənilən səviyyədən zəifdir. Onlar qoyulan məsələ ətrafında tərəf müqabili ilə fikir mübadiləsi aparmaqda, müzakirə mövzusu ilə bağlı konkret suallar verməkdə, yığcam, lakin məzmunlu çıxış və ya təqdimat hazırlamaqda çətinlik çəkirlər. Bu tipli çətinliklərin aradan qaldırılması üçün müəllim dərsi necə qurmalı, hansı təlim üsullarından, vasitələrdən istifadə etməlidir? Məhz fənn metodikası bu suallara cavab verməkdə tələbələrə yol göstərməlidir.

Digər bir məsələ şagirdlərdə yazılı nitq bacarıqlarının formalaşdırlması ilə bağlıdır. Əslində, yazılı nitq dinləyib-anlama, danışma və oxu bacarıqlarının hansı səviyyədə formalaşdırılmasından daha çox asılıdır. Professor B.Əhmədov vaxtilə bu əlaqəni incəliyinə qədər araşdıraraq şifahi nitqdən yazılı nitqə keçidi təlim prosesinin ən zəruri həlqəsi sayırdı [5, s.58]. Bu keçidin necə həyata keçirilməsinin səmərəli yolları barəsində tələbələrdə aydın təsəvvür yaratmaq üçün fənn metodikasında yazının növləri, üzərində iş aparılacaq mövzuların seçimi, qiymətləndirlmə vasitələrini əhatə edən məsələlər açıqlanmalıdır. Yazı işləri şagirdlərin yalnız dinlədikləri, oxuduqları və gördükləri haqqında düşüncələrini, hiss və duyğularını deyil, həm də konkret sinif səviyyəsində inkişafını müəyyənləşdirməyə imkan yaradan əsas qiymətləndirmə vasitələrindəndir. Ona görə də diqqəti ifadə və inşa kimi nümunələrdən daha çox, müasir məktəb təcrübəsində geniş tətbiq edilən esse, layihə kimi yazı növlərinə ayırmaq lazımdır.

Dilin linqvistik əsaslarının tədrisi ilə bağlı mövzular da yeni baxış bucağında şərh olunmalı məsələlərdəndir. Məlumdur ki, ənənəvi proqramlar xətti prinsip əsasında dil qaydalarının sistematik ardıcıllığı, yəni fonetikadan başlayıb, leksika, söz yaradıcılığı, morfologiya və sintaksis bölmələri üzrə verilən bilik və bacarıqlar üzrə qurulmuşdu. Ona görə də Azərbaycan dilinin tədrisi metodikasında bu bölmələr üzrə təşkil olunan mövzuların şərhi aparıcı mövqe tuturdu. Hazırda isə məsələnin qoyuluşu kökündən dəyişmiş, mədəni nitq vərdişlərinin formalaşmasında mühüm rol oynayan ən zəruri dil qaydaları müxtəlif sinif səviyyələri üzrə sadədən mürəkkəbə doğru fəndaxili şaquli inteqrasiya yolu ilə şagirdlərə mənimsədilir. Belə olan halda bilik və bacarıqların hansı həcmdə və nə zaman öyrədilməsi problem olaraq üzə çıxır. Ona görə də bu iş şəxsi müşahidələr əsasında qurulmuş subyektiv yanaşma yolu ilə deyil, özünü doğrultmuş elmi-metodik baxışlara istinadən həyata keçirilməlidir. Məsələn, feilin təsir kateqoriyasını izah etmədən onun məna növləri haqqında şagirdlərdə yetərli bilik və bacarıqlar formalaşdırmaq müəyyən çətinlik yaradan faktlardandır. Hazırki məktəb dərsliklərində təsirli və təsirsiz feillər anlayışı üzərindən sükutla keçilir. Bəs mövcud problemi necə aradan qaldırmaq olar? Müəllim praktik nitq bacarıqlarının inkişaf etdirilməsi üçün dərsliyəmi, yoxsa fənn proqramında (kurikulumunda) əksini tapmış konkret alt standarta istinad etməlidir? Bu kimi mübahisəli məqamlar fənn metodikasında ətraflı şərh olunarsa, tələbələrin gələcəyin yaradıcı müəllimi kimi yetişməsinə zəmin yaradılar.

Şərh edilən prizmadan yanaşdıqda üzərində ayrıca dayanılası mövzularından biri fənnin tədrisi vasitəsilə şagirdlərə aşılanacaq səriştələrin (kompetensiyaların) səciyyələndirilməsi ilə bağlıdır. Tələbə kommunikativ, dil və linqivistik səriştələri xarakterizə edən xüsusiyyətləri dərindən mənimsəməli və praktik baxımdan necə inkişaf etdirilməsi yollarını aydın təsəvvür etməlidir ki, məktəb təcrübəsində gözlənilən hədəfə çata bilsin.

Bütün bunlar deməyə əsas verir ki, fənnin tədrisi metodikası məzmun, strategiya və qiymətləndirmə kimi bir-birini tamamlayan məsələlər üzə-

rində qurulmalı olsa da, onlar ayrı-ayrı bölmələr kimi deyil, məzmun xətlərini özündə ehtiva edən bölmələr şəklində qruplaşdırılmalıdır. Başqa sözlə, dinləmə, danışma, oxu, yazı və dil qaydalarının məzmunca açıqlanması, bu zaman görüləcək işlərin mahiyyəti tətbiq olunan səmərəli metodlarla və qiymətləndirilmə vasitələri ilə əlaqələndirilərək bir sistem daxilində keçilməlidir ki, tələbə bilik-bacarıqların ümumi mənzərəsini duyub anlaya bilsin.

Digər mühüm məsələ mühazirə və seminar dərslərin təşkili ilə bağlıdır. Gerçəklik tələb edir ki, mühazirə dərsləri müasir təlim texnologiyalarından istifadə edilmədən aparılarsa, tələbələri maraqlandırmaq, onların diqqətini keçilən mövzuya cəlb etmək mühaziraçi üçün müəyyən problemlər yaradır. Odur ki mövzunun adını, məqsəd və qarşıya qoyulan vəzifələrini, tezis halına salınmış məzmununu, həmçinin ümumiləşmiş konkret nəticələrini özündə əks etdirən slaydlar hazırlanmalıdır ki, təlim prosesində mühaziraçi müəllim ilə tələbələr arasında qarşılıqlı anlama mühiti yaradılsın. Seminar dərsləri isə sorğu formasında deyil, keçilən mövzu ilə əlaqədar olan dərs nümunlərinin videogörüntüsünün müzakirəsi, disput formasında müxtəlif yanaşmaların təhlili, mövzuya aid hazırlanmış təqdimatların dinlənilməsi şəklində aparılmalıdır. Təlimin tələbələrin idraki fəallığı üzərində qurulması fənnə olan maraqlarının, peşəkar müəllim kimi hazırlanmasının ilkin şərtlərindəndir. Aydındır ki, yeni təlim forma və üsulları həm mühazirə və seminar müəllimlərini, həm də tələbələri axtarış aparmağa, özləri üzərində işləməyə sövq edir.

Fənnin qarşısında duran məsələlərin optimal həlli tələbələrin pedaqoji təcrübəsinin keyfiyyətinə təsir göstərən vacib amillərdəndir. Bununla bərabər, pedaqoji təcrübənin müddəti, harada keçilməsi, hansı fənn müəllimlərinə təhkim olunması yolu ilə təşkili də önəmli faktorlardadır. Təhsil sistemi inkişaf etmiş Avropa ölkələrinin təcrübəsi göstərir ki, tələbələrin fənn müəllimi kimi hazırlanmasında pedaqoji təcrübənin keçilmə müddəti xüsusi yer tutur. Əksər ölkələrdə bu müddət sonuncu kursu bütünlüklə əhatə edir. Bəzən tələbə pedaqoji təcrübəni müəllim köməkçisi vəzifəsi yerinə yetirməklə keçir. Fikrimizcə, bu yanaşmanı ölkəmizdə tətbiqi "Məktəbin dostu" layihəsini əvəz etməklə daha uğurlu nəticələr qazanmağa şərait yaradar.

Ali məktəblərdə fənn metodikalarının yeni, yaxud təkmilləşdirilmiş məzmunda təşkili tələbələrin işə qəbul olunma məqsədilə əlavə tədris kurslarından keçməsini də aradan qaldırmış olar. Burada ziddiyyət doğuran bir məsələyə toxunmaq istərdik. Təhli göstərir ki, müəllimlərin işə qəbulu üçün tərtib olunmuş sualların bir çoxu müxtəlif təlim nəzəriyyələri ilə bağlıdır. Həmin nəzəriyyələr və onların müəllifləri haqqında məlumatlar isə çox zaman nə ali məktəb proqramlarında əksini tapır, nə də mövcud məktəb təcrübəsində tətbiq edilir. Ən yaxşı halda, yalnız bəzi dissertasiya və tədqiqat işlərində həmin nəzəriyyələr barəsində yığcam məlumata rast gəlmək mümkündür. Təəccüb doğuran digər cəhət budur ki, həmin nəzəriyyələri əks etdirən heç bir əsər dilimizə tərcümə edilməmişdir. Belə olduğu təqdirdə müvafiq sualların imtahanlara salınması kimə və nəyə xidmət edir? Azərbaycan dilinin tədris metodikası elminin formalaşmasında xüsusi mərhələ təşkil edən metodist alimlərimizin, məsələn, Ə.Əfəndizadə, B.Əhmədov və başqalarının elmi baxışları isə diqqətdən kənarda qalır. Araşdırma və müşahidələrimiz isə göstərir ki, mövcud məktəb təcrübəsində qarşıya çıxan bir çox məsələlər həmin alimlərin mülahizələrinə istinad edilməklə həll edilə bilər. Fənnin məzmunu ilə bağlı mühüm məsələlər, o cümlədən düzgün yazı, mədəni nitq, linqvistik təhlil vərdişlərinin formalaşdırılması və digər metodik problemlər məhz bu kimi alimlərimizin hələ öz əhəmiyyətini saxlamış baxışları əsasında izah olunmalıdır. Təbii ki, dil təlimi ilə bağlı özünü doğrultmuş və qabaqcıl təhsil sistemlərində tətbiq edilən təlim nəzəriyyələri ilə tanışlıq da müasir müəllimlər üçün əhəmiyyətlidir. Amma bu nəzəriyyələrlə tələbə təlim kurslarında deyil, ali məktəb kursunda tanış olmalı, təcrübədə hansı səmərəli nəticələr verdiyini dərk etməldir.

Azərbaycan dilinin tədrisi metodikası daimi axtarışda, yeniləşmədə elm sahələrindəndir. Onun məzmun və struktur baxımından müasir tələblərə uyğun işlənilməsi, gələcəyin müəllimi olacaq tələbələrə dərindən mənimsədilməsi ümumi təhsil müəssisələrində təlimin keyfiyyətinə təsir göstərən mühüm göstəricilərdəndir. Yadda saxlamaq lazımdır ki, bu təkcə metodik problem olmayıb, həm də ana dilimizin saflığının qorunması, yetişən gənc nəslin doğma dilə marağının daha da artırılması ilə bağlı milli məsələdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, -2013, №5, - s. 6-17.
2. Hacıyev, A. Fənn metodikalarının ilkin müəllim hazırlığında rolu və onların təkmilləşdirilmə imkanları // “Pedaqoji kadr hazırlığı: problemlər, vəzifələr” mövzusunda beynəlxalq simpoziumun materialları. - Naxçıvan, - 2009, - s.103-107.
3. Hacıyev, A. Fənn metodikalarının təkmilləşdirilməsi ali məktəblərdə müəllim hazırlığının mühüm şərti kimi // Müəllim hazırlığına yeni yanaşmalar. - Bakı: Mütərcim, - 2012, - s.32-49.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). - Bakı, - 2015.
5. Əhmədov, B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metod¬ları. Təkrar nəşr/ B.Əhmədov, - Bakı: Mütərcim, - 2007.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 137-139
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 137-139
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с.137-139

UOT

Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin emosional intellektinin inkişaf etditilməsinin aktual məsələləri

Müəllif:

Çapay Quliyev
Naxçıvan Müəllimlər İnstitutu
Psixologiya üzrə
fəlsəfə doktoru
E-mail: chapay1981.cq@gmail.com

Açar sözlər:
emosional intellekt, müəllim, tələbə, pedaqoji

Annotasiya. Məqalədə pedaqoji ixtisaslarda təhsil alan tələbələrin emosional intellektinin inkişaf etdirilməsinin aktual məsələlərinə toxunulmuş, qeyd olunmuşdur ki, digər peşələrdən fərqli olaraq pedaqoji peşə sahiblərinin yalnız özlərinin uğur qazanması, uğurlu kariyeraya sahib olması məsələni həll etmir. Çünki, pedaqoji işlə məşğul olan hər bir mütəxəssisin gələcəkdə uğurlu kariyera qura biləcək yeni nəslin formalaşdırılması məsuliyyəti və vəzifəsi var. Pedaqoji işlə məşğul olan hər bir mütəxəss həm özünün həm də təlim və tərbiyəsi ilə məşğul olduğu şagirdlərin gələcək uğurlu fəaliyytini təmin edəcək emosional intellektin formalaşdırılması və inkişaf edirilməsinin psixopedaqoji əsaslarını bilməlidir. Bu baxımdan məqalədə gələcək müəllimlərə emosional intellekti formalaşdırmağın əsas istiqamətləri haqqında biliklər də öz əksini tapır.

Current issues of development of emotional intelligence of students educated ın pedagogical specializations

Author:

Chapay Guliyev
Nakhchivan Teachers Institute
PhD in Psychology
E-mail: chapay1981.cq@gmail.com

Key word:
emotional intelligence, teacher, student, pedagogy

Abstract. The article touched upon the actual issues of developing the emotional intelligence of students studying in pedagogical specialties, and it was noted that, unlike other professions, the fact that pedagogical professionals only succeed and have a successful career does not solve the problem. Because every specialist engaged in pedagogical work has the responsibility and duty of forming a new generation that can build a successful career in the future. Each specialist engaged in pedagogical work should know the psychopedagogical foundations of the formation and development of emotional intelligence, which will ensure the future successful activity of both himself and the students he is teaching and educating. From this point of view, the article also reflects the knowledge about the main directions of forming emotional intelligence to future teachers.

Актуальные вопросы развития эмоционального интеллекта студентов педагогических специальностей

Автор:

Чапай Гулиев
Нахчыванский институт учителей
Доктор философии по психологии
E-mail: chapay1981.cq@gmail.com

Ключевые слова:
эмоциональный интеллект, учитель, ученик, педагогика

Аннотация. В статье затронуты актуальные вопросы развития эмоционального интеллекта студентов, обучающихся по педагогическим специальностям, отмечено, что в отличие от других профессий, люди педагогических профессий не решают вопрос о том, чтобы только они сами добивались успеха, имели успешную карьеру. Потому что каждый профессионал, занимающийся педагогической работой, несет ответственность за формирование нового поколения, которое сможет построить успешную карьеру в будущем. Каждый специалист, занимающийся педагогической работой, должен знать психопедагогические основы формирования и развития эмоционального интеллекта, которые обеспечат дальнейшую успешную деятельность как его самого, так и учащихся, обучением и воспитанием которых он занимается. В связи с этим в статье отражаются и знания будущих педагогов об основных направлениях формирования эмоционального интеллекта.

Məqalənin aktuallığı: Müasir psixologiya elmində emosional intellekt şəxsiyyətin uğurlu inkişafının əsas amillərindən biri kimi tədqiq edilir. Tədqiqatçılar intellektual intellektdən fərqli olaraq emosional intellektə sahib insanların daha uğurlu olduğunu əsaslandırırlar. Müxtəlif peşə sahiblərinin uğurlu kariyerasının əsasında məhz intellektual intellektlə yanaşı emosional intellektin bir faktor kimi dayandığı danılmazdır və emosional intellektin formalaşdırılması, inkişaf etdirilməsi istiqamətində çoxlu elmi-psixoloji tədqiqatlar mövcuddur.

Emosional intellek anlayışının öyrənilməsi aktual məsələ kimi müxtəlif psixoloqların tədqiqat marağını cəlb etmişdir.

"Emosional intellekti həyat situasiyaları əsasında müxtəlif təcrübələr əsasında inkişaf etdirilə bilən qabiliyyət kimi tədqiqata cəlb edən Daniel Qoulmen bu sahəyə aid 5 əsas qabiliyyəti qeyd etmişdir.

1. Özünü anlama
2. Emosiyaları idarəetmə
3. Özünü təhriketmə (motivasiya)
4. Başqalarının emosiyalarını anlama (empatiya)
5. Sosial bacarıqlar (davranış və münasibətləri idarəetmə üsullarını müəyyənləşdirmək)

Daniel Qoulmen bu qabiliyyətlərin vəhdətdə formalaşması və inkişafını şəxsiyyətin uğurlu kariyerasının əsasında görür" [4].

"Emosional intellek sahəsində tədqiqat aparan digər bir tədqiqatçı alim M.A.Manoylova emosional intellekti insanın özünün və başqalarının emosiya və hislərini anlama, dərk etmə və nəzarət edə bilmə qabiliyyəti kimi dəyərləndirir və emosional intellekt psixi inkişafın tamlığını və inteqrativliyini əks etdirir. M.A.Manoylovanın fikrincə emosional intellekt iki əsas aspektdə baş verir:

1. Şəxsiyyətdaxili aspekt;
2. Şəxsiyyətlərarası və ya sosial aspekt (özünü və ya şəxsiyyətlərarası münasibətləri idarə edə bilmək qabiliyyəti)" [6, s.17].

Lakin digər peşələrdən fərqli olaraq pedaqoji peşə sahiblərinin yalnız özlərinin uğur qazanması, uğurlu kariyeraya sahib olması məsələni həll etmir. Çünki, pedaqoji işlə məşğul olan hər bir mütəxəssisin gələcəkdə uğurlu kariyera qura biləcək yeni nəslin formalaşdırılması məsuliyyəti və vəzifəsi var.

Deməli pedaqoji işlə məşğul olan hər bir mütəxəssisin gələcəkdə emosional intellektin formalaşdırılması və inkişaf etdirilməsi probleminə iki aspektdən yanaşması aktuallıq kəsb edir.

1. Özünün bir peşəkar kadr olaraq uğurlu fəaliyyətini təmin edəcək emosional intellektə sahib olmaq.

2. Məsuliyyətində olan tərbiyə etdiyi şagirdlərin gələcək uğurlu fəaliyyətini təmin edəcək emosional intellektin formalaşdırılması və inkişaf edirilməsinin psixopedaqoji əsaslarını bilmək, dərk etmək və tətbiq etmək.

Bu baxımdan pedaqoji kadr hazırlığı həyata keçirən ali təhsil müəassisələrində tələbələrə emosional intellektin inkişaf etdirilməsinin elmi əsasları ilə yanaşı onun foralaşdırılması və inkişaf etdirilməsinin psixopedaqoji əsasları sahəsində bilik və bacarıqlar formalaşdırmaq olduqca zəruridir.

Bu əsasda təlim prosesində gələcək müəllimlərə aşağıdakı istiqamətlərdə biliklər vermək zəruridir.

- şəxsi nümunə əsasında emosional intellektin formalaşmasına müsbət təsir göstərmək;
- emosional intellekt haqqında bilikləri özündə əks etdirən təlim blokları hazırlamaq və onlardan yaradıcı şəkildə istifadə etmək;
- emosional intellektin əsas qabiliyyətlərindən biri olan empati qurmaq bacarıqlarını inkişaf etdirmək məqsədilə emosional mühit şəraiti yaratmaq;
- müxtəlif situasiyalar şəraitində şagirdlərin özünü anlaması, öz emosiyalarını idarə etmə bacarıqlarını formalaşdırmağı təlimin bir parçası halına gətirmək;
- dərsliklərdə bu əsasda olan mövzulardan yaradıcı istifadə etmək, onları səhnələşdirməklə müxtəlif situativ prosesləri əyani olaraq yaşamalarına zəmin yaratmaq;
- şagirdlərə sinifin təşkili və idarə olunmasında maksimum imkanlar yaratmaqla onları müxtəlif vəzifələrini icrasında emosional təsir şəraitində özlərini anlamalarına köməklik göstərmək;
- öz emosiyalarının və başqalarının emosiyalarını idarə etməyin əhəmiyyətini şagirdlərarası münasibətlərdə əyani olaraq göstərməyə çalışmaq;
- uğurlu şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən filmlər nümayiş etdirmək;
- uğurun açarının yalnız intellektual intellektdə deyil həmçinin emosional intellektdə olduğunu müqayisəli şəkildə göstərməyə müvəffəq

olmaq.

Fikrimizcə pedaqoji ixtisaslarda təhsil alan tələbələrə, gələcəyin müəllimlərinə qeyd edilən istiqamətdə biliklərin verilməsi, onların icrasının gələcək şəxsiyyətlərin formalaşdırılmasında əhəmiyyətinin açılması və bu biliklərlə praktiki şəkildə bilgiləndirilməsi emosional intellektin sağlam psixopedaqoji əsaslar üzərində formalaşdırılmasına zəmin yaradacaq.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə Psixologiya (dərslik). Bakı: Çinar–Çap, 2002, 620 s.
2. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s
3. Əlizadə Ə.Ə. Əlizadə H.Ə. Pedaqoji psixologiya. Dərslik. Bakı: ADPU, 2010, 600 s.
4. Гоулман Д. Эмоциональное ли- дерство. Искусство управления людьми на основе эмоциональ- ного интеллекта / Д Бизнес Букс, 2005. – С. 304 с.
5. Гоулман Д. Эмоциональный ин- теллект / Д. Гоулман. – АСТ Мос- ква, 2009. – С. 478 с.
6. Манойлова М.А. Акмеологичес- кое развитие эмоционального интеллекта учителей и учащихся – Псков: ПГПИ, 2004. – 140 с.
7. Манойлова, М.А. Развитие эмоционального интеллекта будущих педагогов / М.А. Манойлова. – Псков: ПГПИ, 2004. – 60 с.
8. Манойлова, М.А. Исследование эмоционального интеллекта пе- дагога/ М.А. Манойлова // Пед. диагностика: науч.-практ. журнал.- 2006. – № 6.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 140-144
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 140-144
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 140-144

UOT

Müdriklik milli-mənəvi dəyərlərimizdən biri kimi

Müəllif:

Gülarə Kərimova
Bakı Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: mansur.manerov@mail.ru

Açar sözlər:
müdriklik, şagird, igidlik, məktəb, dəyər, tarix, milli-mənəvi, görkəmli şəxsiyyətlər, ədəbiyyat, dərslik

Annotasiya. Məqalədə Azərbaycan xalqının müdiriklik dəyərlərindən, onun tarixindən, görkəmli şəxsiyyətlərin müdrik siyasətlərinin bəhs olunur. Orta məktəbin V-IX siniflərində tədris olunan ədəbiyyat və Azərbaycan tarixi dərslikləri problem baxımından araşdırılmış, imkanları üzə çıxarılmışdır. Tədqiqata cəlb olunan məktəblərdə müdiriklik milli-mənəvi dəyərlərin aşılanması yolları göstərilmişdir.

Author:

Gulara Karimova
Baku State University
Doctor of philosophy in pedagogy, associate professor
E-mail: mansur.manerov@mail.ru

Wisdom as one of our national-moral values

Key word:
wisdom, student, bravery, school, value, history, national-spiritual, outstanding personalities, literature, textbook

Abstract. The article talks about leadership values of the Azerbaijani people, its history, and wise policies of prominent personalities. Literature and Azerbaijani history textbooks taught in the V-IX grades of secondary school were examined from the point of view of problems, and their possibilities were revealed. Ways of inculcating the national-moral values of leadership in the schools involved in the research have been shown.

Автор:

Гулара Каримова
Бакинский государственный университет
доктор философии по педагогике, доцент
E-mail: mansur.manerov@mail.ru

Мудрость как одна из наших национально-нравственных ценностей

Ключевые слова:
мудрость, ученик, отвага, школа, ценность, история, национально-духовное, выдающиеся личности, литература, учебник

Аннотация. В статье рассказывается о лидерских ценностях азербайджанского народа, его истории, мудрой политике выдающихся личностей. Учебники по литературе и истории Азербайджана, преподаваемые в V-IX классах средней школы, были рассмотрены с проблемной точки зрения, выявлены их возможности. Показаны пути привития национально-нравственных ценностей лидерства в школах, участвующих в исследовании.

Azərbaycan xalqı uzun illərin çətinliklərindən sonra öz arzusuna çatması onun apardığı məqsədyönlü işin nəticəsidir. Bu sırada torpaqlarımızın düşmən caynağından azad edilməsi, milli qürurun vüsət alması, milli mentalitetin, milli-mənəvi dəyərlərin əxlaqımızda aparıcı qüvvəyə çevrilməsi, daim inkişaf etməyə hazırlanan şəxsiyyət tərbiyəsi önəmli yer tutur. Milli-mənəvi dəyərlərimizin tarixi böyükdür. Onların əksəriyyəti qədim dövrlərdən və orta əsrlərdən bəri xalqın mentalitetində kök salmışdır. Azərbaycan xalqının mənəvi dəyərlərinin dünyəviliyi, dinamikliyi, demokratikliyi, humanistliyi, xəlqiliyi tükənməzdir. Mənəvi dəyərlər tərbiyə prosesində ötürülür, formalaşır və inkişaf edir. Bu prosesdə müdriklik də özünü təzahür etdirir. Azərbaycan xalqı müdrik xalqdır. Bu müdriklik ona elindən-obasından gəlmişdir. Ona görə də tarixə Azərbaycan xalqı müdriklik simvolu kimi daxil olmuşdur. Tomris ana, Cavanşir, Babək, I Fəzl, Arp Aslan, Məlik şah, Atabəy Şəmsəddin Eldəgiz, Cahan pəhləvan, Şirvanşah Axsitan, III Maniçohr, Qara Yusif, Uzun Həsən, onun anası Sara xatun, I Şah İsmayıl, Şirvanşah I İbrahim, I Xəlilullah, İbrahim Xəlil xan, Qubalı Fətəli xan, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, N.Nərimanov, M.P. Vaqif, C.Məmmədquluzadə, Heydər Əliyev və minlərlə şəxsiyyətlər tariximizin yaddaşına müdriklik kimi daxil olmuşdur. Aparılan araşdırma və təhlillər göstərir ki, yeniyetmələri müdriklik dəyərləri əsasında tərbiyə etmək üçün V-IX siniflərin Azərbaycan tarixi və ədəbiyyatı dərsliklərində kifayət qədər mətnlər vardır. Tədqiqat üçün müşahidə, müsahibə, anket, eksperiment metodlarından istifadə etməyi məqsədəuyğun hesab etmişik. Azərbaycan xalqının milli-mentalitetindən gələn bu dəyəri şagirdlərə aşılamaq üçün Azərbaycan tarixi dərsliyində verilmiş "Cavanşir" (V sinif), "Atropatena dövlətinin yaranması" (VI sinif), "Girdiman dövləti" (VII sinif), "Monqolların Azərbaycana birinci yürüşü" (VIII sinif), "Azərbaycan xanlıqları" (IX sinif) müdriklik milli-mənəvi dəyərindən soraq verən mətnlərdəndir. Dərsliklərdə verilənlərə nəzər salaq: qeyd olunan mətnlərdən Atropatin Fateh Makedoniyalı İskəndərin hörmətini və etimadını qazanmaq üçün Bariaksin üsyanını dayandırmasını, hətta sevimli qızını İskəndərin seçilən sərkərdəsi Perdikkiyə ərə verməsini, xəzərlilərin Albaniyaya hücumlarına sona yetirmək və onları dağıntılardan xilas etmək üçün Cavanşirin Xəzər xaqanının qızı ilə ailə qurmasını, Albaniyanın müstəqilliyini qoruyub saxlamaq üçün VII əsrin 60-cı illərinin sonlarında xəlifə ilə görüşmək üçün Şam şəhərinə getməsini, Azərbaycana monqolların ilk yürüşü zamanı Təbriz şəhərini dağıdılıb yandırılmaqdan xilas etmək üçün şəhərin hakimi Şəmsəddin Tuğrayının monqollara pal-paltar, mal-qara, pul və s. verməsini nümunə kimi göstərmək müdriklik dəyərlərinin şagirdlərə aşılanmasını asanlaşdıra bilir.

Müdriklik mənəvi dəyərlərindən danışarkən Ağqoyunlu dövlətinin başçısı Uzun Həsəndən nümunələr gətirmək, anası Sara Xatunun atdığı müdrik addımlarından bəhs etmək problem baxımdan çox əhəmiyyətlidir. Tarixdən bəlli olur ki, Uzun Həsənin anası Sara Xatun əsl müdriklik simvoludur. Həyat yoldaşı Əli bəyin ölümündən sonra sarayda olan çəkişmələr məhz onun sayəsində aradan qaldırılmışdır. O, dövrünün tanınmış dövlət başçıları ilə danışıqlar aparır, xaricdən gələn ölkə elçiləri ilə görüşməkdən qaçmırdı. Uzun Həsən olan Osmanlı sultanı Fateh II Mehmetlə Sara Xatunu danışıqlara göndərməsi, Sara Xatunla II Mehmetin qarşılıqlı hörmət yarada bilməsi, ana-oğul münasibətləri qurması. Məhz bunların nəticəsində Osmanlı Türkiyə ilə Ağqoyunlular arasında müqaviləyə imza atılması müdriklik dəyərlərindən soraq verir. Şərqdə diplomat, müdrik qadın kimi tanınan Sara Xatunun uzaqgörənliyi, cəsarətliliyi sayəsində iki qardaş türk dövləti arasında hökm sürən qanlı döyüşün qarşısı alınmışdır. Dərslikdə Azərbaycan xalqının müdriklik ənənələrindən soraq verən mətnlərdən biri olan Şirvanşah I İbrahim Xəlilullahın görüşlərinə həsr olunan mövzulardır. 35 illik dövlət xadimi Şirvanşah İbrahim müdrikliyin bariz nümunəsidir.

Şeyx İbrahim hakimiyyətdə olan vaxtlarda Şirvan müxtəlif istiqamətlərdən gələn iki qorxulu təhlükəyə məruz qalmışdır. Cənubdan Əmir Teymur, Şimaldan Qızıl Orda xanı Toxtamış qorxu yaratmış və onların hücum edə biləcəkləri gözlənilirdi. Şeyx İbrahim hər iki hücumla bağlı düşünərək qərar verməli oldu. İbrahim fikirləşdi ki, bunlar arasında ziddiyyətlər vardır. O, bilirdi ki, Toxtamış ərazinin yaxınlığındadır. Əgər o, Şirvanı tutsa Şirvanşahlar hakimiyyətinin sonu olacaq və bu zaman onu ölkədən çıxarmaqda çətinlik çəkəcəkdir. Əmir Teymur isə çox uzaqdan gəlir, bu da onun hakimiyyətinin uzun sürə biləcəyini

şübhə altına alır. Bu baxımdan da Şeyx İbrahim Əmir Teymuru seçməyi məqbul sayırdı. Elə buna görə də qiymətli hədiyyələr götürüb Teymur Qarabağda olarkən onun yanına getməli oldu. Hədiyyələri götürən Əmir Teymur “Bəs qullar nə üçün səkkizdir?” -dedikdə İbrahim tez cavab vermişdir “doqquzuncu qul mənəm”, – demişdir. Ətrafımda beş-on nəfər belə ağılda olsaydı, onda bütün dünya mənim olardı, - dedi. Bununla da I İbrahim torpaqlarını dağıntılardan, qarət olunmaqdan qurtara bilmişdir. Bundan sonra o ərazisini genişləndirə bilmişdir.

Müdriklik dəyərləri tariximizin hər ilində özünü təcəssüm etdirə bilmişdir. Tarix onları dərsliklərə, kitablara, yazılı mənbələrə köçürmüşdü. Əgər belə olmasa idi bu gün böyüyən nəsil ondan ibrət dərsi almazdı. Fikrimizi IX sinifdə tədris olunan “Azərbaycan xanlıqları” mövzusu təsdiq edir. Mətndə göstərilir ki, XVIII əsrin ortalarında Kaxetiya çarı II İrakli Qarabağ xanı Pənahəli xanla Şəki xanı Çələbi xana qarşı çıxaraq ittifaq qurur. Çünki Şəki xanı Çələbi xan II İraklini məğlub etmişdir. Bu ittifaqa Qarabağ xanı Kazım xan, Naxçıvan xanı Heydərqulu xan, Gəncə xanı Şahverdi xan, İrəvan xanı Hüseynəli xan da qoşuldular. Xanlar bir yerə yığılıb İrakli ilə Gəncəyə gedib Qızılqaya məkanında yerləşdilər. II İrakli xəyanət edərək xanların üzərinə qoşun yeridib onları əsir tutur. Bununla o, xanları özündən asılı vəziyyətə salmaq niyyətində olur. Bu xəyanət xəbərini eşidən Hacı Çələbi Kür çayının sol sahilində özünə mövqe tutur və əsir olan xanları azad etmək fikrində olur. Yaxınlarının məsləhətini dinləməyərək Kürü keçərək Nizaminin qəbrinə yaxın olan yerdə İraklinin qoşunlarını darmadağın edib xanları əsirlikdən qurtarır.

Tariximizdə Çələbi xanın müdriklik nümunəsi xalq pedaqogikasından belə fikri gündəmə gətirir: “Yaxşılığa pislik etmək hər kişinin işidir. Pisliyə yaxşılıq etmək nər kişinin işidir”, “İgid odur atdan düşə atdana, igid odur hər əzaba qatdana”.

Azərbaycan xalqının müdriklik dəyərlərindən soraq verən hadisələrdən biri də Rusiya, İran və Türkiyəyə münasibətdə siyasi addımlar atmaq istəyən xanlıqların öz müstəqilliklərini qorumaq üçün birləşmələri idi. Belə ki, Şəki, Qarabağ və Quba xanları Rusiya hücumlarının qarşısını almaq üçün 1785-ci ildə İstanbula elçilər göndərmişdilər. Qubalı Fətəli xan isə öz müstəqilliyini qorumaq, İran hücumlarının qarşısını almaq, Azərbaycan torpaqlarını birləşdirmək üçün Rusiyaya meyl göstərməyi vacib bilmişdir. Bu Fətəli xanın müdriklik addımı kimi dəyərləndirilə bilər. Dərslikdə müdriklik simvolu olan mətnlər çoxdur. Onları qruplaşdırıb nizama salmaq o qədər də asan məsələ deyildir. Çünki bu tariximizi dərindən mənimsəmək imkanını ortaya qoyur. Çünki müdrikliyin çalarları çoxdur, bunu yalnız dərin elmi biliyə malik olduqdan sonra üzə çıxarmaq olar.

Azərbaycan zəngin tarixi abidələrə malikdir. Onların yaradıcıları, qurucuları vardır. Onların ərsəyə gəlməsi müdriklik dəyərlərinin bəhrəsidir. Xalqımızın bəşər tarixinə verdiyi ən böyük töhfələrdən biri milli-mədəni abidələri qorumaq və onu saxlamağı bacarmaqdır. V-IX siniflərin “Azərbaycan tarixi” dərsliklərində verilmiş zənginliyi, quruluşu ilə bir-birindən fərqlənən tarixi abidələr haqda məlumatlar çoxluq təşkil edir. Sözügedən sinif şagirdlərinin tariximizin yaradıcıları, qurumları, abidələri haqda fikirlərini öyrənmək üçün onlara müraciət etdik. Sorğuların bəzilərinə diqqət yetirək:

- Azərbaycan nə üçün abidələr diyarı kimi də xarakterizə olunur?
- Hansı tarixi abidələrimiz var və onları tanıyırsınız?
- Hansı tarixi şəxsiyyətləri tanıyırsınız və onların müdrikliyini necə izah edərsiniz?
- Hansı mədəni-tarixi abidəmiz düşmənlərimiz tərəfindən dağıdılmışdır?
- Sizcə, onların bərpasına çalışan şəxsləri müdrik insanlar sırasına daxil etmək olarmı?

Suallara alınan cavablar qənaətbəxş olduğundan deyə bilərik ki, məktəblərimizdə çalışan elə müəllimlərimiz vardır ki, onlar uşaqlara vətəni tanıtmaqla, sevdirməklə, tariximizi öyrənməklə, yaratmaqla tərbiyə etmək bacarığı ilə müdriklik zirvəsinə yüksələ bilmişlər. Müəllimlərimizin tədris prosesində xalqımızın müdrikliyinin bəhrəsi və nümunəsi olan Qız qalası, Mömünəxatun məqbərəsi, I Şirvanşahlar sarayı, Şəki Xan sarayı və s. haqda verdiyi məlumatlar xalqın müdrikliyindən soraq verir. XII yüzillikdə ehtimala görə tikilən Qız qalası Məsud Davud oğlunun sənət əsəridir. Məqbərə müdafiə məqsədi ilə tikildiyindən onun divarının qalınlığı 5m, hündürlüyü isə 28 metrdir. O, qaya üzərində tikilmişdir. Orada 200-300 nəfər döyüşçü müdafiə olmaq imkanına malikdir. Azərbaycanın müdafiəsi üçün tikilən abidələr içərisində Qız qalası bənzərsizdir. Şirvanşahların ən möhtəşəm və möhkəm

abidələrindən olan Qız qalası hələ də qorunub saxlanmaqdadır. Azərbaycanın möhtəşəm, incə kompozisiyalı türbələri də müdrik xalqın müdrik oğullarının sənət əsərləridir. Bu sıraya Atabəy günbəzi kimi yaşayan Mömünə Xatun türbəsi, Bakıda olan Şirvanşahlar kompleksi, Şəki xan sarayı və.s daxildir. Müdrik insanları təbiidir ki, müdrik xalq yetirə bilər. Müdrik Azərbaycan xalqı bəşəriyyətə minlərlə şairlər, yazıçılar, elm adamları, filosoflar, bəstəkarlar və s. bəxş edə bilmişdir. Dövlət xadimlərindən olan Şəmsəddin Eldəgiz, Şirvanşah I İbrahim Qara Yusif, Uzun Həsən, I Şah İsmayıl, Məmməd Əmin Rəsulzadə, Ə.Topçubaşov, Heydər Əliyev vətən üçün, el üçün, onun övladları üçün gördükləri işlərin sayəsində bu zirvəyə yüksələ bilmişlər. Fikrimizcə V-IX sinif müəllimləri Azərbaycan tarixi dərsliklərinin müvafiq bölmələrində verilmiş mədəniyyətimizlə bağlı mövzuları tədris edərkən xalqımızın müdriklik dəyərlərini daim onlara xatırlatmalıdır. Şagirdləri düşündürə biləcək:

- Müdriklik xalqa nəyi bəxş etmişdir?

- Müdriklik xalqın böyüklüyünün həm də təzahür formasıdır?, – deyəndə nəyi xatırlaya bilərsiniz?

- Azərbaycanın müdrik şəxsiyyətlərini necə xarakterizə etmək olar? Sualını verməklə müdriklik haqda anlayışlarını genişləndirmək, həm də dərinləşdirmək olar.

Bu gün Azərbaycan xalqının müdriklik dəyərindən bəhs edən tədris vəsaitlərindən biri də V-IX siniflərin ədəbiyyət fənləri dərslikləridir. Müdrikliyin dərin kökləri ədəbiyyət dərsliklərində də öz həllini tapmışdır.

Dərsliklərdə verilmiş mətnlərə nəzər saldıqda orada müdriklik dəyərləri ilə bağlı olan çox sayda mövzuların olduğunu görmək olur. Bu sıraya xan qızı Natəvanın gördüyü işlər, Babəkin müdrik siyasəti, Kitabi-Dədə Qorqudda Qorqud fikirləri daxildir. Tarixdən də məlumdur ki, Dədə Qorqud müdriklik nümunəsidir. Dastanın elmi-tarixi məziyyətləri çoxdur. İlk növbədə məqsəd aydınlığının – dastanların mətninin küll halında götürülüb azərbaycanşünaslıq kontekstində araşdırılması diqqəti cəlb edir. Dünya ədəbiyyatını dərindən bilən və tədqiq edən P.Xəlilov haqlı və qanunauyğun olaraq Avesta "Bilqamış", "Mahalharata", "Manas", "Herodot", Firdovsi, Nizami əsərləri və b. mənbələrlə "Kitabi-Dədə Qorqud" arasında paralellər, oxşarlıqlar tapır, müqayisələr verir. Müəllifin təhlillərindən, ədəbi-məntiqi mühakimə və dəlilərdən, hətta burada az qismini saxladığımız etimoloji şərhlərdən belə qəti inam hazil olur ki, Dədə Qorqud müdrik fikir və iradi keyfiyyətləri ilə zəngindir və bu əsərin ana xəttini təşkil edir. Əsərdə oğuz qəhrəmanlarının psixologiyası, mənəvi aləmi, həyat və məişəti, hərəki fəaliyyət istiqamətləri və kitabın tarixi coğrafiyası barədə söylənmiş fikirlər, mülahizələr maraqlı və düşündürücüdür, ulu dastanlarımızın ümumi maddi-mənəvi dəyərini daha yaxşı qavramağa kömək edir. Həmin əsər belə siqlətli ideyaya xidmət edir ki, "Kitabi-Dədə Qorqud" kimi dərin mündəricəli, tanınmış abidə ancaq yüksək dərəcədə inkişaf etmiş, cilalanmış, tarixi təcrübə qazanmış bədii təfəkkür zəminində yarana bilən müdriklik simvoludur. Dədəmiz Qorqud deyib: "Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə yaymaz,"-müdrikliyin ifadə forması olan bu fikir xalq pedaqogikasından "Ana gəzən ağacı bala budaq-budaq gəzər" sözlərini xatırladır. Dədə Qorqud kitabı bu dünyada gəlimli-gedimli dünya, son ucu (axırı) ölümlü dünya kimi tanıyıb. Dədənin gördükləri bu olub ki, nəsillər bu dünyaya gəldi, keçdi. Karvan kimi qondu, köçdü, əcəl aldı, yer gizlədi, dünya yenə qaldı fikrində müdriklik özünü göstərir. Dədə Qorqud uzaqgörənlik, sabahın necə olacağını dərk edə biləcəyi səviyyəsinə malikdir ki, bu da müdrikliyin ifadə formasıdır.

V-IX sinif şagirdlərinin "Kitabi-Dədə Qorqud" dastanından tədris ili ərzində öyrəndiklərini ümumiləşdirdikdə aydın oldu ki, istər müəllimlər, istərsə də şagirdlər onu qəhrəmanlıq səhnələri ilə dolu əsər kimi bilirlər. Aparılan eksperiment və anket sorğularından sonra bu fikirlər dəyişmişdir. Eksperimentdən əvvəl "Dədə Qorduq" dastanından ən çox həyatınızda rol oynayacaq nələri öyrəndiniz? sualı ilə müraciət etdikdə şagird və müəllimlərin gəldikləri qənaət: "igidlik, qəhrəmanlıq, cəsarət, vətənpərvərlik"-dən ibarət olmuşdur. Eksperimentdən sonra onların söylədikləri fikirdə əsas yeri: "müdriklik dəyərləri" tutmuşdur. Müdriklik dəyərləri igidlik, vətənpərvərlik, qəhrəmanlıq və s bu amilləri də özündə birləşdirir fikri də ortaya gətirilir. Bütün bunlar göstərir ki, məktəblərimizdə bu gün də tədris olunan "Kitabi-Dədə Qorqud" müdriklik milli-mənəvi dəyərini artıq əsas məsələ kimi öyrənmək qarşıya məqsəd kimi qoyulmuşdur.

Məktəblilərin müdriklik dəyərləri ruhunda tərbiyə etmək üçün dərslikdə verilmiş Xurşudbanu

Natəvanın öyrənilməsinə xidmət edən şeirlərdir. Dərsdə Azərbaycanın səfalı guşələrindən olan Şuşanı, onun görkəmli şəxsiyyətlərini – Xurşudbanu Natəvanın, Ü.Hacıbəylinin, Xan Şuşinskininin və s. öyrənilməsi müdriklik dəyərlərinin mahiyyətini aydınlaşdırmış olurlar. Bu zaman Natəvan kimdir? sualına asanlıqla cavab tapmaq mümkündür: Xurşudbanu Natəvan Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. Xan qızı ilə tanınan azərbaycanlı şairədir. Onun həyatına qısa ekskursiya etməklə görərik ki, Natəvan bibisi Gövhər xanımdan tərbiyə almış, onun sayəsində musiqini, şeiri, rəsmi sevmişdir. O, Şərq dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli və b. klassiklərin əsərlərini dərindən mənimsəyən şəxs olmuşdur. Bakıda Aleksandr Düma ilə görüşmüş, əl işlərini ona hədiyyə vermişdir. O isə xan qızına nəfis fiqurlu şahmat bağışlamışdır. Natəvan Şuşada “Məclisi-üns” məclisini təşkil etmiş, Şuşaya su çəkdirmişdir. Bütün bunları öyrəndikdə şagirdlər müdriklik tarixini yaradanlardan biri də Xurşudbanu Natəvanın olduğu ortaya çıxır.

Azərbaycan xalqının müdriklik dəyərlərinin öyrənilməsi və istiqamətdə tədqiqatlarının aparılması sahəsində atılan addımlar çox olmuşdur. Bu sıraya Ə.Həşimov, Y.Talıbov, Ə.Ağayev, Z. Göyüşov, S.Quliyev, A.Abbasov, B.Qurbanov, S.Orucov, Z.Qaralov, A.Abbasov, L.Qasımova, A.Həsənova və s. daxildir. Müxtəlif zamanlarda aparılan tədqiqatlarda müdriklik milli-mənəvi dəyəri birbaşa və dolayısı ilə göstərilmişdir.

Aparılan araşdırmalar və yoxlamalar əsasında belə qənaətə gəlinmişdir:

- Böyüməkdə olan nəsillərin müdriklik mənəvi dəyəri əsasında tərbiyə edilməsi çox vacib məsələdir. O, bir tərəfdən şagirdlərin fəaliyyətinin nizamlanmasına, digər tərəfdən səbrli və dözümlü olmalarına kömək etmiş olur.

- Araşdırmalar göstərir ki, V-IX siniflərin Azərbaycan tarixi və ədəbiyyat fənlərinin mətnlərində milli-mənəvi dəyərlərimizdən olan müdriklik dəyərini aşılamağa xidmət etmək imkanına malikdir. Bunun üçün müəllimdən böyük ustalıq tələb olunur.

- Tədris olunan mövzular şagirdləri yaradıcılığa, düşünməyə xidmət etməlidir. Belə olan halda şagirdlər də müdrikləşmiş ola bilirlər.

Ədəbiyyat

1. Bayramov Ə.S.”Kitabi-Dədə Qorqud” dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası. Bakı:Elm,2000,137 s.
2. Fərzəliyev Ə. Dədə Qorqud yolu. 2-ci kitab. Bakı: Azərnəşr. 1995, 358 s.
3. Həşimov Ə.S., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Patrionat, 1993, 275 s.
4. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı: Maarif, 1987, 168 s.
5. Qasımova L.N, Mahmudova R.M. “Pedaqogika” Bakı: 2021,612 s.
6. Qasımova L.N. “Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən” . Bakı: Nurlan, 2004, 220 s.
7. Rüstəmov F.A. Şərqdə pedaqogika tarixi. Bakı: Nasir, 2002, 222 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 145-148
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 145-148
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 145-148

UOT

Müəllimin metodiki hazırlığı məsələlərinə yeni yanaşmalar

Müəllif:

Qızılı Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi
E-mail: aliyeva.q56@gmail.com

Açar sözlər:
müəllim hazırlığı, yaradıcı müəllim, pedaqoi innovasiya, metodiki yanaşma, qabaqcıl təcrübə

Annotasiya. Müəllimlər təhsilalanları düzgün formalaşdırsalar bunu təhsil sisteminin uğuru hesab etmək olar. Müəllim dəyişmədən təhsildə uğurlu nəticələr əldə etmək olmaz. Çünki yalnız müstəqil düşünən, özünün təlim nəticələrini əvvəlcədən görə bilən müəllim qarşına qoyduğu məqsədinə çata bilər. Bəs müəllim peşə kompetensiyalarını necə inkişaf etdirməlidir? Bunun üçün müəllimdə öz peşəkarlığını artırmaq istəyi olmalıdır. Müəllim, tədris etdiyi fənni mükəmməl bilməklə fənninin tədrisi metodikasını düzgün şəkildə tətbiq etməlidir. Təlimin yeni metod və formalarını, müasir texnologiyanı bilməli və tətbiq etməyi bacarmalıdır. Müəllim müxtəlif müsabiqələrdə, təkmilləşmə kurslarında, müxtəlif seminarlarda iştirak etməli, məqalə və vəsait nəşr etdirməlidir. Müəllim pedaqoji prosesi təhlil etməyi, uğurlu çıxış yolu tapmağı və onun optimal həlli yollarını müəyyən etməyi bacarmalıdır. Bunun üçün də müəllim yaradıcı olmalıdır. Dünyada gedən qloballaşma prosesləri müəllim hazırlığı işinə yeni yanaşma tələb edir. Pedaqoji təhsil müəssisələri bu gün yeni formatlı müəllim, yəni informasiya cəmiyyətinin müəllimini hazırlamalıdır. Təhsildə innovasiya problemi günümüzün əsas məsələlərindən biridir. Bunun üçün isə pedaqoji təhsil müəssisələrində yüksək peşəkarlıqla işləyə bilən professor-müəllim heyəti formalaşmalıdır.

Author:

Gizilli Aliyeva
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy
Honored teacher of the Nakhchivan Autonomous Republic
E-mail: aliyeva.q56@gmail.com

New approaches to teacher's methodical training issues

Key word:
teacher training, creative teacher, pedagogical innovation methodical approach, best practice

Abstract. It can be considered the success of the education system if the teachers form the students correctly. Successful results in education cannot be achieved without changing the teacher. Because only a teacher who thinks independently and can foresee the results of his training can achieve his goal. But how should the teacher develop professional competencies? For this, the teacher must have a desire to improve his professionalism. The teacher should know the subject he is teaching perfectly and apply the teaching methodology of his subject correctly. He should know and be able to apply new methods and forms of training, modern technology. The teacher must participate in various competitions, improvement courses, various seminars, publish articles and books. The teacher must be able to analyze the pedagogical process, find a successful way out and determine its optimal solutions. For this, the teacher must be creative. Creativity brings joy to every teacher. Globalization processes in the world require a new approach to teacher training. Pedagogical educational institutions should prepare a new format teacher today, that is, a teacher of the information society. The problem of innovation in education is one of the main issues of today. For this, professors and teachers who can work with high professionalism should be formed in pedagogical educational institutions.

Автор:

Гызыллы Алиева
Нахчыванский институт учителей
Доктор философии по педагогике
Заслуженный учитель Нахчыванской Автономной Республики
E-mail:
aliyeva.q56@gmail.com

Новые подходы к вопросам методической подготовки учителей

Ключевые слова:
подготовка учителей, креативный учитель, педагогические инновации, методические подход, передовой опыт

Аннотация. Это можно считать успехом системы образования, если учителя правильно формируют обучающихся. Без качественного изменения учителя невозможно добиться успешных результатов в образовании. Потому что только самостоятельно мыслящий, способный предвидеть результаты своего обучения, учитель может достичь поставленной перед ним цели. Но как учителю развивать свои профессиональные компетенции? Для этого у учителя должно быть желание повысить свой профессионализм. Учитель должен правильно применять методику преподавания своего предмета, прекрасно зная предмет, который он преподает. Он должен знать и уметь применять новые методы и формы обучения, современные технологии. Учитель должен участвовать в различных конкурсах, курсах усовершенствования, различных семинарах, публиковать статьи и материалы. Учитель должен уметь анализировать педагогический процесс, находить успешный выход и определять оптимальные пути его решения. И для этого учитель должен быть креативным. Процессы глобализации, происходящие в мире, требуют нового подхода к подготовке учителей. Педагогические образовательные учреждения сегодня должны готовить учителя нового формата, то есть педагога информационного общества. Проблема инноваций в образовании -о дна из главных на сегодняшний день. А для этого в педагогических учебных заведениях должен формироваться профессорско-преподавательский состав, способный работать с высоким профессионализмом.

Müasir dövrümüzdə hamımız bir reallığın şahidiyik: dünyada tərəqqi prosesləri sürətlə inkişaf edir, dəyişir, dünənki elmi biliklər, texnologiya bu gün yenilənir, dəyişilir. Bu gün malik olduğumuz informasiya sabah daha da təkmilləşər, yenisi ilə əvəz olunar. Buna görə də dünyanın inkişaf tempi ilə ayaqlaşmaq üçün ilk növbədə elm və təhsilin yenilənməsi təmin edilməlidir. Müasir şəraitdə təhsil müəssisələrinin əsas vəzifəsi təhsilalanların hərtərəfli inkişafına kömək edən təhsil mühiti yaratmaqdır. Bu məsələnin həllində pedaqoji kadrların bacarığı, savadı, geniş dünyagörüşə malik olması, şəxsi keyfiyyətləri əhəmiyyətli rol oynayır. Öz peşəsini sevən müəllim pedaqoji fəaliyyətini yüksək səviyyədə qurur, şagird və tələbələrin təlim-tərbiyəsində uğurlu nəticələr əldə edir. Müəllimin uğurlu nəticələr əldə edə bilməsi üçün onun pedaqoji innovasiyaları qəbul etməsi, dəyişən pedaqoji mühitə uyğunlaşa bilməsi vacib şərtlərdən biridir. Müəllim dəyişmədən təhsildə uğurlu nəticələr əldə etmək mümkün olmayacaqdır. Məhz bu səbəbdən də hazırda Azərbaycanın təhsil ictimaiyyətini düşündürən əsas problem müəllimin peşəkarlığının artırılması, onlarda müvafiq bacarıqların formalaşdırılmasıdır. Bütün bunlar beynəlxalq təcrübəyə uyğun yeni mexanizmlərin tətbiqini zəruri etmişdir. Bu məqsədlə 2010-cu ildə Azərbaycanda əlavə təhsilin yeni qaydaları hazırlanmış və hökumət tərəfindən təsdiqlənmişdir.

Respublikamızda müəllim hazırlığının təkmilləşdirilməsi ilə bağlı son illərdə saysız- hesabsız islahatlar aparılmışdır. Bundan əlavə, bir sıra ali təhsil müəssisələrində əlavə təhsil həyata keçirilir. Ölkəmizdə pedaqoji təhsil sahəsində islahatlara ötən əsrin 90-cı illərinin sonlarından başlanılmışdır. Bu illərdə pedaqoji ixtisaslar üzrə bakalavr və magistr hazırlığını təmin edən dövlət standartları hazırlanaraq təsdiq olunmuşdur.

Müasir təhsil sistemində baş verən dəyişikliklər müəllimin təkmilləşməsini, peşəkarlığının atrırılmasını tələb edir. Çünki yalnız müstəqil düşünən, özünün təlim nəticələrini əvvəlcədən görə bilən müəllim qarşına qoyduğu məqsədinə çata bilər. Bəs müəllim hazırkı dövrün tələblərinə cavab verən peşə kompetensiyalarını necə inkişaf etdirməlidir? Bunun üçün, hər şeydən əvvəl, müəllimdə öz peşəkarlığını artırmaq istəyi olmalıdır. Müəllim özünün pedaqoji keyfiyyətlərinin yüksəldilməsi zərurətini hiss etməlidir. Peşə sahəsində özünün pedaqoi təcrübəsini müxtəlif istiqamətlərdə təkmilləşdirməsi üçün tədris etdiyi fənni mükəmməl bilməlidir. Fənninin tədrisi metodikasını düzgün şəkildə tətbiq etməlidir. Təlimin yeni metod və formalarını mənimsəməyi və tətbiq etməyi vacib hesab etməlidir. Müasir texnologiyanı bilməli və tətbiq etməyi bacarmalıdır.

Müəllim müasir metodiki üsullara yiyələnməli, informasiya – konmukasiya teknologiyalarını mənimsəməli, müxtəlif layihələrin hazırlanmasında, müxtəlif müsabiqələrdə iştirak etməli, məqalə və kitablarını nəşr etdirməlidir. Müəllim təkmilləşmə kurslarında, müxtəlif seminarlarda iştirak etməli, öz biliyinin artırılması qayğısına qalmaqla dərin bilik və yüksək mənəviyyat nümunəsi olmalıdır. Müəllimin qabaqcıl təcrübəyə yiyələnməsi, təhsilalanlara bələdçilik etməsi vacibdir.

Şagird və tələbələrə hər gün yeni formul əzbərlətməyə çalışsaq, onlar dərs oxumağa maraq göstərməyəcəklər. Öyrənənlərə o mövzunun asan yollarını aşılamaq lazımdır. Məsələn, kimya fənninin tədrisi zamanı şagirdlərə maddələrin formullarını əzbərdən yazmağı öyrətmək olmaz. Onlara formul əzbərlətmək əvəzinə formulların düzgün yazılması üçün hansı şərtlərə əməl etməyin vacib olduğunu mənimsətmək lazımdır. Bu kimi faktların sayını çoxaltmaq olar. Problemin səbəbini və mahiyyətini anlamaq düsturları əzbərləməkdən daha vacibdir. Müəllimlərin əsas məqsədi təhsilalanlara daim bələdçilik edəcək hərtərəfli, müasir bilgilərdən ibarət "kompas" vermək olmalıdır. Müəllimlər təhsilalanları düzgün formalaşdırsalar bunu təhsil sisteminin uğuru hesab etmək olar.

Müəllim mahir pedaqoq və psixoloq olmaqla həm də yaradıcı olmalıdır. Yaradıcılıq hər bir müəllimə xas olan xüsusiyyət olduğundan müəllimdən bütün məsələlərə müstəqil və yaradıcı yanaşmaq tələb olunur. Yaradıcılıq hər bir müəllimə başucalığı gətirir. Yaradıcılıq müəllimdən pedaqoji prosesi müşahidə edərək təhlil etməyi, uğurlu çıxış yolu tapmağı və onun optimal həlli yollarını müəyyən etməyi tələb edir.

Müəllim dərin biliyə, bacarığa malik olmalıdır. Bilik müəllimin əsas silahıdır. Y.A.Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Belə "müəllim" uşaqlara dərin bilik verə bilməz. Zəif müəllim zəif də şagird, tələbə yetişdirər.

Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. L.N.Tolstoya görə, öz peşəsini sevən müəl-

lim yaxşı müəllimdir, uşaqları və fənnini sevən müəllim isə əla müəllimdir. Müəllim həmişə və hər yerdə öz nüfuzunun qorunması qayğısına qalmalıdır. Müəllimin hər hansı ədalətsiz münasibəti, ehtiyatsız hərəkəti, işlətdiyi yersiz kəlməsi onu nüfuzdan sala bilər. Müəllim öz sözlərinə, hərəkətlərinə məsuliyyətlə yanaşmalıdır.

Həyatımızın bütün sahələrinə təsir göstərən qloballaşma prosesləri müəllim hazırlığı işinə yeni yanaşma tələb edir. Müxtəlif ölkələrdə müəllim hazırlığı fərqli şəkildə həyata keçirilir. Finlandiyada pedaqoji təhsil alan tələbələrin əksəriyyəti universitetlərdə oxuyur. Fənn mütəxəssisləri ənənəvi olaraq universitetlərdə hazırlanır və əsasən orta ümumtəhsil məktəblərində dərs deyirlər. Finlandiyada müəllimlik peşəsi ən hörmətli və tələb olunan peşələrdən biridir. Eyni zamanda ən sərt seçimlərdən keçərək məktəb müəllimi olmaq mümkündür. Pedaqoji fakültələrin ən yaxşı məzunlarının 30%-i arasından 12 faizi müəllimliyə seçilirlər. Çində savadlılıq artır, Sinqapur yaxşıdan əlaya doğru gedir, Estoniyada təhsil nəticələri yaxşıdır. Portuqaliyada təhsil prioritet sahəyə çevrilib. Türkiyə və Azərbaycanda isə təhsildə kütləvilik artıb, təhsil nəticələri yüksəlməkdə davam edir.

Müəllim hazırlayan ali məktəblərin qarşısında duran əsas vəzifə gələcək müəllimin yeni texnologiyalara, təhsil sistemində yaranan innovasiyalara yiyələnməsini təmin etməkdir. Müasir müəllim hazırlığının məzmun və forması informasiya texnologiyalarının sürətli inkişafı ilə uzlaşmalıdır. Çünki zaman keçdikcə informasiyanın rolunun həlledici dərəcədə artması yeni təhsil sisteminin yaradılmasını zəruri edir. Təhsildə innovasiya problemi günümüzün əsas məsələlərindən biridir. Lakin yeni metod və üsulların həyata keçirilməsi üçün yüksək intellektual potensiala malik müəllim kadrlarının hazırlanması vacibdir.

Son 20 ildə informasiya sürətlə inkişaf edir. Bu inkişaf bir çox sahələrə təsir göstərdiyi kimi ilk növbədə təhsilə də ciddi təsir edir. Müasir müəllim belə bir informativ mühitdə özünü sərbəst hiss etməli, pedaqoji məqsədlərə informasiya texnologiyaları vasitəsi ilə asanlıqla nail olmalıdır. Bu vəziyyət müəllimin metodik ustalığına yeni bir component olan "informasiya mədəniyyəti" komponentini əlavə edir. Müasir müəllim öz fənnini tədris etməklə yanaşı, İKT-nin tətbiqi üzrə praktik işləri təşkil etməli, onları əlaqələndirməli və səmərəli idarə etməlidir. Başqa sözlə, müasir müəllim tədris müəsisəsində pedaqoji fəaliyyətlə yanaşı, həm də informasiya texnologiyaları üzrə menecer olmalıdır. Təhsilalanlara fasiləsiz öyrənmək bacarığı aşılamalıdır.

Müəllim hazırlığının məzmunu bu günə yox, sabaha yönəlməlidir.

Pedaqoji prosesdə heç bir texnologiya canlı müəllimi tam əvəz edə bilməz. Bununla belə, "klassik hazırlıqlı müəllim" bu gün işləyə bilmirsə, o, təhsilalanlardan geri qalacaq, tədricən nüfuz və peşəkarlığını itirəcəkdir. Bu səbəbdən müəllim real həyatın tələblərinə cavab verməyə hazır olmalıdır. Bu mənada müəllim hazırlığı dəyişən zamanın, informasiya cəmiyyətinin sürətlə dəyişən tələblərinə uyğunlaşmalıdır. Pedaqoji təhsil müəssisələri bu gün yeni formatlı müəllim hesab olunan informasiya cəmiyyətinin müəllimini hazırlamalıdır. Bunun üçün isə pedaqoji təhsil müəssisələrində yüksək peşəkarlıqla işləyə bilən professor-müəllim heyəti formalaşmalıdır. Yeni formatlı müəllim kadrlarının hazırlanması müvafiq elmi tədqiqatlar tələb edir. Belə şəraitdə təhsilin informatlaşması kimi qlobal problemin həlli hər bir təhsil sistemi üçün çox ciddi sınaq və tarixi imtahan sayıla bilər. Bu imtahandan çıxa bilməyən təhsil sistemlərinin gələcəyi yoxdur. Bu gün pedaqoji kadrların səmərəli işləyə bilməsi üçün, onlar sistemli şəkildə, kompleks hazırlanmalıdır. Təhsilin müxtəlif pillələrində innovativ təhsil modelləri yaradılmışdır. Kimya dərslərində laboratoriya işlərinin təşkili, eksperiment nəticələrinin, testlərin hazırlanmasının və tətbiqinin avtomatlaşdırılması proseslərini müəllim bilməlidir. Elektron jurnaldan düzgün istifadə edən müəllim təhsilalanların bilik səviyyələrinin, təhsil nailiyyətlərinin qiymətləndirilməsi metodikasını düzgün tətbiq etmək bacarığına malik olmalıdır.

Bütün bu sadalanan məsələlər təhsilin informatlaşması tədbirlərinin tam olmayan siyahısıdır. Bu siyahını bir az da davam etdirmək olardı. Buraya virtual təhsil, açıq təhsil, distant təhsil, təhsildə İKT standartları məsələləri, İKT problemləri üzrə müəllim hazırlığı, yenidənhazırlığı və s. kimi mühüm məsələləri də əlavə etmək mümkündür.

Bu gün muxtar respublikada müəllim əməyinə yüksək dövlət qayğısı göstərilir. Ali Məclis Sədrinin məktəbə, təhsilə, müəllimə göstərdiyi diqqətin nəticəsidir ki, bu gün ali məktəbə qəbul olunan gənclərimiz ixtisas seçərkən müəllim

peşəsinə böyük maraq göstərirlər. Müəllimlərin işə qəbulu prosesinin şəffaflığı müəllim peşəsinin nüfuzunun artmasına gətirib çıxarmışdır.

Son illər muxtar respublikada ali təhsil müəssisələrində müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə mühüm işlər görülür. Naxçıvan Dövlət Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda ixtisasartırma kursları, elmi-praktik konfranslar təşkil edilir.

Bu gün təhsildə “İnteraktiv dərs”, “Nümunəvi dərs”, “Distant təhsil”, “Sabahın tədqiqat-çıları” və “Sabahın müəllimi” layihələri tətbiq olunur. Pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrə mütəmadi olaraq təhsildəki yeniliklər haqqında məlumatlar verilir, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçmələrinə şərait yaradılır.

Həmçinin muxtar respublika ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan təhsilverənlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 19 iyun 2020-ci il tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydası” təsdiq edilmişdir. Qaydaya əsasən muxtar respublikada müəllimlər ödənişsiz və mərhələli şəkildə sertifikasiyaya cəlb olunmuşlar. Bütün bunlar müəllimlərin daha məsuliyyətlə öz üzərlərində çalışmalarına səbəb olmuşdur.

Ədəbiyyat

1. Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnolojinnovasiyalar. Konfrans materialı 29 noyabr 2022.
2. Təhsildə yeni çağırışlar. II Beynəlxalq Forumdan bəzi qeydlər. 08 oktyabr 2021.
3. Müəllim hazırlığında qlobal çağırışlar / O. Mustafayev, //Məqalə, – 2022.– 13 may
4. Müəllimin peşəkarlığının artırılmasında metodiki işin rolu. //İ. Həsənova Sumqayıt şəhəri, 23 nömrəli tam orta məktəb, metodiki birləşmə rəhbəri. – 2018.– 02 noyabr.
5. Müəllim hazırlığına yeni yanaşmalar. Aydın Kazımzadə BDU – nun professoru, fizika – riyaziyyat elmləri doktoru, Hikmət Əlizadə BDU – nun professoru, pedaqoji elmlər doktoru.
6. Pedaqoji təhsil və müəllim hazırlığı: dünya təcrübəsi. // E. Əliyev. XXI Əsr Təhsil Mərkəzinin rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru. – 2019. –18 yanvar.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 149-154
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 149-154
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 149-154

UOT

Biologiyanin tədrisində inkişafetdirici təlimin xüsusiyyətləri

Müəlliflər:

Tərane Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: terane_abdullayeva@hotmail.com

Xoşqədəm İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: xosqedem.ibrahimova59g-mail.com

Açar sözlər:
strategiya, taktika, məntiq, texnika, inkişafetdirici təlim modeli

Annotasiya. Sistematik yanaşma, təlim prosesinin öyrənilməsini universal qarşılıqlı əlaqə və dünyanın inkişafı kimi dialektikanın prinsiplərinə uyğun şəkildə qurmağa imkan verir. Bu yanaşma obyektlərin sistem olaraq öyrənilməsinə əsaslanır. Bu vəziyyətdə təlim prosesi müəyyən bir obyekt kimi qəbul edilməlidir. Hər hansı bir texnologiyanın dörd əsas komponenti müəyyənləşdirilir: 1) strategiya – tapşırıqlar həllində istifadə olunan metodika; 2) taktika – nəticələri əldə etmək üçün metodik prinsiplər; 3) məntiq – nəticəyə gətirilə bilən ardıcıl fəaliyyət; 4) texnika – nəticə əldə etmək üçün fəaliyyətin özü. İnkişafetdirici təlim ilə təhsilin qarşılıqlı əlaqəsindən aşağıdakı vəzifələr irəli sürülür: 1) təbii-elmi düşüncə tərzinin formalaşması və inkişafı; 2) məktəblilərin müstəqilliyinin inkişafı; 3) bioloji idrak metodlarına yiyələnmək. Biologiyada inkişafetdirici təlimdə bu problemləri həll edilərkən, yəni inkişafetdirici təlimin təşkili üçün ən optimal metodlara, metodik texnikaya, vasitələrə əsaslanan başlanğıc mövqelərinə etibar etmək lazımdır. Motivasiya prinsipləri, problemlilik, əqli fəaliyyət metodlarının xüsusi formalaşma prinsipi, müstəqillik prinsipi, mərhələlər prinsipi, fərdiləşdirmə prinsipi bu cür prinsiplər kimi müəyyən edilmişdir.

Authors:

Tarana Abdullayeva
Azerbaijan State Pedagogical University
E-mail: terane_abdullayeva@hotmail.com

Khoshgadam Ibrahimova
Azerbaijan State Pedagogical University
E-mail: xosqedem.ibrahimova59g-mail.com

Key word:
strategy, tactics, logic, technique, developmental training model

Characteristics of developmental training in teaching biology

Abstract. A systematic approach allows the study of the learning process to be built in accordance with the principles of dialectics, such as universal interaction and the development of the world. This approach is based on the systematic study of objects. In this case, the learning process should be considered as a specific object. Four main components of any technique have been identified: 1) strategy - the methodology used in solving tasks; 2) tactics - methodological principles for achieving results; 3) logic - a consistent action that can be concluded; 4) technique - the activity itself to achieve the result. In addition, the development methodology of education in biology will cover a content component, including the content of biological knowledge that contributes to intellectual development. The following tasks are set from the interaction of developmental training and education: 1. Formation and development of natural-scientific thinking. 2. Development of schoolchildren's independence. 3. Mastering the methods of biological cognition. When solving these problems in developmental training in biology, that is, for the organization of developmental training, it is necessary to rely on the most optimal methods, methodological techniques, starting positions based on tools. Principles of motivation, problem-solving, the principle of special formation of methods of mental activity, the principle of independence, the principle of stages, the principle of individualization are defined as such principles.

Авторы:

Тарана Абдуллаева
Азербайджанский государственный педагогический университет
E-mail: terane_abdullayeva@hotmail.com

Хошгадам Ибрагимова
Азербайджанский государственный педагогический университет
E-mail: xosqedem.ibrahimova59g-mail.com

Ключевые слова:
стратегия, тактика, логика, техника, развивающая модель обучения

Особенности развивающего обучения в преподавании биологии

Аннотация. Системный подход позволяет структурировать изучение процесса обучения в соответствии с такими принципами диалектики, как универсальное взаимодействие и развитие мира. Этот подход основан на изучении объектов как системы. В этом случае процесс обучения следует рассматривать как определенный объект. Выделяют четыре основных компонента любой технологии: 1) стратегия – методика, используемая при решении задач; 2) тактика – методические принципы получения результатов; 3) логика – последовательная деятельность, которая может быть доведена до результата; 4) техника – сама деятельность по достижению результата. Из взаимодействия развивающего обучения и воспитания выдвигаются следующие задачи: 1) формирование и развитие естественно-научного мышления; 2) развитие самостоятельности школьников; 3) овладение методами биологического познания.В развивающем обучении по биологии при решении этих задач необходимо опираться на исходные позиции, т. е. опираться на наиболее оптимальные методы, методические приемы, средства организации развивающего обучения. В качестве таких принципов были определены принципы мотивации, проблематичности, принцип особого формирования методов умственной деятельности, принцип самостоятельности, принцип этапов, принцип индивидуализации.

Sistematik yanaşma, təlim prosesinin öyrənilməsini universal qarşılıqlı əlaqə və dünyanın inkişafı kimi dialektikanın prinsiplərinə uyğun şəkildə qurmağa imkan verir. Bu yanaşma, obyektlərin sistem olaraq öyrənilməsinə əsaslanır. Bu vəziyyətdə təlim prosesi müəyyən bir obyekt kimi qəbul edilməlidir.

Titova E.V. hər hansı bir texnikanın dörd əsas komponentini müəyyənləşdirib:

1) strategiya – tapşırıqlar həllində istifadə olunan metodika ;

2) taktika – nəticələri əldə etmək üçün metodik prinsiplər;

3) məntiq – nəticəyə gətirilə bilən ardıcıl fəaliyyət

4) texnika nəticə əldə etmək üçün fəaliyyətin özü

Bundan əlavə, biologiyada təhsilin inkişaf metodologiyası, zehni inkişafa töhfə verən bioloji biliklərin məzmunu da daxil olmaqla bir məzmun komponentini əhatə edəcəkdir.

İnkişafetdirici təlim ilə bioloji təhsilin qarşılıqlı əlaqəsindən ümumi biologiyada inkişaf təhsilinin aşağıdakı vəzifələri irəli sürülür:

1. Təbii-elmi düşüncə tərzinin formalaşması və inkişafı.

2. Məktəblilərin müstəqilliyinin inkişafı.

3. Bioloji idrak metodlarına yiyələnmək.

Biologiyada inkişafetdirici təlimdə bu problemləri həll edilərkən, yəni inkişafetdirici təlimin təşkili üçün ən optimal metodlara, metodik texnikaya, vasitələrə əsaslanan başlanğıc mövqelərinə etibar etmək lazımdır. Motivasiya prinsipləri, problemlilik, əqli fəaliyyət metodlarının xüsusi formalaşma prinsipi, müstəqillik prinsipi, mərhələlər prinsipi, fərdiləşdirmə prinsipi bu cür prinsiplər kimi müəyyən edilmişdir [1].

Motivasiya prinsipi.

Bu prinsip inkişafetdirici təlimin hər bir şagird üçün şəxsən mənalı olmasını nəzərdə tutur. Motiv, şagirdin təhsil işinin müəyyən aspektlərinə yönəlməsidir, şagirdin ona daxili münasibəti ilə əlaqələndirilir.

Problemlilik prinsipi.

Bu prinsip şagirdlərin yeni biliklərə yiyələnməsini tapşırıq-problem şəklində ifadə olunan problemli vəziyyətlərin nisbətən müstəqil həlli zamanı həyata keçirildiyini nəzərdə tutur. Problemli vəziyyət, bir şagirdin ona verilən üsullarla tapşırığı yerinə yetirə bilməməsi ilə əlaqədar olaraq onda yaranan intellektual çətinlikidir. Belə bir tapşırığın icrası prosesində ortaya çıxan, mövzu, tapşırığı yerinə yetirmə üsulları və ya şərtləri haqqında yeni məlumatların tapılmasını tələb edən müəyyən bir zehni vəziyyəti xarakterizə edir.

Zehni fəaliyyət metodlarının xüsusi formalaşması prinsipi.

Bu prinsip, şagirdlərdə zehni fəaliyyət metodlarının xüsusi şəkildə formalaşdırılması (xüsusi metod və vasitələrlə ümumi bioloji biliklər əsasında) olması zəruriliyinə əsaslanır.

Zehni fəaliyyət metodu müəyyən bir zümrənin problemlərinin həllinə tabe olan, zehində baş verən hərəkətlər məcmusu kimi başa düşülür.

Zehni inkişafın göstəricilərindən biri bir texnikanı müstəqil olaraq yeni obyektlərə köçürmək, onu digər zehni fəaliyyət texnikalarına daxil etmək qabiliyyətidir [2].

Müstəqillik prinsipi.

Bu prinsip təhsilin inkişafında yeni biliklərin əldə edilməsində müstəqil fəaliyyətin aparıcı rolunu əks etdirir. İnkişaf etdirmə təhsili zamanı müstəqillik dərəcəsi təşəbbüskarlıqla ifadə olunmalı, işə yeni elementlər gətirmə bacarığı, işi düzgün planlaşdırma və təşkil etmə bacarığı və çətinliklərin öhdəsindən öz gücü ilə gəlmə qabiliyyəti göstərilməlidir.

Mərhələlərin prinsipi.

Bu prinsip inkişaf təliminin mərhələli şəkildə tədricən daha mürəkkəb hala gətirilməsini və hər bir təlim subyektinin fərdi nailiyyətlərinə yönəldilməsini nəzərdə tutur. İnkişaf etdirmə təhsili zamanı problem-idrak tapşırıqlarının mürəkkəbliyi tədricən artır; müstəqil iş getdikcə daha da mürəkkəbləşir.

Fərdiləşdirmə prinsipi.

Bu prinsip, öyrənmənin hər bir tələbəyə ayrı-ayrılıqda yönəldilməsi və fərdi xüsusiyyətləri nəzərə alaraq müstəqil düşüncə tərzi, düşüncə tərzi inkişafına töhfə verməsi halında inkişaf edə biləcəyini nəzərdə tutur. Məktəblilərdəki fərdi fərqlər təhsil fəaliyyətinin fərdiləşdirilməsinin əsasını təşkil edir [3].

Tapşırıq növü	*Tapşırıqların əsas xüsusiyyətləri*	*Nümunə*
Problemli vəziyyət	Elmi həqiqətlər arasındakı ziddiyyət və ya köhnə biliklə yeni faktlar arasındakı ziddiyyət	Sukkulent bitkilərdə ağızcıqlar gündüz (istidə) bağlanmalıdır, lakin günorta (işıqda) fotosintez baş verir və ağızcıqlar vasitəsilə qaz mübadiləsi lazımdır.
I. Qismən axtarış tapşırığı	Tapşırıq özündə bir problemi əks etdirir və həll yolları qismən göstərilir.	Orta iqlim qurşağı bitkilərinin və sukkulent bitkilərdəki fotosintez prosesi arasındakı fərq nə olmalıdır, əgər sonunculardakı ağızcıqlar gündüz (istidə) bağlanır və qaz mübadiləsi yalnız gecə baş verə bilər. Sukkulent bitkilərin fotosintezedici toxumalarında hansı uyğunlaşmalar yarana bilər?
II. Problemli axtarış tapşırıqları.	Hipotez irəli sürərək tapşırığın göstərdiyi problemi müstəqil həll etmək lazımdır.	Səhra bitkilərində - sukku-lentlərdə - gündüz ağızcıqlar bağlanır, bu das suyun həddindən artıq buxarlanma-sının qarşısını alır. Fotosintez prosesinin bu bitkilərdə necə baş verdiyini izah edən bir fərziyyə irəli sürün. Bu fərziyyə necə yoxlanıla bilər?
III. Tədqiqat tapşırıqları	Tapşırıq yalnız faktı özündə əks edir. Problemin axtarışı və həll yolları şagirdlər tərəfindən müstəqil şəkildə həyata keçirilir	Səhra bitkilərində - sukkulentlərdə fotosintez prosesi orta iqlim qurşağı bitkilərindəkindən fərqlənir. Sizcə nə üçün? Bu necə baş verir?

Biologiya dərslərində inkişafetdirici tədris prinsiplərindən istifadə nümunələri

1. Qruplaşdırma üsulu

Məqsəd: biliklərin sistemləşdirilməsi, öyrənilən mövzunun məzmunun quruluşuna yiyələnmək.

1. Şagirdlərə bir sıra anlayışlar təklif olunur.

Tapşırıq, aşağıdakı alqoritmə əsasən ümumi əlamətlərə görə (adlarını çəkmədən) birləşdirərək qruplaşdırmaq lazımdır:

a) anlayışları müqayisə etmək;

b) ümumi xüsusiyyətləri vurğulamaq;

c) qruplaşdırmaq

Məsələn, 7-ci sinifdə keçirilən biologiya dərsində "Amfibilər sinfi" mövzusunu təkrarlayarkən, şagirdlərə bu anlayışlardan ümumi xüsusiyyətlərinə görə qruplar seçmək təklif olunur:

quru, ağ ciyər, qurbağa, salamandra, dəri, su, qurbağa, triton, kərtənkələ, ağac qurbağası, timsah, balıq-ilan, siren, tısbağa.

Bir çox şagirdlər 3 qrupu müəyyən etdilər:

Yaşayış mühiti	Tənəffüs orqanları	Heyvanlar
Quru, su	dəri, ağ ciyərlər	salamandra, balıq-ilan, qurbağa, siren, ağac qurbağası, kərtənkələ, tisbağa, timsah.

Digər şagirdlər 4 qrup müəyyən etdilər:

Yaşayış mühiti	Tənəffüs orqanları	Suda-quruda yaşayanlar	Digər heyvanlar
Quru	dəri	balıq-ilan	salamandra
Su	ağciyərlər		triton, siren

Bəzi şagirdlər isə anlayışları 6 qrupa böldülər:

Yaşayış mühiti	Tənəffüs orqanları	Ayaqsız amfibilər	Quyruqlu amfibilər	Quyruqsuz amfibilər	Digər heyvanlar
Quru	dəri	balıq-ilan	salamandra	qurbağa	kərtənkələ
Su	ağciyərlər		triton, siren	ağac qurbağası	timsah, tısbağa

Şagirdlərlə birlikdə altıncı qrup heyvanların amfibiyaya aid olmadığı, bugünkü dərsdə nəzərdən keçiriləcək sürünənlər sinfinin nümayəndələri olduğu qənaətinə gəlinir.

Nəticə:

- qruplaşdırma texnikasından istifadə şagirdlərin intellektual qabiliyyətlərinin, məntiqi düşüncəsinin inkişafına kömək edir;
- hər bir şagirdlərin uğurlu bir fəaliyyətdən məmnunluğu var (hər şey özlüyündə haqlıdır)
- təlimin keyfiyyətində yüksəliş baş verir.

2.Məntiqi cədvəllər.

Məqsəd: məntiqi düşüncənin, intellektual qabiliyyətlərin inkişafı.

2.Məntiqi cədvəllər.

Biologiya dərslərində məntiqi düşünməyi, yalnız təbiətin fenomenini deyil, səbəbini, nəticələrini də görməyi öyrədən məntiqi cədvəllərdən istifadə edirik. Məntiqi cədvəllər müxtəlif hadisələri öyrənmək, təbiət obyektləri arasında oxşar və fərqli cəhətləri tapmaq üçün istifadə olunur.

3. Səbəb-nəticə xarakterli məntiq cədvəli:



Məsələn, 6 sinifdə "Qijikimilər" mövzunu öyrənərkən uşaqlar kömürün yaranma səbəblərini öyrənirlər, insan həyatındakı əhəmiyyətini göstərirlər. Bəzi şagirdlər kömür əmələ gəlməsinin ümumi bir səbəbini göstərirlər.



Digər şagirdlər, əlavə ədəbiyyat istifadə edərək, cədvəli mürəkkəbləşdirir, daş kömür əmələ gəlməsinin bir neçə səbəbini göstərirlər.

a. digər nümunə. **«Kub» məntiqi cədvəli**

Kubun 6 tərəfi var. Şagirdlər xəyalən kubu atır və cədvəldəki suallara cavab verir. Məsələn: 7-ci sinifdə "Məməlilərin sinir sistemi" mövzusunu öyrənərkən cədvəlin köməyi ilə neyronu xarakterizə edirlər.

1. Neyronu təsvir edərkən onun cismi və çıxıntılara sahib olduğu qeyd edilir: dendritlər və aksonlar.
2. Hörümçək, ləkə, dəniz ulduzu ilə müqayisə etdilər.
3. Şagirdlər sinir hüceyrələrinin membranlarından ötürülən elektrik siqnalı ilə bağlı bir assosiasiya yaratdılar.
4. Neyronun əmələ gəlməsini təhlil edərkən, şagirdlər bunun üzvi aləmin uzun təkamülü zamanı meydana gələn sinir toxumasının əsas hissəsi olduğunu qeyd etdilər.
5. Tətbiq haqqında danışarkən, şagirdlər neyronların böyük əhəmiyyətini göstərdilər, çünki bədən xarici və daxili mühitindən orqanların işinə nəzarət etmək üçün lazım olan siqnalları alır, aparır və işləyirlər; neyronsuz, sinir toxumasız həyatımızın mümkün olmadığı qənaətinə gəldilər.
6. Şagirdlər neyronların sinir toxumalarının ayrılmaz hissəsi kimi əhəmiyyəti barədə fikirlərini bildirdilər.

Nəticə:

- məntiqi cədvəllərin istifadəsi mövzunun mahiyyətini, öyrənilən materialda səbəb-nəticə əlaqələrini və qarşılıqlı əlaqələrini qurmağa imkan verir;
- şagirdlərin düşüncə tərzini, təhsil problemini həll edərkən diqqətlilik qabiliyyətini inkişaf etdirir;
- şagirdlərin şəxsi keyfiyyətlərini inkişaf etdirir: məqsədyönlülük, mütəşəkkillik, müstəqillik.

Biologiyanın tədrisinin müxtəlif mərhələlərində şagirdlərin inkişafetdirici fəaliyyətlərinin əsası kimi analiz, sintez, müqayisə, müşahidə, ümumiləşdirmə, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi kimi məntiqi üsulların öyrənilməsinə müəllimlər tərəfindən xüsusi diqqət verilməlidir [4].

Müəllim şagirdlərin inkişafetdirici fəaliyyətlərini artıra bilən zəka oyunlarına məntiqi cədvəllərdən, yaradıcı tapşırıqlardan, zəka oyunlarından və s. geniş istifadə etməlidir.

Ədəbiyyat

1. Abdullayeva, T.Q. Yeni inkişafetdirici təlim üsulu kimi layihələrin hazırlanmasında şagird fəaliyyətinin təşkili // ADPU xəbərləri. Təbiət elmləri seriyası, – Bakı: –2013, №3, – s. 319-321.
2. İbrahimova, X.Q. Biologiyanın tədrisində fəal təlim metodlarının tətbiqi yolları. – Bakı, – 2015, – s.172.

3. Tağıyev, İ.T. Biologiyanın tədrisində effektiv təlim texnologiyalarından istifadə // Pedaqoji Universitetin xəbərləri, – Bakı: – 2020, №1, – s. 256-260.
4. Давыдов В.В. Проблемыразвивающегообучения. – М., – 2006
5. Кабанова-Меллер Е.Н. Кпроблемеразвивающегообучения.//География вшколе. – 2012, №1.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 155-159
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 155-159
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с 155-159.

UOT

Müəllimin öyrətməklə yanaşı öyrənən tərəf olması təhsilin müasir tələbi kimi

Müəllif:

Nurlanə Novruzi
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: nnurlana91@mail.ru

Açar sözlər:
pedaqogika, müəllim, şagird, İKT, müasir dünya, təhsil

Annotasiya. Pedaqogikada istinad olunan mühüm məsələlərdən biri təlimin müasir həyatla əlaqələndirilməsi prinsipidir. Əgər öyrədilən biliyin müasir həyatla əlaqəsi yoxdursa və ya gələcək həyatında necə istifadə edəcəyini bilmirsə bu sadəcə şagird üçün mənasız yükdür. Bu kimi hallarda şagirdlərdə biliyə, öyrənməyə maraq azalır, onların potensialını ortaya çıxarmaq çətinləşir. Ona görə də müəllim tədris etdiyi hər bir mövzunun və məlumatın məsuliyyətini anlamalı, düzgün şəkildə şagirdlərə çatdırmalı və həyati maraqlarını onlara aşılamalıdır. İlk növbədə müəllimin özünün məlumatlılığı, elmi-nəzəri hazırlığı, geniş dünyagörüşü olmalı, dünyada və cəmiyyətdə baş verən hadisələri izləməli və nəticə çıxarmağı bacarmalıdır. XXI əsr müəllimləri yerində oturmaq əvəzinə özlərini və peşələrini müdafiə etməlidir. Onlar təhsildə baş verənlərə diqqətlə və birbaşa məsuliyyətlə yanaşmalıdırlar. Bugünkü sinif otaqları məsləhət vermək, təşviq etmək və dinləmək üçün ehtiyacı olan uşaqlarla doludur. Effektiv müəllimlər öz bilik və təcrübələrini bölüşməli və şagirdləri üçün nümunə kimi çıxış etməlidirlər.

It is a modern requirement of education that the teacher is a learner as well as a teacher

Author:

Nurlana Novruzi
Nakhchivan Institute of Teachers
E-mail: nnurlana91@mail.ru

Key word:
pedagogy, teacher, student, ICT, modern world, education, “Duck syndrome”

Abstract. One of the important issues referred to in pedagogy is the principle of linking education with modern life, which helps to increase the efficiency of education. If the knowledge taught has no connection with modern life or if he does not know how to use it in his future life, it is just a meaningless burden for the student. In such cases, students’ interest in knowledge and learning decreases, it becomes difficult to reveal their potential. Therefore, the teacher must understand the responsibility of each topic and information he teaches, convey it to the students in the right way, and instill in them their vital interests. First of all, the teacher should have his own awareness, scientific-theoretical training, a broad outlook, follow the agenda, master the events happening in the world and society and be able to draw conclusions. Building the educational process in this way will prepare students to participate in socio-economic and cultural life in a practical way Current teachers are closely monitored for all changes to the Curriculum and Common Core. 21st century teachers should stand up for themselves and their profession instead of sitting back. They should be attentive to what is happening in education and approach these issues directly. They should also protect their students. Today’s classrooms are filled with children who need to be watched, counseled, encouraged, and listened to. Effective teachers must share their knowledge and experience and act as role models for their students.

Быть учителю обучающей и обучаемой стороной одновременно как требование современного образования

Автор:

Нурлана Новрузи
Нахчыванский институт учителей
E-mail: nnurlana91@mail.ru

Ключевые слова:
педагогика, учитель, ученик, ИКТ, современный мир, образование

Аннотация. Одним из важных вопросов педагогики является принцип соотнесения обучения с современной жизнью. Это просто бессмысленное бремя для ученика, если преподаваемые знания не имеют ничего общего с современной жизнью или если он не знает, как использовать их в своей будущей жизни. В подобных случаях у учащихся снижается интерес к знаниям, обучению, становится труднее раскрыть свой потенциал. Поэтому учитель должен понимать ответственность за каждую тему и информацию, которую он преподает, должным образом донести до учащихся и привить им свои жизненные интересы. В первую очередь учитель должен обладать самосознанием, научно-теоретической подготовкой, широким кругозором, уметь отслеживать происходящие в мире и обществе события и делать выводы. Вместо того, чтобы сидеть на месте, учителя XXI века должны защищать себя и свою профессию. Они должны подходить к тому, что происходит в образовании, с осторожностью и прямой ответственностью. Сегодняшние классы заполнены детьми, которым нужно давать советы, поощрять и слушать. Эффективные учителя должны делиться своими знаниями и опытом и служить образцом для подражания для своих учеников.

Cəmiyyətimiz sürətlə inkişaf edir, texnologiyalar günbəgün yenilənir, təsəvvürlər dəyişir. Bu isə insanlar arasında fikirlərin səpələnməsinə, anlaşmazlıqların yaranmasına, fikir ayrılıqlarına və s. gətirib çıxarır. Pedaqoq və psixoloqları, ümumiyyətlə cəmiyyəti belə bir sual düşündürür. Bugünün sürətli inkişafı ilə biz nə dərəcədə uyğunluq təşkil edirik? Yetişməkdə olan nəsillə yetişkin nəsil arasında hansı fərqlər mövcuddur? Ənənəvi fikirli və inkişafı qəbul etməyən əksəriyyət yetişkinlərin düşüncəsi bu məsələnin bir tərəfi sayılır. İkinci tərəfdə isə sürətli inkişafa qoşulub, həyatı əsasən smartfonlardan izləyib beyni qarışmış uşaqlıq və gənclik dövrü insanlarının bunu yalnış istiqamətdə öz həyatlarına tətbiq etmək istəyi durur. Nə etməli? deyə bir sual yaranır. Çünki yeni nəslin öyrənməli olduğu şeylər çox müxtəlifdir. Ənənəvi təhsil formaları və ənənəvi düşüncəni "bayraq" edən müəllim və valideynlər onlara bunu öyrədə bilmir. Şagird və tələbələr media vasitəsilə yeni informasiyalar alırlar və çox vaxt bu, onlara gördüklərinin yanlış tərəflərini öyrədir. Bu yalnız şagird və gənclərə şamil olunmur, artıq hər bir insan həyatında sosial medyada gördüklərini axtarır.

Kaliforniyanın Stanford Universitetində sosial medyada "xoşbəxt" görüntülərə aldananlar üçün tədqiqat həyata keçirilir və bunun nəticəsini "Ördək sindromu" adlandırırlar. Belə ki, ördəklər göldə üzərkən heç bir əmək sərf etmirmiş kimi sakit və rahat şəkildə üzürlər ya da "üzürmüş" kimi görünürlər. Amma gölün altında qalan ayaqları isə maşın kimi dayanmadan işləyir. Lakin kənardan mənzərəni seyr edəndə bunu görmək mümükün deyil. Bu halda sosial mediada göstərilənlərin sadəcə həyatın bir anı olduğunu, bunları əldə etmək üçün ciddi təlim-tədris prosesinə yönəlməli olduqlarını yetişməkdə olan gənc nəslə aşılamaq ehtiyacı yaranır. Müəllim və valideynlər şagirdlərlə və öz övladları ilə söhbətlər aparmalıdır. Onlara izah edilməlidir ki ,yaxşı nəticələrin arxasında mütləq disiplinli çalışmaq, öz üzərində işləmək, öyrənmək və öyrəndiklərini tətbiq etmək qabiliyyəti durur. Həyatda heç nə asanlıqla əldə edilmir və ya əldə etmək üçün gediləsi mümkün yalnış yollardan çəkindirmək üçün bu gün biz müəllim və valideynlərin üzərinə ciddi iş, məsuliyyət və tətbiqetmə düşür. Bu isə əsasən təlim-tərbiyə zamanı tətbiq edilməlidir. Müasir dünyaya müasir üslubda təhsil lazımdır ki, gənclərə və uşaqlara müsbət dünyagörüşü bəxş etsin və dünya dünəndən daha parlaq bir yer ola bilsin.

Pedaqogika belə bir fikir təqdim edir: "Öyrənmənin əsasında zəruri tələbatlar durduğu kimi, həyat üçün zəruri olan bilik və təcrübənin nəsildən-nəslə ötürülməsi də həyati tələbatdan doğur" [3, s.5]. Yəni bu fikirdən yola çıxaraq qeyd etmək olar ki, təlim-təhsil prosesi həyatla əlaqələndi-rildiyi zaman müsbət nəticə almağa yaxınlaşırıq ki, bunun əsasında müəllimin hazırlıq dərəcəsi durur. Abbas Səhhət müəllimlərə müraciət edərək deyirdi: " Müəllim məcburiyyətdən sui-istifadə etməməlidir, onun fikirləri millətin tərbiyəsinə, xalqa şüurlu surətdə xidmət etməyə yönəlməlidir" [2, s.296].

Məktəblər hələ də uşaqlara ənənəvi qaydada təhsil verməyə meyllidir və buna görə də qarşıya qoyulmuş məqsədə nail olmaq çətinləşir. Müasir təhsil yeni bacarıqlar qazanmaq üçün bilik verməli və onları həyatımızda tətbiq etməyə kömək etməlidir. Texnologiya, əlbəttə ki, inkişaf etmişdir. Smartfonlar telefonları, təyyarələr isə gəmiləri və qayıqları əvəz edir. Yeni nəsil planetimiz haqqında bilinməyənləri bilməlidir və bu məlumatlar köhnə kitablarda və kurslarda yoxdur. Beləliklə, müasir təhsil ən yeni ixtiraların və kəşflərin öyrədilməsində mühüm rol oynamalıdır. Müasir gənclər sürətlə inkişaf edən bir cəmiyyətdə böyüyürlər və gələcəkdə bir çoxlarının yaşayış və iş tərzi öz valideynlərindən fərqlənəcək. Bazar iqtisadiyyatına keçid, yeni iqtisadi münasibətlərin formalaşması, müasir İKT-nin meydana gəlməsi ilə əlaqədar cəmiyyət sosial, iqtisadi və mədəni sahələrdə əsaslı dəyişikliklərin iştirakçısına çevrilir. Bu dəyişikliklər əhalinin artan təhsil ehtiyaclarını ənənəvi təhsil formaları ilə təmin edə bilmir. Cəmiyyətin informasiyalaşması, dünyada gedən qloballaşma prosesləri yeni təhsil modellərini formalaşdırır [4, s.168-170].

Pedaqogikada istinad olunan mühüm məsələlərdən biri təlimin müasir həyatla əlaqələndirilməsi prinsipidir ki, tədrisin səmərəliliyini artırmağa kömək edir. Əgər öyrədilən biliyin müasir həyatla əlaqəsi yoxdursa və ya gələcək həyatında necə istifadə edəcəyini bilmirsə bu sadəcə şagird üçün mənasız yükdür. Bu kimi hallarda şagirdlərdə biliyə, öyrənməyə maraq azalır, onların potensialını ortaya çıxarmaq çətinləşir. Ona görə də müəllim tədris etdiyi hər bir mövzunun və məlumatın məsuliyyətini anlamalı, düzgün şəkildə şagirdlərə çatdırmalı və

həyati maraqlarını onlara aşılamalıdır. İlk növbədə müəllimin özünün məlumatlılığı, elmi-nəzəri hazırlığı, geniş dünyagörüşü olmalı, gündəmi izləməli, dünyada və cəmiyyətdə baş verən hadisələrə hakim olmalı və nəticə çıxarmağı bacarmalıdır. Tədris prosesinin bu şəkildə qurulması şagirdləri praktik şəkildə sosial-iqtisadi mədəni həyatda iştirak etməyə hazırlayacaqdır [1, s.170].

Cəmiyyətdə və bütövlükdə dünyada çox böyük dəyişikliklər baş verir. İnformasiya texnologiyalarındakı irəliləyiş, müasir insanın yorucu qrafiki və s. bunun məhsuludur. Biz də dünyanın sürətlə dəyişməsi ilə özümüzü dəyişməli və övladlarımızı buna uyğun hazırlamalıyıq. Əvvəlki dövrlərdə uşağa təhsil vermək bu qədər çətin deyildi. Bu sürətli dəyişikliklə təhsil müəssisələrinin rolu kəskin şəkildə dəyişir. Məktəb artıq yeganə bilik mənbəyi olaraq qalmır. KİV-dən istifadə tələbə və şagirdlərə imkan verir ki, öz maraqlı zehinlərini asanlıqla təmin edə bilsinlər. Tələbələr artıq hər hansı məlumatı tapmaq üçün müəllimin köməyinə müraciət etmirlər. Bu bizi ən çox narahat edən suala gətirir ki, bəs bir vaxtlar önəmli sayılan müəllimlik peşəsi artıq tarixmi olacaq? Cavabında isə bu gün müəllimlik ən mürəkkəb və çətin işlərdən birinə çevrilib. Müəllimlər sadəcə məlumat verən ola bilməzlər, onlar məlumat verməli və şagirdlərinə onlarla necə mübarizə aparmalı olduqlarını öyrətməlidirlər. Onların əsas vəzifəsi qarşılarına məqsəd qoymaq və buna uyğun olaraq təlim prosesini təşkil etməkdir. Müasir dünyanın digər əsas narahatlığı isə uşaqların artıq böyük ailədə tərbiyə edilməməsidir. Üstəlik, uşağın böyüməsində və inkişafında ən üstün qurum sayılan ana iş qrafikinə görə övladının öhdəsindən səmərəli gəlmək üçün vaxt tapa bilmir. Müəllimin həm də valideyn rolunu oynaması gözlənilir və uşağı xarici dünyaya hazırlamaq vəzifəsi müəllimin üzərinə düşür. Bilik vermək əsas motiv olmaqla yanaşı müəllimlər həm də şagirdlərin şəxsiyyətini formalaşdırmağa çalışmalıdırlar. Biz onları həkim və mühəndis edirik, amma onları yaxşı vətəndaşlar kimi yetişdirmək kimi digər məsuliyyətimizi unutmamalıyıq. Yaxşı vətəndaşlar yetişdirmək bizim borcumuzdur. Çünki şagirdlər ölkənin gələcəyidir. Ölkənin çiçəklənməsi onların əlindədir. İmtahanlarında yüksək faiz əldə etmək tək məqsəd olmamalıdır. Həmçinin öyrəndiklərini tətbiq etmək bacarığı daha vacibdir. Tələbələr yüksək potensiallıdırlar. Onlar bizdən düzgün rəhbərlik və istiqamət tələb edirlər. Biz müsbət motivator olmalıyıq və gənc zehinlərin dünya ilə böyük inam və addımla üzləşməyə hazırlanmasını təmin etməliyik. XXI əsr müəlliminin qarşısına qoyulan 6 əsas xüsusiyyəti aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Adaptivlik: Müəllim hər şeyə uyğunlaşa bilməlidir. Yəni, müasir dünyada müəllim olmaq o deməkdir ki, siz daim dəyişən texnologiya və məktəblərdə tətbiq olunan dəyişikliklərə uyğunlaşmalısınız. Ağıllı lövhələr lövhələri, planşetlər isə dərslikləri əvəz edir və XXI əsr müəllimi bununla razılaşmalıdır.

2. Həyatı boyu öyrənmək: pedaqoqlar təkcə öz tələbələrinin ömürlük öyrənən olmasını gözləməməli, həm də özləri öyrənən tərəf olmalıdırlar. Onlar cari təhsil tendensiyaları və texnologiyasından xəbərdar olmalı və köhnə dərs planlarını daha aktual etmək üçün əvvəlki illərə nəzərən necə dəyişdirməli olduğunu bilməlidirlər.

3. Texniki cəhətdən fərasətli olmaq. Texnologiya sürətlə dəyişir. Ən son texnologiya, istər dərslər, istərsə də qiymətləndirmə üçün olsun, müəllim və şagirdə daha yaxşı və daha sürətli öyrənməyə imkan verəcək. Effektiv müəllim bilir ki, ən son məlumatlar və inkişaf haqqında öyrənmək onların tələbələrinin təhsilini həqiqətən dəyişdirə bilər. Ona görə də onlar nəinki yeni tendensiyaları öyrənməli, həm də onlara necə yiyələnməli olduqlarını bilməlidirlər.

4. Necə əməkdaşlıq edəcəyini bilmək: XXI əsrin effektiv müəllimi əməkdaşlıq etməyi və komanda daxilində yaxşı işləməyi bacarmalıdır. Son onillikdə bu mühüm bacarıq məktəblərdə kifayət qədər sürətlə inkişaf etmişdir. İdeyalarınızı və biliklərinizi başqaları ilə bölüşə bildiyiniz zaman öyrənmə daha effektiv sayılır.Təcrübənizi bölüşmək, ünsiyyət qurmaq və başqalarından öyrənmək öyrənmə və tədris prosesinin mühüm hissəsidir.

5. İrəli Düşüncəlik: XXI əsrin effektiv pedaqoqu tələbələrinin gələcəyi haqqında düşünməli və onlardan yarana biləcək karyera imkanlarından xəbərdar olmalıdır. Onlar həmişə heç bir uşağın geridə qalmamasını təmin etməyi planlaşdırmalıdır. Buna görə də diqqətlərini bugünkü uşaqları gələcəkdə olacaqlara hazırlamağa yönəltməlidirlər.

6. Peşə üçün vəkil olmaq: Onlar təkcə tələbələrinin deyil, peşələrinin də müdafiəçisidirlər.

Kurrikulumda və Ümumi Əsasda edilən bü-

tün dəyişikliklərə görə indiki müəllimlər diqqətlə izlənilir. XXI əsr müəllimi geri oturmaq əvəzinə özlərini və peşələrini müdafiə etməlidir. Onlar təhsildə baş verənlərə diqqətli olmalı və bu məsələlərə birbaşa yanaşmalıdırlar. Onlar da öz tələbələrini müdafiə etməlidirlər. Bugünkü sinif otaqları onlara baxmaq, onlara məsləhət vermək, təşviq etmək və dinləmək üçün ehtiyacı olan uşaqlarla doludur. Effektiv müəllimlər öz bilik və təcrübələrini bölüşməli və tələbələri üçün nümunə kimi çıxış etməlidirlər.

XXI əsrin tədrisi həmişə öyrədildiyi kimi, lakin bugünkü tələblərə uyğun texnologiya ilə öyrətmək deməkdir. Tədrisdə uğur üçün vahid plan yoxdur. Dünyada tədris prosesinin effektiv-liyinə artıran bir milyona yaxın müxtəlif yanaşma var. Ümumiyyətlə, iki müəllim eyni deyil və ola bilməz. Hər birinin özünəməxsus tədris tərzi və qaydası var. Ancaq tədris üçün heç bir plan olmasa da, müəllimlərin uğur qazanmaq istədikləri təqdirdə müəyyən bir yol var. Aşağıda hər bir müəllimin bilməli olduğu ümumi qaydalar toplusu verilmişdir. Bu qaydalar həm sinifdə, həm də sinifdənkənar tədrisin bütün istiqamətlərini əhatə edir.

1. Müəllim tələbələrinin maraqlarına uyğun hərəkət etməlidir. Tədris zamanı istər davranış və istərsə də dərs nümunəsini aşıladığı zaman özünə sual verməlidir: “Bunun mənim tələbələrimə nə faydası var?” Cavab tapa bilmirsə, seçimini yenidən nəzərdən keçirməlidir.

2. Əhəmiyyətli əlaqələr qurulmalıdır. Qarşılaşdığınız hər kəslə mənalı, əməkdaşlıq münasibətləri qurmağa diqqət yetirin. Tələbələriniz, həmyaşıdlarınız, idarəçiləriniz və valideynlərinizlə möhkəm əlaqələr qurmaq son nəticədə işinizi asanlaşdıracaq.

3. Qaydalar və gözləntilər haqqında tələbələrinizi məlumatlandırın. Dərsin ilk günündən qaydaları, gözləntiləri və prosedurları aydın şəkildə müəyyənləşdirin. Sonra onları tez-tez müzakirə edin və onlara istinad edin. Çünki tələbələr necə davranmalı olduqlarını bilmirlərsə, onların hərəkətlərinə görə məsuliyyət daşımaları gözlənilə bilməz.

4. Ədalətli və ardıcıl olun. Şagirdləriniz bunu izləyir və fərqləri tez görürlər.

5. Hər gün öyrənin. Tədris sizə öyrənmək üçün bir çox imkanlar təqdim edən bir səyahətdir, lakin siz onları qəbul etməyə açıq və istəkli olmalısınız. İllərdir sinifdə olsanız belə, hər gün tədrisinizi təkmilləşdirməyə çalışmalısınız

6. Problemlərinizi qapının arxasında buraxın. Heç vaxt şəxsi problemlərinizi və ya problemlərinizi sinif otağına gətirməyin – onları evdə buraxın. Tələbələriniz şəxsi həyatınızda nəyinsə sizi narahat etdiyini heç vaxt bilməməlidir.

7. Ailələri cəlb edin. Valideynlər övladlarının təhsilini yarada və ya poza bilər. Buna görə də müəllimlər valideynləri təlim prosesinə cəlb etmək üçün öz üzərinə düşəni etməlidir.

8. Tələbələrinizlə tanış olun. Tələbələrinizin nə etməyi sevdiyini öyrənmək və onların maraqlarını dərslərinizə daxil etmək üçün vaxt ayırın. Onları yalnız dərsə cəlb etmək üçün deyil, həm də onlara əhəmiyyət verdiyinizi göstərmək üçün onlarla münasibət və əlaqə qurun.

9. Dinləmək. Həmişə başqalarını, xüsusən də tələbələrinizi dinləməyə hazır olun. Təcrübənizi təkmilləşdirmək üçün onların rəylərindən istifadə edin. Müəllimlər başqalarının dediklərindən öyrənmək üçün vaxt ayırmalıdır. Çünki onlar mükəmməl olmadıqlarını bilməlidirlər.

10. Səhvlərə görə məsuliyyət daşıyın. Səhvlərinizə sahib olun və səhvlərinizi düzəldin – müəllimlərin hər şeyi bilməsi gözlənilmir. Səhvlərinizə diqqət çəkmək və səhvlərin öyrənməyinizə kömək etdiyini göstərməklə tələbələrinizə müsbət nümunə olun.

11. Digər müəllimlərdən məsləhət alın. Yoldaş müəllimlər sizin ən böyük resurslarınızdan biri ola bilər. Mümkün olduqda əməkdaşlıq edərək, hekayələr və materiallar paylaşaraq başqalarının əldə etdiyi təcrübələrdən yararlanın.

12. Çevik olun. Uyğunlaşmağa və dəyişməyə hazır olun. Tədrisdə ən yaxşı məqamlardan bəziləri kortəbiilikdən yaranır – dəyişməyə müqavimət göstərmək əvəzinə onu qəbul edin.

13. Həvəsləndirici olun. Tələbələrinizi motivasiya edin. Heç vaxt onlara heç nə edə bilməyəcəklərini söyləməyin. Onların istəklərini öyrənin və onlara məqsədlərinə çatmalarına kömək edin.

Ədəbiyyat

1. Sadıqov, F. Pedaqogika dərs vəsaiti. / F.Sadıqov. Adiloğlu; – Bakı: – 2012. – 551s.
2. Əhmədov, H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi./ H. Əhmədov, Elm və təhsil; – 2014. – 431 s.
3. Əliyev, İ. Pedaqogika. / İ. Əliyev. Naxçıvan; – 2017. – 280 s.
4. Mərdanov, M. Azərbaycan təhsili dünən, bu

gün, sabah. / M. Mərdanov, Təhsil; – Bakı: – 2006. – 297 s.
5. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. / Məktəb kurikulumları; – Bakı: 2015. – 215 s.
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: – 2012. – 400 s.
7. Kurikulumun hazırlanması və tətbiqi məsələləri. Təhsil XXI əsr. Bakı: – 2008. – 223 s.-4
8. Milli kurikulum.Yeni təlim metodları. Naxçıvan Müəllimlər İnstitutu. Məktəb; Naxçıvan: – 2012. – [2,137].
9. Novruzi, N.A. XXI əsr biologiyasının tədrisində IKT, riyaziyyat və mühəndisliklə əlaqənin qurulmasına dair. Naxçıvan Müəllimlər İnstitutu, Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər-2021 mövzusunda Respublika elmi-praktik konfransı./ N.A.Novruzi. Naxçıvan: 21 may 2021. – 187-189 s.
10. Kərimov, Y.Ş.. Təlim metodları. / Y.Ş.Kərimov. Bakı: – 2009. – 280 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 160-163
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 160-163
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 160-163

UOT

Valideynin məktəblə, müəllimlə əlaqəsinin uşağın şəxsiyyət kimi formalaşmasına təsiri

Müəllif:

Günel Nəcəfova
Mingəçevir Dövlət Universiteti
E-mail: gunel.necefova.35@mail.ru

Açar sözlər:
müəllim, şagird , tərbiyə, təlim, təhsil , şəxsiyyət

Annotasiya. Məktəblərimizdə müəllim və tərbiyəçilər uşaq şəxsiyyətin formalaşması yolunda bir çox üsul və tərbiyə vasitələrindən istifadə edirlər. Uşağın şəxsiyyətcə inkişafı özünü dərk etməsi və təkmilləşməsi, sərbəst olaraq oxuyub-öyrənməsi xüsusi əhəmiyyət daşıyır. Bu işdə onların valideynlərinin də rolunu unutmaq olmaz. Belə ki, ata-anası müntəzəm olaraq övladının təhsil aldığı məktəblə əlaqə saxlayanı şagirdin təlim tərbiyə prosesindəki uğurları labüddür. Onlar, istər məktəbdə, istərsə də evdə verilən tapşırıqları lazımi səviyyədə yerinə yetirir, məktəbə qarşı müsbət fikirli olurlar. Valideynlərin tədris prosesindəki fəallığı məktəbin inkişafına öz töhvəsini verir. Deməli, istər öyrədən, istərsə də məktəb valideynlərlə daima əlaqə saxlamalıdır. Bu əlaqə uşaqların şəxsiyyətinin inkişafına və formalaşmasına da yardım etmiş olur. Məktəblərimizdə təlim-tərbiyə işinin səviyyəsinin yüksəldilməsində şəxsiyyətin formalaşması probleminin əhəmiyyəti əvəzedilməzdir. Uşaqlar tədris prosesində təcrübəli müəllimlərdən bilik, bacarıq və vərdişlərə yiyələnir, tərbiyə olunurlar. Bu işdə öyrədənin qarşısında duran əsas vəzifə şagirdlərdə yüksək əxlaqi keyfiyyətləri formalaşdıra bilməkdir. Bu tərbiyə işi dərslərdə, dərslərarası tənəffüslərdə, oyun prosesində, bir sözlə hər an, hər saat həyata keçirilir.

The influence of the parent’s relationship with the school and the teacher on the child’s personality formation

Author:

Gunel Najafova
Mingachevir State University
E-mail: gunel.necefova.35@mail.ru

Key word:
teacher, student, education, education, personality

Abstract. İn our schools, teachers and educators use many methods and means of education for the formation of children’s personality. The child’s personal development, self-awareness and improvement, free study are of particular importance. The role of their parents in this matter should not be forgotten. Thus, the success of the student in the educational process is inevitable if his parents regularly communicate with the school where his child is studying. They perform the tasks given at school and at home at an appropriate level, and have a positive attitude towards school. Attendance is excellent. Going to school makes them happy. Parents’ activity in the educational process contributes to the development of the school. Therefore, both the teacher and the school should always communicate with parents. This relationship also helps in the development and formation of children’s personality. The importance of this important problem, the problem of personality formation, in raising the level of education in our schools is irreplaceable. Children acquire knowledge, skills and habits from experienced teachers in the educational process. The main task facing the teacher in this work is to be able to form high moral qualities in students. This educational work is carried out in classes, inter-class recesses, in the game process, in a word, every moment, every hour.

Влияние на формирование ребенка как личность отношений родителя со школой, с учителем

Автор:

Гюнель Наджафова
Мингячевирский государственный университет
E-mail: gunel.necefova.35@mail.ru

Ключевые слова:
учитель , ученик, воспитание , обучение , образование, личность

Аннотация. В наших школах учителя и воспитатели используют множество методов и средств воспитания на пути формирования детской личности. Личностное развитие ребенка имеет особое значение для его самореализации и совершенствования, свободного чтения и обучения. Нельзя забывать и о роли их родителей в этом деле. Успехи ученика в учебно-воспитательном процессе, родители которого регулярно контактируют со школой, в которой обучается их ребенок, очень важны. Они выполняют задания должным образом, будь то в школе или дома, положительно относятся к школе. Активность родителей в учебно-воспитательном процессе способствует развитию школы. Это означает, что учитель или школа должны постоянно поддерживать связь с родителями. Эта связь также способствует развитию и формированию личности детей. Дети в процессе обучения приобретают знания, умения и навыки у опытных учителей. Главная задача, стоящая перед учителем в этой работе, - уметь формировать у учащихся высокие нравственные качества. Эта воспитательная работа проводится на уроках, на переменах, в процессе игры, словом, в любое время, каждый час.

Bütün peşələr gözəldir. Amma, bütün peşələri və peşə sahiblərini yetişdirən bir peşə vardır ki, onsuz heç bir sənət, peşə öyrənilmir. Bu peşə müəllimlik peşəsidir.

Müəllimlik peşəsi haqqında görkəmli şəxsiyyətlərin fikirləri vardır. Mehriban davranışı, öyrənənlərinə olan münasibətilə daima sayılıb-seçilən olmalıdır - müəllim.

Öyrədənlə öyrənənlər arasındakı münasibət pedaqogika elminin əsas məsələlərindən biridir. Təlim-tərbiyə işinin lazımi səviyyədə təşkili, problemin həlli yollarının öyrənilməsindən asılıdır.

Öyrədən öyrənənləri həm tərbiyə, həm də təlim zamanı yaxşı tanımalı, onların bir şəxsiyyət kimi formalaşması işini dövrün tələbləri səviyyəsində qurmalıdır. Əbəs yerə deməyiblər ki, öyrədən şəxsiyyətin mənəvi dünyasının qurucusudur. Öyrənən isə öyrədənin aynasıdır. Bu da bir həqiqətdir ki, hər bir öyrədən və tərbiyə edən öyrənənlərini xalqını, millətini, vətənini sevən, bacarıqlı şəxsiyyət kimi görmək istəyir. Bu istəyin gerçəkləşməsi üçün öyrədənlərin üzərinə böyük bir məsuliyyət düşür. Bunun üçün səy göstərmək lazımdır. Vətəni, dövləti sevən, onu düşmənlərdən qorumağı bacaran şəxslər yetişdirmək böyük müəllim ordusunun üzərinə düşür. Bu baxımdan öyrədən öyrənənlərinə qarşı mehriban olmalıdır [4, s.249].

Öyrədən-öyrənən arasındakı münasibətlərdə yalnışlığa yol verilsə, öyrənənlərinə qarşı obyektiv olmazsa, qiymət verərkən ədalətli olmazsa, o heç bir zaman qarşısına qoyduğu təlim-tərbiyə məqsədinə nail ola bilməz. Öyrənənlərinin istər davranışlarında, istərsə də təlim müvəffəqiyyətində gerilik müşahidə olunacaq.

Öyrənənlərin işini dəyərləndirərkən, düzgün olmalı, əyrini də, düzü də deməlidir. Öyrənənlərin hər birinin xarakterini ayrı-ayrılıqda öyrənməli, onlara özlərinə uyğun davranılmalıdır. Bunun üçün psixologiyanı yaxşı bilməlidir. Makarenkonun təbirincə desək, öyrədən-öyrənən münasibətləri pedaqoji işdə ən mühüm məsələlərdəndir. İstər dərsdə olsun, istər ekskursiyada, tədbirlərdə, istərsə də dərsdənkənar vaxtlarda öyrədən onlarla həm ünsiyyətdə olur, həm də onlara elmi biliklər verir.

Təhsilin humanistləşdirilməsi prinsipindən baxsaq öyrənənə dərs saatında da, tənəffüsdə də doğru yöndən yanaşmaq onları doğru anlamaq öyrədənə şərait yaradır ki, təlim materialını onlara yaxşı mənimsədə bilsin. Eyni zamanda öyrənənlərə əxlaqi dəyərlərimizi yüksək səviyyədə aşılasın.

Öyrənənlərin şəxsiyyətinə, ləyaqətinə sayğı ilə yanaşılmalı, maraq və istəklərinə önəm verilməlidir. Onların dövlətimiz üçün, ata-anaları üçün nə qədər qiymətli olduqlarını hiss etdirmək, öyrənənlərin şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Öyrədən və öyrənən arasındakı münasibətlərin pisləşməsi öyrədənin qiymətləndirmə apararkən kiçik bir səhvə yol verməsindən irəli gəlir. Öyrənənlərin biliyini qiymətləndirərkən adil olmalı, tələblər və qaydalara riayət edilməlidir.

Müəllimin öyrənənlərin biliyinə verdiyi qiymət dəqiq olmalıdır. Şagirdin biliyinə verilən qiymət biliyin qiymətləndirilməsinə qoyulan tələblərə cavab verlidir. Bunun üçün öyrədən həmin qaydalara əməl etməlidir.

1. Öyrənənin aldığı qiyməti müəllim bir neçə kəlimə ilə anlatmalıdır. O, bilməlidir ki, niyə və nəyə görə bu qiyməti alıb. Belə olan halda öyrənənin dərsə, fənnə və öyrənməyə marağı artır. Aşağı qiymət aldıqda şagird fəndən nəyi zəif, nəyi daha yaxşı bildiyini, harada səhfə yol verdiyini öyrənir və çalışır ki, həmin səhfləri bir daha təkrarlamasın, aradan qaldırsın. Qiymətləndirmənin bu cür öyrənənlərin gözü qarşısında və onların iştirakı ilə verilməsi şagirdlərdə müəllimə inam hissini artırır. Yoldaşının harada, necə və nəyi yanlış bildiyini öyrənir və özləri həmin nöqsanlar yol verməməyə çalışırlar.

2. Öyrənənlərin təlim fəaliyyətinə verilən qiymət ədalətli olmalıdır. Belə ki, verilən qiymət onun bilik, bacarıq və vərdişlərindəki durumu necə var elə əks etdirdikdə pedaqoji kollektivin üzvləri də şagirdin biliyinin hansı dərəcədə olmasından doru nəticə çıxarır və bu sahədə lazımi tədbirlər həyata keçirə bilirlər. Şagirdin aldığı qiymət saxtalaşdırıldıqda öyrənən təkcə özünü deyil, uşağı valideynlərini, yoldaşlarını da aldatmış olur. Hər kəsdə şagirdin biliyinin normal olduğu fikri formalaşır və ya əksinə, verilən qiymət heç bir əsası olmadan aşağı salınarsa öyrənənin oxumağa, fənnə qarşı, müəllimə qarşı sevgisi azalır. Belə xoşagəlməz hal təlim-tərbiyənin keyfiyyətinin yüksəlməsinə də mənfi təsir edir. Öyrənənin davranış normalarına riayət edib-etməməsi onun biliyinə verilən qiymətə təsir etməməlidir. Onun üçün, yəni davranışın qiymətləndirilməsinin öz normaları var. Şagirdin sinifdə, kollektivdə mü-

nasibətlərindəki çatışmamazlıqlar onun fənlərdən aldığı qiymətə təsir göstərməlidir. Əks halda öyrədən kobud şəkildə səhvə yol vermiş olar. Qiyməti, müəllim cəza üsuluna çevirməməlidir. Şagirdin biliyinə qiymət verərkən onun nəyi necə dediyinə, tapşırığı necə yerinə yetirdiyinə deyil, həm də nə dediyinə, nəyi icra etdiyinə də müəllim fikir verməlidir. Şagird fikrini izah edərkən, ardıcıllığı, elmiliyi, sistemliliyi, sözlərin düzgün tələffüzünü gözləməlidir. Öyrədənin şagirddən bu cür tələbi digər şagirdlərin də həmin qaydalara əməl etmələrinə səbəb olur. Bu zaman uşaqlar təlim işinə daha məsuliyyətlə yanaşırlar. Dediklərimizin əksi olaraq, verilən təlimi tapşırıqların yerinə yetirilmə metoduna, üslubuna müəllim diqqət etməzsə, şagirdlərdə məsuliyyətsizlik, başdan etmə halları formalaşır. Şagirdlərdə müsbət əxlaqi keyfiyyətləri formalaşdırmaq üçün onların biliyinə verilən qiymət doğru, halal və düzgün olmalıdır.

Öyrənənlərin biliyi qiymətləndirilərkən onun dərs vaxtı təlim fəaliyyəti də göz önündə olmalıdır. Şagirdin biliyinin qiymətləndirilməsini hər müəllim dərsin (45 dəqiqəsinin) müəyyən vaxtında həyata keçirir. Belə ki, bəziləri ev tapşırığının yerinə yetirilib yetirilməməsinə və necə yerinə yetirilməsinə qiymət verir. Bəzisi, şagirdin həm dərs zamanı fəaliyyətini nəzərə alır, həm də evə verilən tapşırığın icra olunması durumunu. Bəziləri isə dərs boyu şagirdin fəallığını nəzərə alaraq sonda qiymətləndirmə aparırlar. Dərsin sonunda qiymətləndirmə aparan müəllimlərin sinifdəki təlim göstəriciləri keyfiyyətcə yüksək olur. Burdan belə bir sual ortaya çıxa bilər. Nəyə görə? Niyə? Ona görə ki, dərsin başlanğıcında qiymət alan uşaq, dərsin sonuna kimi fəallıq göstərməyə bilir. Onda “dərsdən qiymət almışam” deyə bir düşüncə formalaşır. Təəssüflər olsun ki, bu cür düşüncə tərzi həm yaxşı qiymət almış uşaqlarda, həm də pis qiymət almış uşaqlarda olur. Bu cür psixoloji hallar fərdi xarakter daşıyır. Qiymət alan şagidlərdə bu cür hal, düşüncə yaranmaya da bilər.

Öyrənənlərin biliyini dərsin sonunda qiymətləndirən müəllimlər onlarda bu cür mənfi halların baş qaldırmasının qarşısını alır. Öyrənənlər dərs boyu fəallıq göstərir. Sual-cavablarda iştirak edir və diqqətlərini müəllimə və dərsə yönəltməyi bacarırlar. Bu da fənnin mənimsənilməsinə, təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bu cür qiymətləndirmə aparan müəllimlər təlimdə yüksək nəticələr qazanırlar [4, s.343].

Hər bir fənn üzrə müəyyən olunmuş vaxtlarda yoxlamalar aparılır. Bu cür yoxlamaların məqsədi şagirdlərin fənni necə qavrayıb-qavramadıqlarını öyrənməkdən ibarətdir. Yoxlamaların nəticələri fənn birləşmələrində məktəbin pedaqoji şurasında, valideyn iclaslarında müzakirə olunur. Qazanılan uğur, səbəb olan amillər və ya uğursuzluq - onu yaradan amillər müzakirə olunur. Bu zaman məsələyə obyektiv yanaşılmalıdır. Bu işdə məktəb direktoru, müəllimlər və uşağın ata-anasının üzərinə məsuliyyət düşür.

Öyrənənlərin bilikləri qiymətləndirilərkən onların təlim bacarıqları ilə yanaşı, təlimi idrakları da nəzərə alınmalıdır. Təəsüflər olsun ki, öyrədənlərin çoxu şagirdin biliyini qiymənləndirərkən təkcə onun fənnə dair biliyinə diqqət edir, bu biliyin “Mənimsəmə” prosesinin mərhələləri olan (motivasiya, anlama, qavrama, möhkəmləndirmə, tətbiqetmə) idrakı fəaliyyət kənarda qalır. Niyə? Buna səbəb olan nədir? Kimi suallara belə cavab verə bilərik. Hal-hazırda orta məktəblərin ibtidai siniflərində çalışan əksəriyyət sinif müəllimləri təhsil alarkən bilik, bacarıq və vərdişlərin mənim-sənilməsində idrakı bacarıqların olduğunu unudurlar. Halbuki, öyrənmə zamanı idrakı bacarıqların diqqətə alınması vacibdir. Əgər öyrənəndə öyrənməyə maraq, həvəs yoxdursa, fənnə dair məlu-matları, müəllimdən, kitabdan və s. mənbələrdən almırsa, onları idrakın süzgəncindən keçirmirsə, gəldiyi nəticələri özününküləşdirib tətbiq edə bilmirsə, bu zaman öyrənmə baş verməyəcək. Sadəcə, əzbərləmə, müvəqqəti öyrənmə həyata keçirilmiş olacaqdır.

Ölkəmizdə təhsilin vəziyyətini müəyyən etməkdə, təhsildə yüksək nəticələr əldə etməkdə, öyrənənlərin təlim nəticələrinə və onların düzgün qiymətləndirilməsi işinə dövlət nəzarətinin və marağının olmasını unutmamalıyıq.

Qiymətləndirmənin dövlətimiz üçün də böyük əhəmiyyəti vardır. Verilən qiymət uşağın psixologiyasına bu və ya digər formada güclü təsir göstərir.

Öyrənənlərin biliyinin qiymətləndirilməsində əsas məqsəd onları öyrənməyə, inkişaf etməyə ruhlandırmaqdır. Öyrədən aldığı qiymətdən narazı qalan uşağa onun nə üçün belə qiymət aldığını izah etməli, onu inandırmalıdır. Öyrədən yuxarıda sadaladığımız məqamlara diqqət etməzsə, bu zaman öyrənənlə aralarında anlaşılmazlıq yarana bilər. Bu anlaşılmazlığı da aradan qaldırmaq

yenə də öyrədənin üzərinə düşür. Mehriban, səmimi ortam yaratmalıdır.

Öyrənənin nöqsanını qabarıq şəkildə gözə soxmaq lazım deyil. Əksinə, onunla təklikdə görüşüb söhbət etmək, mövcud olan nöqsanın haradan qaynaqlandığını müəyyənləşdirmək lazımdır.

Qiymətləndirmədə səhv etməmək üçün müəllim qiymətləndirmə meyarlarını yaxşı bilməlidir. Öyrənənlərin əvvəlki və sonraki inkişafını izləməli və buna görə qiymətləndirmə aparmalıdır.

Bəzən elə hallar olur ki, öyrədənlə öyrənən arasındakı anlaşılmazlıq böyüyür, buraya başqa səlahiyyətli insanlar da qarışmalı olurlar. Bu da öyrənəni pis vəziyyətdə qoyur, məktəbi tərk etməli olur. Öyrənənlərin təlimə marağını artırmaq və kəşf etmək öyrədənlərin üzərinə düşür. Onları gülərüzlə dindirməli, qiymət verərkən humanist olmalıdır.

Bəzən elə hallar olur ki, dərs saatı qurtarır, yəni öyrədən vaxt bölgüsündən düzgün istifadə edə bilmir. Öyrənənin cavabını sonuna qədər izləyə bilmir, onun cavabını aşağı qiymətləndirir. Bu da iki tərəf arasında narazılığın yaranmasına səbəb olur. Öyrənən dərslərindən zəifləməyə başlayır. Öyrənməyə, oxumağa həvəsi, marağı qalmır. Belə olan halda öyrədən nə etməlidir? Onun qəlbinə yol tapmalıdır. Şagirdin yenidən təlimə marağını bərpa etməlidir.

Belinskinin təbirincə desək, bu günün kiçik fidanları sabahın qurucularıdırlar. Onlara ehtiyatla yanaşmalıyıq.

Öyrədən seçdiyi peşəni- müəllimlik peşəsini sevməlidir. Əks halda, o insanla işləyə bilməz.

Metodları (həm təlim, həm tərbiyə) yaxşı bilməlidir.

İdeya-siyasi savadı yuxarı olmalıdır. Əks halda, pedaqoji təfəkkürün həm məzmununu, həm də mahiyyətini bilmədiyi üçün öyrədən və öyrənən arasındakı münasibətlərdə səhvlərə yol veriləcəkdir.

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə başçılıq etdiyi dövrdə təhsildə inkişaf, yenilənmə həyata keçirildi. Belə ki, təhsilin humanistləşdirilməsi prinsipindən tutmuş hər şey yeniləndi, yeni məna kəsb etdi.

Öyrədənlərin öyrənənlərə hörmətlə yanaşması, onlara bir şəxsiyyət kimi davranması onlardan yüksək pedaqoji qabiliyyət tələb edir. Pedaqoji qabiliyyəti yüksək olan öyrədənlər öyrənənlərinə təlim müvəffəqiyyətinin göstəricilərinə görə deyil, onlara humanist yanaşma sərgiləyərək təlim keyfiyyətinin artmasına nail olurlar.

Gənc öyrədənlər belə təcrübəli pedaqoqların iş təcrübəsini örnək almalıdırlar.

İşinin ustası olan öyrədənlər hər vaxt öyrənənlərinə qarşı olan səmimiyyəti qoruyub saxlamalı, onların qəlbinə toxunacaq söz deməməlidirlər. Öyrənənləri bir vətəndaş kimi görməli, suallarına düzgün, səbrlə cavab verməlidirlər. Bir sözlə, öyrədən-öyrənən arasında yaranan anlaşılmazlıqlar yerindəcə həll olunmalıdır. Bunun üçün öyrədən təcrübəli, savadlı olmalıdır. Öyrənənlərinə sevgisini, qayğısını göstərməklə yanaşı onlardan tələb etməyi də bacarmalıdır. Səhvlərini düzəltmək üçün səy göstərmirsə istədiyi nəticəni əldə edə bilməyəcəkdir. Öyrədən bu işdə ardıcıllığı gözləməlidir.

Bilirik ki, öyrənən olmasa təlim olmaz. Bu mümkün deyil. Müasir dövrdə iki tərəf (öyrədən və öyrənən) arasındakı münasibətlər dəyişir. Elm, texnika inkişaf etdikcə uşaqların dünyaya baxışı da dəyişir, yenilənir.

Hazırki təlimdə öyrənənlər təlimin aparıcı simalarıdırlar. Müstəqil olaraq araşdırır, fikir bildirirlər. Suallar qoyur, cavablar axtarırlar. Bu isə onların idrakını (elmi) formalaşdırır. Müstəqil surətdə əldə edilən bilik-əsil bilikdir, yaddan çıxmır, unudulmur.

Öyrədənlə öyrənən arasındakı münasibətlərin yaxşı olması üçün ilk növbədə öyrədən onlara şəxsiyyət kimi yanaşmalı, onların biliyinin qiymətləndirilməsində adil olmalıdır. Bu zaman hər iki tərəf qarşısına qoyduğu məqsədə çatmış olur.

Ədəbiyyat

1. Axundov, S. Ailədə uşaqların əxlaq tərbiyəsi / S.Axundov. - Bakı: Azərnəşr, - 1991, - 220 s.
2. Çələbiyev, N.Z. Ailə psixologiyası / N.Z.Çələbiyev. - Bakı: Mütərcim, - 2015. - 424 s.
3. Əlizadə, Ə.Ə., Abbasov, A.N. Ailə həyatının etikası və psixologiyası. Müəllim üçün vəsait / Ə.Ə.Əlizadə, A.N.Abbasov. - Bakı, - 1988. - 432 s.
4. Şahbazova, Q.T. Kiçikyaşlı məktəblərin ailə nümunəsində tərbiyə edilməsi / Q.T.Şahbazova. - Bakı: ADPU, - 2006. - 74 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 164-167
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 164-167
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 164-167

UOT

Müəllim məktəbin mərkəzi fiquru kimi

Müəllif:

Günel Səmədzadə
Bakı Slavyan Universiteti
E-mail: semedzade.g@mail.ru

Açar sözlər:
müasir müəllim, məktəb, şagird, təhsil, təlim prosesi, təhsil standartları

Annotasiya. Müəllim peşəsi tədris metodlarının, formalarının, texnologiyalarının davamlı təkmilləşdirilməsini tələb edir. Elə bu səbəbdən müasir müəllim daim öz üzərində işləməli və yeniliklərə açıq olmalıdır. Müəllimin yeniliyə hazırlığı özünü inkişaf etdirmə prosesində mühüm rol oynayır. Tələbə ilə qarşılıqlı əlaqəsində izahat və praktik iş, nəzəri hazırlıq və yaradıcılıq fəaliyyətinin rasional metodlarının tədrisi elementləri birləşdirilməlidir. Müəllimin fəaliyyəti uşağa sinifin bir parçası olmağı, bilik əldə etməyi, özünü inkişaf etdirməyi, özünü reallaşdırmağı öyrətməkdir. Uşağın müstəqil işləmək istəyinə, uşağın yaradıcılıq prosesinə müdaxilə etməkdən çəkinmək, layihələr üzərində işləməyi təşviq etmək, tələbələrin xüsusi hobbi və meyllərindən maksimum yararlanmaq bacarığına hörmət etmək lazımdır. Müəllim və şagirdin birgə fəaliyyəti onları davamlı fəaliyyətə, yaradıcılığa, elmi və publisistik ədəbiyyatla işləməyə, konkret hədəflər qoymağa, vəzifələri müəyyənləşdirməyə, təcrübələr aparmağa və tədqiqat fəaliyyətlərinə daxil olmağa təşviq edir.

The teacher as the central figure of the school

Author:

Gunel Samadzade
Baku Slavic University
E-mail: semedzade.g@mail.ru

Key word:
modern teacher, school, student, education, educational process, educational standards

Abstract. The teaching profession requires continuous improvement of teaching methods, forms, and technologies. For this reason, a modern teacher should work on himself and be open to innovations. The teacher's readiness for innovation plays an important role in the process of self-development. Elements of explanation and practical work, theoretical preparation and teaching of rational methods of creative activity should be combined in the interaction with the student. The activity of the teacher is to teach the child to be a part of the class, to acquire knowledge, to develop himself, to realize himself. It is necessary to respect the child's desire to work independently, refrain from interfering with the child's creative process, encourage working on projects, and make the most of students' special hobbies and inclinations. The joint activity of the teacher and the student encourages them to engage in continuous activity, creativity, work with scientific and journalistic literature, set specific goals, define tasks, conduct experiments, and engage in research activities.

Учитель как центральная фигура школы

Автор:

Гюнель Самедзаде
Бакинский Славянский университет
E-mail: semedzade.g@mail.ru

Ключевые слова:
современный учитель, школа, ученик, образование, образовательный процесс, образовательные стандарты

Аннотация. Педагогическая профессия требует постоянного совершенствования методов, форм и технологий обучения. По этой причине современный учитель должен работать над собой и быть открытым к инновациям. Важную роль в процессе саморазвития играет готовность учителя к инновациям. Во взаимодействии со студентом должны сочетаться элементы объяснения и практической работы, теоретической подготовки и обучения рациональным приемам творческой деятельности. Деятельность учителя заключается в том, чтобы научить ребенка быть частью класса, приобретать знания, развиваться, реализовывать себя. Необходимо уважать стремление ребенка к самостоятельной работе, не вмешиваться в творческий процесс ребенка, поощрять работу над проектами, максимально использовать особые увлечения и склонности учащихся. Совместная деятельность учителя и ученика побуждает их к постоянной деятельности, творчеству, работе с научной и публицистической литературой, постановке конкретных целей, постановке задач, проведению экспериментов, исследовательской деятельности.

Ölkəmizin çox sayda məktəbi innovativ fəaliyyətlə əhatə olunur, çünki indiki dövrdə yeniliklər olmadan uğur qazanmaq və pedaqoji bacarıqları lazımi səviyyədə inkşaf etdirmək mümkün deyil.

Yeni təhsil standartlarının tətbiqi ilə bağlı son dövrlərdə nəşr olunan məqalə və tezisləri iki hissəyə bölmək olar: yeni standartla köhnə standart arasındakı fərqləri izah edən və müasir müəllimə yeni tələblər dairəsini təsvir edən.

İkinci nəsil standartının əsas komponentlərindən biri kadr hazırlığıdır ki, onsuz məktəbdə uğurlu tətbiq mümkün deyil. Müəllim məktəbin mərkəzi fiqurudur. Qədimlərdən bəri müəllimə daim yüksək qiymət verilmişdir. Məmməd Səid Ordubadi deyirdi: "Müəllim cəmiyyət içində zor, güc, şiddət göstərməklə deyil, öz biliyi, bacarığı, mədəniyyəti, nəzakəti, gözəl davranış sadəliyi, insanpərvərliyi və s. ilə əhali arasında nüfuz qazanmalıdır" [1, s.64].

Müəllim peşəsi tədris metodlarının, formalarının, texnologiyalarının davamlı təkmilləşdirilməsini tələb edir. "Təhsil haqqında" qanuna və əmək qanunvericiliyinin normalarına görə, müəllim hər beş ildən bir kurs hazırlığı çərçivəsində peşə səriştəsini artırır. 1998-ci ilin martında "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncam imzalandı və bunun ardınca "Təhsil sahəsində islahatlar Proqramı" qəbul edildi. Komissiyanın yekun iclasında çıxış edən Heydər Əliyev demişdir: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır" [2, s.520].

Əsas peşə təhsili və lazımi keyfiyyətlərə sahib olmaq, peşə fəaliyyətində yeniliklərə qadir olmaq, metodoloji mədəniyyət səviyyəsinə və həyatı boyu təhsilə formalaşmış hazırlıq səviyyəsinə sahib olmaq məcburiyyətində qalır. Elə bu səbəbdən müasir müəllim dail öz üzərində işləməli və yeniliklərə açıq olmalıdır.

Dövlət təhsil standartına uyğun olaraq pedaqoji fəaliyyətin xarakteri dəyişdirilir. Məktəbdə həyata keçirilən tədrisin əsasları müəllimlərin uşaqlara bilik əldə etmə üsullarını öyrətmək, məktəblilərin təhsil fəaliyyətini və düşüncəsini formalaşdırmaq imkanına malik olmasını tələb edir. Müasir pedaqoji vəziyyət dinamizmlə xarakterizə olunur ki, elə bunun nəticəsində müəllimin təlimin məzmununda baş verən dəyişikliklərə uyğunlaşması labüd hall alır. Müəllimin yeniliyə hazırlığı özünü inkişaf etdirmə prosesində mühüm rol oynayır.

Müəllim hazırlığının əsas komponentləri:

- mövzunu dərindən bilmək;
- əldə edilmiş bilikləri həyata keçirmək;
- stresli vəziyyətdə sabit olmaq.

Yeni nəsil müəllim necə olmalıdır? Bu sual zaman-zaman kadr hazırlığını həyata keçirən pedaqoqları düşündürür. Müəllim bilikli, davranışda çevik, tədris etdiyi fənnə hakim, həyatın bütün təzahürlərində həvəsli və uşaqları ovsunlaya bilən olmalıdır.

Müəllim özünü aşağıdakı bir-biri ilə əlaqəli xüsusiyyətlərdə göstərməlidir: uşaqların psixoloji, fizioloji, yaş xüsusiyyətləri, habelə onların inkişaf yolları və şərtləri haqqında dərin bilikləri özündə cəmləşdirən ümumi erudisiya; müəllimin şəxsi keyfiyyətləri, pedaqoji fəaliyyət tərzi, şagird və başqaları ilə ünsiyyət xarakteri. Müasir müəllim şagirdlərinə yalnız zəruri pedaqoji bacarıq komponenti bəxş etmir. O eyni zamanda genişləndirilmiş fənn biliklərini uğurla ötürməklə yanaşı tələbələrinə fənnə dair bilik və bacarıqları, əldə edilmiş biliklərin müəyyən bir vəziyyətdə tətbiqini öyrətməyi qarşısına ən ülvi amal olaraq məqsəd qoyur.

Dövlət təhsil standartlarının tətbiqi ilə bağlı materialların təhlili dövlət təhsil sisteminin müəllimə əsas rol verdiyini göstərir. Müəllim rol modeli olmalı, daim axtarışda olmalı və özünütəhsil ilə məşğul olmalıdır. Yeni standartlar üzərində işləmək müəllimin peşəkar səriştəsinin artırılması məsələsini aktuallaşdırır.

Müasir standartının fərqli bir xüsusiyyəti onun fəaliyyət xarakteridir və əsas məqsəd şagird şəxsiyyətinin inkişafıdır. Standart real fəaliyyətləri göstərir. Əsas ümumi təhsil standartının həyata keçirilməsi layihə və tədqiqat fəaliyyətinin tədris praktikasına daxil edilməsini əhatə edən sistem-fəaliyyət yanaşmasına əsaslanır. Qeyd etmək lazımdır ki, dərslərdə və dərsdənkənar vaxtlarda məktəb müəllimləri öz fəaliyyətində müasir təhsil modelləri və yeni təlim texnologiyalarından geniş istifadə edirlər.

Müasir məktəbin müəllimi təkcə bütövlükdə dərsi deyil, həm də şagirdin dəyişkən fəaliyyətini planlaşdırmağa rəhbərlik edir. Burada müəllim daha çox şagirdin düşüncə tərzini izləməlidir. Çünki, müəllimin peşə fəaliyyətinin əsas komponenti bilik ötürücü olmaq deyil, şagirdin təhsil

mühitini dizayn etməkdir. Müəllimin fəaliyyəti uşağa sinifin bir parçası olmağı, bilik əldə etməyi, özünü inkişaf etdirməyi, özünü reallaşdırmağı öyrətməkdir.

S.Quliyevin fikrincə, müəllimin fəaliyyətinin səmərəliliyi şərtləri bunlardır:

• peşəkar səriştəlilik,

• elmi, nəzəri və metodik hazırlıq,

• şagirdin çətinliklərinin səbəblərini müəyyənləşdirmək və ona lazımi kömək göstərmək,

• şagirdin hərəkətlərini və bütövlükdə inkişafını proqnozlaşdırmaq,

• nəzarət və diaqnostik hərəkətləri şagirdin inkişaf trayektoriyasının təhlili və onunla işləmək məqsədləri ilə əlaqələndirmək,

• fəaliyyətlərini planlaşdırmaq və şagirdin planlaşdırılmasını öyrətmək,

• uşaqda müsbətləri tapmaq və qiymətləndirmək [3, s.48].

Müəllimin peşə səriştəsindən danışarkən, tədris olunan fənn sahəsində məktəb tədris proqramından kənara çıxan geniş erudisiyanı da qeyd etmək lazımdır. Bu, müəllimin ünsiyyətdə şagird üçün maraqlı olmasına imkan verir. Müəllim şagirdin suallarına cavab verə və ona bir çox əlavə məlumat verə bilir. Onun səriştəsi çərçivəsində fənnə şagirdlərin fərdi xüsusiyyətlərinin diaqnozu, bilik sahəsindəki məlumatlılıq daxil edilməlidir.

Müəllim mövzuya marağı artırmağa, uşağın intellektual inkişafı üçün şərait yaratmağa, diaqnostik nəticələri nəzərə alaraq fərdi yanaşmadan istifadə etməyə yönəlmiş şagirdlərlə işi məharətlə planlaşdırmağa hazır olmalıdır. Şagird ilə qarşılıqlı əlaqəsində izahat və praktik iş, nəzəri hazırlıq və yaradıcılıq fəaliyyətinin rasional metodlarının tədrisi elementləri birləşdirilməlidir.

Müasir məktəbin müəllimi şagirdlərlə birgə əməkdaşlıq zamanı onların fəaliyyətini stimullaşdırmalı, onlara vaxtında kömək göstərməli, özünə inam təşviq etməlidir. Müəllimin təşkil etdiyi fəaliyyət müxtəlif olmalı və müəllim-şagird fəaliyyətinin geniş forma, metod, texnologiya və innovativ modellərini birləşdirməlidir. Analitik, diaqnostik və dizayn bacarıqlarını mükəmməl bilməli, şagirdin inkişaf məqsədlərinə çatması üçün təlim prosesindən düzgün istifadə etməyi bacarmalıdır. Onun vəzifələrinə uşağın fəaliyyətinin və inkişafının tənzimlənməsi, qiymətləndirilməsi və öyrənməyə təşviqi, inkişaf vəziyyətlərinin modelləşdirilməsi və şagirdlərin enerji resurslarının səfərbər edilməsi daxildir.

Müəllimin dövlət təhsil standartını həyata keçirməyə hazırlığı, müvafiq dəyər yönümlərinin olması, peşəsinə, mövzusuna olan sevgisi çox şeyi müəyyənləşdirir. Təcrübə göstərir ki, şagird üçün ən sevimli mövzu sevimli müəllimin öyrətdiyi mövzudur.

Metodist alim Tomas Brage "Məktəbdə ədəbiyyat haqqında" kitabında bir mütəxəssisin peşəkar səriştəsinin yalnız peşəkar (əsas) elmi biliklərlə deyil, həm də dəyər istiqamətləri, fəaliyyət motivləri, dünyada və ətraf aləmdə özünü dərk etməsi, insanlarla münasibət tərzi, ümumi mədəniyyət, inkişaf qabiliyyəti, yaradıcılıq potensialı ilə müəyyən edildiyini vurğulayır [4].

Müəllimin səriştəsinə şagirdlərin tədris prosesinin təşkili, müasir təhsil tədris texnologiyalarından, o cümlədən informasiya və kommunikativ texnologiyalardan istifadə, tədris və metodiki, informasiya texnologiyalarından istifadə etmək, daim peşəkar və intellektual inkişaf etmək daxildir.

Müəllimin peşə keyfiyyətləri aşağıdakı bacarıqlara əsaslanır: tədris planına uyğun işləmək, şagirdlərə məsləhət vermək, müstəqil bilik əldə etməkdə kömək etmək. Uşağın müstəqil işləmək istəyinə, uşağın yaradıcılıq prosesinə müdaxilə etməkdən çəkinmək, layihələr üzərində işləməyi təşviq etmək, şagirdlərin xüsusi hobbi və meyllərindən maksimum yararlanmaq bacarığına hörmət etmək lazımdır. Müəllim hər bir şagirdinin fərdi xüsusiyyət və qabiliyyətlərini bilməlidir ki onlardan təlim prosesində düzgün istifadə edə bilsin.

Müəllimin şagird ilə işinin müvəffəqiyyəti əsasən bu uşağa xas olan fərdi idrak strategiyalarından asılı olan seçilmiş iş strategiyasının düzgünlüyündən asılıdır. Ənənəvi müəllim dinləməkdən daha çox danışmağa alışır. Ənənəvi tədrisdə müəllim şagirdləri kifayət qədər əməkdaşlığa sövq etmir. Müəllimin izahatı zamanı diqqətini başqa bir şeyə yönəldən şagird, yeni mövzunu mənimsəməkdə çətinlik çəkir. Əgər belə bir hadisə təlim tapşırıqları zamanı baş verərsə, şagird lazımi bacarıqları inkişaf etdirmir və materialın mənimsənilməsində və qiymətləndirmədə bir qüsur qoyur.

Müəllimin yeni standartlara uyğun fəaliyyəti yalnız təzahürlərin müşahidəsi və fiksasiyası ilə məhdudlaşmadığından, şagirdin hərəkətlərinin təhlili, düşüncələrinin gedişatı və istiqamətləri

barədə məlumatlılığı, çətinlik və səhvlərinin səbəblərini müəyyənləşdirmək üçün daha müxtəlif fəaliyyətlər nəzərdə tutur. Bu fəaliyyətlərdən biri də şagirdlərdə müxtəlif yollarla biliklərin möhkəmləndirilməsi və bacariğa çevrilməsidir. N.Tusi qeyd edir ki, hər bir şagird dərslərdə öyrəndiklərini unutmamalı, onları təkrarlamaqla mənimsəməlidkir. Çünki, elmin düşməni onu unutmaqadır. Bunun üçün o, Həsən Bəsrinin aşağıdakı sözlərini daim yadda saxlamağı məsləhət görürdü: "Elmlərin cilovunu əldən buraxmayın, elmlər şahlıq quşuna oxşayırlar. Bəzən başa qonarlar, bəzən başdan uçarlar". Daha sonra o yazır ki, elmi biliklərə malik olan adam bilməlidir ki, o, şərəfli bir neməti, böyük bir sərvəti, bitməz-tükənməz bir bir dövləti mühafizə edir. [5, s.52]

S.Quliyevin qeyd etdiyi kimi, dövlət təhsil standartının tətbiqi kontekstində müəllimə olan tələblər yüksəkdir: elmi tədqiqatlarla məşğul olmalı, metodik inkişaflar etməli, iş təcrübəsini təsvir edə bilməlidir (3, 29) .

Tədqiqat hərəkatı məktəblilərlə işləməkdə inkişaf edir. Məktəblilər arasında elmi konfranslar keçirmək ənənə halına gəlməlidir. Müəllim və şagirdin birgə fəaliyyəti onları davamlı fəaliyyətə, yaradıcılığa, elmi və publisistik ədəbiyyatla işləməyə, konkret hədəflər qoymağa, vəzifələri müəyyənləşdirməyə, təcrübələr aparmağa və tədqiqat fəaliyyətlərinə daxil olmağa təşviq edir. Hər il məktəblilər işlərinin nəticələrini təqdim etdikləri konfranslarda, disputlarda, yarışlarda, sinfdənxaric, məktəbdənkənar tədbirlərdə iştirak etməlidirlər.

Ədəbiyyat

1. Camalov, K.H. Mollanəsrəddinçilər və ailə-məktəb problemi / K.H.Camalov, - Bakı: ADPU. - 2017, - s.340
2. Rüfət Lətif oğlu Hüseynzadə Azərbaycan məktəb və pedaqoji fikir tarixi Dərs vəsaiti / Rüfət Hüseynzadə, - Bakı: ADPU. -2020. - s.538
3. Quliyev, S.M., İsimxanov. Müəllimlik ixtisasına giriş / S.M.Quliyev,.- Bakı: ADPU. - 2015, - s.224
4. https://portal.research.lu.se/en/persons/tomas-brage
5. Məmmədov, K.A. Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr / K.A.Məmmədov, - Bakı: Mütərcim. - 2017, -s.188.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 168-171
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p.168-171
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 168-171

UOT

Ali təhsil müəsssələrində tələbələrin elmi tədqiqat bacarıqların inkişafı haqqında

Müəlliflər:

Nailə Qardaşbəyova
Naxçıvan Dövlət Universiteti
E-mail: naileqardashbeyova@gmail.com

Billurə Hacıyeva
Naxçıvan Dövlət Universiteti
E-mail: billur_haciyeva@mail.ru

Açar sözlər:
təhsil, tədqiqat, elm, metodika

Annotasiya. Məqalədə çoxpilləli təhsil sistemində tələbələrin elmi-tədqiqat fəaliyyətinin əhəmiyyətindən bəhs edilir. Tələbələrin elmi-tədqiqat işinə cəlb olunması ali məktəb fəaliyyətinin əsas vəzifələrindən biridir. Ali təhsil müəssisələrində elmi işlərin nəticələrinin tədris prosesinə tətbiq edilməsinə meyl getdikcə artır, aparılan elmi-tədqiqatların keyfiyyətinin artırılmasına diqqət yetirilir. Tələbələrin elmi-tədqiqat işi tədris prosesinin ən vacib komponentlərindən biridir. Tələbələr konfranslarda, olimpiadalarda iştirak edir və bütün bunlar tələbələrə gələcək elmi-tədqiqat işlərində daha da yüksək səviyyədə işləmələrinə köməklik etmək imkanı verir. Əldə olunan metodiki biliklər elmi-tədqiqat işlərinin ali məktəblərdə tədris olunan bütün elm sahələri üçün dəyərlidir. Bütün bu yanaşmalar tələbələrin elmi təfəkkürünün inkişafına, onlarda yeni ideyaların təbliğinə təkan verir.

On the development of scientific research skills of students in higher education institutions

Authors:

Naila Kardashbeyova
Nakhchivan State University
E-mail: naileqardashbeyova@gmail.com

Billura Hajiyeva
Nakhchivan State University
E-mail: billur_haciyeva@mail.ru

Key word:
education, research, science, methodology

Abstract. The article talks about the importance of students' scientific-research activities in the multi-level education system. Involvement of students in scientific-research work is one of the main tasks of higher school science. . In higher education institutions, the tendency to apply the results of scientific work to the teaching process is increasing, and attention is paid to improving the quality of conducted scientific research. Scientific research work of students is one of the most important components of the educational process. Students participate in conferences, Olympiads, and all this gives students the opportunity to help them work at an even higher level in future scientific research. The obtained methodical knowledge is valuable for all scientific fields of scientific-research works taught in higher schools. All these approaches encourage the development of students' scientific thinking and promotion of new ideas in them.

О развитии научно-исследовательских способностей студентов в высших учебных заведениях

Авторы:

Наиля Гардашбекова
Нахчыванский государственный университет
E-mail: naileqardashbeyova@gmail.com

Биллура Гаджиева
Нахчыванский государственный университет
E-mail: billur_haciyeva@mail.ru

Ключевые слова:
образование, исследование, наука, методология

Аннотация. В статье говорится о значении научно-исследовательской деятельности студентов в многоуровневой системе образования. Вовлечение студентов в научно-исследовательскую работу является одной из основных задач высшей школы науки. . В высших учебных заведениях усиливается тенденция к применению результатов научной работы в учебном процессе, уделяется внимание повышению качества проводимых научных исследований. Научно-исследовательская работа студентов является одной из важнейших составляющих образовательного процесса. Студенты участвуют в конференциях, олимпиадах, и все это дает студентам возможность помочь им работать на еще более высоком уровне в будущих научных исследованиях. Полученные методические знания ценны для всех научных направлений научно-исследовательских работ, преподаваемых в высшей школе, все эти подходы способствуют развитию научного мышления студентов и продвижению в них новых идей.

Məlumdur ki, cəmiyyətin sosial-iqtisadi tələbləri təhsilin elmi-nəzəri və məzmunu, sosial-humanitar istiqamətini müəyyən edir. Digər tərəfdən ölkədə təhsilin təşkili, səviyyəsi əhatə dairəsi, idarə olunması, inkişaf yolları, cəmiyyətin müxtəlif qurumlarının təhsilə münasibəti bütövlükdə həmin ölkənin bu günü və gələcəyi haqqında fikir söyləməyə əsas verir.

XXI əsrin əvvəllərində Azərbaycan təhsil sisteminin yenidən qurulması və bu işlərin pedaqoji innovasiyalardan istifadə olunmaqla yerinə yetirilməsi prioritet problem hesab edilir. Prioritet ümumi təhsildə STEM yanaşmasının tətbiqidir. Bu yanaşma təbiət, texnologiya, mühəndislik və riyaziyyat fənlərinin tədrisinin ayrı-ayrılıqda deyil, əlaqəli şəkildə öyrədilməsini və tələbələrdə və şagirdlərdə "XXI əsr bacarıqları"nın formalaşdırılmasını nəzərdə tutur. Bu istiqamətdə ali təhsil müəssisələrində robototexnika, nanotexnologiya, süni intellekt, mexanika kimi sahələri əhatə edən məzmunun tətbiqi geniş şəkildə öyrənilir.

Artıq elm sahəsində əhəmiyyətli təşəbbüslərdən biri ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın daha da genişlənməsidir. Bu baxımdan bəzi ixtisaslaşdırılmış universitetlərdə klasterlər yaradılmalı, elmi nəticələrin istehsala tətbiqi stimullaşdırılmalı, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksəldilməli, innovasiyaların kommersiyalaşdırılması ilə bağlı hədəflərə nail olunmalıdır. Bütün bunların həll olunması üçün yeni pedaqoji araşdırmalara ehtiyac duyulur. Təhsil sistemdir, təhsil prosesdir, təhsil dəyərdir. Bu dəyərləri gələcək nəsillərə ötürən vasitə isə təhsildir.

Pedaqoji texnologiya yalnız təhsilin elementi kimi deyil, həmçinin onun məqsədi, məzmunu, prosesi və nəticəsi kimi xidmət göstərir. Təlim texnologiyaları pedaqoji prosesə sistemli, elmi və ardıcıl şəkildə tətbiq edildikdə o, təhsilin ayrılmaz bir hissəsinə çevrilir. Ali təhsilə başlayan tələbələr müəyyən vərdişlərə sərbəst şəkildə yiyələnmək məcburiyyətində qalırlar. Elmi problemin qoyulması tədqiqat işləri hər şeydən öncə praktiki problemlərin həlli ilə məşğul olur və əldə olunan nəticələr sonralar nəzəriyyənin inkişafına yönəldilir. Onlar həmçinin yeni hadisələrin dərk edilməsində yaranan çətinliklərin aradan qaldırılmasında, əvvəllər məlum olan faktların izah olunmasında və yaxud köhnə faktların kifayət qədər araşdırılmadığı hallarda yerinə yetirilir. Elmi–tədqiqat işləri təkcə problemin qoyulması ilə bitmir, burada problem daimi diqqət mərkəzində olur. Elmi işin səviyyəsi qoyulan problemin aktuallığı ilə ölçülərək, bir çox obyektiv və subyektiv amillərdən asılıdır. Elmdə problem əsasən situasiyalarda mövcud nəzəriyyələrlə izah oluna bilməyən yeni faktların kəşfi ilə ortaya çıxır. Elmi problem elmi–praktiki araşdırılması vacib olan elmi biliyin forması olub, tərkibində insanlara məlum olmayan faktlar daşıyır. Problemdə onun empirik və nəzəri tərəfləri birləşir. Əsas şərtlərdən biri problemin məlum faktlar əsasında düzgün qoyuluşu və onun uğurlu həllidir. Bunun üçün sadəcə mühazirələrdən istifadə edilməsi kifayət etmir, çünki mühazirə sırf bir fənn üzrə məlum olan biliklərin sadə dildə tələbələrə çatdırılmasını qarşısına məqsəd qoyur. Lakin yalnız mühazirələrdən istifadə etməklə hər hansı verilmiş bir tapşırığın yerinə yetirilməsi olduqca çətin məsələdir. Burada elmi işlərin tərtibi xüsusi ədəbiyyatlarda təsvir olunmuş metodiki göstərişlərin köməyi ilə həyata keçirilir. Belə ədəbiyyatlar ümumi bilik bazasına əsaslanaraq tapşırığın deduktiv yolla başa düşülməsinə, onun həll olunmasına kömək edir.

Ali təhsil müəssisəsində tələbələrin elmi tədqiqat işinin təşkili, elmi tədqiqat işi sisteminin metodoloji əsasları müasir dövrdə istehsal texnologiyalarının informasiyalaşdırması ilə əlaqədar xüsusi informasiyaların (elmi, texniki, texnoloji və s.) həcmi sürətlə artır. Belə bir şəraitdə hazır biliklərin mənimsənilməsinə və təqdim olunmasına əsaslanan təlim texnolo¬gi-yaları rasional və perspektivli hesab olunmur. Tələbələrin yaradıcılıq qabiliyyətinin yüksəl-dilməsi və intellektual səviyyəsinin formalaşdırılmasına yönəldilmiş təhsil texnologiyalarından istifadə edilməsi vacibdir. Ali məktəbdə təhsilə qədəm qoymaqla gənclərin həyatında yeni mərhələ başlayır. Ali təhsilin əsas məqsədi də elə buradan irəli gələn özünütəşkiletmə və sərbəst işləmə kimi amillərlə müşaiyət olunan bir inkişaf prosesindən ibarətdir. [3].

Əldə olunan metodiki biliklər elmi– tədqiqat işlərinin ali məktəblərdə tədris olunan bütün elm sahələri üçün dəyərlidir. Ali məktəblərdə aparılan elmi tədqiqatların müasir səviyyədə aparılması və keyfiyyətinin yüksəldilməsi təmin olunmalıdır. Ali məktəblərdə elmi tədqiqatlar həm kafedralarda, həm də elmi tədqiqat müəssisələrində aparılır. Elmi-texniki potensialın – tə-

dqiqatçıların təkrar istehsalını təmin edən elm və təhsil strukturlarının bib-biri ilə qarşılıqlı əlaqəsi, təhsilin elmlə sintezi olmadan müasir təhsil inkişaf edə bilməz. Bu proses eyni zamanda ali məktəblərin pedaqoji potensialını inkişaf etdirməyə, tədris proqram və kurslarının məzmununu, təhsil texnologiyalarını və metodlarını yeniləşdirməyə imkan verir. Elm və təhsilin gələcək inteqrasiyasını təmin etmək üçün elmi tədqiqatların ali məktəb, sahə və akademik bölmələrinin bir sıra sahələrində yaranmış əlaqəsizliyin aradan qaldırılmasına yönəldilmiş tədbirlərin hazırlanması və mərhələlər üzrə həyata keçirilməsi tələb olunur. Ali məktəb elmi ixtisas profilinə uyğun olaraq təhsil prosesinin daim təkmilləşdirilməsini təmin etməklə bərabər dövlət sifarişlərinin, müqavilə və kontraktlar əsasında proqramların, layihələrin yerinə yetirilməsində fəal iştirak edir. Bu məqsədlə ali məktəblərdə kafedralarla yanaşı elmi-tədqiqat laboratoriyaları və s. yaradılır.

Tələbələrin elmi-tədqiqat işinə cəlb olunması ali məktəb elminin əsas vəzifələrindən biridir. Tələbəyə elmi tədqiqat işinin proqramının və ya təqvim planının tərtib edilməsi, tədqiqatlara başlamazdan əvvəl istifadə ediləcək ədəbiyyat mənbələrindən məlumatların toplanıb təhlil edilməsi, təqvim planında nəzərdə tutulan digər işlərin yerinə yetirilməsi, tədqiqat işinin nəticələrinin təhlil və şərh edilməsi, onları özündə cəm edən hesabatın, tələbə konfranslarında iştirak etmək üçün məruzələr və müasir texnologiyalar əsasında təqdimatın hazırlanması sahəsində biliklərin əldə edilməsi və təcrübə vərdişləri aşılanmalıdır. Ali təhsil müəssisələrində elmi işlərin nəticələrinin tədris prosesinə tətbiq edilməsinə meyl getdikcə artır, aparılan elmi tədqiqatların keyfiyyətinin artırılmasına diqqət yetirilir.

Elmi tədqiqat işi tədris prossesinin ən çətin komponentlərindən biri olaraq, tələbələrin motivasiya sferasını, tədqiqat prosesi üçün zəruri olan elmi biliklərin metod və formalarını özündə cəmləşdirən və elmi rəhbərin - müəllimin iştirakı ilə həyata keçirilən tədris işinin əsas hissəsidir.

Tədqiqat yalnız xüsusi istedadlı və bacarıqlı tələbələrin davamlı şəkildə işə cəlb edilməsinə deyil, eyni zamanda hər bir tələbənin yaradıcılıq prosesində bu və ya digər şəkildə iştirakına kömək etməlidir.

Tələbələrin elmi tədqiqat işi tədris prosesinin ən vacib komponentlərindən biridir. Tələbələr konfranslarda, olimpiadalarda iştirak edir və bütün bunlar tələbələrə gələcək elmi tədqiqat işlərində daha da yüksək səviyyədə işləmələrinə köməklik etmək imkanı verir. Seminar və konfranslar üçün nəzərdə tutulan material mühazirələr, sorğu kitabları və əlavə ədəbiyyatdan müəyyən tapşırıqlar və tələblər də qoymaq olar. Bu tələblərə müşahidə aparmaq, xülasə hazırlamaq, ölçmələr aparmaq, model hazırlamaq, sxem çəkmək, ümumləşdirici cədvəl hazırlamaq və s. misal göstərmək olar.[1]

Tədqiqat işlərinin yerinə yetirilməsi prosesində tələbələrə müxtəlif təcrübələr, yeni materiallar, tədqiqatlar, hesablamalar aparmaqla həll edilməli olan konkret tapşırıqlar verilir. Bu tapşırıqların yerinə yetirilməsi üçün tələbələrdən müəyyən bilik və bacarıqlara malik olmaq, ədəbiyyatla işləmək, hesablamalar aparmaq, qrafiklər, diaqramlar, çertyojlar qurmaq, müxtəlif tətbiqi proqramlarla işləmək bacarıqları tələb olunur. Təhsilin bütün pillələrində tələbələrə elmi biliyin metodları, təcrübələrin planlaşdırılması və təşkili, təcrübə nəticəsində əldə edilən nəticə məlumatlarının emalı və ümumiləşdirilməsi üsulları, elmi-texniki işlərin tətbiqi kimi məsələlərin açıqlanması zəruridir.

Müasir reallıqlar əyani şəkildə göstərir ki, tələbələri ilk kurslardan elmi tədqiqatlara cəlb etmədən cəmiyyət tərəfindən ali təhsil qarşısında qoyulan vəzifəni yerinə yetirmək mümkün deyil. Hər bir tələbə işin istiqamətindən və fəaliyyət növündən asılı olmayaraq, öz ixtisası üzrə yeni problemlərin həlli sahəsində fundamental biliklərə sahib olmalıdır.

Elmi tədqiqat yolu ilə tələbələr qrup şəklində işləmək təcrübəsi; metodologiyanı dərindən başa düşmək; təkmilləşdirilmiş öyrənmə bacarıqları; özünə inamın artması; vaxtın idarə edilməsinin təşkili üzrə təcrübə; ünsiyyət və s. bacarıqlarının əldə edilməsi təcrübəsini qazanırlar. Bütün bu yanaşmalar tələbələrin elmi təfəkküründün inkişafına, onlarda yeni ideyaların təbliğinə təkan verir.

Universitetlərdə gənclərin innovativ potensialı və təşəbbüskarlığının dəstəklənməsi, intellektual fəaliyyətə daha geniş cəlb edilməsi, təhsilə, elmə, mədəniyyət və incəsənətə, yeni texnologiyalara marağının, nailiyyətlər əldə etmək imkanlarının artırılması, onlarda müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi, tələbə-gənclər arasında sağlam rəqabət və elmi ünsiyyət mühitinin yaradılması, informasiya texnologiyaları vasitəsilə innovativ

düşüncənin təşviq edilməsi, onların sosial-məişət problemlərinin həlli istiqamətində davamlı və ardıcıl addımlar atılır, məqsədyönlü tədbirlər icra olunur. .[2]

Tədris prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, innovativ istiqamətlərin inkişaf etdirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə və magis¬tran¬t-larda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması istidamətində yeni mərkəzlər, müasir tipli laboratoriyalar fəaliyyətə başlamışdır.

Fizika və riyaziyyat istiqamətləri üzrə prioritetləri, elmi-tədqiqat prosesinin müasir tələblərə uyğun şəkildə təşkil edilməsini nəzərə alaraq universitetlərdə dövrün tələblərinə cavab verən yeni şöbələr yaradılmışdır.

Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi, Tədrisin təşkili və idarə olunması Mərkəzi, Tələbələrin elmi-texniki yaradıcılıq mərkəzinin birgə fəaliyyəti çərçivəsində tələbələrdə yaradıcılığın formalaşdırılması üçün qeyri-standart tapşırıqların birgə əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparılır. Onlara elmi ideyaların reallaşdırılması və tətbiqi istiqamətlərində elmi və pedaqoji yönümlü təlimlər keçirilir, elmi tədbirlər təşkil olunur. Yeni texnologiyaların transferi və gənc tədqiqatçılara öyrədilməsi, sənayedə çalışan mütəxəssislərin tədrisə cəlb olunması, dünyanın müxtəlif ölkələrinin elmi-tədqiqat institutlarında və universitetlərində çalışan mütəxəssislərin ustad dərsləri, mühazirələri və elmi seminarları təşkil olunur.

Müasir dövrün tələblərinə uyğun olaraq dünyada təhsilin inkişaf tendensiyaları dəyişməkdədir. Hazırda süni intellekt həyatımızın və məişətimizin bütün sahələrinə nüfuz etməkdədir. Elm və texnikanın elə bir sahəsi yoxdur ki, nanotexnologiya - atom və molekul səviyyəsində proseslərin idarə olunması elmi, əsasında kardinal dəyişikliyə məruz qalmasın. Cəmiyyət yeni sənaye və texnoloji inqilab ərəfəsindədir və təhsil sistemi bu reallığa hazır olmalı, gənc nəsli müasir dövrdən kəskin fərqlənəcək gələcək dövrə hazırlamaq üçün onlara yeni ixtisaslar və peşələr verməlidir. Dövlət və təhsil müəssisələri və bütün cəmiyyət səylərini bu məqsəd ətrafında cəmləşdirməlidir.

İnanırıq ki, müasir dövrün tələblərinə, təhsilin inkişafı üzrə Dövlət Strategiyasına və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq növbəti illərdə Azərbaycan təhsili keyfiyyət göstəricilərinə, əhatəliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəkdir.

Ədəbiyyat

1. İmanov, S. Orta məktəbdə fizika tədrisi metodikası / S.İmanov,–Bakı: – 2004.
2. İsmayılov, İ. Ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemləri / İ.İsmayılov, – Bakı: – 2010.
3. Юсуфбекова Н.Р. Педагогическая инноватика как направление методоло¬гических исследований // Педагогическая теория: Идеи и проблемы. - М., 1992.С.20-26. (1 главу)

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 172-176
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 172-176
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 172-176

UOT

Müasir dövrdə müəllimlərin təkmilləşdirilməsi prosesində təlimin təşkilinin innovativ formalarından istifadə

Müəllif:

Səminə Rüstəmova
Naxçıvan Dövlət Universiteti
E-mail: samina_rustamova@mail.ru

Açar sözlər:
müəllimin innovativ fəaliyyəti, kurs hazırlığı, təkmilləşdirmənin forma və üsulları, kurs hazırlığının məzmununun layihələndirilməsi, ənənəvi və innovativ yanaşma

Annotasiya. İnnovativ fəaliyyət peşəkar biliklərin, pedaqoji bacarıqların, müəllim şəxsiyyətinin yaradıcı potensialının sintezinin və onun öz fəaliyyət tərzinin daim yenilənməsinə yönəldilmiş mürəkkəb bir prosesdir.. Müəllimin innovativ fəaliyyətinin inkişafında əsas strukturlardan biri müstəqil funksiyalara malik olan və ixtisasartırma sistemində peşəkar əhəmiyyətli rolu olan metodik hazırlıqdır. Bununla belə, pedaqoji tədqiqatlarda müəllimlərin innovativ fəaliyyətə hazırlanması məsələləri tam və hərtərəfli işıqlandırılmamışdır. Müasir cəmiyyətdəki transformasiya prosesləri, ilk növbədə, pedaqoji kadrların ixtisasartırma sisteminə təsir göstərmişdir. Məqalədə pedaqoji kadrların ixtisasartırma sisteminin daha da inkişaf etdirilməsinin ən səmərəli yollarının axtarışı haqqında bəhs edilir. Mütəxəssis şəxsiyyətinin formalaşması öz mahiyyətinə və məzmununa görə tarixi, peşə təcrübəsinin, davranış və həyat təcrübəsinin mənimsənilməsi prosesidir, onun effektivliyi səriştə səviyyəsi ilə əlaqələndirilir. Bu, dövlətin təhsil və peşəkar potensialının inkişafı ilə bağlıdır. Təhsilin müasirləşdirilməsinin əsas vəzifələri: onun əlçatanlığının, keyfiyyətinin və səmərəliliyinin artırılması - təhsilin məzmununun yenilənməsini, zamanın tələblərinə və ölkənin inkişaf səviyyəsinə uyğunlaşdırılmasını nəzərdə tutur. Məktəb müəllimlərinin ixtisasartırma sistemi onların peşəkar pedaqoji hazırlığının əsasını təşkil edən pedaqoji bilik və bacarıqların müasirləşdirilməsini və yenilənməsini nəzərə almalıdır. Tədqiqat nöqteyi nəzərindən, ixtisasartırma sahəsində müəllimlərin peşəkar səriştəsinin inkişaf etdirilməsində təlimin təşkilinin innovativ formalarından istifadənin vahid konsepsiyası işlənib hazırlanmalıdır.

Using innovative forms of organization of training in the process of improving teachers in modern times

Author:

Samina Rustamova
Nakhchivan State University
E-mail: samina_rustamova@mail.ru

Key word:
innovative activity of the teacher, course preparation, forms and methods of training , designing content of course preparation, traditional and innovative approach

Abstract. Innovative activity is a complex structure, being an integral characteristic, in which the synthesis of professional knowledge, pedagogical skills, creativity and personality of the teacher to continually update their own style of activity. One of the main structures in the development of innovative activity of the teacher is the methodological training, which has distinct functions and professionally significant role in the increase of its qualification. However, in educational research questions of preparation of teachers to innovative activity did not find a full and detailed coverage and remain maloizuchen¬nymi. Transformation processes in modern society concerned, first of all, the system of professional teachers. There is a search for the most effective ways of further development of advanced training of teachers. Formation of professional identity in nature and content is the process of assigning historical, professional experience, behavior and experience of life, its performance is correlated with the level of competence. This is due to the development of educational and professional potential of the state. The main objectives of the modernization of education: increasing its availability, quality and efficiency - suggest updating the content of education, bringing it in line with the demands of time and development objectives of the country. System of training school teachers should take into account the modernization and updating of not only special, but also pedagogical knowledge and skills, which together form the basis of their professional teacher training. However, in practice, the training of teachers often solves the problem, little attention is paid to the development of professional competence. From a research point of view, it is necessary to develop a unified concept for the use of innovative forms of organization of training in the development of professional competence of teachers in the field of advanced training.

Использование инновационных форм организации обучения в процессе совершенствования учителей в современную эпоху

Автор:

Самина Рустамова
Нахчыванский государственный университет
E-mail: samina_rustamova@mail.ru

Ключевые слова:
инновационная деятельность педагога, курсовая подготовка, формы и методы повышения ква- ификации, проектирование содержания курсовой подготовки, традиционный и инновационный подход

Аннотация. Инновационная деятельность представляет собой сложную структуру, являясь интегральной характеристикой, в которой осуществляется синтез профессиональных знаний, педагогических умений, творческого потенциала личности учителя и его направленности на постоянное обновление собственного стиля деятельности. Одной из главных структур в развитии инновационной деятельности педагога является методологическая подготовка, имеющая самостоятельные функции и профессионально значимую роль в системе повышения его квалификации. Однако в педагогических исследованиях вопросы подготовки педагогов к инновационной деятельности не нашли полного и детального освещения и остаются малоизученными. Процессы преобразования в современном обществе коснулись, прежде всего, системы повышения квалификации педагогических кадров. Идет поиск наиболее эффективных путей дальнейшего развития системы повышения квалификации педагогических кадров. Формирование личности профессионала по своей сути и содержанию представляет процесс присвоения исторического, профессионального опыта, опыта поведения и жизнедеятельности, его результативность соотносится с уровнем компетентности. Обусловлено это развитием образовательного и профессионального потенциала государства. Основные задачи модернизации образования: увеличение его доступности, качества и эффективности- предполагают обновление содержания образования, приведение его в соответствие с запросами времени и задачами развития страны. Система повышения квалификации педагогов школ должна учитывать модернизацию и актуализацию не только специальных, но и педагогических знаний и умений, которые вместе составляют основу их профессионально-педагогической подготовки. Однако на практике обучение педагогов часто не решает поставленную задачу, мало внимания уделяется вопросам развития профессиональной компетентности. С исследовательской точки зрения, следует разработать единую концепцию использования инновационных форм организации обучения в развитии профессиональной компетентности педагогов в сфере повышения квалификации.

Pedaqoji kadrların təkmilləşdirməsi sisteminin inkişafının müasir mərhələsi təkmilləşdirmə prosesinin yeni məzmunu, formaları və texnologiyalarının yenidən nəzərdən keçirilməsi və dövrün tələbinə uyğunlaşdırılması ilə xarakterizə olunur.

Müasir dövrdə kadrların hazırlanmasında aparılan yüksək keyfiyyətli təlim müvəffəqiyyətin ən birinci təminatçısıdır. Bu gün təhsil prosesinin formalaşmasına yönəlmiş səriştə əsaslı istiqamət praktiki olaraq kompleks bilik və bacarıqlar üzərində tətbiq edilir. Müəllimin peşə səriştəsi dövlətin təhsil siyasətinin mərkəzi obyektinə çevrilir ki, bu da ölkə miqyasında təhsil layihələrinin həyata keçirilməsinə fəal töhfə verir və yüksək səviyyəli müəllimin hazırlanması üçün stimul yaradır.

Müəllimlərin peşəkar inkişafı problemləri, peşə bacarıqlarının formalaşması mərhələləri, müəllimlərin innovativ fəaliyyəti tədqiqatçılar tərəfindən müxtəlif prizmalarda nəzərdən keçirilmişdir:

- peşəkar inkişaf psixologiyası; innovativ pedaqoji fəaliyyətin psixoloji aspektləri;
- təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından müəllimin fəaliyyəti;
- müəllimin peşəkar və şəxsi inkişafı mərhələləri.

Tədqiqatımız nöqteyi-nəzərindən mühüm aspekt, tədris prosesinin təşkili formalarının, pedaqoji texnologiyaların və təlim prosesinin təşkilinin innovativ formalarının tədris prosesində istifadəsinin ümumi problemlərinin nəzərdən keçirilməsidir.

Təkmilləşdirmə sistemində müəllimlərin hazırlanması problemi mütəxəssislər tərəfindən müxtəlif aspektlərdə tədqiq olunur. Lakin təhsil islahatı həm təhsil işçilərinin ixtisasartırma sisteminə qoyulan yeni tələblərin yaranmasını əvvəlcədən müəyyənləşdirir, həm də onun üçün yeni imkanlar açır, ilk növbədə, bu imkanlar fasiləsiz pedaqoji təhsil ideyasını həyata keçirmək üçün innovativ texnologiyalardan istifadə ilə bağlıdır.

İxtisasartırma sahəsində müəllimlərin tədrisi prosesinin təşkili formalarının yenilənməsi yüksək keyfiyyətli kadr təminatı ilə həyata keçirilməlidir və bu o deməkdir ki, müəllimlərin yenidən hazırlanması və ixtisasartırması sisteminə yenidən baxılmalıdır. Müəllimlərin yenidənhazırlanma kursları müdavimlərə pedaqoji prosesin səmərəliliyinin artırılması yolları və qarşıya çıxan problemlərin həllərinə yönələn pedaqoji metodlarla istiqamət verməlidir.

Təhsil sisteminin inkişafında əsas amillərdən biri müasir cəmiyyətdə müəllimin rolunun dəyişməsidir. Kadr hazırlığı ilə bağlı mütəxəssislər hesab edir ki, müəllimlərin təkmilləşdirilməsi sahəsinin ən mühüm vəzifələrindən biri innovativ forma və tədris metodlarından istifadə etməyə qadir olan yeni tip müəllimin yaradılması və nəticələrə yönəlmiş təhsil modeli ilə işləməyi bacaran müəllimin peşəkar səriştəliliyinin artırılmasıdır.

Amerikalı pedaqoq Reigeluth haqlı olaraq qeyd edir: "Yüksək inkişaf etmiş, texnoloji, sürətlə dəyişən, informasiya cəmiyyətinə daxil olduqca, mövcud məktəb təhsili sistemi getdikcə qeyri-adekvat olacaq."

Psixoloji-pedaqoji nəzəriyyə və təcrübənin təhlili göstərir ki, müəllimlərin ixtisasartırma sisteminin müasir prosesində təhsilin təşkilinin innovativ formalarından istifadə problemi kifayət qədər aktualdır. Məhz təkmilləşdirmə və yenidənhazırlanma sistemində mövzu və məzmun baxımından innovativ dəyişikliklər baş verməlidir ki, bu da "mövzu mərkəzçiliyini" aradan qaldırmağa və müəllimin innovativ fəaliyyətinin ümumi səviyyəsini yüksəltməyə imkan verəcəkdir.

Pedaqoji kadrların təkmilləşdirməsi sistemində ənənəvi və innovativ yanaşmaları müqayisə etdikdə görürük ki, ixtisasartırma sahəsində innovativ yanaşma müəllimlərdən tədrisin müasir forma, metod və vasitələrindən kompleksdə şəkildə istifadə etməyi tələb edir. Bundan əlavə, müəllimlər üçün ixtisasartırma və yenidənhazırlanma prosesinin innovativ formalarının praktiki istiqaməti onların peşəkar səriştəsinin formalaşmasına kömək edir. (Cədvəl 1)

Cədvəl 1. Müəllimlərin peşə səriştəliliyinin yüksəldilməsində ənənəvi və innovativ yanaşmanın müqayisəli analizi

Komponentlər	Ənənəvi yanaşma	İnnovativ yanaşma	Peşə səriştəliliyinin xarakteristikaları ilə əlaqə
Qiymətlilik	İctimaiyyət üçün təlim	Müəllimin peşəsində özünü doğrultmaq üçün təlim	müəllimin peşəkar yönümlü əhəmiyyətli dəyərləri, bilik, bacarıq və peşə bacarıqlarının aşağıdakı komponentlərini mənimsəmək: peşəkar biliklər, peşəkar bacarıqlar və peşəkar əhəmiyyətli şəxsiyyət xüsusiyyətləri sistemi.
Motivasiya	Təhsil: - vəzifə kimi - peşə borcunun yerinə yetirilməsi kimi	Müəllimin öyrənməyə marağı: peşə məmnunluğundan nəticə əldə etməyə qədər; - şagirdin şəxsiyyət yönümlü inkişafına marağın artırılması	- peşəkar biliklərə yiyələnmək üçün motivasiya. Peşə səriştəliliyi anlayışı təkcə idrak və əməli-texnoloji komponentləri deyil, həm də motivasiya, etik, sosial, davranış komponentlərini də əhatə edir.
Məqsədlər	- təlimin elmi biliklərin əldə edilməsinə yönəldilməsi (mövzu yönümlü)	- təlimin konseptual biliklərin mənimsənilməsinə yönəldilməsi; - peşəkar mədəniyyət və səriştələrə yiyələnmək	- müəllim şəxsiyyətinin biliklərə yiyələnməyə, tədrisin innovativ forma və metodlarına yiyələnməsinə yönəldilməsi;
Tapşırıqlar	- gənclik vaxtı öyrənməklə kifayətlənmək	- həyatı boyu öyrənmə	- metodik problem: müəllimə müstəqil bilik əldə etməyi, özünütəhsil bacarıqlarını inkişaf etdirməyi necə öyrətmək. Təkmil təlim sistemi çərçivəsində müəllimin peşəkar səriştəsi müəllimin peşəkar fəaliyyətlərini səmərəli həyata keçirmək bacarığıdır.
Forma və metodlar	- təhsil prosesinin idarə edilməsinin avtoritar üsulu; - təlim kurslarının sabit strukturu, tədris və tematik plan; - təlim məşğələlərinin keçirilməsinin stabil formaları	- demokratik üsullar (bərabərlik prinsipi əsasında qurulmuşdur); - təlim kurslarının, tədris və tematik planların dinamik strukturu; - tədris prosesinin təşkilinin dinamik formaları, innovativ təcrübənin yenidən nəzərdən keçirilməsinə və ümumiləşdirilməsinə diqqət yetirilməsi	Fəal, praktiki tədris metodları ilə zəngin olan və ixtisasartırma sahəsində tətbiq edilən müəllimlərin hazırlığının təşkilinin innovativ formaları (distant kouçinq, vebinar, pedaqoji ideyaların auksiyonu, konfrans, interaktiv seminar və s.)

Vasitələr	- əsas vəsait tədris kitablarıdır (metodik vəsaitlər, tövsiyələr və s.)	- tədris kitabına informasiya-kommunikasiya texnologiyaları resursları (elektron dərsliklər, internet saytları, virtual laboratoriyalar, öyrədici proqramlar və metodik vəsaitlər) əlavə olunur.	İnternet resursları, multimedia vasitələri, müəllim portfoliosu, pedaqoji ideyalar bankı pedaqoji fəaliyyətin başa düşülməsinə, metodiki səriştənin formalaşmasına kömək edir.
Nəzarət və qiymətləndirmə	müəllimlərin peşə fəaliyyətinin monitorinqi	- özünə nəzarət və özünə hörmətə diqqətin birləşdirilməsi	Şəxsiyyətin formalaşmasının əsas əlaməti özünə hörmətdir. Pedaqoji fəaliyyətin özünə nəzarət və özünü qiymətləndirməsi prosesi müəllimin peşəkarlığının nəzarət və qiymətləndirmə mərhələsinin formalaşmasına kömək edir.

Təkmilləşdirmə sistemində təlim prosesinin təşkili formalarının seçilməsi mürəkkəb və əsasən ziddiyyətli prosesdir. O, yeni pedaqoji texnologiyalar yaradır, fənlərarası əlaqələr haqqında fikirləri müəyyənləşdirir, əvvəlki elmi-metodiki təminatın modifikasiyasını dəyişdirir, proqramların və təlim kurslarının dəyişkənliyini müəyyən edir. Təlim prosesinin təşkilinin innovativ formalarına qoyulan müasir tələblər aşağıdakı kimi formalaşır:

- təhsilin innovativ formalarının layihələndirilməsi müəllimlərin özünü inkişaf və özünü təkmilləşdirmə istəyinə yönəldilməlidir;
- ixtisasartırma sahəsində təlim prosesinin təşkilinin innovativ formalarının layihələndirilməsi müəllimlərin peşə səriştəsi səviyyəsinə əsaslanmalıdır;

Təlimlərin tətbiqi təcrübəsində də innovativ yanaşmalar həyata keçirilir: proqramların orijinallığı; müxtəlif kateqoriyalı mütəxəssislər üçün proqramların uyğunlaşdırılması; təkcə təlimlərin deyil, həm də onların elementlərinin müdavimlərlə işin digər formalarına tətbiq edilməsi. Təlimin strukturuna adətən davranış komponentləri (praktik bacarıqların işlənməsi), refleksiv (psixoloji təhsil kimi refleksiyanın inkişafı), kommunikativ (dinləmə və ünsiyyət bacarıqlarının dərk edilməsi və tətbiqi), istirahət (özünü tənzimləmə və istirahət bacarıqlarının inkişafı) və digər komponentlər daxil edilir. Peşəkar innovasiyanın inkişafı prosesinin innovativ aspektləri bunlardır:

1) tədris prosesinin təşkilində dəyişikliklər (materialın təqdim edilməsinin qeyri-ənənəvi formalarından istifadə, problemli məsələlərin formalaşdırılması, həll yollarının birgə axtarışı, idrak fəaliyyətinin və dinləyicilərin və mühazirəçilərin yaradıcı potensialının stimullaşdırılması. onların daxili və xarici dünyasının transformasiyası);

2) tədqiqat və yaradıcı müstəqil fəaliyyətləri (qrup müzakirəsi, dialoq, kəşfiyyat seminarı, kəşfiyyat seminarı), innovativ layihələrin inkişafı, yaradıcı nəticənin dərindən dərk edilməsi, həyata keçirilməsi və qiymətləndirilməsini əhatə edən kreativ təcrübə.

3) Özünütəhsil (qabaqcıl təcrübənin, pedaqoji və metodik ədəbiyyatın yeniliklərinin öyrənilməsi, müstəqil elmi araşdırmalar, məsələn, öz pedaqoji təcrübəsi haqqında məqalə yazmaq və s.).

Müəllimlərin ixtisasartırma və təkmilləşdirmə sahəsinin təşkili formalarının layihələndirilməsi üçün müəyyən edilmiş pedaqoji şərtlər təlim prosesinin məzmunu üçün əsas faktorlardır və göstərilən bu prinsipləri özündə cəmləşdirir: fərdilik, paritetlik, dinamiklik, perspektivlik, davamlılıq, metodoloji məsləhətlərin müxtəlif istiqamətliliyi. Pedaqoji kadrların təkmilləşdirməsinin müasir sistemi bir sıra problemləri, təkrarlama, resursların səmərəsiz bölüşdürülməsi, təhsil təcrübəsinin nəticələrinə zəif təsir, innovasiyaların ləng yayılması və s.
aradan qaldıra biləcək.

Müəllimlərin peşə səriştəliliyinin artırılması və təkmilləşdirilməsi sahəsi təlim prosesinin innovativ təşkili baxımından lazımi diqqət tələb edir və daim yeni təlimlərlə, metodlarla, texnologiyalarla zənginləşdirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Bakı: – 2013.
2. “Azərbaycan Respublikasının ali təhsil müəssələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. “Azərbaycan” qəzeti, Bakı: – 2008. – 1 fevral.
3. Mehrabov, A.O. Səriştəli müəllim hazırlığının problemləri. / A.O. Mehrabov, Bakı: Elm və təhsil, – 2015.
4. Селевко, Г.К. Современные образовательные технологии. / Г.К. Селевко, М.: «Академия», – 2012

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 177-182
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 177-182
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 177-182

UOT

Müasir məktəbəqədər təhsil müəssisələri üçün tərbiyəçi-müəllim hazırlığının aktual məsələləri

Müəllif:

Şərafət Baxışova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə elmlər doktoru, dosent
E-mail: sharafat_baxishova1960@mail.ru

Açar sözlər:
ali pedaqoji təhsil, təlim, innovasiya, səriştə, inkişaf edən təlim, şəxsiyyət

Annotasiya. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni XXI əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və hərtərəfli inkişaf edən şəxsiyyət formalaşmalı, yetişdirilməlidir. Bu prosesdə hər bir müəllim öz peşəkarlığını üzə çıxarır. Bu səbəbdən onların hər biri təhsilimizin müəllim və pedaqoqlar qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün var gücünü və bacarığını əsirgəməməlidir. Təhsilin demokratikləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiya, müasir pedaqoji texnologiyaların tədris müəssisələrində pedaqoji prosesin düzgün təşkili, yeni pedaqoji təfəkkürün formalaşmasına təkan verir. Bu vəzifələri yerinə yetirmək üçün müasir tələblərə, yeni pedaqoji təfəkkürə cavab verən tərbiyəçi - müəllim kadrların hazırlanması vacibdir. Təhsil sisteminə tətbiq edilən müasir pedaqoji texnologiyaların, innovasiyaların məqsədi gələcək kadrların intellektual və ümumi inkişafına təkan verməkdir.

Actual issues of educator-teacher training for modern preschool educational institutions

Author:

Sharafat Bakhishova
Azerbaijan State Pedagogical University
Doctor of science in pedagogy, associate professor
E-mail: sharafat_baxishova1960@mail.ru

Key word:
higher pedagogical education, training, innovation, competence, developing training, the personality

Abstract. The experience of developed countries shows that for the development of society and people in the new 21st century, a creative, independent thinking and comprehensively developing personality should be formed and cultivated. In this process, each teacher reveals his professionalism. For this reason, each of them should not spare all their strength and ability for the proper fulfillment of the tasks that our education sets for teachers and pedagogues. Democratization of education, integration into the world education system, modern pedagogical technologies, proper organization of the pedagogical process in educational institutions, give impetus to the formation of new pedagogical thinking. To fulfill these tasks, it is important to train educators and teachers who meet modern requirements and new pedagogical thinking. The purpose of modern pedagogical technologies and innovations applied to the education system is to stimulate the intellectual and general development of future personnel.

Актуальные вопросы подготовки воспитателей-педагогов для современных дошкольных образовательных учреждений

Автор:

Шарафат Бахышова
Азербайджанский Государственный Педагогический Университет
доктор педагогических наук, доцент
E-mail: sharafat_baxishova1960@mail.ru

Ключевые слова:
высшее педагогическое образование, подготовка кадров, инновации, компетенция, развивающее обучение, личность

Аннотация. Опыт развитых стран показывает, что для развития общества и человека в новом 21 веке необходимо формировать и воспитывать творческую, самостоятельно мыслящую и всесторонне развивающуюся личность. В этом процессе каждый педагог раскрывает свой профессионализм. По этой причине каждый из них не должен жалеть всех своих сил и способностей для должного выполнения тех задач, которые наше образование ставит перед учителями и педагогами. Демократизация образования, интеграция в мировую систему образования, современные педагогические технологии, правильная организация педагогического процесса в учебных заведениях дают толчок к формированию нового педагогического мышления. Для выполнения этих задач важна подготовка воспитателей и учителей, отвечающих современным требованиям и новому педагогическому мышлению. Целью современных педагогических технологий и инноваций, применяемых в системе образования, является стимулирование интеллектуального и общего развития будущих кадров.

XXI əsr özünəqədərki bütün əsrlərin inkişaf zirvəsini təşkil edərək insanın şəxsiyyət olaraq intellektuallıq səviyyəsini daha da aktuallaşdırdı.

Müasir dövrdə həyatın bütün sahələrində, o cümlədən, təhsildə baş verən dəyişikliklər insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri aşkara çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisəsi sosial dəyişikliklərdən asılı olmadan sosial inkişafa uyğun müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlən-məlidir.

Məlumdur ki, bu gün özümüzün milli varlığımızı saxlamaqla yanaşı, həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda, ən azı Avropa kontekstində görməyi bacarmalıyıq.

Biz sürətlə dəyişən dünyada elm, texnika və texnologiyanın, xüsusilə də kompüter texnologiyasının sıçrayışlı inkişafının şahidləriyik. Daima dəyişən həyatın şəraitinə uyğunlaşmaq üçün çevik olmaq, yeni şəraitə uyğunlaşmaq, öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünüinkişafa və özünütəkmilləşdirməyə hazır olmaq zəruridir.

Əgər əvvəllər müəllim əsas informasiya mənbəyi idisə, indi vəziyyət dəyişmişdir. İndi müəllim informasiya mənbələri ilə tələbə arasında vasitəçi funksiyasını yerinə yetirir. O, tələbəyə müxtəlif təyinatlı informasiya mənbələri ilə səmərəli iş metodlarını, informasiya proseslərini öyrətməlidir. Bütün bu xüsusiyyətlər ali təhsilin, o cümlədən pedaqoji təhsilin məzmun və texnologiyasını təkmilləşdirməyi tələb edir.

Müasir pedaqoji təhsilin məqsədi informasiya, innovasiya cəmiyyətinin tələblərinə uyğun yeni formatlı müəllim kadrları hazırlamaqdır. Bu gün ali təhsil müəssisələrində Avropa və dünya təhsil sisteminə inteqrasiya istiqamətində "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", təhsilin informatlaşması istiqamətində "Azərbaycan Respublikası Təhsil Sisteminin İnformasiyalaşdırılması (2008-2012-ci illər)" Dövlət Proqramları icra edilir. Digər universitetlər kimi, ali pedaqoji təhsil müəssisələri də Avropa təhsil məkanına inteqra-siyaya cəhd edir, tədris prosesi informatlaşır. "Azərbaycan Respublikasında Fasiləsiz Pedaqoji Təhsil, müəllim hazırlığının konsepsiya və strategiyası", 2008-2015-ci illər üçün bu strategiyanın icrası ilə əlaqədar müvafiq tədbirlər planı hazırlanmış, 2007-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. Strategiya və tədbirlər planına uyğun olaraq pedaqoji təhsilin informatlaşması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

1.Müəllim hazırlığında İKT-nin, yeni təlim üsulları və texnologiyaların tətbiqi.

2.Pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrin biliyinin cari və yekun qiymətləndirilməsi üzrə yeni üsulların, texnolgiyaların, İKT vasitələrinin tətbiqi.

3.Pedaqoji təhsil müəssisələrində distant təhsil formasının tətbiqi.

4.Pedaqoji təhsil müəssisələrinin kompüterləşdirilməsi, elektron təhsilin həyata keçirilməsi.

Müasir informasiya cəmiyyətində tələbə lazımı məlumatı axtarmaq, seçmək, təhlil etmək, yeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirmək kimi səriştələrə yiyələnməlidir.

Təhsilin informatlaşması kimi qlobal əhəmiyyətli, mürəkkəb texnoloji problemin həlli bir sıra məsələlərin-təşkilati, texniki, elmi-metodik, layihələndirmə, kadr, maliyyə v.s. kimi məsələlərin kompleks həllini tələb edir.

Təhsilin informatlaşması məqsədyönlü, xüsusi təşkil edilmiş, mükəmməl layihələndirilmiş prosesdir. Təhsilin informatlaşması-təhsilin keyfiyyətini yüksəltmək məqsədi ilə İKT-nin intensiv tətbiqinə yönəlmiş tədbirlər külliyatı olub, təhsildə real vəziyyətin dəyişməsinə, təhsilin məzmun, forma və texnoloji baxımdan təkmilləşməsinə xidmət edir. Bu səbəblərdən təhsilin informatlaş-masına pedaqoji problem, pedaqoji praktika, pedaqoji elmin bir istiqaməti kimi baxa bilərik. Yeni sistemin köməyilə təkcə təlim texnologiyalarında əyaniliyin təmin olunması deyil, həm də tələbələrin ictimai-siyasi hadisələrlə tanış olması, peşəyönümlü istiqamətində, qabaqcıl müəllimlərin iş təcrübəsinin yayılması, məktəb şəraitində mümkün olmayan təcrübə və praktik işlərin, eləcə də tədris ekskursiya işlərinin, ölkəmizin coğrafiyasının, tarixinin, tarixi abidələrinin, muzeylərinin və ən başlıcası hərbi vətənpərvərliyə aid və s. mövzuların videolentə çəkilib nümayiş etdirilməsi mümkün olur.

Təhsil o zaman keyfiyyətli olur ki, tədris prosesinə istiqamət verən və onu inkişaf etdirən müəllimlərin bilikləri kifayət qədər təkmilləşdi-

rilmiş və yeniləşdirilmiş olsun, müasir tələblərə cavab versin. Bu baxımdan pedaqoji texnologiyalar ölkədə təhsil islahatının ayrılmaz bir hissəsi kimi müəllim hazırlığında da mühüm rol oynayır.

Pedaqoji texnologiyalar yalnız təhsilin elementi kimi deyil, həmçinin onun məqsədi, məzmunu, prosesi və nəticəsi kimi xidmət göstərir.

Pedaqoji texnologiyalar sistemli, elmi və ardıcıl şəkildə tətbiq edildikdə o, təhsilin ayrılmaz bir hissəsinə çevrilir.

Təhsilin demokratikləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiya, müasir pedaqoji texnolo-giyaların tədris müəssisələrində pedaqoji prosesin düzgün təşkili, yeni pedaqoji təfəkkürün formalaşmasına təkan verir. Bu vəzifələri yerinə yetirmək üçün müasir tələblərə, yeni pedaqoji təfəkkürə cavab verən tərbiyəçi - müəllim kadrların hazırlanması vacibdir. Təhsil sisteminə tətbiq edilən müasir pedaqoji texnologiyaların, innovasiyaların məqsədi gələcək kadrların intellektual və ümumi inkişafına təkan verməkdir.

Təlim prosesində yeni pedaqoji təfəkkür baxımından təlimə verilən tələblər və prinsiplər mütləq nəzərə alınmalıdır. Pedaqoji texnologiyalardan istifadə zamanı aşağıdakı mühüm tələblərə əməl olunmalıdır:

-pedaqoji texnologiya müəyyən elmi konsepsiyaya əsaslanmalıdır;

-tətbiq olunan pedaqoji proses konkret bir məqsəd əsasında elmi-metodik səviyyədə layih-ələşdirilməlidir;

-müəllim və şagirdlərin konkret fəaliyyəti dəqiq proqnozlaşdırılmalıdır;

-texnologiyanın məzmunu ilə prosessual tərəfləri bir-birinə adekvat olmalıdır (onları mühüm didaktik vasitələr və dərsliklər əlaqələndirir);

-diaqnostik prosedurlara xüsusi diqqət yetirilməlidir. Fəaliyyətin nəticəsini ölçmək üçün meyarlar, göstəricilər və üsullar dəqiq müəyyənləşdirilməlidir. Bu zaman dövlət təhsil standartları əsas götürülməlidir [3].

Pedaqoji texnologiyaların uğurla təşkili və tətbiqi onun ümumi prinsiplərini də yaxşı bilməyi tələb edir. Yeni pedaqoji təfəkkür baxımından təlimin səmərəli təşkili üçün yuxarıda göstərdiyimiz tələblərlə yanaşı bu kimi prinsipləri də göstərmək olar:

1.Yeni pedaqoji təfəkkür fəaliyyəti tələbənin bu günün, yaşadığı yeniyetməlik, gənclik illərinin maraqlı və məzmunlu qurulmasına çalışmalıdır.

2.Yeni pedaqoji təfəkkür əsas diqqəti ilk növbədə tələbələrin intellektual və yaradıcı inkişafına, məntiqi və mücərrəd təfəkkürün formalaşmasına, təhliletmə, əqli nəticə çıxarma, ümu-miləşdirmək bacarığı və bu kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir. Bir sözlə, tələbənin informasiya aləmində düzgün istiqamətlənməsi, onlardan səmərəli faydalanması və bu kimi məsələlərin həlli yolları müəyyənləşdirilməlidir.

3.Yeni pedaqoji təfəkkür tələbənin təfəkkür imkanlarının maksimum dərəcədə nəzərə alınmasının, pedaqoji prosesin onun üçün tədqiqatçılıq, araşdırmalar sahəsinə, təcrübə meydançasına çevrilməsini tələb edir [4].

Təhsilin məzmunu yalnız təlimin keyfiyyətinin yüksəldilməsi və ixtisaslı mütəxəssis hazırlığı ilə məhdudlaşmır. Tələbənin həm də həyati bacarıqlara yiyələnmiş bir şəxsiyyət, dövlətçilik və vətəndaşlıq mövqeyinə malik olan, öz peşəsinin mahir bilicisi və qabiliyyətli, çevik qərarlar qəbul etməyi bacaran mütəxəssis kimi yetişməsi təmin edilməlidir.

Təhsilin humanistləşdirilməsi, təlim-tərbiyənin demokratik əsaslar üzərində qurulması müəllim-tələbə münasibətlərinin də yeni zəmində subyekt münasibətləri üzərində qurulmasını tələb edir.

Müasir həyat məktəbdən, məktəbəqədər təhsil müəssisələrindən daha ciddi nəticələr gözləyir. Yeni informasiya texnologiyaları şəraitində daha hazırlıqlı, uşaqlara təkcə elmlərin əsaslarını öyrədən deyil, əsl vətəndaş - şəxsiyyət yetişdirə bilən, sözün əsl mənasında həyatını müəllimliyə həsr edən peşəkarlar hazırlanmasını tələb edir. Bu baxımdan respublikamızda müəllim hazırlığının keyfiy-yətinin yüksəldilməsi üçün bir sıra önəmli işlərin aparılması zərurətə çevrilir. Pedaqoji kadrların hazırlığına diqqət daha da artırılmış və bu sahədə bir sıra əsaslı işlər görülüş, islahatlar aparılmışdır. Lakin başlıca məsələ pedaqoji kadr hazırlığının kəmiyyətdən çox, keyfiyyət göstəricilərini yüksəltməkdən ibarətdir.

Müasir dövrümüzün xarakterik cəhətlərindən biri demokratik vətəndaş cəmiyyətinin qurulmasıdır. Bu məsələ də təhsildə həlledici rola malikdir, çünki yeni standartlarla təhsil alan yetişməkdə olan gənc nəsil vətəndaş cəmiyyətin qurucuları və iştirakçısı olurlar. Buna isə fəal interaktiv və inteqrativ metodları ilə nail olmaq mümkündür. Təhsilin o cümlədən təhsil prosesi-

nin nəzəri, ideoloji bazası nə qədər zəngin olarsa da müasir pedaqoji texnologiyalarından istifadə edilməsə yenilik səviyyəli nəticələrə çıxarmaq olmaz. Bu prosesdə hər bir müəllim öz peşəkarlığını üzə çıxarır. Bu səbəbdən onların hər biri təhsilimizin müəllim və pedaqoqlar qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün var gücünü və bacarığını əsirgəməməlidir.

Müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, müəllimin üzərinə düşür. Cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Deyirlər ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri milləti mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir. Bu hal müəllim kadrlarının hazırlığına xüsusi diqqət yetirməyi tələb edir.

Bu gün məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin yenidən formalaşdırılmasına iqtisadi, sosial-mədəni, normativ-hüquqi şərtlər kompleksi imkan yaradır. Bununla əlaqədar olaraq təhsil müəssisələrinin idarəetmə sistemi çərçivəsində cəmiyyətdə baş verənləri özündə əks etdirən yeni sistemin qurulması zəruridir. Mühit - zaman dəyişdikcə məktəbəqədər təhsilin də məzmununda köklü dəyişiliklərin edilməsi dövrümüzün tələbidir.

Azərbaycan təhsilinin modernləşdirilməsi şəraitində təhsilin bütün pillələrinə, həmçinin məktəbəqədər pilləsinə yeni tələblər irəli sürülür və təhsil özü yeni forma alır.

Məktəbəqədər təhsil sisteminin əsas məqsədi bir tərəfdən sosial normalara uyğun şəxsiyyət formalaşdırmaq, digər tərəfdən uşaqlarda, yetişən nəsildə subyektlivlik, yaradıcı qabiliyyətləri inkişaf etdirməkdir.

Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərindən bu sistemdə baş verən innovasion dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir.

Didaktik prosesin təkmilləşdirilməsinə istiqamətlənmiş innovasion fəaliyyət məktəbəqədər təhsil müəssisələrində tam innovasion sistemin komponentidir. Burada onun inkişafetdirici potensialını həyata keçirmək üçün təlim-tərbiyə işinin yüksəldilməsinə təsir göstərən məqsədlərin, məzmunun, formaların və metodların dəyişdirilməsi tələb olunur.

Müasir pedaqoji təhsilin məqsədi informasiya, innovasiya cəmiyyətinin tələblərinə uyğun yeni formatlı müəllim kadrları hazırlamaqdır. Məlumdur ki, məktəbəqədər təhsil sahəsində təhsil islahatının həyata keçirildiyi hazırki şəraitdə pedaqoji kadrlara, xüsusən tərbiyəçi-müəllimlərə olan tələbatlar da dəyişir.

“Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası”nda göstərilir ki, müasir dövrdə müəllim əxlaqi cəhətdən inkişaf etmiş, yaradıcı şəxsiyyət olmalı, refleksiya qabiliyyətinə, peşə vərdişlərinə, pedaqoji ustalığa malik olmalı və yenilikçiliyə meyilli olmalıdır. Müəllim təhsilin mahiyyətini dərk etməli, mədəni olmalı, öz fənnini, pedaqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyönümlü pedaqoji üsullardan istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır [1].

Tərbiyəçi-müəllimlərin işi gündən-günə cəmiyyətin fəaliyyəti ilə sıx şəkildə birləşir. Müasir dövrün tələblərinə cavab vermək üçün tərbiyəçi-müəllim peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsinə çalışmalıdır. Eyni zamanda biliklərin həcminin daim artması ilə xarakterizə olunan informasiya cəmiyyətinə keçid tərbiyəçi-müəllimdən müstəqil elmi-tədqiqat işi aparmaq bacarığı tələb edir.

Tərbiyəçi-müəllim pedaqoji prosesdə hər bir iştirakçının yerini görməli, uşaqların fəaliyyətini təşkil etməli, onun nəticələrini qiymətləndirməli, düzəlişlər etməyi bacarmalıdır. Tərbiyəçi-müəllim yenilikçi, yaradıcı düşüncəyə malik olmalıdır.

Tərbiyəçi-uşaq ünsiyyəti tərbiyəçinin uşaqlarla yalnız biliyi və elmi ilə deyil, eyni zamanda baxışı, mimikası, səs tonu, emosiyaları, jestləri, zahiri görkəmi və şəxsi nümunəsi ilə əlaqədardır. Hər bir uşaq bənzərsiz psixi və geneloji fərdiliyə malikdir, müxtəlif ailələrin xüsusiyyətlərini özündə birləşdirir. Tərbiyəçi-müəllimin ünsiyyət prosesində bunları hökmən nəzərə alması zəruridir. Pedaqoji ünsiyyətdə uşaqların şəxsiyyət kimi qəbul edilməsi, onların hərtərəfli inkişaf etdirilməsi üçün inkişafetdirici təlim mühitinin yaradılması, tərbiyəçi-müəllimin təlim fəaliyyətinin əsas tərkib hissələrini mənimsəməkdə uşağa kömək etməsi, eyni zamanda özünün biliklərin əldə edilməsinə və tətbiqinə dair zəruri əqli üsul və vasitələrə praktik cəhətdən yiyələnməsi böyük rol oynayır.

Bu tələblər “Azərbaycan Respublikasında

təhsilin inkişafı üzrə Dövlət strategiyasında"[2] qeyd olunan təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim-tərbiyəçi peşəsinin nüfuzunun artırılması zərurətinə xidmət edir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər, loqopedlər və uşaqları əhatə edən işçilər peşəkar olmalıdırlar. Onlar uşağın simasında şəxsiyyət, fərdi bir insan görməli, emosional bacarığa malik olmalı, uşaq anatomiyası və psixologiyasını bilməli, uşaqların problemlərini başa düşməli, nitqində, psixi inkişafında pozuntu olan uşaqlarla işləməyi bacarmalıdırlar.

Təlimin yeni şəraiti tərbiyəçi-müəllimdən hər bir məsələ üzrə fikir söyləmək istəyənləri dinləmək bacarığı, cavabların heç birini rədd etməməyi, uşaqların hər birinin mövqeyini dəstəkləməyi, mühakimələrin məntiqini başa düşməyi, tez-tez dəyişən situasiyalarda çıxış yolu tapmağı, cavabları, təklifləri təhlil etməyi və uşaqlara hiss etdirmədən onları problemin həllinə yönəltməyi bacarmalıdır.

Müşahidələr göstərir ki, bəzən tərbiyəçi-müəllimlər yeniliklər etmək məqsədi ilə məktəbin təlim yükünü uşaq bağçasına köçürürlər. Hazırlıq qruplarında sinif-dərs sistemi tətbiq olunur. Bu, bir tərəfdən uşaqların zamanla ayaqlaşmalarına kömək etsə də, digər tərəfdən bəzi uşaqların zehni yüklənmələrinə səbəb olur. Proqramda hər uşağın fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır. Zehni cəhətdən inkişaf etmiş uşaqla nisbətən gec qavrayan uşağın dərs proqramı eyni olmamalıdır. Adətən, məktəbəqədər təhsil müəssisələrində təhsil prosesi əlavə dərnəklərlə (xarici dil, şahmat, ritmika, kompüter, üzgüçülük, gimnastika, rəqs və s.) yüklənir. Belə hallarda yorğunluq özünü daha qabarıq şəkildə büruzə verir.

Respublikamızda məktəbəqədər təhsil müəssisələri ilə yanaşı, müxtəlif inkişaf mərkəzləri fəaliyyət göstərir ki, bunlar öz işlərini, əsasən, uşaqların məktəbə hazırlığı əsasında qururlar. Burada uşaqlara oxu, yazı, hesablama vərdişlərinin aşılanması, xarici dillərin öyrədilməsi üzrə işlər aparılır. Hər bir müəssisə işin məzmununu özü müəyyənləşdirdiyindən uşaqlarla aparılan işin məzmununda müxtəliflik yaranır. Bu zaman uşaqların həmin yaş dövrünün sonu üçün nəzərdə tutulan təlim nəticələri və I sinifdə aparılan işin məzmunu arasında olan əlaqə pozulur. Uşaqlara kolliqrafiq qaydalar vaxtından əvvəl öyrədilir. Verilən biliklərin həcmi çox olur ki, bu da onların həddən artıq yüklənmələrinə səbəb olur.

Təlimin təşkili prosesində tərbiyəçi-müəllim ilə uşaqların qarşılıqlı əlaqəsi, əməkdaşlığı əsas məsələlərdəndir. Bu cür qarşılıqlı əlaqə, əməkdaşlıq uşaqların fəallığından düzgün istifadə etməyə, onların fəallığını düzgün yönəltməyə imkan verir.

Buradan belə qənaətə gəlmək olar ki, uşaq və tərbiyəç-müəllimin vahid subyekt kimi inkişafı fəaliyyət, şüur və şəxsiyyətin vahidliyi psixoloji prinsipləri (A.N.Leontyev) və "sağlam düşüncə pedaqogikası" nın (A.A.Leontyev) pedaqoji prinsiplər sisteminin təcrübəyə tətbiq etməklə inkişafı təmin etmək olar.

1.Sosial-mədəni prinsiplər:

a) "uşaq dünyası" prinsipi;

b) təhsilin məzmununun tamlığı prinsipi;

c) ardıcıllıq prinsipi

ç) dünyaya düşüncəli münasibət prinsipi.

2.Fəaliyyətyönümlü prinsiplər:

a) həyat şəraitində uşaqların fəaliyyətinin idarə olunması prinsipi;

b) uşağın aktual inkişafının səviyyəsinin nəzərə alınması prinsipi;

c) fəaliyyət prosesində uşaqların qabiliyyətlərinin inkişafı prinsipi;

ç) uşaqların birgə fəaliyyətdən müstəqil fəaliyyətə keçməsi prinsipi (yaxın inkişaf zonası).

3.Şəxsiyyətyönümlü prinsiplər:

a) psixoloji komfort prinsipi;

b) uşağın şəxsiyyətində yeniliklərin nəzərə alınması prinsipi;

c) uşağın olduğu kimi qəbul edilməsi prinsipi;

ç) şəxsiyyətyönümlü inkişaf prinsipi.

Beləliklə, fəaliyyətin, şüurun və şəxsiyyətin vahidliyi prinsipi və pedaqoji prinsiplər (sosial-mədəni, şəxsiyyətyönümlü, fəaliyyətyönümlü) məktəbəqədər təhsil müəssisələrində şəxsiyyət-yönümlü yanaşmanın konseptual məzmununu təşkil edir. Təlim prosesində təfəkkürün intensiv inkişafı üçün tədrisi yüksək çətinlik səviyyəsində təmin etmək və uşaqların öz təlim fəaliyyətlərini dərk etməsinə nail olmaq lazımdır.

Müasir tərbiyəçi-müəllimin əsas funksiyası uşağa öyrənməyi öyrətməkdir. Bunun üçün tərbiyəçi özü daim inkişafda olmalıdır. Tərbiyəçi-müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı və-

zifəsi, ilk növbədə, tərbiyəçi-müəllimin üzərinə düşür. Tərbiyəçi-müəllim, təlim verən insan bu inkişaf prosesində insanın tamlığını, bütövlüyünü yüksək əqli, əxlaqi, mənəvi keyfiyyətlər daşıyıcısı olmasını həyata keçirir. İnsanın kamillik keyfiyyəti gözəl düşüncəyə, gözəl sözə, əmələ malik olması ilə dəyərləndirilir. Düşüncə ideyalar ifadə edir, əməl isə praktik işlər həyata keçirir. Deməli, müasirlərimiz olan gənc nəsildə məntiqi yaradıcı təfəkkürü, ünsiyyət mədəniyyətini formalaşdırmaq, onları praktik fəaliyyətdə real olaraq hazırlamaq üçün istifadə etdiyimiz yeni metod və texnologiyaların məqsədini klassik pedaqoji irsimizə söykənərək cilalamalı, bununla kamil insan, fəal vətəndaş yetişməsinə şərait yaratmalıyıq.

Beləliklə belə nəticə hasil olur ki, müasir təlim texnologiyalarından istifadə, təhsilin humanist-ləşdirilməsi, yeni təhsil paradiqmalarının yaranması, şəxsiyyətyönümlü təhsilin inkişaf etdirilməsi və s. kimi yeniliklər bunları reallaşdırmağa qabil olan yeni pedaqoji təfəkkürə malik olan səriştəli, peşəkar tərbiyəçi- müəllimlər tələb edir. Çünki dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Butün bunlar pedaqoji fəaliyyət prosesində formalaşsa da, onun əsası pedaqoji təhsil müəssisələrində qoyulur. Başlıca məsələ, bugünkü tələ-bənin, gələcəyin tərbiyəçi-müəlliminin öz sənətinə, peşəsinə sevgi, məhəbbət göstərməsi, bu peşəni təkmilləşdirmək uğrunda daim öyrənməsi və pedaqoji prosesə yaradıcı, çevik yanaşmağı bacarması dövrün tələbidir.

Bütün bunlar onu göstərir ki, müəllim daim inkişafda olmalı, öz üzərində işləməklə real həyatın tələblərinə cavab verməyi bacarmalıdır. Elə bu səbəbdən də müasir dövrdə müəllim hazırlığı, daim inkişafda olan zamanın, informasiya cəmiyyətinin sürətlə dəyişən tələblərinə uyğunlaşdırılmalıdır. Ali və orta pedaqoji təhsil müəssisələri yeni tələblərə cavab verə bilən, müasir informasiya cəmiyyətinin müəllimini hazırlamalıdır. Bu baxımdan müasir dövrdə hazırlanan pedaqoji kadrların dünya təhsil sisteminə inteqrasiyası, təhsilin liberallaşması və informasiyalaşdırılması şəraitində yüksək peşəkarlıqla fəaliyyət göstərə bilməsi üçün müyyən yeniliklər edilməklə kompleks işlər görülməli, müəllim hazırlığının istər forması, istərsə də məzmunu artan informasiya texnologiya-larının sürətli inkişafını nəzərə almaqla gələcəyə yönəldilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası. //Təhsil xəbərləri (TN-nin məlumat-informasiya məcmuəsi). Bakı: – 2007, 20-21 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi, –2013, 25 oktyabr.
3. Mehrabov, A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar / A. Mehrabov., Ə. Abbasov., Z. Zeynalov., R. Həsənov, Bakı: Mütərcim, – 2006.
4. Əliyev, A.H. Müasir pedaqoji texnologiyalar və kimyanın tədrisində onlardan istifadənin metodikası / A.H. Əliyev.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 183-187
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 183-187
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 183-187

UOT

Gənc müəllimin pedaqoji texnikası və peşə səriştəliliyinə yiyələnməsinin formalarına dair

Müəllif:

Sevinc Eylazova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Dissertant
E-mail: sevinc.eylazova.00@mail.ru

Açar sözlər:
forma, metod, hazırlıq, peşə səriştəliliyi, pedaqoji texnika

Annotasiya. Pedaqoji təhsildə təlimin səmərəli və keyfiyyətli olmasında bu prosesdə istifadə olunan forma və metodların düzgün seçilib tətbiq edilməsinin böyük rolu vardır. Müxtəlif təlim metodlarının tədris prosesinə daxil edilməsi tələbələrin təfəkkür xüsusiyyətlərinin formalaşdırılmasına, onların passivliyinin aradan qaldırılmasına, təlim keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir. Gələcək müəllimlərin də peşə səritəliliyinə yiyələnməsinin forma və metodlarının düzgün müəyyənləşdirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Author:

Sevinj Eylazova
Azerbaijan State Pedagogical University
Dissertation
E-mail: sevinc.eylazova.00@mail.ru

On the forms of acquiring the pedagogical technique and professional competence of the young teacher

Key word:
form, method, preparation, professional competence, pedagogical technique

Abstract. Pedagogical education has a great role to play in selecting and applying the forms and methods used in this process in the quality and quality of training. Inclusion of different training methods into the teaching process serves to formulate students' thinking, eliminate their passivity, and improve the quality of training. The proper formulation of the forms and methods of obtaining professional skills of future teachers is of great importance from this point of view.

Автор:

Севиндж Эйлазова
Азербайджанский Государственный Педагогический Университет
Диссертация
E-mail: sevinc.eylazova.00@mail.ru

К формам овладения молодым учителем педагогическими приемами и профессиональной компетентностью

Ключевые слова:
форма, метод, подготовка, профессиональная компетентность, педагогическая техника

Аннотация. Большую роль в повышении эффективности высшего педагогического образования играет выбор и применение форм и методов, используемых в этом процессе. Включение различных методов обучения в учебный процесс служит для формирования мышления учащихся, устранения их пассивности и повышения качества обучения. С этой точки зрения большое значение имеет правильная формулировка форм и методов получения профессиональных навыков будущих учителей.

Müəllimin pedaqoji səriştəliliyində rol oynayan amillərdən biri onun pedaqoji texnikaya malik olmasıdır. Müəllimin pedaqoji texnika elementlərinə yiyələnməsi uzunmüddətlii bir prosesdir. Yəni bunun üçün müəllimin fəaliyyətində həm müəyyən müddət lazımdır, həm də bu müddətdə müəllimin pedaqoji fəaliyyətə yaradıcı yanaşması, onu sevməsi, onun sirlərinə yiyələnməsinə can atması. Müəllimin sadəcə olaraq dərsini "yola verməsi" yaxud, mövzunu şagirdlərə mənimsətməyə çalışması pedaqoji proses üçün kifayət deyildir. Şagirdlər müəllimin hər bir sözünə, hər bir hərəkət və davranışına, hər bir üz ifadəsinə qarşı çox həssasdırlar. Buna görə də pedaqoji fəaliyyətdə səriştəli olmaq müəllimin fənnini yaxşı bilməsi və yaxşı öyrətməyə çalışması ilə məhdudlaşmır. Müəllim özünün digər keyfiyyətləri ilə də öyrədəndir, tərbiyə edəndir

Pedaqoji texnika nədir? Pedaqoji texnika – müəllimin müxtəlif pedaqoji vəzifələri həll etməsinin mühüm və incə aləti olub, onun fəaliyyətinin məzmunu və ahəngdarlığını təmin edən üsulların məcmusudur. Pedaqoji texnikada ünsiyyət texnologiyası və müəllimin nitqi mühüm tərbiyə vasitəsi kimi əhəmiyyətli rol oynayır. Bunlara bir qədər də aydınlıq gətirsək və konkretləşdirsək pedaqoji texnikaya müəllimin mənalı hərəkətlərini, səsin intonasiyasını, nitqində pauzanı, gülüşünü, şagirdlə müəyyən məsafə saxlamasını, həssaslığını, mimikasını, əllərini və sifətini idarə etməsini, sinifdəki hərəkətini və s. göstərmək olar. Professorlar Ə.Paşayev və F. Rüstəmovun müəllifləri olduqları dərs vəsaitində pedaqoji texnikaya aşağıdakı texnikaların daxil olduğunu göstərirlər: - ünsiyyətlilik, sadəlik və təbiilik; - diqqətin idarə edilməsi; - zahiri davranışa görə daxili vəziyyəti müəyyənləşdirmək; -pedaqoji hərəkətlərdə temp hissinin olması; - şagirdlərin hərəkətinə subyektiv münasibət bildirmək priyomları; - nitq mədəniyyəti, düzgün nəfəs alma, səsin qoyuluşuna yiyələnmə, nitqin idarə edilməsi; - qeyri-verbal ünsiyyət vasitələri: mənalı hərəkətlər; intonasiya, səsin ucalığı, tembri, nəfəsalma, gülüş, öskürək; toxunma ünsiyyət vasitələri; məsafə vasitələri və s. Pedaqoji texnika elementləri içərisində nitq texnikasının öz yeri, öz rolu vardır. A.S.Makarenko yazırdı: "Bir çox ata-analar, eləcə də bir çox pedaqoqlar uşaqlarla danışmağı bacarmırlar. Səsi düzgün çıxarmağı bacarmaq lazımdır.

Pedaqoji texnika bədən dili ilə də sıx bağlıdır. Burada başın duruşu, üzün, əlin, ayağın hərəkətləri, gözlər və baxışlar mühüm rol oynayır. Müəllim hətta dərsi yaxşı öyrənməyən, cavab vedikdə çətinlik çəkən şagirdə qarşı səbrli olub, sözünü bitirməyi gözləməli və onu axıra qədər dinləməlidir. Dərsə cavab verən şagirdin cavabına başı ilə müsbət reaksiya verdikdə (yəni, başını azacıq olaraq aşağı-yuxarı tərpətdikdə) şagird özünə qarşı daha inamlı olur, cavablarının daha da yaxşı olmasına çalışır.

Müəllim yalnız bir şagirdlə deyil, bütün şagirdlərlə baxış ünsiyyətində olmalıdır. Müəllimin siniflə göz təması siniflə müəllim arasındakı münasibətlərə müsbət təsir göstərir. Müəllimin əl, qol hərəkətləri də sözsüz təsirin əsas alətlərindəndir. Bu, müsbət də ola bilir, mənfi də. Müəllimin hər hansı bir mövzunu tədris edərkən təsvir etdiyi obraza, əşyaya, hərəkətə uyğun olaraq əlini hərəkət etdirirsə bu, şagirdlərdə mövzunu daha dərindən mənimsəməyə kömək edir. Onlar müəllimin sözlə təsvir etdiyinin sanki əyani şəkildə də görürlər. Lakin əllərin bu funksiyası təkcə bunlarla tamalanmır. Əlin açıq, qapalı, bükülmüş, çarpazlaşdırılmış və s. formaları da şagirdlərə bu və ya digər tərəfdən təsir göstərir. Buna görə də müəllim hər hansı bir mövzunu izah edərkən, nələrdənsə bəhs edərkən əllərin bu pozalarına da fikir verməlidir. Mimika müəllimin əsas texnikalarından biridir. Şagird dərsə cavab verərkən, müəyyən müsahibədə iştirak edərkən müəllimin üzündəki ifadələr şagirdin müəllim tərəfindən necə qəbul olunduğunu əyani şəkildə ifadə edir. Müəllimin qaşlarını çatması, üzündəki sərt ifadə, sual dolu baxışı və ya üzündəki təbəssüm, razılıqla başını tərpətməsi şagirdlərə çox şeyi deyir. Həssas uşaq gözü nəinki bunları görür, onların mənasını da dərk edirlər. Şagirdlərin də mimikası belədir. Müəllim onlarn üz ifadələrindən şagirdin daxili vəziyyətini duymalı və onların düşüncələrini anlamağı bacarmalıdır.

Pedaqoji təhsildə təlimin səmərəli və keyfiyyətli olmasında pedaqoji texnika ilə yanaşı bu prosesdə istifadə olunan forma və metodların düzgün seçilib tətbiq edilməsinin böyük rolu vardır. Müxtəlif təlim metodlarının tədris prosesinə daxil edilməsi tələbələrin təfəkkür xüsusiyyətlərinin formalaşdırılmasına, onların passivliyinin aradan qaldırılmasına, təlim keyfiyyətinin yüksəldilməsinə xidmət göstərir. Gələcək müəllimlərin də peşə səriştəliliyinə yiyələnməsinin forma və metodlarının düzgün müəyyənləşdirilməsi bu

baxımdan mühüm əhəmiyyət daşıyır. Müəllim xüsusi ixtisasla ixtisaslanmış və peşəkar fəaliyyətlə məşğul olan bir şəxsdir. Müəllim öz ixtisası üzrə bilik və bacarıqlarını tələbəyə ən maksimum dərəcədə aşılamalıdır. Müəllimin fəaliyyətinin başlca istiqamətlərini təhsilalanların təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşması təşkil edir. Müəllim öz fəaliyyətinin funksiyalarını nə qədər yüksək səviyyədə bilsə, tələbələrə bir o qədər sərbəstlik, müstəqillik imkanı yaradar. Hələ vaxtı ilə Sokrat peşəkar pedaqoqları "fikrin mamaçaları" adlandır-mışdır. Savadlı müəllim şagirdə hazır bilikləri verməməli, onun başında fikrin meydana gəlməsinə, yaranmasına kömək göstərməlidir [1, s.39]. Pedaqoji fəaliyyətdə peşəkarlığın dayamadan artırılması daimi bir prosesə çevrilməlidir. Yəni peşə səriştəliliyinin artırılması hər dəfə, ancaq yeni keyfiyyətdə təkrarlanmalıdır. Müəllimlər pedaqoji fəaliyyətin əsas simalarından biri kimi gənc nəslin təlim və tərbiyəsinə məsuliyyətlə yanaşmalıdırlar. Müəllim təhslialanları sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmalı, nəsillər arasında mənəvi əlaqə yarada bilməli, elmin, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verməyi bacaran şəxs olmalıdır. Müəllimin peşə səriştəliliyini bir çox keyfiyyətlərdə özünü göstərir: əməksevərlik, intizamlılıq, qarşıya məqsəd qoymaq və ona nail olmaq yolunda çalışmaq, qətiyyətlilik, əzmkarlıq, öz peşə səviyyəsini, əməyinin keyfiyyətini sistematik və planauyğun yüksəltmək və s.

Müəllimin peşə səriştəliliyinin əsas keyfiyyətlərindən biri humanizmdir. Humanist dəyərlər təhsilalanın (tələbənin) şəxsiyyətinə maraqdan, onun vəziyyətinə şərik olmaqdan, fikrinə hörmət etməkdən, tədris fəaliyyətinə yüksək tələbkarlıqdan, şəxsiyyətin inkişafına qayğı göstərməkdən və s. ibarətdir. Müəllim hər zaman fəal və yaradıcı, ən gözlənilməz hallarda belə aparıcı mövqedə qalmağı bacarmalıdır.

Müəllimin səriştəliyinin göstəricilərindən biri və ən əsası şagirdləri fəallaşdırmaq, onların qabiliyyətlərini üzə çıxarmaq, inkişaf etdirməkdən ibarətdir. Səriştəli müəllim təlim prosesini fəallaşdırmaq üçün müxtəlif metodlardan istifadə etməklə təhsilalanları düşünməyə sövq edir. Səriştəlilik müəllimin şəxsi mədəniyyətində, biliyində, onun təlim və tərbiyənin, pedaqoji texnikanın priyomlarına və qabaqcıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri hazırlığında özünü göstərir. Səriştəlilik müəllimin pedaqoji texnikasının yüksək səviyyədə olmasıdır. Usta müəllim bütün pedaqoji vasitələr ehtiyatına yiyələnməli, nəzərdə tutulmuş işləri görmək üçün ən qənaətcil və səmərəli vasitələri seçməyi bacarmalıdır [1, s.49]. Metodik iş müəllimin peşə səriştəliliyinin artırılması üzrə məqsədyönlü, sistemli, kollektiv və fərdi, nəzəri və praktik fəaliyyətidir. Bu da onu göstərir ki, metodiki iş təlim-tərbiyə prosesinin yüksək səviyyədə idarə edilməsinin bir vasitəsidir. Təhsil prosesində metodiki işin məqsədi hər bir müəllim üçün fasiləsiz peşə inkişafı sistemini yaratmaqla təhsilin qarşısında duran vəzifələri reallaşdırmaq istiqamətində pedaqoji işçilərin peşə səriştəliliyinin artırılmasını təmin etməkdir. Müəllimin səriştəliliyi daha qısa müddətdə daha çox informasiyanı tələbələrə mənimsətmək imkanını xeyli artırır. Bu, tələbələrin idrak fəaliyyəti və təlim motivasiyası hesabına, habelə təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində mümkün olur. Səriştəlilik müəllimin peşə keyfiyyətlərindən ən vacibidir. Müəllimin yiyələndiyi peşəni dərindən bilməsi, qarşıdakı problemin optimal formada həllinə kömək edir. Yalnız bilik və bacarıqların çoxluğu müəllimin səriştəli olması demək deyil, vacib olan yiyələnmiş olduğu bacarıqları müəyyən situasiyalarda düzgün və səmərəli şəkildə tətbiq etməkdir.

Pedaqoji səriştəlilik müəllimdən yaradıcı düşüncə, yenilikçilik meylləri, tələbatlar, pedaqoji fəaliyyət üçün xüsusi bacarıqlar, müstəqillik, həvəs, məsuliyyət və peşəsinə sevgi tələb edir. Bunları özündə təcəssüm etdirə bilən müəllim özünün fəaliyyəti ilə təkcə qarşısındakı uşaq, yeniyetmə və gənci şəxsiyyət kimi formalaşdırmaqla qalmır. O, eyni zamanda, fəaliyyəti ilə də bir müəllim kimi özünü təqdim edir və həmçinin bir şəxsiyyət kimi reallaşdırır, bir vətəndaş kimi dəyərləndirir. Belə bir həqiqəti də unutmaq olmaz ki, müəllimin fəaliyyətindəki çatışmazlıqlar, müəllim səriştəsizliyi və işinə məsuliyyətsiz yanaşma ilk növbədə onun özünə qarşı inamsızlıq yaradır, bir şəxsiyyət kimi dəyərini aşağı salır, bir müəllim kimi nüfuzunun itməsinə səbəb olur [5, s.20].

Professor M.İlyasov müəllimin pedaqoji səriştəliliyinin strukturunda iki elementi qeyd edir: a) fəaliyyət (bilik, bacarıq, vərdişlər və pedaqoji fəaliyyətin həyata keçirilməsi üsulları); b) kommunikasiya (qarşılıqlı pedaqoji təsirlər və

ünsiyyət haqqında biliklər, bacarıqlar və həyata keçirilməsi üsulları) [4, s.101]. Müəllim sərişt-əliliyinə çox mühüm tələblər verilir. —Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və strategiyasında qeyd edilir ki, müasir dövrdə müəllim əxlaqi cəhətdən inkişaf etmiş, yaradıcı şəxsiyyət olmalı, refleksiya qabliyyətlərinə, peşə vərdişlərinə, pedaqoji ustalığa malik olmalı və yenilikçiliyə meylli olmalıdır. Müəllim təhsilin əhəmiyyətini dərk etməli, mədəni olmalı, öz fənnini, pedqogika və psixologiyanı gözəl bilməli, şəxsiyyətyönlü pedaqoji üsullardan istifadə etməli, öz intellektual səviyyəsini daim inkişaf etdirmək üçün çalışmalıdır. Müəllim... intellektual fəaliyyət (düşüncə, yaddaş, qavrama, təsvir, diqqət) mədəniyyətinə, davranış mədəniyyətinə, ünsiyyət mədəniyyətinə, o cümlədən, pedaqoji mədəniyyətə malik olmalıdır. Bütün bunlar pedaqoji sərişt-əliliyi inkişaf etdirən amillər kimi müəllim hazırlığında diqqət mərkəzində saxlanmalıdır. Müəllimin peşə mədəniyyətinin şüurlu səviyyəsi öz üzərində işləməklə səciyyələnir.

Gənc müəllim (və ya gələcəyin müəllimi) dərk edir ki, o öz davranışında müəyyən norma və qaydalara riayət etməlidir. Bu, onun tərəfindən peşənin məqsəd, vəzifə və dəyərlərinin dərk olunması nəticəsində baş verir. Dərk olunmuş zərurətdən çıxış etməklə insan peşə və şəxsi planda özünüinkişafa və özünütəkmilləşdirməyə can atmağa başlayır, beləliklə də, öz keyfiyyətlərinə görə müəllimin tələb olunan peşə modelinə, özünün mənəvi dəyərlər sistemi isə peşə etik dəyərlərinə yaxınlaşır. Demək olar ki, müəllim hər gün öz bilik və bacarıqlarını artırmaq üçün çalışmalı, yeniləşən cəmiyyətin tələbləri ilə nəinki ayaqlaşmalı, hətta bir çox məsələləri qabaqlamalıdır. Karrel yazır ki, müəllim bir zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələr öz özlərinə fikirlərini inkişaf etdirmələri üçün onları cəlb edən bir insan olmalıdır. Həqiqətən, sərişt-əli pedaqoq tələbələri (pedaqoji prosesdə öyrənənləri) düşündürməyin metod və yollarını bilməlidir. Pedaqoji prosesdə öyrənənləri hazır məlumatlarla təmin etmək əvəzinə, o məlumatlara necə çatmağın yollarını öyrətməlidirlər. Məlumatı araşdırarkən o material daha uzun müddət yaddaşlarda qalır. Texnologiya insanların maddi rifahını artıran və həyat keyfiyyətini yaxşılaşdıran vasitələrdir. İnsanlar həmişə texnologiyalar yaradıblar, texnologiyasız yaşamaq mümkün deyil. Sərişt-əli müəllim texnoloji proses və avadanlıqları, elmin prinsiplərini anlayaraq, istehsalatla təmas halında öyrətməyi və tələbələrin gələcəkdə yeni texnologiyalar yaratmaq üçün bu gün atacaqları ilk addımlara təşviq etməyi və onlara dəstək olmağı praktik dərslər və məşğələlər vasitəsilə qarşısına məqsəd qoymalıdır. Müəllim yalnız bilgi verməməli, bu bilgini araşdırıb tapdırmağı bacarmalıdır.

Tədqiqat zamanı tələbələrlə apardığım anket sorğusunun nəticəsi göstərdi ki, təhsilalan gələcək müəllimlər müəllim peşəsini seçmələrində, əsasən, iki mühüm amilə xüsusi diqqət veriblər: a) öz müəllimi kimi olmaq istəyənlər; b) öz müəllimi kimi olmayıb yüksək keyfiyyətli bir müəllim olmaq istəyənlər. Müəllimlər təhsil sisteminin aktivləşdiriməsində və təminatında ən çox təsiri olan şəxslərdir. Bu aktivlik səviyyəsi müəllimin sinif daxili və sinif xarici etdikləri fəaliyyətlə əlaqəlidir. Bu fəaliyyətlərin və tətbiqlərin nəticəsi isə müəllimlərin peşəkarlığı ilə yaxından əlaqələndirilir. Müəllim peşəkarlığı öyrənmə - öyrətmə sahəsində mütəxəssis, bilik, bacarıq və davranış kimi qəbul edilə bilər. Müəllimlərin səlahiyyətləri artdıqca, mövcud insan və maddi resurslardan (şagird, sinif, dərs, dərs proqramı, təhsil materialları və s.) daha effektiv istifadə edərək daha uğurlu nəticələrə nail ola bilərlər. Müəllimlərin sərişt-əliliyinin tədrisin peşəkarlığından başladığını deyə bilərik. Araşdırmaların nəticələrinə görə, müəllimlərin peşəkarlığı təhsilin keyfiyyətinə və tələbələrin uğurlarına müsbət təsir göstərir. Müəllimlərin peşəkarlığına dair müzakirələr tez-tez əmək haqqına, statusuna, və ləyaqətinə yönəlir. Bunlar vacib məsələlərdir, lakin müəllimlərin peşəkarlığını tələb edən əsas səbəb deyildir. Bir müəllim peşəsinin axtarışı üçün əsas səbəb tələbələrin daha yaxşı təhsil alması ehtimalını artırmaqdır.

Gələcək müəllimlərin peşə sərişt-əliliyinin forma və metodlarına uyğun olaraq aşağıdakıları qeyd edə bilərik:

- tələbələrdə yeni bilik və bacarıqlar əldə etməyə motivlər yaratmaq;
- mövzunu daha səmərəli mənimsətmək;
- sərbəst olaraq qoyulmuş məsələlər üzrə həll yollarını tapmaq;
- tələbələr arasında qarşılıqlı təsir əlaqəsini qurmaq, komandada iş bacarığını mənimsəmək, hər hansı bir fikrə dözümlülük göstərmək, hər birinin söz azadlığına, mənliyinə hörmətlə yanaş-

mağı öyrətmək;

- hər bir dinləyicidə şəxsi fikrini və münasibətini formalaşdırmaq;
- professional vərdişləri formalaşdırmaq;
- dinləyicini səlahiyyətlərinin dərk etməsi səviyyəsinə çıxarmaq.

Səriştəli müəllim öz missiyamızı dərk edən, yaşadan, ötürən və ən əsası missiyasının daşıyıcısı olmalıdır.

Ədəbiyyat

1. Paşayev, Ə. Pedaqogika, Dərslik. / Ə.Paşayev, F.Rüstəmov. – Bakı: Elm və təhsil, – 2010.
2. Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodik tövsiyələr
3. Ушинский, К.Д. Собирание сочинений. 7 т. – М., – 1951.
4. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı, – Bakı: Elm və təhsil, – 2013.
5. İlyasov,.M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. – Bakı: Elm və Təhsil, – 2018.
6. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiyası və strategiyası

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 188-192
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 188-192
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 188-192

UOT

Yeni nəslin müəlliminə verilən müasir tələblərə dair

Müəllif:

Pərvin Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: cafarova.p@mail.ru

Açar sözlər:
müasir müəllim, tələbə, təhsil, təlim prosesi, keyfiyyət, qabiliyyət, mentor

Annotasiya. Mentor şəxsi davranışı, həyata münasibəti ilə mənəvi həyat nümunəsi göstərməyə, şagirdləri insan fəzilətlərinin, həqiqətin və yaxşılığın yüksək idealları üzərində tərbiyə etməyə borcludur. Buna görə də onun vacib peşə keyfiyyətlərinə sahib olması labüddür. Bu şəraitdə müəllimin tədris prosesində əlverişli münasibətlərin yaradılması üçün peşəkar əhəmiyyətli şərtlərə çevrilən keyfiyyətləri xüsusi əhəmiyyət kəsb edir. Tələbələrin gündəlik həyatının təşkilatçısı kimi çıxış edirlər. Yalnız şəxsi fəaliyyətə həlledici yer verildiyi təlim prosesində inkişaf etmiş bir iradəsi olan insan- müəllim maraqları oyandıra bilər, tələbələri özünə cəlb edə bilər. Müəllimin peşə fəaliyyətində natiqlik böyük əhəmiyyət kəsb edir. Müəllim ilk növbədə özünə yüksək tələblər qoyur, çünki başqalarına sahib olmadığınızı tələb edə bilməzsiniz.

On the modern requirements for the teacher of the new generation

Author:

Parvin Jafarova
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Pedagogy
E-mail: cafarova.p@mail.ru

Key word:
modern teacher, student, education, learning process, quality, ability, mentor

Abstract. The mentor is obliged to set an example of spiritual life with his personal behavior and attitude towards life, to educate students on the high ideals of human virtues, truth and goodness. Therefore, he must have important professional qualities. In these conditions, the teacher's qualities, which become professionally important conditions for creating favorable relations in the teaching process, are of special importance. They act as organizers of students' daily life. Only a person-teacher with a developed will in the learning process, where personal activity is given a decisive place, can arouse interests and attract students to him. Speaking is of great importance in the teacher's professional activity. A teacher first of all makes high demands on himself, because you cannot demand of others what you do not have.

К современным требованиям к учителю нового поколения

Автор:

Парвин Джафарова
Азербайджанский Государственный Педагогический Университет
доктор философии в области педагогики
E-mail: cafarova.p@mail.ru

Ключевые слова:
современный учитель, студент, образование, учебный процесс, качество, способность, наставник

Аннотация. Наставник обязан своим личным поведением и отношением к жизни подавать пример духовной жизни, воспитывать учеников на высоких идеалах человеческих добродетелей, правды и добра. Поэтому он должен обладать важными профессиональными качествами. В этих условиях особое значение приобретают качества педагога, которые становятся профессионально важными условиями создания благоприятных отношений в учебном процессе. Они выступают организаторами повседневной жизни студентов. Только человек-педагог с развитой волей в процессе обучения, где решающее место отводится личной деятельности, может вызвать интерес и привлечь к себе учащихся. Говорение имеет большое значение в профессиональной деятельности учителя. Учитель в первую очередь предъявляет высокие требования к себе, ведь нельзя требовать от других того, чего у тебя нет.

İnsanlar həmişə müəllimə artan tələbat göstərirdilər, bütün çatışmazlıqlardan azad olmaq istəyirdilər. Dünya pedaqoji düşüncəsinin görkəmli qurucusu Y.A.Komenski müəllimin əsas məqsədinin yüksək əxlaqı, insanlara olan sevgisi, biliyi, çalışqanlığı və digər keyfiyyətləri ilə tələbələrə nümunə olmaq və onlarda insanlığı inkişaf etdirmək olduğunu əsaslandırdı [1, s.337].

Tələbələrə asanlıqla və sevinclə öyrətmək lazımdır. K. D. Uşinski müəllimi "Gənc ruh üçün məhsuldar günəş şüası" adlandırdı. Rus müəllimlərinin müəllimi mentorlara son dərəcə yüksək tələblər qoyurdu. Müəllimini dərin və çox yönlü biliyi olmadan düşünmürdü. Ancaq yalnız bilik azdır; "insan tərbiyəsinin əsas yolu inandırmaqdır və inandırma yalnız inamla hərəkət edilə bilər" [1, s.499]. Hər hansı bir tədris proqramı, hər hansı bir tərbiyə metodu, nə qədər yaxşı olsa da, tərbiyəçinin inancına çevrilməmişdirsə əslində heç bir gücü olmayan ölü bir məktub olaraq qalır.

Müasir müəllimə olan tələblər arasında mənəviyyat aparıcı yerdədır. Mentor şəxsi davranışı, həyata münasibəti ilə mənəvi həyat nümunəsi göstərməyə, tələbələri insan fəzilətlərinin, həqiqətin və yaxşılığın yüksək idealları üzərində tərbiyə etməyə borcludur.

Müasir bir müəllim üçün vacib bir tələb pedaqoji qabiliyyətlərin olmasıdır: tələbələrlə işləmək; uşaqlara sevgi; onlarla ünsiyyətdən zövq almaq meyllərində ifadə olunan şəxsiyyət keyfiyyəti. Çoxsaylı sorğuların nəticələrinə görə aparıcı qabiliyyətlərə pedaqoji sayıqlıq (müşahidə), didaktik qabiliyyət, təşkilati qabiliyyət daxildir.

Pedaqoji bacarıqları (istedad, peşə, meyllər) pedaqoji peşənin uğurlu mənimsənilməsinin vacib şərtini tanımalıyıq, lakin bunlar həlledici peşə keyfiyyəti deyil. Buna görə də onun vacib peşə keyfiyyətlərinə sahib olması labüddür. Bunlar müəllimin zəhmətkeşliyi, səmərəliliyi, nizam-intizamı, məsuliyyəti, məqsəd qoymaq bacarığı, ona çatmağın yollarını seçmək, təşkilatçılıq, əzmkarlıq, peşə səviyyəsinin sistematik və sistematik şəkildə artırılması, işinin keyfiyyətini daim artırmaq istəyi və s. daxildir.

Gözümüzün qarşısında təhsil müəssisələrinin planların, müqavilələrin qüvvədə olduğu, rəqabətin inkişaf etdiyi əhaliyə təhsil xidmətləri göstərən istehsal müəssisələrinə nəzərəçarpa-caq dərəcədə çevrilməsi baş verir. Bu şəraitdə müəllimin tədris prosesində əlverişli münasi-bətlərin yaradılması üçün peşəkar əhəmiyyətli şərtlərə çevrilən keyfiyyətləri xüsusi əhəmiyyət kəsb edir. Onların arasında insanlıq, xeyirxahlıq, səbir, ədəb, dürüstlük, məsuliyyət, ədalət, bağlılıq, obyektivlik, səxavət, insanlara hörmət, yüksək əxlaq, nikbinlik, emosional tarazlıq, ünsiyyətə ehtiyac, tələbələrin həyatına maraq, xeyirxahlıq, özünütənqid, dostluq, təmkin, ləya-qət, vətənpərvərlik, bütövlük məsuliyyət, emosional mədəniyyət və s. özünü göstərməkdədir. Müəllim üçün məcburi keyfiyyət humanizmdir, yəni, böyüyən insana yer üzündə ən yüksək dəyər kimi münasibət, bu münasibətin konkret işlərdə və hərəkətlərdə ifadəsi olduqca önəmlidir. İnsanlıq bir insana olan maraqdan, ona rəğbətdən, köməkdən, fikirlərinə hörmətdən, inkişaf xüsusiyyətlərini bilməkdən, təhsil fəaliyyətinə yüksək tələbkarlıqdan və onun inkişafı ilə məşğul olmaqdan ibarətdir. Uşaqlar bu təzahürləri görürlər, əvvəlcə şüursuzca izləyirlər, zamanla insanlara insani münasibət təcrübəsi qazanırlar.

Müəllim həmişə yaradıcı bir insandır. Tələbələrin gündəlik həyatının təşkilatçısı kimi çıxış edirlər. Yalnız şəxsi fəaliyyətə həlledici yer verildiyi təlim prosesində inkişaf etmiş bir iradəsi olan insan- müəllim maraqları oyandıra bilər, tələbələri özünə cəlb edə bilər. Tələbə kollektivi kimi mürəkkəb bir orqanizmin pedaqoji rəhbərliyi müəllimi ixtiraçı, ağıllı, israrlı, hər zaman istənilən vəziyyətin müstəqil həllinə hazır olmağa məcbur edir. Müəllim tələbələri onu izləməyə təşviq edən rol modelidir.

Müəllimin peşəkar zəruri keyfiyyətləri dözümlülük və özünə hakim olmaqdır. Peşəkar həmişə, ən gözlənilməz şəraitdə də təhsil prosesində aparıcı mövqeyini qorumağa borcludur. Tələbələr müəllimin heç bir ruhdan düşməsini, çaşqınlığını, çarəsizliyini hiss etməməli və görməməlidirlər. A. S. Makarenko əyləcsiz müəllimin korlanmış, idarəolunmaz bir maşın olduğunu bildirdi. Bunu daim xatırlamaq, hərəkətlərinizə və davranışlarınıza nəzarət etmək, uşaqlara qarşı kin-küdurətə düşməmək, xırda şeylərdən əsəbləşməmək lazımdır [1, s.619] .

Müəllimin xarakterindəki mənəvi həssaslıq, şagirdlərin vəziyyətini, əhval – ruhiyyəsini hiss etməyə, ən çox ehtiyacı olanların köməyinə vaxtında gəlməyə imkan verən bir növ barometrdir.

Müəllimin ayrılmaz peşəkar keyfiyyəti ədalətdir. Fəaliyyətinin təbiətinə görə tələbələrin bilik, bacarıq və hərəkətlərini sistematik ola-

raq qiymətləndirməyə məcbur olur. Buna görə onun dəyər mühakimələrinin tələbələrin inkişaf səviyyəsinə uyğun olması vacibdir. Onlara görə pedaqoqun obyektivliyini qiymətləndirirlər. Heç bir şey müəllimin mənəvi nüfuzunu obyektiv olmaq bacarığı kimi gücləndirmir. Qərəz, subyektivlik tərbiyə işinə çox zərər verir.

Müəllim tələbkar olmalıdır. Bu, onun uğurlu işləməsi üçün ən vacib şərtdir. Müəllim ilk növbədə özünə yüksək tələblər qoyur, çünki başqalarına sahib olmadığınızı tələb edə bilməzsiniz. Pedaqoji tələbkarlıq inkişaf etməkdə olan şəxsiyyətin imkanlarını nəzərə alaraq ağlabatan olmalıdır.

Pedaqoji proses zamanı gərginliyi neytrallaşdırmaq müəllimə yumor hissi ilə kömək edir. Onun arsenalında bir zarafat, atalar sözü, aforizm, mehriban alt seçim, təbəssüm – müsbət emosional fon yaratmağa imkan verən hər şey tələbələrin özlərinə və vəziyyətə komik tərəfdən baxmağa məcbur edir.

Ayrıca, müəllimin peşəkar nəzakəti haqqında danışmaq lazımdır- tələbələrlə ünsiyyətdə nisbət hissinə riayət etmək vacibdir. Nəzakət tərbiyəçinin ağlının, hissinin və ümumi mədəniyyətinin konsentrat ifadəsidir. Onun nüvəsi tələbənin şəxsiyyətinə hörmətdir.

Müəllimlik peşəsindəki şəxsi keyfiyyətlər peşəkarlardan ayrılmazdır. Bunların arasında: tədris mövzusuna yiyələnmək, fənnin tədrisi metodikası, psixoloji hazırlıq, ümumi erudisiya, geniş mədəni dünyagörüşü, pedaqoji bacarıq, pedaqoji əmək texnologiyalarına yiyələnmək, təşkilatçılıq bacarıqları, pedaqoji taktika, pedaqoji texnika, ünsiyyət texnologiyalarına yiyələnmək, natiqlik və s. bir keyfiyyətdir. Rəşid bəy Əfəndiyev müəllimlərə məsləhət görürdü ki, təlimdə müvəffəqiyyət qazanmaq üçün məlumdan məchula, yaxından uzağa, konkretdən mücərrədə, sadədən mürəkkəb doğru getsinlər [2, s.433].

Onsuz müəllimin fəaliyyəti mümkün deyil. Onun komponentləri vicdanlılıq və fədakarlıq, təhsil nəticələrinə nail olmaq sevinci, özünə, ixtisaslarına qarşı daim artan tələbkarlıqdır. Müasir müəllimin şəxsiyyəti əsasən onun erudisiyası, yüksək mədəniyyət səviyyəsi ilə müəyyən edilir.

Müəllim vizual rol modelidir, necə davranmağın bir növ standartıdır. Müəllimin işi təhlil edildikdə ayrılmaz keyfiyyət – müəllimlik bacarığı ön plana çıxır. Onun tərifləri çoxdur. Ən ümumi mənada bu, yüksək və daim inkişaf etdirilən təhsil və təlim sənətidir. Ustalıq pedaqoji texnika və ən yaxşı təcrübə ilə müəllimin şəxsi mədəniyyətinin, biliyinin və üfüqünün birləşməsinə əsaslanır. Bacarıq əldə etmək üçün nəzəriyyəni bilməli, tədris prosesinin effektiv texnologiyalarından istifadə etməli, müəyyən bir vəziyyət üçün düzgün seçmlər etməli, müəyyən bir səviyyədə və keyfiyyətdə bir prosesi diaqnoz etməli, proqnozlaşdırmalı, dizayn etməli, elə təşkil etməlidir ki, bütün, hətta ən əlverişsiz şəraitdə tələbələrin istənilən təhsil səviyyəsinə, inkişafına və biliklərinə nail olsun. Firidun bəy Köçərli qeyd edir ki, “Müəllim məktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır” [3, s.179].

Əsl müəllim həmişə hər hansı bir suala qeyri–standart cavab tapacaq, tələbəyə xüsusi yanaşmağı, içindəki marağı alovlandırmağı, həyəcanlandırmağı bacaracaqdır. Belə bir müəllim mövzunu dərindən bilir, biliklərini şagirdlərə çatdırmaq qabiliyyətinə malikdir, müasir tədris metodlarını mükəmməl istifadə edir. Bunu öyrənmək olarmı? Ustaların təcrübəsi göstərir ki, mümkündür. Əksər müəllimlər, istəsələr, müasir iş texnikalarını mənimsəyə bilirlər. Bunun yolu asan deyil, gərginlik, ustaların işini müşahidə etmək, daim özünütərbiyə, xüsusi ədəbiyyatın öyrənilməsi, yeni tədris metodlarının tətbiqi, introspeksiya tələb olunur.

“Yeni nəsil müəllim” - yenilənən təhsil sistemi üçün rəqabətqabiliyyətli kadrların hazırlanmasına yönəlmiş müasir təhsil sistemimizin qarşısında duran ən başlıca məsələlərdəndir.

Peşəkar kadr hazırlığı ilə məşğul olan təhsil müəssisələrinin və o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universitetinin strateji inkişafının əsas istiqamətlərindən birə də məhs bu günümüz üçün aktual problemə çevrilmiş müəllimlərin yetişdirilməsində müasir yanaşmaların istifadəsi və əmək bazarında kadrların keyfiyyət şərtlərinə cavab verməsidir. Buna ən başlıca səbəb əmək bazarında müasir yanaşmalı, kreativ, yeni təlim texnologiyalarından sərbəst istifadə qabiliyyəti olan müəllimlərə tələbatın artması idi.

Təhsil sisteminin inkişafındakı mövcud olan ilk növbədə “həyat üçün təhsil” əsas təhsil paradiqmasının – “Həyat Boyu Təhsil” paradiqması ilə əvəz edilməsi tələbələr üçün əsas mənbəyi olmağı dayandıran müəllimin peşə səlahiyyətlərinə xüsusi tələblər qoyurdu. Təbii ki, bu tendensiyaların dəyişməsi kadr hazırlığında da özünü biruzə verməli idi.

Bu baxımdan müəllimin tələbəyə öyrənməyə maraq aşılamağı, ona lazımi məlumatları (o cümlədən ən yeni informasiya texnologiyalarının köməyi ilə) müstəqil tapmağı öyrətməyi və təhlil edə bilmək qabiliyyətini formalaşdırmağı ən dəyərlidir vəzifələrindən biridir . Bənzər tələblər müəllimin özünə tətbiq olunur: öz növbəsində, o, yalnız təhsil sistemindəki hər hansı bir yeniliyə hazır olmalı, həm də tədris prosesinin yaxşılaşdırılmasında birbaşa iştirak etməlidir. Müəllimin - yeni nəsil müəllimin peşəkar səriştələrinin belə bir modelinin həyata keçirilməsi dövlət təhsil sisteminin əsasını təşkil edir.

Dövlət təhsil standartlarına görə "yeni nəsil müəllim" ali pedaqoji təhsildə mövcud boşluqları doldurmalı, eyni zamanda peşəkar pedaqoji fəaliyyətə yönəlmiş tələbələrin hazırlıq səviyyəsini artırmalıdır.

Pedaqoji ixtisasların məsuliyyətinin və pedaqoqa verilən tələblərin çox olması bu ixtisasın ən istedadlı tələbələr tərəfindən seçməyilə nəticələnməlidir. Unutmaq olmaz ki, peşəkar, müəllimin pedaqoji ustalığına malik kadrların hazırlanması və əmək bazarına təqdim olunması xüsusi bir təhsil yükü daşıyır. Eələ bu səbəbdən akademik yanaşmadan kənara çıxmaq və təhsildə daha yaxşı nəticələr əldə etmək üçün tələbələri daim motivasiya etmək məqsədi ilə pedaqoqların səlahiyyətlərinin artırılmasına daha çox maraq göstərilməlidir. Nəticənin yüksək səviyyədə əldə edilməsi üçün yalnız pedaqoqların deyil, eyni zamanda psixoloqlarında üzərinə kifayyət qədər yük düşür. Yetişməkdə olan gələcəyin pedaqoqları ilə psixoloqlar mütəmadi işləməli və onları müəllimlik peşəsinə emosional olaraq hazırlamalı, psixoloji təlimlərin köməyi onlarda gələcəkdə yarana biləcək problemlərdən çıxış yollarının tapılmasına alışdırmalıdırlar.

Psixoloji təlimlər "yeni nəsil müəllim" üçün ayrıca bir istiqamətini olaraq labüddür. Komanda qurmaqdan (komanda qurmaqdan) əlavə, bir sıra digər təhsil və təhsil məqsədləri güdürlər: liderlik keyfiyyətlərinin formalaşması, auditoriya qarşısında danışma bacarıqları və s. psixoloji hazırlığın effektivliyini artırmaq üçün tələbələrə tədris ilində iki dəfə məktəb səfərləri təşkil olunsa, bu müddət ərzində təlim sessiyaları və işgüzar oyunlar keçirilsə daha yaxşı olar. Məkan dəyişikliyi tələbəni gələcək iş fəaliyyəti, təlim prosesi üçün hazırlayır ki, bu da təşkil olunan dərsləri ən təsirli edir. Nəzəriyənin praktikadan kənarda müsbət nəticə əldə etməyə yetərli olmadığını nəzərə alsaq bu yanaşma eyni zamanda tələbələrdə 3 ilin sonunda deyil daha öncədən ilkin praktikanın yaradılmasına xidmət etmiş olar.

Müəllimin peşə fəaliyyətində natiqlik böyük əhəmiyyət kəsb edir. Onun inkişafı təəssüf ki, ali pedaqoji təhsilin keyfiyyətindən aslı deyildir və "kortəbii" - təhsil prosesinə paralel olaraq (seminarlarda, konfranslarda və s.çıxışlar zamanı) baş verir. Bu baxımdan müəllimin vəzifələrindən biri də tələbələrinə əsas natiqlik bacarıqlarını öyrətməkdir: nitqini düzgün qurmaq, dinləyiciləri maraqlandırmaq, müzakirə zamanı fikirlərini müdafiə etmək bacarığı. Xüsusiylə seminar məşğələlərində tələbələrin nitqinə müəllim tərəfindən nəzarət edilməsi vacib şərtlərdəndir. Natiqliyin əsasları haqqında nəzəri məlumatlara əlavə olaraq müəllim tələbələrə natiqlik bacarıqlarını praktikada - daxili müzakirələrdə, dəvət olunmuş mütəxəssislərlə ünsiyyətdə, müsabiqə və olimpiadalarda çıxış edərkən inkişaf etdirmək imkanı verilir.

Müəllim tələbələri üçün zəruri olan üfüqləri genişləndirən, elm və sənət sahəsindəki əsas nailiyyətlər haqqında bir fikir formalaşdıran, geniş dünyagörüşünə malik, işinin peşəkarı olmaqla yanaşı daim axtarışda olan və yenilikləri tədbiq etməyə meyilli bir şəxsdir.

Tələbələrin dünyagörüşünü artırmaq, onları dərsə həvəsləndirmək məqsədi ilə müəllim mütamadi olaraq dərsdənkənar tədbirlər təşkil etməli, muzey, qoruq, kitabxanalarda da görüşlər keçirilirməli və burada qeyri - rəsmi şəraitdə müxtəlif tərbiyəvi tədbirlər təşkil etməlidir. Bu fəaliyyətlərə filmə baxmaq və müzakirə etmək, maraqlı mövzularda söhbət etmək və ya başqa bir tədbir keçirmək əlavə oluna bilər. Bu görüşlərin gündəliyi və forması çox vaxt müəllim tərəfindən deyil, tələbələrin özləri tərəfindən müəyyən edilməlidir. Bu kimi tədbirlərə 44 günlük Vətən müharibəsinin iştirakçılarını, qaziləri, şəhid ailələrini, mədəniyyət xadimlərini, əmək adamlarını, qabaqcıl elm xadimlərini, ixtisas üzrə peşəkar mütəxəssisləri, sosioloqları, psixoloqları və s. dəvət etmək və bu prosesə cəlb etməklə yaxşı nəticələr əldə edilə bilər.

Əsasən təhsilə yönəlmiş və yuxarıda göstərilən təlim təşkili formaları çərçivəsində həyata keçirilən təlim prosesi zamanı fəaliyyətlərə əlavə olaraq, əldə edilmiş səlahiyyətləri praktikada tətbiq etməyə imkan verən xarici fəaliyyət də va-

cibdir. Buraya müsabiqələrdə, olimpiadalarda, konfranslarda iştirak daxildir.

Tədbir gənclər mühitində pedaqoji peşələrin populyarlaşdırılması, tələbələrin peşəkar pedaqoji fəaliyyətə cəlb edilməsi və dövlət təhsil sistemində ali pedaqoji təhsil mərkəzlərinin inteqrasiyası məqsədi daşıyır.

Beləliklə, müəllimlərin bu cür fəaliyyəti universitetlər arası əlaqələrinin genişlənməsinə, ali təhsil müəssisələrində təhsil alan pedaqogika və psixologiya sahəsində mütəxəssislərin əmək bazarına tələbatının artmasına kömək edir. İşəgötürənlər peşəkar, nəzəri və praktik cəhətdən artıq müəllim olaraq formalaşmış, eyni zamanda psixoloji olaraq öz peşəsini layiqli təmsil etməyi bacaran tələbələr arasında yüksək səviyyədə psixoloji hazırlıq və əmək motivasiyasını qeyd edirlər.

Ədəbiyyat

1. Rüstəmov, F.A. Pedaqogika tarixi. /F.A.Rüstəmov. Bakı: Nurlan, – 2006. – 750 s.
2. Hüseynzadə, R. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. / R. Hüseynzadə. Dərs vəsaiti. Bakı: – ADPU, – 2020. – 538 s.
3. Camalov, K.H. Pedaqoji-psixoloji fikrin inkşafı sələflərdən xələflərə. / K.H. Camalov. Bakı: – ADPU, – 2019. – 222 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 193-198
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 193-198
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 193-198

UOT

Azərbaycan dili dərslərinin təşkilində ənənəvilik və müasirlik

Müəllif:

Xuraman Hacızadə
"Naxçıvan" Universiteti
Doktorant
E-mail:
xuraman_hacizade@mail.ru

Açar sözlər:
kurikulum, təhsil islahatı, müasir təlim, ənənəvi təlim, şagird, müəllim, interaktiv təlim

Annotasiya. Ənənəvi və müasir Azərbaycan dili dərslərinin bir çox oxşar və fərqli cəhətləri vardır. Müasir dövrdə Azərbaycan dili dərsləri dövlət tərəfindən qoyulan tələblərə əsasən keçirilir. Hazırda Azərbaycan dili dərslərini ənənəvi dərslərdən fərqli olaraq, daha səmərəli təşkili üçün yeni planlar hazırlanmış, bir çox qaydalar əlavə edilmiş və bunlar tətbiq olunmaqdadır. Ümumiyyətlə, hazırda əsas məqsəd yaddaşyönümlü təhsildən şəxsiyyətyönümlü təhsilə keçmək olduğu üçün Azərbaycan dili dərsləri də bu istiqamətdə təşkil olunmaqdadır. Ənənəvi dərslərdən fərqli olaraq, müasir Azərbaycan dili dərsləri passiv deyil, interaktivdir. Əvvəlki monoloji Azərbaycan dili dərsləri hazırda yerini dioloji təlimə vermişdir. Demokratiklik gözlənilməkdədir, artıq müəllim avtoritarlığı yoxdr. Azərbaycan dili dərsləri müəllim və şagird arasında əməkdaşlıq əsasda qurulur. Müəllim fasiltator, yəni bələdçi, şagirdlər isə tədqiqatçıdırlar. İnteqrativlik qoyulan tələblərdən biridir. Müasir dövdə Azərbaycan dilini tədris edən müəllimlər bu fəndən əlavə, psixologiya, pedaqogika, inkluzivlik, ümum dünyagörüşü ilə bağlı biliklərə, eləcə də bir çox bacarıqlara malik olmalıdırlar. Hazırda Azərbaycan dili dərslərinin təşkilində İKT-dən geniş istifadə olunmaqdadır.

Author:

Khuraman Hajizadeh
"Nakhchivan" University
Doctoral student
E-mail:
xuraman_hacizade@mail.ru

Traditionality and modernity in the organization of Azerbaijani language classes

Key word:
curriculum, education reform, modern learning, traditional learning, student, teacher, interactive learning

Abstract. Traditional and modern Azerbaijani language lessons have many similarities and differences. At present, Azerbaijani language lessons are conducted in accordance with the requirements of the state. In modern schools, new plans, different from traditional ones have been developed to organize more effective Azerbaijani language lessons, as well as many rules have been added that are applied in the education system. In general, due to the fact that the main goal is the transition from memory-oriented education to personality-oriented education, Azerbaijani language lessons are also organized in this direction. Unlike traditional lessons, modern Azerbaijani language lessons are not passive, but interactive. The previous monologue-type lessons of the Azerbaijani language have given way to diological teaching at present. The rules of democracy are respected, there is no more authoritarianism of teachers. Azerbaijani language lessons are built on the basis of cooperation between teacher and student. The teacher is the facilitator, that is, the guide, and the students are the researchers. Integrity is one of the main requirements. Teachers teaching the Azerbaijani language in the modern era, in addition to this subject, must have knowledge in the field of psychology, pedagogy, inclusiveness, general worldview, as well as many other skills. Currently, ICT is widely used in the organization of Azerbaijani language lessons.

Автор:

Хураман Гаджизаде
Докторант Университета "Нахчыван"
E-mail:
xuraman_hacizade@mail.ru

Традиционность и современность в организации уроков азербайджанского языка

Ключевые слова:
учебная программа, образовательная реформа, современное образование, традиционное образование, ученик, учитель, интерактивное обучение

Аннотация. Традиционные и современные уроки азербайджанского языка имеют много общего и различий. В настоящее время занятия азербайджанским языком проводятся в соответствии с требованиями, установленными государством. В настоящее время разработаны новые планы, добавлено много правил, и они применяются для более эффективной организации уроков азербайджанского языка, чем традиционные уроки. В целом, поскольку основной целью является переход от обучения, ориентированного на память, к обучению, ориентированному на личность, занятия по азербайджанскому языку также организуются в этом направлении. В отличие от традиционных уроков, современные уроки азербайджанского языка не пассивны, а интерактивны. Прежние монологические уроки азербайджанского языка теперь заменены диалогическим обучением. Демократия ожидается, учительского авторитаризма больше нет. Уроки азербайджанского языка основаны на сотрудничестве учителя и ученика. Учитель является фасилитатором, то есть проводником, а ученики – исследователями. Интегративность — одно из требований. Помимо этого предмета, учителя, преподающие азербайджанский язык в современное время, должны обладать знаниями психологии, педагогики, инклюзивности, общего кругозора, а также многими навыками. В настоящее время ИКТ широко используются в организации занятий азербайджанским языком.

Müasir dünyada insanın yiyələnməli olduğu kompetensiyalar vardır ki, bunlar XXI əsrin bacarıqlarını müəyyənləşdirir: 1) ana dilində ünsiyyət; 2) xarici dillərdə ünsiyyət; 3) riyazi savad, elm və texnologiyada kompetensiya; 4) kompüterdən istifadə; 5) öyrənməyi öyrənmək; 6) sosial və vətəndaşlılıq; 7) təşəbbüskarlıq və sahibkarlıq; 8) mədəni məlumatlılıq və özünü ifadə etmək. Şagirdlərdə metatəfəkkürün, metabacarıqların, metakoqnitiv biliklərin formalaşmasına xidmət edən bu bacarıqlar gələcəkdə onlara həyatlarını, karyeralarını qurmağa, həyatda yaxşı mənada yer tutmağa şərait yaratmış olur. Demək, elə bir təhsil modeli seçilməlidir ki, qeyd etdiyimiz bilik və bacarıqlara malik olan vətəndaş yetişmiş olsun. “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” (2020) sənədində nəzərdə tutulan bacarıqlar bu kompetensiyalara əsaslanır:

1. Öyrənmə bacarıqları: tənqidi (kritik) təfəkkür, yaradıcı yanaşma (kreativ), əməkdaşlıq (kooperasiya), ünsiyyət bacarığı (kommunikasiya);
2. Savadlılıq: informasiya savadlılığı, mediasavadlılıq, texnoloji savadlılıq;
3. Həyati bacarıqlar: çeviklik, məhsuldarlıq (produktivlik), liderlik bacarığı, təşəbbüskarlıq, sosiallıq.

Müasir dövrümüzdə keçirilən Azərbaycan dili dərsləri də dövlət tərəfindən qoyulan tələblərə tam cavab verməlidir. Bununla da müasir Azərbaycan dili dərslərini ənənəvi dərslərdən fərqli olaraq daha səmərəli təşkil etmək üçün yeni planlar hazırlandı və tətbiq olunmağa başladı. Ümumiyyətlə, hazırda əsas məqsəd yaddaşyönümlü təhsildən şəxsiyyətyönümlü təhsilə keçməkdir. Beləliklə də, vətənpərvər, azad duyumlu, bazar iqtisadiyyatı şəraitindən faydalanmağı bacaran, yaşadığı cəmiyyətdə məsuliyyətini hiss edən gənclər yetişdirmək ümumtəhsil məktəblərinin qarşısında duran əsas vəzifələrdəndir. Ənənəvi təlimdə şagirdə biliklərin əsasları öyrədilirdi, şagirdlər bilik və bacarıqların daşıyıcısı idi. İndi isə təhsilin əsas məqsədi şagirdlərin inkişafını təmin etməkdir, şagirdlər təcrübə aparandır və onlar problemin həllinə əsaslanan layihələrdə iştirak edə bilirlər. Ənənəvi müəllim bilikləri şagirdə ötürən idi, müasir müəllim isə istiqamətləndirici, dəstəkləyicidir. “Müasir dərs” anlayışı müstəqil düşüncə, öz fikir və rəylərini sərbəst və azad ifadə etməyi bacarmaq, yaradıcı fəaliyyət, axtarıcılıq, öyrənməyin üsul və vasitələrinə yiyələnmək, problemin həlli yollarını axtarıb tapmaq, şagirdi fəal fəaliyyətə təhrik etməkdir. Müasir təlim prosesini ənənəvi təlimdən (müəllimin hər şeyi bilməsi, çoxlu biliklər verməsi, nüfuz sahibi olması) fərqləndirən cəhətlər kimi göstərməliyik ki, müasir dərs yeni ideyalar, yeni metodikalar, yeni texnologiyalar və nəhayət, yeni, fəal mütəxəssislər deməkdir” [21, s.39]. Demək, müasir təlimin məqsədi budur: “Öyrənmək və bilmək hələ əsas şərt deyil. Əsas olan bildiklərini bu gün ifadə etmək, sabah isə tətbiq etməyi bacarmaqdır” [18, s.139].

İnteraktiv Azərbaycan dili dərslərini tədris edən müəllim ənənəvi təlim dövründəki müəllimdən fərqlənməlidir. Beləliklə, ənənəvidən fərqli olaraq müasir Azərbaycan dili müəllimi aşağıdakı sxemə uyğun olmalıdır (sxem 1).



Sxem 1.

Bilik deyəndə təkcə fənlə bağlı nəzəri məsələlərin məzmunu nəzərdə tutulmur. Buraya Azərbaycan dili fənni, psixologiya, pedaqogika, ümum dünyagörüşü ilə bağlı biliklər daxildir. Son zamanlar inkluzivliyi təmin edən biliklər də əlavə edilmişdir. Yəni sinifdə müxtəlif xəstəliklərdən əziyyət çəkən şagirdlər ola bilər ki, müəllim bu xəstəliklər haqqında məlumatlı olmalıdır. Münasibətlərə bərabərliyin qorunması, dürüstlük, obyektivlik, rəhm, sevgi, inam və s. kimi məsələlər aiddir. İKT-dən istifadə etmə, texnologiyadan yararlanma, sosilllaşma, kommunikativlik, əməkdaşlıq, ictimai dairənin genişləndirilməsi, dinamiklik, dayanıqlıq (dözüm), daim inkişaf etmə isə əsas bacarıqlardır.

Pedaqogikada təlim prosesinin əsas üç növü vardır (sxem 2): passiv təlim, fəal və ya aktiv təlim, interaktiv təlim.

Beləliklə, tədris prosesinin iki modeli ortaya çıxır:

1. Müəllimə yönəlmiş dərs (müəllim mərkəzli);
2. Şagirdə yönəlmiş dərs (şagird mərkəzli).

Ənənəvi dərslərin böyük əksəriyyəti passiv keçirilirdi. Eyni zamanda fəal dərsdən də zaman-zaman istifadə olunurdu. Müasir dövrdə təlimin interaktivliyi bir tələbdir. Beləliklə, hazırda dərslər aktiv (fəal), xüsusən də interaktivdir. "Ənənəvi təlim öz yerini bilik, bacarıq, dəyər, keyfiyyət və vərdişləri özündə cəmləşdirən kompetensiyalı fəal təlimə təslim etməkdədir" [7, s.129]. Monoloji təlim yerini xüsusi prinsipləri olan yeni təlimə verdi. Yeni təlimin prinsipləri isə bunlardır: şəxsiyyətyönümlülük, idraki fəallıq, inkişafedici təlim, qabaqlayıcı təlim, çeviklik, əməkdaşlıq, dioloji təlim.

Qeyd etdiyimiz birinci modeldə şagirdlər passivdir. Dərs daha çox məruzə şəklində keçir, müəllim informasiyanı hazır şəkildə ötürür, təlimatlar verir. Burada şagirdin hər addımını müəllim müəyyənləşdirir, hətta onların nəyi hansı səviyyədə öyrənəcəkləri belə müəllimdən asılıdır. Burada praktik tapşırıqlar azlıq təşkil edir.

Passiv dərslərdə müəllim əsas fiqurdur və onun rolları əsasən aşağıdakılardır:

"1. Formal hakimiyyət-müəllim bilik və statusuna görə yüksək hesab edilir, sinifdəki atmosfer qayda-qanuna əsaslanan ənənəvi mühitdir.

2. Müəlli-ekspert-müəllimin əsas fəaliyyəti şagirdi təlim fəaliyyəti yolu ilə yönəltməkdən ibarətdir. Şagird ancaq informasiyanı, biliyi passiv şəkildə qəbul edən tərəf kimi qəbul edilir.

3. Şəxsi nümunə-müəllim öz şəxsi nümunəsində materisalın qavranılması, davranışı, informasiyanın ötürülməsini nümayiş etdirir. Müəllim özü informasiyanı necə qavrayırsa, şagirdlərə də elə ötürür" [12, s.85].

Müəllimin hakim rolunda olduğu dərs həmişə uğurlu ola bilməz. Belə ki, bu cür dərslərdə şagirlərin təfəkkürünün inkişafı əngəllənə bilər.

Şagirdə yönəlmiş dərslərdə təlim prosesində şagirdlər fəaldırlar. "şagird fəaldır deyəndə, şagirdin dərs prosesində fiziki və ya emosional fəallığı yox, biliyi müstəqil şəkildə əldə etmək üçün çalışması nəzərdə tutulur" [12, s.86]. Belə dərslərdə müəllim şagirdlərə yaxından kömək etmək, materialı hazır şəkildə vermək əvəzinə materialın anlaşılması üçün onları yönləndirməli, öyrənmənin yollarını öyrətməlidir.

Fəal, yəni aktiv təlim. Bu cür dərslərdə şagirdlər və müəllim arasında qarşılıqlı informasiya mübadiləsi, əlaqə olur. Burada şagirdlər fəaldır.

İnteraktiv təlim. Ənənəvi təlimdə əzbərçilik, əzbərdən danışma həyata keçirilirdisə, interaktiv təlimdə öyrənmə interaktiv üsullarla təşkil olunur. Əgər aktiv (fəal) təlimdə müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə var idisə, interaktiv dərslər şagirdlərin həm müəllim, həm də bir-birlərilə əlaqə və fəaliyyətdə olmasını təmin edir. Burada informasiyanın mənbəyi təkcə müəllim deyil, şagirdlərin özləri də ola bilərlər. İnteraktiv dərslərdə şagirdlər problemi həlletmə, tənqidi düşünmə bacarıqlarına yiyələnirlər. Bu cür dərslər tətbiqetmə üzərində qurulduğu üçün şagirdlər materialı dərindən anlamış olurlar və onlarda bacarıqlar formalaşır.

"İnteraktiv təlimin hansı üstünlükləri vardır?

Şagird nəaliyyətinin ölçülə bilməsi. İnteraktiv təlim üsullarından istifadə edən müəllim təfəkkürün yuxarı səviyyələri ilə bağlı fəaliyyətlərdən də istifadə etdiyi üçün şagirdlərin fənni necə mənimsədiyini daha dəqiq ölçə bilir.

Şagird motivasiyası. Qarşılıqlı fəaliyyət şagird passivliyinin qarşısını alır və sinifdəki hər bir kəsin dərsə cəlb olunmasını təmin edir.

Real həyati bacarıqlar. İnteraktiv fəaliyyətlər komanda işi, ünsiyyət, qərar qəbuletmə, problem həlletmə kimi XXI əsr bacarıqlarını ön plana çəkir" [12, s.90].

Müasir dərs ənənəvi dərsdən bir çox məsələlərə görə fərqlənir. "Müasir dərsi ənənvi dərsdən fərqləndirən əsas xüsusiyyətlərdən biri bu prosesdə istifadə olunan təlim növləri ilə bağlıdır. Əgər ənənəvi dərsdə izahlı reprodukdiv təlim (yəni onu müasir təlim növündən ayıran başlıca cəhət) üstün, şəriksiz mövqe tuturdusa, müasir dərs isə əksinə "yaranışının" müxtəlif mərhələlərində proqramlaşdırılmış təlim, alqoritmləşdirmə, problemli təlim, reprodukdiv-axtarıcılıq, diferensial təlim, təlimin fərdiləşdirilməsi və intensivləşdirilməsi və s. bu kimi təlim növlərinin tətbiqi prosesi başa düşülür" [22, s.38]. Beləliklə, yeni dərs səmərəliliyi ilə üstünlük təşkil edir. Müasir dərsdə şagird sadəcə materialı öyrənməklə kifayətlənmir, eyni zamanda öz qabiliyyətini göstərir, potensialını üzə çıxardır. Müasir dərsdə şagird Azərbaycan dilinin imkanlarından istifadə etməklə öz nitqini mükəmməl qurmağı öyrənməli, dil qaydalarını düzgün tətbiq etməyi bilməlidir. Fikir və düşüncəlkərini, biliyini Azərbaycan dili vasitəsilə məntiqli, yaradıcı şəkildə çatdırmağı bacarmalıdır.

"Ənənəvi təlimdə dərs daha çox nitq bacarıqları üzərində deyil, nəzəri-praktik dilçilik üzərində qurulmuşdu" [7, s.34]. Azərbaycan dili dərslərində yalnız dilçiliyin nəzəri məsələləri öyrədilirdi. İndiki təhsilin prinsiplərinə görə, Azərbaycan dilinin tədrisində əsas məqsəd təkcə dilçilik elminin nəzəri məsələlərinin öyrədilməsi deyildir, həm də şagirdin cəmiyyətdə şifahi və yazılı ünsiyyət bacarığını təmin etməkdir. "Sivilizasiyalı dünyada verilmiş biliklərin tutuquşu kimi əzbərlənməsi yox, mürəkkəb mətnləri oxuyub qavradığını nümayiş etdirmək, səlis, maraqlı danışmaq, dil normaları ilə müvafiq yaza bilmək, anladıqları barədə təfərrüatı ilə fikrini çatdırmaq bacarıqları intellekt göstəricisi kimi qəbul edilir" [7, s.34]. Yeni Azərbaycan dili dərslərində şagird məntiqi düşüncəsi ilə ətrafa tənqidi yanaşır. Müstəqil şəkildə qərarlar çıxarda bilir, praktik olaraq problemi həll etməyi bacarır. Bu baxımdan ənənəvi və müasir Azərbaycan dili dərslərinin bir çox fərqli tərəfləri vardır (cədvəl 1).

Cədvəl 1.

Ənənəvi Azərbaycan dili dərsləri	**Müasir Azərbaycan dili dərsləri**
Şagirdlər yeni bilikləri müəllimin vasitəsilə əldə edirdilər	Şagirdlər yeni bilikləri tədqiqat zamanı əldə edirlər
Dərslik və müəllim (kitab) yeganə bilik mənbələridir	Digər mənbələr də mövcuddur
Tədrisdə avtoritarlıq	Tədrisdə demokratiklik. Müəllim və şagird arasında əməkdaşlıq
Hazır əldə edilən biliklərin möhkəmlədilməsi ilə mənimsəmə	Məsələnin həlli prosesində müstəqil şəkildə əldə edilmiş biliklərin mənimsənilməsi
Təlim prosesində şagirdlər arasında ünsiyyət olmur. Unsiyyət sadəcə müəllim və şagird arasında olur	Təlim prosesində şagirdlər arasında, şagirdlər və müəllim arasında ünsiyyət olur. Təlim cütlər, qrup, kollektiv şəkildə həyata keçirilir.

Dərslər, əsasən həmişə eyni qaydada, adi keçirilir.	Dərslər müxtəlif, qeyri-standart olur, digər formalarla assimilyasiya edilir: seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.
Diqqət bilik və bacarığın mənimsənilməsinə yönəlmiş olur. Şagirdlərin tərbiyə və inkişafına əhəmiyyət verilmir	Diqqət ilk növbədə şagirdin şəxsiyyətinin formalaşmasına yönəlmiş olur.
Təlim bir fənn (tədris fənni) çərçivəsində məhdudlaşır	Müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən fənlərarası dərslər keçirilə bilər.

Ənənəvi və müasir Azərbaycan dili dərslərini fərqləndirən digər əsas məsələ inteqrativlikdir. Əvvəlki Azərbaycan dili dərslərində əlaqə daha çox mövzuların toplanmasına və əzbərlənməsinə xidmət edirdi. Müasir dərslərdə inteqrasiya isə ayrı-ayrı fənlərin tədrisində qazanılmış biliklərin uzlaşdırılmasını təmin edir. İnteqrasiya Azərbaycan dili dərslərində təlim prosesini təkmilləşdirir, mövzular və fənlər arasında qarşılıqlı əlaqəni, asılılığı dərinləşdirir. Şagirdlər inteqrasiya vasitəsilə biliklər arasındakı qarşılıqlı əlaqəni başa düşür və həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edirlər.

Ümumtəhsil məktəblərində Azərbaycan dili dəslərində inteqrasiya fəndaxili, fənlərarası, sərbəst ola bilər. "İki fənni elə uyğunlaşdırmalı ki, uyğun mövzular eyni zamanda tədris edilsin. Məsələn, təbiət haqqında mövzular həm Azərbaycan dili, həm də həyat bilgisi fənni üzrə elə planlaşdırıla bilər ki, onların tədrisi eyni vaxta təsadüf etsin" [2, s.38]. İnteqrasiya Azərbaycan dili fənni çərçivəsində olarsa, yazı və oxu bacarıqları ayrı deyil, birgə tədris olunur. Buna bir fənn çərçivəsində inteqrasiya deyilir. Azərbaycan dili dərslərində bacarıqların (oxu, yazı, anlama, dinləmə) inteqrasiyası tamamlama da adlandırılır [2, s.38]. Ənənəvi Azərbaycan dili dərslərində isə indikindən fərqli olaraq, hər keçilən mövzuda inteqrasiya həyata keçirmək nəzərdə tutulmamışdı.

Hesab edirik ki, müasir dövrdəki Azərbaycan dili dərsləri özünün mahiyyəti və əhəmiyyətinə görə bu gün təhsil prosesinin əlverişli, vacib forması kimi təhsil standartları, təlim strategiyalarının həyata keçirilməsi prosesidir və gələcəkdə də cəmiyyətin, zamanın tələblərinin ödənilməsinə xidmət edəcəkdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. – 2013.
2. Azərbaycan dili. Metodik vəsait. V, VII, VIII, X, XI siniflər. – Bakı: Şərq-qərb, – 2018.
3. Azərbaycan dili. Metodik vəsait. VI, IX siniflər. – Bakı: Şərq-qərb, – 2020.
4. Abbasov, Ə. Kurikulum islahatı: tədqiqatlar. İslahatlar. / Ə.Abbasov. – Bakı, – 2011.
5. Azərbaycan dilinin orfoqrafiya lüğəti. – Bakı: Şərq-qərb, – 2021.
6. Ağayev, Ş. Dərs: ənənə və müasirlik. / Ş.Ağayev, R.Hacızadə, – Bakı: MM-S, – 2020, –200 s.
7. Balıyev, H. Azərbaycan dilinin tədrisi metodikası. / H.Balıyev, A.Balıyev, – Bakı: Qismət, – 2014, – 384 s.
8. Eyvazov, H. Milli kurikulum. Metodik vəsait. / H.Eyvazov, T.Baxşəliyeva. – Naxçıvan: Məktəb, – 2012, – 138 səh.
9. Əfəndizadə, Ə. Düzgün yazı təliminin elmi əsasları. / Ə.Əfəndizadə, – Bakı, – 1975.
10. Əliyev, H. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında. / H.Əliyev, – Bakı. – 2001, 18 iyun.
11. Əsgərova, Q. Əvəzliklərin tədrisi məsələləri. Metodik vəsait. / Q.Əsgərova. – Bakı: Nurlan, – 2009.

12. Həsənov, İ. Kurikulum. Metodika. Pedaqogika. / İ.Həsənov. – Bakı: Mücrü, – 2020.
13. Həsənova, S. Azərbaycan dilinin tədrisi məsələləri haqqında bəzi qeydlər. S.Həsənova, // Azərbaycan dili və ədəbiyyat, – Bakı: – 2014.
14. Kazımov, A. Durğu işarələrinin işlədilməsi qaydaları. Dərslik. / A.Kazımov, T.Qasimova. – Bakı, – 2006.
15. Maqsudov, E. Poetik-praktik Azərbaycan dili. / E.Maqsudov. – Bakı: Nurlan, – 2004.
16. Maqsudov, E. Poetik-praktik Azərbaycan dili. / E.Maqsudov. – Bakı: Əcəmi, – 2009.
17. Məmmədova, A. Azərbaycan dilinin tədrisi tarixi. Dərslik. / A.Məmmədova. – Bakı, – 2011.
18. Mikayıllı, B. Müasir dərs: yeni yanaşmalar. / B.Mikayıllı. – Bakı: Elm və Təhsil, – 2016. – 240 s.
19. Nəzərov, A. Müasir təlim texnologiyaları. / A.Nəzərov. – Bakı: ADPU, – 2012, – 103 s.
20. Pedaqoji fikir tarixindən. – Naxçıvan: Əcəmi, – 2019, – 288 s.
21. Vəliyev, S. Azərbaycan dilinin tədrisi məsələləri. – Bakı: Nurlan, – 2007, – 108 s.
22. “Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər 2020” mövzusunda videobağlantı formatında keçirilmiş Respublika elmi-praktik konfransının materialları. – Naxçıvan: Məktəb, – 2020.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 199-202
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 199-202
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 199-202

UOT

Müasir dövrdə pedaqoji kadrların hazırlığında dövlət siyasəti

Müəllif:

Leyla Əliyeva
Sumqayıt Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru
E-mail: leyla_848484@list.ru

Açar sözlər:
siyasət, bilik, təhsil sistemi, kadr hazırlığı, elmi-tədris və metodiki təminatı

Annotasiya. Müasir şəraitdə milli təhsil sisteminin tərkib hissəsi olan peşə-ixtisas kadrlarının hazırlanması sahəsində başlanmış islahatların nəticələri öz bəhrəsini verir. Bu sahədə qəbul edilmiş Dövlət Proqramı ölkəmizdə kadrların ixtisas hazırlığının inkişafına mühüm təkan vermişdir. Müasir qloballaşan dünyada öz iqtisadi müstəqilliyini daim təmin etmək istəyən hər bir ölkənin iqtisadi qüdrəti, milli iqtisadiyyatının formalaşması, onun kəmiyyət və keyfiyyətcə daha da yüksəldilməsi bilavasitə yeni təhsil sisteminin təşkili ilə bağlıdır. Bugünkü şəraitdə ölkəmizdə təhsil sahəsində köklü dəyişikliklər baş verib. Təhsilin keyfiyyəti xeyli yüksəlmiş, çoxlu yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. Bu gün ümummilli liderimiz Heydər Əliyevin möhtərəm davamçısı cənab İlham Əliyevin təhsillə bağlı imzaladığı fərman və sərəncamlar ölkəmizdə təhsilin inkişafına yeni təkan vermiş, təhsilin təkmilləşdirilməsinə şərait yaratmışdır.

State policy in the training of teaching staff in modern times

Author:

Leyla Aliyeva
Sumgait State University
PhD in History
E-mail: leyla_848484@list.ru

Key word:
policy, knowledge, education system, personnel training, scientific-educational and methodical support

Abstract. In modern conditions, the results of the reforms initiated in the field of training of professional-specialized personnel, which are a part of the national education system, bear fruit. The State Program adopted in this field has given an important impetus to the development of professional training of personnel in our country. In the modern globalized world, the economic power of every country that wants to constantly ensure its economic independence, the formation of its national economy, its further improvement in quantity and quality is directly related to the organization of a new education system. In today's conditions, fundamental changes have taken place in the field of education in our country. The quality of education has improved significantly, many new school buildings have been built and put into use. Today, the decrees and orders signed by Mr. Ilham Aliyev, the esteemed follower of our national leader Heydar Aliyev, on education have given a new impetus to the development of education in our country and created conditions for improving education.

Государственная политика в подготовке педагогических кадров в современную эпоху

Автор:

Лейла Алиева
Сумгаитский
государственный
университет
кандидат исторических наук
E-mail: leyla_848484@list.ru

лючевые слова:
политика, знания,
система образования,
подготовка кадров,
научно-образовательное и
методическое обеспечение

Аннотация. В современных условиях приносят свои плоды результаты реформ, начатых в сфере подготовки профессионально-специализированных кадров, являющихся частью отечественной системы образования. Принятая в этой области Государственная программа дала важный импульс развитию профессиональной подготовки кадров в нашей стране. В современном глобализированном мире экономическая мощь каждой страны, желающей постоянно обеспечивать свою экономическую независимость, формирование своего национального хозяйства, дальнейшее его улучшение в количественном и качественном отношении, напрямую связана с организацией новой системы образования. В современных условиях произошли коренные изменения в сфере образования в нашей стране. Значительно улучшилось качество образования, построено и введено в эксплуатацию много новых школьных зданий. Сегодня указы и распоряжения об образовании, подписанные уважаемым последователем нашего общенационального лидера Гейдара Алиева г-ном Ильхамом Алиевым, придали новый импульс развитию образования в нашей стране и создали условия для совершенствования образования.

Müasir elm təhsili müxtəlif bilik sahələrinin obyekti kimi çıxış edən universal kateqoriya kimi müəyyən edir. Bir tərəfdən təhsil bilik mənbəyi kimi, digər tərəfdən isə inkişafın "mühərriki" kimi görünür [1, s.28]. Təhsil məsələlərini öyrənmək üçün müxtəlif yanaşmalardan istifadə olunur. Bu yanaşma insan şəxsiyyətinin formalaşması və inkişafı prosesi kimi ömür boyu təhsil konsepsiyasının əsasında dayanır. Təhsil elmin əsası kimi çıxış edir. L.Verbitskaya və onun həmkarları ölkənin elmi potensialının inkişafı üçün təhsillə elmi tədqiqatın vəhdəti prinsipinin vacibliyini vurğulayırlar. Davamlı insan inkişafı kontekstində təhsilin rolu getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu gün təhsil həm də hər bir dövlət siyasətinin strateji prioriteti kimi qəbul edilir, onun formalaşması problemi xüsusi diqqət tələb edir. XX əsrin təcrübəsi sivilizasiyanın böhranından yalnız sosial-iqtisadi münasibətlərin və siyasi sistemlərin dəyişməsi ilə çıxmağın mümkünsüzlüyünü göstərir.

Sosial münasibətlərin həqiqətən mütərəqqi transformasiyası üçün insanın özünün şüurunda və davranışında əsaslı dəyişikliklər lazımdır. Müasir cəmiyyətin demokratiya, azad bazar iqtisadiyyatı istiqamətində inkişafı təhsili də kənara qoya bilməz. Təhsil birbaşa şəxsiyyətin formalaşmasına təsir göstərir və cəmiyyətdə dəyişikliklərin həyata keçirilməsinə kömək edir, buna görə də dövlət təhsil siyasətinin formalaşdırılması məsələlərinin nəzərdən keçirilməsi aktualdır. Təhsil məsələlərinin əhəmiyyəti beynəlxalq ictimaiyyət tərəfindən daim vurğulanır. Təbii ki, beynəlxalq təşkilatların təhsil sistemlərinin formalaşması və inkişafı problemlərinə diqqəti böyük əhəmiyyət kəsb edir. YUNESKO hər il planetdə savadsız əhalinin sayının azaldığını, təhsillə əhatə olunanların sayının artdığını, cəmiyyətin inkişafını şərtləndirən amillər kimi təhsilin keyfiyyətinin yüksəldiyini, o cümlədən insana imkan verən amilləri qeyd edir [2, s.43].

Beynəlxalq qanunvericiliyin statusunun artmasına baxmayaraq, milli qanunvericilik bazasının beynəlxalq hüquq normalarına uyğun olaraq daim təkmilləşdirilməsi, beynəlxalq hüquqi dəstək, o cümlədən təhsil sahəsində yalnız məsləhət xarakteri daşıyır və onun fəaliyyətini tam təmin edə bilmir. Məhz buna görə də dövlətdə təhsil məsələləri müvafiq təhsil siyasətinin işlənib hazırlanması predmeti olmalıdır.

Son zamanlar idarəetmə problemlərinin əhəmiyyəti daim vurğulanır, belə ki, kortəbii və idarə olunmayan sosial proseslərin cəmiyyətin sabitliyinə əhəmiyyətli təhlükə yaratdığı göz qabağındadır. Bu gün UNESCO təhsilin idarə edilməsinə xüsusi diqqət yetirir. İdarəetmə beynəlxalq təşkilat tərəfindən təhsil sahəsində bir çox faktorları birləşdirən proses, siyasət və institusional vasitə kimi qəbul edilir [3, s.52].

Eyni zamanda vurğulanır ki, təhsilin idarə edilməsi hər hansı bir ölkədə sadəcə olaraq təhsil sahəsində idarəetmə və idarəetmə sistemi deyil, onun daxilində siyasətin müəyyən edildiyi və prioritetlərin müəyyən edildiyi formal və qeyri-rəsmi proseslərlə bağlıdır. Ümumi kontekstdə təhsil siyasəti onun mövzusu ilə müəyyən edilir, buna görə də o, ola bilər: dövlət, ictimai, regional, Avropa və s.

Deməli, təhsillə bağlı dövlət siyasəti müasir mərhələdə xüsusi yer tutur və ayrıca tədqiqat obyektidir. Tədqiqatımızın predmeti təhsil sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsidir, ona görə də "dövlət siyasəti" anlayışının tərifinin nəzərdən keçirilməsini zəruri hesab edirik.

Dövlət təhsil siyasətinin yerli tədqiqatçıları dövlət təhsil siyasətini aşağıdakı kimi müəyyən edirlər [4, s.91].

1) dövlət orqanları tərəfindən təsdiq edilmiş və ictimai rəy tərəfindən təsdiq edilmiş təhsil konsepsiyasının cəmiyyətdə həyata keçirilməsi üçün tədbirlər sistemi;

2) təhsil siyasəti fərdin, cəmiyyətin, dövlət və beynəlxalq təhsili idarəetmə orqanlarının və institutlarının ölkənin fəal innovasiya siyasəti ilə əlaqəli, milli təhsil ənənələrinə əsaslanan təhsil sisteminin yeni modelinin qurulmasına yönəlmiş məqsədyönlü fəaliyyətidir;

3) müxtəlif fəaliyyətlər, hərəkətlər, qərarlar və s. ümumi məqsədlə birləşən dövlət orqanları – ölkə təhsilinin mütərəqqi inkişafı;

4) təhsil sisteminin fəaliyyətinin təmin edilməsinə yönəlmiş məqsədyönlü, nisbətən sabit proses, hökumətin rəsmi kursu;

5) təhsil orqanları tərəfindən universal dəstək ilə həyata keçirilən bəşəriyyət üçün faydalı təcrübənin mənimsənilməsi prosesinin hüquqi və iqtisadi stimullaşdırılması.

Dövlətin təhsil sahəsində missiyası da bu məqsədlərlə müəyyən edilir, eyni zamanda onu konkret məzmunla doldurur. Alimlərin fikrincə, təhsil ictimai sərvət kimi ona gətirib çıxarır

ki, dövlət bu sahənin inkişafını nəinki korrektə edir, istiqamətləndirir, həm də onun məzmununu, strukturunu formalaşdırır, strateji inkişaf istiqamətlərini müəyyən edir. Onların arasında: milli təhsil qanunveri-ciliyinin ətraflı işlənib hazırlanması, onun praktikada tətbiqinin monitorinqi və qiymətləndirilməsi; təhsilin idarə edilməsi, adekvat sayda müəssisələrin, dərsliklərin, müəllimlərin, infrastrukturun və s. mövcudluğunun təmin edilməsi; mərkəzi, regional və yerli səviyyələrdə dövlət orqanları müvafiq məsuliyyətin aşağı idarəetmə səviyyələrinə və bilavasitə təhsil təşkilatlarına həvalə edilmə dərəcəsini müəyyən edir; real maliyyələşdirmənin təmin edilməsi (birbaşa maliyyələşdirmə, güzəştli vergitutma, özəl mənbələrin stimullaşdırılması və s.). "Təhsil siyasəti" və "təhsil sahəsində dövlət siyasəti" anlayışlarının tərifinə təkcə elmi əsərlərdə deyil, həm də təhsil haqqında qanunvericilik aktlarında baxılır [5, s.49]. Buna misal olaraq Müstəqil Dövlətlər Birliyinin üzvü olan Dövlətlərin Parlamentlərarası Assambleyasının on üçüncü plenar iclasında qəbul edilmiş "Təhsil haqqında" Nümunəvi Qanunu göstərmək olar. Bu qanunda təhsil siyasəti bütövlükdə təhsil sisteminin və ya onun ayrı-ayrı alt sistemlərinin fəaliyyəti və inkişafı ilə bağlı ictimai hərəkatların və mərkəzi, regional və yerli hakimiyyət orqanlarının ideya və hərəkətlərinin məcmusudur. O, üç əsas elementdən ibarətdir: [6, s.75]

a) təhsilin hakim ideyalarının (fəlsəfəsinin) məzmunu;

b) təhsil haqqında mövcud qanunvericiliyin xarakteri və irəli sürülmüş qanunvericilik təşəbbüsləri;

c) təhsil sahəsində gündəlik təşkilati və idarəetmə fəaliyyətinin ümumi istiqaməti.

Nümunəvi qanunda "Təhsil sahəsində dövlət siyasəti" konsepsiyası aşağıdakı kimi verilir: imkanlardan səmərəli istifadə etmək məqsədilə dövlətin təhsil sahəsində həyata keçirdiyi rəhbər və tənzimləyici fəaliyyətidir. Qanunlar, milli proqramlar, hökumət qaydaları, beynəlxalq proqram və müqavilələr və digər aktlar vasitəsilə, o cümlədən ictimai təşkilat və hərəkatları, geniş ictimaiyyəti öz ixtiyarında olan vasitələrlə (kütləvi informasiya vasitələri, ictimai akademiyalar, peşəkarlar) dəstəkləməyə cəlb etməklə həyata keçirilir [7, s.23].

Müəllim təhsili məktəbəqədər, orta, xüsusi və əlavə təhsili, habelə ibtidai, orta və ali peşə təhsilini təmin edən bütün təhsil sisteminin tərkib hissəsidir. Müəllim təhsilinin müasirləşdirilməsi zəruridir, çünki müəllim təhsili fərdin, cəmiyyətin və dövlətin ehtiyacları ilə ayrılmaz şəkildə bağlıdır. Müəllim təhsili sistemində mütəxəssislər yeniləşmənin daşıyıcılarına çevrilməli və bununla da yerli və dünya təcrübəsinin ənənələrini qoruyub inkişaf etdirməlidirlər. Məhz bu ideyalarla Təhsil Nazirliyi müəllim təhsilinin müasirləşdirilməsi proqramı yaratdı. Bu proqramın məqsədi müəllim təhsilinin səmərəli və dinamik fəaliyyət göstərməsi mexanizmini yaratmaq idi [8, s.17].

Nəticə müəllim təhsilinin bütün sisteminin yenilənməsini - müəllimlərin hazırlanmasını, yenidən hazırlanmasını, keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur. Müəllim təhsilinin müasirləş¬diril¬məsi proqramında müəllim təhsilinin müasirləşdirilməsinin əsas istiqamətləri və vəzifələri vurğulanmışdır. Bu strukturun optimallaşdırılması və müəllimlərin peşə hazırlığının təşkilinin təkmilləşdirilməsi, müəllim hazırlığının məzmununun və formalarının təkmilləşdirilməsi, müəllim təhsilinin elmi-tədris və metodiki təminatıdır [9, s.51]. Əsas vəzifələr aşağıdakılardan ibarət idi: əsas məktəbin, məktəbəqədər təhsil müəssisələrinin müəllimlərinin ixtisasartırma və yenidən hazırlanma işlərinin təşkili və aparılması; əlavə peşə təhsili proqramlarının yaradılması; kompüter savadlılığı sahəsində müəllimlərin ixtisasının artırılmasının təşkili və təkmilləşdirilməsi; təhsilin müxtəlif pillələrində məktəblilərin təlim-tərbiyəsi problemlərinin həlli üçün müəllimlərin hazırlanması üçün proqramların, dərsliklərin və dərs vəsaitlərinin hazırlanması və s.

Ölkənin əsas ideoloqlarının bəyanatlarından başlayaraq hüquqi sənədlərlə yekunlaşaraq müəllimin yüksək rolu və əhəmiyyəti təsdiqləndi. İndiki mərhələdə dövlət təhsil siyasətinin bu istiqamətində keçmiş dövrün təcrübəsindən çox şey götürülüb. Belə ki, məsələn, müəllimin təhsil səviyyəsi orta ixtisas təhsilindən aşağı olmamalıdır. Pedaqoji təhsilin qiyabi formaları mövcud olub və indi də mövcuddur. Keçmə tezliyi (beş və ya üç ildə bir dəfə) istisna olmaqla, təkmilləşdirmə tələbləri dəyişməyib. Bütün dövrlərdə müəllimlərin maaşı məsələsi aktual məsələ kimi çıxış edib. [10, s.29].

Ümumiyyətlə, müəllimlərə qarşı dövlət siyasətinin ardıcıl xarakterindən danışmaq olar. Bu fəaliyyət sahələri müasir ölkədə təhsil sahəsində, o cümlədən pedaqoji kadrların dəstəklənməsi as-

pektində, müasir məktəbə öz fəaliyyətində sabitlik və davamlılıq, bütün sahələrdə daha da təkmilləşdirmə imkanı verən dövlətin yetmiş illik təcrübəsinə əsaslanır. Eyni zamanda, müəllimlərin əməyinin ödənilməsi, onların istirahətinin maddi təminatı və s. problemləri var ki, bunlar dövlət səviyyəsində, direktiv qaydada həll edilməlidir. Bu problemlərin həllində dünya praktikasının müsbət tarixi təcrübəsinə əsaslanmaq vacibdir.

Ədəbiyyat

1. Əliyev, H.Ə.Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). -Bakı: Təhsil, - 2002.
2. Əlizadə, Ə., Əlizadə, H. Pedaqoji psixologiya / Ə.Əlizadə, H.Əlizadə. - Bakı,- 2010.
3. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı / M.İ.İlyasov. - Bakı: Elm və təhsil, - 2013.
4. Karnegi, D. Dost qazanmaq və adamlara təsir göstərmək sənəti / D.Karnegi. - Bakı: Qanun, - 2015.
5. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M. Kazımov. - Bakı: Çaşıoğlu, - 2002.
6. Kərimov, Y.Ş. Pedaqoji tədqiqat metodları / Y.Ş.Kərimov. - Bakı:Azərnəşr, - 2009.
7. Komenski, Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayan və ön sözün müəllifi F.Rüstəmov). - Bakı: Elm və təhsil, -2012.
8. Quliyeva, K.R. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi / K.R.Quliyeva. - Bakı: Nurlan, - 2003.
9. Mehrabov, A.O. Müasir təhsilin konseptual problemləri / A.O.Mehrabov. - Bakı: Mütərcim, - 2010.
10. Mehrabov, A.O. Səriştəli müəllim hazırlığının problemləri / A.O.Mehrabov. - Bakı: Elm və təhsil,- 2015.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 203-206
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 203-206
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 203-206

UOT

Rubrik - qiymətləndirmənin əsas meyarlarından biri kimi

Müəllif:

Leylan Hüseynova
"Naxçıvan" Universiteti
E-mail: leilahuseinova3@gmail.com

Açar sözlər:
rubrik, holistik, analitik, qiymətləndirmə, şəffaflıq, rubrik funksiyaları, rubrik elementləri, meyar, performans səviyyələri, deskriptorlar

Annotasiya. Məqalədə rubriklər qiymətləndirmənin əsas meyarlarından bir kimi təhlil olunur. Eyni zamanda şagird nailiyyətlərinin qiymətəndirilməsində istifadə olunan rubiklərdən geniş məlumat verilir. Məqalənin yazılamasının əsas məqsədlərindən biri şagird nailiyyətlərinin qiymətləndirilməsində mövcud olan problemləri aşkarlamaq və yeni qiymətləndirmə meyarından bəhs etməkdir. Belə ki, yeni qiymətləndirmə meyarı kimi məqalədə rubrikin funksiyaları, növləri, üstün və zəif tərəfləri ətraflı şərh olunub. Holistik və analitik rubriklər geniş şəkildə izah edilmişdir. Rubriklər gözlənilən təlim nəticələrinə və şagird nailiyyətlərinə əsaslanan qiymətləndirmə meyarlarını təsvir etmək üsuludur. Onlar adətən yazılı qiymətləndirmələrdə və şifahi təqdimatlarda istifadə olunur. Məqalədə bu şifahi təqdimatlara uyğun nümunələr də verilmişdir. Həmçinin rubrikin elementləri: meyarlar, performans səviyyələri, deskriptorlar haqqında məlumat da öz əksini tapıb.

Author:

Leylan Huseynova
"Nakhchivan" University
E-mail: leilahuseinova3@gmail.com

Rubric - as one of the main criteria of assessment

Key word:
rubric, holistic, analytical, assessment, transparency, rubric functions, rubric elements, criterion, performance levels, descriptors

Abstract. In the article, rubrics are analyzed as one of the main evaluation criteria. At the same time, extensive information is given about rubiks used in evaluating student achievements. One of the main goals of writing the article is to reveal the existing problems in the evaluation of student achievements and to talk about a new evaluation criterion. So, the functions, types, strengths and weaknesses of the rubric are explained in detail in the article as a new evaluation criterion. Holistic and analytical rubrics are explained in detail. Rubrics are a way of describing assessment criteria based on expected learning outcomes and student achievement. They are commonly used in written assessments and oral presentations. Examples of these oral presentations are also given in the article. Information about the elements of the rubric: criteria, performance levels, descriptors is also reflected.

Автор:

Лейла Гусейнова
Университет "Нахчыван"
E-mail: leilahuseinova3@gmail.com

Рубрика-как один из основных критериев оценивания

Ключевые слова:
рубрика, целостный, аналитический, оценка, прозрачность, функции рубрики, элементы рубрики, критерий, уровни результативности, дескрипторы

Аннотация. Одна из основных целей написания статьи - выявить существующие проблемы в оценке достижений учащихся и рассказать о новом критерии оценки. Итак, функции, виды, сильные и слабые стороны рубрики подробно объясняются в статье как новый критерий оценки. Целостные и аналитические рубрики объясняются подробно. Рубрики — это способ описания критериев оценки, основанных на ожидаемых результатах обучения и достижениях учащихся. Они обычно используются в письменных оценках и устных презентациях. Примеры таких устных выступлений также приведены в статье. Также отражается информация об элементах рубрики: критерии, уровни результативности, дескрипторы.

Təlim prosesində təkcə qiymət deyil, həm də qiymətləndirmə çox vacibdir. Şagird nailiyyətlərinin qiymətləndirilməsində bir sıra mənfi cəhətlər var idi. Belə ki, hər kəs üçün başa düşülən və əlçatan olan qiymətləndirmə meyarları yox idi. Verilən qiymət hər bir şagirdin nəticə əldə etməsi üçün vahid meyarlar əsasında deyil, bütovlükdə sinifin orta bilik səviyyəsinə yönəldilmişdir [1, s.27]. Verilən qiymətlər kurikulumun ayrı-ayrı bölmələri üzrə konkret nəticələrin mənimsənilməsi haqqında aydın təsəvvür yaratmırdı ki, bu da hər bir tələbənin təliminin fərdi trayektoriyasını müəyyən etməyə imkan vermirdi. Şagird nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan rubrikər daha geniş ətraflı fikir bildirildi.

Rubriklər müəllimə tələbələr üçün dəqiq müəyyən edilmiş standartlar təyin etməyə, bu standartlara nail olmaq üçün onlara rəhbərlik etməyə imkan verir, geniş yazılı və şifahi cavabların qiymətləndirilməsini asanlaşdırır. Rubriklər bir növ əks əlaqə kimi müəllimə məlumat verir, onları şərh edir, o, şagirdlərin öyrənmə fəaliyyəti və ya onun tədrisi ilə bağlı əsaslı qərarlar qəbul edir, necə ki, müəllim təbiət elmi tədqiqatı apararkən məlumatları şərh edir və qiymətləndirir.

Rubrik- meyar əsasında şagirdin nailiyyəti səviyyəsinin qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

1. Mən nəyi qiymətləndirməliyəm (bacarıq meyarları)?
2. Bu meyar üzrə hansı nailiyyət səviyyələri ola bilər? [2]

Rubrik bacarıq və ya nəticəni artan keyfiyyət kontinumunda (aşağı səviyyədən yuxarı səviyyəyə qədər) təsvir edir. Rubrik qiymətləndirmənin həm üsulu, həm də vasitəsi kimi çıxış edə bilər. Qiymətləndirmə şkalası nailiyyət səviyyəsinə qiymət (balla və ya sözlə) verilməsi üçün mexanizmdir. Rubrik formativ qiymətləndirmənin ən faydalı üsullarından biridir. Ondan həm də diaqnostik və summativ qiymətləndirmədə istifadə oluna bilər. Rubriklər müəllimlər üçün qiymətləri daha effektiv, obyektiv və etibarlı etmək üçün əvəzsiz vasitədir [1, s.25]. Onlar həmçinin aydın gözləntilər və real performans təhlili baxımından tələbələrə fayda verir.

Rubriklər meyar əsaslı qiymətləndirmə vasitələrindən biridir. Rubriklər gözlənilən təlim nəticələrinə və şagird nailiyyətlərinə əsaslanan qiymətləndirmə meyarlarının təsvir etmək üsuludur. Onlar adətən yazılı qiymətləndirmələrdə və şifahi təqdimatlarda istifadə olunur. Lakin onlar hər hansı bir öyrənmə nailiyyətini qiymətləndirmək üçün istifadə edilə bilər. Hər bir rubrikdə bir sıra qiymətləndirmə meyarları və onlara uyğun ballar var. Rubriklər müxtəlif tələbələrin müyyən nailiyyətlərinin müqayisə edildiyi obyektiv xarici standartları təmin edir. Şifahi qiymətləndirmə rubriki nümunəsində fikrimizi əsaslandıraq:

0- şifahi tədqimata cəhd edilmir.

1- Zəif - şagird mövzunu və onun vacibliyini bildirmədən çıxış edir. Mövzu aydın deyil, dərsə hazırlıqla bağlı heç bir əlamət yoxdur. Auditoriyadan gələn suallar cavabsız qalır.

2- Məhdud – şagird öyrənilən mövzunu bildirir, lakin onu tam təsəvvür edə bilmir. Auditoriyanın sualları yalnız ən sadə cavablarla cavablandırılır.

3- Yaxşı - şagird öyrənilən mövzunu təsvir edir və nəticələr bəyan edilir. Dərsə hazırlığın müəyyən göstəriciləri var. Auditoriyanın sualları müəyyən qədər cavablandırılır.

4- Çox yaxşı – şagird öyrənilən sualı təsvir edir və onun vacibliyinin səbəblərini göstərir. Çıxarılan və təsvir edilən nəticələri əsaslandırmaq üçün kifayət qədər məlumat verilir. Mövzuya hazırlıq və təşkilatçılıqla bağlı sübutlar var. Auditoriyanın sualları aydın şəkildə cavablandırılır.

5- Əla – şagird öyrənilən sualı aydın şəkildə təsvir edir və onun vacibliyini əsaslandırır. Çıxarılan və təsvir edilən nəticələri əsaslandırmaq üçün konkret məlumat verir. Çatdırılma cəlbedicidir və cümlə quruluşu ardıcıl olaraq düzgündür. Təqdimat boyu göz təması qurulur və davam etdirilir. Mövzuya hazırlıq və təşkilatçılıqla bağlı güclü sübutlar var. Təqdimatın daha təsirli olması üçün əyani vəsaitlərdən istifadə olunur. Auditoriyanın sualları konkret və uyğun məlumatlarla aydın şəkildə cavablandırılır.

Qiymətləndirmə rubrikləri bir sıra çıxışların, tapşırıqların, fəaliyyətlərin obyektiv, ardıcıl qiymətləndirməsinə imkan verən effektiv və səmərəli alətlərdir. Rubriklər gözləntilərinizi aydınlaşdırmağa kömək edə bilər. Şagirdlərin qiymətləndirmə rubrikası vasitəsi ilə əldə etdikləri rəy onlara yenidən işlənmiş və ya sonrakı işlərdə performanslarını yaxşılaşdırmağa kömək edə bilər.

Faydalı rubrik yaratmağın bir çox yolu var, lakin istənilən halda aşağıdakı beş addım vacibdir:

- Bütovlükdə kursun və gündəlik dərslərin məqsədlərini müəyyən etmək;
- Təlim məqsədlərinə uyğun olan məlumatları təmin edə bilən test tapşırıqlarını seçmək;
- Hər bir təhsil məqsədi üçün nailiyyət standartını formalaşdırmaq;
- Dəqiq müəyyən edilmiş meyarlar əsasında nailiyyət səviyyələrini fərqləndirmək;
- Hər bir kateqoriyanın çəkisini və ya dəyərini müəyyyənləşdirmək [3].

Rubrik funksiyaları

Şəffaflıq – akademik başlıqlar əvvəlcədən şərtlərin, tələblərin, müəllimin tələbələr tərəfindən müəyyən tapşırığın yerinə yetirilməsi ilə bağlı gözləntilərinin konkret siyahısını ehtiva edir. Tələbələrin qiymətləndiriləcəyi meyarlarla əvvəlcədən tanış olmaq imkanı var. Şəffaflıq müəllim və şagirdin bərabər əsasda, eyham olmadan danışmasına kömək edir.

Özünə hörmət – şagird tapşırığı yerinə yetirərkən rubrikada can atmaq istədiyi səviyyəni seçə bilər, həmçinin bu səviyyə üçün bütün şərtlər və tələblər yerinə yetirildiyi təqdirdə müvafiq qiymət gözləyə bilər. Şagird başa düşür ki, nəticəyə və qiymətinə görə özü cavabdehdir.

Tələbə ilə əlaqə - rubriklər şagirdlərə konkret tapşırıqla bağlı yalnız tapşırıq yerinə yetirildikdən sonra deyil, həm də tapşırığın icrası zamanı vaxtında ətraflı rəy verir. Rubrika tələbənin işini yarıda yaxşılaşdıra bilər. Rubrik düzəldilməli olan boşluqları və zəif cəhətləri qeyd edir, həmçinin daha az vaxt tələb edən güclü tərəfləri göstərir. Rubrik standartlar müəyyən edir, lakin yaradıcılığı öldürmür.

Müəllimin rəy - rubriklər tələbələrin əvvəlcədən müəyyən edilmiş təlim məqsədlərinə nail olub-olmadığını göstərir. Rubriklərdə həmçinin müəllimə tapşırıqdan sonra tələbənin ən böyük çətinliklərlə harada qarşılaşdıqları və gələcəkdə bu çətinliklərin qarşısını necə alınacağı (yaddaşlar hazırlamaq, daha ətraflı izah etmək, dərsdə daha çox məşq etmək və s.) göstərilir.

Görülən işin qiymətləndirilməsi – rubrikdən qiymət qoyularkən istifafə oluna bilər və tələbə birdən-birə öz balı ilə razılaşmadıqda onunla dialoq vasitəsi kimi istifadə edilə bilər. Rubrik nəticəni müzakirə edərkən başlanğıc nöqtəsi kimi istifadə edilə bilən "ümumi yerə" çevrilir.

Rubriklərin növləri

Hansı növ rubrikin istifadə olunacağını müəyyən etmək nəyi və necə qiymətləndirməyi planlaşdırmaqdan asılıdır. Holistik, analitik, ümumi və xüsusi tapşırıqlar daxil olmaqla bir neçə növ rubrik var.

Holistik rubrik - Şagirdin işi ilə bağlı ümumi təəsürat yaradır.

Üstün cəhətləri: sürətli qiymətləndirmədir, şagird nailiyyəti haqda ümumi mənzərəni təsvir edir.

Zəif cəhətləri: təfərrüatlı informasiya vermədiyindən ümumi qiymətin verilməsi zamanı çətinlik yaradır.

Aşağıdakı hallarda holistik rubriklərdən istifadə etmək uyğundur:

1. Nailiyyətin ani mənzərəsini əldə etmək istəyəndə;
2. Keyfiyyətin müəyyən olunması üçün tək bir aspekt adekvatlıq təşkil edərsə.

Analitik rubrik – şagirdin fəaliyyətinin çoxşaxəli aspektləri üzrə ayrı-ayrı qiymətlər təyin edir.

Üstün cəhətləri: daha təfərrüatlı informasiya verir, hər bir şagird, sinif və illər üzrə daha ardıcıl qiymətləndirmə aparılır.

Zəif cəhətləri: qiymətləndirmə üçün çox vaxt tələb olunur və s.

Aşağıdakı hallarda analitik rubriklərdən istifadə etmək uyğundur:

1. Nisbi üstünlüyü və zəifliyi görmək istədikdə;
2. Təfərrüatlı məlumat əldə etmək istədikdə;
3. Mürəkkəb fəaliyyəti və ya nəticəni qiymətləndirmək istədikdə;
4. Şagirdlərin öz qavramalarını və ya fəaliyyətlərini qiymətləndirmələrini istədikdə [2].

Rubrikin elementləri

Rubrik bir iş və ya performans növünü qiymətləndirmək üçün istifadə edilən açıq meyarlar toplusudur. Qiymətləndirmə rubriki meyarları, performans səviyyələrini, balları və istənilən tapşırıq üçün unikal qiymətləndirmə alətinə çevrilən deskriptorları ehtiva edir.

Meyarlar – ölçüləcək xüsusiyyəti müəyyən edir və buraya qiymətləndirilən hər bir əlamətin mənasını aydınlaşdırmaq üçün tərif və nümunə daxildir. Hər bir tapşırıq və ya performans qiymətləndiriləcək meyarların sayını müəyyən edir. Meyarlar tapşırıqlardan, yoxlama siyahılarından, qiymətləndirmə vərəqlərindən əldə edilir.

Performans səviyyələri- yerinə yetirilən performans sərəcəsini müəyyənləşdirir, ardıcıl və

obyektiv qiymətləndirmə tələbələri daha yaxşı rəy ilə təmin edəcəkdir. Bu səviyyələr tələbələrə onlardan nə gözlədiklərini bildirir. Performans səviyyələri deskriptorlar olmadan istifadə edilə bilər, lakin deskriptorlar obyektivliyə nail olmağa kömək edir. Performans səviyyələri üçün istifadə olunan sözlər tələbənin performans səviyyəsinin şərhinə təsir göstərə bilər (məsələn, üstün, orta, zəif və ya ortadan yuxarı və ya aşağı).

Deskriptorlar – performansın açıq təsviridir. Balın necə əldə edildiyini və tələbələrdən nə gözlədiyini göstərir. Deskriptorlar hər bir meyar üçün performans səviyyəsini təsvir edir və müəyyən səviyyədə performansın necə göründüyünü göstərir. Deskriptorlar şagirdlərin işinin həmyaşıdlarının işindən nə dərəcədə fərqləndiyini göstərir [4]. Deskriptorlar müxtəlif səviyyələri fərqləndirmək və qiymətləndiricinin obyektivliyini artırmaq üçün kifayət qədər ətraflı olmalıdır.

Ədəbiyyat

1. Hafner, J. C., & Hafner, P. M. (2004). Quantitative analysis of the rubric as an assessment tool: An empirical study of student peer-group rating. International Journal of Science Education
2. http://leylabayramova.blogspot.com/2019/05/mktbdaxili-qiymtlndirmnin-novlri-rubrik.html
3. https://historyclothing.ru/kakie-brand/kakie-sostavlyayuschie-kriterialnoy-rubriki-obyazatelnye.html
4. https://www.niu.edu/citl/resources/guides/instructional-guide/rubrics-for-assessment.shtml

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 207-212
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 207-212
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 207-212

UOT

Müasir mərhələdə müəllim-şagird münasibətləri

Müəllif:

Gülarə Qocayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: q.gulare@bk.ru

Açar sözlər:
müəllim, ünsiyyət, üslub, şagird, təlim, pedaqoji fəaliyyət

Annotasiya. Elmi məqalədə hazırkı dövrdə müəllimə lazım olan ünsiyyət tərzi, idarəetmə üslubu, müəllimin pedaqoji qabiliyyəti, müəllimin şagirdlərlə ünsiyyət və münasibətinin daha uğurlu və optimal olması üçün lazım olan şərtlər və s. kimi məsələlərə toxunulmuşdur. Eləcə də burada pedaqoji fəaliyyətin strukturu, müəllim-şagird münasibətlərinin tipləri, müəllim və şagird arasında problemləri aradan qaldırmaq üçün ona lazım olan xüsusiyyətlər öz əksini tapmışdır. Bu xüsusiyyətlərə müəllif : müəllimin yaxşı psixoloq olmağını, onların təkcə elmi cəhətdən deyil, etika, estetika baxımından da yüksək mədəniyyətə malik olmasını, müəllimin hər bir şəxsə fərdi yanaşmasını, sinifdə baş verənlərdən hər zaman valideynin xəbərdar olmasını, qarşılıqlı şəkildə anlaşmanı, şagirdlər arasında olan konfiliktlərin aradan qaldırılmasını aid etmişdir. Burada o da göstərilir ki, müəllim-şagird münasibəti, əməkdaşlığı bütövlüklə məktəbin humanistləşməsinin və demokratikləşməsinin əsasını təşkil edir. Çünki o mahiyyət etibarı ilə insanı sevmək, ona dərin hörmət və məhəbbət ideyası üzərində qurulmuşdur.

Teacher-student relations at the modern stage

Author:

Gulara Gojayeva
Azerbaijan State Pedagogical University
E-mail: q.gulare@bk.ru

Key word:
teacher, communication, style, student, training, pedagogical activity

Abstract. In the scientific article, the communication style, the management style, the teacher's pedagogical ability, the conditions necessary for the teacher's communication and relationship with students to be more successful and optimal, etc., are discussed in the current period. issues such as Also, the structure of the pedagogical activity, the types of teacher-student relationships, the characteristics necessary for eliminating problems between the teacher and the student are reflected here. The author mentions these characteristics: the teacher should be a good psychologist, they should have a high culture not only in terms of science, but also in terms of ethics and aesthetics, the teacher should have an individual approach to each person, parents should always be aware of what is happening in the classroom, mutual understanding, and the elimination of conflicts between students. attributed the lifting. Here it is also shown that the teacher-student relationship and cooperation form the basis of the humanization and democratization of the school as a whole. Because it is based on the idea of loving a person, deep respect and love.

Отношения «учитель-ученик» на современном этапе

Автор:

Гюляра Годжаева
Азербайджанский Государственный Педагогический Университет
E-mail: q.gulare@bk.ru

Ключевые слова:
учитель, общение, стиль, ученик, обучение, педагогическая деятельность

Аннотация. В научной статье рассматриваются стиль общения, стиль управления, педагогические способности учителя, условия, необходимые для того, чтобы общение и отношения учителя с учащимися были более успешными и оптимальными и т. д. в текущий период. такие вопросы, как Также здесь отражаются структура педагогической деятельности, типы взаимоотношений учителя и ученика, характеристики, необходимые для устранения проблем между учителем и учеником. Автор отмечает такие характеристики: учитель должен быть хорошим психологом, он должен обладать высокой культурой не только в научном, но и в этическом и эстетическом плане, учитель должен иметь индивидуальный подход к каждому человеку, родители должны всегда следить за происходящим на уроках, взаимопонимание и устранение конфликтов между учащимися. Здесь также показано, что отношения и сотрудничество учителя и ученика составляют основу гуманизации и демократизации школы в целом. Потому что в его основе лежит идея любви к человеку, глубокого уважения и любви.

Hazırki dövrdə ölkəmizdə təhsil sisteminin vəziyyəti, problemləri, uğurları bütün xalqımızın diqqət mərkəzindədir. Çünki bütün bunlar ölkəmizin gələcəyini müəyyənləşdirən amillərdir. Buna uyğun olaraq da, Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil sahəsində vəziyyətin arzu olunan səviyyədə olması üçün geniş, ardıcıl siyasət həyata keçirir. Məsələn, təhsil sisteminin yüksək səviyyədə olması üçün hüquqi baza yaradılmışdır, eyni zamanda qabaqcıl ölkələrin də təqdir etdiyi Bolonya prinsiplərindən irəli gələn xeyli yeniliklər təhsil sahəsinə gətirilmişdir. Dövlətin, cəmiyyətin və təhsil alanların təhsil sistemindən sosial tələbi keyfiyyətli təhsildir. Təbii ki, məktəb varsa, keyfiyyət də olmalıdır.

Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Bu isə əsas vəzifə olaraq müəllimlərin üzərinə düşür. Müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətlərə malik olmalıdır.

Məlum olduğu kimi, müasir dövrümüzdə müəllimin ənənəvi fəaliyyətində dəyişikliklər baş verib. İndi onun mövqeyi bələdçi (fasilitator), aparıcı (istiqamət verən) bir mövqedir. Əslində bu, müəllim liderliyinin yeni tipidir. Bu liderlik müəllimlə şagirdin təhsilin məqsədinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır. Müəllim sistemli, ardıcıl və məqsədyönlü şəkildə əməkdaşlıq edir: problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qoyulmasında şagirdlərə istiqamət verir, bunların həllində metodik kömək göstərir, biliklərin əldə edilməsi və mənimsənilməsi yollarını öyrədir. Şagird isə müəllimin istiqamətinə əsasən fəaliyyət göstərir. O, fəaliyyətə məcbur olunmur, sadəcə təhrik edilir. Onun mövqeyi kəşf edən, tədqiqatçı xarakteri daşıyır. Ona görə də müəllimin istiqaməti üzrə kiçik tədqiqatlara qoşulur, araşdırmalar aparır, konkret nəticələrə gəlir. Şagird gəldiyi nəticələrini qiymətləndirməklə bir daha ona əmin olur. İstər müəllimin, istərsə də şagirdin fəaliyyəti subyektlərin fəaliyyəti kimi əməkdaşlıq xarakteri daşıyır. Bu münasibətlər müasir təhsili, məktəbi xarakterizə edən, onun humanist keyfiyyətini üzə çıxaran əsas əlamətdir. Müəllim-şagird münasibətlərinin əsasında humanist prinsipin tələbatları dayanır. Onlar təlim prosesinin psixopedaqoji əsası kimi xüsusi əhəmiyyət daşıyır. Təlim prosesində elə qarşılıqlı münasibətlər yaradılmalıdır ki, burada müəlim və şagird qarşıya qoyduğu məqsədə çata bilsin. Pedaqoq şagirdin fəaliyyətinə məharətlə rəhbərlik edə bildiyi halda, yalnız təlim effektli alınır. Bu cür əməkdaşlığın əsasını birgə fəaliyyətə sıx şəkildə qoşulmuş şagirdin şəxsi keyfiyyətləri, əməliyyatlardakı müstəqilliyi təşkil edir. Müəllimlə belə qarşılıqlı münasibətlərdə olan şagirdin daha aktiv və sərbəst olmaq imkanı yaranır. Təlimdə yaxşı nəticələr əldə olunması üçün müüəllimin psixoloji xüsusiyyətləri dərindən bilməsi vacibdir. Müəllim bütün hallarda, xüsusən “müəllim – şagird” münasibətlərinin qurulmasında pedaqoji nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır. N.Gülməmmədli yazır: “Pedaqoji prosesin məqsədinə uyğun təlim-tərbiyə vəzifələrini yerinə yetirərkən hər bir müəllim, ilk növbədə sinifdə sağlam mənəvi-psixoloji mühit yaratmağa çalışmalı, pedaqoji ünsiyyət prosesini düzgün əsaslarla təşkil etməyi bacarmalıdır” [3, s.110]. İş prosesində müəllim-şagird münasibətlərinin düzgün qurulması, şagirdlərin təhsilə marağının artmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir. Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır ki, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşa bilsin. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməli, hərəkət etməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalıdır. Tədqiqatçılar əsasən müəllim-şagird münasibətindəki ünsiyəti üç növə ayırırlar:

a) dəyişməz – müsbət ünsiyyət

b) passiv – müsbət ünsiyyət

c) dəyişən ünsiyyət

Bəzən də dəyişən və dəyişməz mənfi ünsiyyət növlərinə də rast gəlmək olur. Belə ünsiyyət zamanı müəllim özünə qarşı neqativ münasibət yaratmış olur. Bu isə o deməkdir ki, həmin müəllimlər məktəbdə cəmiyyətə qarşı işləyirlər. Bunlarla yanaşı, müəllim-şagird münasibətlərində müxtəlif ünsiyyət tərzləri də vardır:

1) Birgə həvəs və yaradıcılıqla əsaslanan ünsiyyət;

2) Dostluğa əsaslanan mehriban ünsiyyət;

3) Şagirdlərlə müəyyən “məsafə”, pərdə

saxlamaqla ünsiyyət;

4) Qorxudularaq hökmlü ünsiyyət;

5) Ələ salınaraq rişxəndli ünsiyyət;

6) Qılığa girərək ünsiyyət.

Pedaqoji prosesdə müəllimin pedaqoji mərifəti daha çox müəllim-şagird münasibətlərində özünü göstərir. N.Qədirova yazır: "Müəllimin nəzəri və metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməsi müəllimlik peşəsinin nüfuzunu artırır, müəllim əməyini maraqlı, məzmunlu və səmərəli edir" [4, s.58].

Müəllimin pedaqoji mərifəti dedikdə aşğıdakılar nəzərdə tutulur:

- müşahidəçilik, diqqətlilik, hörmət və tələbkarlıq, qayğıkeşlik, inam, ədalətlilik, səbrlilik, təmkinlik, şərəf və ləyaqəti qorumaq, güləröz, mehriban ünsiyyətlilik, xoş rəftar, və s.

Eyni zamanda müəllimin pedaqoji qabiliyyətini şərti olaraq 3 qrupa ayıra bilərik:

1. Şəxsi pedaqoji qabiliyyətlər dedikdə adətən, şəxsiyyətin xarakterik əlamət və keyfiyyətləri ilə bağlı olan qabliyyətlər nəzərdə tutulur. Müəllim-şagird münasibətlərində səbirlilik və təmkinlilik qabiliyyəti əsas götürülür. Ünsiyyət və münasibətlər zamanı müəllim səbr və təmkinlə davranmalı, uşaqlara diqqət və səbrlə qulaq asmalıdır, xüsusilə münaqişələr zamanı təmkinlik göstərməlidir. Müəllim şagirdlərlə münasibətində həmişə nikbin olmalıdır.

2. Didaktik qabiliyyətlər isə müəllimin proqram materialını şagirdlərə çatdıra bilmək, material aydın və anlaşıqlı şəkildə şagirdlərə təqdim etmək, fənnə qarşı maraq oyatmaq, şagirdlərdə fəal müstəqil fikir yarada bilmək qabiliyyətindən ibarətdir. Buraya konkret olaraq müəllimin izahını, şərh edə bilmək qabiliyyətini, metodiki qabiliyyətlərini aid etmək olar.

3. Təşkilati, kommunikativ və konstruktiv qabiliyyətlər. Müəllimin təşkilatçılıq funksiyası, ünsiyyət və münasibəti, ümumi pedaqoji, psixoloji hazırlığı ilə bağlıdır.

İndi isə müəllimin digər qabiliyyətlərini ayrı-ayrılıqda nəzərdən keçirək:

Akademik qabiliyyət - geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur;

Didaktik qabiliyyət - bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir;

Ünsiyyət (kommunikativ) qabiliyyəti - uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiy-yət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur;

Konstruktiv qabiliyyət - özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdır-maqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqda ifadə olunur;

İradi-emosional qabiliyyət - müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqda ifadə olunur. Bu qabiliyyətlər zaman keçdikcə dəyişə, tələblərin sayı arta və ya azala bilər. Başlıca şətlərdən biri isə bacarıqların zərurilik baxımından təsnif olunmamasıdır.

Pedaqoq alimlərin fikrincə, müəllim şagirdlərlə ünsiyyət və münasibətini daha uğurlu və optimal qurması üçün aşağıdakı şərtlərə də əməl etməlidir:

1) Müəllim ünsiyyət və münasibətində diqqətli və həssas olmalıdır. Müsahibinin vəziyyətini, əhval-ruhiyyəsini "üzündən oxumalı", lazım gələrsə, bir söhbətdən başqa bir söhbətə keçməyi bacarmalıdır;

2) Müəllim ünsiyyət və münasibətində davranışını, hərəkətlərini idarə etməyi bacarmalıdır;

3) Müəllim həm nitqli, həm də nitqsiz ünsiyyətini mənalı aparmalıdır;

4) Müəllim şagirdlərlə ünsiyyəti və münasibətini ardıcıl təhlil etməli və müvafiq nəticələr çıxarmalıdır.

Ümumilikdə isə deyə bilərik ki, gənc nəslin tərbiyəsinə yönələn fəaliyyət pedaqoji fəaliyyətdir. Pedaqoji fəaliyyətin strukturunu aşağıdakı cəhətlər təşkil edir.

1. Pedaqoji fəaliyyətin məqsədi bu cəmiyyət üçün yararlı, hərtərəfli, ahəngdar inkişaf etmiş vətəndaşlar tərbiyə etməkdən ibarətdir.

2. Pedaqoji fəaliyyətin subyekti bilik verən, tərbiyə edən, istiqamət verən hesab olunur.

3. Pedaqoji fəaliyyətin obyekti və subyekti isə bilik, bacarıqlara yiyələnən, araşdıran, tədqiqiat aparan, tərbiyə olunan hesab edilir.

Müəllimin obyekti olan uşaq eyni zamanda subyektdir. Çünki uşaqlar da müəllimə təsir edirlər, onun işini təhlil edir və qiymətləndirirlər. Müəllimin səmərəli fəaliyyəti üçün başlıca amillərdən biri onun ixtisasa uyğun və ümumi biliklər sisteminə yiyələnməsidir. Bura ixtisas biliyi ilə bərabər pedaqoji, psixoloji, fəlsəfi, metodiki biliklər daxildir. Fəaliyyət prosesində həmin biliklər vəhdətdə birbirilə əlaqəli şəkildə istifadə

olunur.

Müəllim-şagird münasibətlərinin tiplərini şərti olaraq 4 tipə bölmək olar:

Birinci tip: “müəllim-şagird” münasibətləri yüzilliklər ərzində təlim prosesinin aparıcı didaktik modeli olmuşdur. Bu model müəllim və şagird arasındakı bilavasitə əlaqəyə əsaslanır. Belə pedaqoji qarşılıqlı təsirin “prototipi” ana və uşaq arasındakı münasibətlərdir. Didaktik şagird-müəllim münasibətləri praktikada müxtəlif tədris formaları və metodları ilə müşayiət olunur. Burada aktuallaşan münasibətlərə: mentor (mürəbbi) və şagird; “evdə məktəb” müəllimi və şagird; tədrisin müxtəlif sahələrində ustad və şagird; xüsusi qayğıya ehtiyacı olan uşağa bərpaedici-pedaqoji, korreksiyaedici və tibbi proqram kontekstində fərdi olaraq tədrisin aparılması aiddir.

İkinci tip: “müəllim-auditoriya” münasibətləridir. Bu, böyük sayda insan kütləsinə nəsihətvermə, təşviqat, mobillik, maariflənmə məqsədi daşıyan dialoji formada müraciətdir. Auditoriya ilə ünsiyyətin əsas formaları çıxış, təbliğ, məruzə, mühazirədir. Burada materialın və yeni informasiyanın rasional və “ekonomik” təqdim olunması əsas rol oynayır. Üçüncü tip: “müəllim - qrup” münasibətləri aiddir. Bu tip üçün vasitəsiz kommunikasiya xarakterikdir. Həmçinin kommunikasiyanın çoxtərəfli və qarşılıqlı münasibətlərin qabarıq əməkdaşlıq xüsusiyyətinə malik olması ilə seçilir. Dördüncü tip: “müəllim - təlim vasitəsi - şagird” üçün distant təlim xarakterikdir. Burada təlim kompüter və digər texniki vasitələrlə həyata keçirilir. Şagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirilməsini başa düşür. Həm də şagird özü də müəllimini qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır, fəaliyyətə və əməkdaşlığa həvəsi gücləndirir. Belə qarşılıqlı proses olmasa, şəxsiyyətin formalaşması baş verməz.

Təhsil sahəsində pedaqoji ünsiyyətin də özünəməxsus yeri var. Pedaqoji ünsiyyətin əsasını ünsiyyət prosesində müəllim və şagirdin bir-biri ilə informasiya mübadiləsi təşkil edir. Ünsiyyətin məzmunu təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə müəyyən edilir. Ünsiyyət vahid məqsədə yönəlmədən səmərəli nəticə verə bilməz. Pedaqoji ünsiyyətin səmərəliliyi onun motivlərin-dən də asılıdır. Motivin düzgünlüyü və dərk edilmiş xarakter daşıması pedaqoji ünsiyyətin gedişini şərtləndirir. Pedaqoji ünsiyyət müvafiq normalar çərçivəsində getməlidir. Müəyyən normaların gözlənilməməsi bir növ pedaqoji ünsiyyətin səmərəliliyini itirir və ünsiyyət istənilən nəticəni vermir. Müəllimlərin hamısında ünsiyyət üslubu eyni olmur. Konkret bir şəxsiyyət kimi hər bir müəllimdə ünsiyyətin təşkili, metodları nisbətən sabit şəkildə cəmlənir. İdarəetmə ilə bağlı olaraq sosial psixologiyada beş cür rəhbərlik üslubu qeyd olunur: avtokratik, avtoritar, demokratik, laqeyd, (etinasız, liberal) və qeyri-sabit (ardıcıl olmayan) rəhbərlik üslubu

1. Avtokratik - Bu rəhbərlik üslubunda müəllim şagirdlərlə münasibətində həmişə hakim mövqedə dayanır. O uşaqlarla əmr və sərəncamlarla, göstərişlərlə danışır. Heç kimin rəyi, fikri ilə hesablaşmır. Belə yanaşma üslubuna malik olan müəllimlərin başlıca nöqsanı, şagird şəxsiyyətinin formalaşması prosesinə dərindən və hərtərəfli nüfuz etməkdən məhrum olmasıdır. Burada tərbiyə olunan tərbiyə edəndən uzaqdır və hər cür tərbiyəvi təsirdən kənardadır. Belə vəziyyətdə məktəbli öz fikirlərini müəllimlə bölüşə bilmir. Əlbəttə, belə yanaşma tərzi nəinki, yeni pedaqoji təfəkkürdən, ümumi pedaqoji təfəkkürdən də uzaqdır. Buna avtokratik pedaqoji təfəkkür deyə bilərik.

2. Avtoritar - Belə yanaşma və belə üslubda müəllim yenə də hakim mövqeyə malikdir. Fərq yalnız ondan ibarətdir ki, o uşaqların çıxış etməsinə, fikir yürütməsinə imkan verir, lakin son məqamda yenə öz bildiyini edir. Belə müəllim nadir hallarda uşaqlara xoş, tərifli sözlər deyə bilir. O şagirdlərin səhv cavablarına gülür, səhvi böyüdür və çox hallarda səhvi düzəltmir. Avtoritar tipli müəllimlər əsasən iki tipə bölünürlər:

a) Birinci tipə məxsus olanlar özlərinə möhkəm inam bəsləyirlər. Onlar belə hesab edirlər ki, hər hansı bir çətin işin öhdəsindən gələ bilərlər;

b) İkinci tipə məxsus olan avtoritar müəllimlər isə yuxarıda deyilənlərin tam əksi olurlar.

3. Liberal - bunu düzgün yanaşma saymaq olmaz. Belə yanaşmada müəllim verdiyi tapşırıq-ların yerinə yetirilməsinə nəzarət etmir, tez-tez uşaqlara güzəştə gedir, bəzən də dediyi sözlərin əleyhinə gedir.

4. Etinasız - belə əməkdaşlıq növündə müəllim şagirdlərin fəaliyyəti, onların “dərdi-səri”

ilə maraqlanmır, kollektivin ətrafdakı həyatına laqeyd münasibət bəsləyir. Bələləri bəzən cəmiyyətdə baş verən hadisələrə, respublikamızın ictimai-siyasi həyatına biganədir. Ətrafda baş verən hadisələrə heç bir maraq göstərmir. Belə müəllimləri uşaqlar sevmir, onların dərslərinə də laqeyd münasibət göstərirlər.

5. Qeyri-müəyyən əməkdaşlıq - belə əməkdaşlıq növündə müəllim şagirdlərlə həmişə eyni cür münasibətdə olmur. Bir müddət həlim, xoş ünsiyyət münasibətində olur, sonra isə dəyişilərək sərt, inzibatçı bir müəllimə çevrilir. Yaxud, müəllim əhval-ruhiyyəsindən asılı olaraq uşaqlarla ünsiyyət və münasibəti dəyişir.

6. Demokratik - elə əməkdaşlıq yeni pedaqoji təfəkkürün məhsuludur. Bu ən düzgün, ən humanist əməkdaşlıq hesab edilir. Belə əməkdaşlıqda müəllim şagirdlərlə işgüzar münasibətdədir. Müəllim uşaqların arzu və maraqlarını, fərdi psixoloji xüsusiyyətlərini ciddi nəzərə alır. O, uşaqların səviyyəsinə enməyi bacarır, "onların dilində" danışa bilir. Belə müəllim, öz fəaliyyətində kollektivə arxalanır. Belə müəllim, müasir məktəbin müəllimidir. Belə müəllim yeni düşüncəyə, yeni pedaqoji təfəkkürə malik müəllimdir. Məktəbimiz yalnız belə müəllimlərin sayəsində inkişaf edir və yüksəlir.

Bütün bunlarla yanaşı müəllim və şagird arasında problemlər də yarana bilər. Bu problemlər isə şagirdlərin sinifdən-sinfə keçdiyi zaman və onların yaş dövrləri ilə əlaqədar olaraq baş verir. Məsələn, 4-cü sinifdən 5-ci sinfə keçəndə yeni müəllimlərlə tanışlıq zamanı şagirdlərin psixologiyasında müəyyən dəyişikliklər olur. Birdən-birə onlar bir müəllimin əlindən çıxıb, bir neçə müəllimin qarşısında otururlar. Yeni müəllimlərlə tanışlıq onların özünəməxsus xarakterlərinin formalaşmasında mühüm rol oynasa da, ibtidai sinfi yenicə bitirmiş şagirdlər arasında çaşqınlıq yaradır. Bu sahədə onlara yeni təyin olunmuş sinif rəhbəri və məktəbin psixoloqu kömək etməlidir. Eyni zamanda müəllimdə yuxarıda qeyd etdiyim bir sıra keyfiyyətlərin olmaması da təhsil sistemində şagird-müəllim problemlərinin yaranmasına gətirib çıxarır.

Müəllim və şagird arasında problemləri aradan qaldırmaq üçün aşağıdakı fikirləri qeyd etmək olar:

1. Müəllim yaxşı psixoloq olmağı bacarmalıdır. Məktəblərdə psixoloji treninqlər keçirilməli, müəllimlər üçün tez-tez məşğələlər təşkil olunmalıdır.

2. Müəllimlər təkcə elmi cəhətdən deyil, etika, estetika baxımından da yüksək mədəniyyətə malik olmalıdır.

3. Müəllim hər bir şəxsə fərdi yanaşmağı bacarmalıdır. Çünki hər bir uşağın fərdi xarakterik xüsusiyyəti var və hər müəllimdə ona uyğun davranmalıdır.

4. Müəllim valideynlə sıx əlaqədə olmalıdır ki, sinifdə baş verənlərdən hər zaman valideyn xəbərdar olsun. Çünki həm valideyn, həm də müəllim uşağa eyni şəkildə təsir etməyi bacarmalıdır ki, uşaqda iki fikirlilik yaranmasın.

5. Şagirdlər də müəllimlərinə qarşı hörmətlə, etiqadla yanaşmalıdır. Qarşılıqlı şəkildə anlaşma yaratmağa çalşmalıdırlar. Çünki müəllimlər valideynlərimizdən sonra bizim əsas yol göstərənimizdir.

6. Müəllim-şagird arasında konflikt yarandıqda özümüzü müəllimin yerinə qoymalı, vəzifəsinin çətinliklərini dərk etməli və onun tək şagirdlərin isə çox olduğunu unutmamalıyıq.

7. Şagirdlər müəllimi təkcə pedaqoq kimi görməməlidir. Müəllimi özlərinə dost bilməli, problemlərini, yoldaşları arasında olan konfliktlərini onunla həll etməyə çalışmalıdırlar.

8.Məktəb həyatında müəllim-şagird arasında da konfliktlər baş verir. Bu zaman şagirdlər etik qaydaları keçməmək şərti ilə öz fikirlərini müəllimlərinə deməli, əgər problem həll olunmazsa məktəbin psixoloqu ilə məsləhətləşib, məsələni yoluna qoya bilərlər.

Müəllim-şagird münasibəti, əməkdaşlığı bütövlüklə məktəbin humanistləşməsinin və demokra-tikləşməsinin əsasını təşkil edir.

A.Zahidova yazır: "Müəllim-tələbə münasibətlərinin humanistləşdirilməsi müəllimin pedaqoji mədəniyyəti, ustalığı və məharəti ilə bağlı olub, bir çox tələbələrdə ifadə olunur. Buraya tələbənin şəxsiyyətinə hörmət və tələbkarlıq; ona diqqətli və həssas münasibət, inam və etibar; ünsiyyət texnikasına yiyələnmək və onu düzgün tətbiq etmək; konkret insandan və vəziyyətdən asılı olaraq ünsiyyət tərzində çevik dəyişikliklər aparmaq; insanlara münasibətdə obyektivliyi qoruyub saxlamaq; tələbə ilə səmimi olmaq, onun sevincini və kədərini bölüşdürmək və s." [5, s.26].

Çünki o mahiyyət etibarı ilə insanı sevmək, ona dərin hörmət və məhəbbət ideyası üzərində qurulmuşdur. Məktəbdə müəllimlərin mövqeyi

uşaqlar üzərində deyil, uşaqlarla birgə olmalıdır. Çünki onlar eyni kollektivin üzvüdür və eyni məqsəd üçün çalışırlar.

Ədəbiyyat

1. Ağamalıyev, R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar / R.Ağamalıyev. - Bakı: Təhsil, - 1998, - 376 s.
2. Abbasov, Ə. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Ə.Abbasov. - Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, - 2015, - 304 s.
3. Gülməmmədli, N. Pedaqoji ünsiyyətin üslubları və formaları // Təhsil, təhsilin təşkili və idarə edilməsinin müasir problemləri: reallıqlar, perspektivlər” mövzusunda elmi-praktik konfransın materialları”. - Bakı: ADPU, - 2017. - s.110-113.
4. Qədirova, N. Müəllim mentalitetinin formalaşdırılması: mövcud ədəbiyyatın təhlili // Elmi əsərlər, Azərbaycan Respublikası Təhsil İnstitutu. - 2018, cild 85, - s.57-62
5. Zahidova, A. Müəllim-tələbə münasibətlərinin humanistləşdirilməsi //Təhsil, təhsilin təşkili və idarə edilməsinin müasir problemləri: reallıqlar, perspektivlər” mövzusunda elmi-praktik konfransın materialları”. - Bakı: ADPU, - 2017, - s.24-26

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 213-217
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 213-217
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 213-217

UOT

Biologiyanin tədrisində şagirdlərdə tərbiyə məsələlərinin formalaşdırılması

Müəllif:

Gülnarə Səfərova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: sfrovagulnar194@gmail.com

Açar sözlər:
təlim, tərbiyə, biologiya, təbiət, elmi dünyagörüş

Annotasiya. Biologiya fənninin tədrisi şagirdlərdə tərbiyə məsələlərinin formalaşmasında xüsusi rol oynayır. Öyrənənlərə hələ aşağı siniflərdən tərbiyə formalarını düzgün aşılamaq lazımdır. Müəllim biologiyadan hər hansı bir mövzunu tədris edərkən mövzuya aid hekayələr, şeirlər, slaydlar, videokadırlar, rəssamların tablolarından və s. istifadə etməklə müxtəlif tərbiyə formalarını təkmilləşdirə bilər. Biologiyanın elmi əsasda öyrədilməsi şagirdlərdə idrakın inkişafına, məntiqi təfəkkürə, nəticə çıxarmağa və ümumiləşdirmə aparmağa kömək edir. Ona görə də hadisələrin mahiyyətini, onların qarşılıqlı əlaqəsini duymağa imkan yaranır.Biologiyanın tədrisinin inkişafetdirici, tərbiyəedici vəzifəsinin əsas məqsədişagirdlərin hərtərəfli inkişafına nail olmaqdır. Biologiya fənninin tədrisində mənəvi tərbiyə, estetik tərbiyə, ekoloji tərbiyə, əmək tərbiyəsi, gigiyenik və cinsi tərbiyə, özünün və ətrafdakıların sağlamlığına düzgün yanaşma kimi tərbiyə üsullarından istifadə olunur.

Formation of educational issues in students in biology teaching

Author:

Gulnara Safarova
Nakhchivan Teachers Institute
E-mail: sfrovagulnar194@gmail.com

Key word:
education, upbringing, biology, nature, scientific outlook

Abstract. The teaching of biology plays a special role in the formation of educational issues on students. It is necessary to inculcate the forms of education in the students from the lower grades in a right way. When the teacher any topic in biology, the can improve different forms of education by using stories, poems, slides, videos, paintings of artists, etc. Teaching biology on a scientific basis helps students develop cognition, logical thinking, drawing conclusions and making generalizations. Therefore, it is possible to understand the essence of events and their interrelationship. The main goal of the developmental and educational task of teaching biology is to achieve comprehensive development of students. In the teaching of biology, methods of education such as spiritual education, aesthetic education, environmental education, labor education, hygienic and sexual education, correct approach to the health of oneself and others are used.

Вопросы воспитания учащихся при обучении биологии

Автор:

Гюльнара Сафарова
Нахчыванский институт учителей
E-mail: sfrovagulnar194@gmail.com

Ключевые слова:
образование, воспитание, биология, природа, научное мировоззрение

Аннотация. Преподавание биологии играет особую роль в формировании учебных вопросов у учащихся: нужно еще прививать правильные формы воспитания младшим школьникам. Когда учитель проходит любую тему по биологии, рассказы, стихи, слайды, видеоролики, картины художников и т.д. используяихонможет улучшить различные формы образования, используя его. Преподавание биологии на научной основе помогает учащимся развивать познание, логическое мышление, делать выводы и делать обобщения. Следовательно, можно понять суть событий и их взаимосвязь. Основной целью развивающей и воспитательной задачи обучения биологии является достижение всестороннего развития учащихся. В преподавании биологии используются такие методы воспитания, как духовное воспитание, эстетическое воспитание, экологическое воспитание, трудовое воспитание, гигиеническое и половое воспитание, правильный подход к здоровью окружающихисебе.

Təlim və tərbiyə daim vəhdət təşkil edir. Təlimsiz tərbiyə, tərbiyəsiz təlim ayrı-ayrılıqda səmərəsiz bir şeydir. Tərbiyə elə prosesdir ki, insan həyata gəldiyi gündən ölənə kimi ona ehtiyacı var. Bütün tərbiyə elementləri: elmi dünyagörüşü, əmək tərbiyəsi, fiziki tərbiyə, estetik və etik tərbiyə hamısı eyni zamanda aparılmalıdır.

Tərbiyə, təhsil və təlim anlayışları hər biri ayrı-ayrılıqda müxtəlif anlayışlar olsalar da, hər üçü şəxsiyyətin inkişafına xidmət edir.

Şagirdlər ilk məktəb illərindən başlayaraq təbiət haqqında elementar anlayışları öyrənir və qavramağa başlayır. Həmin fikirlər biologiya fənninin tədrisində böyüyür, təcrübələr əsasında sübut olunur və onlarda müxtəlif təfəkkür formaları yaranır. Elmi dünyagörüşü nəticəsində şagird təbiəti və onun qanunlarını düzgün dərk edib, onu sistemə salmağın yollarını öyrənir. Şagirdlər biologiya kurslarını, onun elmi əsaslarını dərindən öyrəndikcə materiya, onun hərəkəti, inkişafı, zaman, məkan, kəmiyyət, keyfiyyət, böyümə, inkişaf, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi, inkarı-inkar, əksliklərin vəhdəti və mübarizəsi qanunlarını öyrənirlər. Biologiyanın son nailiyyətləri, onun yeni sahələrinin yaranması, yeni fənlərlə fənlərarası əlaqənin qurulması nəticəsində şagirdlərin elmi dünyagörüşünü inkişaf etdirmək üçün geniş imkanlar yaranır. Ona görə də dərs daim yenilikçi olmalı, təcrübələr əsasında qurulmalı və faktlarla sübut olunmalıdır.

Öyrənənlərdə elmi dünyagörüşü formalaşdırmaq üçün dini təqnid və ifşa etməklə yox, hər bir yeni məlumatın elmi mahiyyətini, onun gizli sirlərini açmaq lazımdır. Təlim prosesində hər bir müəllim bütün il boyu şagirdlərə bilik verməklə yanaşı, eyni zamanda dərs əsasında şagirdlərə tərbiyənin əsaslarını öyrətməyi də bacarmalıdır.

Əsas məsələlərdən biri və başlıcası təfəkkürün tərbiyə edilməsidir. Dünyagörüşü təfəkkürlə birlikdə inkişaf edir. Biologiya fənninin elmi əsasda öyrədilməsi şagirdlərdə idrakın inkişafına, məntiqi təfəkkürə, nəticə çıxarmağa, sərbəst qərar verməyə, müxtəlif metod və üsullarla ümumiləşdirmə aparmağa kömək edir. Bütün bunlar da baş verən hadisələrin mahiyyətini, onların qarşılıqlı əlaqəsini duymağa imkan yaradır.

Şagirdlərin biliyə şüurlu yiyələnməsi yalnız fəal təfəkkür prosesində mümkün olur. Mexaniki əzbərləmə ilə təfəkkürü inkişaf etdirmək mümkün deyil. Şüurlu və möhkəm bilik yalnız müəllimin daim sistematik işi nəticəsində həyata keçirilir ki, bu da öyrənənlərdə təfəkkürü möhkəmləndirir. Ona görə də müəllim təlim prosesində şagirdlərin müstəqil fəaliyyətini təmin etməyi bacarmalıdır. İnsanın təfəkkürü onun dünyagörüşü ilə bağlıdır. Təlim prosesi elə təşkil olunmalıdır ki, şagird hadisə və onların səbəblərini, onun mahiyyətini təcrübələr əsasında elmi əsaslarla dərk etsin. Təcrübə əsasında şagird canlı təbiətdə baş verən hadisələri, onların qarşılıqlı əlaqəsini, asılılığını dəqiqləşdirir və düzgün nəticə çıxarmağın yollarını tapır. Beləliklə də, öyrənənlər bioloji qanun və qanunauyğunluqlar haqqında düzgün elmi təsəvvürə malik olurlar [1, 299 s.]

Müəllimin şagirdlərin tərbiyəsində bir şəxsiyyət kimi rolu çox böyükdür. Bu müəllim bioloji təhsil almış, daim biliyini yeniliklərlə inkişaf etdirən, qazandığı bilikləri yayan, tərbiyə verən, şagirdlərdə Vətənə, təbiətə, əməyə məhəbbət, özünütəhsil və özünütərbiyə kimi xüsusiyyətləri formalaşdırmağı bacaran bir insan olmalıdır. Eyni zamanda öyrənənlərdə təbiətə, əməyə, sağlamlığa, cəmiyyətə qarşı düzgün elmi baxışlar formalaşdırmğı bacarmalıdır. Tərbiyənin əsasını düzgün elmi baxış və motivasiyanın yaradılması təşkil edir. Biologiya müəllimi təhsil verməklə yanaşı həm də tərbiyəçi olmalıdır. Biologiya müəlliminin tərbiyəçilik vəzifələrinə aşağıdakıları aid etmək olar:

- biologiya fənninin tədrisinə maraq yaratmaq;
- canlı aləmə humanist münasibət formalaşdırmaq;
- şagirdlərin estetik və mənəvi tərbiyəsini həyata keçirmək;
- yalnız biliyə yox, həm də hisslərə təsir etməyi bacarmaq.

Şagirdlərin hərtərəfli inkişafına nail olmaq biologiyanın tədrisinin inkişafetdirici, tərbiyəedici vəzifəsinin əsas məqsədlərindən biridir. Aşağıdakı tərbiyə formaları biologiyanın tədrisində daha çox istifadə olunur:

- mənəvi tərbiyə;
- estetik tərbiyə;
- ekoloji tərbiyə;
- əmək tərbiyəsi;
- gigiyenik və cinsi tərbiyə;
- özünün və ətrafdakıların sağlamlığına düzgün yanaşma.

Mənəvi tərbiyə. Biologiya hayat haqqında elmdir. Mənəvi tərbiyəni formalaşdırmaq üçün şagirdlərə biosferi qorumaq, onun yaşamaq üçün

mühit olduğunu başa salmaq, bütün canlıların nadir olduğunu və insan həyatı üçün nə qədər lazım olduğunu öyrətmək və s. məlumatlar vermək lazımdır. Əgər insan təbiətin gözəlliklərindən, quşların səslərindən, çiçəyin rəngindən, torpağın qoxusundan xüsusi zövq almırsa, o mənəvi cəhətdən tam inkişaf etməmiş olacaqdır.

Təbiətin gözəlliklərini görməyi bacarmaq, ondan zövq almaq tərbiyənin birinci şərtidir. Mənəvi tərbiyə təbiəti yalnız görmək, onun gözəlliyini hiss etmək deyil, eyni zamanda onu eşitməyi, dərk etməyi də bacarmaqdır.

Müəllim biologiya fənnini tədris edərkən hər hansı bir mövzunu keçərkən mövzu ilə əlaqədər hekayələr, şeirlər, hazır videokadrlar, slaydlar istifadə edə bilər. Müəllimin göstərdiyi təbiət mənzərəsi mövsümə aid olmasa daha yaxşı olar. Çünki, yay fəslində müəllim qış, yaz, payızda təbiətdə baş verən hadisələri müzakirə edərsə şagirdlərdə daha çox maraq doğurar. Yəni göstərilən təbiət mənzərəsi keçmiş fəslə aid olduqda şagird orada baş verən hadisələrini şəklə əsasən daha yaxşı qavraya bilirlər. Mənəvi tərbiyəni formalaşdırmaq yollarından biri də təbiət haqqında gözəl, ifadəli oxunan, öyrədici məzmundan ibarət şeir va hekayələr də aiddir.

Estetik tərbiyə. Xeyirxahlığı gözəllik kimi təsdiq etmək, estetik tərbiyənin əsas mahiyyətidir. Təbiət özü tükənməz gözəllik mənbəyidir. Biologiya fənnində də təbiətin tükənməz möcüzələrini şagirdlərə göstərmək olar. Təbiət böyüməkdə və inkişaf etməkdə olan gənc nəslin ən böyük tərbiyəçisi olmaqla, onlarda estetik tərbiyəni dərindən dərk etməyə köməklik edir. Ancaq bunun üçün şagirdlərə təbiətin gözəlliklərini görməyi və duymağı öyrətmək lazımdır. Daxili gözəllikləri duymaq hissi şagirdlərdə insana, ətraf aləmə, təbiətə məhəbbət hissi formalaşdırılır. Ənənəvi olaraq estetik tərbiyəvi işlər üçün ekskursiyalar, dərsdənkənar, sinifdənkənar məşğələlər geniş imkanlar yaradır. Biologiya fənnini tədris etmək üçün biologiya kabinetinin düzgün tərtibatı, orada yerləşən çiçəklər, divardakı şəkillər, plakatlar və s. şagirdin estetik tərbiyəsinin formalaşmasında çox böyük rol oynayır.

Müasir tələblərə uyğun tədris olunan dərslər estetik mədəniyyətin formalaşmasına geniş imkan yaradır. Məsələn, "Heyvanlar aləmi" mövzusunu öyrənən zaman dərsin ilk mərhələsi olan motivasiya mərhələsində müxtəlif həyat şəraitində yaşayıb, qidalanan heyvanları slayd və videokadrlar ilə nümayiş etdirərək öyrədən öyrənənlərdən bu heyvanlar haqda nəyi bilib nəyi bilmədiklərini öyrənə bilər. Dərsdə bu tip materiallardan istifadə etmək şagirdlərin gözəl bir təbiət mənzərəsi görməsinə, həm də dərs haqqında məlumat əldə etməsinə köməklik edəcəkdir. Tək dərsin ilk mərhələsində deyil, digər mərhələlərində də şagirdlərdə estetik tərbiyəni aşılamaq olar. Məsələn, müxtəlif rəngdə olan iş vərəqləri paylamaqla, tətbiqetmə mərhələsində şagirdlərə mövzuya uyğun olaraq əl işləri hazırlamağı tapşırmaqla və s.

Estetik tərbiyənin aşağıdakı vəzifələri var:

- gözəlliyi görmək və onu dərk etmək, yaxşını pisdən ayırmağı bacarmaq;
- öz ətrafında, təbiətdə gözəllik yaratmaq və onu qorumaq;
- estetikanın etika ilə əlaqələndirmək və ona uyğun hərəkət etmək;

Ekoloji tərbiyə. İnsanın intellektual səviyyəsindən, ekoloji biliklərindən, tərbiyəsindən, əqidəsindən asılı olaraq ətraf mühitə, təbii sərvətlərə müsbət və ya mənfi təsir göstərir. Bütün təbiət elmlərinin tədrisi zamanı, eyni zamanda biologiya fənninin tədrisi zamanı da gənc nəslə geniş şəkildə izah olunmalıdır ki, ekologiyanın təmizliyi bizim həyatımızda əvəzolunmaz yeri var. Müəllimin əsas vəzifələrindən biri də inkişaf etməkdə olan gənc nəslə elmi biliklər verməklə yanaşı, onlarda təbiətə, təbiətin sərvətlərinə düzgün münasibət formalaşdırmaq, daim təbiəti qoruyub saxlamağın yolllarını izah etməkdən ibarətdir. Öyrənənlərə dəqiq faktlarla izah olunmalıdır ki, ekoloji fəlakətlərin yaranma səbəblərinin ən başlıcası insanın təbiətə şüursuzca ziyan vurmasıdır. Müəllim izah etməlidir ki, ekoloji qanunauyğunluqlar nəzərə alınmaz və təbiətin bioloji tarazlığı pozularsa, geridönülməz şəkildə ekoloji fəlakətlər yarana bilər. Bütün bu səbəblərə görə də öyrədən daim gənc nəslə təbiətə ehtiyatla yanaşmağı, fauna və floraya ziyan olan hadisələrin qarşısını almağın yollarını izah etməyi bacarmalıdır. Müəllim şagirdlərlə daim və sistemli iş aparmaqla ekoloji şüur və düşüncənin formalarını yarada bilər. Maarifləndirmə, inkişafetdirmə, tərbiyəetmə, təşkiletmə, proqnozlaşdırma funksiyaları hayata keçirilməklə, müasir məktədə şagirdlərdə yüksək ekoloji mədəniyyət formalaşdırmaq olar.

Ekoloji biliklər dərsdənxaric işlərdə inkişaf etdirilir, möhkəmləndirilir. "Təbiət ən gözəl aptektir", "Ekologiya bizim evimizdir", "İnsan və

onun sağlamlığı”, Təhlükəli siqaret”, “Yabanı bitkilərin ziyanı və əhəmiyyəti”, “Quşlar günü” və s. kimi ekoloji mövzularda dərsdənkənar, sinifdənkənar işlər keçirməklə ekoloji biliklər möhkəmləndirilir.

Ümumiyyətlə, müəllim şagirdə anlatmalıdır ki, insan biosferin bir hissəsidir. Biz insanlar gələcəyi qorumaq üçün əsas təbiəti yaşatmağı bacarmalıyıq. Şagirdlər “təbiəti xilas et və qoru” ifadələrini heç zaman yaddan çıxarmamalıdırlar. Bunları dərk edən hər bir şagird mənəviyyatlı insan kimi formalaşacaqdır [2].

Əmək tərbiyəsi. Tərbiyənin vasitəsi olan əmək tərbiyəsinin inkişaf etməsində texniki vasitələrin, dərnəklərin və məktəbdənkənar tərbiyə müəssələrinin böyük rolu vardır. Bu cür inkişaf prosesində fiziki və əqli iş arasında sədd götürülür, elm və nəzəriyyə əlaqələnir, politexnik tədris prinsipi reallaşır. Şagirdlərdə əməyə sevgi tərbiyəsi ilə birlikdə onlarda vətənpərvərlik hissi də tərbiyə olunur. Əmək tərbiyəsinin inkişafında məktəblilərin əsas rolu onların öz güclərinə müvafiq əmək növlərində iştirak etməsidir. Hərbir əməkdə əl ilə ağlın gücü üzvi surətdə birləşir. Şagird kollektivinin inkişaf səviyyəsi, şagirdlərin yaş xüsusiyyəti, maraq və meylləri nəzərə alınmaqla əmək tərbiyəsinin məzmunu müəyyən edilir. Əmək tərbiyəsi sinifdən-sinfə keçdikcə əmək növlərinin və formalarının mürəkkəbləşməsini nəzərdə tutur. Biologiya kabinetində canlı guşənin yaradılması, herbarilərin toplanması və düzgün qurudulması yollarını öyrənmək, məktəbyanı sahədə olan bitkilərə qulluq etməyi bacarmaq, biologiya kabinetində olan avadanlıqların təmizlənməsində iştirak etmək hər bir şagirddə dolayı yolla əməyə sevgi hissi formalaşdırmağa kömək edir.

Biologiyanın tədrisində əmək tərbiyəsi şagirdlərin sərbəst həyata hazırlığında böyük bir əhəmiyyətə malikdir. Bununla əlaqədar bəzi təlim-tərbiyə işləri həyata keçirilir:

- bioloji sənaye, biotexnologiya, kənd təsərrüfatı, sağlamlığın qorunması haqda politexnik təhsilin verilməsi;

- əməyin fiziologiyası və gigiyenası haqda biliklərin mənimsənilməsi;

- bitkilərin becərilməsi və heyvanlara qulluq, təbiətin qorunmasına aid praktik işlər ilə əlaqədar bilik və bacarıqlara yiyələnmək;

- məktəbin və yaşadığı yerin yaşıllaşdırılmasında iştirak etmək.

Gigiyenik və cinsi tərbiyə. Öyrənənlərə ilkin tibbi bilikləri tədris etməklə gigiyenik və cinsi tərbiyə haqqında daha asan məlumatlar vermək olar. Biologiyanın tədrisində tibbi biliklərə yiyələnmiş şagird aşağıdakıları bilməlidir:

- sağlamlıq anlayışını. Vətəndaşların, uşaqların sağlamlıq hüququnu;

- qidalanma gigiyenası və mədəniyyətinə dair məlumatları;

- sağlamlığı möhkəmləndirən amilləri: qidalanma, gün rejimi, fiziki tərbiyə, təmiz hava, zehni və fiziki fəaliyyətin növbələşməsi;

- virus və irsi xəstəliklərə qarşı mübarizə, sağlamlığın qorunması yollarını;

- normal cinsi inkişafın gedişini.

Biologiya fənninin tədrisi zamanı öyrənənlərə aşılamaq lazımdır ki, virus və bakteriyaların törətdiyi xəstəliklər ciddi fəsadlara gətirib çıxara bilər. Bunun qarısını almaq üçün də daim gigiyena qaydalarına riayət olunmalıdır. Müəllimlər də dərs zamanı şagirdlərə gigiyena qaydalarına əməl etməyin yollarını öyrətməyi bacarmalıdır. Hər bir öyrənənn bilməlidir ki, gigiyena qaydalarına riayət etmədikdə təkcə öz həyatları üçün deyil eyni zamanda hər kəs üçün təhlükəli şərait yaradır.

Özünün və ətrafdakıların sağlamlığına düzgün yanaşma. Bütün dünya ölkələrində olduğu kimi bizim də ölkəmizdə hal-hazırda pandemiyalar günü-gündən artır. Bunu nəzərə alaraq öyrənənlərə aşılamaq lazımdır ki, həm özünün həm də digər insanların sağlamlığının qayğısına daim qalmalıdır. Dərsdə, sinifdənkənar tədbirlərdə, ekskursiyalarda müəllim daim məlumat verməli, onları maarifləndirməli, tərbiyə etməlidir ki, ətraf mühitə düzgün yanaşmaq, bitkiləri qorumaq, təbiəti sevmək və qayğı göstərmək hər bir şəxsin borcudur. Müəllim sağlamlığı qorumaq, özünə və ətrafdakıların səhhətinə ciddi yanaşmaq, asudə vaxtını səmərəli keçirmək, həyat risklərinə yol verməmək, ekstremal vəziyyətdə çıxış yollarını tapmaq, xəstə və qüsurlu insanlara qayğı göstərmək, aqressiv davranışlardan çəkinmək, səbirli olmaq kimikeyfiyyətlər formalaşdırmağı bacarmalıdır [3, s.60].

Ədəbiyyat

1. Babayev, M., Məcidov M. Biologiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik
2. M.Babayev, M.Məcidov. - Bakı: Çaşıoğlu, -

2008. - 269 s.
3. https://metodikdestek.nmi.edu.az/wp-content/uploads/2021/03/BIOLOGIYA-F%C6%8FN-NININ-T%C6%8FDRISIND%C6%8F-T%-C6%8FRBIY%C6%8F-1.pdf
4. Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik / G.Hacıyeva, - Bakı. - 2018, - 354 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 218-221
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 218-221
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 218-221

UOT

Ali məkəblərdə ingilis dili dərslərində interaktiv təlim üsullarından istifadənin lingivistik əsasları

Müəllif:

Ayşən Rzayeva
Bakı Dövlət Universiteti
E-mail: rn.ayshan@gmail.com

Açar sözlər:
ənənəvi üsul, interaktiv təlim, üsul, qrup işi, texnologiya, təlim məzmunu

Annotasiya. Azərbaycanın apardığı müxtəlif ölkələrlə iqtisadi və siyasi əlaqə, multikulturalizin inkşafı və s. bu cür proseslər xarici dil öyrənilməsi üçün də əsas verdi. Beləliklə ingilis dilinin həyatımızın hər sahəsində artan əhəmiyyəti xarici dil müəllimlərinin fəal işə cəlb olunmasını vacib edirdi. Müəllimlərin üzərinə düşən əsas vəzifələrdən biri isə tələbələrdə dərketmə bacarığını aktiv hala gətirib, ingilis dilinin mənimsənməsi prosesini intellektual bacarıqlar (tənqidi düşünmə, sintez, analiz və s.) və kommunikasiya zamanı xarici dilin tətbiq edilməsini təmin etməkdir. Hal-hazırda ingilis dili bütün dünyada ən çox istifadə olunan dildir deyə bilərik. İngilis dilini öyrənməklə həm iş, təhsil həyatında uğurlar qazanıb daha irəli getmək həm də eyni zamanda Avropa ölkələrinin mədəniyyətinə daha da bələd olmaq mümkündür. Ümumiyyətlə xarici dil öyrənmək üçün onun həm şifahi, həm də yazılı nitqdə istifadə qaydasını bilmək və bunu tətbiq etmək vacibdir. Buna görə də şagird və tələbələrə ingilis dilini yalnızca nəzəri aspektlərdən öyrədilməsi deyil, həm də dildən müxtəlif məqamlarda istifadə bacarığının inkişaf etdirilməsi vacibdir.

Linguistic basis of using interactive learning methods in English language classes in higher schools

Author:

Ayshan Rzayeva
Baku State University
E-mail: rn.ayshan@gmail.com

Key word:
traditional method, interactive training, method, group work, technology, training content

Abstract. Azerbaijan’s social, economic and political relations, the development of multiculturalism, etc. such a result also provided a basis for foreign language learning. before, the increasing growth of the English language in all areas of our life made it necessary to actively involve foreign language teachers. The power of teachers is one of the main tasks. Currently, English is the most widely used language in the world. with its rapid development, it is possible to gain success in both work and further education, and at the same time, it is possible to become more familiar with Europe’s culture. It is important for a foreign language to be consistent, as well as to check its use in written speech and apply it. Therefore, it is important not only to teach some English language theoretical aspects, but also to increase the use of the language in some situations.

Лингвистические основы использования интерактивных методов обучения на уроках английского языка в высших учебных заведениях

Автор:

Айшен Рзаева
Бакинский государственный университет
E-mail: rn.ayshan@gmail.com

Ключевые слова:
традиционный метод, интерактивное обучение, метод, групповая работа, технология, содержание обучения

Аннотация. Социально-экономические и политические отношения Азербайджана, развитие мультикультурализма и др. такой результат также послужил основой для изучения иностранного языка. раньше возрастающее распространение английского языка во всех сферах нашей жизни требовало активного привлечения преподавателей иностранных языков. Власть учителей является одной из главных задач. В настоящее время английский язык является наиболее широко используемым языком в мире. с ее быстрым развитием можно добиться успеха как в работе, так и в дальнейшем обучении, и в то же время можно ближе познакомиться с культурой Европы. Иностранному языку важно быть последовательным, а также проверять его употребление в письменной речи и применять. Поэтому важно не только преподавать некоторые теоретические аспекты английского языка, но и расширять использование языка в некоторых ситуациях.

Azərbaycan Respublikasının 1991-ci ildə Sovet respublikasının tərkibindən çıxaraq, müstə-qillik qazanması onun sosial iqtisadi həyatına yeniliklər gətirdi. Hər sahədə dirçəlişin olması təhsil sahəsində də əsaslı dəyişikliklərə gətirib çıxardı. Texnologiyanın da inkşafı, bu dəyişiklikləri daha da sürətləndirdi. Artıq Sovet dövrünün ənənəvi təhsil sistemini üstələyən, yeni, daha müasir kurikulum sisteminə keçid təhsilin inkşafı üçün vacib addım idi. Təhsil sistemində aparılan islahatlar, dövlət səviyyəsində təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, onun inkşaf etmiş dövlətlər sırasına inteqrasiyasına əsas verdi.

Siyasi və iqtisadi maraqlar, beynəlxalq əlaqələrin inkşafı xarici dillərin öyrənilməsi üçün əsas oldu. Bir çox dövlətdə əsas və ya ikinci xarici dil kimi tədris olunan ingilis dili ölkəmizdə də tədris olunmağa başladı.

Kurikulumun yaranması, fəal-interaktiv təlimə keçid, interaktiv metodaların tətbiqi dərsin keyfiyyətinin daha da artmasına, şagirdlərə dərslərdə daha çox özünü ifadə edə bilmək şansı və buna bağlı olaraq da onların dərsdə passivliyinin minimuma endirib, idraki fəaliyyətlərinin inkşafına, bilik, bacarıq və vərdişlərin formalaşmasına imkan yaratdı.

Təlim prosesinin daha səmərəli olması və istənilən nəticənin alına bilməsi üçün ən önəmli məsələlərdən biri də düzgün metodların seçilib, dərs prosesində tətbiq edilməsidir. Düzgün olmayan, qeyri-səmərəli metodlarla yüksək nəticələr əldə etmək mümkün deyil. Qarşıya qoyulan təlim məqsədinə çatmaq üçün seçilən metod və üsullar bu məqsədlərlə sırf vəhdət təşkil etməlidir.

Ümumiyyətlə, didaktik məqsədlər, yəni təlim məqsədləri dedikdə ilk növbədə şagird və tələbələrin hərtərəfli inkişafı nəzərdə tutulur. Onların şüurunda dünyanın tam, dolğun anlayışının yaradılması, tərbiyə edilməsi, intellektual qabiliyyətlərinin inkişafı, bacarıq və vərdişlərin formalaş-dırılması, nəzəri biliklərin formalaşdırılması təlimin ən əsas məqsədlərdəndir. Bu məqsədlərlə də uyğunlaşan metod və üsulların seçilməsi də təlim, tərbiyə işini tamamilə asanlaşdıra və tam şəkildə müəllimlərə öz məqsədlərinə çatmaqda kömək edə bilər.

İnteraktiv sözünün bir çox mənası var və müxtəlif mənalarda işlədilir, amma bu təlimdə onun beyin həmləsi, rollu oyunlar, söz assosiasiyası, insert, debat kimi müxtəlif növlərindən istifadə edilir.

"Beyin həmləsi" termini müxtəlif ədəbiyyatlarda müxtəlif cür qeyd olunur, bəzən onu hətta əqli hücum adı ilə də, adlandırırlar. "Açar tipli sözlər"dən istifadə olunması tələbələrin düşüncə bacarıqlarını yüksəltmək üçün olduqca məqsədyönlüdür.

"Söz assosiasiyası" tələbələrdə sürətli cavablama və sürətli düşünmə vərdişini formalaşdırır. Bu metodun təkrar mövzularda istifadəsi daha məqsədəuyğun hesab edilir. Sadə bir misal ilə fikrimizi belə əsaslandıra bilərik. Müəllimin səsləndirdiyi sözə uyğun bir şəkildə tələbələr cavablandırmağa başlayırlar.

"İnsert" üsulu tələbələrin sərbəst şəkildə bilik qazanmasıdır, müəllim təzə məlumatları tələbələrə fərqli yollarla - insert üsulundan istifadə edərək də öyrədə bilər. Bu üsulun müsbət cəhətlərindən biri tələbələrin yalnız sərbəst düşüncə bacarığını inkişaf etdirmir, eləcə də onların nitq qabilliyyətini gücləndirir.

"Debat" müasir təhsildə müəllimlər ilə tələbələrin sıx-sıx qarşılaşdığı, lakin çox sevilən üsuldur. Debat müəyyən bir problemli sualın əks mövqedən izahı və qarşılıqlı vəziyyətdə müzakirə olunmasıdır.

Qərarlar ağacı üsulu mübahisəli qərarların qəbulu zamanı və istinad edilən situasiyanın tələbələrə daha aydın çatdırılmasına yardım edir, tələbələrin qazandığı biliyi ümumiləşdirilməsinə və onun qiymətləndirilməsini aparmağına şərait yaradır. Bu üsul tələbələrə qəbulu mümkün olan qərarların hər bir variantını, həmçinin bütün bunların hamısı ilə əlaqəli müsbət və mənfi xarakteristikaları təhlil etməyi üçün imkan yaradır.

Əqli hücum üsulu tələbələrin fəallığının artırılması və ideyaların sürətli generasiya edilməsi üsuludur. Bundan konkret problemin həll olunması, yaxud təzə mövzunun öyrənilməsi vaxtı suala cavab tapmaq məqsədilə istifadə edilir. "Əqli hücum" üsulunu hansı problem üzrə aparacaqsınızsa ilk olaraq onu qərarlaşdırın. Onu fərqli cavabları ola biləcək bir sual formasına salın. Tələbələrə öz fikirlərini bildirməyi söyləyin, bütün ideyaları hər kəsin görə biləcəyi, qısa ifadələr şəklində yazın, tələbələrə başa salın ki, onlar yoldaşlarının fikirlərini şərh edə, yaxud deyilmiş fikri təkrar səsləndirə bilməzlər. Tələbələri fəal olmağa həvəsləndirin, ancaq fikir bildirmək üçün heç kəsi məcbur etməyin, yaxud ideyaları yazarkən onları qiymətləndirməyin. Öz ideya-

larınızı təkcə qrupun fəallığını artırmaq zərurəti üzə çıxdıqda səsləndirin. Aydın olmayan cümlə varsa, müəllifindən xahiş edin ki, onu izah etsin, yaxud özünüz izah edərək tələbələrin fikrini alın. İrəli sürülən bütün təzə təklifi qeyd edin. Əsasən bu təkliflərin ən qeyri-daha faydalı və daha maraqlı olur.İdeyalar bitəndə "əqli hücum"u sonlandırın, səsləndirilən hər bir təklifi nəzərdən keçirib tələbələrdən xahiş edin ki, bu fikirləri şərh etsinlər. Sonda isə müəllim tələbələrin iştirakı ilə fikirləri mühümlüyünə əsasən sıralayır ki, verilmiş sualın, və yaxud problemin həll edilməsinə kömək göstərən ideyaları ayırd edə bilsin [1, s.66].

"Rollu oyunların" tətbiq edilməsi onun üçün əlverişli hesab edilir ki, dərs zamanı bunun üçün proqram və materiallar vardır. Ona görə də, qabiliyyətli müəllim bu metoddan faydalanmağı yaxşı bacarmalıdır. Hətta diplomatik görüşlərlə bağlı dialoqların səhnələşdirilməsi də mümkündür. Rollu oyunlar - kiçik improvizasiya-pyesdir. Oyunların materialların qavranılmasını və onun dərk edilməsini asanlaşdırmaq, həmçinin tələbələri həyatda reallaşan vəziyyətlərə qarşı hazırlamaq kimi əsas məqsədləri vardır. Qeyri-müəyyənlik vəziyyətində, gerçək mühitin əsas xarakteristikalarının təxəyyüldə canlandırıldığı halda qərar qəbulunu öyrətmək məqsədilə rollu oyundan istifadə edilir. Burada müəllimin əsas vəzifəsi tələbələrə personajı kənardan izləməyi öyrətmək, belə bir halda onun zəif və güclü yönlərini dərk etməyə yardım etməkdən ibarətdir. Bu cür rol oyunlarını simulyasiya və ya təqlid, tamaşa (dram) və oyun rəqabəti (oyun) kimi sahələrə ayırırıq. Tez-tez onlar bir-birinə bənzədilsə də, ümumiyyətlə fərqli anlayışlardır. Rola bürünən oyun və simulyasiya arasındakı fərq dinləyicilərin oynadığı rolların ehtimalıdır. Beləliklə, simulyasiya öyrənənlərin real həyatlarında özləri üçün təbii olan rolları ifa etdikləri bir vəziyyətdir. Rola bürünən oyunda, həyatlarında yer almadıqları rolları "özləri ilə sınaya" bilərlər.

Rol, təqlid oyunları və simulyasiyalar və ya situasiya modelləşdirməsi gələcəkdəki fəaliyyəti üçün xüsusilə faydalıdır. Təqlid və simulyasiyaların istifadəsi yalnız ətrafdakı gerçəkliklərin hadisələrini təkrarlayan hərəkətləri yerinə yetirməyə yox, həmçinin xüsusi yaradılmış şəraitdə peşəkar həyatın real vəziyyətlərini yenidən yaratmağa imkan verir. Tələbələrə xarici dil tədrisi zamanı rola bürünən oyunlar, təqlidlər mövzusu gələcək peşə və elmi fəaliyyətləri ilə bağlı ola bilər: "İş ovu: işəgötürənlə görüş", "Elmi konfrans, simpozium" [1, s.85].

Diskussiya metodu müəllimlər ilə yanaşı, tələbələr üçün də olduqca universaldır. Bu tələbələrin problemlərə və suallara qarşı olan münasibətini aydınlaşdırmağa yardım edir. Tələbələr tərəfindən mövzu yalnız 10-20 dəqiqəlik müddətdə müzakirə olunur.

Diskussiya tələbələrə məlumat yığmaq vərdişlərini və fəallığını aşılayır və onlara öz düşüncələrini bildirmək, həmçinin mübahisə əsnasında kiminsə üstünlük əldə etmək imkanını məhdudlaşdırır. Bu üsul müəllimin yardımı və məcburiyyəti olmadan fikir mübadiləsi etmək üçün çox əlverişlidir və tələbələrə dinləmək, sıra ilə danışmaq, tolerantlıq göstərmək kimi imkanları aşılayır. Başlanğıcda tələbələrə diskussiyanın keçirilməsinin öncədən tərtib olunan əsas qaydalarını yada salmaq lazımdır. Yəni, danışan yoldaşına qulaq asmaq, eyni zamanda təkcə bir adam danışa biləcəyini anlamaq, çıxış zamanı icazə almaq, danışanın sözünü yarıda bölməmək vacibdir. Proses zamanı müəllim diskussiyanın mövzusunu öncədən bildirir. Diskussiyanın gedişatında müəllim, mövzu və plan ilə bağlı tələbələrə məlumat verir. Sonra isə diskussiyanın başlanmasını xəbər verir. Müəllim heç bir halda diskussiyanın gedişatına maneə yaratmır, sonda ancaq yekun nəticəni bildirir [1, s.77].

"Dəyirmi masa" - bir qayda olaraq müzakirə edilən mövzu ilə əlaqədar praktiki iş təcrübəsinə sahib olan tələbələrlə dərslərin keçirilməsi metodudur. "Dəyirmi masa"da dinləyicilər müzakirə mövzusu ilə əlaqəli sualları rasional olaraq verməyə, həll yollarına yanaşmaları ciddi şəkildə əlaqələndirməyə və uğurlu və pis təcrübə barədə hesabat verməyə çalışa bilərlər. "Dəyirmi masa" təcrübə mübadiləsi və praktik təcrübə, nailiyyətlər və səhvlərin müzakirəsi ilə əlaqəli bir növ görüşdür. Bu şəkildə tələbələr mövzunun məzmununa, problemlərinə yiyələnirlər.

İnteraktiv xarakterli təlimin üstünlükləri olmasına baxmayaraq, müəllimlər birmənalı olaraq ənənəvi üsullardan istifadəni dayandırmamalıdır. Müəllim təlimin məzmunundan, məqsədindən, tələbələrin hazırlığından asılı olaraq seçimi etməlidir. Misal üçün, müəllim qarşıya vərdiş və bacarıqların formalaşma məqsədini qoyarsa, bu zaman o reproduktiv, yəni əsas məğzi təkrarlama və model üzrə iş olan metoda daha çox üstünlük

verə bilər.

Qeyd etməliyik ki, interaktiv dərs prosesinin keçirilməsi formasının seçilməsi intellektual inkişaf səviyyəsi, öyrənilən mövzu və məqsədləri nəzərə alaraq müəllimin fərdi yanaşmasını tələb edir. İnteraktiv xarakterli təlim texnologiyaları sinif daxilində və ya xaricində dərsləri sinif-dənkənar fəaliyyət şəklində keçirmək üçün istifadə oluna bilər. Dərsin aparılması üsulu aktivdir, yəni heç bir tələbə diqqətdən kənarda qalmaz və əlverişli bir atmosferdə passiv tələbələr də aktiv iştirakçı olmağa meyllidirlər.

Ədəbiyyat

1. Veysova, Z. Fəal-interaktiv təlim / Z.Veysova. - Bakı, - 2007, - 156 s.
2. Paşayeva, M. Ali məktəbdə seminar məşğələlərinin interaktiv təlim metodları ilə təşkili yolları // Elmi Əsərlər, ISSN 2409-8817, cild 85, № 6, - 2018, - 85-89 s.
3. İnteraktiv təlimdə iş üsulları - əqli hücum // https://aztehsil.com/news/6857-nteraktiv-tlimd-i-sullar-ql-hcum.html
4. Ənənəvi və interaktiv təlim metodlarının müqayisəli təhlili // https://aztehsil.com/news/6687-nnvi-v-interaktiv-tlim-metodlarnn-mqayisli-thlili.html

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 222-225
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p.222-225
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 222-225

UOT

Müəllimin peşəkarlıq səviyyəsinin artırılmasının aktual problemləri

Müəllif:

Fəxriyyə Cəfərova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: faxriyyacafarova@gmail.com

Açar sözlər:
məktəb, müəllim, təhsilin inkişafı, keçirilən islahatlar, pedaqoji peşəkarlıq

Annotasiya. Bu gün təhsil sistemində həyata keçirilən islahatlar nəinki təhsilin keyfiyyətinin artırılmasını, həm də peşəkar müəllimlərin hazırlanmasını bir vəzifə kimi qarşıya qoyur. Təhsilin inkişafı istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları əsasında xüsusi tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasında keyfiyyətli təhsil üçün “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” mühüm əhəmiyyət kəsb edir. Bu strategiya qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yardılmasını tələb edir. Eyni zamanda, səriştəli müəllimlərin də hazırlanması məsələsi diqqətdən yayınmır. Bu baxımdan, Naxçıvan Müəllimlər İnstitutu regionda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasında böyük rola malikdir. Bu gün bu ali təhsil müəssisəsi respublikada qabaqcıl ali təhsil müəssisəsi kimi tanınır. Burada gələcəyin ixtisaslı müəllimləri yetişdirilir. Məqalədə də məhz bu məsələlər elmi şəkildə şərh edilmişdir.

Actual problems of increasing the teacher’s professional level

Author:

Fakhriya Jafarova
Nakhchivan Teachers Institute
Doctor of philosophy in philology, associate professor
E-mail: faxriyyacafarova@gmail.com

Key word:
school, teacher, educationa ldevelopment, reforms, pedagogical professionalism

Abstract. Reforms carriedout in the education system to day set not only the improvement of the quality of education, but also the training of professional teachers as a task. In the direction of the development of education, special measures are implemented based on the orders of the President of the Azerbaijan Republic Ilham Aliyev. The “State Strategy for the Development of Education in the Azerbaijan Republic” is of great importance for quality of education in the Azerbaijan Republic. This strategy requires the development of the educational system with an infrastructure based on advanced technologies. At the same time, the issue of training competent teachers is not overlooked. In this regard, Nakhchivan Teachers’ Institute has a great role in training highly qualified teaching staff in the region. Today, this higher educational institution is known as the leading higher educational institution in the republic. Qualified teachers of the future are trained here. In the article, these issues are explained in a scientific way.

Актуальные проблемы повышения профессионального уровня учителя

Автор:

Фахрия Джафарова
Нахчыванский институт учителей
Доктор философии по филологии наук, доцент
E-mail: faxriyyacafarova@gmail.com

Ключевые слова:
школа, учитель, образовательное развитие, реформы, педагогический профессионализм

Аннотация. Реформы, проводимые в системе образования, сегодня ставят своей задачей не только повышение качества образования, но и подготовку профессиональных педагогов. В направлении развития образования на основании распоряжений президента Азербайджанской Республики Ильхама Алиева осуществляются специальные меры. «Государственная стратегия развития образования в Азербайджанской Республике» имеет большое значение для качественного образования в Азербайджанской Республике. Эта стратегия требует развития образовательной системы с инфраструктурой, основанной на передовых технологиях. При этом не упускается из виду вопрос подготовки компетентных педагогов. В связи с этим Нахчыванскому институту учителей принадлежит большая роль в подготовке высококвалифицированных педагогических кадров в регионе. Сегодня это высшее учебное заведение известно как ведущее высше еучебно езаведение республики. Здесь готовят квалифицированных учителей будущего. В стать еэти вопросы объясняются научным путем.

Bildiyimiz kimi, son illərdə təhsil sistemində ciddi islahatlar həyata keçirilir. Bu islahatların aparılmasında əsas məqsəd təhsilin keyfiyyətini artırmaqla yanaşı, müəllim hazırlığı məsələlərinin də diqqətdə saxlanılmasıdır. Çünki təhsil müəllimlə bağlıdır. Bunun səbəbi kimi Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təstiq edilmişdir.

Müəllim adını daşıyan hər bir şəxs ilk növbədə öz intellektual səviyyəsi və davranışı ilə seçilməlidir. Tarixdən öyrəndiyimiz kimi, ən qüdrətli hökmdarlar, mütəfəkkirlər özlərini müəllimlərinə borclu saymışlar. Çünki onların yuksək məqama çatmalarında müəllimlərinin əməyi danılmazdır. Demək ki, əsl müəllim olmaq üçün diplom yetərli hesab edilmir. Müəllim böyük səriştəyə, savada, ən əsası isə nüfuza malik olmalıdır.

Bütün dövrlərdə müəllim cəmiyyətin aparıcı siması olmuş, müəllim əməyinə yüksək qiymət verilmişdir. Ümummilli liderimiz Heydər Əliyev müəllimlik peşəsini həmişə yüksək qiymətləndirmiş və demişdir: "Müəllimlik çox çətin peşədir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam" [1, s.301].

S.M.Qənizadə isə müəllimi bağbana bənzədirdi. O, bəşəriyyətin inkişafını müəllimdə görürdü və yazırdı: "Müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz.

Hünərli usta dəmirdən səbr ilə misri qılınc yona bildiyi kimi, müəllim də xöşbəxt cəmiyyət hazırlayır" [2, s.3].

Bu gün ölkəmizdə təhsilin inkişafı istiqamətində böyük işlər görülür. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları əsasında xüsusi tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasında keyfiyyətli təhsil üçün "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" mühüm əhəmiyyət kəsb edir. Bu strategiya qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yardılmasını tələb edir. Eyni zamanda, səriştəli müəllimlərin də hazırlanması məsələsi diqqətdən yayınmır. Səriştəli, savadlı müəllim təhsilin təməlidir. Pedaqoji prosesin uğurlu həyata keçirilməsi müəllim əməyindən asılıdır. Peşəkar müəllim olmdan pedaqoji proses mümkün deyildir.

Qəbul edilən strategiyada deyilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında korrelyasiya mövcuddur" [3].

Demək, müəllim peşəkarlığı, səriştəliliyi müəllim peşəsini daha da nüfuzlu edir.

Bildiyimiz kimi, son illərdə təhsilin inkişafı istiqamətində təxirəsalınmaz işlər görülür. Bura məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təlim texnologiyalarının tətbiqi, eyni zamanda, müəllimlərin ixtisas və peşəkarlıq səviyyələrinin artırılması da daxil edilir. Bu günkü müəllim yeni texnologiyaları dərindən mənimsəməli, onlardan tədrisdə müvəffəqiyyətlə istifadə etməli, innovasiyaları, yenilikləri özünün fəaliyyətinə tətbiq etməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da təhsilin keyfiyyətində müəllim əməyini xüsusi qeyd edərək deyirdi: "Bu gün qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, savadlı və milli dəyərlərin daşıyıcısı olan vətənpərvər gənclər yetişdirməliyik. Muxtar respublikada mövcud təhsil infrastrukturu bu vəzifənin icrası üçün bütün əsasları yaradır. Lakin müəllim əməyi olmadan, peşəkar təhsil kollektivi formalaşdırmadan yaradılan təhsil infrastrukturu faydalı iş müstəvisinə keçirilə bilməz".

Doğrudan da, yeni təhsil infrastrukturunun əsasında müəllim əməyi dayanır. Tədris prosesinin təkmilləşdirilməsi, səmərəli qurulması, əməkdaşlıq mühitinin yaradılması, sağlam rəqabətin formalaşdırılması müəllimlərdən asılıdır. Yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması, gənc nəslin hərtərəfli inkişafı da müəllimin fəaliyyəti ilə bağlıdır.

İlk baxışda sadə görünə bilən müəllim peşəsi olduqca mürəkkəb struktura malikdir. Müəllimin obyekti canlı insan, predmeti isə insanların təhsili, tərbiyəsi və bir şəxsiyyət kimi formalaşmasıdır.

Komenski yazırdı: "Öz peşəsini, tədris etdiyi fənni sevməyən müəllim cisimsiz kölgə, yağışsız bulud, işıqsız çıraqdır. Elmini, tədris etdiyi fənni sevən, daim çalışan müəllim öz kökü üzərində bitən, öz şirəsi ilə bəslənən və buna görə də

daim artan, yaşıllaşan, çiçəklənən, bəhrə verən ağacdır. Yaxşı müəllim şagirdlərin şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır. Müəllim əməkdə və geyimdə sadəliyin, fəaliyyətində gümrahlıq və əməksevərliyin, davranışda təvazökarlıq və gözəl əxlaqın, nitqdə danışmaq və susmaq sənətinin nümunəsi, ictimai həyatda ağıllılığın örnəyi olmalıdır” [4].

Müəllim öz ixtisasını sevməklə yanaşı, onda pedaqoji peşəkarlıq da olmalıdır. Bütün bunlar müəllimin fəaliyyətində bütöv bir sistem yaratmalıdır. Müəllimin pedaqoji peşəkarlığı olmasa, savadının da əhəmiyyəti olmaz.

Müəllim bilməlidir:

-dövlətin və hökümətin təhsil haqqında qəraq və göstərişlərini;

-öz ixtisasını;

-uşaqların yaş xüsusiyyətlərini;

-uşaqların fərdi xüsusiyyətlərini;

-pedaqogika və psixologiya elmini;

-müasir texnologiyaların əsaslarını;

-fəndaxili və fənlərarası inteqrasiyanı.

Müəllim bunları bilmədən özünü bir müəllim kimi təsdiq edə bilməz. Müəllim, eyni zamanda, sinfi idarə etməyi, öyrədə bilməyi, şərh etməyi, uşaqları tərbiyə etməyi, uşaqları sevməyi də bacarmalıdır.

Müəllim bir sıra mənəvi keyfiyyətlərə də malik olmalıdır:

-müəllim obyektiv olmalıdır;

-müəllim ədalətli olmalıdır;

-müəllim tələbkar olmalıdır;

-müəllim səmimi olmalıdır.

Bu gün Muxtar Respublikamızda da təhsil özünün inkişaf dövrünü yaşayır. İstər orta məktəb, istərsə də ali məktəb təhsili istiqamətində mühüm addımlar atılır. Həm orta, həm də ali məktəblərdə yeni təlim texnologiyalarının tətbiqi təhsilin inkişafında xüüsusi əhəmiyyət kəsb edir. Bütün bunlar təhsilimizin yeni nailiyyəti kimi qiymətləndirilməlidir.

Fəaliyyət göstərdiyim Naxçıvan Müəllimlər İnstitutu bu baxımdan öz fəaliyyəti ilə seçilir. İnstitutumuz son dövrlərdə təmir edilmiş, maddi-texniki bazası möhkəmləndirilmişdir. Naxçıvan Müəllimlər İnstitutu regionda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasında böyük rola malikdir. Bu gün bu ali təhsil müəssisəsi respublikada qabaqcıl ali təhsil müəssisəsi kimi tanınır. Burada gələcəyin ixtisaslı müəllimləri yetişdirilir.

Tədrisin qarşısında duran əsas vəzifələrdən biri gələcəyin peşəkar müəllimlərinin hazırlanmasıdır. Bütün müəllimlər də məhz bu vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Ali təhsilin bakalavtiat səviyyəsində tədris edilən fənlər gələcək mütəxəssislərin peşəkar səviyyədə hazırlanmalarına imkan verir. Tələbələrin ixtisas hazırlığı ilə peşə hazırlığı vəhdət təşkil etməlidir. Çünki bunlar bir-birindən ayrılmazdır.

Bu gün təhsil sistemində baş verən dəyişikliklər müəllimin təkmilləşməsini, peşəkarlığının yüksəlməsini bir tələb kimi qarşıya qoyur. Yalnız müstəqil düşünən, öz fəaliyyətinin nəticələrini əvvəlcədən görə bilən müəllim öz məqsədinə nail ola bilər. Demək, cəmiyyət bizdən belə müəllimlət yetişdirməyi tələb edir.

Biz müəllimlər də gələcəyin peşəkar müəllimlərini hazırlamaq üçün əlimizdən gələni edirik. Onlara öz ixtisasları üzrə bilik verməklə kifayətlənmir, onların peşəkarlıq səviyyələrinin artırılması üçün də müəyyən ciddi tədbirlər həyata keçiririk. İlk növbədə təhsilalan öz ixtisasını sevməlidir. Bəzən onda öz ixtisasına maraq olmur. Bu marağın formalaşdırılmasında da biz müəllimlər böyük səy göstərməli, buna nail olmalıyıq. Öz ixtisasını sevməyən müəllimdən peşəkar müəllim ola bilməz.

Əgər biz gələcəyin peşəkar müəllimlərini hazırlamaq istəyiriksə bir sıra işlər görməli, bu məqsədimizə çatmalıyıq. Bu işləri aşağıdakı kimi ümumiləşdirmək olar :

-ilk öncə təhsil müəssisələri müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməli;

-gündəlik təhsil sistemində bu texnologiyalardan istifadə edilməli;

-tədris planlarının, proqramlarının yeniləşdirilməsi;

-Yeni təhsil texnologiyalarına əsaslana tədris planı, proqram və dərsliklərin tətbiqinə nail olmaq;

-Təhsilin praktik istiqamətlərinin gücləndirilməsi;

-Tanınmış ali məktəblərin təcrübəsinin öyrənilməsi;

-Digər ali məktəblərlə əməkdaşlığın genişləndirilməsi

Təbii ki, bütün bunlar gələcəyin peşəkar müəllimlərinin hazırlanmasında başlıca amildir. Eyni zamanda, ali məktəblərdə çalışan müəllimlərin

özlərinin peşəkarlıq səviyyəsi yüksək olmalıdır ki, bu kimi işlərin öhdəsindən gələ bilsinlər.

Onu da nəzərə almaq lazımdır ki, bu günün tələbələri gələcəyin müəllimləridir. Ona görə də onlar bu günün tələbləri səviyyəsində deyil, gələcəyin tələbləri səviyyəsində hazırlamaq lazımdır.

Tolstoy haqlı olaraq yazırdı: "Əgər müəllim yalnız işi sevirsə, o yaxşı müəllim olacaqdır. əgər müəllim şagirdi yalnız bir ata və bir ana kimi sevirsə, o bütün kitabları oxuyan, lakin nə işə, nə də şagirdə məhəbbəti olmayan müəllimdən daha yaxşı müəllim olacaqdır. Əgər müəllim sənətinə və şagirdlərə olan məhəbbətini özündə birləşdirirsə, o kamil müəllimdir" [5, s.362].

Müəllim bu gün yaşayır, amma onun gördüyü işlər gələcəyə hesablanır. Müəllim öz əməli ilə gələcək cəmiyyətin təməlini qoyur.

Respublikamızda aparılan təhsil islahatları pedaqoji innovasiyalara geniş yol açmaqla yanaşı, Avropa təhsil standartlarına uyğun gələn yeniliklər aparmağı, innovasiyaları tətbiq etməyi zəruri edir. Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin artırılması bu zəruriyyətdən irəli gələrək günümüzün prioritet vəzifələrindən birinə çevrilir. Dünyada baş verən pedaqoji yenilikləri mənimsəmək, onlardan istifadə etmək və yeniliklər yaratmaqla pedaqoji fəaliyyətin məzmununu dərinləşdirmək aktual problem olaraq təhsilimizin qarşısında durur.

Ədəbiyyat

1. Əliyev, H.Ə. Təhsil millətin gələcəyidir / H.Ə. Əliyev. - Bakı: Təhsil, - 2002
2. Qənizadə, S.M. Seçilmiş əsərləri / S.M.Qənizadə. - Bakı: 1965
3. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. – Bakı, - 2013
4 Komenski, Y.A. Böyük didaktika / Y.A.Komenski. - Bakı: Elm və təhsil, - 2012
5. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. / M.İ.İlyasov. - Bakı: Elm və təhsil, - 2018

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 226-228
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 226-228
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 226-228

UOT

Müəllim sərişdəsinin formalaşdırılmasının bəzi xüsusiyyətlərinə dair

Müəllif:

Ruhəngiz Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
aliyeva-ruhangiz@mail.ru

Açar sözlər:
özünü təhsil, müəllim sərişdəsi

Annotasiya. Elmi-texniki tərəqqi dövründə, informasiyaların sürətlə artdığı bir şəraitdə məktəb təliminə bir sıra yüksək tələblər verilir. Məktəb gənc nəsli elmi biliklərlə silahlandırmaqla yanaşı, onlara bilikləri müstəqil surətdə əldə etmək, sərbəst iş vərdişləri, zehni əmək mədəniyyəti, təfəkkür müstəqilliyi, özünütəhsil vərdişləri də aşılamalı, müstəqil əmək fəaliyyətinə daha yaxşı hazırlanmalıdır. Bu, təhsil islahatının mühüm istiqamətlərindən birini təşkil edir.

On some features of teacher competence formation

Author:

Ruhangiz Aliyeva
Nakhchivan Teachers Institute
E-mail:
aliyeva-ruhangiz@mail.ru

Key word:
self-education, teacher competence

Abstract. In the period of scientific and technical progress, in a situation where information is growing rapidly, a number of high demands are placed on school education. In addition to arming the young generation with scientific knowledge, the school should also instill in them the skills of independent acquisition of knowledge, independent work habits, intellectual work culture, independent thinking, and self-education habits and independent work. This is one of the important directions of education reform.

О некоторых особенностях формирования компетенции учителя

Автор:

Рухангиз Алиева
Нахчыванский институт учителей
E-mail:
aliyeva-ruhangiz@mail.ru

Ключевые слова:
самообразование, компетентность учителя

Аннотация. В период научно-технического прогресса, в условиях стремительного роста информации, к школьному образованию предъявляется ряд высоких требований. Помимо вооружения молодого поколения научными знаниями, школа должна также прививать ему навыки самостоятельного приобретения знаний, навыков самостоятельной работы, культуры интеллектуального труда, самостоятельного мышления, навыков самообразования и независимая работа. Это одно из важных направлений реформы образования.

Təlimdə bacarıq və vərdişlərin formalaşmasına nə kimi amillər təsir göstərir? Bu zaman hansı şərtləri gözləmək lazımdır?

Bu suallar özünütəhsil və müəllim səriştəsinin formalaşdırılması, bu işə düzgün pedaqoji rəhbərliyi həyata keçirmək baxımından həm nəzəri, həm də praktiki maraq doğurur. Müəllim hər şeydən əvvəl, bacarıq və vərdişlərin mahiyyətini yaxşı dərk etməlidir. Bacarığın əmələ gəlməsi üçün müəllim icra etdiyi fəaliyyətin məqsədini, priyomlarını və şərtlərini bilməlidir. Müəllim nəticədə nəyə nail olacağını bilməsə işi yüksək səviyyədə həyata keçirə bilməz. Ona görə də şagirdlərin özünütəhsil fəaliyyətindən əvvəl müəllim onlara hazır nümunəni nümayiş etdirməlidir.

Bacarıq həm də düzgün priyomların nəticəsində yaranır. Bacarıq yarandıqdan sonra, o, təkrarlar nəticəsində vərdişlərə çevrilir, yəni fəaliyyətin icrası qismən avtomatlaşır. Bu halda tam avtomatlaşmadan danışmaq olmaz, çünki tam formalaşmış vərdiş belə şüurun nəzarəti altında yerinə yetirilir.

Vərdişlər təlim prosesində böyük yer tutur. Onlar şagirdin təlim əməyini yüngülləşdirir, onun müstəqil yaradıcı işi üçün imkan yaradır.

Bacarıq və vərdişlər çalışmalar nəticəsində formalaşır. Çalışmaların başlıca məqsədi bacarıqları möhkəmlətmək və onları vərdiş səviyyəsinə qədər təkmilləşdirməkdir. Bacarıqlardan fərqli olaraq vərdişlərin formalaşması prosesi müəyyən xüsusiyyətləri ilə fərqlənir. Bunlara aşağıdakılar daxildir:

a) bir sıra ayrı-ayrı işlərin bütöv bir işdə birləşməsi;

b) artıq hərəkətlərin və gərginliyin aradan qaldırılması;

c) görmə nəzarətinin rolunun zəifləməsi və hərəki nəzarətin rolunun artması;

d) fəaliyyəti müxtəlif üsul və ya qaydalarla həyata keçirmək imkanı.

Tədqiqatlar əsasında vərdişlərin formalaşmasının şərtləri müəyyən edilmişdir. Birinci şərt – qarşıda duran məqsədin dəqiqliyi və onun şagirdlər tərəfindən dərk edilməsidir. Özünütəhsil prosesində də müəllim diqqətini qarşıya qoyulan məqsədə yönəltməlidir. Çünki müəllimlər bəzən bütün diqqətlərini əməliyyatların icrasına cəlb edərək, qarşıda duran məqəsdi unudurlar.

İkinci şərt – fəaliyyətin düzgün planlaşdırılmasıdır. Belə planlaşdırma əmək prosesinin aydın dərk olunmasına, işin ardıcıllığının düzgün müəyyənləşdirilməsinə imkan verir. Bu şərtin həyata keçirilməsi onları tədricən ümumi məqsədə doğru gətirirlər.

Müəllimlərə özünütəhsil səriştəsini formalaşdırmaq işi əlbəttə ki, müəllimdən pedaqoji ustalıq tələb edir. Vərdişlərin müvəffəqiyyətlə formalaşmasının üçüncü şərti – nəzarət və özünənəzarətin həyata keçirilməsidir. Nəzarət təkcə işin axırında yox, həm də işin gedişində aparılmalıdır. Nəzarətin olmaması ona gətirib çıxarır ki, özünütəhsil fəaliyyətinin icrasında müəllimin yol verdiyi səhvlər möhkəmlənir, nəticədə yanlış fəaliyyət formalaşır. Bunu nəzərə alaraq qabaqcıl müəllimlər bacarığın formalaşdırılmasının ilk anlarında özünütəhsil fəaliyyətinə diqqətlə nəzarət edir, səhvləri səbrlə düzəldirlər, yeri gələndə özünü öz fəaliyyətinə nəzarət etməyə yönəldirlər.

Vərdişlərin səmərəliliyini artıran şərtlərdən biri də - fəaliyyətin qiymətləndirilməsidir.

Müəllimin neqativ emosiyası, ruh düşkünlüyü yaradır, özünütəhsil fəaliyyətinə həvəsini azaldır. Müəllim səriştəsinin formalaşdırılması prosesi mürəkkəb proses olub, bir sıra psixi amillərlə sıx bağlıdır. Bu prosesdə psixikanın müxtəlif cəhətləri iştirak edir. Şəxsi inkişaf fəaliyyətində onun icra etdiyi işə şüurlu münasibəti, təfəkkür, hafizə və təxəyyül prosesləri, habelə iradəsi mühüm rol oynayır.

Təcrübə göstərir ki, müəllim fəaliyyətinin əlverişli emosional vəziyyəti həmin fəaliyyətin daha yaxşı getməsinə imkan yaradır. Sakit, öz qüvvəsi ilə çətinlikləri aradan qaldırması, özünütəkmilləşdirməsi, oxuduqlarını mənimsəməsi onda əqli sevinc yaradır, onun təlimə marağını daha da artırır. Təlim prosesinin müsbət emosional tonusu müəllimin uğurlu işi zamanı onda yaxşı əhval-ruhiyyə doğurur, nəticədə isə müəllim daha məhsuldar işləyir, yaradıcılığa, tədqiqatçılığa həvəs göstərir.

Özünütəhsil fəaliyyəti prosesində müəllimlər arasında fərdi fərqlər özünü göstərir. P.P. Blonski müəllimləri işləmə bacarıqlarına görə dörd qrupa bölmüşdür: "yaxşı işçi" (I tip), "adi işçi" (II tip), "qeyri-normal" tip (III tip), "pis işçi" (IV tip).

I tipə ("yaxşı işçi") şüurluluq, təşəbbüskarlıq göstərir, qarşıdakı məqsədi aydın başa düşür, sakit işləyir, çətinliklərə rast gəldikdə onları öz gücləri ilə aradan qaldırmağa çalışırlar. Öz iş fəaliyyətlərini yoxlaya bilirlər. İşin nəticəsi ilə maraqlanırlar.

II tipə (“adi işçi”) daxil olan müəllimlər sakit, inamla işləyirlər, məqsədi yaxşı başa düşürlər, müvəffəqiyyətsizlik zamanı yeni cəhdlər göstərirlər. Lakin bütün bunlarla belə xüsusi təşəbbüskarlıq göstərmirlər.

III tipə daxil olanlar (“qeyri-normal” tip) çox emosional olurlar, təlimdə çoxlu uğursuzluqları olur. Xüsus qüvvə sərf etmədən “bacarmıram” deyirlər. İlk uğursuzluq zamanı işi atırlar. Çətinlikləri ağır keçirirlər. İş zamanı başqalarından, ən çox da böyüklərdən tərif gözləyirlər.

IV tipə (“pis işçi”) daxil olanlar əsasən zəif müəllimlərdir. Onların iş manerası aşağıdakı xüsusiyyətlərə malikdir:

- tapşırığı diqqətsiz qəbul edirlər, çox vaxt isə onu başa düşmürlər, dərk etmirlər;
- passiv işləyirlər, daim stimullara ehtiyac hiss edirlər;
- öz nöqsan və çətinliklərini dərk etmirlər;
- işin ardıcıllığını, təlim əməyinin düzgün təşkilini heç də həmişə aydın təsəvvür etmirlər və s.

P.P. Blonski müəllimlərə işləmək bacarığını tərbiyə etməyin zəruriliyini göstərərək, bu zaman bir sıra cəhətlərə diqqət yetirməyin vacibliyini qeyd etmişdir. Bunlar aşağıdakılardan ibarətdir:

- tapşırıqların alınması zamanı: diqqətli olmaq, tapşırığı başa düşmək, aydın olmayan məsələləri soruşmaq;
- işin başlanğıc anında: təşəbbüskarlıq, passivliyin aradan qaldırılması, xarici təhriklər;
- iş vasitələrinin seçilməsində: məqsədin dərk edilməsi və ona cəhd göstərilməsi, əvvəlcədən tapşırığa ümumi bələdləşmə, özünənəzarət və səhvlərin dərk edilməsi;
- işə münasibət: ciddi, sakit, tələsmədən və əsəbləşmədən işləmək, çətinlikləri aradan qaldırmaqda təkid göstərmək, işin bir priyomundan daha səmərəli priyomuna keçmək bacarığı;
- işin nəticəsinə münasibət: icranı yoxlamaq, daha yaxşı nəticə almağa cəhd etmək [1, s. 219].

Qeyd olunan bu cəhətlər müəllimdə səriştə aşılamaqda, onları səmərəli iş üsulları ilə silahlandırmaqda, fəaliyyətdə düzgün pedaqoji rəhbərliyi həyata keçirməkdə böyük əhəmiyyət kəsb edir.

Təlim məsələləri içərisində zehni məsələlər mühüm yer tutur. Hər cür fikri fəaliyyət müəyyən zehni məsələnin həlli ilə bağlıdır: “insan nəyi isə anlamağa tələbat duyan zaman düşünməyə başlayır” (S.L. Rubinşteyn). Belə tələbat, adətən zehni məsələlərlə, yeni suallarla bağlı olur: şagird qoyulmuş sual və problemə cavab axtarır, müstəqil mülahizələr yürüdür, nəticələr çıxarır.

Zehni məsələlərin əsasında müəyyən ziddiyyətlər durur. Ziddiyyətlərin yaranması şagirdlərin əqli işinə təkan verir, “təfəkkürün işə salınması, fakt və hadisələrə müstəqil yanaşmanın başlanğıcını göstərən siqnal” rolunu oynayır [1, s.132].

Bir şeyi də nəzərdən qaçırmaq olmaz ki, müəllim fəaliyyətinin nəticəsi mütləq pedaqoji rəhbərlik tərəfindən dəyərləndirilməlidir. Bu, həm müəllimə, həm də onun digər müəllim yoldaşlarına motivasiya verəcəkdir.

Ədəbiyyat

1. Айзенберг А.Я. Самообразование: история, теория и современные проблемы./ А.Я. Айзенберг. Москва: – 1986, – 126 с.
2. Ананьев Б.Г. Человек, как предмет познания. / Б.Г. Ананьев. Ленинград: – 1968, – 339.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 229-234
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 229-234
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 229-234

UOT

Fizikadan VI sinif şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsində virtual laboratoriya işlərinin rolu

Müəlliflər:

Sevinc Cəlilova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail:
sevinjjalilova@yahoo.com

Gülşən Musayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail:
gulsen.musayeva.75@mail.**ru**

Açar sözlər:
fizika,virtual, laboratoriya işləri, layihə, animasiya, təcrübə

Annotasiya. Müasir təhsil sisteminin təşkili nəticəsində şagirdlər şəxsiyyət kimi formalaşır, azad düşüncə sahibi, sərbəst qərar verə bilən, özünə güvəni olan, həmçinin həyatda ona lazım olan bacarıqlara, vərdişlərə, ünsiyyət qura bilən və ən əsası sağlam düşüncəyə sahib olan bir gənc nəsil formalaşır. Məqalədə VI sinif fizika dərsliyində verilmiş olan layihələrdən başqa çoxsaylı əlavə layihələr (virtual laboratoriya və nümayiş təcrübələri) təklif edilmişdir. Tədqiqat işində ümumtəhsil məktəblərinin VI sinif fizika dərsliyində olmayan yeni layihələr verilmişdir. Təklif olunmuş təcrübələr müəllimlərin işini asan¬laşdıra, şagirdlərin isə nəzərdə tutulmuş mövzunu daha dərindən başa düşməsinə kömək edə bilər. Sonda VI sinifdə təklif olunan virtual laboratoriya işləri və nümayiş təcrübələrinin sistemini hazırladıq.

The role of virtual laboratory work in the development of knowledge and skills of VI grade students in physics

Authors:

Sevinj Jalilova
Azerbaijan State Pedagogy University
Doctor of philosophy in pedagogy, associate professor
E-mail:
sevinjjalilova@yahoo.com

Gulshan Musayeva
Azerbaijan State Pedagogy University
E-mail:
gulsen.musayeva.75@mail.**ru**

Key word:
physics, virtual, laboratory work, project, animation, experience

Abstract. It forms the structure of the modern education system as a correct personality, it forms a young generation that has a free mind, can make decisions, has confidence, and also has the skills, habits, communication skills it needs in life and, most importantly, common sense. The article includes laboratory additional projects (virtual and experiments) in addition to the projects given in class VI physics classes. In the research work, new projects that are not included in the sixth grade physics class of secondary schools are given. The suggested practices can make the work of teachers easier, helping them to gain a deeper understanding of the subject being taught. In the end, we developed a system of virtual laboratory works and experiments offered in the VI class.

Роль виртуальной лабораторной работы в развитии знания, умения и навыков по физике учащихся VI класса

Авторы:

Севиндж Джалилова
Азербайджанский государственный педагогический университет
Доктор философии по педагогике, доцент
E-mail:
sevinjjalilova@yahoo.com

Гюльшен Мусаева
Азербайджанский государственный педагогический университет
E-mail:
gulsen.musayeva.75@mail.**ru**

Ключевые слова:
физика, виртуальная, лабораторная работа, проект, анимация, эксперимент

Аннотация. В результате организации современной системы образования ученики формируются как личность, формируется подрастающее поколение, обладающее свободным мышлением, способное свободно принимать решения, уверенностью в себе, а также навыками, привычками, умением общаться и, главное, здравым смыслом, которые необходимы ему в жизни. В статье были предложены многочисленные дополнительные проекты (виртуальная лаборатория и демонстрационные эксперименты), помимо тех, которые даны в учебнике физики VI класса. В исследовательской работе приведены новые проекты, отсутствующие в учебнике физики VI класса общеобразовательных школ. Предлагаемый опыт может облегчить работу учителей и помочь учащимся глубже понять рассматриваемый предмет. В заключение мы разработали систему виртуальных лабораторных работ и демонстрационных экспериментов, предлагаемых в VI классе.

2008-ci ildən etibarən ölkəmizin ümumtəhsil məktəblərində dərslər tədris kurikulumlar əsasında təşkil edilir. Müasir təhsil sisteminin təşkili nəticəsində şagirdlər şəxsiyyət kimi formalaşır, azad düşüncə sahibi, sərbəst qərar verə bilən, özünə güvəni olan, həmçinin həyatda ona lazım olan bacarıqlara, vərdişlərə, ünsiyyət qura bilən və ən əsası sağlam düşüncəyə sahib olan bir gənc nəsil formalaşır [1].

VI sinif fizika dərsliyi müasir təlim standartlarına əsasında hazırlanmışdır. Bu kitabda şagirdlərin, keçirilən dərsi daha dərindən mənimsəməsi üçün çoxsaylı layihələr təklif olunmuşdur. Araşdırmamız VI sinif fizika kursu üzrə şagirdlərdə tədqiqatçılıq bacarıqlarının aşılanması ilə əlaqəli olduğu üçün, biz də məhz biz bu mövzuya aid praktik lahiyələrdən istifadə etmək qərarına gəldik.

Məqaləmizin aktuallığı ondan ibarətdir ki, VI sinif fizika dərsliyində verilmiş olan layihələrdən başqa çoxsaylı əlavə lahiyələr (virtual laboratoriya və nümayiş təcrübələri) təklif edilmişdir [1].

Tədqiqat işində ümumtəhsil məktəblərinin VI sinif fizika dərsliyində olmayan yeni layihələr verilmişdir. Təklif olunmuş təcrübələr müəllimlərin işini asanlaşdıra, şagirdlərin isə nəzərdə tutulmuş mövzunu daha dərindən başa düşməsinə kömək edə bilər. Bildiyimiz kimi müasir dövrün tələblərindən biri də, şagirdlərin fəal olması, bilikləri praktikada tətbiq etməsi və bunlar kimi bir çox bacarıqların formalaşmasıdır. Müəllimlər və şagirdlər mövcud dərslikdəki layihələrin bir çoxunu yerinə yetirməkdə çətinlik çəkir. Çünki, lazım olan ləvazimatların çoxu məktəbdə olmur və yaxud onları təşkil etmək müəyyən qədər maddi vəsait tələb edir. Bizim təklif etdiyimiz virtual təcrübə və nümayişlərin tətbiqi onlara nisbətən daha asandır. İstər məktəbdə aparılması, istərsə də evdə yerinə yetirilməsi nəzərdə tutulan layihələr (virtual təcrübə və nümayişlər) asanlıqla yerinə yetirilə bilir və dərsin mahiyyətini başa düşməyə imkan yaradır.

Tədqiqatın nəzəri əhəmiyyəti VI sinifdə fizikadan tədris vahidləri üzrə virtual təcrübə və nümayişlər sistemini yaratmaqdan ibarətdir [2]. Müasir dövrdə müəllimlərin əsas vəzifələrindən biri məntiqi, tənqidi düşüncə bacarıqlarını inkişaf etdirmiş şagirdlər yetişdirmək durur. Bunun üçün isə şagird üçün münbit bir təhsil mühiti yaradılmalıdır: kitabxana təcrübəsi, kommunikasiya texnologiyaları (İKT) olan bir mühit.

Tədqiqatlar göstərir ki, son illərdə fizika fənninə olan maraq xeyli azalmışdır. Bəlkə də buna səbəb, öyrəndiyi elmi məlumatı və texnologiyanı anlamayan, lazımi bacarıqlara sahib olmayan, real həyatın tələblərinə cavab verməyən müəllimlərin olmasıdır. Yeni fənn (fizika) kurikulumları üçün elə müəllim arzu olunur ki, öyrənilən biliyin gündəlik həyatla əlaqəsini qura bilsin və ya texnologiya vasitələrində yenilik edə bilsin, nəzəriyyə ilə təcrübə arasında tarazlıq yarada bilsin. Müasir fizika dərslikləri şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına imkan yaradır.

VI sinif üçün "Fizika" dərslik komplekti Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmışdır. Dərslik təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə dərslik komplekti böyük imkan yaradır. Bu baxımdan şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, müstəqil surətdə təcrübələr aparır, bunun üçün onlara fəal təlim şəraiti yaradılır. Şagirdlərin fərdi marağı nəzərə alınmaqla onlarda zəruri həyati bacarıqların formalaşdırılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə imkan yaradılır, təlimə maraq artırılır.

Fizika fənni üzrə VI sinif dərsliyi şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün, sadədən mürəkkəbə doğru inkişafın, fənnin tədrisində yeni texnologiya və kommunikasiya vasitələrinin tətbiq olunması bacarıqlarının inkişafını ön plana çəkir. Bu da şagirdlərdə texnikaya olan marağını daha da artırır.

Dərslik şagirdlərdə tədqiqatçılıq bacarığı, müstəqil fikirlərini ümumləşdirərək təqdimatlar etmək, qanunauyğunluqlara əsasən proqnoz vermək, referatlar hazırlamaq, təbiətdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarığı formalaşdırır [3].

Dərslik komplektində fizika fənni üzrə təhsil proqramında (kurikulumunda) nəzərdə tutulmuş bütün məzmun standartları reallaşdırılmış, faktların dəqiqliyi, əyaniliyi, müasirliyi, qrammatik qaydaların gözlənilməsi ön plana çəkilmişdir. Təlim materiallarında sadədən-mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Dərslikdə öz əksini tapmış təlim materiallarının yaş səviyyəsinə

uyğun, sadə dildə verilməsinə çalışılmışdır.

Təlim layihələri: Təlim layihəsi şagirdlərin birgə yerinə yetirdiyi öyrədici və yaradıcı fəaliyyətdir. Layihələr şagird tərəfindən sərbəst, yaxud müəllimin nəzarəti ilə yerinə yetirilir. Layihə şagirdlərin təlim fəaliyyətini praktik məsələlərin həllinə tətbiq etməyə imkan verir, onlarda əməkdaşlıq və birgə fəaliyyət bacarıqlarını formalaşdırır, təlim prosesini şagird üçün fəal və mənalı edir. Təlim layihələrinin müxtəlif növləri vardır.

Dominant fəaliyyət növünə görə layihələr məlumatlandırıcı, yaxud tədqiqedici olur. Davamlılığına görə qısamüddətli (bir və ya iki dərs) və uzunmüddətli (bir ay və daha çox) olur.

İştirakçıların sayına görə layihələr fərdi, qrup, kollektiv və ya qarışıq (işin müxtəlif mərhələlərində həm qrup, həm də fərdi iş planlaşdırılır) ola bilər.

Məlumatlandırıcı layihə obyekt və ya hadisə haqqında məlumatın toplanmasına, təhlilinə, ümumiləşdirilməsinə və təqdim edilməsinə yönəlmişdir. Məlumatlandırıcı layihənin əsas məqsədi məhz məlumatın axtarışı, emalı və təqdim edilməsi bacarıqlarının formalaşdırılmasıdır. Bu səbəbdən də yaxşı olar ki, məlumatlandırıcı layihələrin hazırlanmasında bu və ya digər dərəcədə bütün şagirdlər iştirak etsinlər. Müəyyən şərtlər daxilində məlumatlandırıcı layihə tədqiqat layihəsinə çevrilə bilər.

Tədqiqat layihəsi tədqiqatın predmetinin və tədqiqat metodlarının dəqiq müəyyən edilməsini nəzərdə tutur. Bu növ layihələr elmi tədqiqat işinə bənzərdir: mövzunun əsaslandırılması, tədqiqat probleminin müəyyənləşdirilməsi, fərziyyənin irəli sürülməsi, məlumat mənbəyinin və problemin həlli üsullarının təyin edilməsi, alınan nəticələrin ümumiləşdirilməsi və müzakirəsi. Tədqiqat layihələri, adətən, uzunmüddətli olur və nəticələri böyük bir bölmənin və ya kursun sonunda təqdim edilir.

VI sinif fizika kursunda “Fizika nəyi öyrənir”, “Materiya” və “Maddə və onun xassələri” tədris vahidlərinin hər birinin tədrisinə 8 saat, “Qarşılıqlı təsirlər və hərəkət” tədris vahidinin tədrisinə 10 saat vaxt ayrılmışdır. Tədris vahidləri üzrə mövzular aşağıdakı şəkildə müəyyənləşdirilmişdir [1].

Tədris vahidləri.	**Mövzular.**
1. Fizika nəyi öyrənir.	1. Fizika hansı hadisələri öyrənir? 2. Fizika təbiət hadisələrini nə üçün öyrənir? 3. Fizikada öyrənmə metodları 4. Fiziki kəmiyyətlər və onların ölçülməsi 5. Ölçü cihazları 6. Ölçmələrdə dəqiqlik
2. Materiya	7. Materiya: maddə və fiziki sahə 8. Maddə və cisim 9. Əlaqəli sistemlər. Atom. Atom nüvəsi 10. Molekul 11. Maddənin aqreqat halları
3. Maddə və onun xassələri.	12. Diffuziya 13. Maddələrin istidən genişlənməsi 14. Maddənin ölçülə bilən xassələri: həcm və onun ölçülməsi 15. Kütlə və onun ölçülməsi 16. Maddənin sıxlığı və onun təyin edilməsi 17. Temperatur və onun ölçülməsi

4. Qarşılıqlı təsirlər və hərəkət.	18. Qarşılıqlı təsirlər. Toxunma ilə baş verən təsirlər 19. Qravitasiya qarşılıqlı təsiri – Günəş sistemi 20. Elektrik qarşılıqlı təsiri 21. Maqnit qarşılıqlı təsiri 22. Mexaniki hərəkət 23. Maddənin daşınmsaı və istilik hərəkəti 24. Elektrik yükünün hərəkəti: elektrik cərəyanı 25. Enerji

Müəllim qeyd olunan hadisələrə aid virtual təcrübə və nümayişlərdən istifadə edərək onları şagirdlərə izah etməlidir. Məsələn, beşinci dərs “Ölçü cihazları” mövzusuna aid təlimdə şagirdlər bir sıra ölçü cihazları ilə (saniyəölçən, xətkeş, ruletka, menzurka, termometr və s.) tanış edilir (şəkil 1). Sonra “Ştangenpərgər” və “Mikrometr” animasiyaları vasitəsilə cisimlərin ölçülərinin necə təyin edilməsi izah edilir (şəkil 1). “Ölçmədə dəqiqlik” mövzusunun tədrisində isə şagirdlərə bir sıra cihazların (xətkeş, saniyəölçən, termometr və s.) cihazların bir bölgüsünün və onların xətasının necə təyin olunması öyrədilir.



Şəkil 1

“Materiya” tədris vahidinin birinci mövzusunun tədrisində şagirdlər materiya və onun iki növü: maddə və fiziki sahə anlayışları ilə tanış edilir. Müəllim ilk öncə fizikada təcrübə və müşahidələrin rolunu və əhəmiyyətini qeyd edir. Şagirdlər qarşısında belə bir sual qoyulur: cisimlər bütövdürmü və



Şəkil 3.

onları əmələ gətirən hissəciklər necə düzülmüşdür [9].

Sonra müəllim maddəni əmələ gətirən hissəciklərin ölçüləri haqqında nə söyləyə bilərsiniz sorğusunu aparır. Şagirdlərin mülahizələri dinlənilir, sonra isə atom və molekul modelinə aid animasiyalar nümayiş etdirilərək, şagirdlərin düşüncələri formalaşdırılır.



Şəkil 2

Əvvəlcə hidrogen və oksigen atomları, sonra isə bu atomların birləşərək molekulların əmələ gətirməsi nümayiş etdirilir. Daha sonra isə hirogen və oksigen atomlarının birləşərək su molekulun

əmələ gətirməsi nümayiş etdirilir. “Atom modelləri” adlı animasısı nümayiş etdirilir və bunun əsasında şagirdlərə izah olunur ki, atom nüvədən və onun ətrafında hərəkət edən elektronlardan ibarət bir sistemdir.

“Maddə və onun xassələri” tədris vahidinin birinci “Diffuziya” mövzusunun tədrisində şagirdlər diffuziyanın baş vermə mexanizmi və onun sürətinin hansı kəmiyyətlərdən asılı olması ilə tanış olurlar və onlara animasiya təqdim olunur.



“Elektrik hərəkəti. Elektrik cərəyanı” mövzusuna aid təlimdə şagirdlər yüklü zərrəciklərin nizamlı hərəkəti elekrtik cərəyanı ilə tanış edilir. Qeyd edilir ki, elekrtik cərəyanı müəyyən istiqamətə nizamlanmış hərəkətdir.Maddələr elektrik cərəyanı keçirmə xassəsinə görə fərqlənirlər və onlar belə bir animasiya ilə tanış olurlar.

Mövzular üzrə animasiyalar sistemi

Tədqiqat mövzusuna uyğun olaraq VI sinif fizika kursunda maddənin quruluşuna aid mövzuların tədrisində istifadə edilən animasiyalar sistemi aşağıdakı cədvəldə verilmişdir.

VI SİNİF	
TƏDRIS VAHIDI	**1. Fizika nəyi öyrənir.**
Mövzular	**Animasiyalar:**
1.Ölçü cihazları 2.Ölçmələrdə dəqiqlik	1.1. Ştangerpərgər https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_posuvka&l=en 1.2.Mikrometr www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_posuvka&l=enhttps:
TƏDRİS VAHİDİ	**2. MATERİYA**
Mövzular	**Animasiyalar:**
1. Əlaqəli sistemlər. Atom, Atom nüvəsi	1. 1. Atomların qarşılıqlı təsiri https://phet.colorado.edu/sims/html/atomic- interactions/latest/atomic-interactions-420.png https://www.walterfendt.de/html5/phru/bohrmodel_ru.htm https://phet.colorado.edu/sims/html/atomic-interactions/latest/ atomic-interactions-420.png
3. Maddənin aqreqat halları	3.1. Maddənin aqreqat halı https://phet.colorado.edu/sims/html/states-of-matter-basics/latest/states-of-matter-basics-420.png 3.2. Suyun aqreqat halı https://www.vascak.cz/data/android/physicsatschool/physics/mf_voda.png 3.3. Qaz https://phet.colorado.edu/sims/html/gas- properties/latest/gas-properties-420.png
VI SİNİF	
TƏDRİS VAHİDİ	**3. MADDƏ VƏ ONUN XASSƏLƏRİ**
Mövzular	**Animasiyalar:**
1.Diffuziya	1.1. Diffuziya https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_difuze&l=en https://phet.colorado.edu/sims/html/diffusion/latest/diffusion-420.png1.

2. Maddənin ölçülə bilən xassələri: həcm və onun ölçülməsi	2.1. Mikrometr https://www.vascak.cz/data/android/physicsatschool/physics/mech_mikrometr.png
4. Temperatur və onun ölçülməsi	4.1. Temperaturun ölçülməsi https://www.vascak.cz/data/android/physicsatschool/physics/mf_teplotni_stupnice.png 4.2. Temperatur şkalaları. https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_teplotni_stupnice&l=en
TƏDRİS VAHİDİ	**4. Qarşılıqlı təsirlər və hərəkət**
Mövzular	**Animasiyalar:**
1. Qarşılıqlı təsirlər. Toxunma ilə baş verən təsirlər.	1. https://phet.colorado.edu/en/simulations/forces-and-motion-basics
2. Qravitasiya qarşılıqlı təsiri-Günəş sistemi	1.https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_soustavy&l=ru
3. Elektrik qarşılıqlı təsiri	1. https://phet.colorado.edu/sims/html/balloons-and-static-electricity/latest/balloons-and-static-electricity-420.png
5. Mexaniki hərəkət	1.www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kolo&l=ru
6. İstilik hərəkəti	1. https://phet.colorado.edu/sims/html/energy-forms-and-changes/latest/energy-forms-and-changes-420.png
7. Elektrik hərəkəti: elektrik cərəyanı	https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=ele_uir&l=ru

Nəticə

Apardığımız tədqiqat aşağıdakı nəticələri almağa imkan verdi:

1. Metodiki, dərs və elmi-kütləvi ədəbiyyatları təhlil edərək şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsində virtual laboratoriya işləri və nümayiş təcrübələrinin mühüm rol oynadığını müəyyən etdik;

2.VI sinifdə təklif olunan virtual laboratoriya işləri və nümayiş təcrübələrinin sistemini hazırladıq.

Ədəbiyyat

1. Murquzov, M.İ. Fizika-6. Dərslik. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev. – Bakı: Bakınəşr, – 2013. – 96 s.
2. Murquzov, M.İ. Fizika-6, Müəllimlər üçün metodik vəsait. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev, Ə.Ə.Gərayev. – Bakı: Bakınəşr, – 2017. – 96 s.
3. Ванклив, С. Занимательные опыты по физике Активная ссылка на источник «Класс!ная физика» обязательна: http://class-fizika.ru/op11-5.html
4. Горев, Л.А. Занимательные опыты по физике в 6-7 классах. Пособие для учителей. – М.: Просвещение, – 1977. – 152 с.
5. Физика в школе – HTML5 (Физика. Анимации / Симуляции). https://www.vascak.cz/physicsanimations.php=ru, 2021.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 235-238
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 235-238
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 235-238

UOT

Ali təhsil müəssisələrinin idarəedilməsində müasir çağırışlar

Müəllif:

Röya Qarayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Fəlsəfə doktoru proqramı üzrə doktorantı
Bakı Slavyan Universiteti
E-mail: roya888@hotmail.com

Açar sözlər:
ali təhsil müəssisələri, effektiv idarəetmə, bilik və bacarıqlar, təşkilatlanma

Annotasiya. Hər bir təhsil müəssisəsinin, akademik qurumun əsas vəzifələrindən biri əldə edilən, eləcə də yeni yaradılan məlumat və bilikləri bir yerdə toplayaraq, onları cəmiyyət arasında yaymaqdır. Əldə edilmiş məlumatlar müxtəlif formalarda və mənbələrdə təqdim edilir. Kitablar, jurnal məqalələri, avtoreferatlar və ya dissertasiyalar, hesabatlar, nümunələr və s. təhsil müəssisəsi tərəfindən cəmiyyətin bilik bankına yeniliklər qazandırır. Məqalədə müasir geosiyasi, iqtisadi və sosial şəraitdə səmərəli idarəetmə və ya idarəetmədə doğru təşkilatlanma yollarını müəyyən etmək və effektiv idarəetmə modeli tədqiq etmək üçün ali təhsil sistemlərinin müasirləşmə potensialı və inkişaf vektorunu müəyyən edən xarici və daxili xüsusiyyətlər araşdırılmışdır. Tədqiqat universitet bölməsinin üzvləri arasında əlaqələrin yaradılması, məlumat ötürülməsi və bilik mübadiləsini müəyyən etmək və anlamaq məqsədi daşıyır. Tədqiqatın nəticələrinə əsasən, ali təhsil müəssisələrinin daxilində qarşılıqlı əlaqəni və bilik mübadiləsini asanlaşdırmağa yönəlmiş biliklərin idarə edilməsi üçün yeni islahatlar təklif olunur.

Modern challenges in the management of higher education institutions

Author:

Roya Garayeva
Doctoral student in the Ph.D. program of Institute of Education of the Republic of Azerbaijan
Teacher of Baku Slavic University
E-mail: roya888@hotmail.com

Key word:
higher education institutions, effective management, knowledge and skills, organizing

Abstract. Each educational or academic institution contributes to education. One of the main tasks of educational institutions is the dissemination in society of the received, as well as newly created information and knowledge. The information received is presented in various forms and sources. The educational institution makes a new contribution to the knowledge bank of society through books, journal articles, abstracts or dissertations, reports, case studies, etc. If an educational institution cannot ensure the availability of this information and knowledge, then, unfortunately, all this remains simply unused literature. Every educational institution, especially a higher educational institution, is in itself a great treasure trove of knowledge. In the absence of proper organization and management, the importance of this wealth of knowledge is not properly disclosed. This does not give grounds for repeating activities or improving their effectiveness. The article discusses the external and internal features that determine the potential for modernization and the vector of development of higher education systems in order to determine the correct organizational paths in effective management or management in modern geopolitical, economic and social conditions and study the model of effective management. The study aims to identify and understand relationship building, information transfer, and knowledge sharing among university members. As a result of the study, new knowledge management reforms are proposed to facilitate interaction and knowledge sharing within higher education institutions.

Современные вызовы в управлении высшими учебными заведениями

Автор:

Роя Гараева
докторант по программе доктора философии
Институт Образования Азербайджанской Республики
преподаватель Бакинского Славянского Университета
E-mail: roya888@hotmail.com

Ключевые слова:
высшие учебные заведения, эффективное управление, знания и навыки, организация

Аннотация. Каждое учебное заведение, академическое учреждение вносит свой вклад в образование. Одной из основных задач образовательных учреждений является распространение в обществе полученной, а также вновь созданной информации и знаний. Полученная информация представляется в различных формах и источниках. Образовательное учреждение вносит новый вклад в банк знаний общества посредством книг, журнальных статей, рефератов или диссертаций, отчетов, тематических исследований и т. д. В статье рассмотрены внешние и внутренние особенности, определяющие потенциал модернизации и вектор развития систем высшего образования с целью определения правильных организационных путей в эффективном управлении или управлении в современных геополитических, экономических и социальных условиях и изучения модели эффективного управления. Исследование направлено на выявление и понимание создания отношений, передачи информации и обмена знаниями между членами университета. По результатам исследования предлагаются новые реформы управления знаниями, направленные на облегчение взаимодействия и обмена знаниями внутри высших учебных заведений.

Giriş: Ali təhsil sistemi pedaqoji cəhətdən əhalinin intellektual kapitalının formalaşmasının çoxölçülü strukturudur. Ali təhsil həmçinin sosial, siyasi və təhsil sisteminin mühüm elementi kimi ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı üçün zəruri şərtdir.

XX əsrin sonlarından başlayaraq, ali təhsil müəssisələrinin yeni təhsil tələblərinə və artan rəqabətlə xarakterizə olunan qlobal bazar tendensiyalarına uyğunlaşdırılmasının ən effektiv formulunun axtarışına başlanılmışdır. Bu istiqamətdə müxtəlif akademik idarəetmə modellərinin, eləcə də dövlət siyasətlərinin təkmilləşdirilməsi ilə bağlı təhlillər aparılmışdır.

Ali təhsil müəssisəsində biliklərin idarə edilməsi məntiqə əsaslanmalıdır və bu proses, texnologiyanın istifadəsi ilə yaxşı qurulmuş akademik təşkilatlılığın və intellektual məhsulun qarışığının nəticəsi olmalıdır [1]. Biliklərin idarə edilməsi akademik mühitdə yeni bir sahədir. Hazırda müasir şəraitdə bir çox beynəlxalq səviyyəli konfrans və seminarlar biliklərin idarə edilməsi ilə bağlı təşkil edilir. Bu sahəyə ehtiyac təcrübələrin bölüşdürülməsi vasitəsi ilə təhsil müəssisələrində mövcud olan intellektual gücün aşkara çıxarılması, tədqiq edilməsi səbəbindən yaranmışdır.

Bu gün ali təhsil müəssisələrinin qarşısında duran ən vacib problem - ən son texnologiyalardan istifadə etməklə tələbələrin, o cümlədən onların imkan və bacarıqlarının bilik bazasını yaratmaqdır. Bu baza tələbələrə öz qabiliyyətlərini, istedadlarını, daha əvvəlki bilik və təcrübələrini kəşf etməyə və öz üzərində işləməyə kömək edəcəkdir. Bununla onlar mövcud mühitin öhdəsindən gəlmək üçün həmin biliklərini daha effektiv və daha asan yolla genişləndirərək uyğunlaşdıra biləcəklər. Bu bilik bazası tələbələr üçün komanda qurmaq, yenilikçi olmaq və problem həll edə bilməklə yanaşı, özünü motivasiya edən, özünün potensialının fərqində olan, öz bilik və bacarıqlarından daha səmərəli istifadə edən menecer kimi formalaşmaqda da faydalı ola bilər [2].

Ali təhsil müəssisələrində islahatların aparılması bir sıra məsələlərlə bağlıdır, məsələn, fundamental dəyərlərin qorunub saxlanılması ehtiyacı, təhsilin bütövlüyü, ali təhsil ənənələrinin qorunması, sosial-mədəni mühitin yaradılmasında bu təhsil müəssisələrinin əvəzedilməz və fəal rolu və s. Belə ki, qlobal səviyyədə texnologiyanın inkişafı, geniş vüsət almış şəbəkələşmə prosesi, əmək bazarının sürətlə dəyişən ehtiyacları ali təhsil müəssisələrindən cari vəziyyətə uyğunlaşmaq, rəqabətə davamlı və müasir standartlara cavab verən şəxslər formalaşdırmaq üçün təcili və vacib tədbirlər görməyi tələb edir.

Düzgün idarəetmənin istiqamətləri

Ali təhsil müəssisəsinin idarə olunması özlüyündə mürəkkəb, əziyyətli və dinamik prosesdir. İdarəetmə orqanları, akademik bölmələr, tənzimləyici və idarəetməyə dəstək bölmələri ali təhsil müəssisələrinin ən yaxşı şəkildə idarəsi üçün qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər. İnstitusional rəhbərlik və idarəetmənin uyğunluğu ali təhsil müəssisələrinin effektiv və səmərəli fəaliyyətinə mütləq təkan verir. Təhsil və tədqiqatın keyfiyyətinin və səmərəliliyinin artırılması, ən yaxşı pedaqoji heyətin və tədqiqatçıların müəssisə ətrafında toplanılması, yeni kurikulumların hazırlanması, xərclərin effektivliyinin artırılması, eləcə də hər yerdə və istənilən vaxt tələbə gözləntilərinin qarşılanması üçün bacarıqların ağıllı idarə edilməsi həyati əhəmiyyət kəsb edir.

Kontekst, strategiya və idarəetmə arasında uyğun əlaqəni təmin etmək son dərəcə çətindir, çünki kontekst tez dəyişir, bu, hətta bəzən təhsil müəssisələrinin öz idarəetmə mexanizmlərini və idarəetmə dəstəyini dəyişməsindən də daha tez dəyişir. Bu əlaqə xarici maraqlı tərəflərin ali təhsil müəssisələrinə təsiri ilə daha da mürəkkəbləşir. Ali təhsil müəssisələri dinamik fəaliyyət göstərmək məcburiyyətində olduqları üçün bu işdə maraqlı çoxsaylı tərəflərlə qarşılıqlı əlaqədə olur. Bu o deməkdir ki, ali təhsil müəssisələri öz strategiyalarını həyata keçirməkdə və milli səviyyədə və beynəlxalq platformada fəaliyyət göstərməkdə çox vaxt gərginlik və məhdudiyyətlərlə üzləşirlər. Ali təhsil müəssisələrində milli və beynəlxalq yüksək nəticələrin əldə edilməsi bir sıra sahələr üzrə siyasət çərçivələrinin əlaqələndirilməsini və uyğun şəkildə tənzimlənməsini tələb edir.

Bununla belə, təhsil sistemi öz inkişafının indiki mərhələsində öyrənənin, yəni tələbənin təkcə biliklə silahlanmasına diqqət yetirmir, həm də yenilik əldə etmək üçün onda daimi müstəqil və yaradıcı yanaşma düşüncəsini inkişaf etdirir. Davamlı özünü inkişaf etdirmək – pedaqoji prosesdə əsas vəzifəyə çevrilir.

Hələ XIX əsrin birinci yarısında alman pedaqoqu İohan Fridrix Herbart “subyekt-obyekt” təhsil paradiqmasını təklif etmişdi və bu paradiqmada tədrisin məqsədləri, vəzifələri, məzmunu, prinsipləri, forma və metodları müəllim tərə-

findən müəyyən edilirdi [3]. Tələbə isə sadəcə biliyin "qəbuledicisi" rolunu oynayaraq passiv funksiyanı yerinə yetirirdi. Lakin XX əsrin ilk yarısında amerikalı pedaqoq Con Dyui "subyekt-obyekt" təhsil paradiqmasından fəqrli olan "subyekt-subyekt" paradiqmasına keçidi təklif etdi [4]. Burada əsas məsələ ondan ibarət idi ki, bu paradiqma tələbənin özünü diqqət mərkəzində saxlayaraq, onun arzu və istəklərini nəzərə alacaq, artıq tələbə öz fəaliyyət vektorunu, nəyi öyrənmək istədiyini özü seçəcəkdi. Bu yeni təhsil paradiqması çox müzakirələrə səbəb olsa da, ziddiyətli fikirlər səslənsə də daha sonralar Avropada da geniş istifadə edilməyə başlamışdı. Hətta Tələbələrin artıq ali təhsil cəmiyyətində tamhüquqlu üzv olmaları ideyası 21ci əsrdə, 2001-ci ildə Avropa Nazirlər Toplantısının Praqa görüşündə də müzakirə edilmişdir [5].

Hazırda hər bir fərddən peşəkar bilik və bacarıqlarla yanaşı, bütün pedaqoji təhsil sisteminin strukturunda, məzmununda və təşkilati formasında keyfiyyət dəyişikliyi üçün zəruri olan mənəvi mədəniyyət də tələb olunur. Əgər ənənəvi təhsil sistemində öyrənənin bilik və bacarıqları keyfiyyət dəyişikliklərinə məruz qalırdısa, yeni humanist təhsil sistemi ilk növbədə öyrənənin özünə təsir etməlidir. Beləliklə də, "mütəxəssis" terminin mənası "rəqabət qabiliyyətli mütəxəssis" anlayışı ilə dəyişdirilir. Bir müddət əvvəl bu ifadə müəyyən bilik və bacarıqlar toplusuna malik bir insanı ifadə edirdi, indi isə, davamlı müasir ritmdə bilik və bacarıqlarını inkişaf etdirməyi və yeniləməyi bacaran bir insanı ehtiva edir. Bu baxımdan da əsas hədəf olan öyrənən, müəyyən intellektual şəxsi keyfiyyətlərə və yüksək mədəni səviyyəyə malik olmalıdır [6].

Hazırda dünya təhsil sistemi öyrənənlərdə tədqiqatçılıq, müstəqillik, mühakimə və müzakirədə sərbəstlik, özünü tənzimləmək bacarığı, özünüdərketmə və kommunikativlik kimi keyfiyyətləri inkişaf etdirməyə yönəldilmişdir. Məhz bu amillər peşəkar mütəxəssisin əsas xüsisiyyətlərini təşkil edir [7].

Ali təhsil müəssisəsi açıq bilik mərkəzinə, regional mədəniyyət platformasına və elmi tədqiqatlar üçün texniki cəhətdən mükəmməl zəminə çevrilməlidir. Hökumət və cəmiyyət dərk etməlidir ki, üçüncü minilliyin peşəkar mütəxəssislərini lazımi qaydada hazırlayan məhz elə ali təhsil müəssisələri olacaqdır [8].

Bu cür modernləşdirmə təhsil sahəsində ümumi peşə və xüsusi fənlərin məzmununda müəyyən dəyişikliklərə səbəb olur. Elmdə müasir nailiyyətlərin əldə edilməsi - əsas təlim sahələri üzrə mütəxəssislər üçün cari tələbatların nəzərə alınaraq çağdaş informasiya texnologiyalarının tətbiqinə əsaslanan yeni təlim metodlarının tətbiqi ilə daha çox mümkündür. Belə ki, tədris prosesinin elmi-metodiki əsaslarının inkişafı heç də az əhəmiyyət kəsb etmir. Buna görə də ali təhsil müəssisələrində islahatların aparılmasının vacibliyini aşağıda göstərilənlərlə nəzərə çatdırmaq olar:

- Müasir ali təhsil müəssisələrdə təhsil prosesi rəqəmsallaşdırılmaya doğru yönəlib. Ali təhsil müəssisələri müasir texnoloji inkişafla ayaqlaşması, hazırlanan kardların əmək bazarında rəqabətədavamlı olması üçün tədrisin rəqəmsallaşdırılmasına investisiyalar etməlidir;
- Çeviklik və məsafədən (distant) öyrənmə uzun müddət davamı ehtimal edilən cari tendensiyadır və bu təcrübənin daha da təkmilləşdirilməsinə diqqət yetirilməlidir;
- Müasir ali təhsil müəssisələri tez dəyişən təlimatlara, çağdaş qaydalara, təhlükəsizlik tələblərinə və maliyyə yardımı imkanlarına uyğunlaşan olmalıdır;
- Müasir ali təhsil müəssisələri üçün uzunömürlülük və dözümlülük o zaman mümkündür ki, yaxşı məlumatlar ona ehtiyacı olan və ya ondan asılı olan hər kəs üçün əlçatan olsun. Bu, əlçatanlıq tələbələr, işçilər, müəllimlər, məzunlar və ailələr üçün şəffaf, məhsuldar mühit yaratmaq deməkdir;
- Müasir ali təhsil müəssisələri xüsusilə də düzgün auditoriyaya hədəflənən media və marketinq səylərini özündə cəmləşdirməlidir. Tələbələrin ən fəal olduğu rəqəmsal kanallar üzrə təbliğatda çevik təmsilçi rolunu oynamalıdır.

Qlobal dünyamızda, müasir texnoloji dəyişikliklər sürətli şəraitində şəxsi inkişaf olmadan peşəkar yüksəliş mümkün deyil, bu da şəxsiyyətin mənəvi inkişafına əsaslanır [9]. Ali təhsil müəssisələrinin verdiyi təhsil də dünya təhsil standartlarının da mərkəzində dayanan gələcək mütəxəssislərin mənəvi inkişafı üçün tələblərini qarşılamalıdır. Bunun üçün də elmin ali təhsil sisteminə inteqrasiya mexanizmi üzərində yenidən islahatlar aparılmasına və bu islahatların həyata keçirilməsi üçün lazimi tədbirlərin görülməsinə ehtiyac vardır. Nəticədə "akademik institutların, elmi-tədqiqat institutlarının və universi-

tetlərin tədricən birləşməsi” baş verməlidir. Eyni zamanda, yuxarıda adı çəkilən qurumlar inteqrasiya prosesində tələbələrin biliklərini əhəmiyyətli dərəcədə dərinləşdirəcək və onları aktual elmi problemlərin həllinə yönəldəcək, gənc nəslin istedadlarını kəşf etməyə, özlərinə uyğun iş tapmağa kömək edəcək qarşılıqlı əlaqə və əməkdaşlıq sistemi ilə təmin edilməlidir [10].

Problemin aktuallığı: Müasir dövrdə cəmiyyətin bütün üzvləri üçün ali təhsilin əlçatanlığının, ömürboyu təhsilin təmin edilməsi xüsusi aktuallıq kəsb edir. Qloballaşan dünyada ali təhsil müəssilərində islahatlar həyata keçirmək üçün bu sahədə aparılmış tədqiqatların nəticələrinin təhlili, beynəlxalq təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi: Cəmiyyətin ən böyük bilik xəzinələrindən biri olan ali təhsil müəssisələrində təşkilatlanma və idarəedilmə beynəlxalq təcrübəyə istinad edilməklə ətraflı şəkildə araşdırılmış və müasir tələblər müəyyən edilmişdir.

Problemin praktik əhəmiyyəti: Dayanmadan dəyişən və inkişaf edən dünyada ali təhsil müəssisələrinin düzgün idarəetmə sisteminin qurulması və bilik bankının əlçatanlığının səmərəli təşkili üçün bu məqalə faydalı olacaqdır.

Ədəbiyyat

1. Duffy, J. (2000). The KM technology infrastructure./ J. Duffy, Information Management Journal
2. Rashtriya Uchchatar Shiksha Abhiyan- Hindistan Hökuməti tərəfindən 2013-cü ildə başlanmış Hindistanda ali təhsil üçün vahid inkişaf sxemi.
3. Chow, W. & Chan, L. (2008). Social network, social trust and shared goals in organizational knowledge sharing. / W. Chow, &, L. Chan. – Information and management.
4. Dewey, J. (1970). School and society
5. MINISTERIAL CONFERENCE PRAGUE – 2001, Prague Communiqué http://www.ehea.info/page-ministerial-conference-prague, –2001.
6. Gibb, A A. (2005). Towards the entrepreneurial university. Entrepreneurship Education as alever of change.
7. Prospects: the quarterly review of comparative education (Paris, UNESCO: International Bureau of Education), vol. XXIII, no. 3/4, –1993, p. 649-664.
8. The “smooth way” of integrating Russian universities into the Bologna process (2005). General editor A. Ju. Mel’vil’. Moskow: – Olma Press.
9. Professional and Personal Undergraduates’ Development in the Educational Process from the Perspective of Competency-Based Approach, S.Agafanova, N.Bryukhova, B. Kaigorodov. – (2015)
10. Morozkin, N.D. & Morozkin, Y.N. (2009), The ways of increasing the level of effectiveness of Higher Educational Science, / N.D. Morozkin & Y.N. Morozkin. – Russian: Academy.
11. Avesson, M. and Sveningsson S. (2003) The great disappearing act: M. Avesson, and S. Sveningsson. difficulties in doing leadership, The Leadership Quarterly.
12. Distributed Leadership in Organizations: A Review of Theory and Search. Dr. Richard Bolden, International Journal of Management Reviews, – 2011.
13. Frazer, M. (1994) Quality in higher education: an international perspective, in: Green, D. (ed), What is quality in higher education? Open University Press, Buckingham
14. Graham, G. (2005) The Institution of Intellectual Values: / G. Graham, Realism and Idealism in Higher Education. Exeter: Imprint Academic.
15. Total quality managment in higher education: Modeling critical success factors. TAMBI, Abdul Malek, Sheffield Hallam University Research, –2017.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 239-244
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 239-244
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 239-244

UOT

Xətti tənliklərin məchullarının ardıcıl yox edilməsi üsulu ilə həlli

Müəlliflər:

Turqay Bağırov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: turqaybagirov3@gmail.com

Şəhla Bağırova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: sehlamehdyeva@gmail.com

Açar sözlər:
xətti tənliklər sistemində tənlikləri əvəzetmə, Kramer qaydası, Qaus üsulu, xətti tənliklərin Rezultantının tapılması

Annotasiya. Əsas diqqət xətti tənliklərin məchullarının ardıcıl yox edilməsi üsulu ilə həllinə yönəlib. Burada xətti tənliklər sistemində tənlikləri əvəzetmə, Kramer qaydası, Qaus üsulu və xətti tənliklərin Rezultantının tapılması yolu ilə həllərinə baxılmışdır. Xətti tənliklər sistemində tənliklərin və dəyişənlərin sayı çoxaldıqca onları əvəzetmə, Kramer və digər sadə üsullarla həll etmək çətinləşir. Bu xətti tənliklərin Qaussun baş elementin seçilməsi və məçhulların ardıcıl yox edilməsinin sadə yollarla həllinin mümkünlüyünü göstərir. Bu zaman sadə elementar çevrilmələrdən (Ortaq vuruğu mötərizə xaricinə çıxarmaqla, əvəzetmə ilə) istifadə olunmuşdur ki, bunlar da xətti tənliklərin məchullarının hesablanması gedişində əmsalların xüsusi axtarış aparmadan tapılmasına imkan verir və iki müxtəlif çoxhədlinin əmələ gətirdiyi xətti tənliyin məchullarından ibarət determinantın sıfıra bərabər olmasından alınan nəticələr xətti tənliklər sistemindəki məchulların ala biləcəyi mümkün qiymətlərdir. Ona görədə məçhulların ardıcıl yox edilməsi üsulu ilə xətti cəbri tənliklərin həll edilməsi aktual məsələlərdən biridir.

Solving linear equations by successive elimination of unknowns

Authors:

Turgay Bagirov
Nakhchivan Teachers Institute
E-mail: turqaybagirov3@gmail.com

Shahla Bagirova
Nakhchivan Teachers Institute
E-mail: sehlamehdyeva@gmail.com

Key word:
substitution of equations in a system of linear equations, Cramer's rule, Gauss method, finding the resultant of linear equations

Abstract. The main focus is on solving linear equations by successive elimination of unknowns. Solving linear equations by substituting equations, Kramer's rule, Gauss's method, and finding the result of linear equations are considered here. As the number of equations and variables in a system of linear equations increases, it becomes more difficult to solve them by substitution, Kramer, and other simple methods. It shows the possibility of solving linear equations by simple methods of Gaussian selection of the principal element and successive elimination of unknowns. At this time, simple elementary transformations were used (by removing and replacing the common denominator in parentheses), which allowed to find the coefficients and the line of the results during the calculation of the unknowns of the linear equations without conducting a special search. are the possible values that the unknowns in the system of equations taken from the zero of the determinant of the unknowns of the linear equation formed by two different polynomials. Therefore, the solution of linear algebraic equations by the method of successive elimination of unknowns is one of the urgent issues.

К решению линейных уравнений методом последовательного исключения неизвестных

Авторы:

Тургай Багиров
Нахчыванский институт учителей
E-mail: turqaybagirov3@gmail.com

Шахла Багирова
Нахчыванский институт учителей
E-mail: sehlamehdyeva@gmail.com

Ключевые слова:
подстановка уравнений в систему линейных уравнений, правило Крамера, метод Гаусса, нахождение равнодействующей линейных уравнений

Аннотация. Основное внимание уделяется решению линейных уравнений методом последовательного исключения неизвестных. Здесь рассмотрены решения уравнений в системе линейных уравнений путем подстановки, правила Крамера, метода Гаусса и нахождения результата линейных уравнений. По мере того, как количество уравнений и переменных в системе линейных уравнений увеличивается, становится все труднее решать их с помощью подстановок, Крамера и других простых методов. Это показывает возможность решения линейных уравнений простыми способами путем выбора главного элемента Гаусса и последовательного исключения решателей. При этом использовались простые элементарные преобразования (с вычитанием общего умножения за скобки, с подстановкой), которые позволяют находить коэффициенты в процессе вычисления решений линейных уравнений без специального поиска, а выводы из определения равенства нулю определителя, состоящего из членов линейного уравнения, образованного двумя различными многочленами, являются возможными значениями, которые могут принимать решения в системе линейных уравнений. Поэтому решение линейных алгебраических уравнений методом последовательного исключения решений является одной из актуальных задач.

2008-ci ildən etibarən ölkəmizin ümumtəhsil məktəblərində dərslər tədris kurikulumlar əsasında təşkil edilir. Müasir təhsil sisteminin təşkili nəticəsində şagirdlər şəxsiyyət kimi formalaşır, azad düşüncə sahibi, sərbəst qərar verə bilən, özünə güvəni olan, həmçinin həyatda ona lazım olan bacarıqlara, vərdişlərə, ünsiyyət qura bilən və ən əsası sağlam düşüncəyə sahib olan bir gənc nəsil formalaşır [1].

VI sinif fizika dərsliyi müasir təlim standartlarına əsasında hazırlanmışdır. Bu kitabda şagirdlərin, keçirilən dərsi daha dərindən mənimsəməsi üçün çoxsaylı layihələr təklif olunmuşdur. Araşdırmamız VI sinif fizika kursu üzrə şagirdlərdə tədqiqatçılıq bacarıqlarının aşılanması ilə əlaqəli olduğu üçün, biz də məhz biz bu mövzuya aid praktik lahiyələrdən istifadə etmək qərarına gəldik.

Məqaləmizin aktuallığı ondan ibarətdir ki, VI sinif fizika dərsliyində verilmiş olan layihələrdən başqa çoxsaylı əlavə lahiyələr (virtual laboratoriya və nümayiş təcrübələri) təklif edilmişdir [1].

Tədqiqat işində ümumtəhsil məktəblərinin VI sinif fizika dərsliyində olmayan yeni layihələr verilmişdir. Təklif olunmuş təcrübələr müəllimlərin işini asanlaşdıra, şagirdlərin isə nəzərdə tutulmuş mövzunu daha dərindən başa düşməsinə kömək edə bilər. Bildiyimiz kimi müasir dövrün tələblərindən biri də, şagirdlərin fəal olması, bilikləri praktikada tətbiq etməsi və bunlar kimi bir çox bacarıqların formalaşmasıdır. Müəllimlər və şagirdlər mövcud dərslikdəki layihələrin bir çoxunu yerinə yetirməkdə çətinlik çəkir. Çünki, lazım olan ləvazimatların çoxu məktəbdə olmur və yaxud onları təşkil etmək müəyyən qədər maddi vəsait tələb edir. Bizim təklif etdiyimiz virtual təcrübə və nümayişlərin tətbiqi onlara nisbətən daha asandır. İstər məktəbdə aparılması, istərsə də evdə yerinə yetirilməsi nəzərdə tutulan layihələr (virtual təcrübə və nümayişlər) asanlıqla yerinə yetirilə bilir və dərsin mahiyyətini başa düşməyə imkan yaradır.

Tədqiqatın nəzəri əhəmiyyəti VI sinifdə fizikadan tədris vahidləri üzrə virtual təcrübə və nümayişlər sistemini yaratmaqdan ibarətdir [2]. Müasir dövrdə müəllimlərin əsas vəzifələrindən biri məntiqi, tənqidi düşüncə bacarıqlarını inkişaf etdirmiş şagirdlər yetişdirmək durur. Bunun üçün isə şagird üçün münbit bir təhsil mühiti yaradılmalıdır: kitabxana təcrübəsi, kommunikasiya texnologiyaları (İKT) olan bir mühit.

Tədqiqatlar göstərir ki, son illərdə fizika fənninə olan maraq xeyli azalmışdır. Bəlkə də buna səbəb, öyrəndiyi elmi məlumatı və texnologiyanı anlamayan, lazımi bacarıqlara sahib olmayan, real həyatın tələblərinə cavab verməyən müəllimlərin olmasıdır. Yeni fənn (fizika) kurikulumları üçün elə müəllim arzu olunur ki, öyrənilən biliyin gündəlik həyatla əlaqəsini qura bilsin və ya texnologiya vasitələrində yenilik edə bilsin, nəzəriyyə ilə təcrübə arasında tarazlıq yarada bilsin. Müasir fizika dərslikləri şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına imkan yaradır.

VI sinif üçün "Fizika" dərslik komplekti Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmışdır. Dərslik təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə dərslik komplekti böyük imkan yaradır. Bu baxımdan şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, müstəqil surətdə təcrübələr aparır, bunun üçün onlara fəal təlim şəraiti yaradılır. Şagirdlərin fərdi marağı nəzərə alınmaqla onlarda zəruri həyati bacarıqların formalaşdırılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə imkan yaradılır, təlimə maraq artırılır.

Fizika fənni üzrə VI sinif dərsliyi şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün, sadədən mürəkkəbə doğru inkişafın, fənnin tədrisində yeni texnologiya və kommunikasiya vasitələrinin tətbiq olunması bacarıqlarının inkişafını ön plana çəkir. Bu da şagirdlərdə texnikaya olan marağını daha da artırır.

Dərslik şagirdlərdə tədqiqatçılıq bacarığı, müstəqil fikirlərini ümumləşdirərək təqdimatlar etmək, qanunauyğunluqlara əsasən proqnoz vermək, referatlar hazırlamaq, təbiətdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarığı formalaşdırır [3].

Dərslik komplektində fizika fənni üzrə təhsil proqramında (kurikulumunda) nəzərdə tutulmuş bütün məzmun standartları reallaşdırılmış, faktların dəqiqliyi, əyaniliyi, müasirliyi, qrammatik qaydaların gözlənilməsi ön plana çəkilmişdir. Təlim materiallarında sadədən-mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Dərslikdə öz əksini tapmış təlim materiallarının yaş səviyyəsinə

uyğun, sadə dildə verilməsinə çalışılmışdır.

Təlim layihələri: Təlim layihəsi şagirdlərin birgə yerinə yetirdiyi öyrədici və yaradıcı fəaliyyətdir. Layihələr şagird tərəfindən sərbəst, yaxud müəllimin nəzarəti ilə yerinə yetirilir. Layihə şagirdlərin təlim fəaliyyətini praktik məsələlərin həllinə tətbiq etməyə imkan verir, onlarda əməkdaşlıq və birgə fəaliyyət bacarıqlarını formalaşdırır, təlim prosesini şagird üçün fəal və mənalı edir. Təlim layihələrinin müxtəlif növləri vardır.

Dominant fəaliyyət növünə görə layihələr məlumatlandırıcı, yaxud tədqiqedici olur. Davamlılığına görə qısamüddətli (bir və ya iki dərs) və uzunmüddətli (bir ay və daha çox) olur.

İştirakçıların sayına görə layihələr fərdi, qrup, kollektiv və ya qarışıq (işin müxtəlif mərhələlərində həm qrup, həm də fərdi iş planlaşdırılır) ola bilər.

Məlumatlandırıcı layihə obyekt və ya hadisə haqqında məlumatın toplanmasına, təhlilinə, ümumiləşdirilməsinə və təqdim edilməsinə yönəlmişdir. Məlumatlandırıcı layihənin əsas məqsədi məhz məlumatın axtarışı, emalı və təqdim edilməsi bacarıqlarının formalaşdırılmasıdır. Bu səbəbdən də yaxşı olar ki, məlumatlandırıcı layihələrin hazırlanmasında bu və ya digər dərəcədə bütün şagirdlər iştirak etsinlər. Müəyyən şərtlər daxilində məlumatlandırıcı layihə tədqiqat layihəsinə çevrilə bilər.

Tədqiqat layihəsi tədqiqatın predmetinin və tədqiqat metodlarının dəqiq müəyyən edilməsini nəzərdə tutur. Bu növ layihələr elmi tədqiqat işinə bənzərdir: mövzunun əsaslandırılması, tədqiqat probleminin müəyyənləşdirilməsi, fərziyyənin irəli sürülməsi, məlumat mənbəyinin və problemin həlli üsullarının təyin edilməsi, alınan nəticələrin ümumiləşdirilməsi və müzakirəsi. Tədqiqat layihələri, adətən, uzunmüddətli olur və nəticələri böyük bir bölmənin və ya kursun sonunda təqdim edilir.

VI sinif fizika kursunda “Fizika nəyi öyrənir”, “Materiya” və “Maddə və onun xassələri” tədris vahidlərinin hər birinin tədrisinə 8 saat, “Qarşılıqlı təsirlər və hərəkət” tədris vahidinin tədrisinə 10 saat vaxt ayrılmışdır. Tədris vahidləri üzrə mövzular aşağıdakı şəkildə müəyyənləşdirilmişdir [1].

Tədris vahidləri.	**Mövzular.**
1. Fizika nəyi öyrənir.	1. Fizika hansı hadisələri öyrənir? 2. Fizika təbiət hadisələrini nə üçün öyrənir? 3. Fizikada öyrənmə metodları 4. Fiziki kəmiyyətlər və onların ölçülməsi 5. Ölçü cihazları 6. Ölçmələrdə dəqiqlik
2. Materiya	7. Materiya: maddə və fiziki sahə 8. Maddə və cisim 9. Əlaqəli sistemlər. Atom. Atom nüvəsi 10. Molekul 11. Maddənin aqreqat halları
3. Maddə və onun xassələri.	12. Diffuziya 13. Maddələrin istidən genişlənməsi 14. Maddənin ölçülə bilən xassələri: həcm və onun ölçülməsi 15. Kütlə və onun ölçülməsi 16. Maddənin sıxlığı və onun təyin edilməsi 17. Temperatur və onun ölçülməsi

4. Qarşılıqlı təsirlər və hərəkət.	18. Qarşılıqlı təsirlər. Toxunma ilə baş verən təsirlər 19. Qravitasiya qarşılıqlı təsiri – Günəş sistemi 20. Elektrik qarşılıqlı təsiri 21. Maqnit qarşılıqlı təsiri 22. Mexaniki hərəkət 23. Maddənin daşınmsaı və istilik hərəkəti 24. Elektrik yükünün hərəkəti: elektrik cərəyanı 25. Enerji

Müəllim qeyd olunan hadisələrə aid virtual təcrübə və nümayişlərdən istifadə edərək onları şagirdlərə izah etməlidir. Məsələn, beşinci dərs “Ölçü cihazları” mövzusuna aid təlimdə şagirdlər bir sıra ölçü cihazları ilə (saniyəölçən, xətkeş, ruletka, menzurka, termometr və s.) tanış edilir (şəkil 1). Sonra “Ştangenpərgər” və “Mikrometr” animasiyaları vasitəsilə cisimlərin ölçülərinin necə təyin edilməsi izah edilir (şəkil 1). “Ölçmədə dəqiqlik” mövzusunun tədrisində isə şagirdlərə bir sıra cihazların (xətkeş, saniyəölçən, termometr və s.) cihazların bir bölgüsünün və onların xətasının necə təyin olunması öyrədilir.



Şəkil 1

“Materiya” tədris vahidinin birinci mövzusunun tədrisində şagirdlər materiya və onun iki növü: maddə və fiziki sahə anlayışları ilə tanış edilir. Müəllim ilk öncə fizikada təcrübə və müşahidələrin rolunu və əhəmiyyətini qeyd edir. Şagirdlər qarşısında belə bir sual qoyulur: cisimlər bütövdürmü və



Şəkil 3.

onları əmələ gətirən hissəciklər necə düzülmüşdür [9].

Sonra müəllim maddəni əmələ gətirən hissəciklərin ölçüləri haqqında nə söyləyə bilərsiniz sorğusunu aparır. Şagirdlərin mülahizələri dinlənilir, sonra isə atom və molekul modelinə aid animasiyalar nümayiş etdirilərək, şagirdlərin düşüncələri formalaşdırılır.



Şəkil 2

Əvvəlcə hidrogen və oksigen atomları, sonra isə bu atomların birləşərək molekulların əmələ gətirməsi nümayiş etdirilir. Daha sonra isə hirogen və oksigen atomlarının birləşərək su molekulun

əmələ gətirməsi nümayiş etdirilir. “Atom modelləri” adlı animasısı nümayiş etdirilir və bunun əsasında şagirdlərə izah olunur ki, atom nüvədən və onun ətrafında hərəkət edən elektronlardan ibarət bir sistemdir.

“Maddə və onun xassələri” tədris vahidinin birinci “Diffuziya” mövzusunun tədrisində şagirdlər diffuziyanın baş vermə mexanizmi və onun sürətinin hansı kəmiyyətlərdən asılı olması ilə tanış olurlar və onlara animasiya təqdim olunur.



“Elektrik hərəkəti. Elektrik cərəyanı” mövzusuna aid təlimdə şagirdlər yüklü zərrəciklərin nizamlı hərəkəti elekrtik cərəyanı ilə tanış edilir. Qeyd edilir ki, elekrtik cərəyanı müəyyən istiqamətə nizamlanmış hərəkətdir.Maddələr elektrik cərəyanı keçirmə xassəsinə görə fərqlənirlər və onlar belə bir animasiya ilə tanış olurlar.

Mövzular üzrə animasiyalar sistemi

Tədqiqat mövzusuna uyğun olaraq VI sinif fizika kursunda maddənin quruluşuna aid mövzuların tədrisində istifadə edilən animasiyalar sistemi aşağıdakı cədvəldə verilmişdir.

VI SİNİF	
TƏDRIS VAHIDI	**1. Fizika nəyi öyrənir.**
Mövzular	**Animasiyalar:**
1.Ölçü cihazları 2.Ölçmələrdə dəqiqlik	1.1. Ştangerpərgər https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_posuvka&l=en 1.2.Mikrometr www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_posuvka&l=enhttps:
TƏDRİS VAHİDİ	**2. MATERİYA**
Mövzular	**Animasiyalar:**
1. Əlaqəli sistemlər. Atom, Atom nüvəsi	1. 1. Atomların qarşılıqlı təsiri https://phet.colorado.edu/sims/html/atomic- interactions/latest/atomic-interactions-420.png https://www.walterfendt.de/html5/phru/bohrmodel_ru.htm https://phet.colorado.edu/sims/html/atomic-interactions/latest/ atomic-interactions-420.png
3. Maddənin aqreqat halları	3.1. Maddənin aqreqat halı https://phet.colorado.edu/sims/html/states-of-matter-basics/latest/states-of-matter-basics-420.png 3.2. Suyun aqreqat halı https://www.vascak.cz/data/android/physicsatschool/physics/mf_voda.png 3.3. Qaz https://phet.colorado.edu/sims/html/gas- properties/latest/gas-properties-420.png
VI SİNİF	
TƏDRİS VAHİDİ	**3. MADDƏ VƏ ONUN XASSƏLƏRİ**
Mövzular	**Animasiyalar:**
1.Diffuziya	1.1. Diffuziya https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_difuze&l=en https://phet.colorado.edu/sims/html/diffusion/latest/diffusion-420.png1.

2. Maddənin ölçülə bilən xassələri: həcm və onun ölçülməsi	2.1. Mikrometr https://www.vascak.cz/data/android/physicsatschool/physics/mech_mikrometr.png
4. Temperatur və onun ölçülməsi	4.1. Temperaturun ölçülməsi https://www.vascak.cz/data/android/physicsatschool/physics/mf_teplotni_stupnice.png 4.2. Temperatur şkalaları. https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mf_teplotni_stupnice&l=en
TƏDRİS VAHİDİ	**4. Qarşılıqlı təsirlər və hərəkət**
Mövzular	**Animasiyalar:**
1. Qarşılıqlı təsirlər. Toxunma ilə baş verən təsirlər.	1. https://phet.colorado.edu/en/simulations/forces-and-motion-basics
2. Qravitasiya qarşılıqlı təsiri-Günəş sistemi	1.https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=gp_soustavy&l=ru
3. Elektrik qarşılıqlı təsiri	1. https://phet.colorado.edu/sims/html/balloons-and-static-electricity/latest/balloons-and-static-electricity-420.png
5. Mexaniki hərəkət	1.www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_kolo&l=ru
6. İstilik hərəkəti	1. https://phet.colorado.edu/sims/html/energy-forms-and-changes/latest/energy-forms-and-changes-420.png
7. Elektrik hərəkəti: elektrik cərəyanı	https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=ele_uir&l=ru

Nəticə

Apardığımız tədqiqat aşağıdakı nəticələri almağa imkan verdi:

1. Metodiki, dərs və elmi-kütləvi ədəbiyyatları təhlil edərək şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsində virtual laboratoriya işləri və nümayiş təcrübələrinin mühüm rol oynadığını müəyyən etdik;

2.VI sinifdə təklif olunan virtual laboratoriya işləri və nümayiş təcrübələrinin sistemini hazırladıq.

Ədəbiyyat

1. Murquzov, M.İ. Fizika-6. Dərslik. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev. – Bakı: Bakınəşr, – 2013. – 96 s.
2. Murquzov, M.İ. Fizika-6, Müəllimlər üçün metodik vəsait. / M.İ.Murquzov, R.R.Abdurazaqov, R.M.Əliyev, Ə.Ə.Gərayev. – Bakı: Bakınəşr, – 2017. – 96 s.
3. Ванклив, С. Занимательные опыты по физике Активная ссылка на источник «Класс!ная физика» обязательна: http://class-fizika.ru/op11-5.html
4. Горев, Л.А. Занимательные опыты по физике в 6-7 классах. Пособие для учителей. – М.: Просвещение, – 1977. – 152 с.
5. Физика в школе – HTML5 (Физика. Анимации / Симуляции). https://www.vascak.cz/physicsanimations.php=ru, 2021.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 245-251
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 245-251
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с 245-251.

UOT

Azərbaycan tarixi üzrə mühazirə və seminarların düzgün təşkilinin tələbələrin idrak fəallığının yüksəldilməsində rolu

Müəllif:

Turanə İsmayılova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı
E-mail: turanaismayilova1122@gmail.com

Açar sözlər:
Azərbaycan tarixinin tədrisi, ali məktəb, müəllim hazırlığı, mühazirə, seminar, idrak fəallığı, innovativ təlim texnologiyaları

Annotasiya. Məqalədə Ali məktəblərdə müəllim hazırlığında Azərbaycan tarixinin tədrisində idrak fəallığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən mühazirə və seminarların düzgün təşkilinin rolu təhlil edilir. Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində idrak fəallığının inkişaf etdirilməsi müəllimdən mühazirə və seminarların təşkilində düzgün innovativ təlim texnologiyalarından istifadəni tələb kimi qarşıya qoyur. Məqalədə mövzunun məzmununun, tədris metodları və üsullarının, tədrisinin təşkili formalarının idrak fəaliyyətinin formalaşması vasitələri sisteminə daxil olduğu qeyd olunur. Ali məktəblərdə müəllim hazırlığında Azərbaycan tarixinin tədrisində idrak fəallığının yüksəldilməsində interaktiv mühazirə metodlarının rolu vurğulanır. Seminar və mühazirələrin təşkili zamanı düzgün qurulmuş təlim prosesində tələbələrin idrak fəallığının inkişafının təmin edilməsi, təlimin səmərəliliyinin artırılması və optimallaşdırılması vurğulanır. Ali təhsilin bakalavr pilləsində tədrisin yeni təlim texnologiyaları vasitəsilə öyrədilməsinin zəruriliyi diqqətə çatdırılır. Araşdırmalardan aydın olur ki, mühazirə və seminarların innovativ təlim texnologiyalarından istifadə ilə səmərəli təşkili, tələbələrin təfəkkür proseslərinin inkişafı üçün çox geniş imkanlar açır.

The role of proper organization of lectures and seminars in raising cognitive activity in the teaching of Azerbaijani history in teacher training in higher schools

Author:

Turana Ismayilova
Doctoral student of the İnstitute of education of the Republic of Azerbaijan
E-mail: turanaismayilova1122@gmail.com

Key word:
teaching the history of Azerbaijan, higher school, teacher training, lecture, seminar, cognitive activity, innovative learning technologies

Abstract. The article analyzes the role of organizing lectures and seminars, which are important in increasing cognitive activity in teaching the history of Azerbaijan in the preparation of teachers in higher education. The development of cognitive activity when teaching the history of Azerbaijan at a higher school requires the teacher to correctly use innovative learning technologies when organizing lectures and seminars. In the article, it is noted that the content of the subject, methods and methods of teaching, forms of organization of teaching students are included in the system of means of formation of cognitive activity. The role of interactive lecture methods in increasing cognitive activity in teaching the history of Azerbaijan in the preparation of teachers in higher education is emphasized. When organizing seminars and lectures, emphasis is placed on ensuring the development of cognitive activity of students in a properly structured learning process, increasing and optimizing the effectiveness of training. The necessity of teaching teaching at the bachelor's level of higher education with the help of new teaching technologies is emphasized. It is clear from the research that the effective organization of lectures and seminars using innovative learning technologies opens wide opportunities for the development of students' mental processes.

Роль правильной организации лекций и семинаров по Истории Азербайджана в повышении познавательной активности студентов

Автор:

Турана Исмаилова
Докторант Института образования Азербайджанской Республики
Преподаватель
E-mail: turanaismayilova1122@gmail.com

Ключевые слова:
преподавание истории Азербайджана, высшая школа, подготовка учителей, лекция, семинар, познавательная активность, инновационные технологии обучения

Аннотация. В статье анализируется роль правильной организации лекций и семинаров, имеющих важное значение для повышения познавательной активности в преподавании истории Азербайджана при подготовке учителей в высших учебных заведениях. Развитие познавательной активности в преподавании истории Азербайджана в высших учебных заведениях ставит перед преподавателем требование использования правильных инновационных технологий обучения в организации лекций и семинаров. В статье отмечается, что содержание предмета, методы и приемы обучения, формы организации его обучения входят в систему средств формирования познавательной деятельности. Подчеркивается роль интерактивных лекционных методов в повышении познавательной активности в преподавании истории Азербайджана при подготовке учителей в высших учебных заведениях. В правильно построенном процессе обучения при организации семинаров и лекций делается упор на обеспечение развития познавательной активности учащихся, повышение эффективности и оптимизации обучения. На уровне бакалавриата высшего образования подчеркивается необходимость обучения с помощью новых технологий обучения. Из исследований видно, что эффективная организация лекций и семинаров с использованием инновационных технологий обучения открывает очень широкие возможности для развития мыслительных процессов учащихся.

Cəmiyyətin ahəngdar inkişafında, onun intelektual potensialının inkişaf edib formalaşdırı-lmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində ali təhsilin rolu müstəsnadır. Ali təhsil həm də mahiyyət baxımından özündən əvvəlki pillələrdə təhsilin səviyyəsinin və dövlət standartlarının müasir tələblərə uyğunlaşdırılmasına zəmin yaradan etibarlı mənbə kimi meydana çıxır. Təhsil sahəsi üçün müəllim kadrlarının hazırlanmasının, pedaqoji sahədə elmi tədqiqatların aparılmasının bütün ağırlığı ali təhsilin çiyinləri üzərinə düşür. Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatları ali təhsil pilləsi üçün də yeni tədris resurslarının hazırlanmasını, yeni təlim texnologiyalarının metodlarının tətbiqini gözləyir. Qloballaşan dünydada innovativ təlim təmin edilmədən təhsilalanları dövrün standartlarına uyğun bilik və bacarıqlara yiyələndirmək, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan demokratik düşüncəli vətəndaşlar yetişdirmək qeyri-mümkündür. Tədqiqatlar göstərir ki, müasir dövrdə dünyanın əksər ölkələrində müəllimlik peşəsinin nüfuzunun artırılması istiqamətində ciddi səylər göstərilir. 1998-ci ildən etibarən Azərbaycan təhsil sistemində intensiv şəkildə səmərəli islahatlar həyata keçirilməkdədir. Dövlətimiz informasiya əsrinin nəticələrindən öz təhsil sistemini təkmilləşdirmək üçün, öz təhsilalanlarının mənafeyi üçün istifadə etməlidir. Ənənəvi üsullar yararsız deyil. Lakin onlar müasir tələbələrin tələb və ehtiyaclarını ödəmək üçün yeganə üsul kimi kifayət etmir. Məsələ heç də sistemin qırılmasında və ya qırılmamasında deyildir. Əsas məsələ təhsil sisteminin Azərbaycanın yeni nəslinin tələblərinə cavab verməsi ilə bağlıdır [1, s.27].

Bu gün Azərbaycanda demokrotik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sürətlə inkişaf edir. Respublikamızın inkişafının yeni bir mərhələsində formalaşmaqda olan müasir Azər-baycan gəncliyini biliklər sistemi ilə təmin etmək, onlarda geniş şəbəkəli, ahəngdar baxışları inkişaf etdirmək nə qədər önəmlidirsə, cəmiyyətin təməlini gücləndirmək məqsədi ilə mənəvi yönümdə kamil, hərtərəfli şəxsiyyətlər formalaşdırmaq bir o qədər vacib bir məsələdir. Məhz bu baxımdan ali təhsil müəssisələrində təhsil alan gənc nəsil bu inkişafın mərkəzində dayanır.

Elmi-pedaqoji tədqiqatların nəticələri təsdiq edir ki, şəxsiyyətyönlü yanaşma müasir dövrdə təhsilalanın inkişafını stimullaşdıran düzgün yanaşma kimi mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətyönlü yanaşma modelinə görə, təhsilalanların emosional, sosial və idraki inkişafına eyni dərəcədə diqqət yetirilir. Bu yanaşma təhsilalanın təkcə dərs prosesində, təlim aldığı məqamlarda deyil, həm də gələcəkdə yaxşı nəticələr əldə etməsinə imkan yaradır. Məhz şəxsiyyətyönlü yanaşmanın nəticəsində təhsilalanlar, ilk növbədə təşəbbüskar olur, özünəinamlı, yaradıcı və müstəqil böyüyür, əsl şəxsiyyət kimi formalaşır və inkişaf edirlər [2, s.111].

Ali məktəblərdə hazırlanmış kadrın keyfiyyət göstəricisi son dövrlərdə xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Bu əmək bazarında rəqabətin artması ilə bilavasitə bağlı məsələdir. Təbii bu gün dünyanın bütün ölkələrində hazırlanmış kadrların heç də hamısı iş tapa bilmir. Bu onların keyfiyyət göstəricisi ilə bilavasitə əlaqəlidir. Əslində kadrın keyfiyyət göstəricisi bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Lakin xüsusi ilə sovetlər dönəminin ideologiyasına görə hamının işlə təmin edilməsi, kadrın keyfiyyət göstəricisi anlayışını arxa plana keçirirdi. Dünyanın digər ölkələrində də kadrın keyfiyyət göstəriciləri zamanın tələblərinə uyğun mənalandırılırdı. Müasir dünyada isə rəqabətə davamlı kadr hazırlanması kadrın keyfiyyət göstəricisini aktuallaşdırdı. Müasir dövrdə dünyanın bütün ali məktəblərində ali təhsilin dəyərliliyi tələbələrə müstəqil işləmə bacarıqları və keyfiyyətləri aşılanmasında təzahür edir. Məsələnin belə qoyuluşu hər bir müəllimdən tələbənin idrak fəaliyyətini aktivləşdirməyi, onda müstəqil fəaliyyət keyfiyyətləri aşılamağı tələb edir. Bu zaman müəllim hər bir tələbənin fərdi-psixoloji imkanlarını nəzərə alaraq, onun qabiliyyətlərini inkişaf etdirməlidir. Müstəqil fəaliyyət tələbəni yaradıcı fəaliyyətə hazırlayır. Lakin yaradıcı fəaliyyətə qədər onun əsas vəzifəsi bilik və bacarıqların, tədqiqatçılıq qabiliyyətinin təkmilləşməsini, öyrənilmiş materialların təkrarını və ümumiləşdirilməsini, alınmış biliklərin tətbiqini, analiz və sintezini həyata keçirməsini, fikrini yazılı və şifahi şəkildə sərbəst şərh edə bilmək qabiliyyətini və s. inkişaf etdirməkdir. Son illərdə pedaqoji ədəbiyyatda [3; 4; 5; 6] problemə bu istiqamətdən yanaşılır və qeyd edilir ki, tələbənin müstəqil fəaliyyəti yeni biliyin dərindən mənimsənilməsi prosesində müstəqillik keyfiyyətlərinin formalaşması məzmununda mənalandırılmağa başlanmışdır. "Azərbaycan tarixinin uzun keçmişi var. Ərazi

baxımından yalnız bu günki Şimali Azərbaycan deyil, eləcə də, Cənubi Azərbaycan torpaqları əsrlər boyu bizim olub. Azərbaycan tarixinə biz ta qədim zamanlara gedib çıxan Heradotun "Tarix" əsərindən də rast gəlirik. Tariximizi uzun illər xarici səyyahların, tarixçilərin əsərlərindən öyrənmişik. Azərbaycanın ilk müasir tarixçisi Abbasqulu Ağa Bakıxanov olub. Sonrakı tariximiz bu və ya digər şəkildə yazılıb. Bu gün ali məktəblərdə tariximizin tələbələrə aşılanmasında, onlara tarixə maraqlarının oyanmasında keçirilən mühazirə və seminarların düzgün təşkili də mühüm amildir. Müəllim təhsil islahatının əsas fiqurudur. Müasir müəllim dəyişikliklərə hazır olmalıdır. Müasir tarix müəllimi çevik olmalı, onda qeyri-standart fəaliyyət bacarığına, məsuliyyətlilik və müstəqillik olmalı,uğurlu peşəkar fəaliyyətin bütün keyfiyyətlərini özündə əxz etməyi bacarmalıdır. Təhsilin səmərəliliyi və keyfiyyəti o zaman yüksəlir ki, tədris prosesinə istiqamət verən və onu inkişaf etdirən müəllimlərin bilikləri kifayət qədər təkmilləşdirilmiş və yeniləşdirilmiş olsun. Müasir tələblərə cavab verə bilsin. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişidr ki, tədris prosesində yeni təlim texnologiyaları ilə bağlı təhsil işçilərinin və müəllimlərin bilgilərinin də artmasına ehtiyac vardır. Müasir tarix müəllimi dövrün tələbinə uyğun olaraq müasir təhsil stadartlarının ölçülərinə cavab verməyi bacarmalıdır. Dəyişən dünyada təhsil strategiyasının realizə edilməsində, ənənəvi təhsilin beynəlxalq səviyyəsinə çıxışı və təhsilin keyfiyyətinin yüksəldil¬məsində mühüm rol oynayan standartlar müəllimin ixtisaslaşmasının, pedaqoji kadrların seçilməsinin obyektiv ölçü vasitəsidir.Hər bir tarix müəllimi təhsilin müasir standartına uğun yeni bacarıqları özündə inkişaf etdirməli, inklüziv təhsil proqramlarının icrasında, istedadlı uşaqlarla, inkişafında problemlər olan təhsil alanlarla, ciddi davranış problemləri sosial baxımsız və həssas azlığı təşkil edən təhsilalanlarla işdə öz pedaqoji məharətini nümayiş etdirməyi bacarmalı, əlindən gələni əsirgəməməlidir. Müəllim tələbələrə mühazirələr deyərkən yeni təlim texnologiyalarından istifadə etməklə səmərəli təlim mühiti yaratmalıdır. Müəllim tədimatlar hazırlayır və onu mühazirə şəklində tələbələrə təqdim edir. Mühazirə -leksiya (latınca lecito "oxu" deməkdir) təlim materialının müəllim tərəfindən sistemlı, ardıcıl şərhi deməkdir. Ali məktəbdə müəllim yeni təlim texnologiyalarından istifadə etməklə mühazirlər qurarsa, təlim keyfiyyəti yüksəlmiş olar. Mühazirə tədris prosesinin təşkilinində mühüm əhəmiyyət kəsb edir. Mühazirə inforasiyanın çatdırılmasında nisbətən qənaətcil üsul hesab edilir. Mühazirə zamanı öyrədiləcək material tələbələrə məntiqi formada çatdırılır. Nəticədə isə təlim tələbələrin diqqətinə səbəb olur. Yeni təlim texnologiyalarından istifadə etməklə təlimin təşkil edilməsi mühazirəyə marağın artmasına və tələbələrin biliklərinin daha da dərinləş¬məsinə səbəb olur. Mühazirə zamanı müəllim müəyyən mövzu ilə bağlı əsas məsələləri aydınlaşdırır, tələbələri yeni problemlərlə tanış edir. Mühazirə bir sıra məsələlər barədə ilkin məlumatların verilməsində əhəmiyyətli üsuldur. Öyrənənlər məsələ ilə bağlı heç bir təsəvvürə malik olmadıqda onlara zəruri məlumatları çatdırmaq ehtiyacı yaranır. Belə hallarda mühazirə üsulu müəllimin ən yaxın köməkçisinə çevrilir. Müəllimin mühazirələri Power Point proqramında hazırlanmış təqdimat¬larla müşayiət edilir. Belə təqdimatlar məlumatların müxtəlif yollarla (görmə, eşitmə, məntiqi, linqivis¬tik və.s) dərk edilməsinə və təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ənənəvi mühazirə müəllimin auditoriya ilə əks əlaqə yaratmasına və interaktivliyin olmasına imkan yaratmır. Bununla bağlı pedaqoji mətbuatda mühazirənin başqa təlim metodları ilə əvəz olunması barədə fikirlər mövcuddur. Lakin, tamamilə mühazirə metodundan imtina etmək tələbələr üçün müəyyən maneələr yarada bilər. Müstəqil şəkildə bir çox faktları tapmaq, ziddiyyətli anlayışları müqayisə etmək və materialı sistemləşdirmək əlavə vaxt itkisinə səbəb olur.

Müəllim mühazirəsini mühazirənin əsas vəzifələrinə uyğun tərtib etməklə dərsi qurmalıdır. Mühazirənin tələblərinə aiddir: a) tələbələri yeni elmi biliklərlə silahlandırmaq; b) elmdəki yeni problemlər, vacib mübahisəli məsələlərlə onları tanış etmək və bunun həlli yollarını araşdırmaq; c)tələbələri elmə, bilikli olmağa həvəsləndirmək; d) tələbələrdə qloballaşan dünyada baş verən proseslərdən xəbərdar olmaq, onların elmi-dünyagörüşünü, təfəkkürünü formalaşdırmaq; e) tələbələrdə ideya-mənəvi, estetik tərbiyə formalaşdırmaq; f) onları müstəqil işlərə sövq etmək ; g) əsl tədqiqatçı tələbələr yetişdirmək ; h) vətənpərvərlik hissləri oyatmaq

Mühazirələrin müxtəlif tipləri mövcuddur. Giriş, cari, son, icmal, epizodik, yekun. Mühazirələr

xarakterinə görə də bir neçə tipdə olur: sistemli, problemli, qarışıq mühazirələr

a) Sistemli mühazirələr proqram mövzularını sistemli şəkildə şərh edən mühazirələrdir.

b) Problemli mühazirələr hər hansı problemin həllini nəzərdə tutur.

c) Qarışıq mühazirələr forması isə sistemli və problemli mühazirələrin əlaqələndirilməsini nəzərdə tutur. (7, s. 421)

Mühazirələrin təşkili qaydasına görə də müxtlif tipləri mövcuddur: Mühazirə-disskussiya, ikilikdə mühazirə, mühazirə-press konfrans, vizul mühazirə, istiqamətləndirilmiş mühazirə . Öyrədilməsi metodlarından asılı olaraq aşağıdakı mühazirə növlərini nəzərdən keçirək.

a) Məlumat mühazirələri ali məktəbdə ənənvi mühazirə tipidir. Burada illüstrasiyalı – izahedici metoddan istifadə edilir.

b) Problemli mühazirələr materialın problemli suallar və məsələlərdən istifadə edilməsi ilə ifadə olunmasını nəzərdə tutur. Bu zaman idrak prosesi elmi axtarışlar, dialoq, təhlil, müxtəlif nöqteyi nəzərlərin müqayisəli yolu ilə baş verir.

c) Vizual mühazirələr materialın audio və videotexnika vasitələri ilə çatdırılmasını nəzərdə tutur.

d) Binar mühazirələr növü materialın iki müəllimin, məsələn alim və təcrübəçinin dialoqu formasında ifadəsini nəzərdə tutur.

e) Təxribat xarakterli mühazirələr əvvəlcədən planlaşdırılmış səhvlərlə aparılan məşğələ¬lər olub, veriləcək informasiyanın təlimalanlar tərəfindən daim nəzarətdə saxlanılmasını nəzərdə tutur və onları buna həvəsləndirir. Mühazirənin sonunda dinləyicilərin biliklərinin diaqnostikası və buraxılmış səhvlərin təhlili baş verir.

f) Konfrans xarakterli mühazirələr dərs proqramı üzrə əvvəlcədən müəyyənləşdirilmiş problem üzrə məruzə və çıxışların dinlənilməsini nəzərdə tutan mühazirələrdir. Belə mühazirələrin sonunda müəllim nəticələr çıxarır, məlumata əlavələr edir və onu dəqiqləşdirir.

g) Məsləhət xarakterli mühazirələr materialın sual-cavab və yaxud sual-cavab-diskussiya tipində ifadəsini tapır.

Mühazirələr həmçinin başqa əsaslara görə də müəyyənləşir: a) Ümumi məqsədlərinə görə: təşviqat, təbliğat, tərbiyə, inkişaf xarakterli mühazirələr. b) Məzmununa görə akademik və elmi-populyar mühazirələr.Təsirinə görə isə emosiyalar, anlama, əqidələr səviyyəsində mühazirələr mövcuddur. Struktur baxımından mühazirə 3 hissədən ibarətdir: giriş, əsas, son. Giriş hissədə mövzu formalaşdırılır, plan tərtib edilir, məsələlər qoyulur, əsas və əlavə ədəbiyyat göstərilir, əvvəlki materialla əlaqə təyin olunur və mövzunun praktiki və nəzəri aktuallığı xarakterizə edilir. Əsas hissədə problemin məzmunu açılır, əsas ideya və müddəalar əsaslandırılır, konkretləşdirilir, hadisələr təhlil olunur. Mövcud praktika və elmi tədqiqatlara qiymət verilir. Sonuncu hissədə nəticələr çıxarılır, əsas müddəalar ümumiləşdirilir, suallara cavab verilir. Göründüyü kimi, müasir ali məktəbdə mühazirə formasından istifadə imkanı genişdir. Əsas məsələ ali məktəblərdə Azərbaycan tarixininin tədrisində yeni təlim texnologiyalarından düzgün və səmərəli istifadə etməklə, pedaqoji tələblərə uyğun onları dəqiq tətbiq etməklə təlimin keyfiyyətini yüksəltməkdir. Tələbələrə materialların müasir təlim texnologiyaları ilə verilməsi onların şəxsiyyət kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, yeni təlim texnologiyalarından istifadə tələbələrdə aşağıdakı təlim bacarıqlarının formalaşdırılmasına motiv yaradır:

1. Öyrənilən mövzuların məzmununda olan anlayış və ideyaların yoxlanılması və aydınlaşdırılması, eləcə də onların tələbələr tərəfindən analiz və sintez edilərək mənimsənilməsi;
2. Mənimsəmə prosesində məlumatların ümumiləşdirilməsi;
3. Analoqların, oxşarlıqların müqayisə priyomu vasitəsi ilə oxşar hadisə və proseslərin tutuşdurulması, oxşar və fərqli cəhətlərin üzə çıxarılması;
4. Dərslərdə yeni texnologiyalarından istifadə prosesində fakt və sübutların, arqumentlərin üzə çıxarılması ilə əsaslandırmalara nail olmaqla qarşı tərəfi inandırmaq;
5. Tədrisdə yeni təlim metodundan istifadə prosesində tələbələrdə problemin həll yolunu tapmaq, qərar qəbul etmək bacarıqları formalaşdırılır;
6. Tələbələrdə fəal dinləmə mədəniyyətinin və müzakirə etmək bacarıqlarının formalaşdırılmasına motiv yaranır;
7. Yeni təlim texnologiyalarından istifadə prosesində mənbələrlə, kompüterlə, internetlə, dərslik, dərs vəsaiti, eləcə də sorğu ədəbiyyatları ilə işləmək bacarıqları formalaşdırılır;

8. Yeni təlim texnologiyalarında istifadə prosesində lazımlı məlumatları, materialları, faktları və arqumentləri seçmək və istifadə etmək bacarıqlarının formalaşdırılmasına motiv yaranır.

9. Tədrisdə mühazirə disskusiyadan istifadə prosesində tələbələrdə məntiqi, yaradıcı və tənqidi təfəkkürün inkişafına zəmin yaranır, eləcə də öz mövqeyini tutarlı faktlar və arqumentlərlə müdafiə etmək bacarıq və vərdişləri formalaşır;

Mühazirədə estetik mühit, müsbət aura yaradılmalıdır. Müəllim yüksək əhval ruhiyyədə olmalı, yaradıcı və gözəllik mühiti yaratmalıdır. Estetik mühiti yaratmaq üçün müxtəlif disputlar keçirməlidir. Mühazirədə tələbələrin fəaliyyətinə verilən tələblər. Mühazirə prosesində tələbələrin fəallığının təmin olunmasında yeni təlim texnologiyalarının əhəmiyyəti sonsuzdur. Bu məqsədlə müxtəlif priyomlardan istifadə etməyi bacarmalıdır.

Qrafik göstəricilər. Mühazirə zamanı müəllim qrafik göstəricilərdəndə istifadə edə bilər. Tədris zamanı zehni prosesləri əyaniləşdirmək üçün qrafik göstəricilərdən istifadə edilir. Konseptual sənədlər, T-sxemlər və Venn diaqramı qrafik göstəricilərin ən səmərəli formalarıdır.

Prolemli vəziyyət yaratmaq, disskussiya və dialoq, qeydlər götürməyə sövq etmək vacibdir. Həmçinin müəlllim diqqəti cəlb etmək məqsədi ilə mövzu ilə bağlı maraqlı faktlar, həyati misallar gətirmək, auditoriya ilə əks əlaqə yaratmaqla diqqəti yayınan tələbələri mövzuya cəlb etmək üçün ciddi baxış, göz kontaktından istifadə edə bilər.

Qədim Çin hikmətində deyilir: “Mənə de - mən yaddan çıxarım. Mənə göstər - mən yadda saxlayım. Məni cəlb et mən öyrənim”. ABŞ-ın Men ştatının Betel şəhərinin Milli Tədris laboratoriyalarında işlənib hazırlanmış “Dərketmə piramidası” na əsaslanaraq demək olar ki, tələbə tərəfindən materialın orta mənimsəmə göstəricisi dinləmə zamanı -5%, müzakirə zamanı -50%, praktik iş zamanı isə -75%-dir. Ənənəvi mühazirədəki informasiya bolluğu ilə interaktiv strategiyaların birləşməsi mühazirə dərslərinin səmərəliliyinə səbəb olur. İnteraktiv mühazirə metodunun bir çox üsulları mövcuddur: mühazirə-annotasiya, tapşırıqlı mühazirə, problemli mühazirə, vizuallaşdırılmış mühazirə, ikilikdə aparılan mühazirə, mətbuat konfransı, mühazirə -müşavirə, mühazirə - oyun, mühazirə - dioloq və s. [8, s.70].

Təcrübə göstərir ki, tələbələrin idraki fəaliyyətini gücləndirmək üçün təlim zamanı interaktiv təlim metodları və elektron tədris vasitələrindən istifadə etməklə uğurlu nəticələr əldə etmək mümkündür [9]. Tələbələrin materialı dərk etmələri qavramaları və mənimsəmələrinin inkişafı üçün modul təlimində seminar mühüm rol oynayır. Bu cür yanaşmada tələbələrin sərbəst işinin payı çox azdır. Belə ki, Seminar – öyrənilən məruzə və referatların kollektiv formada müzakirə formasına deyilir. Seminarı digər təlim formalarından fərqləndirən xüsusiyyətlər çoxdur. Seminarlar öyrənənlərə təlim-idrakı fəaliyyətdə daha çox müstəqillik verir. Seminar vasitəsilə tələbələrin auditoriyadankənar vaxtlarda əldə etdikləri biliklər dərinləşdirilir, tələbələrin kollektiv şəraiti onlara öyrəndikləri yeni məlumatları, mənimsədikləri bilikləri, araşdırdıqları fərqli mənbələrdən əldə etdiklərini bir-biri ilə bölüşdürməyə imkan yaradır. Nəticədə alınan biliklər yoxlanılır, sistemləşdirilir, tələbələrdə bir-birlərini və özlərini qiymətləndirmə mühakimələri formalaşır [10, s. 432].

Ən geniş yayılmış seminar növü söhbət formasında aparılan seminardır. Bu seminar plan üzrə qısa giriş və nəticələrlə söhbət formasında aparılır. O, bütün təlimalanların plan üzrə seminara hazırlığını nəzərdə tutur ki, bu da mövzunun faəl müzakirəsini təşkil etməyə imkan verir. Planın konkret sualları üzrə ayrı –ayrı şagirdlərin çıxışları dinlənilir. Daha sonra bu çıxışlar təhlil olunur və başqa şagirdlərin çıxışları ilə tamamlanır. Bəzən seminarın iştirakçıları arasında əvvəlcədən suallar paylanılır. Məruzələr hazırlanır. Seminarda isə onlar dinlənilir və müzakirə edilir. Seminarın xüsusi forması disputdur. O, hər hansı problemin həlli yollarını tapmaq məqsədi ilə onun kollektiv müzakirəsini nəzərdə tutur. Belə seminarın məqsədi təlimalanların dünyagörüşünün formalaşdırıl-ması, polemika aparmaq, öz baxış və əqidələrini müdafə etmək bacarığını inkişaf etdirməkdir. Müasir təlim-tərbiyə metodlarının təsnifatında müzakirə həm təlim metodu, həm də tərbiyə metodu kimi səciyyələndirilir. Müzakirələrin növlərinin seçilməsi müzakirəyə qoyulacaq mövzuların məntiqi quruluşundan və məzmunundan asılıdır. Müzakirənin ən çox istifadə edilən növü disputdur, diskusiyadır, debatdır, müzakirə xəritələridir, Sokrat dialoqdur, açıq iclaslar, akvariumdur və dairəvi müzakirələrdir [11, s.78].

Disput müzakirələr metodlarının aparıcı növlərindən biri olub hazırkı dövrdə həm təlim metodu, həm də sinifdənxaric işlərin bir forması hesab olunur. Disput tələbələrə elmi bilikləri verməklə yanaşı, həm də çox böyük tərbiyəvi vəzifənin yerinə yetirilməsini motivləşdirir. Disput tələbələrdə siyasi mədəniyyətin formalaşdırılmasında müstəsna rol oynayır.

Disputun səmərəli təşkili üçün aşağıda sadalanan tələblərə əməl edilməlidir:

- disputun planı hazırlanmalı;
- müzakirəyə tələbatı olan mövzular seçilməli;
- disput üçün xüsusi ixtisaslaşdırılmış auditoriya təşkil edilməli;
- disputda iştirak edəcək tələbələr müzakirə ediləcək mövzu ilə bağlı təlim materialları və mənbələrlə təmin edilməlidirlər.

Disputda istifadə olunacaq sualların sayını və məzmununu təşkilatçılar öncədən qurmalıdır. Sualların sayı disputda iştirakçıların sayından asılıdır. İştirakçılar çox olduqda sualların sayı da artmalıdır. Praktika göstərir ki, suallar çox olduqda iştirakçıları əsas məsələdən, əsas problemlərdən yayındıra bilər. Suallar əsas problemlə bağlı məsələləri əhatə etməlidir. Suallar tarixi, xronoloji, məntiqi, elmi ardıcıllıqla sıralanmalıdır.

Disputun təşkilatçısı olan müəllim hərtərəfli və dərin biliyə, geniş dünyagörüşünə və yüksək siyasi mədəniyyətə malik olmalıdır. Aparıcı təcrübəli natiq və yüksək təşkilatçı olmalıdır, mübahisə aparmaq bacarığına sahib olmalıdır. “Disput dostların və yoldaşların mübahisəsidir və bu mübahisə dərk olunmayan fikirlərə aydınlıq gətirir”. Metodik ədəbiyyatlarda disputa – diskussiya kimi aydınlıq gətirildiyi üçün diskussiyaya geniş şərh verməyə ehtiyac duymuruq. Müzakirəni – disputun tələbələrin düşüncə tərzinə hakim olmaq üçün müzakirələrin didaktikanın tələblərinə uyğun keçirilməsini məqsədəuyğun hesab edirik: a) müzakirələrə hazırlıq; b) müzakirənin məntiqi və xronoloji ardıcıllıqla keçirilməsi; c) nəticələrin əldə edilməsi (xalların ədalət prinsipləri əsasında) verilməsi.

Müzakirə - disputlar əsasən aşağıdakı mərhələlərlə aparılmalıdır:

1) müzakirəyə hazırlıq – mövzunun seçilməsi, sualların tərtibi

2) müzakirə-disputun keçirilməsi – giriş sözü, sualların verilməsi, iştirakçıların cavabları, dəvət olunan qonaqların çıxışları;

3) tədbirin nəticələri – alınan cavabların qiymətləndirilməsi, yekun sözü.

Yeni təlim texnologiyalarından istifadə zamanı müəllim tələbələri bir sıra qabliyyətləri mənimsəməyə yiyələndirməlidir.

- Tarix dərslərinin təşkilinin forma, metod və vasitələrindən istifadə bacarığına;
- Öyrənilən dövrə aid əldə etdiyi biliklərin tədrisi bacarığına;
- Öyrənilən dövrün tarixinin əsas hadisələrini öyrətməyi, düzgün qiymətləndirməyi, müstəqil nəticə çıxarmağı;
- Dövlətlərin ərazisi və onun tərkibində formalaşan xalqlar haqqında real məlumatlara;
- Azərbaycan xalqının dövlətçilik tarixini, mübarizə yolunu təbliğ etmək qabiliyyətinə;
- Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadəyə;
- Tarixi hadisələri müqayisə etmək və düzgün qiymətləndirmək qabiliyyətinə;
- Müqayisəli təhlil əsasında tarixi faktların araşdırılması, türk xalqlarının və dövlətlərinin inkişaf yollarını dəyərləndirmək bacarığına;
- Öyrədilən dövrün başlıca xüsusiyyətlərinin nədən ibarət olması biliyinə həmin dövrə aid tarixi terminlərin izahı qaydalarına,
- Öyrənilən dövrün başlanması əlamətlərini, yeni dövrdə baş verən tarixi hadisələr arasındakı əlaqələri izah etmək bacarığına;
- Müasir dövrdə mövcud olan dövlətlərin beynəlxalq hadisələrdə rolunu düzgün qiymətlən-dirmək, dövlətlər arası münasibətləri təhlil etmək bacarığına;
- Öyrəndiyi dövlətlər haqqında ətraflı məlumata, qazandığı biliyi çatdırmaq qabiliyyətinə;

Pedaqoji təcrübədə formalaşma tələbə şəxsiyyətinə təsir priyomu (tərz) və üsulların (metodlar, vasitələr) tətbiqi mənasını verir. Burada məqsəd öyrənənlərdə müəyyən bilik, bacarıq, dəyər və münasibətlər sisteminin yaradılmasıdır [12, s.62].

Beyin düşünən materiyadır, təfəkkürün orqanıdır. Beyin bizdən kənarda olan aləmi obyektiv əks etdirmək xassəsinə malikdir. Şüurumuzda obyektiv aləmin əks olunması idrakdır. Təlim prosesi də bu nəzəriyyəyə əsaslanır. İdrak prosesi bizi əhatə edən varlıqda olan hadisə və əşyaların insan şüurunda inikası olub, canlı seyrdən mücərrəd təfəkkürə, oradan da praktikaya gedir. Obyektiv gerçəkliyi dərketmənin dialektik yolu belədir. Təlim prosesində də idrak prosesi gedir. Yalnız fərq ondadır ki, təlim prosesində yeni

həqiqətlər kəşf olunmur, yalnız elmi idrak prosesində kəşf olunan biliklər mənimsənilir. Bu prosesin xüsusiyyəti ondan ibarətdir ki, təhsilverən təhsilalanın idrak, öyrənmə prosesinə rəhbərlik edir. Bu zaman özünün biliklərindən, təcrübəsindən və metodiki priyomlardan istifafə edir. Bir tərəfdən müəllim bilik almaq üçün öyrənənlərə şərait yaradır, digər tərəfdən tələbələrin öyrənmə işini istiqamətləndirmiş olur. İdrak nəzəriyyəsi təlim prosesinin elmi əsasıdır. Təlim prosesi də elmi idrak prosesi kimi ziddiyyətləri aradan qaldırmaq yolu ilə gedir. Bu ziddiyyətlər içərisində ən başlıcası cəmiyyətin tələbatı və təlim prosesinin yaranmış forma və metodlarının imkanları arasındakı ziddiyyətdir [13, s.116].

İnnovativ təlim texnologiyaları sayəsində dərslər ali təhsilin bakalavr pilləsində xüsusi əhəmiyyətə malik olub, dərsi yeni çalarda yeni keyfiyyətdə təqdim etməyə yardım edir.

Problemin aktuallığı . Ali məktəblərdə təlimin səmərəlilik və effektivliyinin artırılması ilə bağlı ehtiyacı olan islahatlar hələki tam icra edilməmişdir. Bu səbəbdən problemin araşdırılması aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Müəllim və tələbə arasında düzgün əks əlaqənin qurulması üçün seminar və mühazirlərin düzgün təşkili vacib amildir.

Problemin praktik əhəmiyyəti . Ali məktəb müəllimləri bu məqalədən yararlana bilər.

Ədəbiyyat

1. Süleymanova, A .Təhsilin əsasları. – Bakı, – 2014. – 399 s.
2. Cəbrayılov, İ. Təhsilin nəzəriyyəsi və tarixi: fəaliyyətin trayektoriyası // Azərbaycan məktəbi, –Bakı: – 2021, №3.
3. Гапон, Э.В. Педагогические условия повышения эффективности самостоятельной работы студентов. Дисс. на соиск. уч. степени канд.пед.наук. Харьков, – 1991, – 211 с.
4. Гришанова, Н.А. Использование активных форм и методов обучения в преподавании спецдисциплин. / Н.А. Гришанова. – М.: ИПКСК, – 1996, – 41 с.
5. Актуальные проблемы развития познавательной активности и самостоятельности студентов. – Саратов: СГУ, – 1987, – 289 с.
6. Вергасов, В.М. Активизация познавательной деятельности студентов в высшей школе. В.М.Вергасов. –Киев, – 1985, –172 с
7. Paşayev, Ə., Pedaqoqika. Yeni kurs. / Ə.Paşayev, F.Rüstəmov. – Bakı: Nurlan, – 2007. – 423 s.
8. Qədimova, X.H. Ali təhsil müəssisələrində interaktiv mühazirə metodları müəllim-tələbə əks əlaqəsinin yaradılması vasitəsi kimi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, – Bakı: – 2021, [Cild 88] № 2.
9. Давиденко, Е.С. Активизация лекционной формы обучения в ВУЗ-е // Современные проблемы науки и образования, – 2019, № 5.
10. Rüstəmov, F., Ali məktəb pedaqogikası. / F.Rüstəmov, T. Dadaşova. – Bakı, – 2007, – 562 səh.
11. Paşayev, Ə.X. Pedaqogika. III nəşri. / Ə.X.Paşayev, F.A.Rüstəmov – Bakı: Elm və Təhsil, – 2010, – 464 s.
12. Cəbrayılov, İ. Şəxsiyyət və onun formalaşması problemi // – Bakı: Azərbaycan məktəbi Elmi -nəzəri, pedaqoji jurnal (Yanvar -fevral) seriyası, – 2016, №1 (671), – s. 60-63.
13. Əmirov, M.M. Tam orta məktəbdə tarixin fəal (interaktiv) təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). – Bakı, – 2011, – 668 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 252-255
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 252-255
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 252-255

UOT

Pedaqoji prosesdə müəllimlərin pedoqoji mədəniyyəti səviyyəsinin yüksəltməyin yolları

Müəllif:

Nurlanə Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: nurlanam50@ gmail.com

Açar sözlər:
pedoqoji proses, müəllim xeyirxahlığı, pedoqoji mədəniyyət, ədalətlilik, müsbət emosiyalar, psixoloji dəstəkləmə

Annotasiya. Məqalədə müasir dövrdə müəllimləri pedoqoji mədəniyyət səviyyəsinin yüksəltməyin yolları məktəb təcrübəsinə əsaslanaraq həm şagirdlərə pedoqoji-psixoloji cəhətdən düzgün yanaşma baxımından, həm də onların nailiyyət səviyyələrinin qiymətləndirilməsi baxımından elmi və təcrübi cəhətdən əsaslandırılaraq göstərilmişdir. Bu nəticəyə gəlinmişdir ki, müəllim təlim prosesində çalışmalıdır ki, hər bir uşağa həyatın ən əsas tələbatı olan özünü tam mənada şəxsiyyət kimi hiss etmək istəyini gerçəkləşdirmək üçün yol açsın. Bütün uşaqların müvəffəqiyyətlə oxuya bilməsi və öz imkanlarını aşkara çıxarması üçün müəllim tərəfindən dayağın olması, müəllimin xeyirxahlığının, uşağın qazandığı uğurlarda şəxsən maraqlı olmasının əhəmiyyəti çox böyükdür. Müəllimin pedoqoji mədəniyyəti şagirdlərin qiymətləndirilməsində də çox əhəmiyyətlidir. Qiymətləndirmə ilk əvvəl uşaqda müsbət emosiyalar yaratmalıdır. Yüksək pedoqoji mədəniyyətə malik müəllim ən çox şagirdlərin səhvlərini deyil, naliyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə çalışmalıdır.Müəllim uşağı qiymətləndirərkən mütləq bu keyfiyyət baxımından olmalıdır. Çünki uşaqlar cəzalandırılmaqdan qorxmadan, hətta, gördükləri iş bəzən alınmasa belə özlərini bacardıqları və istədikləri kimi göstərsinlər.Müəllim heç bir vaxt uşağı başqası ilə müqayisə etməməlidir, ona başqasını nümunə göstərməməlidir. Mühüm olanı onun naliyyətlərinin nəticəsi yox, daxili azadlığı, emosional rifahıdır.

Ways to raise the level of teachers’ pedagogical culture in the pedagogical process

Author:

Nurlana Mammadova
Nakhchivan Teachers Institute
E-mail: nurlanam50@ gmail.com

Key word:
pedagogical process, teacher kindness, pedagogical culture, justice, positive emotions, psychological support

Abstract. The article shows the ways to raise the level of pedagogical culture of teachers in modern times, based on school experience, both scientifically and practically justified in terms of pedagogically and psychologically correct approach to students, as well as in terms of assessing their level of achievement. It was concluded that the teacher should work in the learning process to open the way for each child to realize the desire to feel like a full-fledged person, which is the most important requirement of life. The teacher’s support, the teacher’s kindness, and the child’s personal interest in the child’s success are very important for all children to be able to read successfully and discover their potential. The pedagogical culture of the teacher is also very important in the assessment of students. The assessment should first create positive emotions in the child. A teacher with a high pedagogical culture should emphasize the achievements of most students, not their mistakes, and try to support them more than punishment. The teacher must be in terms of this quality when assessing the child. Because children should show themselves as they can and want without fear of being punished, even if the work they do is sometimes not taken. The teacher should never compare the child with anyone else, he should not set an example for others. What matters is not the result of his achievements, but his inner freedom and emotional well-being.

Способы повышения уровня педагогической культуры учителей в педагогическом процессе

Автор:

Нурлана Мамедова
Нахчыванский институт учителей
E-mail: nurlanam50@ gmail.com

Ключевые слова:
педагогический процесс, доброта учителя, педагогическая культура, справедливость, положительные эмоции, психологическая поддержка

Аннотация. В статье показаны пути повышения уровня педагогической культуры учителей в современную эпоху, основанные на школьном опыте, научно и экспериментально обоснованные как с точки зрения педагогико-психологически правильного подхода к учащимся, так и с точки зрения оценки уровня их достижений. Был сделан вывод, что учитель должен работать в процессе обучения, чтобы открыть каждому ребенку путь к реализации самого главного в жизни требования - желания чувствовать себя полноценной личностью. Для того чтобы все дети могли успешно учиться и раскрывать свои возможности, очень важно наличие опоры со стороны учителя, доброта учителя, личная заинтересованность ребенка в достигнутых успехах. Педагогическая культура учителя также имеет большое значение в оценке учащихся. Оценка должна сначала вызвать у ребенка положительные эмоции. Учитель, обладающий высокой педагогической культурой, должен чаще всего подчеркивать достоинства учеников, а не их ошибки, стремиться оказать поддержку, а не наказание. Учитель при оценке ребенка обязательно должен исходить из этого качества. Потому что дети должны проявлять себя так, как они могут и хотят, не боясь быть наказанными, даже если работа, которую они делают, иногда не выполняется. Учитель никогда не должен сравнивать ребенка с кем-то другим, показывать ему чужой пример. Важно не результат его заслуг, а его внутренняя свобода, эмоциональное благополучие.

Müəllim müstəqil Respublikamızın gələcəyi naminə sədaqətlə çalışan ziyalılarımızın ən böyük və qabaqcıl dəstəsidir. Pedaqoji fəaliyyətin əsas simalarından biri olan müəllimlər gənc nəsilin tərbiyə olunması kimi məsul işi yerinə yetirirlər. Müəllimlik peşəsi yaranan vaxtdan müəllimin necə olması, onun hansı keyfiyyətlərə malik olması haqda xeyli fikirlər, mülahizələr söylənmişdir.

Aristotel "Afina siyasəti" əsərində göstərirdi ki, afina müəllimləri təntənəli mərasimlərdə seçilirdilər. Müəllim-tərbiyəçi vəzifəsinə seçilənlər dövlətin taleyinin onlara tapşırılması üçün fəxr edirdilər ki, dövlətin taleyi, gənc nəslin siyasi, əxlaqi, fiziki hazırlığı onlardan asılıdır.

Böyük yunan filosofu Platondan soruşurlar: "Sən atanı yoxsa müəllimini çox istəyirsən?" O, "Müəllimimi" - deyə cavab verir. " Çünki atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göylərə qaldırdı".

Görkəmli çex pedaqoqu Y.A.Komenski göstərirdi ki, uşaqların mənəvi tərbiyəsi müəllimin müsbət nümunəsindən başlayır. Böyük pedaqoq özünəməxsus tərzdə məktəbin nizamnaməsini və müəllimin pedaqoji kodeksini işləyib hazırlamışdır. O göstərirdi ki, uşaqları tərbiyə edən müəllim özü düz, doğru olmalı qarşısına qoyduğu məqsədə çatmaqda səbatlı olmalı, sinifdə intizam yaratmalı, ciddi və inamlı olmalı, özünə hörmət qazanmalıdır.

J.J.Russo, İ.H.Pestalotsi, A.Distervek və başqaları yeni nəslin formalaşmasında müəllimin mənəvi aləminə böyük qiymət vermişlər. Müəllimin əməyi öz hörmət və peşəsinə görə, məsuliyət və mürəkkəbliyinə görə bütün peşələrdən fərqlənir.

Təlim prosesində müəllimin əməyi daha çox müəllim şagird münasibətlərində, onun şagirdlərlə rəftarında özünü göstərir. Müəllim - şagird münasibətlərində müəllimin pedaqoji mədəniyyəti şagirdlərdə psixoloji cəhətdən ruh yüksəkliyi yaratmağa müsbət təsir göstərir. Həmçinin, pedoqoji prosesdə şagirdlərə psixi cəhətdən mənfi təsir göstərən bir çox amillər var. Lakin bunlardan ən mühüm olanı müəllimin ədalətsizliyidir. Ədalətsiz müəllimin şagirdlər arasında heç bir hörməti olmaz, çünki şagirdlərin əsasən müəllimdə qiymətləndirdikləri ən yüksək keyfiyyət müəllimin ədalətli olmasıdır. Təlim prosesində müəllimin ədalətli olması şagirdlər arasında rəğbət hissi ilə qarşılanır. Belə müəllimlər adətən, şagirdləri tərəfindən sevilir, həmişə hörmətlə anılır.

Ədalətlilik müəllim peşəsinin ayrılmaz tərkib hissəsi olmalıdır. Ədalətlilik yaxşılıq anlayışı ilə yaxın olsada onların bir çox fərqli cəhətləri vardır. Yaxşılıq daha geniş məna daşıyır, ədalətliliyin həddi var yaxşılığın isə həddi, ölçüsü yoxdur. Ədalətli hərəkət pedaqoji prosesin normallığı üçün mühüm şərtdir. Ədalətlilik uşağa göstərilən inamın əsasını təşkil edir.

Müasir dövrdə müəllimlərin təlim prosesində pedoqoji davranışı ilə əlaqədər qanunvericilikdə bir sıra mühüm qərarlar və sərəncamlar imzalanmışdır. Bunlardan ən mühüm olanlardan biri də Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri ilə təsdiq edilmiş "Müəllimlərin Etik Davranış qaydaları"dır. Bu sənəddə müəllimin etik davranış qaydaları və ona uyğun tələblər, müəllim şəxsiyyəti, təhsilalanlara münasibət, kollektivə münasibət, rəhbərliklə münasibət, valideyn və qanuni nümayəndələrlə münasibət, müəllim və cəmiyyət, müəllim andı və s. təfsilatı ilə verilmişdir. Həmçinin burada göstərilən müddəalar müasir dövrdə hər bir müəllimin pedoqoji ustalığı ilə yanaşı etik davranış qaydalarını da müəyyənləşdirir. Çünki təlim-tərbiyə prosesində müəllimin şəxsi nümunəsindən güclü təsir qüvvəsi yoxdur. Uşağın məktəbdə inkişafına müxtəlif amillər-pedaqoqlar, tədris proqramları, dərs kitabları, kompüterlər, elektron lövhələr, məktəbdəki kabinələr, laboratoriyalar, məktəb binası, sinifların təmiz və səliqəli olması, uşaq birlikləri və s. təsir edir. Lakin bunların içərisində həlledici rol müəllimindir. Müəllim pis olduqda, öz vəzifəsini ləyaqətlə aparmadıqda şagirdlərin inkişafına nə gözəl dərs kitabları, nə də zəngin kabinələr kömək edir. Çünki şagirdlərn kitablarla işləməsini də, kabinələrindəki işlərini məhz müəllim təşkil edir. Müəllim yaxşı olduqda isə o, öz biliyi və metodik ustalığı ilə pis dərs kitablarının çatışmayan cəhətlərini müəyyən dərəcədə düzəldə bilər, çatışmayan əyani vəsaitləri düzəldər, öz təşəbbüsü ilə az zamanda zəngin kabinə və laboratoriyalar yaradar. Müəllimin şəxsiyyəti, iş üsulu, uşaqlara münasibəti elə böyük təsir qüvvəsinə malikdir ki, onu təlim və tərbiyə işində heç bir şeylə əvəz etmək olmaz [F.İbrahimov 1. Səh. 51].

Müəllimlik çox məsuliyyətli işdir. Müəllim ən qiymətli kapital olan insan üzərində çalışır. Bu işdə səhvlər etmək olmaz. Bu işdə buraxılmış hər

hansı bir nöqsan və edilmiş səhlənkarlıq öz nəticəsini dərhal deyil, bir müddətdən sonra verir. Həmçinin müəllimlik çox mürəkkəb bir peşədir. Bu işin mürəkkəbliyi orasındadır ki, müəllim cürbəcür meyli, marağı, qabliyyəti olan uşaqlar üzərində, onun ən incə sahəsi olan psixologiyası üzərində işləyir. Bu işdə müvəffəqiyyət qazanmaq üçün uşağın fərdi xüsusiyyətlərini nəzərə almaq, onun üzərində olan bütün təsirləri vahid məqsədə yönəltmək lazımdır. Bunun üçün müəllimdən yüksək ustalıq, yaradıcılıq, pedoqoji bacarıq tələb olunur. Pedoqoji bacarığın mahiyyəti müəllimin şəxsi mədəniyyətində, biliyində, onun təlim və tərbiyənin, pedoqoji texnikanın priyomlarına və qabaqçıl təcrübəyə yiyələnməsində, hərtərəfli nəzəri hazırlığında özünü göstərir. Bunun üçün hər şeydən əvvəl müəllim uşaqlarla ünsiyyətdə olmaq, müvafiq ton və üslub seçmək bacarığına yiyələnməlidir. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsinə, imkan və qabliyyətlərinə əsaslanmalıdır. Müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı, onun fərdi cəhətlərini nəzərə almalı və ona hörmət əsasında münasibət göstərilməlidir. Təlim müəllimlə şagirdin birgə fəaliyyətinə əsaslanmalıdır. Bu zaman müəllim şübhəsiz nüfuz sahibi kimi sinif üzərində “ağalıq” etmir və özünü şagirdlərindən yüksəkdə tutmur. Əksinə, o, sistemli, ardıcıl və məqsədyönlü şəkildə şagirdlərlə əməkdaşlıq edir: problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qoyuluşunda şagirdlərə istiqamət verir, bunların həllində metodik köməklik göstərir, biliklərin müstəqil əldə edilməsi və həlli yollarını öyrədir. Müasir təlim fəlsəfəsində müəllimin rolu öyrənməyin yolunu şagirdlərə öyrətməkdir. Bununla yanaşı, müəllimin pedoqoji ustalığı təlim prosesində şagirdlərə psixoloji cəhətdən həssas yanaşmasından və qarşılıqlı hörmət və etibarından çox asılıdır. Müəllimin hər bir şagirdə mərhəmətli, hörmətli, fərdi münasibət bəsləməsi, sinifdəki mühiti xüsusi həssaslıqla duyması çox vacibdir.

Müəllimin şagirdlərə xeyrxah münasibəti, hörməti, onları olduğu kimi qəbul etməsi və daim dəstəkləmək meyli, bacarıqlarına inandığını göstərməsi şagirdlərdə belə bir inamı möhkəmləndirir ki, qarşıya qoyulmuş problemin həllində onların istənilən cəhdi yaradıcı fikir kimi qiymətləndirilərək, ciddi və hörmətlə yanaşılacaqdır. Müəllimin təlim mühitini psixoloji cəhətdən məhz bu şəkildə dəyişdirməsi şagirddə uğursuzluq qorxusunu, inamsızlıq hissini aradan götürə bilər. Çünki aparılan psixoloji araşdırmalar zamanı məlum olub ki, məktəbə daxil olduqdan sonra uşağın idrak fəallığı müəyyən dərəcədə ləngiməyə başlayır. Bu nəyə görə baş verir? Çünki məktəbəqədər dövrdə uşaq dünyanı bir tədqiqatçı kimi dərk edir: o suallar verir, ətrafdakılar bu sualları böyük məmnunluqla, sevərək cavablandırırlar, uşaq öz imkanı daxilində müxtəlif məlumat mənbələrindən istifadə edir və o sərbəstdir, ilk növbədə öz təcrübəsinə əsaslanır. Onu əhatə edən dünyanı müstəqil dərk edərək uşaq öz maraqlarına görə fəaliyyət göstərir. Lakin məktəbə ilk qədəm qoyan gündən uşaq elə bir təlim mühitinə düşür ki, burada onun adət etdiyi, təbii öyrənmə metodundan əl çəkmək tələb olunur. Müəllim tələb edir ki, uşaq ona diqqətlə qulaq asıb dedilərini yadda saxlasın, təlimatlarını dəqiq yerinə yetirsin və bu təlimata aid olmayan sualları az versin. Bu cür yanaşma ilə müəllim şagirdə passiv mövqe tutmaq, tədqiqatçı rolundan imtina etmək və müəllim tərəfindən verilən məlumatla kifayətlənməyi təklif edir. Bu cür təlim prosesinin mərkəzində şagird yox müəllim dayanır. Məhz müəllim təlim prosesinin fəal iştirakçısı olur və şagirdə nəyi və necə edilməsini dikdə edir. Bunun nəticəsində isə şagirdin dərketmə imkanları məhdudlaşır, onun ehtiyacları, maraq və qabliyyətləri nəzərə alınmır.

Müasir dövrdə müəllimin qarşısına qoyulan ən mühüm tələblərdən biri də budur ki, müəllim şagirdə bir şəxsiyyət kimi yanaşmalı, onun fərdi cəhətlərini nəzərə almalı və onu psixoloji cəhətdən dəstəkləməlidir [F.İbrahimov 2. Səh 13]. Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticə çıxarmaq olar ki, təlim prosesində müəllimin pedoqoji mədəniyyətini səciyyələndirən əsas xüsusiyyətlər aşağıdakı kimi ola bilər. Sinifdə istənilən uşaq- istər o yaxşı və pis oxuyan olsun, istər hərəkətli və astagəl olsun, istərsə də güclü və zəif olsun fərqi yoxdur müəllim ona hörmət və məhəbbətə yanaşmalıdır. Çünki onların dəyərləri özündədir.

Müəllim bilməlidir ki, uşaqlar heç də başdan-başa çatışmazlıqdan, zəiflikdən, uğursuzluqdan ibarət deyil. Hər bir uşağın öz qüruru var. Müəllim sadəcə bunu görməyi bacarmalıdır.

Uşaqla danışarkən müəllim çalışmalıdır ki, müsbət dil ifadələrindən istifadə etsin, onun ən kiçik uğurunu tərifləməkdən çəkinməsin, tənqid edəndə isə uşaqlar arasında heç bir fərq qoymasın. İstənlən uşağın qarşısına tələb qoyarkən onu

tərifləyərək başlasın. Uşağın qarşısına elə tələblər qoysun ki, onu həll etməyə potensial imkanı çatsın. Apara bilməyəcəyi yüklə uşağı yükləməsin. Cəza verəndə də uşaq başa düşməlidir ki, onu nə üçün cəzalandırırlar.

Müəllim uşağın hər bir uğursuzluğunu üzə vurmamalıdır, yerli-yersiz ona irad tutmamalıdır. Uşağın özü haqqında müsbət təsəvvürə malik olması çox mühümdür- bunsuz psixi sağlamlıqdan və normal inkişafdan söhbət gedə bilməz.

Müəllim uşağı qiymətləndirərkən mütləq bu keyfiyyət baxımından olmalıdır. Çünki, uşaqlar cəzalandırılmaqdan qorxmadan, hətta, gördükləri iş bəzən alınmasa belə özlərini bacardıqları və istədikləri kimi göstərsinlər.

Müəllim heç bir vaxt uşağı başqası ilə müqayisə etməməlidir, ona başqasını nümunə göstərməməlidir. Mühüm olan-onun naliyyətlərinin nəticəsi yox, daxili azadlığı, emosional rifahıdır. Uşaqlar özləri- özlərinə nümunə seçəcəklər kimi istəsələr onu.

Müəllim uşağa həddən artıq diqqət və simpatiya göstərməməlidir. Çünki bunun xeyrindən çox ziyanı ola bilər. Mütamadi olaraq belə münasibətə alışmış uşaq ondan azacıq məhrum olduqda, narahatlıq keçirir, ona qarşı münasibətin dəyişməsində özünü günahkar sayır.

Müəllim sözdən istifadə etmədən də həvəsləndirmə və cəzalandırma üsullarından istifadə edə bilər. Bunlar təbəssüm, əl sıxma, dostcasına çiyninə vurma və yaxud, sərt baxış, üzdə narazılıq ifadəsi və s. ola bilər. Müəllim çalışmalıdır ki, hər bir uşağa həyatın ən əsas tələbatı olan özünü tam mənada şəxsiyyət kimi hiss etmək istəyini gerçəkləşdirmək üçün yol açsın. Bütün uşaqların müvəffəqiyyətlə oxuya bilməsi və öz imkanlarını aşkara çıxarması üçün müəllim tərəfindən dayağın olması, müəllimin xeyirxahlığının, uşağın qazandığı uğurlarda şəxsən maraqlı olmasının əhəmiyyəti çox böyükdür. Müəllimin pedoqoji mədəniyyəti şagirdlərin qiymətləndirilməsində də çox əhəmiyyətlidir. Qiymətləndirmə ilk əvvəl uşaqda müsbət emosiyalar yaratmalıdır. Yüksək pedoqoji mədəniyyətə malik müəllim ən çox şagirdlərin səhvlərini deyil, naliyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə çalışmalıdır. Müəllim bilməlidir ki, qiymətləndirmə "Səhv cavblar olmur, sadəcə, onlar müxtəlif olur" prinsipi əsasında qurulur. Çox vacibdir ki, müəllim səhv cavaba "Sən düz demirsən" əvəzinə "Bir daha fikirləş", "Bu maraqlı fikirdir, lakin sualımız başqadır" kimi əks- əlaqə yaratsın. Cəzalandırmağa gəldikdə isə, müəllim çalışmalıdır ki, aqressiv cəzanın əvəzinə şagirdə həm özünün, həm də sinfin münasibətini çatdırsın və bununla onda müsbət münasibət qazanmaq ehtiyacını canlandırsın [N.Kazımov. Səh 5]. Təlim zamanı müəllim yuxarıda göstərilənləri nəzərə almaqla yüksək dərəcədə pedoqoji mədəniyyətə malik olduğunu nümayiş etdirmiş olur.

Ədəbiyyat

1. İbrahimov, F., Hüseynzadə R. Pedaqogika / F.İbrahimov. R. Hüseynzadə. Mütərcim; – Bakı: –2013.
2. Veysova, Z. .Fəal- interaktiv təlim: / Z.Veysova Müəllimlər üçün vəsait.
3. Əzimli, Q.E. Yaş və Pedoqoji Psixologiyanın Müasir Problemləri / Q.E.Əzimli Ail məktəblər üçün vəsait. –Bakı: – 2006.
4. Mehrabov, A. Azərbaycan Təhsilinin Müasir Problemləri. / A. Mehrabov. Bakı: – 2007.
5. Kazımov, N. Məktəb pedoqogikası./ N.Kazımov Bakı: – 2011.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 256-260
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 256-260
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 256-260

UOT

Azərbaycan ədəbiyyatşünaslarının nümayəndələrinin görüşlərində estetik tərbiyə məsələləri

Müəllif:

Şahanə Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
E-mail: m.shahana1982@mail.ru

Açar sözlər:
estetik tərbiyə, mənəvi zənginlik, estetik şüur, yüksək mədəniyyət

Annotasiya. Şəxsiyyətin formalaşmasında estetik tərbiyə mühüm rol oynayır. Estetik tərbiyə insana gözəlliyi, ülviliyi duymaq, onu qiymətləndirmək bacarığı aşılayır. Estetik tərbiyə incə və nəcib duyğuları inkişaf etdirməklə qalmır, eyni zamanda, insanın yüksək əxlaqi hissələrə, anlayışlara yiyələnməsinə, bütün təbiət və ictimai həyat hadisələrinə ən ülvi insani münasibətin formalaşmasına da böyük təsir göstərir. Estetik tərbiyə ahəngdar inkişaf etmiş şəxsiyyət tərbiyyəsinin tərkib hissələrindən biridir. Estetik tərbiyə insan əxlaqına güclü təsir göstərir. Estetika gələcəyin estetikasıdır. “Estetik tərbiyə yüksək əxlaqı dəyərlərin rəhmidir” deyənlər haqlıdır.

Issues of aesthetic education at meetings of representatives of Azerbaijani literary critics

Author:

Shahana Hasanova
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology

Key word:
aesthetic education, spiritual richness, aesthetic consciousness, high culture

Abstract. Aesthetic education plays an important role in the formation of personality. Aesthetic education inculcates in a person the ability to feel and appreciate beauty and sublimity. Aesthetic education is not limited to developing subtle and noble feelings, but at the same time, it has a great impact on the acquisition of high moral parts, concepts, and the formation of the most sublime human attitude towards all natural and social events. Aesthetic education is one of the integral parts of harmoniously developed personal education. Aesthetic education has a strong influence on human morality. Aesthetics is the aesthetics of the future. Those who say that aesthetic education is the mercy of high moral values are right.

Вопросы эстетического воспитания на встречах представителей азербайджанских литературоведов

Автор:

Шахана Гасанова
Азербайджанский Государственный Педагогический Университет
Доктор философии по филологии

Ключевые слова:
эстетическое воспитание, духовное богатство, эстетическое сознание, высокая культура

Аннотация. Эстетическое воспитание играет важную роль в формировании личности. Эстетическое воспитание прививает человеку умение чувствовать красоту, величие, ценить ее. Эстетическое воспитание не только развивает нежные и благородные чувства, но и оказывает огромное влияние на овладение человеком высокими нравственными частями, понятиями, на формирование возвышенного человеческого отношения ко всем явлениям природы и общественной жизни. Эстетическое воспитание-одна из составляющих воспитания гармонично развитой личности. Эстетическое воспитание оказывает сильное влияние на нравственность человека. Правы те, кто говорит, что эстетическое воспитание - это благость высоких нравственных ценностей.

Yeni Azərbaycan maarifçiliyi və ictimai fikrinin ən böyük nümayəndəsi, peşəkar filosof, görkəmli ictimai xadim və pedaqoq olan Mirzə Fətəli Axundov istər ictimai-siyasi görüşlərində, istərsə də estetik görüşlərində öz qarşısına xalqın ictimai mənəvi azadlığı, maarifi məqsədini qoymuşdur. O, özünün komediyalarında və digər əsərlərində doğma vətəninin gözəlliklərindən, Azərbaycan xalqının yüksək mənəvi keyfiyyətlərindən sevə-sevə, dərin bir məhəbbətlə bəhs etmişdir. M.F.Axundov poeziyanın insanın estetik tərbiyəsində oynadığı rolu yüksək qiymət¬lən-dirərək bundan gənc nəslin estetik şüurunun inkişafında geniş istifadə etməyin tərəfdarı olmuşdur. O, özünün "Kamalüddövlə məktubları"nda poeziyanın mahiyyətini yanlış başa düşüb, hər pərpuç nəzmi poeziya hesab edənləri tənqid atəşinə tutmuşdur. Lakin M.F.Axundov yalnız poeziya deyil, incəsənətin bir sıra başqa növləri haqqında da elmi-nəzəri mülahizələr irəli sürmüş, onların inkişafı uğrunda mübarizə aparmışdır. O, incəsənəti "zehnə cila verən, ağlı cövhərləndirən", insanların mənə¬vi və estetik tərbiyəsində böyük rol oynayan vasitə adlandırmışdır. Təsviri incəsənət növlə¬ri¬nə-rəssamlığa, heykəltəraşlığa böyük əhəmiyyət verərək, söz sənətilə ifadə olunmadan əlavə rəng, səs, işıq və kölgə ahəngdarlığından, ifadəliliyindən, təsir gücündən də istifadə etməyi lazım bilmişdir. M.F.Axundov izah etməyə çalışır ki, həyat və onun gözəllikləri tam və hərtərəfli şəkildə yalnız söz sənəti vasitəsilə tərənnüm oluna bilməz. İnsanların hissetmə qabiliyyətləri, zövq, duyma dərəcələri çeşidli və müxtəlifdir. Həyatdakı gözəlliyin rəngarəngliyini dolğun əks etdirmək və onu xalq malı etmək üçün isə incəsənətin başqa növlərindən, onların təsvir vasitələri və imkanlarından istifadə olunmalıdır. Buna görə Axundov incəsənətin növlərini zamanın tələbi səviyyəsinə çatdır¬mağı, inkişaf etdirməyi zəruri hesab edir, onların estetik imkanlarını yüksək qiymətləndirirdi.

M.F.Axundov xalqın ümumi mədəniyyətinin, maarifinin, o cümlədən, ana dilinin inkişafında, xalq kütlələrinin savadlanması işində ərəb əlifbasının böyük əngəl olduğunu görmüş və düz 20 il bu əlifbanın dəyişdirilməsi uğrunda mübarizə aparmışdır. M.F.Axundov özünün bütün komediyalarında, xüsusilə "Hekayəti Molla İbrahim Xəlil kimyagər" komediyasında xalqı sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkisaf etdirmək, xalqın azadlığı, mədəni rifahını insanı real həyatadan uzaqlaşdıra, xurafat ruhu ilə dolduran "din xadimləri"nə qarşı mübarizə aparmaqda görmüş, onları xalqın şüurunun, xüsusilə də estetik şüurunun inkişafında baslica əngəl kimi görmüşdür. Dahi dramaturq özünün "Hacı Qara" kamediyasında xəsislik, deyingənlik, qorxaqlıq və s. kimi mənfi keyfiyyətləri tənqid atəşinə tutur [3].

Böyük Azərbaycan dramaturqu M.F.Axundovun ədəbi, bədii publisist və fəlsəfi fikri, praktik pedaqoji fəaliyyəti indi də məktəblərimizdə gənc nəslin tarbiyəsinin, xüsusilə də estetik tərbiyəsinin düzgün təşkilində öz təravətini ilk günkü kimi saxlamaqdadır.

XIX əsrin ikinci yarısında Azərbaycan maarifçiləri içərisində H.Zərdabi fəxri yerlərdən birini tutur. Azərbaycanın ictimai və pedaqoji fikir tarixinin ən parlaq nümayəndəsi, ziyalılarımızın tribunasına çevrilmiş "Əkinçi" qəzetinin baş redaktoru Həsən bəy Zərdabinin fəaliyyəti xüsusilə təqdirə layiqdir. O, yaşadığı dövrdə xalqının estetik şüurunun xəstə halını sağaltmağın əsas yolunu xalqın maariflənməsində, mədəni tərəqqi yoluna düşməsində görür, təlim və tərbiyə məsələlərinə xüsusi əhəmiyyət verərək deyirdi: "Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur"[7, s.42]. Zərdabi incəsənətə xalqın tarixi, mədəni inkişafının bir amili kimi baxmış, onun demokratik əsasda tərəqqi etməsi uğrunda daim mübarizə aparmışdır. İncəsənətin xalq həyatındakı rolu, yüksək tərbiyəvi əhəmiyyəti onun diqqət mərkəzində olmuşdur. H.B.Zərdabinin "Əkinçi" qazetinin 1876-cı il 18-ci nömrəsində mahnı janrını təbliğ edən məqaləsi böyük ictimai və estetik qiymətə malikdir. O, yazır: "Məlumdur ki, hər kəsin mahnıdan xoşu gəlir və bir yaxşı sövqi olan-olmayan özü mızıldamağa durur. Bu səbəbdən də mahnı çərəndiyat hesab olunur isə də, çox vacib şeydir. Ona binaən mənasını yaxşılaşdırmaq səyinə düşmək lazımdır, hər tayfanın keçmişdə və indi ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olan mahnılar vardır. Bizdə isə hayıf ki, "avam çağıran, heç mənası olmayan mahnılar vardır. Bizim şüərlar bir-birini həcv və ya mədh etmək əvəzinə zikr olan məzmunda mahnılar düzəldəydilər ki, onlar ağızdan-ağıza düşüb, xalqı nadanlıqdan danalığa təhrik etməyə bais olaydı" [7, s.56].

Ş.Ə.Şirvani dövrünün böyük şairi olmaqla bərabər görkəmli pedaqoq və maarifçi idi. O, özünün ikinci sinif şagirdi üçün tərtib etdiyi "Rə-

biül-ətfal" və "Tacül-Kütüb" adlı dərsliklərində və digər əsərlərində doğma xalqın uşaqlarının hərtərəfli tərbiyəsinə qayğı ilə yanaşmış və açdığı məktəbdə yetişməkdə olan gənc nəslin ahəngdar inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Rəşid bəy Əfəndiyev Azərbaycan maarifi və pedaqoqu fikrin inkişafında mühüm xidmətlər göstərən görkəmli müəllim və pedaqoqlardan biridir. Onun "Uşaq bağçası" və "Bəsirətül-Ətfal" kitabları gənc nəslin tərbiyəsi baxımından çox böyük əhəmiyyətə malikdir. Xüsusilə "Bəsirət-ül-Ətfal" kitabının II hissəsindəki ədəbiyyat və tərbiyə məsələlərinə həsr edilmiş mətnlər təfəkkür və təxəyyülünün inkişafında müəllifin öz dilincə desək "şagirdlərin qəlbinə, kamalincə nəsihət etdirəcəkdir"(5). İnsanın hərtərəfli inkişafında, estetik şüurunun formalaşmasında elmi, maarifi çox yüksək qiymətləndirərək özünün "Elm tükənməz xəzinədir" adlı məqaləsində göstərmişdir ki, "Ələxsus bizim əsrimizdə elmin qədir və qiyməti hər şeydən alidir. Çünki əvvəlcədən elm bu halda puldan və parçadan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir". R.Əfəndiyevin pedaqoji fikirləri içərisində tərbiyə məsələlərinə xüsusi əhəmiyyət verərək onun tərifini belə müəyyən etmişdir: "Tərbiyə insanı bəsləyib onun bədəninə, ruhuna və əxlaqına yavaş-yavaş qüvvət kəsb etdirməyə deyildir" [4, s.20]. O, özünün "Qan ocağı" adlı əsərində xalqın mənə¬vi və estetik tərbiyəsinə bəhs etmiş, cəmiyyətdə baş verən oğurluq, yalan danışmaq, nadanlıq, başqalarının hüquqlarının tapdanması və s. kimi mənfilikləri tənqid atəşinə tutmuşdur. R.Əfəndi¬yevin zəngin pedaqoji irsi indi də məktəblərimizdə gənc nəslin hərtərəfli, ahəngdar inkişafında geniş istifadə edilməkdədir.

"Həyat" qəzetinin redaktoru olmuş, elmi-fəlsəfi və maarifçi-pedaqoji xarakterli çoxsaylı əsərlər müəllifi Əlibəy Hüseynzadə tərbiyəyə xüsusi əhəmiyyət verərək tərbiyəyə uşaqlıq dövründə başlamağın zəruriliyini dönə-dönə qeyd edir. O, yazır: "Erkən uşaqlıq dövründən gözəl davranış qaydalarını mənimsəməzsə və müvafiq tərbiyə almazsa, yaşa dolduğu dövrdə ona imdad yoxdur, əgər cavan ağacı necəsə əymək mümkünsə, quru ağacın məsələsini yalnız odla həll etmək olar" [6, s.11].

Əlibəy Hüseynzadənin ədəbi-bədii irsi də gənc formalaşması baxımından çox əhəmiyyətlidir.

Cəlil Məmmədquluzadə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tututr. Xalq kütlələrinin maariflənməsi işində böyük xidmətləri olan "Molla Nəsrəddin" adlı satirik jurnalın əsasını qoyan C.Məmmədquluzadə bu jurnal vasitəsilə hələ də qəflət yuxusunda mürgüləyən doğma xalqının mədəni rifahına çalışmışdır, bunun üçün əlindən gələni əsirgəməmişdir. O, özünün bütün əsərlərində, xüsusilə də "Danabaş kəndinin əhvalatlari", "Danabaş kəndinin məktəbi", "İranda hürriyyət", "Poçt qutusu", "Quzu", "Qurbanəli bəy", "Saqqallı uşaq", "Usta Zeynal" kimi əsərlərində gerilik, nadanlıq, cəhalət, avamlıq, xəyanət, ikiüzlülük, mənəvi pozğunluq, yalançılıq, fırıldaqçılıq və s. kimi insanın daxili gözəlliyinə ləkə olan mənfi xüsusiyyətləri tənqid atəşinə tutaraq, insanı bu kimi mənəvi çirkinlərdən çəkindirməyə çalışmışdır.

O, görkəmli yazıçı, məşhur jurnalist, tanınmış ictimai xadim, demokratik fikirli müəllim olmuş və zəngin pedaqoji irs qoyub getmişdir. Bu zəngin irsdən indi də məktəblərimizdə hərtərəfli inkişaf etmiş gənc nəslin tərbiyəsində geniş istifadə olunmaqdadır.

Azərbaycan mədəniyyəti, ədəbiyyatı, məktəb və pedaqoji fikir tarixində satirik şair, pedaqoq Mirzə Ələkbər Sabir özünün orjinal fikirləri ilə mədəniyyətin, məktəb təhsilinin, gənclərin tərbiyəsinin tərəqqisinə çalışmışdır. Sabir hər zaman çox sevdiyi doğma xalqın maariflənməsi, azad, işıqlı dünyaya çıxması arzusu ilə yaşayır və ümidini böyüməkdə olan gənc nəslin düzgün və hərtərəfli tərbiyəsinə bağlayırdı. O, özünün "Tərbiyə" adlı şerində yazırdı:

"... Tərbiyyətlə keçir ümuri-cahan
Hər işin ibtidasi tərbiyədir!
Tərbiyət elmsiz deyil məqbul
Ki, onun müqtəzası tərbiyədir!" [8, s.45].

Onun "Yalançı çoban", "Uşaq və buz", "Ağacların bəhsi", "Molla Nəsrəddin və oğru", "Cütcü" və s. kimi əsərləri uşaq ədəbiyyatının ən yaxşı nümunələri olmaqla uşaqların estetik tərbiyəsində müstəsna əhəmiyyətə malikdir. M.Ə.Sabir özünün bütün əsərlərində cəmiyyəti kökündən sarsıdan mənəvi xüsusiyyətlərə qarşı barışmaz nümayiş etdirmiş, məktəbə, təhsilə qarşı cixan avam xalqa cahilliyin insan həyatında necə böyuk nadanlığa, geriliyə səbəb olduğunu göstərməyə çalışmışdır. "Oxutmuram, əl çəkin", "Uşaqdır, uşağım" əsərləri bu cəhətdən çox böyük əhəmiyyətlidir.

Abbas Səhhət görkəmli Azərbaycan şairi olmaqla yanaşı, həm də maarifçi, pedaqoq, həkim və publisist, ictimai xadim idi. O, insanın təhsil və tərbiyəsini yüksək qiymətləndirərək onu "bütün dərdlərin əlacı", "bütün xəstəliklərin dərmani" adlandırmışdır. A.Səhhət gənc nəslin bədii estetik zövqünün formalaşmasına xüsusi əhəmiyyət verirdi. Onun 1916-cı ildə yazdığı "Məktəblərdə nəğmə və musiqinin əhəmiyyəti" adlı məqaləsi bu mənada ayrıca əhəmiyyət kəsb edir.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaradan Nəriman Nərimanov məşhur pedaqoq, dramaturq, nasir, publisist, həkim olmaqla bərabər, həm də görkəmli dövlət xadimi olmuşdur. XIX əsrin sonlarında Azərbaycan xalqının ağır, acınacaqlı həyat tərzi, ölkədə hökm sürən savadsızlıq, mədəni gerilik, nadanlıq, məktəblərdə dərindən kök salan skolostika onu dərindən düşündürmüşdür. N.Nərimanov bütün əsərlərində insan şəxsiyyətinin formalaşmasında, təşəkkülündə tərbiyənin, elmin, təhsilin əhəmiyyətini xüsusilə qeyd edir. O, pedaqoji görüşlərində tərbiyənin yalnız uşaqlar üçün deyil, böyüklər üçün də vacib olduğunu göstərir. Onun fikrincə, yaşlıların gözəl mənəvi sifətlərə malik olması, cəmiyyətin inkişafına, saflığına xidmət etdiyi kimi, uşaqların düzgün tərbiyəsinə də təsir edir. N.Nərimanov "Gəncədə teatr barəsində bir neçə söz" adlı məruzəsində gənc nəslin estetik tərbiyəsinə xüsusilə qayğı ilə yanaşmışdır. Ən qədim sənət növü olan teatrın vəzifəsindən bəhs edərkən, qeyd edir ki, müsəlmanlar teatra əyləncə vasitəsi kimi baxmağa meyl edir və buna görə də teatrı bir o qədər sevmirlər. Halbuki "teatrda bu qüsur atımızı görüb, əlbəttə, çalışırıq ki, özümüzü yaxşı adamlara oxşadaraq və pis adamlardan uzaq olaq. Teatr böyüklər üçün bir növ məktəbdir. Necə ki, uşaqlar məktəbdə gözəl şeylər əxz edirlər, elə də bizlər teatrdan gözəl sifətlər əxz edirik". N.Nərimanov teatrın idraki və tərbiyəvi rolunu, xalq arasında bilik yaymaqla, kütlələrin maariflənməsində onun görkəmli əhəmiyyətini göstərirdi [8].

N.Nərimanovun bu zəngin irsi gənc nəslin estetik tərbiyə işində indi də istifadə olunmaqdadır.

Müasir Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, milli eramızın banisi, istedadlı bəstəkar, görkəmli müəllim-pedaqoq Üzeyir Hacıbəyov gənc nəslin estetik tərbiyəsinə xüsusilə qayğı göstərmişdir. Azərbaycan konservatoriyasının rektoru olmuş Ü.Hacıbəyov burada musiqi nəzəriyyəsindən və Bakı darülmüəllimində musiqi tədrisi üsulundan dərs deyir, musiqi sahəsində elmi pedaqoji əsərlər yazır, Azərbaycan musiqi mədəniyyəti üçün yeni olan bir sıra dərslərin proqram və tədris üsulunu işləyir, doğma xalqın qızlarını musiqi təhsilinə cəlb edir. U.Hacıbəyovun bütün yaradıcılığı kimi, musiqili əsərləri də tərbiyə məsələləri ilə doludur. O, teatr tamaşalarının əxlaqi-bədii, estetik tərbiyəvi cəhətinə cox böyük əhəmiyyət verirdi və deyirdi ki, tamaşaya qoyulan hər bir əsər həyatımızın həm əxlaqi tərəfini, həm də xalqın estetik hisslərini tərbiyə etməlidir. O, teatrın hər bir növünün özünəməxsus tərbiyəvi əhəmiyyətini göstərərək deyirdi: "...mən, yalnız tək musiqi səhnə tamaşalarının tərəfdarı deyiləm. İctimai tərbiyə üçün həm faciə, həm drama, həm komediya, həm opera, həm də operetta lazımdır" [4. S.35].

Ü.Hacıbəyov özünün "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad"musiqili komediyaları, "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşudbanu" operası, əsrarəngiz uverturaları, romanları, tərcümələri zamanın tələbini özündə əks etdirən uverturaları, romansları, tərcümələri, zamanın məqalələri, hekayələri, felyatonları, elmi-padaqoji fəaliyyəti ilə gənc nəslin estetik şüurunun inkişafında, estetik tərbiyəsində misli heç nə ilə ölçülməyən xidmətləri ilə Azərbaycan xalqının estetik fikir tarixində özünəməxsus şərəfli yer tutur [1].

Azərbaycanın görkəmli maarifpərvər ziyalılarının həyatı, yaradıcılığı, zəngin elmi pedaqoji irsi indi də ümumtəhsil məktəblərində estetik cəhətdən inkişaf etmiş Şəxsiyyətin formalaş-dırılmasında geniş istifadə olunmaqdadır.

Ədəbiyyat

1. Aslanov, A. Estetika aləmində / A.Aslanov, Bakı: Yazıçı, – 1988.
2. Axundzadə, M. F. Əsərləri I cild / M. F. Axundzadə Bakı: Azərb. SSR. EA, – 1958.
3. Axundzadə, M. F. Əsərləri Il cild / M. F. Axundzadə Bakı: Azərb. SSR. EA, – 1961.
4. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I kitab. Bakı: Elm, – 2006.
5. Əhmədov, Ə. Mənəviyyat, gözəllik, tərbiyə / Ə. Əhmədov Bakı: Maarif, – 1983.
6. Əhmədov, H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.Əhmədov M, Bakı: ABU, 2001, – 320 s.

7. Seyid Əzim Şirvani. Şeirləri. Bakı: Azərnəşr, – 1963.
8. Köçərli, F. Azərbaycan ədəbiyyatı tarixi məsələləri. II cild, 1 hissə / F.Köçərli, Bakı: Azərnəşr, –1926.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 261-264
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 261-264
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 261-264

UOT

Şagird şəxsiyyətinin formalaşmasında sinifdənxaric oxunun rolu

Müəllif:

Nüşabə Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu

Açar sözlər:
şagird, şəxsiyyət, müəllim, sinifdənxaric oxu, uşaq ədəbiyyatı, təfəkkür, nitq, maraq, əqli, əxlaqi, bədii, tərbiyə

Annotasiya. Məqalədə şagird şəxsiyyətinin formalaşmasında sinifdən xaric oxunun rolundan danışılır. Şagirdlərin əqli, əxlaqi və bədii tərbiyəsində sinifdənxaric oxunun rolu böyükdür. Sinifdənxaric oxunun şagirdlərə göstərəcəyi təsir materialın keyfiyyətindən, onun məzmun və bədii cəhətdən dolğun-luğundan asılı olduğu üçün müəllim kitabların seçilməsinə, onların şagirdlərin yaş və bilik səviyyələrinə uyğun olmasına ciddi fikir verməlidir. Sinifdənxaric oxu metodik cəhətdən düzgün təşkil edildikdə şagirdlərin şifahi nitqini inkişaf etdirmək imkanı da genişlənir. Şagirdlərin bədii zövqünü və marağını nəzərə almaq şərti ilə sinifdənxaric oxu üzrə aparılacaq işləri hər dərs ilinin əvvəlində planlaşdırmaq lazımdır. Hər sinif üçün illik sinifdənxaric oxu materialını müəyyənləşdirərkən ayrı-ayrı şagirdlərin bilik səviyyəsi, dərs müvəffəqiyyəti nəzərə alınmalıdır.

The role of extracurricular reading in the formation of student personality

Author:

Nushaba Mammadova
Nakhchivan Teachers Institute

Key word:

student, personality, teacher, extracurricular reading, children's literature, thinking, speech, interest, mental, moral, artistic, upbringing

Abstract. The article discusses the role of reading outside the classroom in the formation of student personality. The role of extracurricular reading in the mental, moral and artistic education of students is great. Since the impact of extracurricular reading on students depends on the quality of the material, its content and artistic richness, the teacher should pay close attention to the selection of books, their suitability for the age and level of knowledge of students. When extracurricular reading is methodologically correct, students have the opportunity to develop their oral speech. Extracurricular activities should be planned at the beginning of each school year, taking into account the artistic tastes and interests of students. When determining the annual extracurricular reading material for each class, the level of knowledge of individual students and the success of the lesson should be taken into account.

Роль внеклассного чтения в формировании личности ученика

Автор:

Нушаба Мамедова
Нахчыванский институт учителей

Ключевые слова:
ученик, личность, учитель, внеклассное чтение, детская литература, мышление, речь, умственное, нравственное, художественное воспитание

Аннотация. В статье рассказывается о роли внеклассного чтения в формировании личности ученика. Велика роль внеклассного чтения в умственном, нравственном и художественном воспитании учащихся. Поскольку влияние, которое внеклассное чтение окажет на учащихся, зависит от качества материала, его содержательной и художественной наполненности, учитель должен серьезно отнестись к выбору книг, их соответствию возрасту и уровню знаний учащихся. При методически правильной организации внеклассного чтения расширяется и возможность развития устной речи учащихся. Необходимо планировать работу по внеклассному чтению в начале каждого учебного года при условии учета художественного вкуса и интереса учащихся. При определении годового внеклассного материала для чтения для каждого класса следует учитывать уровень знаний отдельных учащихся, успешность урока.

Sinifdənxaric oxu şagirdlərin ədəbiyyat dərslərində öyrəndiyi əsərlərlə müstəqil mütaliəsi arasında körpü rolunu oynayır. Dərsliklərdəki hər bölmə üzrə planlaşdırılan sinifdənxaric oxu dərslərində müəyyən ədəbi-tarixi dövr üzrə tövsiyə olunmuş əsərlər üzrə təqdimatlar dinlənilir, müzakirə olunur. Bu dərslərdə istər fərdi, istərsə də kiçik qruplarda iş növlərindən istifadə olunur. Şa¬girdlər dərs ilinin əvvəlində müəllimin tövsiyəsi ilə oxunacaq əsərlərin siyahısını müəyyənləşdirir və bir neçə həftə ərzində hər sinifdənxaric oxu dərsinə hazırlıq işləri görürlər. Bu dərslərdə həm dərs, həm də sinifdənxaric iş elementləri geniş yer tutur. Şa¬girdlər dərsi, bir növ, “kitab, mütaliə bayramına” çevirir, öz müstəqil fəaliyyətlərinin nəticələrini təqdim edirlər. Sinifdənxaric oxu dərslərində mövzu ilə bağlı kitab sərgisi, sənətkarların portreti, əsərlərə çəkilmiş illüstrasiyalar, divar qəzeti, ədəbi jurnal, ifadəli oxu, inşa, esse, məruzə müsabiqəsi, səhnələşdirmələrdən istifadə şagirdlərin hafizəsində iz salır, uzun zaman unudulmur.

Bu dərslər məktəbdə kitab, mütaliə mühiti yaradılmasında, şagirdlərin mütaliə mədəniy-yətinin inkişafında, müstəqil mütaliəyə həvəsinin artırılmasında, ədəbiyyat dərslərində qazanılmış bilik və bacarıqların sinifdənxaric oxunmuş əsərlər üzrə tətbiqində mühüm rol oynayır [5, s.2].

Mütaliə mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayan sinifdənxaric oxu dərsləri şagirdlərin mütaliə etdikləri kitabların müzakirəsi, əsər barədə rəy və mülahizələrinin öyrənilməsi, kitab, mütaliə mühitinin yaradılması üçün geniş imkanlar yaradır. Bu dərslərdə sinif¬dənxaric iş elementlərindən istifadə, şa¬girdlərin maraq və qabiliyyətlərinin daha çox nəzərə alınması, sərbəst rəy mübadiləsi mütaliə mədəniyyətinin formalaşdırılmasına zəmin yaradır, mütaliə ilə bağlı yaradıcılıq və təşəbbüskarlığın, müstəqil mütaliəyə həvəsin artırılmasına səbəb olur.

Sinifdənxaric oxu üçün qeyd dəftərçələrinin düzəldilməsi də vacib məsələdir. Həmin dəftərə oxunmuş kitabın adı, müəllifi, harada və nə vaxt nəşr edildiyi, qısa məzmunu, şagirdləri ən çox maraqlandıran parçalar, çətin söz və ifadələr və s. yazılır. Dəftərlər müntəzəm olaraq yoxlanılır, şagirdlərə lazımi göstərişlər verilir. Müəllim dəftərləri yoxlayarkən şagirdlərin mütaliəyə olan marağını, və necə oxuduqlarını nə dərəcədə başa düşdüklərini müəyyən¬ləş¬di-rərək, müvafiq nəticələr çıxarmalıdır. Şagidrlərdə sinifdənxaric oxuya maraq tərbiyə etmək üçün hər dəfə dəftərin yoxlanışından sonra çox kitab oxumuş və yaxşı qeydlər aparmış olan şagirdləri məktəb divar qəzetində, sinif iclasında, ümumi yığıncaqlarda tərifləmək və başqa həvəsləndirici tədbirlər həyata keçirmək çox faydalıdır [2, s.26].

Sinifdənxaric oxunun təşkili üzrə aparılan işlər ibtidai siniflərdə oxu təliminin mühüm sahələrindəndir.

Bu işin səmərəli təşkili isə şagirdlərin intellektual və emosional inkişafına, həmçinin müxtəlif fənlər üzrə biliklərin dərindən və şüurlu mənimsənilməsinə güclü təsir göstərir.

Sinifdənxaric oxunun məqsədi I-IV sinif şagirdlərinin oxu və yazı vərdişlərinin təkmil-ləşdirilməsini təmin etməklə, təbiət və ictimai həyat haqqında onların dərsliklərdən aldıqları biliklərini genişləndirmək, təfəkkürünü bədii obrazlarla zənginləşdirmək, nitqini, fantaziyasını inkişaf etdirmək, vətənə, xalqa, ana dilinə, elmə və s. məhəbbət hissləri tərbiyə etmək, humanist hisslər aşılamaq, onlarda kitabla müstəqil işləmək və ona böyük həvəs yaratmaqdır.

Bu məqsədə müvafiq olaraq, sinifdənxaric oxunun qarşısında müəyyən vəzifələr durur:

- şagirdlərdə uşaq ədəbiyyatına maraq və məhəbbət hisslərinin tərbiyə olunması;
- şagirdlərin oxu vərdişlərinin təkmilləşdirilməsi;
- oxunan materialın məzmunundan tərbiyəvi ideyanın çıxarılması;
- vətənimiz, onun qüdrəti, xalqımızın qəhrəman keçmişi, bu günü və gələcəyi, yaratdığı xarüqələr, doğma təbiətimizin zənginliyi və s. əlaqədar şagirdlərin təsəvvürlərinin zəngin¬ləş-dirilməsi;
- respublikamızın sülh siyasəti, kiçik və etnik qrupların həmrəyliyi, dostluq ideyalarının şagirdlərə çatdırılması və onlara milli mənlik şüurunun aşılanması;
- şagirdlərə ana dilinin dərindən mənimsədilməsi; onun gözəlliyinin, böyük qüdrətinin dərk etdirilməsi, onlardan zövq almaq qabiliyyətinin formalaşdırılması, nitq və təfəkkürlərinin inkişaf etdirilməsi;
- uşaqlarda əməyə, əmək adamlarına, müxtəlif sənət və peşələrə rəğbət hissinin aşılanması və s.

Məktəb təcrübəsi göstərir ki, bu vəzifələri müvəffəqiyyətlə həll etmək üçün müəyyən pedaqoji tələblər gözlənilməlidir:

1) sinifdənxaric oxu üçün materiallar se-

çilərkən şagirdlərin yaş və bilik səviyyəsinin nəzərə alınması;

2) sinifdənxaric oxunun müntəzəm, mütəşəkkil və sistemlə aparılması;

3) sinifdənxaric oxunun qiraət dərslərində əldə edilən biliklərlə əlaqələndirilməsi;

4) şagirdlərə təqdim olunan materialların həyatımızın, məişətimizin müxtəlif sahələrini əhatə etməsi;

5) şagirdlərə verilən sual və tapşırıqların əsərin əsas məğzini üzə çıxarmağa xidmət etməsi;

6) il boyu şagirdlərə tövsiyə olunan əsərlərin rəngarəngliyinin təmin olunması;

7) tövsiyə olunan əsərdə yazıçının məqsədinin, əsərin məzmununun müəyyənləşdirilməsi və tərbiyəvi ideyanın çıxarılması;

8) əsərin məzmununun müasir həyatla, şagirdlərin müşahidələri və şəxsi təcrübələri ilə əlaqələndirilməsi.

9) əsərin müzakirəsində şagirdlərin yaradıcı fəallığının, fantaziyasının, rabitəli nitqinin tədricən inkişaf etdirilməsi;

10) əsərin məzmununa şagirdlərdə emosional münasibət bildirmək bacarıqlarının aşılanması və s.

İnformasiyalar axının təssəvürəgəlməz dərəcədə artdığı indiki şəraitdə gənc nəslin təlim-tərbiyə sahəsindəki tələbatını sinifdə yalnız oxu dərslərinin keçirilməsi ilə ödəmək mümkün deyil. Ona görə də bu tələbatı ödəmək məqsədi ilə sinifdənxaric məşğələlərdə ibtidai sinif şagirdlərinə proqramın tələblərinə uyğun bədii (nağıl, hekayə, şeir və s.) və elmi-kütləvi (tarix, coğrafiya, təbiətşünaslıq və s.) əsərləri, qəzet və jurnal məqalələri oxunub müzakirə etdirilməli, təlim-tərbiyə əhəmiyyəti olan nəticələr çıxarılmalıdır [3, s.68].

Sinifdənxaric oxu ilə əlaqədar müəllimlərimizi həmişə belə bir məsələ düşündürür.

Görəsən, bir sinifdənxaric oxu üçün hər dəfə neçə əsərin müzakirəsini tapşırmaq olar?

Əlbəttə, bu məsələ müəllimdən bir qədər dərin düşünmək, götür-qoy etmək tələb edir. Müəllim şagirdlərin bu sahədəki təcrübəsini və ümumi inkişafını, onlara tövsiyə etdiyi əsərin həcmini diqqət mərkəzində saxlamalıdır.

Əgər müəllimin məqsədi tutaq ki, IV sinifdə sinifdənxaric oxu məşğələsində müəyyən bir kitabın müzakirəsini keçirməkdirsə, o zaman sinfə yalnız bir kitab verə bilər.

Yaxud, I-IV siniflərdə I və II yarımilin sonunda sinifdənxaric oxu materiallarının xatırlanmasına həsr olunmuş toplanış keçiriləcəksə, bu zaman müəllim şagirdlərə 8-10 kitabın təkrar oxusunu tövsiyə edə bilər. Qalan bütün hallarda sinifdənxaric oxu üçün şagirdlərə 2-3 kitabın oxusu tapşırılmalıdır.

Həmin kitabları əvvəlcədən müəllim özü oxumalı, onların məzmunu, ideyası ilə əlaqədar sual və tapşırıqlar hazırlanmalıdır. Müzakirə prosesində hər dəfə şagirdlərin diqqətini tərbiyəvi nəticənin çıxarılmasına yönəltməlidir.

Əvvəlcədən sinfə verilən sual və tapşırıqlar şagirdlərin oxuya məsuliyyətini artırır, hər kəs sual və tapşırıqlara müstəqil cavablar axtarır, araşdırır, obrazların fəaliyyətini qiymət¬lən¬-di-rir, yazıçının məqsədini başa düşür. Həmçinin bu sual və tapşırıqlar şagirdlərin bilik səviyyəsini müəllimə diqtə edir.

Bildiyiniz kimi, uşaqlara oxumağı öyrətmək də daxil olmaqla hər hansı bir iş maraq doğursa, daha çox meyvə verəcəkdir. Oxumağa marağın inkişafı həmişə ədəbiyyat müəllimini narahat edirdi. Sinifdənxaric oxu dərslərinin quruluşunu da qeyd etmək lazımdır . Yalnız canlı, emosional, sinifdənkənar dərslərin keçirilmə üsulları ilə fərqlənən, uşaqların diqqətini çəkən və saxlayan oxumağa olan marağı inkişaf etdirir. Sinifdənxaric oxu, adi bir dərsdən fərqli olaraq, uşaqların yaradıcı düşüncəsinin bir az daha çox azadlığını ehtiva edir [1, s.19].

Sinifdənxaric oxu dərsləri elə qurulmalıdır ki, şagirdlər aktiv olsunlar, oxumağı sevsinlər və bununla məşğul olsunlar. Dərsdəki atmosfer uşaqlara kömək etməli , yaradıcı olmalıdır. Şagirdlər fikirlərini bildirməli, məsləhət verməkdən çəkinməməli, yoldaşlarına dost münasibət göstərməli, başqasını dinləmək və başa düşmək qabiliyyətinə malik olmalıdırlar.

Məkan və dizayn seçimində, sinifdənxaric iş formalarının geniş istifadəsində, əsərlərin sərbəst şəkildə müzakirə üçün seçilməsində, müasir ədəbiyyata müraciət etmə qabiliyyə¬tin-də özünü göstərən parlaqlıq və hətta şənlik - sinifdənxaric oxu dərslərinin xüsusiyyətləridir.

Sinifdənxaric oxu dərsləri müəyyən bir sistemə uyğun qurulmalıdır. Onların təşkili aşağıdakı prinsipləri rəhbər tutaraq pedaqoji cəhətdən məqsədəuyğun olmalıdır: mütaliənin müntəzəmliyi və məqsədyönlülüyü; hər növ fəaliyyətdən yaradıcı istifadə; dərslərin hazırlan-ması və aparılması, sinifdənxaric işlərin təşkili və validey-

nlərə metodiki yardım göstərilməsini özündə birləşdirən sinifdənxaric oxumanın pedaqoji rəhbərliyi.

Ədəbiyyat dərsləri ilə paralel olaraq sinifdənxaric oxu, şagirdləri geniş ədəbiyyat dünyası ilə tanış edir: onları geniş çeşidli kitablarla tanış edir, və oxu fəaliyyətinin fərdi aspektlərini oxu mədəniyyətinin vahid kompleksinə birləşdirərək, hər bir uşaq üçün fərdi müstəqil oxu təcrübəsi formalaşdırır, buna paralel olaraq uşağın öz dünyaya baxışını və ətrafdakı reallığı qəbul etməsini formalaşdırır.

Sinifdənxaric oxu, uşaqlara oxumağı öyrətməyin xüsusi bir hissəsidir, məqsədi yalnız uşaqlara mövcud oxu dairəsindən kitablar haqqında məlumat vermək, onlarda bir vərdiş inkişaf etdirmək deyil, eyni zamanda müstəqil və sistematik şəkildə sinifdənxaric oxuya ehtiyac yaratmaqdır.

Sinifdənxaric oxumaq, şagirdlərin müstəqil seçim və kitab oxumağa hazırlığını yaxşılaşdırmaq məqsədi daşıyır, yəni uşaqlarda düzgün oxuma fəaliyyətinin (kitab oxumadan əvvəl, oxu prosesində və oxuduqdan sonra düşünmək qabiliyyəti və vərdişi), oxucunun dünya-görüşünün (genişliyi, dərinliyi, nizamlılığı) və kitaba münasibətinin formalaşmasını təmin edir.

Sinifdənxaric oxunun məqsədi şagirdləri müasir bir kiçik məktəbli oxu dərnəyinin bir hissəsi olan uşaq ədəbiyyatı ilə tanış etmək, kitaba marağı, onunla işləmək bacarıq və qabiliyyətlərini formalaşdırmaq, müstəqil oxumağa müsbət münasibət bəsləməkdir.

Bu, bir tərəfdən oxucu maraqlarını, uşaqların üfüqlərini, estetik hisslərini, bədii obrazların qavranılmasını, təxəyyül və yaradıcılığını inkişaf etdirən pulsuz dərslərdir. Digər tərəfdən, bu dərslərdə müəyyən proqram tələbləri yerinə yetirilir, fəal oxucu üçün lazım olan bacarıq və qabiliyyətlər formalaşır [4, s.99].

O. Dzhezheleyin qeyd etdiyi kimi, sinifdənxaric oxu dərsləri həyəcan verici olmalı, kitab tətilinə çevrilməli, uşaqlar səbirsizliklə onlara hazırlaşır. Sinifdənxaric oxu dərsləri məktəbliləri inkişaf etdirmək, aktiv olmağı öyrətmək üçün hazırlandığından dərslərin quruluşu son dərəcə müxtəlifdir və heç bir sxemə tabe deyil. Hər bir dərs müəllimin və şagirdlərin yaradıcılığıdır və bu dərslərdə nə qədər çox müxtəliflik, canlılıq və elastiklik əldə edə olunsa, müəllim və sinfi bir o qədər çox uğur qazanar [2, s.35].

Sinifdənxaric oxu dərslərində müəllimin rolu həlledici əhəmiyyət kəsb edir, bəzən insanın həyatı boyu mütaliənin taleyini müəyyənləşdirir. Ədəbiyyatın özünə aşiq olan müəllim ona və şagirdlərinə aşiq olur [3, s.68]

Beləliklə, ibtidai siniflərdə məktəblilərin müstəqil mütaliəsini təşkil edən bir sistem, onları fəal oxucu, ədəbiyyat həvəskarı kimi tərbiyə edən bir sistem formalaşır. Bu sistem təkcə bilik proqramı ilə deyil, həm də kitab, qəzet və jurnal dünyasında bacarıq və oriyentasiya proqramı ilə xarakterizə olunur, çünki müasir cəmiyyətdə hər bir insan özünü tərbiyə etməyə, müstəqil “bilik əldə etməyə” hazır olmalıdır.

Ədəbiyyat

1. Zeynaloğlu, C. Təlim fəaliyyətinin psixoloji prosesi. / C. Zeynaloğlu (Metodik tövsiyələr) Bakı: Print-S – 2017, –144 s.
2. Ağayev, Ş.S. Uşaq psixologiyası məsələləri. / Ş.S.Ağayev. – Bakı: – 1996.
3. Məmmədov, A.U. Təlimin psixoloji əsasları. / A.U.Məmmədov. – Bakı: – 1993.
4. Kərimov, Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası./ Y.Ş.Kərimov Bakı: – 1997.
5. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=http://tehsiljurnali.az/mektebmuellim/2069-sinifdnxaric-oxu-drslrind-yeni-tlim-texnologiyalarndan istifad. html&ved=2ahUKEwiT1srdwX7AhWyX_EDHTyeCgwQFnoECAsQAQ&usg=AOv-Vaw3bTPJsEzLqQ4lfCf6KM9sU

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 265-268
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 265-268
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 265-268

UOT

Ali təhsil müəssisələrində distant təhsilin idarə olunmasının didaktik əsasları

Müəllif:

Nübar Həsənova
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
E-mail: nubar2017@list.ru

Açar sözlər:
təhsil, idarəetmə, təlim, distant, ali təhsil müəssisələri

Annotasiya. Yeni informasiya texnologiyalarının daha çox öyrənilməsi tələbələrə imkan verəcək ki, onlar müasir texnologiyalardan daha yaxşı baş çıxarsınlar və onları əhatə edən güclü informasiya seli içərisində öz istiqamətlərini tapa bilsinlər. Amma bu cür mütəxəssislərin hazırlanması üçün isə müəllimlərin özlərinin yeni təlim texnologiyalarından baş çıxarması lazımdır. Təəssüf ki, bu gün ölkəmizdə müasir informasiya texnologiyaları vasitələri ilə günün tələbləri səviyyəsində işləməyi bacaran ali məktəb müəllimlərimiz kifayət qədər deyildir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdən fərqli olaraq respublikamızda yeni informasiya texnologiyalarından istifadə etməklə təhsil mühitinin yaradılması hələ ilkin mərhələdədir. Bu günkü tələbələr kompyuter qarşısında böyüyən, internetə qoşulmaq üçün mobil telefonlardan istifadə edən yeni nəsildir. Bu nəsil informasiyanı yalnız dünənki kitablara əsaslanaraq verən müəllimlərə inanmır. Hazırlanan gələcək mütəxəssislərin hazırlıq səviyyəsi o zaman dəyişəcək ki, onların əldə etdikləri biliklər real həyati tələblərə əsaslanacaq, tədris prosesi yaradıcı və cəlbedici olacaq. Bu isə müasir informasiya texnologiyalarından istifadə etmədən mümkün deyil.

Author:

Nubar Hasanova
Azerbaijan Tourism and University of Management, PhD student
E-mail: nubar2017@list.ru

Didactic basis of distance education management in higher education institutions

Key word:
education, management, training, distance learning, higher education institutions

Abstract. Further study of new information technologies will allow students to better cope with modern technologies and find their direction in the powerful flood of information that surrounds them. But in order to prepare such specialists, teachers themselves need to learn new teaching technologies. Unfortunately, today in our country there are not enough high school teachers who are able to work at the level of today's requirements with the means of modern information technologies. Many view new technologies as "gimmicky" tools that distract learners from learning rather than helping them. Therefore, one of the main problems is the involvement of teachers in professional development courses in order to raise the use of new technologies in educational institutions to the level of today's requirements. If there is no such possibility, then teachers will have to gain experience together with students. This especially applies to higher education institutions equipped with modern equipment. It should be noted that, unlike developed countries, the creation of an educational environment using new information technologies in our republic is still at an early stage. Today's students are a new generation who grew up in front of computers and use mobile phones to connect to the Internet. This generation does not trust teachers who give information only based on yesterday's books. The level of training of future specialists will change when the knowledge they acquire will be based on real-life requirements, and the educational process will be creative and attractive. This is impossible without using modern information technologies.

Автор:

Нубар Гасанова
Азербайджанский туризм и Университет управления, Аспирант
E-mail: nubar2017@list.ru

Дидактические основы управления дистанционным обучением в высших учебных заведениях

Ключевые слова:
образование, управление, обучение, дистанционное обучение, высшие учебные заведения

Аннотация. Дальнейшее изучение новых информационных технологий позволит учащимся лучше справляться с современными технологиями и ориентироваться в мощном потоке информации, который их окружает. Но чтобы подготовить таких специалистов, самим педагогам необходимо освоить новые технологии обучения. Особенно это касается высших учебных заведений, оснащенных современным оборудованием. Следует отметить, что, в отличие от развитых стран, создание образовательной среды с использованием новых информационных технологий в нашей республике пока находится на начальной стадии. Сегодняшние студенты — это новое поколение, выросшее перед компьютерами и использующее мобильные телефоны для выхода в Интернет. Это поколение не доверяет учителям, которые дают информацию только на основе вчерашних книг. Уровень подготовки будущих специалистов изменится, когда приобретаемые ими знания будут основываться на реальных жизненных требованиях, а образовательный процесс станет творческим и привлекательным. Это невозможно без использования современных информационных технологий.

Distant təlim texnologiyalarının tədris prosesinə daxil edilməsi dərsi təlim prosesini texnoloji və nəticəyönümlü edir. Bəli, bu yolda da çətinliklər, səhvlər var ki, bunlardan gələcəkdə də yaxa qurtarmaq mümkün olmayacaq. Lakin əsas uğur tələbələrin müstəqilliyə can atmaları, yaradıcılığa, yeni bilik əldə etmək istəyilə parlayan gözləridir. Kompüter keçilən dərsləri bir-birindən fərqli etməyə imkan verir. Daim yenilik yaratmaq həvəsi təlimə maraq oyadır.

Müasir ali məktəb müəllimi özünün peşəkar pedaqoji fəaliyyətində müxtəlif müasir informasiya texnologiyaları vasitələrindən istifadə edir. Bu gün təhsil müəssisələrində ən çox interaktiv lövhələrdən istifadə olunur [3].

- İnteraktiv lövhə - həssas ekrandır (sensorlu). O, kompüterə birləşdirilir, proyektorun köməyilə təsvirləri ekrana verir. Kompüterdə işə başlamaq üçün lövhənin səthinə toxunmaq kifayətdir. Xüsusi proqram təminatı obyekt və mətnlərlə, audio və video materiallarla işləməyə imkan verir. Bu internet resurslarından istifadəyə, açıq sənədlərin üzünü köçürməyə və informasiyanın saxlanmasına imkan verir. İnteraktiv lövhələr müəllim və tələbələrin işləməsi və yaradıcılığı üçün unikal imkanlar açır. Təlim prosesinin təşkilinə böyük kömək göstərən bu vəsait, nəzəri və praktik məşğələlərin aparılmasına da yardımçı olur. Bu qurğu kənardan baxanda adi lövhədən fərqlənmir. Lakin onunla ilk tanışlıqdan fərqliliyi hiss etməmək mümkün deyil. Bu tədris vasitəsilə iş və onun geniş spektr imkanları tələbələrin fənnə marağını artırır, kompüterin köməyilə dərsin daha maraqlı qurulmasına imkan verir, dərsdə materialın verilməsi və qəbulu prosesində əyaniliyi və dinamikliyi artırır, əks əlaqənin effektivliyini anında bəlli edir ki, material mənimsənilib, ya yox.

İnteraktiv lövhə geniş imkanlara malikdir. Bu tədris vasitəsindən istifadə təlim prosesinin effektivliyini artırır. Bu özünü əyani resurslarda, müxtəlif fənlərin tədrisində istifadə edilən inkişafetdirici təlim materiallarında, təcrübə və eksperimentlərin keçirilməsində, modelləş¬di¬r¬məyə imkanın verilməsində, tez bir zamanda lövhədə nəticələrin müəyyənləşdirilməsi üçün testlərdən istifadəyə imkan verir.

İnteraktiv lövhədən istifadə həqiqətən təlimə kömək edir. Müəllim üçün interaktiv lövhə dərsə marağı artırmaq və mənimsəməni asanlaşdırmaq üçün ən yaxşı vasitədir. İnteraktiv lövhə materialın kompüter vasitəsilə prezentasiya formasında verilməsindəki formalizmi aradan qaldırır və materialı konspektləşdirməyə ayrılan vaxtı azaldır [4].

İnteraktiv lövhədən istifadə ilə keçilən təlimin ənənəvi keçilmə metodlarından fərqlənsə də, eyni zamanda hər bir dərsin uğurlu olmasında eynilik mövcuddur. İnteraktiv lövhədən istər dərsin bütün gedişatı prosesində, istərsə də onun ayrı-ayrı mərhələlərində istifadə mümkündür. İnteraktiv lövhədən istifadə etməklə qurulan dərslərin strukturu fərqli ola bilər. Fənnin və mövzunun tipindən asılı olaraq müəllimlər interaktiv lövhənin müxtəlif imkanlarından istifadə edir. Bəzi müəllimlər mətnlərlə, mediaobyektlərlə, sahələri əlaqələndirməklə lövhədə müəyyən dəyişikliklər etməklə tələbə¬lərin diqqətini dərsə cəmləşdirirlər.

Nəzəri məşğələlərdə interaktiv qurğularla keçilən dərs istənilən məşğələni dinamik edə bilir ki, bu da sonda tələbələrin diqqətini bütün dərs boyu oyaq saxlayır. Tələbələr interaktiv lövhə ilə keçilən dərsi adi lövhə ilə keçilən və yaxud yazılı materialın paylanması ilə verilən dərsdən daha maraqlı hesab edirlər. Onlar interaktiv lövhə ilə keçilən dərslərin daha maraqlı olduğunu etiraf edirlər.

Ali məktəb müəllimləri peşəkar fəaliyyətində interaktiv lövhədən daha çox istifadə edirlər. Xüsusilə yeni dərsin izahında, çətin materialların izahına tələbələrin diqqətini cəlb etməkdə, həmçinin bəzi tematik mövzular üzrə tələbələrin biliklərini qiymətləndirərkən, sərbəst işlərin icrasında və s.

Nəzəri məşğələlərdə interaktiv lövhədən istifadə bütün tələbələrin, hətta zəif oxuyanların belə aktivliyinə şərait yaradır. Tələbələrin lövhədə etdikləri bütün işlər və düzəlişləri gələcəkdə istifadə etmək üçün saxlamaq imkanı da interaktiv lövhənin üstünlüklərindəndir. Yazılanları lövhənin bir kəna¬rına yerləşdirərək saxlamaq mümkündür ki, bu da müəllimə lazımi anda onlara istinad etməyə imkan verir.

Distant texnologiyalardan istifadə də müəllimlərin başlıca məqsədi təfəkkürü inkişaf etdirmək və yaradıcı düşüncəni formalaşdırmaqdır.

Bundan başqa distant texnologiyalarından istifadə etməklə müəllimlər müxtəlif öyrədici və nümayişetdirici proqram, model və oyunlardan istifadə edə bilər. Bunun üçün müəllimlər müxtəlif metod və priyomlardan istifadə edir. Müəl-

limlər aşağıdakı distant inkişafetdirici metod və priyomlardan istifadə edə bilər:

- analiz metodu;
- müqayisə metodu;
- ümumiləşdirmə metodu;
- təsnifetmə metodu;
- fikirlərə düzəliş metodu;
- fəaliyyətin daxili planı və s.

Ali məktəb müəlliminin distant texnologiyaları aşağıdakı iş istiqamətlərindən istifadə edə bilər: 1.İnternet resurslarından istifadə. 2.Hazır öyrədici materiallardan istifadə. 3.Dərs üçün prezentasiyanın hazırlanması. 4.Təhsil və istifadə üçün özünün müəllif proqramı. 5.Öyrənənlər layihə üzərində işə, tədqiqatçılığa, auditoriyada və auditoriyadankənar tədbirlərdə təqdimat hazırlamağa cəlb etmək və s. [1].

Müasir dövrdə kompüter təhsil məüssisələrinə fərdi təlimçi kimi daxil olaraq təlimin yeni modelinin yaranmasına tam imkan yaradır. Səs, surət və məlumat emal edən yeni texnoloji vasitələrin təhsil sisteminə nüfuz etməsi nəticəsində müasir informasiya təhsil məkanının yaradılmasını zərurətə çevirir. Çünki "...kompüterdə saxlanmasına görə bir səhifədəki məlumat, o səhifənin səslə ifadə edilməsində istifadə edilən məlumatın ancaq səksən mində biri qədərdir. Eyni fikirləri televiziya və video haqqında söyləmək olar. Bir ekranda orta hesabla 300 000 nöqtə vardır. Bu nöqtənin hər biri bir məlumatı ifadə edir və bu saniyədə orta hesabla 50 dəfəyə dəyişir. Bu da saniyədə 15 milyon məlumat deməkdir. Bir dəqiqədə surət seyr etməklə əldə edilən məlumatların sayı bir milyarda çatır. Bu səbəbdən insanın vərdiş etdiyi yolla kitabdan məlumat alması və ya sadəcə yazı taxtasından istifadə edərək məlumatların yazılı şəkildə çatdırılması video və səs vasitəsilə (audio-vizual) tədrisə nəzərən olduqca yetərsizdir. İnsanın məlumat emal etmə sürəti o qədər yüksəkdir ki, kitabın üzündən oxuma və ya yazı taxtasında seyr etmə yolu ilə nə isə öyrənərkən beyin tam olaraq məşğul edilmir və diqqət asanlıqla yayına bilir. Surətin və səsin yazılı məlumata nisbətən olan üstünlüyü nəticəsindədir ki, kompüter vasitəsilə tədris prosesində son 15 il ərzində sürət və səsli qarşılıqlı sistemlərə doğru bir meyl müşahidə olunmaqdadır" [4].

Ali məktəb müəllimləri dərslərdə multimediyanın imkanlarından istifadə etməyə çalışırlar. Multimediya dedikdə çoxmühitli rabitə qurğularının birgə inteqrasiyası və istifadə edilməsidir. "Multimedia, bu günün və gələcəyin tədris, rabitə formalarını dəyişdirə biləcək və insanın fərdi, sosial həyatında kompüterin rolunu müəyyənləşdirə biləcək ölçüdə bir hadisədir. O, yalnız nə sadə texnologiya, nə proqram təminatı (software), nə də istifadəçinin məharətidir. O, texnologiya, uyğun proqram təminatı və məhsuldar, bacarıqlı istifadəçidən ibarət olan üçlüyün istifadə edilməsilə ortaya çıxan bir tədris texnologiyasıdır" [6].

Araşdırmalar göstərir ki, multimediyadan istifadə etmək, insanlığın ən qədim öyrənmə metodu olan görmə və eşitməni keyfiyyətli şəkildə təlim-tərbiyə prosesində tətbiq etməyin başqa bir yoludur. Müşahidələr göstərir ki, indi tələbələr öyrənməni yalnız kitablar üzərindən etməyi o qədər də sevmirlər. Odur ki, müəllimlər tələbələrin bütün öyrənmə və məlumat əldə etmə yolları olan görmə, eşitmə, oxuma və maraq doğuran surətlər kimi ünsürləri özündə birləşdirən multimediya vasitələrinə üz tutmalı olurlar. Bu zaman təbii ki, müəllimlər multimediya texnologiyalarından istifadə bacarıqlarına malik olmalıdırlar. Belə olan təqdirdə müəllim tələbələr tərəfindən sadəcə şərh və seyr edən deyil, bilavasitə hadisələrə müdaxilə edən, öyrədən, öyrənən, istifadə edən və dəyişdirə bilən bir mütəxisis kimi qəbul edilə bilər [5].

Müasir təhsil müəssisələrində əsas məzmun komponenti informasiya və kommunikasiya texnologiyalarından fəal istifadə etmək və bunun üçün normal şərait yaratma prosesi kimi informatlaşdırmanı nəzərdə tutur. Distant təlim zamanı təhsil müəssisələrinin işində istifadə əksər tələbələrin təhsil nəticələrinin yüksəldilməsinə, müasir sosial həyatın və əmək bazarının yeni tələblərinə uyğunluğunu təmin edir.

Distant təhsilin idarəedilməsində təlim prosesinə daxil edilməsi təhsil müəssisəsinin informasiya texnologiyaları ilə təminilə birbaşa əlaqəlidir. Təhsil müəssisəsindəki informasiya texnologiyalarına aşağıdakıları aid etmək olar:

- lazımi proqram materialları ilə təmin edilmiş, internetə çıxışı olan, yerli şəbəkəyə qoşulmuş fərdi kompüter avadanlığı ilə təchiz olunmuş kompüter otağı;
- yalnız bir fərdi kompüteri, multimediya proyektoru və interaktiv lövhəsi olan təlim otaqları;
- lazımi proqram materialı ilə təmin edilən və internetə çıxışı olan təhsil müəssisəsi inzibati heyətin iş yeri;

- müxtəlif informasiya resurslarına çıxışı təmin edən mediateka.

Bu gün müəllimin istifadə edə biləcəyi kifayət qədər böyük distant texnologiyaları avadanlıqları mövcuddur. Dərsə hazırlıq və onun keçirilməsi zamanı aşağıdakılardan istifadə edilə bilər:

- tələbələrin yaradıcılıq və tədqiqatçılıq fəaliyyətini təşkil etmək və tədris olunan fənnin məzmununun çatdırılması üçün imkan, şərait yaradan ofis texnologiyaları (MS Word, MS Exsel, Power Point və s.);
- internet şəbəkəsinin təhsil resursları;
- tələbələrin yaradıcı təfəkküründün inkişafına şərait yaradan və təlim vasitələrinin imkanlarını genişləndirən elektron təhsil resursları.

Distant təhsil resursları dedikdə elektron cihazlar vasitəsilə verilən təlim materialları başa düşülür. Təhsil üçün nisbətən müasir və effektli elektron təhsil resursları kompüterin köməyi ilə əldə edilir.

Distant təhsil resurslarını aşağıdakı kimi təsnif etmək olar:

1. Birinci səviyyə - adi kitabdan mətn və şəkillərin nümayişinin, yəni materialın kağız üzərində deyil, kompüterin ekranında göstərilməsi ilə fərqlənən tekstoqrafik elektron təhsil resursları;
2. İkinci səviyyə - teksti izləmək imkanı olan tekstoqrafik elektron təhsil resursları;
3. Üçüncü səviyyə - tamamilə vizual və səs fraqmentlərindən ibarət olan elektron təhsil resursları. Bu səviyyənin kitabdan formal fərqi ondadır ki, nə kino, nə animasiya, nə də səsi nəşr etmək olmur;
4. Dördüncü səviyyə - mətni, qrafikləri, şəkilləri, videonu, animasiya və səsləri eyni vaxtda vermək imkanı olan multimedia elektron resursları;
5. Beşinci səviyyə - açıq təhsil modul multimedia sistemlərini özündə əks etdirən yeni nəsil elektron təhsil resursları. Bunlara internet saytlarında yerləşdirilən və hər kəs üçün açıq olan fəal müəllif şəbəkə məhsullarını göstərmək olar.

Hazırda müəllimlərin kompüter savadını artırması üçün bir neçə variant mümkündür: təhsil müəssisəsindən kənarda təkmilləşmə kursları, müəssisənin öz daxilində kursların təşkili, qarşılıqlı təhsil və özünütəhsil yolu ilə. Müasir ali məktəb müəllimi kompüter texnologiyası kimi, informasiya texnologiyalarından istifadə bacarığına malik olmalıdır.

Ədəbiyyat

1. Müəllim hazırlama siyasəti və problemləri. V.Beynəlxalq konfrans materialları. – Bakı: – 2015, – 563 s.
2. Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf. III Beynəlxalq Elmi Konfransın materialları. / Azərbaycan Müəllimlər İnstitutu. – Bakı: 22-24 may 2014, – 508 s.
3. Nəzərov, A., Məmmədov R. Pedaqoji ustalıq. / A.Nəzərov., R. Məmmədov. – Bakı: Müəllim, – 2008, – 843 s.
4. Paşayev, Ə., Rüstəmov F. Pedaqogika. / Ə. Paşayev., F. Rüstəmov. – Bakı: Nurlan, – 2010, – 464 s.
5. Rüstəmov, F., Dadaşova, T. Ali məktəb pedaqogikası. / F.Rüstəmov., T.Dadaşova, – Bakı: Nurlan, – 2007, – 568s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 269-272
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 269-272
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 269-272

UOT

Effektiv tədris və təlim mühiti

Müəllif:

Zeynəb Bağırova
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
E-mail: zheydarovabaqirova@mail.ru

Açar sözlər:
təhsil, effektiv tədris, effektiv müəllim və auditoriya idarəetməsi

Annotasiya. Bu tədqiqatda son illərdə təhsildə populyar (cari) konsepsiya olan effektiv tədris tədqiq edilmişdir. Ədəbiyyat üzrə araşdırma aparılıb, nəzəri izahatlar və tədqiqat nəticələri daxil edilib. Bu kimi məsələlərlə maraqlananlara effektiv təlimlərlə bağlı görülə biləcək işlərlə haqqında konkret təkliflər verilmişdir. Effektiv müəllim və effektiv öyrənmə mühitini yaratmaq üçün müəllimin hansı bacarıqlara yiyələnməsinin açıqlaması verilmiş, eyni zamanda auditoriya idarəetməsində müəllimin nə kimi keyfiyyətlərə xas olunmasının vacibliyi göstərilmişdir. Araşdırma zamanı müəllim-tələbə ünsiyyəti necə qurulmalı, hansı məqamlara diqqət yetirilməli, auditoriya daxili yanaşmalar necə olmalıdır kimi suallara xüsusi diqqət yetirilmişdir. "Sevilən müəllim", "Sevilməyən müəllim" modelinin izahı verilmişdir. Hazırki dövrdə tələbələrin istədiyi öyrənmə mühiti və müəllim modelinin geniş izahı göstərilmişdir.

An effective teacher and learning environment

Author:

Zeynab Bagirova
Azerbaijan State Pedagogical College under ADPU
E-mail: zheydarovabaqirova@mail.ru

Key word:
education, effective teaching, effective teacher and audience management

Abstract. In this study, effective teaching which is a (current) popular concept in education in recent years was studied. A research of literature was carried out and the theoretical explanations and research findings were included. Some concrete suggestions about the things that may be done related to effective teachings were given to those who are interested in such issues. In order to create an effective teacher and an effective learning environment, the teacher's skills have been explained, and at the same time, the importance of the teacher's qualities in audience management has been shown. During the research, special attention was paid to questions such as how teacher-student communication should be established, what points should be paid attention to, and what should be the internal approaches of the audience. An explanation of the "Loved teacher" and "Unloved teacher" models has been given. A broad explanation of the learning environment and teacher model desired by students in the current period is shown.

Эффективная среда преподавания и обучения

Автор:

Зейнаб Багирова
Азербайджанский Государственный Педагогический Колледж при ADPU
E-mail: zheydarovabaqirova@mail.ru

Ключевые слова:
образование, эффективное обучение, эффективный учитель и управление аудиторией

Аннотация. В этом исследовании изучалось эффективное обучение, которое является популярной концепцией в образовании в последние годы. Было проведено исследование литературы и включены теоретические объяснения и результаты исследований. Тем, кто интересуется такими вопросами, были даны некоторые конкретные предложения о том, что можно сделать в связи с эффективными учениями. Для создания эффективного учителя и эффективной учебной среды объяснены навыки учителя, и в то же время показана важность качеств учителя в управлении аудиторией. В ходе исследования особое внимание уделялось таким вопросам, как, как должна быть установлена коммуникация «учитель-ученик», на какие моменты следует обращать внимание, каковы должны быть внутренние подходы аудитории. Дано объяснение моделей «Любимый учитель» и «Нелюбимый учитель». Показано широкое объяснение учебной среды и модели учителя, желаемой учащимися в текущий период.

Bir ölkənin sosial, mədəni və iqtisadi inkişafında və müasirləşməsində ən önəmli ünsür insan və onun təlim-tərbiyəsidir. İnsanın təlim-tərbiyəsində isə ən mühüm şəxs müəllimdir. Təhsil sisteminin uğuru ixtisaslı olaraq yetişmiş müəllimlərdir. İxtisaslı müəllimlərin dünyagörüşü, biliyi, pedaqoji bacarıqları yüksək səviyyədə olmalıdır. Müəllim nailiyyətləri ilə cəmiyyəti müsbət formada dəyişdirə bilən fərdlər yetişdirə bilər, eyni zamanda yanlış insan modeli də formalaşdıra bilər. Bu zaman bizi düşündürən ilk sual-müəllim necə effektiv təsir göstərməlidir.

Effektiv müəllim, auditoriyaya nəyin müsbət təsir etdiyini bilən, yaranmış problemləri auditoriya daxilində həll etməyi bacaran müəllimdir.

Effektiv müəllimlər qeyri-pedaqoji xətalardan uzaq durmağı bacaran, bütün pedaqoji bacarıqları kifayət qədər mənimsəyən və praktikada tətbiq edərək nümayiş etdirən müəllimlərdir.

Effektiv müəllim tələbələrinə səmimi olan, öyrətməyin yollarını tapan, qətiyyətli, yeri gəldiyində həssas, mehriban, tolerant və anlayışlı xüsusiyyətə malik insandır.

Müəllimlər müsbət davranışları ilə yanaşı mənfi davranışları ilə də göz önündə olurlar. Müəllim davranışına dair geniş araşdırmalar aparılıb. Bəzi izahatlar və araşdırmalara baxaq.

Müəllimlərin auditoriyada effektiv ola bilməsi üçün özlərinin davranış modeli olamlıdır. Mənfi davranışa sahib olan müəllimlər tələbələrin də davranışına mənfi təsir edir və onları o istiqamətə yönəldir.

Müəllim sinifdə ən vacib insan modelidir. Onun doğru və ya səhv hərəkətləri həmin auditoriyadakıların davranışlarına da əhəmiyyətli dərəcədə təsir edir.

Bir çox müəllim sinifdə həddindən artıq avtoritar, yaradıcılıqdan uzaq, duyğulardan təcrid olunmuş formada tələbələrlə ünsiyyətə girir. Bu tip müəllim tələbələr üçün səhv insan modeli olaraq onların düzgün formalaşmasında və müsbət mənada inkişafında pis təsir göstərəcəkdir.

Mənfi davranışlı müəllim modelində - mən üstünəm, hər zaman idarəçilik məndə olmalıdır duyğusu vardır. Daim tələbələrdən itaət gözləyirlər, çox qoruyucu olub bəzən onların yerinə də məsuliyyəti üstlərinə götürürlər. Özlərini haqlı tələbələri haqsız görürlər və hər zaman tələbələrdə səhv axtarırlar. Tələbələrdən mükəmməllik gözləyirlər, səhvlərə qarşı dözümsüz olurlar. Həddindən artıq tənqidkar olurlar. Bütün bunlar da tələbələrdə üsyankarlıq, şübhə və mənfi davranışlara səbəb olur. Tələbələrdə artıq təhsilə maraq azalır və fərqli işlərlə məşğul olurlar. Həmin müəllimin yetişdirdiyi tələbələrdə də artıq özünə, ətrafındkılara inamsızlıq, başqalarına həddindən artıq tənqidi yanaşma, heç kimlə düzgün münasibət qura bilməmə kimi mənfi xarakterlər fotrmalaşır.

Bəzi araştırmalar da göstərir ki, “sevilməyən müəllim” modeli-avtoritar, qərəzsiz və ədalətli olmağı bacarmayan, cəza tətbiqi çox olan, auditoriyada dözüm nümayiş etdirməyi bacarmayan müəllim modelidir. ” Sevilən müəllim” modeli isə-dialoqa açıq, tələbə problemləri ilə maraqlanan, auditoriyanı səbrlə idarə etməyi bacaran, öyrənənlərin yaradıcılıq bacarığını ortaya çıxarda bilən müəllimdir.

Effektiv müəllim və effektiv oyrənmə mühiti

Müəllimin təsir gücünü artıran ən vacib amillərdən biri müsbət bir öyrənmə mühiti yaratmasıdır. (Akbaba, S. -2006) Müsbət öyrənmə mühitini yaratmaq üçün müəllimin rolu aşağıdakı kimi göstərilə bilər.

A. Özünü olduğu kimi göstərmək (Arseven, A.D. -1986)

Müəllim tələbə ilə ünsiyyətdə rola girməməli, olduğu kimi görünməlidir. Qarşısında rola girən bir müəllim olduğu zaman tələbə də rola girəcəkdir. Özünü olduğu kimi aparan bir müəlimdə aşağıdakı keyfiyyətlər olur.

- Olduğu kimi görünmək
- Tələbələrin bəzi məlumatları onlardan daha yaxşı biləcəyəni qəbul etmək
- Tələbələrə düzgün istiqamət verildikdə başqalarının və özlərinin problemlərini həll edə biləcəyinə inanmaq.

B. Mükafatlandırmaq, qəbul etmək və inanmaq

Öyrənən insanı mükafatlandırmaq, onun hisslərini, düşüncələrini və şəxsiyyətini mükafatlandırmaq deməkdir. Mükafatlandırma öyrənən insana olan marağı nümayiş etdirməklə yanaşı ona dəyər verdiyini də göstərir. Tələbənin hər zaman müəllim tərəfindən mükafatlandırılmağa və təqdir olunmağa ehtiyacı vardır. Bu yalnız dərslərlə əlaqəli deyil eyni zamanda davranış və rəftarına da aid olmalıdır. Müəllim hər zaman tələbədə təqdir olunacaq tərəfi tapmalıdır. Çünki hər bir tələbənin buna ehtiyacı var. Xüsusilə qrup daxilində təqdir olunma həmin müəllimin qrupda təsir gücünü daha da artırır. Yetişkinlik dövründə

olan öyrənənlər qarşı cinsin olduğu qrupda təqdir olunduqada daha müsbət təsir bağışlayır.

Mükafatlandıran, qəbul edən və inanan xüsusiyyətə malik olan müəllimlər aşağıdakı kimi rəftar edir.

- Müəllim tələbənin nöqsanlarını görüb vurğulamaqdansa kiçik uğurlarını vurğulayaraq onun müsbət inkişafına daha çox töhfə verəcəyini bilir.
- Tələbəni olduğu kimi qəbul edir və qiymət verir.
- Tələbəyə yalnız uğur qazandığı zaman qiymət verməyin səhv olduğunu bilir.
- Tələbənin fənlərə olan marağını artırmaq üçün lazımi tədbirləri görür.
- Tələbə ilə maraqlandığını hər fürsətdə göstərməyi bacarır.
- Auditoriyada hər kəsə eyni məsuliyyəti verir.
- Auditoriyanı daha maraqlı hala gətirir.
- Qərarlı olur, ancaq təhditkar olmur.
- Hər bir tələbəyə fərdi yanaşır, hər kəsin bacarağına uyğun fəaliyyəti verir və sonda hər kəsi mükafatlandırır.
- Tələbənin öz qərarını verə biləcəyinə inanır və bunu onlara hiss etdirir. Bunun nəticəsində tələbənin özünə inamı artır, fəaliyyətə qatılır, səy göstərir və nəticə əldə edir.

C. Tələbələrin duyqularını anlamaq

Müəllim tələbənin məqsəd, maraq və münasibətini bilməlidir. Buna görə tələbələrlə daim ünsiyyətdə olmalıdır. Bu zaman müəllim onların dünyalarına girməyi bacarar və onları anlamağa başlayar. Tələbə müəllimin onu başa düşdüyünə inanarsa bu zaman müəllimin idarə etmədə təsir gücü artar və daha effektiv mühit yaranar. Bunun üçün aşağıdakılara diqqət edək.

- Müəllim tələbənin sevincini, həyacanını, kədərini anlayar və bölüşər.
- Hər bir tələbəyə şəxsiyyət kimi davranaraq hörmət edər.
- Qarşılıqılı anlaşmaya əsaslanan auditoriya mühiti yaradar.
- Onu qiymətləndirdiyini hiss etdirər.
- Öyrənənin istedadını üzə çıxardar və bunun üçün auditoriya daxili fəaliyyətləri artırar.

Effektiv müəllim və auditoriya idarəetmə

Effektiv müəllimin yaxşı auditoriya idarəetmə bacarığı olmalıdır. Sinif effektiv formada idarə edilməsə istənilən təlim mühitini yaratmaq çətinləşir.

Araştırmalar göstərir ki, (Macrea 1998) müəllimin idarəetmə səriştəsi yoxdursa digər bacarıqları təsirsiz qalır. Effektiv sinif idarəçiliyi və təşkilati bacarıqlar müəllimləri auditoriyada qarşılaşa biləcəyi bir çox çətinliklərdən xilas edir.

Auditoriya idarəetməsində effektiv müəllim davranışları

Araşdırmalar (Fontana-1985) auditoriya idarəetməsində effektiv müəllim olmaq üçün aşağıdakıları tövsiyyə edir.

a. Dəqiq olmalı: Sinifdəki problemlərin bir çoxu müəllim dərsə gecikdiyi zaman baş verir. Müəllimin dərsə vaxtında gəlməsi dərsin və tələbələrin onun üçün nə qədər əhəmiyyətli olduğunu göstərir

b. Dərsə yaxşı hazırlanması: Tədrisdə hədəfinə çatmaq üçün dərsə yaxşı hazırlaşmaq lazımdır. Effektiv təhsil üçün bu vacibdir.

c. Dərsə zamanında başlamalıdır: Tələbələrin diqqətini çəkən, maraqla iştirak etməsini təmin edən üsullarla və qətiyyətli şəkildə dərsə başlamalıdır.

d. Auditoriyadakı bütün tələbələr dərsdə fəal iştirak etməlidir: Mühazirəyə başlamadan öncə bütün tələbələrin diqqətini mövzuya yönəltməyi bacarmalıdır.

e. Müəllim səsindən təsirli formada istifadə etməlidir: Səs müəllimin tələbə ilə olan münasibətinin ən əsas ünsürüdür. Səsindən təsirli formada istifadə edə bilən müəllim tələbələrin diqqətini dərsə yönəltməkdə daha səriştəli olur.

f. Qarışıqlıqları ardan qaldıra bilmək üçün aydın strategiyadan istifadə edilməlidir: Gözlənilməz bir vəziyyətdə necə davranacağınızı bilsəniz problemlər daha asan həll oluna bilər.

g. Tələbələri bir-biri ilə müqayisə etməkdən çəkinmək lazımdır: Auditoriya daxilində tələbələri performansına görə müqayisə edən zaman sinif bolgüsünə səbəb olur. Xüsusilə aşağı nəticə göstərən tələbələri tamamilə itirməyimizə səbəb ola bilər.

h. Verilən vədlərə əməl edilməlidir: Verilən vədə əməl etməmək həmin müəllimin nüfuzunun sarsılmasına səbəb olur.

i. Auditoriya dərsin məqsədinə uyğun olaraq təşkil olunmalıdır: Dərsin məqsədi üçün lazım olan avadanlıqlar, dərs ləvazimatıları, istifadə olunacaq əyani vəsaitlər həmin dərsin düzgün təşkilini göstərir.

j. Tələbələrin problemləri ilə yaxından maraqlanmaq lazımdır: Tələbənin auditoriya daxili və auditoriya xarici problemlərini həll etmək onun dərsə daha həvəslə qatılmağına səbəb ola

bilər.

Nəticə etibarı ilə müasir təhsildə effektiv təhsilin yeri və əhəmiyyəti çox önəmlidir. Bu işlə məşğul olan hər kəsin bu əhəmiyyəti dərk etməsi, müəllim hazırlığı zamanı nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Akbaba, S. (2006) Öğrenme Psikolojisi. Aydan Matbaacılık, Genişletilmiş 3. Baskı, Ankara.
2. Arseven, A.D. (1986) Benlik tasarımının gelişimi ve okul başarısıyla ilişkisi.

Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi. 1,15-26.

3. Bergtin, C. T. (1974) Öğrenci problemleri. Türkiye Đş Bankası kültür yayınları, Ankara.
4. Macrae, S. (1998) “ Classroom management and Organization” , becoming a teacher (Ed.) Justin dillion. M. Maguire. Open University Pres, New York ,128-140.
5. Fontana, D. (1985) Classroom Control. The British Psychological Society, London.
6. Berliner, D.C.(1987) “Simple vievs of effective teaching and a simple theory of classrom instruction’in Berliner D.C & Rosenshine, B.V. (Eds) Talks to Teachers, New York : Random House Inc.
7. Can, G. (1986) “Lise öğrencilerinin benlik tasarım düzeylerini etkileyen bazı etmenler”. (Yayınlanmamış doktora tezi).Hacettepe Üniversitesi, Ankara.
8. Capel, S., Leask, M., & Tourner, T. (1995) Learning to teach in the secondary school ‘ A Comparison to school experience . London & New York: Roudledge.
9. Chandler, M. (1983) Discipline: A piagetian perspective . In D. Dorr & M. Zax & J. W. Bonner (Eds.) The Psychology of Discipline. (pp.45-65) Connecticut: Đnternational Universites Pres.
10. Clemson, P & Craft, A. (1981) ‘The Good or the Effective Teacher’ British Journal of In-Service Educatıon,7(2):2-5. Dilekmen, M. (2001) Đlköğretim sınıf öğretmenlerinin sınıf içi davranışları. Çağdaş Eğitim Dergisi, 276,31-36.
11. Doveston, T. (1985) The Effective Teacher in the Classroom, Dissertation in England

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 273-277
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 273-277
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 273-277

UOT

Ali məktəblərin riyaziyyat müəllimliyi ixtisasında riyazi analiz kursunun məzmununun orta məktəbin uyğun kursu ilə əlaqələrinin yaradılması

Müəllif:

Zinyət Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: zinyet.esger@gmail.com

Açar sözlər:
riyazi analiz, məzmun xətti, anlayışlar, riyaziyyat müəllimliyi, orta məktəb

Annotasiya. Bakalavr səviyyəsi üzrə "Riyaziyyat müəllimliyi" və "Riyaziyyat və informatika müəllimliyi" ixtisaslarının Təhsil proqramında Riyazi analiz fənninin əvvəlki sistemə nisbətən dəyişilən kreditlərin həcminə uyğun olaraq təhlil olunmasına böyük ehtiyac var. Analizin başlanğıcı kursunun məktəbdə öyrənilməsinin məqsədi, onun məzmununun əsas xətlərinin öyrənilməsi xüsusiyyətləri, qüvvət və üstlü funksiyaların, limit və kəsilməzliyin, törəmə, inteqral və onların tətbiqlərinin, 1/x funksiyasının inteqralı, triqonometrik funksiyaların inteqralları, əyrinin əhatə etdiyi sahə, müəyyən inteqral və sahə, Nyuton-Leybnis düsturu, müəyyən inteqralın xassələri, müəyyən inteqraldan istifadə edərək əyrixətli trapesiyanın və digər müstəvi fiqurların sahəsinin tapılması, əyrilərlə hüdudlanmış fiqurun sahəsi kimi anlayışların öyrənilməsinin metodik xüsusiyyətləri, bunlarla əlaqədar şagirdlərin ümumiləşdirmə qabiliyyətinin inkişafı şərh olunur.

Issues of creating links between the content of the mathematical analysis course in the mathematics teaching specialty of higher schools and the appropriate course of the secondary school

Author:

Zinyet Eliyeva
Nakhchivan Teachers Institute
E-mail: zinyet.esger@gmail.com

Key word:
calculus, content line, concepts, mathematics teaching, secondary school

Abstract. In the Educational Program of the specialties "Teaching Mathematics" and "Teaching Mathematics and Informatics" at the bachelor's level, there is a great need to analyze the subject of Mathematical Analysis in accordance with the changing amount of credits compared to the previous system. The article sets out the goals of studying the course "Beginning of Analysis" at school, the features of studying the main lines of its content, degrees and superfunctions, limits and continuities, derivatives, integrals and their applications, superfunctions, the integral of the function 1/x, integrals of trigonometric functions, the area covered curve, definite integral and area, properties of a definite integral, finding the area of a curvilinear trapezoid and other plane figures using a definite integral, the Newton-Leibniz formula, methodological features of studying such concepts as the area of a figure bounded by curves.

Вопросы установления взаимосвязи содержания курса математического анализа по специальности учитель математики вузов с соответствующим курсом средней школы

Автор:

Зиньят Алиева
Нахчыванский институт учителей
E-mail: zinyet.esger@gmail.com

Ключевые слова:
математический анализ, линия содержания, концепции, преподавание математики, средняя школа

Аннотация. В Образовательной программе специальностей «Преподаватель математики» и «Преподаватель математики и информатики» на уровне бакалавриата существует большая необходимость анализа предмета «Математический анализ» в соответствии с изменяющимся по сравнению с предыдущей системой объемом кредитов. В статье излагаются цели изучения курса «Начало анализа» в школе, особенности изучения основных линий его содержания, степеней и надфункций, пределов и непрерывностей, производных, интегралов и их применений, надфункций, интеграл функции 1/x, интегралы тригонометрических функций, площадь, охватываемая кривой, определенный интеграл и площадь, свойства определенного интеграла, нахождение площади криволинейной трапеции и других плоских фигур с помощью определенного интеграла, формула Ньютона-Лейбница, методические особенности изучения таких понятий, как площадь фигуры, ограниченная кривыми.

Ölkəmizdə tətbiq olunan çox pilləli və çox səviyyəli təhsil sistemi bu pillələr və səviyyələr arasında qarşılıqlı əlaqə və varislik prinsiplərinin tətbiq olunmasını tələb edir. Hər pillə və səviyyədə məqsəd tədrisi əvvəlki mərhələlərdə qazanılmış bilik və bacarıqlar üzərində qurmaqla, yeni biliklər aşılamaqla, sonrakı mərhələdə təhsilin davam etdirilməsi üçün zəmin hazırlamaqdan ibarətdir. Təbii ki, təhsilin pillələri və səviyyələri üzrə fəaliyyət qanunvericilik aktları ilə tənzimlənir. Müasir tədris proqramları bütün fənlərlə yanaşı riyazi analizin də bakalavr səviyyəsində tədrisi prosesində həcm və məzmun dəyişikliklərini tələb edir.

Tədris prosesinin ardıcıl, sistemli reallaşdırılması üçün fənn proqramlarının müstəsna rolu var və bunun üçün peşəkar mütəxəssislər tərəfindən hər bir fənn üçün ayrılıqda proqramlar tərtib olunmuşdur. Pedaqoji istiqamətdə kadr hazırlığı aparılan universitet və institutlarda riyaziyyat müəllimləri və ümumiyyətlə, riyaziyyat üzrə kadrların tələb olunan səviyyədə hazırlıqlarını təmin etmək məqsədilə zaman-zaman bir sıra məzmun dəyişiklikləri olmuş, bu dəyişikliklər müəyyən illərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi bakalavriat səviyyəsinin ixtisas üzrə Təhsil proqramında göstərilmişdir. Ayrı-ayrı ali məktəblərdə tətbiq olunan "Ali məktəblərin riyaziyyat, riyaziyyat və informatika ixtisasları üçün riyazi analiz fənninin proqramı"-na nəzər salsaq, proqram Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Ali ixtisas Təhsilinin Dövlət Standart" ına (Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi və minimum tələblər, Bakı-2009. Ali təhsil pilləsinin dövlət standartı, bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı-2014) uyğun yazılmış və əvvəlki proqramlarla bəzi fərqlərin olduğu göstərilmişdir. Əsasən parametrdən asılı inteqrallar bəhsi proqramdan çıxarılmış, əvvəlki proqramlarda Furye sıralarının proqramın ən sonunda, parametrdən asılı inteqrallardan sonra tədris olunması, yeni proqramlarda sıralar bəhsinin sonda tədris olunması nəzərdə tutulmuşdur. Fənnin tədrisinə 27 kredit nəzərdə tutulmuş, Maqsudov əvəzlənməsi mövzusu əlavə edilmişdir [4,s.3].

Sonrakı mərhələdə riyazi analiz kursunun proqramında müəyyən dəyişikliklər aparılmış, əvvəlki proqramda olan bəzi məsələlər, o cümlədən qeyri-məxsusi inteqrallar və s. proqramdan çıxarılmışdır. Bakalavr səviyyəsi üzrə "Riyaziyyat müəllimliyi" və "Riyaziyyat və informatika müəllimliyi" ixtisaslarının Təhsil proqramında bu fənnə 20 kredit ayrılmışdır [5,s.3]. Riyazi analiz fənninin əsas məqsədi orta məktəb riyaziyyat kursunda tədris olunan riyazi analizə aid anlayışların elmi cəhətdən əsaslandırmaqdan ibarət olub, məzmununa: inikas, həqiqi ədədlər çoxluğu, birdəyişənli funksiya və təsnifatı, limitlər nəzəriyyəsi, birdəyişənli funksiyanın kəsilməzliyi, törəmə, diferensiallanan funksiya, diferensial, törəmənin köməyi ilə funksiyanın tədqiqi, qeyri-müəyyən inteqral, müəyyən inteqral, müəyyən inteqralın tətbiqi, çoxdəyişənli funksiyalar, çoxqat, əyrixətli və səth inteqralları, ədədi sıralar, funksional ardıcıllıq və funksional sıralar aiddir. Bu fənnin başlanğıcında çoxlu yeni anlayışların verilməsi, başqa riyazi fənlərə (ali cəbr, analitik həndəsə və s) nisbətən bu kursun mənimsənilməsini bir qədər çətinləşdirir. Buna görə də riyazi analiz pedaqoji institutların, universitetin fizika-riyaziyyat fakültələrinin birinci və ikinci kurslarında tədris olunan əsas fəndir.

Bu kursun məktəbdə öyrənilməsinin məqsədi şagirdləri riyazi analizin funksiyanın araşdırılması, həndəsi, fiziki və digər praktik məsələlərin həlli aparatı kimi riyazi analiz elementləri ilə tanış etməkdir. Kursun öyrənilməsi gedişində şagirdlər qüvvət, üstlü, loqarifmik və triqonometrik funksiyaların daxil edilməsilə öyrənilmiş funksiyalar sinfini genişləndirməli, əsas elementar funksiyalar haqqında alınmış məlumatları sistemləşdirməli və tamamlamalıdırlar. Analizin başlanğıcı kursunda əsas elementar funksiyalar, habelə analiz aparatını tətbiq etməklə sistematik öyrənmə obyekti olmalıdır. Bu, məktəb riyaziyyatı kursunun praktik tətbiqi imkanlarını əsaslı surətdə gücləndirməlidir. Funksional xəttin inkişafı differensial hesabı elementlərinin öyrənilməsilə yekunlaşır. Elementar funksiyaları araş-dırmaq, limit, törəmə, inteqral və onların tətbiqləri həcmində riyazi analizin əsas anlayışları, nəticələri və metodları ilə tanış olmaq, məktəbdə öyrənilən funksiyalardan istifadə etməklə onları tərtib etməyi öyrənmək şagirdlərin əvvəllər aldıqları uyğun biliklərin genişləndirilməsi və sistemləşdirilməsi baxımından da əhəmiyyətlidir.

Riyazi analiz elementləri ümumitəhsil məktəblərinin X-XI siniflərində əsaslı olaraq tədris olunur. Lakin bu mərhələyədək şagirdlər aşağı siniflərdə artıq bu fənnin elementləri ilə tanış

olurlar. İbtidai siniflərdə riyazi analiz fənninin elementləri intuitiv şəkildə şagirdlərə öyrədilir. V sinifdən başlayaraq anlayışlar müəyyən həcmlərdə sadədən mürəkkəbə doğru dəyişilir. Daha geniş şəkildə siniflər üzrə məzmun xətləri ilə birlikdə göstərsək, V sinfin sonunda şagird: 2.3. Gündəlik həyatda rast gəldiyi kəmiyyətlər arasındakı asılılıqları funksiyalar vasitəsi ilə ifadə edir. 2.3.1. Düzbucaqlının və üçbucağın perimetrini, düzbucaqlı paralelepıpedin yan səthinin sahəsini tərəflərlə ifadə edir. 2.1.3. Natural ədədlərin və əşyaların verilmiş sırasındakı sadə qanunauyğunluğu müəyyən edir (uyğun olaraq perimetr 1s, kvadrat və düzbucaqlının sahəsi 2s, fəza fiqurları 2s, düzbucaqlı paralelepipedin həcmi 1s) [6,s.23]. Cəmi 6 saat olmaqla, V sinifdə şagird riyazi analiz anlayışlarını öyrənir. VI sinifin sonunda şagird: 2.1.3. Tam ədədlər çoxluğunda verilmiş cütlərin koordinatları arasında düz mütənasibliyin olub-olmamasını müəyyən edir. 2.3.1. Düz və tərs mütənasib asılılıqları funksiya şəklində ifadə edir (uyğun olaraq düz mütənasib asılılıq 2s, tərs mütənasib asılılıq 2s, funksiya 2s) [7,s.149]. Cəmi 6 saat olmaqla verilmişdir. VII sinfin sonunda şagird: 2.1.3. Rasional ədədlər çoxluğunda verilmiş cütlərin koordinatları arasında xətti asılılığın olub olmamasını müəyyən edir. 2.3. Gündəlik həyatda rastlaşdığı kəmiyyətlər arasındakı asılılıqları funksiyalar vasitəsi ilə ifadə edir. 2.3.1. Bərabərsürətli düzxətli hərəkətdə gedilən yolun zamandan asılılığını, temperaturun Selsi ilə ölçüsünün Farenheyt ilə ölçüsündən asılılığı xətti funksiya şəklində ifadə edir (uyğun olaraq məsafə, zaman, sürət 1s, tempuratorun ölçülməsi 1s, funksiyanın verilmə üsulları 1s, xətti funksiya və onun qrafiki 2s, düz mütənasib asılılığın qrafiki 1s, xətti funksiyaların qrafiklərinin qarşılıqlı vəziyyəti 1s, ikidəyişənli xətti tənlik və onun qrafiki 2s, ikidəyişənli xətti tənliklər sistemi və onun qrafik üsulla həlli 1s) [8,s.12]. Cəmi 9 saat olmaqla verilmişdir. VIII sinifin sonunda şagird: 2.1.3. Həqiqi ədədlər çoxluğunda verilmiş cütlərin koordinatları arasında kvadratik asılılığın olub-olmamasını müəyyən edir. 2.3. Gündəlik həyatda rastlaşdığı kəmiyyətlər arasındakı asılılıqları funksiyalar vasitəsi ilə ifadə edir. 2.3.1. Bərabərsürətli düzxətli hərəkətdə gedilən yolun zamandan asılılığını, temperaturun Selsi ilə ölçüsünün Farenheyt ilə ölçüsündən asılılığını xətti funksiya şəklində ifadə edir (uyğun olaraq y=x2 və √x funksiyaları 1s, kvadrat tənliyin qrafik üsulla həlli 2s) [9,s.8]. Cəmi 3 saat olmaqla verilmişdir. IX sinfin sonunda şagird: 2.3. Gündəlik həyatda rastlaşdığı kəmiyyətlər arasındakı asılılıqları funksiyalar vasitəsi ilə ifadə edir (uyğun olaraq kvadratik funksiya və onun qrafiki 3s, kvadratik funksiyanın müxtəlif formalarda təqdimi 2s , y = a(x- m)2 + n parabolasının absis oxu ilə kəsişmə nöqtələri 1s, y = ax2+ bx + c funksiyasının qrafikinin qurulması, y = ax2+ bx + c funksiyasının araşdırılması 3s, kvadratik funksiyanın tətbiqi ilə məsələ həlli 3s, y = |x| funksiyası və onun qrafiki 2s, y= x3 funksiyası və onun qrafiki 1s) [10,s.11]. Cəmi 14 saat olmaqla verilmişdir. X sinfin sonunda şagird: 2.2. Funksiya anlayışını bilir, həyati problemlərin riyazi modellərini qurur və funksiyaların xassələrinin köməyi ilə bu problemləri həll edir. 2.2.1.Ədədi funksiyanın tərifini və verilmə üsullarını bilir, onun təyin oblastı, qiymətlər çoxluğu anlayışlarını başa düşür. 2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövriliyini, təkliyini, cütlüyünü, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır. 2.2.3. Mürəkkəb funksiya, tərs funksiya anlayışlarını bilir və bəzi funksiyaların tərs funksiyalarını tapır. 2.2.5. Qüvvət funksiyasının tərifini və xassələrini bilir, qrafikini qurur (uyğun olaraq funksiya və onun verilmə üsulları 2 s, bəzi funksiyaların təyin oblastı və qiymətlər çoxluğu 1s, funksiyaların xassələri, cüt funksiya, tək funksiya 2s, hissə-hissə verilmiş funksiyalar 1s, y = xn (n □ N) qüvvət funksiyaları 1s, funksiyaların təsnifatı 1s, qrafiklərin çevrilməsi 3s, funksiyalar üzərində əməllər 1s, mürəkkəb funksiya 2s, tərs funksiya) [11,s.8], 2.2.2. Funksiyanın qrafiki anlayışını bilir, funksiyanın dövriliyini, təkliyini, cütlüyüni, monotonluğunu araşdırır, qrafikləri çevirməyi bacarır. 2.2.3. Mürəkkəb funksiya, tərs funksiya anlayışlarını bilir və bəzi funksiyaların tərs funksiyalarını tapır. 2.2.4. Əsas triqonometrik funksiyaları və tərs triqonometrik funksiyaları tanıyır, onların qrafiklərini qurur (uyğun olaraq dövri funksiyalar, y=sinx funksiyasının qrafiki, y=cosx funksiyasının qrafiki 3s, y=sin x və y=-cos x funksiyalarının qrafiklərinin çevrilmələri, y=asinbx, y = acosbx funksiyasının dövrü və amplitudu 4s, 5 əsas nöqtəsinə görə sinusoidin qurulması, triqonometrik funksiyalar və periodik hadisələr 4s, bucağın tangensinin dəyişməsi, y=tgx və y=ctgx funksiyaları və qrafikləri 3s, tərs triqonometrik funksiyalar, ümumiləşdirici tapşırıqlar 4s) [11,s.106]. 2.2.6. Üstlü funksiyanın tə-

rifini və xassələrini bilir, qrafikini qurur. 2.2.8. Loqarifmik funksiyanın tərifini və xassəsini bilir, qrafikini qurur (uyğun olaraq üstlü funksiya 3s , üstlü funksiyanın qrafikinin çevrilmələri 2s, üstlü funksiya, e ədədi 1s, loqarifmik funksiya 1s) [11,s.191]. Cəmi 39 saat həcmində verilmişdir. XI sinfin sonunda şagird ədədlər və əməllər məzmun xətti üzrə: 1.2.1. Ədədi ardıcıllığın və onun limitinin tərifini bilir, yığılan ardıcıllıqların xassələrini tətbiq edir. 1.2.2. Funksiyanın limiti anlayışını, limitin xassələrini və görkəmli limitləri bilir, onların köməyi ilə funksiyaların limitlərini hesablayır. 1.2.3. Funksiyanın kəsilməzlik anlayışlarını bilir və kəsilməz funksiyaların əsas xassələrini tətbiq edir (uyğun olaraq funksiyanın nöqtədə limiti, funksiyanın qiymətlər cədvəlinə və qrafikinə görə limitin təxmin edilməsi 2s, limitin varlığı 1s limitin xassələri 3s, funksiyaların kəsilməzliyi 2s, triqonometrik funksiyaların daxil olduğu xüsusi limitlər 1s, sonsuz limitlər və sonsuzluqda limit, şaquli və üfüqi assimptotlar 2s, ədədi ardıcıllığın limiti 2s) [12,s.65]. Cəbr və funksiyalar məzmun xətti vasitəsilə şagird: 2.1. Cəbri çevirmədən müxtəlif situasiyalardakı problemlərin həllində istifadə edir. 2.1.1. Funksiyanın törəməsi anlayışını və diferensiallanan funksiyaların xassələrini bilir, törəmənin hesablanmasının əsas qaydaları ilə tanışdır. 2.1.2. Elementar funksiyaların törəmələri cədvəlinin və törəmənin hesablanması qaydalarının köməyi ilə bəzi funksiyaların törəməsini tapır. 2.1.3. Törəmənin həndəsi və fiziki mənasını tətbiq edir [12,s.108]. 2.2.1. Funksiyanın törəməsinin köməyi ilə onun stasionar nöqtələrini tapır, bu nöqtələrin ekstremum nöqtələrin olub-olmadığını yoxlayır. 2.2.2. Funksiyaların araşdırılmasına və qrafikinin qurulmasına diferensial hesabını tətbiq edir [12,s.158]. 2.2.3. İbtidai funksiya anlayışını bilir və bəzi funksiyaların ibtidai funksiyalarını tapır. 2.2.4. Qeyri-müəyyən inteqral anlayışını bilir, elementar funksiyaların inteqralları cədvəlinin və inteqrallama qaydalarının köməyi ilə funksiyaların inteqrallarını hesablayır. 2.2.5. Müəyyən inteqralın tərifini bilir və Nyuton-Leybnis düsturunu tətbiq edir. 2.2.6. Müəyyən inteqralın köməyi ilə əyrixətli trapesiyanın sahəsini hesablayır. 2.2.7. Müəyyən inteqralın köməyi ilə fırlanmadan alınan cisimlərin həcmini hesablayır. 2.2.8. Funksiyanın cütlük-təklik, dövrilik xassələrindən müəyyən inteqralların səmərəli üsulla hesablanmasında istifadə edir (uyğun olaraq dəyişmənin orta sürəti, dəyişmənin ani sürəti 2s, funksiyanın törəməsi 2s, diferensiallama qaydaları 2s, hasilin törəməsi, nisbətin törəməsi 2s, mürəkkəb funksiyanın törəməsi 2s, törəmənin tətbiqi ilə məsələ həlli 1s, ikinci tərtib törəmə 1s, üstlü və loqarifmik funksiyanın törəməsi 3s, triqonometrik funksiyaların törəməsi 2s, funksiyanın artma və azalma aralıqlarının tapılması 3s, funksiyanın böhran nöqtələri və ekstremumları 3s, törəmənin tətbiqi ilə funksiyanın qrafikinin qurulması, çoxhədli funksiyaların qrafikinin qurulması, rasional funksiyaların qrafikinin qurulması 4s, ekstremumun tapılmasına aid məsələ həlli 3s, ibtidai funksiya, qeyri-müəyyən inteqral, sabitin və qüvvət funksiyasının inteqralı, inteqralın xassələri 4s, üstlü funksiyanın inteqralı, 1/x funksiyasının inteqralı, triqonometrik funksiyaların inteqralları 4s, əyrinin əhatə etdiyi sahə, müəyyən inteqral və sahə 3s, Nyuton-Leybnis düsturu, müəyyən inteqralın xassələri 4s nəzərdə tutulmuşdur) [12,s.181]. Ölçmə məzmun xəttin görə şagird: 4.1.1. Müəyyən inteqraldan istifadə edərək, əyrixətli trapesiyanın və digər müstəvi fiqurların sahəsini tapır (əyrilərlə hüdudlanmış fiqurun sahəsi 3s) [12,s.181] . Cəmi 58 saat olmuşdur.

Pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat təhsil səviyyəsində gələcək riyaziyyat müəllimlərinin elmi-metodiki hazırlığının təmin edilməsində, başqa sözlə, peşə hazırlığında riyazi analiz fənninin məktəb məzmun xətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Kursun öyrənilməsinin ümumtəhsil əhəmiyyəti ilə yanaşı, onun qarşısında duran əsas məqsəd orta məktəbin riyaziyyat kursunda öyrənilən anlayışların elmi əsasını vermək, onların şagirdlərə çatdırılması üzrə zəruri praktik vərdişləri aşılamaqdır. Bunun üçün də ali məktəbdə bu fənni tədris edən müəllimlə orta məktəbin uyğun riyazi analiz kursunun məzmun xətlərini, standartlarını təhlil etməli və cari işini ilk növbədə bu təhlillər üzərində qurmalıdır. Belə olarsa ali məktəblərdə vaxt itkisi olmaz, varislik əlaqələri həm də nəticəyönümlülük təmin olunar.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, – 2009 19 iyun.
2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, "Bakalavriat səviyyəsinin 050115 Riyaziyyat və informatika müəllimliyi ixtisası

üzrə Təhsil proqramı", – Bakı, – 2020.
3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, "Ali məktəblərin Riyaziyyat, Riyaziyyat və İnformatika ixtisasları üçün Riyazi analiz kursunun proqramı", – Naxçıvan, 2001.
4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Naxçıvan Müəllimlər İnstitutu, "Ali məktəblərin Riyaziyyat, Riyaziyyat və İnformatika ixtisasları üçün Riyazi analiz fənninin proqramı", – Naxçıvan, – 2017.
5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Naxçıvan Müəllimlər İnstitutu, "Riyazi analiz və Riyazi analizin xüsusi məsələləri" proqram, – Naxçıvan, – 2021,
6. Qəhrəmanova Nayma. Ümumtəhsil məktəblərinin 5-ci sinif üçün Riyaziyyat fənni üzrə metodik vəsait. / Nayma Qəhrəmanova, Famil Hüseynov. – Bakı, – 2020.
7. İsmayılova Sevda. Ümumtəhsil məktəblərinin 6-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Sevda İsmayılova, Arzu Hüseynova. – Bakı, – 2021.
8. İsmayılova Sevda. Ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Sevda İsmayılova. – Bakı, – 2018.
9. Qəhrəmanova Nayma. Ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov. – Bakı, – 2019.
10. İsmayılova Sevda. Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Sevda İsmayılova. – Bakı, – 2019.
11. Qəhrəmanova Nayma. Ümumtəhsil məktəblərinin 10-cu sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov – Bakı, – 2017.
12. Qəhrəmanova Nayma. Ümumtəhsil məktəblərinin 11-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti. / Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, Əbdürrəhim Quliyev – Bakı, – 2018.
13. Quliyev, Ə.A. X-XI siniflərdə cəbr və analizin başlanğıcı. – Bakı, – 2014.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 278-280
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 278-280
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 278-280

UOT

Azərbaycan ali təhsil sistemində nəzəriyyədən təcürbəyə doğru inkişaf dövrün tələbidir

Müəlliflər:

Zoya Abdullayeva
Sumqayıt Dövlət Universiteti
Dosent
E-mail: abdullayeva_fuad_2018@mail.ru

Ülkər Vəlizadə
Sumqayıt Dövlət Universiteti
E-mail: ulkerkenan2013@mail.ru

Açar sözlər:
ali təhsil, insan kapitalı, intellektual potensial, elmi-tədqiqat, tədqiqat və təhsil

Annotasiya. Məqalədə hazırda zəngin təbii sərvətlərin ölkələrin inkişafında əsas amil kimi qiymətləndirilmədiyi, dünyanın aparıcı ölkələrinin əsasən təhsil sisteminin yetişdirdiyi insan kapitalından daha böyük gəlirlər əldə etdiyi qeyd edilir. Dünyanın inkişaf etmik ölkələrinin ali təhsil sistemində tədris proqramlarının təcrübə ilə sıx əlaqələndirilməsi inkişafın əsas aparıcı istiqaməti hesab edilir. Məqalədə göstərilir ki, beynəlxalq səviyyədə və dünya reytinqlərində tanınan universitetlərdə təhsillə yanaşı, elmi-tədqiqat işləri əsas fəaliyyət sahələri kimi qiymətləndirilir. Universitetlərdə alim və tədqiqatçılar tədrislə bərabər, həm də elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirirlər. Dünyada önəmli elmi nəticələrin, kəşflərin və ixtiraların əsas hissəsinin məhz universitetlərdə reallaşdırıldığı qeyd edilir.

Authors:

Zoya Abdullayeva
Sumgait State University
Docent
E-mail: abdullayeva_fuad_2018@mail.ru

Ulkar Velizade
Sumgait State University
E-mail: ulkerkenan2013@mail.ru

Key word:
higher education, human capital, intellectual potential, scientific research, research and education

The development from theory to practice in Azerbaijan’s higher education system is the demand of the times

Abstract. In the article, it is noted that currently rich natural resources are not considered as the main factor in the development of countries, and the leading countries of the world get bigger incomes mainly from the human capital cultivated by the education system. In the higher education system of developing countries of the world, the close connection of teaching programs with experience is considered the main leading direction of development. The article shows that along with education in universities recognized at the international level and in world rankings, scientific-research works are evaluated as the main areas of activity. In universities, scientists and researchers carry out scientific-research works along with teaching. It is noted that most of the important scientific results, discoveries and inventions in the world are realized in universities.

Авторы:

Зоя Абдуллаева
Сумгаитский государственный университет
Доцент
E-mail: abdullayeva_fuad_2018@mail.ru

Улькяр Велизаде
Сумгаитский государственный университет
E-mail: ulkerkenan2013@mail.ru

Ключевые слова:
высшее образование, человеческий капитал, интеллектуальный потенциал, научные исследования, исследования и образование

От теории к практике в системе высшего образования Азербайджана как требование времени

Аннотация. В статье отмечается, что в настоящее время богатые природные ресурсы не рассматриваются как главный фактор развития стран, а ведущие страны мира получают большие доходы в основном за счет человеческого капитала, культивируемого системой образования. В системе высшего образования развивающихся стран мира тесная связь программ обучения с опытом считается основным ведущим направлением развития. В статье показано, что наряду с обучением в вузах, признанных на международном уровне и в мировых рейтингах, научно-исследовательская работа оценивается как основное направление деятельности. В университетах ученые и исследователи наряду с преподавательской деятельностью выполняют научно-исследовательские работы. Отмечается, что большинство важных научных результатов, открытий и изобретений в мире реализуются в университетах.

Azərbaycan regionun lider ölkəsi kimi rəqabət qabiliyyəti, beynəlxalq nifuzu son illərdə yüksələn xətlə inkişaf edir. Qalib xalqın bir üzvü kimi hər birimiz bayrağımızın bütün sahələrdə, eləcə də elm, təhsil sahəsində də ucalarda dalğalanmasını arzulayırıq.

Hazırki dövrdə təhsil hər bir dövlətin əsas atributlarından biri olmaqla, strateji əhəmiyyətli fəaliyyət sahəsidir. Artıq zəngin təbii sərvətlər ölkələrin inkişafında əsas amil kimi qiymətləndirilmir. Dünyanın aparıcı ölkələri əsasən təhsil sisteminin yetişdirdiyi insan kapitalından daha böyük gəlirlər əldə edirlər.

Dünyada təhsilin vahid modeli yoxdur. Lakin istənilən cəmiyyətdə problemlərin həlli üçün ali təhsilin zamanın tələbinə uyğun yenilənməsi zəruridir. Ali təhsil sistemi əmək bazarının tələblərinə cavab verə bilən mütəxəssislər hazırlamaq üçün öz fəaliyyətinin məzmununu çevik dəyişmə qabiliyyətlnə malik olmalıdır.

Ölkəmizdə də ali təhsilin fasiləsiz təkmilləşməsi və müasirləşməsi istiqamətində məqsədyönlü işlər aparılır. Ali təhsil intellektual potensialın formalaşmasında, maddi sərvətlərin intellektual kapitala çevrilməsində, cəmiyyətin davamlı inkişafında müstəsna əhəmiyyətə malikdir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının həyata keçirilməsi ölkədə ali təhsilə çıxış imkanlarını genişləndirmiş, ali təhsil kurikulumlarını əmək bazarının tələblərinə uyğunlaşdır¬mışdır. Ali təhsil qurumlarında doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi sahəsində müsbət nəticələr əldə edilmişdir. Ümumilikdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun güclən¬diril-məsində əhəmiyyətli nəticələr əldə edilmişdir [3].

Müasir dövrdə Azərbaycan universitetləri ingilis dilində təhsil proqramlarını genişlən¬dirmiş, ERASMUS, TEMPUS, MEVLANA kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etməyə başlamış, bunlarla yanaşı çoxtərəfli və ikitərəfli çərçivələrdə beynəlxalq əlaqə¬lərini genişləndirmişlər. Bütün bu geniş əlaqələr onun beynəlmiləlləşməsi prosesini sürətlən¬dirmişdir.

"Amerika Birləşmiş Ştatlarının universitetləri ona görə qüdrətli deyillər ki, onlar Amerika Birləşmiş Ştatları kimi güclü dövlətin universitetləridirlər. Amerika Birləşmiş Ştatları ona görə güclü dövlətdir ki, onun qüdrətli universitetləri var" fikrini söyləyən ABŞ-ın 32-ci prezidenti Franklin Ruzvelt bu fikri söyləməkdə heç də səhv etməmişdir. Hazırda inkişaf etmiş ölkələrdə dünyanın 200 aparıcı universitetinin 186-sı fəaliyyət göstərir. Bu universitetlər yenilənmiş ali təhsil sistemi ilə dövlətin mədəni, sosial, texniki inkişafını həyata keçirir. Ali təhsilin dəyişən şəraitə çevik uyğunlaşma qabiliyyəti onun əsas uğur mənbəydir. Bu ölkələrdə fəaliyyət göstərən yüksək səviyyəli ali təhsil müəssisələri əmək bazarının tələblərinə uyğun olaraq öz fəaliyyətinin məzmununu çevik dəyişmə qabiliyyətlinə malik mütəxəssislər hazırlamaq imkanına malikdirlər [6].

Dünyanın inkişaf etmiş ölkələrinin ali təhsil sisteminin təcürbəsi göstərir ki, bu ölkələrdə tədris proqramlarının təcrübə ilə sıx əlaqələndirilməsi inkişafın əsas aparıcı istiqamətidir. Müasir dövrdə beynəlxalq səviyyədə və dünya reytinqlərində tanınan universitetlərdə təhsillə yanaşı, elmi-tədqiqat işləri əsas fəaliyyət sahələri kimi qiymətləndirilir. Universitetlərdə alim və tədqiqatçılar tədrislə bərabər, həm də elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirirlər. Dünyada önəmli elmi nəticələrin, kəşflərin və ixtiraların əsas hissəsi məhz universitet-lərdə reallaşır.

Dünyada təhsilin inkişaf tendensiyaları zamanın çağırışlarına uyğun olaraq dəyişməkdədir. Həyatımızın və məişətimizin bütün sahələrində süni intellektin təsiri genişlənməkdədir. Təhsil sistemi yeni sənaye və texnoloji inqilabın tələbinə uyğun olaraq gənc nəsli yeni kompeten¬siyalara, ixtisaslara və peşələrə hazırlamalıdır.

Tarixən güclü universitetlər tədqiqat və təhsil sahəsində biliklərin yaradıcısı və ötürücüsü kimi tanınmış, zəif olanlar isə güclülərdən bəhrələnmişdir. Hazırda dünyada iqtisadi güc mərkəzlərində və əyalətlərdə yerləşən universitetlər çox mürəkkəb şərtlər altında fəaliyyət göstərir. Beynəlxalq elmi mərkəzlərin 1-ci yarısını təşkil edən aparıcı üniversitetlər tədqiqat-yönümlü olmaqla əsasən Şimal yarımkürəsində yerləşirlər. Avropanın bir sıra ölkələrində və Yaponiyada dünya səviyyəli universitetlər fəaliyyət göstərir. Artıq Çin, Sinqapur və Cənubi Koreyanın bəzi universitetləri də dünya səviyyəli tədqiqat institutlarına çevrilməkdədir [4].

Hazırda beynəlxalq təhsilin nüvəsini kimi qəbul edilən, ABŞ, Britaniya, Almaniya, Fransa,

Avstraliya və Kanadanın bir sıra əyalətlərində fəaliyyət göstərən universitetlər ali təhsilin bütün parametrlərinə görə öndədirlər. Mükəmməl təhsil sisteminə malik olan ABŞ-ın 3200 universitet və kollecindən yalnız 100-ü tədqiqatyönümlüdür. Elmi tədqiqata ayırlan maliyyə fondunun 80%-i onların payına düşür [5].

Göründüyü kimi əksər universitet və icma kolleclər daha çox sosial və tədrisyönümlü olmaqla qismən tədqiqatlar aparsalar da, onların tədqiqatları qlobal dünya üçün əhəmiyyətli hesab edilmir. Dünya universitetlərinin çoxu, ölkəmizdə daxil olmaqla bu səviyyədə fəaliyyət göstərir. Lakin dünya səviyyəli universitetlərlə sıx əlaqə saxlayan Misir universitetləri ciddi tədqiqat işləri aparmırlar, əksinə, Çinin qabaqcıl ölkə daxilində əhəmiyyətli elmi – tədqiqatla məşğul olurlar.

Dünya səviyyəli status almağa iddialı universitetlərə külli miqdarda investisiyaların yatırılması tələb olunur. Belə ki, dəyərli elmi–tədqiqat işlərinin aparılması üçün lazım olan laboratoriya avadanlığı, cihazlar və s. tələb olunur. Təsadüfü deyil ki, ən nüfuzlu elmi jurnallara ABŞ və Böyük Britaniyanın güclü universitetləri rəhbərlik edir və dünya informasiya şəbəkə-sindəki verilənlər bazası isə ingilis dilindədir. Universitetlərin demək olar ki, əksəriyyətinin ciddi tədqiqatlar aparmaq üçün qurğuları, avadanlıqları olmadığı üçün və yaxud zəif olduğu üçün tədrisə köklənmişdir.

Dünya elminin nəhənglərini, intellekt sahiblərini ələ almaq üçün böyük güc mərkəzləri tələbə mübadiləsinə, dərsliklərin çapına, kitab tərcümələri və universitet binalarının tikintisinə səxavətlə pul xərcləyirdilər. Amerika ali məktəb tələbələrinin ən çoxu Asiyadan (57%), əsasən Yaponiya, Çin, Koreya, Tayvan və Honkonqdan gələnlərdir. Amerikada Asiya xalqlarının ən istedadlı gənclərinin təhsilini davam etdirmək üçün xeyriyyəçi mübadilə proqramları fəaliyyət göstərir. Avropalılar bu sahədə Amerikadan sonra ikinci yerdədir (15%). Hazırda Şərqi Avropa və Rusiyadan tələbə axını xeyli artmışdır. Xaricdə təhsil alan tələbələrin çoxu təhsil haqqı ödəyirlər. Bu baxımdan hər il ABŞ iqtisadiyyatı 13 milyard dollardan artıq gəlir əldə edir, digər ölkələrin isə itirir [4].

Ölkəmizdə müstəqillik illərində ali təhsilin təkmilləşməsi və müasirləşməsi istiqamətində məqsədyönlü işlər görülmüşdür. Ölkə Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda müxtəlif elm sahələri üzrə tədqiqatların intensivləşdirilməsi, kreativ düşüncəli gənclərin elmə cəlb olunması, elm sahəsində rəqabətli maliyyə mexanizminin yaradılması kimi prioritetlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda təhsilin bütün səviyyələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilməsi, rəqəmsal biliklərin dərinləşdirilməsi də əsas vəzifələrdən hesab edilir. Ölkəmizdə elm-təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsi, elm və təhsildə köklü islahatların aparılması intellektual resurslardan daha səmərəli və məhsuldar istifadə etməyə imkan verəcəkdir [6].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Biz qara qızıl kapitalını insan potensialına çevirəcəyik” bəyanatının əsas müddaları hazırda uğurla inkişaf edir. Ali təhsil sisteminin yenilənməsi cəmiyyətin davamlı inkişafında, intellektual potensialın formalaşmasında, maddi sərvətlərin intellektual kapitala çevrilməsində böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Abbasov, Ə.M. İnkişaf etmiş xarici ölkələrdə təhsil. – Bakı: Elm və təhsil, – 2020, – 108 s.
2. Mahmudov M.C. Dünya təhsil sistemləri. Monoqrafiya. – Бакы: Mütərcim, – 2014. – 480 s.
3. https://www.azerbaijan-news.az/posts/detail/musteqil-azerbaycanda-ali-tehsilin-inkisafi-ve-perspektivleri-1634416395
4. https://edu.gov.az/news-and-updates/16731
5. https://www.muallim.edu.az/news.php?id=21578
6. https://525.az/news/197605-elm-ve-tehsilin-vehdeti

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 281-284
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 281-284
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 281-284

UOT

Fizikanin tədrisində şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılması

Müəlliflər:

Səyyarə İsgəndərova
Gəncə Dövlət Universiteti
E-mail: isgenderova20@mail.ru

Samirə Rafiq qızı Nuriyeva
Gəncə Dövlət Universiteti

Açar sözlər:
ekoloji problem, antropogen çirklənmə, ekoloji təhsil, ekoloji mədəniyyət, ekoloji təhsil, ekoloji təhsil

Annotasiya. Bu məqalə tələbələrin fizikanın öyrənilməsi zamanı əldə etdikləri fiziki və ekoloji biliklərin məzmununu, bu təbiət elminin akademik intizamının fənlərarası əlaqələrini, habelə əsas ekoloji bacarıqları nəzərə alaraq, formalaşdırma yollarını və üsullarını təsvir edir. Həm sinifdə, həm də fizikadan sinifdənkənar dərslərdə şagirdlərin ekoloji mədəniyyətini formalaşdırır. Məqalədə həmçinin elektromaqnit sahəsinin insan saglamlıgına və ətraf mühitə təsirləri araşdırılmış, ekoloji problemlər yaradan elektromaqnit və radioaktiv şüalanmalarının səviyyəsini azaltmaq məqsədilə tətbiq olunan üsullar təhlil edilmişdir. Araşdırmada təbiətin özünü tənzimləmə qabiliyyətinin zəifləməsinə, təbii ekosistemlərin komponentlərinin deqradasiyaya ugramasına və biomüxtəlifliyin azalmasına səbəb olan faktorların ətraf mühitə təsirini tənzimləmək məqsədilə yeni kriteriyalar və normativlərin hazırlanması və həyata kecirilməsi təklif olunmuşdur.

Authors:

Sayyare Iskenderova
Ganja State University
E-mail: isgenderova20@mail.ru

Samira Nuriyeva
Ganja State University

Formation of environmental education of students in the teaching of physics

Key word:
ecological balance, ecological problem, technogenic pollution, ecological catastrophe, ecological education, ecological culture, ecological education, ecological consciousness

Abstract. This article describes the ways and methods of formation, taking into account the content of physical and environmental knowledge that students acquire in the course of studying physics, interdisciplinary connections of this natural science academic discipline with others, as well as basic environmental skills. Forms the ecological culture of students both in the classroom and in extracurricular physics lessons. The article also discusses the impact of the electromagnetic field on human health and the environment, and analyzes the methods used to reduce the level of electromagnetic and radioactive radiation that cause environmental problems. The study proposes to develop and implement new criteria and standards to regulate the impact on the environment of factors that weaken the ability of nature to self-regulate, the degradation of components of natural ecosystems, and the reduction of biodiversity.

Авторы:

Сайяра Искендерова
Гянджинский государственный университет
E-mail: isgenderova20@mail.ru

Самира Нуриева
Гянджинский государственный университет

Формирование экологического воспитания учащихся при обучении физике

Ключевые слова:
экологическая проблема, антропогенное загрязнение, экологическое воспитание, экологическая культура, экологическое образование, экологическое просвещение

Аннотация. В данной статье описывается содержание физических и экологических знаний, полученных студентами при изучении физики, способы и методы их формирования с учетом междисциплинарных связей данной учебной дисциплины естествознания, а также основных экологических навыков. Формирует экологическую культуру учащихся как на уроках, так и на внеклассных занятиях по физике. В статье также исследовано влияние электромагнитного поля на здоровье человека и окружающую среду, проанализированы методы, применяемые с целью снижения уровня электромагнитного и радиоактивного излучения, вызывающего экологические проблемы. В ходе исследования было предложено разработать и внедрить новые критерии и нормативы с целью регулирования воздействия на окружающую среду факторов, способствующих ослаблению саморегулируемой способности природы, деградации компонентов природных экосистем и сокращению биоразнообразия.

Məqaləni hazırlamaqda məqsəd ətraf mühitin fiziki proseslər zamanı çirklənməsini araşdırmaq, mövcud ekoloji problemlərin həlli istiqamətlərini tədqiq etmək, planetimizin və eləcə də biosferin ekoloji çirklənmədən qorunması üçün yeni elmi əsaslandırılmış təkliflər işləyib hazırlamaqdır.

Məqalədə eyni zamanda təbii və süni çirklənmələrin xüsusəndə elektromaqnit çirklənmə- lərin xüsusiyyətləri, təbii ətraf mühiti antropogen çirklənmələrdən qorumaq üçün yeni metodik-normativ sənədlərin hazırlanması məsələsinin təklif olunması, yüksək və ifrat yüksək tezlikli elektromaqnit sahələri yaradan mənbələrin şüalandırdığı şüaları mənbədə zəiflətmək üçün görülən tədbirlər müqayisəli şəkildə təhlil edilmişdir.

Dünyanın müasir təbii-elmi mənzərəsini ekoloji problemləri əks etdirmədən təsəvvür etmək mümkün deyil. Hal-hazırda elm, texnika, istehsalın yeni sahələrinin meydana çıxması və insanların əmək fəaliyyətinin ətraf aləmə təsir dairəsinin genişlənməsi sayəsində cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsi o qədər yaxınlaşmışdır ki, insanın təbiətə müdaxiləsi, artıq xaotik və sərhədsiz olmuşdur. Bu təsirlər müəyyən şəkildə tənzimlənməlidir, əks halda bəşəriyyət öz varlığını nüvə müharibəsindən az olmayaraq təhlükə altına alan ekoloji fəlakətlə üzləşəcək.

İnsanın təbiətə müdaxiləsinin mümkün mənfi nəticələrinin qarşısını almaq üçün bir sıra elmi, texniki, ictimai-siyasi və digər problemləri həll etmək lazımdır ki, bunların arasında ilk yerlərdən birini pedaqoji və təhsil problemləri tutur. Gənc nəsil hələ məktəbdə olarkən təbii mühitə elmi əsaslandırılmış və diqqətli münasibətə hazır olmalıdır. Məhz buna görə də akademik fənlərin “yaşıllaşdırılması” ideyası yəni, məktəblilər arasında ekoloji mədəniyyətin formalaşdırılması indi son dərəcə aktuallaşıb.

Fizikanın tədrisi prosesində şagirdlərin ekoloji təhsili və tərbiyəsi, ilk növbədə, təbiətin bütövlüyü, onda baş verən hadisələrin əlaqəsi və onların səbəbkarlığı, insan və təbiətin qarşılıqlı əlaqəsi haqqında təsəvvürlərin formalaşması ilə bağlıdır və nəticədə təbii proseslər müəyyən ekloji balansın pozulmasına gətirib çıxarır. Fizikanın tədrisinin ekoloji istiqaməti əsasən təbiət hadisələrinin, eləcə də insan fəaliyyətinin ətraf aləmə təsirinin nəzərə alınması nəticəsində möhkəmlənmişdir. Bu, şagirdlərə cəmiyyət və təbiət arasında getdikcə mürəkkəbləşən qarşılıqlı əlaqəni daha dərindən, dolğun və düzgün dərk etməyə, insanın onun həyatına qeyri-düzgün müdaxilə təhlükəsinin mühafizəsi və istifadəsi ilə bağlı məlumatların yönləndirilməsinə imkan verir. Ətraf mühitdən rasional istifadənin və onun hər cür çirklənmədən qorunmasının zəruriliyinə inamın inkişafı ilə, elmi-texniki tərəqqinin mənfi nəticələrini, məsələn, istehsalatda və məişətdə elektrik cihazlarının geniş tətbiqi nəticəsində səs-küy, vibrasiya, müxtəlif tezlikli elektromaqnit sahələri kimi fiziki amillər, radio və televiziya stansiyalarının, radar qurğularının sayının və gücünün artması və s. nəticəsində yaranan çirklənmələrin bu cür zərərli təsirləri “zərərsizləşdirmək” üçün elmi ideyaların və kəşflərin tətbiqi olduqca vacibdir. Beləliklə, müasir fizika və texnologiya sahəsində əldə olunan nailiyyətlərə nüvə enerjisinin inkişafı və bərpa olunan enerji mənbələrindən istifadə, maqnitohidrodinamik qurğulardan, ən müasir ölçmə avadanlığı və elektron hesablama maşınlarından istifadə zamanı, yaranan ekoloji böhrandan mümkün çıxış yollarını göstərmək, fizikanın tədrisində məktəblilərin ekoloji maarifləndiril- məsinin mühüm aspektidir [1].

Fizika təbiət haqqında bir elmdir, ona görə də texnoloji tərəqqinin artan potensialı və ekoloji fəlakət gətirən texnologiyaların inkişafı ilə əlaqədar olaraq, bu xüsusi fənnin dərslərində ətraf mühitin mühafizəsi problemini nəzərdən keçirmək lazımdır. Belə ki, müəllim şagirdlərə fizikadan öyrətdiklərini təbiəti mühafizə ilə əlaqələndirməli və keçdiyi hər mövzuya uyğun məsələləri ekoloji tarazlığın qorunması ilə əlaqələndirərək onlarda ekoloji tərbiyəni aşılamalıdır. Çünki, fizika müəllimi öz mövzularını asanlıqla bu problemlə əlaqələndirərək şagirdlərin diqqətini həmin məsələyə yonəldə bilər. Əgər müəllim Arximed qanununu və cisimlərin üzmə şərti mövzusunu öyrədirsə, ördəklərin və bir sıra başqa qazların suda üzməsi bu qanununlara əsaslandığı üçün mütləq ekoloji çirklənməni qeyd edərək, onların orqanizmlərinin istehsal etdiyi xüsusi yağlı maddə lələklərini suda islanmağa qoymadığını və yumşaq tüklər arasında qalan hava qabarcıqları hesabına Arximed itələmə qüvvəsinin artması sayəsində onlar üzərkən batmır. Ekoloji tarazlığın pozulması sənaye tullantıları şəklində suya qarışan yuyucu maddələrin, neft məhsullarının sulara axıdılması sayəsində ördəklərin kütləvi şəkildə suda boğulduğunu onların nəzərinə çatdırmalıdır. Buna səbəb kimi quşların lələyindəki

yağların yuyulub təmizlənməsi orada olan hava qabarcıqlarının kənara çıxması, Arximed itələmə qüvvəsinin azalması olduğu nəzərə çatdırılmalıdır [2].

Bütün canlı orqanizmlərdə baş verən prosslər nə qədər mürəkkəb və bir-biri ilə sıx əlaqədə olsa da, onlar içərisində fiziki proseslərə yaxın və ya ona gətirilə bilən proseslər göstərmək mümkündür, qan dövranı kimi mürəkkəb bir fizioloji prosesdə maye axını ilə əlaqədar olan hidrodinamik, iş görülməsi ilə səciyyələnən mexaniki, istilikvermə ilə bağlı termodinamik, sinir impulsunun əmələ gəlməsi və yayılmasını təmin edən elektrodinamik və s. proseslər iştirak edir. Tənəffüs prosesi fizikanın öyrətdiyi buxarlanma, faza çevrilmələri, istilikvermə və digər hadisələri ilə əlaqədardır [2].

Şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan anlayışlardan biri də enerjidir. Enerji anlayışı ilə şagirdlər fizika kursunun tədrisi müddətində tez-tez rastlaşırlar. Odur ki, enerjinin fiziki mahiyyəti geniş izah edilərək enerjinin hərəkətin ölçüsü olması şagirdlərə çatdırılır. Enerjinin bir növdən digər növə çevrildiyi, saxlanma və çevrilmə qnunlarına tabe olduğu vurğulanmaqla bu proseslər zamanı şüalanma nəticəsində ətraf mühitə və canlı orqanizmlərə vurduğu ziyanlar ön plana çəkilməlidir. Fizika dərslərində ekoloji mədəniyyətin formalaşdırılması metodikası işlənib hazırlanarkən tətbiq kimi "Elektromaqnit dalğalarının miqyası" mövzusunda dərs-konfransın və "Radioaktiv şüalanmanın bioloji təsiri" mövzusunda dərsin hazırlanması məqsədəuyğundur.

Ekoloji problemlərin fizika kursuna daxil edilməsi problemi ilə məşğul olana alimlər ekoloji təhsilin əhəmiyyətini göstərərək və ekologiyanın əsaslarının öyrənilməsində "Fizika" fənninin rolunun böyük olduğunu sübut etdilər. Ekoloji maarifləndirmənin hal-hazırda konkret metodları yoxdur. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmalıdır:

a) ekoloji mədəniyyət anlayışının mahiyyətini açmaq

b) fizika dərslərində mədəniyyətin formalaşması metodikasını işləyib hazırlamaq.

Müasir dövrdə elmi tərəqqinin inkişafı dövründə cəmiyyətdə elektromaqnit və elektrik enerjilərindən intensiv istifadə olunması ətraf mühiti daha çox çirkləndirən yeni bir faktorun elektromaqnit faktorunun yaranmasına səbəb olmuşdur. Hal-hazırda istər lokal, istərsədə qlobal informasiya və enerjilərin ötürülməsində tətbiq olunan texnologiyaların yüksək inkişafı, texnoloji proseslərin və bəzi vacib sahə növlərinin kənardan idarə olunması və onlara nəzarətin həyata keçirilməsi, bir sıra yeni texnoloji proseslərin inkişafı elektromaqnit faktorunun yaranmasına və onun yaratdığı ekoloji faktorların daha dərindən öyrənilməsinə zəmin yaratmışdır [1].

Ətraf mühitin elektromaqnit sahəsi ilə çirklənməsi, elektromaqnit şüalanması təhlükəsizliyi problemi bu günkü dövrümüzün ən aktual və dərin problemlərindən hesab edilir. Eyni zamanda mövcud elektromaqnit çirklənmənin qarşısının alınması üçün görülən bir sıra tədbirlər, onların insanların sağlamlıqlarına vurduqları ziyanları azaltmaq və ya tamamilə yox etmək məqsədilə elmi araşdırmaların, müasir metodik və normativ sənədlərin işlənməsi və onların həyata keçirilməsi məsələlərinin aktuallığını bir daha təsdiq edir.

Araşdırılan mövzunun bəzi problemləri bir çox müəlliflər tərəfindən tədqiq olunmuşdur. Buna görədə göstərilən ədəbiyyatlarda araşdırmaların nəticələrini azaltmadan məqalədə ətraf mühitin elektromaqnit şüalanmasından çirklənməsinin qarşısının alınması və eyni zamanda mühitin saglamlaşdırılması və insanların saglamlıqlarının təhlükəsizliyinin təmin olunması probleminin həlli istiqamətləri göstərilmişdir [3].

Məktəb fizika kursunun ekoloji aspekti, prinsipcə, ekosistemə minimum mənfi təsirin texniki və texnoloji əsaslarını şagirdlərə çatdırmaqdan ibarətdir.

Ekoloji cəhətdən təmiz enerji mənbələri-çaylar, külək, günəş radiasiyası, geotermal mənbələr və s. o cümlədən qapalı istehsal dövrləri ideyası böyük əhəmiyyət kəsb edir.

Fizika kursunda məktəblilər enerjiyə qənaət edən ixtiralara mühərriklərin səmərəliliyinin artırılması, ikinci dərəcəli resursların istifadəsi, texnoloji proseslərdə xammal və enerji itkilərinin azaldılması və s. əsaslanan ekoloji yönümlü mühəndislik və layihələndirmə strategiyalarını formalaşdıra bilərlər.

Fizika kursunu oxuyarkən tələbələr cəmiyyət və təbiət arasındakı əlaqə, Yer kürəsində həyatın mövcud olması üçün atmosferin əhəmiyyəti, onun çirklənməsinin əsas mənbələri, bu çirklənmələrin ətraf mühitə təsiri haqqında aydın təsəvvür əldə etməlidirlər. Bu, proqramı genişləndirmədən və ya həddən artıq yüklənmədən, lakin şagirdlərin

diqqətini tədris materialı ilə sıx bağlı olan ekoloji məsələlərə yönəltməklə, müvafiq sinifdənkənar tədbirlər təşkil etməklə həyata keçirilə bilər [4].

Ədəbiyyat

1. Пресман А.С. «Электромагнитное поле и жизнь» – М.– 2003.
2. P.Paşayev. Təbiət elmlərinin əlaqəli öyrənilməsi. – Bakı: Maarif, – 1977.
3. Электромагнитные поля и здоровье \\http\\ wwwpole.com
4. Qərib Məmmədov, M.Xəlilov – Ekologiya, ətraf mühit və insan, – 2006.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 285-288
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 285-288
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 285-288

UOT

Musiqi müəllimi hazırlığında milli nəfəs alətlərinin tədrisinin bəzi məsələləri

Müəllif:

Nazilə Qardaşbəyova
Naxçıvan Dövlət Universiteti
E-mail: azileqardashbeyova@gmail.com

Açar sözlər:
nəfəs alətləri, zurna, balaban, xalq ansamblları, orkestr, alətşünaslıq

Annotasiya. Azərbaycan musiqi mədəniyyətində milli nəfəs alətlərinin tədrisi və təbliği mühüm əhəmiyyətə malikdir. Milli nəfəs alətlərinin öyrənilməsi xüsusi tədqiqat obyekti kimi maraq doğurur. Məqalə milli nəfəs alətlərinin tədqiqinə həsr olunub. Məqalədə nəfəs alətlərinin təsnifatına, onların növ müxtəlifliyinə, müxtəlif sahələrdə – ansambl və orkestrlərdə istifadəsinə diqqət yetirilir. Milli nəfəs alətləri musiqi təhsili sistemində özünəməxsus yer tutur. Belə ki, həm uşaq musiqi məktəblərində, həm orta ixtisas musiqi məktəblərində – kolleclərdə, həm də ali musiqi məktəblərində tədris olunur. Bu tədris ocaqlarında keçirilən Alətşunaslıq fənnində nəfəs alətlərinə xüsusi yer verilir. Belə ki alətlərin tembri, səs diapazonu, çalınma texnikası, yaranması, inkişaf tarixi, bəstəkarların yaradıcılığında bu alətlərin yeri haqqında geniş məlumat verilir. Milli nəfəs alətləri bəstəkar yaradıcılığında – ansambl pyeslərində və orkestr əsərlərində, xalq çalğı alətləri orkestrində, simfonik orkestrdə tətbiq olunur.

Author:

Nazila Kardashbeyova
Nakhchivan State University
E-mail: azileqardashbeyova@gmail.com

Some issues of teaching national wind instruments in music teacher training

Key word:
wind instruments, trumpet, balaban, folk ensembles, orchestra, instrumental science

Abstract. The article is devoted to the study of national wind instruments. The article focuses on the classification of wind instruments, their variety, and their use in various fields - ensembles and orchestras. National wind instruments occupy a special place in the system of music education. Thus, it is taught both in children's music schools, in secondary specialized music schools - colleges, and in higher music schools - in the Azerbaijan National Conservatory and the University of Culture and Arts. In the subject of Instrumentation held in these educational institutions, wind instruments are given a special place. Thus, the timbre of the instruments, sound range, playing technique, creation, history of development, the place of these instruments in the work of composers is given extensive information. National wind instruments are used in composer's creations - ensemble plays and orchestral works, folk instruments orchestra, symphony orchestra.

Автор:

Назиля Гардашбекова
Нахчыванский государственный университет
E-mail: azileqardashbeyova@gmail.com

Некоторые вопросы преподавания национальных духовых инструментов в подготовке учителей музыки

Ключевые слова:
духовые инструменты, труба, балабан, народные ансамбли, оркестр, инструментоведение

Аннотация. Преподавание и пропаганда национальных духовых инструментов имеет важное значение в музыкальной культуре Азербайджана. Изучение национальных духовых инструментов представляет интерес как особый объект исследования. Статья посвящена изучению национальных духовых инструментов. В статье уделено внимание классификации духовых инструментов, их видовому разнообразию, использованию в различных областях – ансамблях и оркестрах. Национальные духовые инструменты занимают особое место в системе музыкального образования. Так, его преподают как в детских музыкальных школах, так и в средних специальных музыкальных школах – колледжах и высших музыкальных школах. В предмете инструментоведения, проводимых в этих учебных заведениях, особое место отводится духовым инструментам. Так дается обширная информация о тембре инструментов, звуковом диапазоне, технике игры, происхождении, истории развития, месте этих инструментов в творчестве композиторов. Национальные духовые инструменты используются в творчестве композитора-в ансамблевых пьесах и оркестровых произведениях, в оркестре народных инструментов, симфоническом оркестре.

Azərbaycan musiqi mədəniyyətində milli nəfəs alətlərinin tədrisi və təbliği mühüm əhəmiyyətə malikdir. XXI əsrdə də milli musiqi alətlərinin tədqiqi, onların ənənəvi musiqidə və bəstəkar yaradıcılığında istifadəsi geniş əhatə dairəsinə malikdir. Milli nəfəs alətlərinin öyrənilməsi xüsusi tədqiqat obyekti kimi maraq doğurur.

Əsrlər boyu təkmilləşən nəfəs alətləri haqqında məlumatları bir çox mənbələrdən- klassik ədəbiyyatdan və tətbiqi sənət nümunələrindən alırıq. XX əsrdə milli musiqi alətlərinin tədqiqi və musiqi ifaçılığında tətbiqi məsələləri geniş yayılmışdır.

Azərbaycanın dahi bəstəkarı və musiqişünası Üzeyir bəy Hacıbəyli milli musiqi alətlərindən zurna, balaban, ney və tütəyi xarakterizə edərək, nəfəs alətlərinin bədii-texniki imkanlarını qeyd etmişdir. Ü.Hacıbəylinin göstərdiyi bu alətlər həmin dövrdə xalq musiqi təcrübəsində geniş tətbiq olunurdu və onlar Ü.Hacıbəyli tərəfindən not sisteminə salınaraq, həm xalq çalğı alətləri orkestrinə, həm də simfonik orkestrin tərkibinə daxil edilirdi. Milli nəfəs alətlərinin qədim dövrdən bu günə kimi məlum olan bir çox növu göstərilmişdir. Onlar quruluşuna və çalğı üsullarına görə fəsilələrə və alt növlərə bölünmüşdür ki, bunlardan dodaqlılar (açıqlar – ksul, ney, yan tütək; qapalılar – nay; çoxgövdəlilər – musiqiqar; dillilər – kələnay, mizmar, tütək; quşşəkillilər – burbuq), dilçəklilər (birdilçəklilər – sümsü, sümsü-balaban, şapbır-balaban, tulum; ikidilçəklilər – balaban, zurna (surnay, sur); çoxdilçəklilər – ərğan), müştüklülər (buynuzlar – buğ, burğu;, borular – gavdum, kərənay, nəfir, şahnəfir, şeypur) kimi fəsilələri və növləri qeyd etmək olar [4]. Azərbaycan xalq çalğı alətlərinin tədqiqatçılarından Məcnun Kərim və Abbasqulu Nəcəfzadənin tədqiqatlarında da milli nəfəs alətlərinin növləri xarakterizə olunmuşdur. Alətşünas-alim Məcnun Kərim “Azərbaycan musiqi alətləri” kitabında nəfəs alətlərinin yaranması və növ müxtəlifliyini belə səciyyələndirmişdir: “Bu alətlərin ilk sadə nümunələri eramızdan bir neçə min il əvvəl qarğı və qamışdan hazırlanmışdır. Bu ənənə dövrümüzə qədər yaşamış və bu gün də davam etdirilir. Hazırda bir neçə nəfəs aləti: ney, tütək, musiqar, sümsü və onun növləri qarğı və qamışdan hazırlanır. Nəfəs alətləri sümükdən, heyvanların buynuzundan, gildən, müxtəlif ağac növlərindən, mis və digər materiallardan da hazırlanır” [4]. Məcnun Kərim nəfəs alətlərini quruluşuna görə üç qrupa bölür: 1. Müştüklü: zurna, balaban; 2. Müştüksüz: ney, tütək, yan tütək; 3. Körüklü (dərili): tulum, qarmon. Alətşünas-alim Abbasqulu Nəcəfzadə “Azərbaycan çalğı alətlərinin izahlı lüğəti”ndə, digər müəlliflərdən fərqli olaraq, nəfəs alətlərinin hər birinin çox sayda növlərini göstərmiş, onların yaranma tarixi, hazırlanma qaydası, quruluşu, ifaçılıq xüsusiyyətləri, tədrisi və tətbiqi sahələrinin təsvirini vermişdir. Ayrılıqda götürsək, təkcə balaban alətinin – adi balaban, ansambl balabanı, aşıq balabanı, alt balaban, bəm balaban, zil balaban, dəm balaban, yastı balaban, kiçik balaban, klapanlı balaban, pikkolo balaban, orkestr balabanı, tenor balaban, tulum balaban, cürə balaban və s. növlərini qeyd edə bilərik [5]. Eyni zamanda, zurna, ney, tütək və digər məfəs alətlərinin müxtəlif növləri lüğətdə öz əksini tapmışdır. Nəfəs alətlərinin bu cür növ müxtəlifliyində alətlərin bədii-texniki imkanları və tətbiqi ilə bağlı bəzi ortaq cəhətləri də görə bilərik. Belə ki, alətin səslənmə ucalığına görə bəm, zil, alt, pikkolo, tenor kimi növləri, ölçülərinə görə adi, cürə, kiçik növləri, quruluşuna görə yastı, tulum, klapanlı və s. növləri, tətbiqi sahələrinə görə ansambl, orkestr, aşıq, dəm balaban növləri göstərilir. Bunlar çox maraqlı material olub, nəfəs alətlərinin tədqiqat dairəsinin genişliyini üzə çıxarır. Milli nəfəs alətləri ifaçılığından danışarkən, bu alətlərin tətbiqi sahələrini də tələbələrə geniş şəkildə izah etmək vacibdir. Müasir dövrdə ənənəvi musiqidə milli nəfəs alətləri rəqs ifaçılığında, aşıq və muğam sənətində istifadə olunur. Ü.Hacıbəyli Azərbaycan milli musiqi ifaçılarını səciyyələndirərək yazmışdır: “Peşə və sənət məqamında musiqi icrası “ustad”ların işidir; bu ustadlar, qabiliyyət və ləyaqətlərinə görə iki zümrəyə ayrılırlar: biri şəhər və yaxud “məclis” musiqiçiləri ki, bunlara məlum olduğu üzrə, xanəndə və sazanda dəstəsi deyilir; o biri zümrə kənd və ya “çöl” musiqiqarlarıdır ki, onlar da aşiq (aşıq) və zurnaçı dəstəsidir”. Bu sitatdan göründüyü kimi, Ü.Hacıbəyli milli nəfəs alətləri ifaçılarını – “zurnaçılar dəstəsini” - peşəkar ifaçılar olaraq xarakterizə etmişdir. Bu da ondan irəli gəlir ki, xalq çalğı alətləri ifaçıları xüsusi musiqi təlimi keçmiş sənətkarlardır. Təbii ki, qədim zamanlardan xalq ifaçılığında ənənəvi olaraq, şifahi təlim aparılaraq, bu günə kimi davam edir. Yalnız bizim dövrümüzdə (XX əsrin 30-cu illərindən başlayaraq) musiqi məktəblərində ibtidai və ali təhsil səviyyəsində not

üzrə tədris tətbiq olunaraq, bəstəkar əsərlərinin ifasına şərait yaranmışdır. Qeyd etmək lazımdır ki, milli nəfəs alətləri musiqi təhsili sistemində özünəməxsus yer tutur. Belə ki, həm uşaq musiqi məktəblərində, həm orta ixtisas musiqi məktəblərində – kolleclərdə, həm də ali musiqi məktəblərində – Azərbaycan Milli Konservatoriyasında və Mədəniyyət və İncəsənət Universitetində tədris olunur.Bu tədris ocaqlarında keçirilən Alətşunaslıq fənnində nəfəs alətlərinə xüsusi yer verilir. Belə ki, alətlərin tembri, səs diapazonu, çalınma texnikası , yaranması, inkişaf tarixi, bəstəkarların yaradıcılığında bu alətlərin yeri haqqında geniş məlumat verilir. Musiqi alətlərinin tədrisi şifahi əsaslarla (muğam və xalq rəqsləri) və not ifaçılığı üzrə (bəstəkar əsərləri) aparılır. Milli nəfəs alətlərinin ansambllarda və orkestrlərdə tətbiqindən danışarkən, qeyd etməliyik ki, bunu iki yerə bölmək olar: birincisi, şifahi əsaslarla fəaliyyət göstərən ansambllardır, ikincisi, bəstəkar əsərlərinin ifası ilə bağlı müxtəlif tərkibli ansambl və orkestrlərdir. Şifahi əsaslarla fəaliyyət göstərən ansambllara xalq arasında geniş yayılmış "zurnaçılar dəstəsi" adlandırılan ansambl növü aiddir. Həmçinin, aşıq və muğam ansamblları da şifahi əsaslarla ifaçılıqla bağlıdır. Bu ansamblların repertuarı şifahi ənənəli musiqi nümunələrindən – xalq rəqslərindən, aşıq havalarından, muğama aid janrlardan ibarətdir. Eyni zamanda, geniş tərkibli xalq çalğı alətləri ansambllarının tərkibinə də nəfəs alətləri: əsasən zurna, balaban, bəzən əsərin məzmunundan irəli gələrək, tütək və s. daxildir. Bütün qeyd etdiyimiz ansambllarda nəfəs alətlərindən müxtəlif şəkildə istifadə olunur. Məsələn, aşıq və muğam ansambllarında əsasən balaban aləti tətbiq olunur. Aşıq dəstəsində balabançı aşıq sazı ilə yanaşı, müşayiətçi kimi çıxış edir. Bəzən bir, bəzən də iki balabançıdan istifadə olunur. Muğam ifaçılığında isə tar, kamança ilə yanaşı, balaban aləti dəmkeş kimi daxil edilir. Lakin bu alətdə muğam parçaları da olduqca həzin səslənir. Rəqs ifaçılığında zurna, balaban, nağara alətlərindən istifadə olunur. Xüsusilə yallı rəqsinin müşayiətində zurnaçılar dəstəsi əvəzolunmazdır. Azərbaycanın bəzi bölgələrində məsələn, Naxçıvanda yallı müşayiətində tulum alətindən də geniş istifadə olunur. Bununla yanaşı, açıq havada keçirilən idman – atçapma və pəhlivan yarışlarında, xalq mərasimlərində zurnaçılar dəstəsi əsas musiqi müşayiətçisi kimi çıxış edir. Lakin qədim dövrlərdən tütək alətindən və ney alətindən mərasimlərdə istifadə olunurdu. Bütün bunlar, müasir dövrə qədər gəlib çatmışdır və bir ənənə olaraq bu günümüzdə də qorunub saxlanılır.

Not üzrə ifaçılığa əsaslanan ansambl və orkestrlərdən söhbət açarkən, ilk növbədə, bəstəkarlar tərəfindən müxtəlif janrlı əsərlərin ifası üçün yaradılan rəngarəng tərkibli ansambllları qeyd etmək olar. Bu kimi ansambllarda əsərin məzmunundan asılı olaraq, zurna, balaban, ney, tütək alətləri tətbiq olunur. Məsələn, son dövrdə qəhrəmanlıq xarakterli əsərlərdə zurna alətlərindən istifadə olunmasına çox rast gəlinir. Bu cəhət bəstəkarların xalq qəhrəmanı musiqisinə müraciət edərək, cəngi ruhlu əsərlər yaratmasından irəli gəlir.

Milli nəfəs alətləri Azərbaycan xalq çalğı alətləri orkestrinin daimi tərkibinə daxildir. 1931-ci ildə yaradılmış Azərbaycan xalq çalğı alətləri orkestrinin partiturasında bu alətlərin öz yeri vardır [3]. Xalq çalğı alətləri orkestrinin partiturasına I və II balabanlar, zurna daxildir. Bununla belə əsərin məzmunundan irəli gələrək, zurna, tütək, ney solo alət kimi müəyyən dramaturji məqsədlərlə istifadə olunur. Məsələn, Ü.Hacıbəyli xalq çalğı alətləri orkestri üçün ilk əsərləri – "Şur" və "Çahargah" fantaziyalarını bəstələmişdir. Bu əsərlərdə iki balabandan istifadə olunur. Ü.Hacıbəylinin "Cəngi" əsərində ilk dəfə olaraq, zurna aləti orkestrə daxil edilmişdir. Bu bir ənənəyə çevrilərək, Zülfüqar Hacıbəyovun, Süleyman Ələsgərovun və digər bəstəkarların yaradıcılığında istifadə olunur. Tütək aləti Ağabacı Rzayevanın "Çoban Qara" əsərinin ifası zamanı orkestrə daxil edilir. Balaban alətindən də solo şəkildə istifadə nümunələri vardır, məsələn, Süleyman Ələsgərovun "Xəyala dalarkən" pyesini nümunə göstərə bilərik. Bəstəkarların müvafiq əsərləri ilə bağlı olaraq, milli nəfəs alətləri simfonik orkestrdə, həmçinin, hərbi orkestrdə də tətbiq olunur. Bu baxımdan milli musiqi alətlərinin simfonik orkestrə daxil olunması Ü.Hacıbəylinin adı ilə bağlıdır. Bilavasitə "Koroğlu" operasında müəyyən səhnələrdə (əsasən xalqın sevincini və igidliyini əks etdirən rəqslərdə – "Cəngi" rəqsində) nəfəs alətləri simfonik orkestrin tərkibinə daxil edilmişdir. Cavanşir Quliyevin zurna və simfonik orkestr üçün uvertyurası da bu ənənənin davamıdır. Göründüyü kimi, zurna alətinin xalq musiqi ifaçılığında əsasən qəhrəman ruhlu rəqsləri ifa etməsi bir ənənəyə çevrilmişdir. Bundan irəli gələrək, hərbi orkestrlərdə də Cəngi tipli

əsərlərin ifası zamanı orkestrin tərkibinə zurna aləti daxil olunur. Beləliklə, milli nəfəs alətlərinin musiqi mədəniyyətində tətbiqi məsələlərinin araşdırılması həm xalq çalğı alətlərinin mərasimlərdə və məişətdə, həm də peşəkar ansambl və orkestrlərdə istifadə olunması ilə bağlıdır. Müasir musiqi mədəniyyətində bütün növ ansambl və orkestrlərin özünəməxsus yeri vardır. Ansambl və orkestrlərdə milli nəfəs alətlərinin tətbiqi hər bir halda əsərlərin təhlili ilə bağlı olub, alətləşdirmənin xüsusiyyətləri və obrazlı-dramaturji məzmunla bağlıdır.

Azərbaycan xalqının milli- mənəvi tərbiyəsində , o cümlədən azərbaycançılıq ideyalarına qovuşmasında milli musiqi mədəniyyətimizin, musiqi alətlərimizin rolu haqqında Fikrət Əmirov demişdir: ”Musiqi folklorumuzu toplamaq , nəşr etdirmək , onlardakı sadəliyin , güçlü emosiyanın sirlərini öyrənmək böyüklü- kiçikli hamımızın əsas vəzifəmiz olmalıdır”.

Ədəbiyyat

1. Səfərova, Z. Azərbaycan musiqi tarixi [6 cilddə] / Z.Səfərova – Bakı: Elm, –2018. – 752 s.
2. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri / S.A. Abdullayeva,– Bakı: Adiloğlu, – 2002. – 453 s.
3. Ələsgərov, S.Ə., Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri və orkestrləşmə/ S.Ə.Ələsgərov, S.A. Abdullayeva – Bakı: Maarif, – 1996. – 172 s.
4. Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri / Ü.Ə. Hacıbəyli.– Bakı: Yazıçı, – 1885. – 653 s.
5. M.T. Kərim Azərbaycan musiqi alətlər / Kərim M.T. – Bakı: Yeni nəsil, – 2009. – 183s
6. Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti / A.İ. Nəcəfzadə,– Bakı: Min bir mahnı MMC, – 2004. – 224 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 289-293
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 289-293
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 289-293

UOT

Məktəbdə coğrafiya kabinetinin təşkili məsələlərinə dair

Müəllif:

Nəzər Eldarov
Sumqayıt Dövlət Universiteti
E-mail: eldarovnazar@mail.ru

Açar sözlər:
təlim, təhsil, coğrafiya, müəllim, tədris

Annotasiya. Təlimin keyfiyyətinin yüksəldilməsi onun dünya standartları səviyyəsinə qaldırılması bir çox amillərdən asılıdır. Bu amillərdən biri də tədrisdə səmərəli öyrədici mühitin yaradılmasıdır. Bu işdə coğrafiya kabinetinin rolu əvəzedilməzdir. Məktəblərdə kabinet yaradılanda bunun quruluş və formaca bir-birindən fərqli ola bilər, lakin təlim prosesində onun istiqaməti dəyişməz qalır. Belə hesab edilir ki, coğrafiya kabineti iki hissədən ibarət olmalıdır: sinif-laboratoriya və müəllim-laborant otağı. Coğrafiya müəllimi məktəb rəhbərliyi ilə razılaşaraq, coğrafiya kabineti üçün iki iç-içə və ya yanaşı olan otaq ayrılmasına nail olmalıdır. Kabinet kompüter, proyektor, su təchizatı və kanalizasiya sistemi ilə, eyni zamanda idarəetmə pultları olan xüsusi nümayiş masaları ilə təchiz olunur. Sinif-laboratoriyanın fiziki mühitinin göstəriciləri: temperatur, rütubət, işıqlanma dərəcəsinin səviyyəsi, havada zərərli qatışıqların miqdarı qəbul edilmiş sanitar-gigiyenik normalara uyğun olmalıdır.

On the issues of organizing the geography cabinet at school

Author:

Nazar Eldarov
Sumgait State University
E-mail: eldarovnazar@mail.ru

Key word:
training, education, geography, teacher, teaching

Abstract. Improving the quality of training and raising it to the level of world standards depends on many factors. One of these factors is the creation of an effective educational environment in teaching. In this work, the pole of the geography cabinet is indispensable. When a cabinet is created in schools, its structure and form may differ from each other, but its direction remains unchanged during the training process. It is believed that the geography office should consist of two parts: a classroom-laboratory and a teacher-laboratory room. In agreement with the school administration, the geography teacher should arrange for two adjoining or adjacent rooms for the geography classroom. The cabinet is equipped with a computer, projector, water supply and sewage system, as well as special display tables with control panels. The indicators of the physical environment of the classroom-laboratory: temperature, humidity, level of illumination, the amount of harmful compounds in the air should be in accordance with the accepted sanitary and hygienic norms.

К вопросу организации кабинета географии в школе

Автор:

Назар Эльдаров
Сумгаитский государственный университет
E-mail: eldarovnazar@mail.ru

Ключевые слова:
обучение, образование, география, учитель, преподавание

Аннотация. Повышение качества обучения его повышение до уровня мировых стандартов зависит от многих факторов. Одним из таких факторов является создание эффективной учебной среды в обучении. Роль кабинета географии незаменима в этом деле. При создании кабинета в школах его структура и форма могут отличаться друг от друга, но его направленность в процессе обучения остается неизменной. Считается, что кабинет географии должен состоять из двух частей: классно-лабораторной и учительско-лаборантской. Учитель географии по согласованию с администрацией школы должен добиться выделения двух смежных или соседних помещений для кабинета географии. Шкаф должен быть оборудован компьютером, проектором, системой водоснабжения и канализации, а также специальными демонстрационными столами с пультами управления. Показатели физической среды класса-лаборатории: температура, влажность, уровень освещенности, содержание вредных примесей в воздухе должны соответствовать принятым санитарно-гигиеническим нормам.

Təlimin keyfiyyətinin yüksəldilməsi onun dünya standartları səviyyəsinə qaldırılması bir çox amillərdən asılıdır. Bu amillərdən biri də tədrisdə səmərəli öyrədici mühitin yaradılmasıdır. Bu işdə coğrafiya kabinetinin rolu əvəzedilməzdir. Məktəblərdə kabinet yaradılanda bunun quruluş və forması bir-birindən fərqli ola bilər, lakin təlim prosesində onun istiqaməti dəyişməz qalır. Coğrafiya kabinetinin məktəbdə olmasının coğrafiya fənni üçün aşağıdakı əhəmiyyətləri var [2]:

1. Coğrafiyanın əhatə etdiyi bir sıra məsələlərin izahı həddindən artıq müxtəlif vəsait tələb edir; buraya atlasları, xəritələri, şəkilləri, müxtəlif illüstrasiyaları, modelləri, kolleksiyaları, təcrübə nümayişinə və praktik işlər görmək üçün müxtəlif avadanlıqları, əyani vəsaiti nümayiş etdirmək üçün zəruri olan qurğuları daxil etmək olar.

2. Bir tədris fənni kimi coğrafiyada müqayisə metodunun geniş surətdə tətbiqi eyni vaxtda bir çox xəritə və s. nümayiş etdirilməsini tələb edir ki, bunu adi sinif otağında yerinə yetirmək qeyri mümkündür.

3. Məktəbdə coğrafiya kabinetinin mövcud olması vəsaitlərin səliqə ilə yerləşdirilməsini təmin edir ki, bu da lazım olan vəsaiti tez tapmağa və qoruyub saxlamağa imkan yaradır.

4. Kabinet mövcud olan əyani vəsaitin uzun zaman istifadə üçün yararlı vəziyyətdə qalmasını təmin edir (xəritə və şəkilləri hər dərsə gedərkən büküb, əzməyə ehtiyac qalmır). Sinif otağında bəzi qurğuların olmaması coğrafiyanın tədrisində yeni texniki vasitələrdən istifadə edilməsinə çətinlik yaradır.

5. Kabinet şagirdlərin diqqətini coğrafiyanı öyrənməyə səfərbər etməkdə müəllimə çox böyük kömək edir (şagirdlərdə xüsusi əhval-ruhiyyə yaradır) və müxtəlif növlü əyani vəsaitin toplanmasını və şagirdlər tərəfindən bir çox yeni vəsaitin hazırlanmasını təmin edir.

Belə hesab edilir ki, coğrafiya kabineti iki hissədən ibarət olmalıdır: sinif-laboratoriya və müəllim-laborant otağı. Canlı guşə sinif-laboratoriya və müəllim-laborant otağında yerləşdirilə bilər.

Sinif-laboratoriya – bu coğrafiya üzrə sinif və sinifdənxaric məşğələlərin aparılması üçün nəzərdə tutulmuş tədris yeridir. Müəllim-laborant otağı tədris avadanlığının saxlanılması və təcrübələrin keçirilməsinə hazırlıq üçün nəzərdə tutulmuş müəllim və laborantın işçi yeridir. Burada həmçinin coğrafiya müəllimlərinin elmi və metodik işi, ixtisas səviyyəsinin artırılması həyata keçirilir.

Coğrafiya müəllimi məktəb rəhbərliyi ilə razılaşaraq, coğrafiya kabineti üçün iki iç-içə və ya yanaşı olan otaq ayrılmasına nail olmalıdır. Otaqların birinin sahəsi təqribən 50-60. kv. m (uzunluq 10-11 m, eni 5-6 m) olan sinif-laboratoriya, digəri isə sahəsi 15 kv.m.-dən çox olan müəllim-laborant otağı kimi istifadə olunmalıdır. Həmin otaqların pəncərələri cənub istiqamətinə açılan olmalıdır ki, pəncərələrdə qnomon və günəş saatı qoymaq və məşğələlər zamanı günəş üzərində müşahidələr aparmaq məqsədilə istifadə oluna bilinsin.

Kabinetin yaradılması bir neçə mərhələdən ibarət olur [2]:

1. Xüsusi istehsal olunmuş ixtisaslaşdırılmış (əyər bu yoxdursa onda uyğunlaşdırılmış) mebel, həmçinin coğrafiya üzrə tədris avadanlığı ilə tanışlıq. Həmçinin məktəb binasında müvafiq yerin (otağın) seçilməsi, elektrik və su təminatı, onun işıqlandırılması və ventilyasiya sisteminin vəziyyəti, ümumilikdə sanitar-gigiyenik normalara uyğunluğu.
2. Mebelin və tədris avadanlığının yerləşdirilməsi planının hazırlanması.
3. Mebel, qurğular, TTV (təlimin texniki vasitələri), tədris və digər avadanlıqlar və onların yerləşdirilməsi.
4. Daimi və müvəqqəti ekspozisiyaların yerləşdirilməsi, kabinetdə canlı guşənin yaradılması.

Coğrafiya kabinetinin təşkili, onun fiziki mühiti və işıqlandırılması necə olmalıdır?

Coğrafiya kabinetinə bir və ya iki yerlik şagird masaları (partaları) qoyulur. Masaların düzülüşü əsasən üçsıralı nəzərdə tutulur, otağın ölçüsündən asılı olaraq bəzən ikisıralı variant da mümkündür. Hər bir şagirdin boyuna, görmə və eşitmə qabiliyyətinə uyğun olaraq, masa seçimi olmalıdır. Şagirdlərin boyuna uyğun olan mebelin seçimi üçün respublikada qəbul olunmuş vahid formada onun rənglə nişanlanması həyata keçirilir. Otaqda masalar nömrələrə uyğun yerləşdirilir (aşağı nömrəlilər yazı taxtasına yaxın, yuxarı nömrəlilər isə yazı taxtasından uzaq qoyulur). Tez-tez

kəskin respirator xəstəliklərə məruz qalan uşaqlar çöl divarlarından kənarda oturmalıdırlar. Görmə və eşitmə qabiliyyəti pozulmuş uşaqların masaları nömrəsindən asılı olmayaraq, ön cərgədə pəncərənin yaxınlığında yerləşdirilir.

Kabinetin təchizatı zamanı avadanlıqlar arasında keçidlərin və məsafələrin ölçüləri aşağıdakı kimi olmalıdır [1].

- ikiyerli şagird stollar yerləşən sıraların arasında 60 sm-dən yuxarı;
- şagird stolu cərgələri ilə çöl uzununa divar arasında 50-70 sm-dən yuxarı;
- şagird stolu cərgələri ilə daxili uzununa divar (arakəsmə) arasında və ya bu divar boyu şkaflar arasında 50-70 sm-dən yuxarı;
- sonuncu şagird stolundan yazı taxtasının əks istiqamətində yerləşən divara (arakəsməyə) qədər 70 sm-dən çox;
- xarici arxa divardan 100 sm-dən az olmayaraq, digər tərəfdə siniflər olduqda isə 120 sm-dən çox;
- nümayiş masasından yazı lövhəsinə qədər 100 sm-dən çox;
- birinci masadan yazı lövhəsinə qədər 240-270 sm;
- sonuncu yerdə oturan şagirddən yazı lövhəsinə qədər məsafə 860 sm-dən çox;
- yazı lövhəsinin aşağı kənarının döşəmədən hündürlüyü 90 sm.
- Yazı lövhəsının görmə bucağı (uzunluğu 3 m olan yazı lövhəsinin kənarından öndəki şagirdin oturduğu stolun ortasına qədər) 35°-dən çox.

Şagird stolu və oturacaqlarının tövsiyə olunan ölçüləri və nişanlanma qaydası cədvəl 1-də göstərilmişdir

Cədvəl 1

Mebelin №-si	Şagirdin boy qrupu (sm-lə)	Şagirdin önündəki şagird stolunun kənarının döşəmədən hündürlüyü (sm-lə)	Nişanın rəngi	Oturacağın ön kənarının döşəmədən hündürlüyü (sm-lə)
1	100,0 – 115,0	46,0	narıncı	26,0
2	115,0 – 130,0	52,0	bənövşəyi	30,0
3	130,0 – 145,0	58,0	sarı	34,0
4	145,0 – 160,0	64,0	qırmızı	38,0
5	160,0 – 175,0	70,0	yaşıl	42,0
6	175,0 artıq	76,0	mavi	46,0

Kabinet kompüter, proyektor, su təchizatı və kanalizasiya sistemi ilə, eyni zamanda idarəetmə pultları olan xüsusi nümayiş masaları ilə təchiz olunur. Əyani vəsaitlərin normal görünməsi üçün nümayiş masasının podiumda (döşəmə səthindən bir qədər hündürdə) quraşdırılması nəzərdə tutulur. Kabinetdə proyektor, kompüter üçün idarəetmə pultu və tumbalı müəllim masası və digər cihazlar üçün altlıq, əyani vəsaitlər, xəritə, qlobus, mulyaj, herbari, modellər və s.-nın saxlanılması üçün seksiyalı və digər şkaflar (divarda quraşdırılmış və ya divara bərkidilmiş), və digər əşyalar nəzərdə tutulur (əsas coğrafi avadanlıqlar ayrıca verilmışdir).

Otaqda divarların nəm üsulla təmizlənməni təmin edən hamar səthi olmalıdır. Döşəmədə oyuqlar olmamalı və laminant, yaxud parket və ya taxta ilə döşənməlidir.

Dərs ərzində şagirdlərin ekran vasitələrindən istifadəsi cədvəl 2-də göstərildiyi kimi olmalıdır.

Həftə ərzində texniki tədris vasitələrinin tətbiqi ilə müşayiət olunan dərslərin sayı digər fənn müəllimləri ilə razılaşdırılmalıdır. Adətən bu ümumilikdə 4-6-dan artıq olmamalıdır.

Cədvəl 2

Siniflər	Tamaşa müddəti (dəqiqə ilə)	
	slayd, vidio	televiziya verilişləri
5-7	20-25	20-25
8-11	25-30	25-30

Coğrafiyadan ev tapşırıqları verildikdə, şagirdlərin onları hansı müddətlərdə yerinə yetirməsi imkanları nəzərə alınmalıdır. Belə ki, bu müddətlər digər fənn müəllimləri ilə razılaşdırılmalıdır. Bu ümumilikdə 6-cı siniflərdə – 2,5 saata qədər, 7-ci və 8-ci siniflərdə – 3 saata qədər, 9-cu və 11-ci siniflərdə – 4 saata qədər təşkil etməlidir [2].

Kabinet xüsusi nümayiş masası ilə təchiz olunur. Nümayiş masasından yazı lövhəsinə qədər ən azı 1 m məsafə olmalıdır. Əyani tədris vasitələrinin normal görünməsi üçün nümayiş masası bir qədər hündür olmalıdır [3].

Kabinetin fiziki mühiti və işıqlandırılma. Sinif-laboratoriyanın fiziki mühitinin göstəriciləri: temperatur, rütubət, işıqlanma dərəcəsinin səviyyəsi, havada zərərli qatışıqların miqdarı qəbul edilmiş sanitar-gigiyenik normalara uyğun olmalıdır. Kabinetdə havanın isidilməsi və ventilyasiyası sistemləri məktəb binasının isidilməsinə, ventilyasiyasına və kondisiyalaşdırılmasına uyğun qurulur. Qızdırıcılar kimi radiator elementlərindən istifadə olunur. Qızdırıcılar taxta çərçivələrlə örtülür ki, onları asanlıqla çıxarılıb nəzarət edilə bilinsin. Onlar temperatur tənzimləyiciləri ilə təchiz edilməklə pəncərə oyuğunun altında yerləşdirilir. Qızdırıcıların səthinin orta temperaturu 80°C-dən aşağı olmalıdır. İstilik və ventilyasiya sistemləri otaqda temperaturun hesablanan səviyyəsini və 40-60 faiz səviyyəsində nisbi rütubəti təmin etməlidir.

Kabinetin avadanlığının qurulmasında vacib məsələlərdən biri – düzgün işıqlandırılmadır, çünki işığın çatışmazlığı görmənin pisləşməsinə və şagirdlərin işləmə qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Kabinetdə yandan sol tərəfli təbii işıqlandırma nəzərdə tutulur.

Pəncərələrə gündən qoruyucu jalüz və ya açıq rəngli parça pərdələr tutulmalıdır. Sintetik plyonkadan pəncərə pərdələri kimi istifadə edilməsi tövsiyə edilmir. Təmizləmə və pəncərələrin yuyulması ildə iki dəfə: yazda və payızda aparılır.

Otaq bitkiləri asma və daşına bilən dibçəklərdə əkilməlidir. Pəncərə altlıqlarında yalnız alçaqboylu və işığın qarşısını kəsməyən dibçək bitkilərinin qoyulması məsləhətdir.

Gün işığından səmərəli istifadə və tədris yerlərinin bərabər təbii işıqlandırılması üçün pəncərə şüşələrini rəngləmək; məktəbin binasına 15 m-dən daha yaxın ağac, 5 m-dən daha yaxın kol bitkiləri əkmək məsləhət bilinmir [4].

Süni işıqlandırma üçün lüminessent lampalarından istifadə etmək daha səmərəlidir. Közərmə lampalarının tətbiqinə də icazə verilir. Lakin lüminessent lampaları ilə bir yerdə közərmə lampalarından istifadə etmək olmaz. Lüminessent lampaları daxili divardan 1,5 metr, pəncərələrdən isə 1,2 metr məsafədə yerləşdirilməlidir (Lüminessent lampaları elektrik enerjisinə 80% qənaət etsə də onun içərisindəki civənin yarada biləcəyi təhlükədən müəllim və şagirdlər xəbərdar olmalıdırlar ki, sıradan çıxmış lüminessent lampalarını dəyişdikdə problem yaranmasın).

Sinif lövhəsi sofitlə (işıqlanma sistemi) təchiz edilir və iki ona paralel qurulmuş LPO-30-40-122 (125) tipli güzgülü çilçıraqla işıqlandırılır. Çilçıraqlar lövhənin yuxarı kənarından 0,3 m. yuxarı və lövhədən sinfə tərəf 0,6 m. olmalıdır.

İşıqlanma dərəcəsinin səviyyələri aşağıdakı normalara uyğun olmalıdır: iş stollarında − 300 lik (işıqlanma dərəcəsinin səviyyəsi lüksmetrlə ölçürlər), sinif lövhəsində − 500 lik.

Təlimdə texniki vəsaitlərdən istifadə və eyni zamanda şagirdlərin ekrandakı məlumatları götürməsi, dəftərlərə yazması vaxtı masalarda işıqlanma dərəcəsi 300 lik olmalıdır. Proyektorlardan istifadə zamanı şagirdlərin masalarında işıqlanma dərəcəsi 500 lik olmalıdır. Bu zaman fərdi işıqlanmadan və ya ekran qarşısında "qaranlıq" dəhliz yaradıb "funksional" süni işıqlandırma sistemindən istifadə olunmalıdır. İşıqlanma sistemlərinin təmizləməsini ildə iki dəfə aparmaq lazımdır. Şagirdləri işıqlanma sistemlərinin təmizləməsi işinə cəlb etmək qadağandır [2].

Elektrik cərəyanı kabinetdə yalnız işıqlandırma üçün deyil, həm də təlimdə texniki vəsaitlərdən (kompüter, proyektor və başqa) istifadə üçün lazım olur, ona görə də müəllimin nümayiş stolunda və divarlarda rozetkalar qurulmalıdır.

Daxili divarlar və tavanlar boya ilə rənglənilir, döşəməyə laminat, parket və ya taxta vurulur. Müasir tipli qapı və PVC tipli pəncərələrdən istifadə edilməsi məsləhət bilinir.

Ədəbiyyat

1. Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli qərarı
2. Eldarov, N.Ş. Coğrafiya kabineti və coğrafiya meydançası. Dərslik. / N.Ş. Eldarov,– Sumqayıt: Sumqayıt Dövlət Universiteti. – 2018, – 105 s.
3. Alxasov, O.K. Coğrafiyanın tədrisi metodikası / O.K. Alxasov, – Bakı: Elm və təhsil, – 2013, – 368 s.
4. Семакин, Н.К. Географический кабинет и учебная площадка в школе// – М.: Просвещение, – 1973. – 223 с.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 294-297
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 294-297
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 294-297

UOT

Müəllim hazırlığında təlim-tərbiyə işlərinin yeri və rolu

Müəllif:

Kəmalə Babayeva
Sumqayıt Dövlət Universiteti
E-mail: aminbabayev2011@gmail.com

Açar sözlər:
təhsil, təlim, müəllim, şəxsiyyət, proqram

Annotasiya. Müəllim xeyirxahlıq, ədalətlilik, humanizm, düzlük və başqa meyarları özündə cəmləşdirməlidir. Təhsil sayəsində gənclər elmi biliklərə sahib olur, onların dünyagörüşü formalaşır. Tərbiyə isə şəxsiyyətin formalaşması, inkişafı prosesidir. Tərbiyə işinə müəllim özündən başlamalıdır. Ona görə ki, özündə olmayan xüsusiyyəti, keyfiyyəti başqa insanlara ötürmək olmaz. XIX əsrin II yarısında Azərbaycan maarifçiləri qadının cəmiyyətdə rolu və tərbiyəsi haqqında fikirlərinin müqayisəli şəkildə təhlili həm praktik, həm nəzəri əhəmiyyət kəsb edir. İnsanın tərbiyəsi, inkişafına aid baxışlar hələ əsrlər boyu tərbiyə prosesi və anlamı vəhdətində başa düşülmüşdür. Bu səbəbdən də insanın mənəvi dəyərləri tərbiyəlilik anlamında axtarılmışdır. İnsanı kamilləşdirmək xüsusiyyətlərindən biri olan tərbiyənin şəxsiyyətin formalaşmasında çox böyük rolu var.

Place and role of educational work in teacher training

Author:

Kamala Babayeva
Sumgait State University
E-mail: aminbabayev2011@gmail.com

Key word:
education, training, teacher, personality, program

Abstract. A teacher should incorporate kindness, justice, humanism, fairness and other criteria. Thanks to education, young people acquire scientific knowledge and their outlook is formed. Education is the process of personality formation and development. The teacher should start the work of education from himself. Because you can’t transfer a quality that you don’t have to other people. In the second half of the 19th century, the comparative analysis of the views of Azerbaijani intellectuals on the role and upbringing of women in society is of both practical and theoretical importance. Views related to human education and development have been understood for centuries in the unity of the process and meaning of education. For this reason, human moral values were sought in the sense of education. Education, which is one of the characteristics of perfecting a person, has a great role in the formation of personality.

Место и роль учебно-воспитательной работы в подготовке учителей

Автор:

Кямала Бабаева
Сумгаитский государственный университет
E-mail: aminbabayev2011@gmail.com

Ключевые слова:
образование, подготовка, педагог, личность, программа

Аннотация. Учитель должен усвоить такие критерии, как доброта, справедливость, гуманизм, прямолинейность и другие. Благодаря образованию молодые люди приобретают научные знания, формируется их мировоззрение. А воспитание - это процесс формирования, развития личности. Воспитательную работу учитель должен начинать с себя. Потому что нельзя передать другим людям то свойство, качество, которого у них нет. Сравнительный анализ представлений азербайджанских просветителей о роли женщины в обществе и ее воспитании во второй половине XIX века имеет как практическое, так и теоретическое значение. Взгляды на воспитание, развитие человека еще на протяжении веков понимались в единстве процесса и смысла воспитания. По этой причине духовные ценности человека искались в смысле воспитания. Воспитание, являющееся одной из особенностей совершенствования человека, играет огромную роль в формировании личности.

Biliksiz müəllim işığı olmayan lampaya bənzəyir. Müəllim peşəsi sosial hadisə kimi olduqca mürəkkəb bir quruluşa malikdir. Bu strukturda əmək şəraiti, əmək vasitələri, tələblər, dəyərlər, normalar və s. özünü göstərir. Müəllim xeyirxahlıq, ədalətlilik, humanizm, düzlük və başqa meyarları özündə cəmləşdirməlidir. Təhsil bəşəriyyətin əldə etdikləri biliklərə yiyələnmə prosesinin nəticəsidir. Təhsil sayəsində gənclər elmi biliklərə sahib olur, onların dünyagörüşü formalaşır. Tərbiyə isə şəxsiyyətin formalaşması, inkişafı prosesidir. Təhsil prosesi də demək olar ki, təlimə yiyələndirir. Zərdüşt Peyğəmbər öz peşəsinə qarşı məsuliyyətsiz yanaşan müəllimləri hər zaman tənqid edib, belə bir fikir qeyd edirdi ki: Pis müəllim şüuru korlayar, sözün əsl mənasını çatdıra bilməz, nəticədə isə tərbiyənin gözəlliyinə xələl gətirər. Qeyd etmək lazımdır ki, təhsil və tərbiyənin formalaşması Yunanıstanda inkişaf etmişdir. Həmçinin bu vaxta qədər formalaşaraq müasir dövrümüzə gəlib çatmışdır. Azərbaycanın o dövrdə ciddi təhsil təlim-tərbiyə sistemi müntəzəm qaydada deyildi. Təlimlər kortəbii, plansız xarakter daşıyırdı. Avestada tərbiyə həyatın ən varlı amili hesab olunurdu. Əsl vətəndaş xalqının tərbiyəsi, ölkənin abadlaşdırılması uğrunda çalışan şəxsdir. Çar Rusiyasının hakimiyyəti zamanında ruslaşdırma siyasəti Azərbaycan torpaqlarının mənəvi dəyərlərini həyata keçirməsinə mane olurdu. Bizim cəmiyyətimizin gələcəyi bu gün universitet auditoriyasında oturan tələbə, parta arxasında əyləşən şagird və yeniyetmələrdən asılıdır. Xalqın inkişafı, tərəqqisi üçün onların daha mükəmməl əzmlə çalışmaları üçün gənc kadrı tək intellektual baxımdan deyil, həmçinin mənəvi baxımdan da həyata alışdırmaq, hazırlamaq lazımdır. Qərb mədəniyyəti adı altında gənc və yeniyetmələrdə mənəvi dəyərlərə laqeydlik, əxlaq tərzini formalaşdırmağa yönəlmiş psixoloji təsirlər vardır.

Tərbiyə işinə müəllim özündən başlamalıdır. Ona görə ki, özündə olmayan xüsusiyyəti, keyfiyyəti başqa insanlara ötürmək olmaz. Təlimin təhsil-tərbiyə nəticələri daim inkişaf etməkdə olan proses və yaxud dəqiq desək, təlim prosesinin komponentidir: Şagirdlərin bilikləri tamamlanır, mənalanır, əqidəyə çevrilir, bacarıqlar təşkil edir, şagirdlərin müstəqilliyi artır [1, s.22]. Əsas məsələlərdən biri də fənnin tədrisi zamanı vacib tərbiyə, təhsil və inkişafın uğurlu həlli üçün müəyyən şəraitin seçilməsidir. Müstəqillik əldə olunduqdan sonra ölkəmizdə təhsilin yenidən qurulması və dünya standartları səviyyəsinə çatdırılması üçün mühüm addımlar atılıb. Tarix fəni üzrə yeni dərsliklər, proqramlar hazırlandı. Azərbaycan və Ümumi tarix proqramları qarşısında bu vəzifələr müəyyən olunmuşdu:

- öz soy-kökünə, adət-ənənələrinə, tarixi keçmişinə yiyələnənən, ailəsini, vətəni sevən və onu hər zaman ucaltmağa çalışan vətənpərvərlər yetişdirmək;

- yüksək intellektə, bacarıq və vərdişlərə, dərin əhatəli biliyə malik olan və onu daim formalaşdırmaq;

- Azərbaycanda demokratik cəmiyyətin qurulmasına layiqli töhfələr vermək üçün hazır olan vətənpərvər və demokratik ruhlu vətəndaşlar tərbiyə etmək.

Azərbaycan maarifçiləri qadının cəmiyyətdə rolunun artırılmasına, qadın hüquqsuzluğunun ləğv olunmasına çalışırdılar. Bununla bağlı olaraq qadın tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Bu işdə "Ziya", "Əkinçi", "Kəşkül" qəzetlərinin əməkdaşları fəal şəkildə iştirak edirdilər. Məqalədə ilk dəfə olaraq bu məsələlər araşdırılıb. XIX əsrin II yarısında Azərbaycan maarifçiləri qadının cəmiyyətdə rolu və tərbiyəsi haqqında fikirlərinin müqayisəli şəkildə təhlili həm praktik, həm nəzəri əhəmiyyət kəsb edir. Təlim-tərbiyə prosesinin keyfiyyətli olması üçün öyrənən və öyrədən arasında xüsusi bir əlaqənin qurulması vacibdir. Təlim prosesində müəllim və şagird ünsiyyətinin uğurlu olmasına hər zaman diqqət olunmalıdır. Müəllim şagirdlərin təhsil bacarıqlarına təsir etməklə kifayətlənməlidir. Həmçinin gələcək fəaliyyətinin və bacarıqlarının inkişaf etdirilməsinə şərait yaratmalıdır, müəllim sinifdə inamlı bir lider olmalıdır. Unutmaq lazım deyil ki, müəllim səmimi davranışlar ilə yaratdığı hörməti itirə bilər. Tərbiyəçi valideynlərə məsləhət görməlidir ki, ailədə gözəllik-estetik mühit yaradılmalı, avadanlıq düzgün yerləşdirilməli, otaq güllərindən istifadə olunmalı, rəngarənglik, işıqlıq, istirahət guşələri yaradılmalıdır [2, s.36]. Müəllimin peşəkarlıq səviyyəsinin zəif olması təlim prosesinin səmərəliliyinin də aşağı salınmasına gətirib çıxarır. Platon deyirdi ki, pinəçinin bir cüt ayaqqabını pis tikməsi bir nəfər afinalıya ziyan vurduğu halda müəllimin pis işi, pis tərbiyəsi Yunanıstana ziyan gətirir. Müəllimlərin səriştəlilik məsələləri hər zaman plandadır. Yüksək peşəkarlığa sahib olan müəllimin işi də, dərsi

də mükəmməldir. Müəllimin peşəkarlıq fəaliyyəti məktəblərdə, universitetlərdə, kolleclərdə və b. təhsil müəssisələrində reallaşır. Müəllimin məqsədi əqli və mənəvi cəhətdən mükəmməl vətəndaş tərbiyə etməkdir. Müəllim cəmiyyətin etibar etdiyi şəxsiyyəti, vətəndaşıdır. XIX əsrin 20 ci ilinə qədər ilk azərbaycanlı müəllim kadrlarının hazırlanmasında böyük xidmətləri olan Zaqafqaziyanın müəllimlər seminariyasının ilk məzunlarından olan Firudin bəy Köçərli müəllimi yüksək qiymətləndirərək onun peşəsinin çox əhəmiyyətli və vacib bir peşə olduğunu, əhalinin savad almasında bir nur olduğunu vurğulamışdır.

Biliyini təhsilin məqsədinə yönəldən müəllim tərbiyə və təlimin metodlarına yiyələnməklə özünü təkmilləşdirməlidir. Pedaqoji təmayüllü ali məktəblərdə peşəkar müəllim kadrlarının hazırlanmasında tədris prosesinin imkanları və bu imkanların reallaşdırılması mühüm rol oynayır [3, s.106]. Təhsil ocağında çalışan professor müəllim heyətinin peşəkarlıq hazırlıq səviyyəsinin yüksəlməsi üçün aşağıdakı məsələlərin reallaşdırılmasını vacib bilməliyik:

1. Ali məktəb müəllimlərinin ixtisasartırma, stajkeçmə və özüntəhsil işlərinin fəaliyyəti və gücləndirilməsi.

2. Ali pedaqoq təhsil müəssisələrinə işə qəbul edilən gənc mütəxəssislərin xüsusi təhsil komissiyası tərəfindən peşəkar müəllimlərin işə götürülməsinə üstünlük verilməsi.

3. Professor-müəllim heyətinin yaradıcılıq imkanlarının genişləndirilməsi dünyanın ən seçilmiş və qabaqcıl ali məktəblərinin təcrübəsini öyrənmək məqsədilə xarici ölkələrə ezamiyyətə göndərilməsi

4. Ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərin vaxtaşırı olaraq attestasiyadan keçirilməsi.

5. Ali təhsil ocaqlarında çalışan professor-müəllim heyətinin müsabiqələrdə iştirakı və beynəlxalq səviyyədə sertifikatlar əldə etmələri üçün şəraitin yaradılması.

6. Doktaranturaya sənəd verən şəxslərdən ümumtəhsil məktəblərində ən azı iki il müəllim işləmələri haqqında iş stajının tələb olunması və b.

Müəllim eyni zamanda sinif rəhbəridir, dərsdənkənar tərbiyəvi işlərin təşkilatçısıdır. Bu istiqamətlərdə tərbiyə işinin səmərəli olması üçün onun pedaqoji fəaliyyətindən asılıdır. Müəllimin şagirdlərərə, tələbələrə, tərbiyəvi təsiri çox güclü olur. Müəllim etik davranış qaydalarını pozduğu təqdirdə bu pozuntunun tez bir zamanda həlli yolunu tapmalı, ictimai etimadı doğrultmalıdır. Müəllimə hər zaman bir şəxsiyyət kimi qiymət verilmişdir. O, bir tərbiyə etalonu olaraq, hər bir işində kamillik nümunəsi kimi insanların etibar etdiyi şəxs olmuşdur. Müəllim fəaliyyətinin nəticəsi yetişdirdiyi tərbiyə etdiyi şagirdlərin və yaxud tələbələrin bacarığında, fəaliyyətlərində əks olunur. Ünsiyyət insanların qarşılıqlı təsiridir. Ümumi nəticə əldə olunması üçün insanların bir-biri ilə qarşılıqlı münasibətləridir. Müəllimin pedaqoji prosesə yenilik gətirməsi, təlim-tərbiyə prosesinə yenilikçi mövqedən yanaşması, təhsil tərbiyə işində onun məqsədinin reallaşdırılmasında müəllim-tələbə fəaliyyətində yeniliklərdən istifadə etmək, müxtəlif yenilik gətirməkdir. İnsanı kamilləşdirmək xüsusiyyətlərindən biri olan tərbiyənin şəxsiyyətin formalaşmasında çox böyük rolu var. Bir sıra şairlərin də yaradıcılığında bu məzmunda gənc nəslin estetik tərbiyəsi baxımından da xüsusi əhəmiyyəti olan fikirlər öz əksini tapır. M.P.Vaqif şəxsiyyətin formalaşmasında xarici mühitin təsvirini inandırıcı dəlillərlə verməklə yanaşı, tərbiyəni həlledici amil kimi ön plana çəkirdi, son anda” tərbiyə hər şeydir” fikrinə gəlirdi [4, s.105]. Bütün bunlarla yanaşı müəllim həmçinin peşəkar psixoloq olmalıdır. Çünki psixoloji hallar zamanı müəllim necə hərəkət etməsini bilməlidir. Müəllim şagird yaxud tələbələrin mənfi həm müsbət cəhətlərini bilməlidir. Tədris prosesini yüksək pozitiv fonda tələbələri maraqlandıra biləcək durumda, onlarda mənfi hal və gərginlik yaratmadan təşkil etməlidir. Tələbələrin hisslərinə, fikirlərinə hörmətlə yanaşmalıdır. Neqativ hallara yol verilməməlidir. Müəllimlik peşəsinə yiyələnməkdə ümumtəhsil fənləri, humanitar və sosial-iqtisadi fənlər və b.ixtisas fənlərinin böyük rolu olsa da bütün bunlar pedaqoji kadr hazırlığının uğurlu olmasını təmin etmir. Müəllimlik peşəsi artıq praktik bacarıq və vərdişləri mənimsəməyi tələbata çevirir. Ümumiyyətlə desək hər bir tələbənin pedaqoji təcrübə keçməsi vacibdir. Bütün qabaqcıl ölkələrdə təlim-tərbiyə məsələləri cəmiyyətin iqtisadi, siyasi, elmi-texniki səviyyəsinə və b. inkişaf vəziyyətinə uyğun olaraq qurulur. Bir ziyalı olaraq müəllimin geniş ixtisas hazırlığına yiyələnməsi çox vacibdir. Əgər müəllim hazırlıqlıdırsa, onun yetirməsi də savadlı, mükəmməl olacaq. Ümumiyyətlə, təhsil işinin öz qanunauy-

ğunluqları vardır. Burada əsasən peşəkarlıq, yaradıcılıq, qayğı, halallıq, elmilik və bəzi prinsiplər pozulmamışdır. Şəxsiyyətin formalaşmasının əsas mərhələsini ümümtəhsil məktəbi təşkil edir. Məktəblərin əksəriyyətində müəllimlərin xeyli qisminin peşə hazırlığı aşağıdır və yaxud da yeniliklərdən xəbərsizdirlər. Digər qüsurlardan biri də şagirdlərdə bacarıqları aşılamadan şişirdilmiş qiymətlərin yazılmasıdır. Bu mənfi xüsusiyyətdir. İnsanın tərbiyəsi, inkişafına aid baxışlar hələ əsrlər boyu tərbiyə prosesi və anlamı vəhdətində başa düşülmüşdür. Bu səbəbdən də insanın mənəvi dəyərləri tərbiyəlilik anlamında axtarılmışdır.

Tərbiyə məsələsi, tərbiyə idealı insan həyatının mənası tərbiyəvi səyləri ilə əlaqələndirilmiş hər hansı regionda, cəmiyyətdə insanın hər bir səviyyədə inkişafı əsas məqsəd sayılıb. Əsl ziyalı, peşəkar müəllimin dərsi demək olar ki, onun yaradıcılıq əsəridir. Tərbiyə bəşəriyyətin mədəni fəaliyətinin qədim növüdür. Tərbiyələnmə cəmiyyətin sivilizasiyalarında çox mühüm rol oynamışdır. Müəllim kadrları hazırlığı insanların ləyaqət keyfiyyətlərinə, həm də metodikasına görə yenidən qurulmalıdır. Milli vətənpvərlik məsələsinə, mənəvi tərbiyə işinin məzmununa daxil olan məsələlər hər zaman gündəmdə olmalıdır. Tədrisin məşğələlərinin və tərbiyəvi tədbirlərin təşkilində gənc müəllimlərə təhkim olunmuş təcrübəçi müəllimə kömək lazımdır [5, s.29].

Heydər Əliyev tərbiyə prosesində dini dəyərlərdən bəhrələnib davranışda islam dininin tələblərinə uyğun vəziyyətdə hərəkət etmək vərdişinə sahib olmağı üstün tutur. Tərbiyə işi elə səviyyədə təşkil olunmalıdır ki, fanatizmlik ruhu yaranmasın. Heydər Əliyev cənablarının milli tərbiyə konsepsiyası sənədində yaradıcılıq irsinə müraciət edilir. Heydər Əliyev irsinin pedaqoji işçilər tərəfindən gündəlik oxunması və tərbiyə prosesi məsələsində milli tərbiyə işində uğurlu nəticələr qazanmağın vacib mənbəyidir. Müəllim yeni insan tərbiyə edir. Onun mənəvi aləmini zənginləşdirir. Müəllim təkcə bilik vermir, o həmçinin idarə edir, tərbiyəvi xüsusiyyətləri formalaşdırır. Tələbələrdə inam, cəsarət kimi halları formalaşdırmaq vacibdir. Təlim prosesi tərbiyə imkanları ilə demək olar ki, zəngindir. Müəllimin tərbiyəçilik vəzifəsi onun apardığı dərsin gedişatından reallaşır. Belə nəticəyə gəlmək olar ki, müəllim hazırlığında təlim tərbiyə məsələlərinin rolu çox böyükdür. Bu gün də bu sahədə çox böyük addımlar atılmaqdadır. Müəllim öz peşə vəzifəsini yüksək səviyyədə yerinə yetirməyə borcludur. O, fəaliyyətini hər zaman möhkəmləndirir. Bu sahədə bütün tənqidi fikirlərə səbrlə yanaşmalı, öz səhvləri üzərində daim çalışaraq peşəkarlığını artırmalıdır.

Ədəbiyyat

1. Əmirov, M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası. Ali məktəblərin Tarix fakültəsi üçün dərs vəsaiti / M.Əmirov. - Bakı, -2011.- 707 s.
2. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər cild 84. - Bakı, - 2017. - 147 s.
3. İlyasov, M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri (monoqrafiya) / M.İlyasov. - Bakı: Elm və təhsil, -2018. - 207 s.
4. Adıgözəlova, Ş.Ə. Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf tarixi (XVII-XVIII əsrlər). Dərs vəsaiti / Ş.Ə.Adıgözəlova. -Sumqayıt. – 2022. - 141 s.
5. Abbasov A., Əhmədov H.H., Kazımov M.S. Azərbaycan Respublikası Təhsil İnstitutu Elmi- pedaqoji kadr hazırlığı problemləri /A.Abbasov, H.H., Əhmədov, M.S.Kazımov. - Bakı, - 2018, - 343 s.

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 4, s. 298-301
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 4, p. 298-301
Нахчыванский институт учителей. Научные труды, 2022, № 4 с. 298-301

UOT

Təhsilin öyrənilməsinə elmi yanaşmalar: nəzəriyyədən praktikaya

Müəllif:

Günel Novruzova
AMEA Gəncə Bölməsi
Gəncə Dövlət Universiteti
E-mail: gunel.novruzova91@mail.ru

Açar sözlər:
təhsil, elmi yanaşmalar, sosioloji tədqiqat, cəmiyyət

Annotasiya. Məqalə müasir cəmiyyətdə təhsil kimi geniş miqyaslı bir fenomenin müxtəlif aspektlərini anlamaq məqsədi ilə yazılmışdır. Məqalədə klassik sosiologiya nəzəriyyəçiləri tərəfindən hazırlanmış müxtəlif elmi yanaşmalar müzakirə olunur. Müəllif Veber, Comte, Parsons kimi alimlərin əsas konsepsiyalarının tezislərini təqdim edir. Təhsil fəaliyyəti fəaliyyət zəncirində həyata keçirilir. Bu o deməkdir ki, təhsil fəaliyyəti, tədris fəaliyyəti gələcək peşə fəaliyyəti kontekstində hazırlanmalıdır. Bu fəaliyyətin effektivliyi tələbələrin motivasiya səviyyəsindən, peşə yönümündən asılı olacaq: peşə yönümünün inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, təhsil və tədqiqat fəaliyyəti bir o qədər təsirli olur. Bu müddəa o deməkdir ki, bu gün artıq “bilik, bacarıq” anlayışları ilə məhdudlaşmaq olmaz. Buna görə yüksək keyfiyyətli təhsilə nail olmaq üçün bir şərt olaraq yeni bir “müasir əsas səriştələr” anlayışı ortaya çıxdı.

Author:

Gunel Novruzova
ANAS Ganja Department
Ganja State University
E-mail: gunel.novruzova91@mail.ru

Scientific approaches to the study of education: from theory to practice

Key word:
education, scientific approaches, sociological research, society

Abstract. The article was written with the aim of understanding various aspects of such a large-scale phenomenon as education in modern society. The article discusses various scientific approaches developed by theorists of classical sociology. The author presents theses of the basic concepts of such scientists as Weber, Comte, Parsons. Educational activities are carried out in a chain of activities. This means that educational activities, educational activities should be prepared in the context of future professional activities. The effectiveness of this activity will depend on the level of motivation of students, their professional orientation: the higher the level of development of professional orientation, the more effective the educational and research activity. This provision means that today one should no longer be limited to the concept of “knowledge, skills”. Therefore, a new concept of “modern basic competencies” has appeared as a prerequisite for achieving high-quality education.

Автор:

Гюнель Новрузова
Гянджинское отделение
НАНА
Гянджинский
государственный
университет
E-mail: gunel.novruzova91@mail.ru

Научные подходы к изучению образования: от теории к практике

Ключевые слова:
образование, научные подходы, социологическое исследование, общество

Аннотация. Статья написана с целью понимания различных аспектов такого масштабного явления, как образование в современном обществе. В статье рассматриваются различные научные подходы, разработанные теоретиками классической социологии. Автор представляет тезисы основных понятий таких ученых, как Вебер, Конт, Парсонс. Учебная деятельность осуществляется в цепочке деятельности. Это означает, что образовательная деятельность, учебная деятельность должны быть подготовлены в контексте будущей профессиональной деятельности. Эффективность этой деятельности будет зависеть от уровня мотивации учащихся, их профессиональной ориентации: чем выше уровень развития профессиональной ориентации, тем эффективнее учебно-исследовательская деятельность. Это положение означает, что сегодня уже нельзя ограничиваться понятиями «знания, умения». Поэтому как условие достижения качественного образования появилось новое понятие «современные базовые компетенции».

Təhsil müxtəlif elmi yanaşmalar kontekstində öyrənilə bilən müasir cəmiyyətin çoxölçülü və mürəkkəb bir hadisəsidir. Beləliklə, institusional yanaşma çərçivəsində təhsil sosial qurum kimi qəbul edilir. Sistemli yanaşma təhsili sosial sistem kimi araşdırır. Sosial proseslər və dəyişikliklər baxımından təhsil dinamikada olan və daim dəyişən sosial proses kimi müəyyən edilə bilər. Təhsilin sosial fəaliyyət olduğuna diqqət yetirsəniz, o zaman fəaliyyət yanaşması çərçivəsində nəzərdən keçirilə bilər. Təşkilati yanaşmanın tərəfdarları tərəfindən öyrənilən təşkilatın inkişaf qanunları baxımından təhsil sosial təşkilat hesab edilə bilər. Əslində sosioloji yanaşma təhsili sosial bir fenomen hesab edir, çünki sosiologiya mövzusunun mərkəzində cəmlənmiş sosial hadisələrdir. Təhsili Mədəniyyət fenomeni ilə əlaqəli təsəvvür etsək və onu sosial-mədəni bir fenomen kimi təyin etsək, təhsilin ən dəqiq xüsusiyyətləri sosial-mədəni yanaşma çərçivəsində öyrənilməcəkdir. Klassik sosiologiyaya əsaslanaraq, pozitivizm çərçivəsində ictimai hadisələrin öyrənilməsinə institusional yanaşma tətbiq edən fransız sosioloqu Auguste Comte tərəfindən hazırlanmış müsbət metodun əsas müddəalarına diqqət yetirmək lazımdır. Comte, cəmiyyətdə həmrəylik və harmoniyanın təmin edilməsi mexanizmi ilə sosioloji təhlilin obyekti kimi çıxış etdi [1].

Bu və ya digər sosial institutun mövcudluğu və fəaliyyət göstərməsi faktı, sosial həyatın müəyyən bir sahəsində baş verən, yalnız özünə xas olan sosial münasibətləri ilə xarakterizə olunan sosial ehtiyacın xüsusiyyətləri (bu sosial institutun əslində ortaya çıxdığı) ilə birbaşa müəyyən edilir [2].

Sosial bir qurum olaraq təhsil statuslar və rollar, sosial norma və qaydalar, sosial təşkilatlar, idarəetmə aparatı və xüsusi prosedurları özündə cəmləşdirən nəhəng, mürəkkəb bir sosial sistemdir [3].

İnstitusional yanaşma çərçivəsində təhsil cəmiyyətin ehtiyaclarını ödəməyə yönəlmiş müəyyən sosial funksiyalar dəsti ilə xarakterizə olunan sosial əlaqələrin və qarşılıqlı əlaqələrin sabit məcmusu kimi təqdim edilə bilər.

Sosiologiyada sistemli bir yanaşma Amerika sosioloji məktəbinin nümayəndəsi Tolkott Parsons tərəfindən hazırlanmışdır. Sosial sistemlər, Parsonsun tərifinə görə, mövcud subyektlər arasında sosial qarşılıqlı təsir halları və prosesləri ilə formalaşan sistemlərdir. Sosial sistem əsasını təşkil edən bir quruluş şəklində təqdim edilə bilər: dəyərlər, normalar, kollektiv təşkilatlar və rollar.

Məktəb sinfinin təhlilində T.Parsons sosial sistem haqqında öz baxışını tətbiq edərək, artıq bu səviyyədə fərdi, mədəni və sosial sistemlər arasında qarşılıqlı əlaqəni izləməyə çalışır [5].

Təhsilə sistemli bir yanaşma nöqteyi-nəzərindən sistem "müəyyən xüsusiyyətlər əsasında ayrılmış, ümumi fəaliyyət məqsədi və İdarəetmə Birliyi ilə birləşdirilmiş və ətraf mühitlə qarşılıqlı əlaqədə ayrılmaz bir fenomen kimi fəaliyyət göstərən bir-biri ilə əlaqəli elementlərin nizamlı bir dəsti" kimi başa düşülür [6].

Eyni zamanda, təhsil sisteminə müxtəlif səviyyəli geniş təhsil təşkilatları şəbəkəsi – məktəbə-qədər təhsil müəssisələri, ümumi təhsil müəssisələri (məktəblər, gimnaziyalar, liseylər), orta peşə təhsili təşkilatları (kolleclər, texniki məktəblər), ali təhsil təşkilatları, əlavə təhsil təşkilatları və s. daxildir.

Təhsil sistemində onun strukturunun hər bir elementi təhsil sahəsində baş verən bütün proses-lərin səmərəli işləməsini təmin etmək məqsədi daşıyır. Hər hansı bir sistemdə olduğu kimi, onun bütün elementləri bir-biri ilə əlaqəli və qarşılıqlı əlaqədədir. Ancaq nüans budur ki, fərqli bir təbiət sistemlərindən fərqli olaraq, təhsil sisteminin mərkəzində uşaqlar var və orada baş verən bütün proseslər ilk növbədə tələbələrin maraqlarını və ehtiyaclarını nəzərə almalıdır. Təhsil strategiyaları elə qurulmalı və dəyişdirilməlidir ki, bütün sistemin işi tələbələrin olduğu ən vacib element üçün daha təsirli olsun.

Beləliklə, sistem yanaşması baxımından müasir təhsil sistemi, sistemin məqsədlərinə çatmağa yönəlmiş və xarici mühitdəki dəyişikliklərə uyğunlaşmasına kömək edən bir-biri ilə əlaqəli bir çox elementdir.

Sosial dəyişiklik anlayışlarına və sosial proses nəzəriyyələrinə tətbiq edildikdə, təhsil sosial proses kimi qəbul edilə bilər.

Polşalı sosial dəyişiklik sosiologiyası nəzəriyyəçisi Peter Stompka qeyd edir ki, sosial dəyişiklik tək bir epizoddur, sistemin bir vəziyyətindən digərinə keçiddir. Halbuki "proses" anlayışı ardıcıl olaraq bir-birinin ardınca gedən və sistemdəki qarşılıqlı şərtli dəyişiklikləri təsvir etməyə xidmət edir [7].

Müasir tədqiqatçılar təhsildə bilik əldə etmə prosesi olaraq 3 şərti element ayırırlar. Birinci¬sinə məktəbəqədər, məktəb, orta ixtisas, əlavə,

ali təhsil daxildir. Onun əsas məqsədi öyrənməkdir, çünki bəşəriyyətin varlığının davamlı dəyəri və müəyyən bir ictimai həyat üçün zəruri şərtdir.

İkinci element yeni biliklərin əldə edilməsinə yönəldilmiş və aspiranturadan sonrakı təhsildə (magistratura, aspirantura, doktorantura və s.), həmçinin ixtisaslaşdırılmış tədqiqat institutlarında, dövlət və ictimai akademiyalarda təhsil səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir. Üçüncü element, fəaliyyətlə birbaşa əlaqəli təlimlərə, daha çox müvafiq şəkillər (müxtəlif ixtisasartırma və peşə bacarıqları kursları və s.) vasitəsilə yönəldilmişdir [8].

Təhsil prosesi bir insanın həyatı boyu davamlıdır. Birinci element təhsilin fərdin gələcək mövcudluğu üçün zəruri şərt olduğunu göstərirsə, ikinci və üçüncü elementlər çox vaxt baş verən sosial dəyişikliklərlə əlaqələndirilir. Bu hallarda təhsil cəmiyyətin və fərdin qarşılıqlı ehtiyacı kimi çıxış edir: cəmiyyət ixtisaslı işçilərlə maraqlanır, şəxsiyyət belə bir işçi olmağa yönəlib.

Beləliklə, sosial proseslər sahəsində inkişaf və tədqiqatlara əsaslanaraq təhsil həm fərdi, həm də bütövlükdə cəmiyyət tərəfindən biliklərin əldə edilməsi, toplanması və mənimsənilməsinin davamlı prosesi kimi müəyyən edilə bilər.

Müasir elm hesab edir ki, fəaliyyət yanaşmasının mahiyyəti fəaliyyətin özündə deyil, tez-tez şərh olunduğu kimi, yalnız sözlərin leksik mənası – “fəaliyyət” əsasında deyil, əks olunma prosedu-runa, sosial istehsal metodunun “təbiətinin” zehni fəaliyyət şüuruna və onun Konstitusiyasına istinad edir [10].

Bu baxımdan, müasir təhsil, bəşəriyyətə ən nəcib niyyətlərini həyata keçirmək imkanı verə biləcək ümumi mədəni inkişafın və ümumiyyətlə sosial tərəqqinin vacib bir hissəsi olan yönəldilmiş bir fəaliyyətdir [11].

Təhsili öyrənərkən təşkilatlar nəzəriyyəsinə müraciət etmək lazımdır, çünki onun əsas müddəaları təşkilati yanaşmanın əsasını təşkil edir.

Klassik sosiologiyada P.A.Sorokin haqlı olaraq bu elmi istiqamətin ən görkəmli nümayəndəsi hesab olunur. Tədqiqatçının fikrincə, insanların qarşılıqlı əlaqəsi “məna – dəyər – norma” triadasına əsaslanır.

Beləliklə, qarşılıqlı əlaqə prosesi bir-birindən ayrılmaz üç komponentə və ya sosial fenomenin üç aspektinə malikdir: şəxsiyyət, cəmiyyət və mədəniyyət. Mədəniyyət “qarşılıqlı əlaqəli şəxslərin sahib olduğu mənalar, dəyərlər və normalar toplusu və bu mənaları obyektivləşdirən, ictimailəşdirən və ortaya qoyan daşıyıcılar toplusu” kimi başa düşülür [14]. “Sosial” terminalı qarşılıqlı əlaqədə olan insanların məcmusuna, münasibətlərinə tətbiq olunursa, “Mədəniyyət” termini mənalara, dəyərlərə, normalara və onların daşıyıcılarına, yəni ünsiyyətin daxili mahiyyətinə aiddir.

Deyə bilərik ki, təhsil fenomeninə müasir baxış tamamilə sosioloji elmi düşüncənin klassik nəzəriyyələrinə əsaslanır. Yuxarıda müzakirə olunan hər bir elmi yanaşma tədqiq olunan fenomendə öz istiqaməti üçün vacib bir mövzu sahəsini müəyyənləşdirir. Təhsil sisteminin empirik tədqiqatları yalnız həm elmi ictimaiyyət, həm də ictimaiyyət tərəfindən bu fenomenə olan çoxölçülü və qeyd-şərtsiz marağını təsdiqləyir.

Ədəbiyyat

1. Kont, O. Kurs pozitivnoy filosofii / O. Kont. - M., - 2012, - s.44.
2. Nedzvetskaya, Ye.A. Obrazovaniye kak sotsial’noyeinstitut: osobennosti upravleniya // Vestnik RUDN. SeriiSotsiologiya. - 2003. № 4-5. - s.229.
3. Naletova, I.V. Sotsiologicheskoye obrazovaniye / I.V.Naletova, - Tambov, - 2002. - s.26.
4. Tadevosyan, E.V. Sotsiologiya / E.V.Tadevosyan. 2-ye izd., isp. I myach. - M., - 1999. - s.112.
5. Parsons, T. The school class as a social system: Some of its functions in American society // Harvad Educational Review, 29 (1959). R. 297-318. URL: https://ru.-scribd.com/doc/96038950/Parsons-Talcott-The-School-Classas-a-Social-System-Some-of-Its-Functions-in-AmericanSociety-Harvard-Educational-Review-29-Pp-318-1959#.
6. Il’ina, T. A. Sistemno-strukturnyy podkhod k organizatsii obucheniya. M., 1992. s. 16. SOTSIAL’NO-EKONOMICHESKIYe YAVLENIYA I PROTSESSY SOCIAL ECONOMIC PHENOMENA AND PROCESSES 42 T. 13, № 2, 2018
7. Shtompka, P. Sotsiologiya. Analiz sovremennogo obshchestva / Per. s pol’sk. S. M. Chervonnoy. - M., - 2005. - s.456-457.
8. Golubchikov, A.YA., Sudnik, YU.A. Obrazovaniye kak protsess i rezul’tat (sotsial’no-filosofskiy analiz)// Vestnik FGOU VPO MGAU. - 2012. № 4/1. - s.37.

9. Veber, M. Osnovnyye sotsiologicheskiye ponyatiya / Per. s nem. M.İ.Levinoy // M.Veber İzbrannyye proizvedeniya. - M., - 1990. - s.602-603.
10. Korshunova, N. L. Deyatel'nostnyy podkhod v sovremennom obrazovanii: sushchnost', problemnyye zony, perspektivy realizatsii // İzvestiya VGPU. Seriya Pedagogicheskiye nauki. - 2014. № 2 (263). - s.55.
11. Gutova, S. G. Obrazovaniye kak sotsial'nyy institut i yego znacheniye dlya sovremennoy kul'tury // Traditsii i innovatsii v obrazovatel'nom prostranstve Rossii, KH-MAO-Yugry, NVGU: mat-ly Vseros. nauch.-prakt.konfer., 26 marta 2014 g. Nizhnevartovsk, - 2014. - s.34.
12. Rittser, Dzh. Sovremennyye sotsiologicheskiye teorii. 5-ye izd. SPb., - 2002. - s.331.
13. Dyurkgeym, E. Metod sotsiologii // Zapadnoyevropeyskaya sotsiologiya KHIX-nachala KHKH vekov. - M., - 1996. R. 256-309. URL: http://abc.vvsu.ru/ books/sotsiologij/ page00- 06.asp.
14. Sorokin, P.A. Chelovek. Tsivilizatsiya. Obshchestvo / Per. s angl. S.A.Sidorenko pod obshch. red. A.YU.Sogomonova. - M., - 1992. - c.218.

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi pedaqogika, psixologiya, tarix, filologiya, riyaziyyat və informatika, biologiya və incəsənət üzrə yazılmış mövcud tələblərə cavab verən keyfiyyətli elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və keyfiyyətlə redaktə olunmuş orijinal elmi məqalələr dərc edilir.
3. Məqalələrin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi təqdim olunmalıdır.
6. Məqalələr üç dildə - Azərbaycan, ingilis və rus dilərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə açar sözlər və xülasə verilməlidir.
7. Məqalənin mətni kompyuterdə A4 formatında "14" ölçülü hərflərlə, səhifənin parmetrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1,5 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1 interval olmaq şərtilə Times New Roman şriftində yazılır. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin başlığında sağ küncdə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, sonra aşağıda "12" ölçülü adi şirftlə işlədiyi təşkilatın adı (məs: Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi və s), 1 interval ara verməklə «12» ölçülü qalın və böyük hərflərlə məqalənin adı, aşağıda 1 interval ara verməklə məqalənin yazıldığı dildə xülasə və açar sözlər yazılır. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxmaqla yazılır.
9. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı "12" ölçülü hərflərlə yazılmalıdır. İstinadlar əlifba ardıcıllığı ilə deyil, ədəbiyyatların mətndə rast gəlindiyi aradıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın hərflərlə yazılmalıdır.
Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə yığılır. Məs:

Kitablar:

Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007, 182 s.

Məcmuə məqalələri:

Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s.73-91.

Jurnal məqalələri:

Seyidov M.A., Seyidova A.M. Kimyəvi elementlərin tədrisində fənlərarası əlaqədən istifadə metodikası // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2008, №1 (13), s. 97-100.

10. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik və qalın, mövzunun adı böyük və qalın, xülasənin özü və açar sözlər isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
11. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-15 səhifədən ibarət olmalıdır.
12. Çap olunmuş əlyazma disketlə birlikdə jurnalın redaksiyasına şəxsən təqdim edilir. Əlyazmaların elektron qaydada təqdim edilməsi də mümkündür. Bu zaman əlyazma jurnalın elektron poçtuna (elmieserler@nmi.edu.az, contact@elmieserler.net) göndərilir.
13. Müəlliflər redaksiyaya əlyazma ilə birgə doldulmuş anket də təqdim edirlər. Anketdə müəllif haqqında ətraflı məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları, elektron poçt ünvanı) verilir.

Qeyd: "Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər" jurnalının hər bir nömrəsində müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

TO THE ATTENTION OF AUTHORS

1. The main purpose of the journal is the publication of SCIENTIFIC articles of high quality meeting determined needs written on pedagogy, psychology, history, philology, mathematics and informatics, biology and art
2. Briefly and perfectly edited SCIENTIFIC articles which are the results of novel researches not presented to other publications are published in the journal.
3. The number of co-authors of the articles with more than 3 is undesirable.
4. The author is directly responsible for the quality of the articles and the correctness of the facts suggested in the article.
5. At least, one of the members of editorial staff, the review of specialist in that field should be presented about every article to be published.
6. The articles may be published in 3 languages - Azerbaijani, English and Russian. Except the language of the article, key words and resume should be given in 2 other languages.
7. The text of the article is presented to the editorial office of the journal written in computer, with A4 format, in "14" size type, with the margin parameters of 2 cm at the top, 2 cm at the bottom, 3 cm on the left and 1,5 cm on the right, without shifting with "hyphen" from line to line, with the line space of 1 interval and in Times New Roman type. The parameters of the schedule in the text must be – 3,7 cm from right and left.
8. At the top of the page, the title of the article is written in "12" bold type and capital letters leaving 1 interval space, with the name and surname of the author (authors) written in "12" bold type leaving 1 interval space (for example, Nakhchivan Teachers' Institute, Nakhchivan State University, Nakhchivan section of ANAS and so on). The main text of the article is written below leaving 1 line space.
9. SCIENTIFIC sources should be quoted related to the theme. The list of references given at the end of the article should be written in "12" size type. The list of references should not be numbered in alphabetic order, it should be numbered in the order as the quoted references are met in the text. For example, it should be marked as [1], [1, p.119]. If the same reference is quoted once again in another place of the text, the very reference should be shown in previous number. The word "Reference" should be written in bold type. The list of references is given in case letters in the language which is written. For example,

Books:

Mehrabov, A., Javadov I. Monitoring and evaluation in comprehensive schools. Baku, 2007, 182 pp.

Articles in bouk:

Habibbaily I.A. Science and Culture in Nakhchivan/ Nakhchivan in Azerbaijan history. Baku: Science, 1996 p.73-91

Articles in journal:

Seyidov M.A., Seyidova A.M. Usage methods of interdisciplinary relationships in the teaching of chemical elements// News of Nakhchivan Teachers' Institute, 2008, № 1 (13), p.97-100.

10. In the resume of the article, the name and surname of the author sould be written in "12" size case, bold letters; the title of the theme should be written in capital and bold letters; and the resume itself is written in ordinary letters. The resume should encompass the theme completely, the results obtained should be given in detail. The resumes of the article in different languages should overlap and be relevant to the content of the article.
11. The total volume of the article should not exceed 15 pages including graphic materials, photos, tables, formulae, the list of references and resumes.
12. The printed manuscript is presented to the editorial office together with the floppy disk. Manuscripts are also available electronically. In this case, the manuscript is sent to the journal's e-mail (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).
13. The authors also submit a review with the manuscript. In the review, the author will be given detailed information about the author (surname, name and patronymic, workplace, post, degree of science and SCIENTIFIC title, address, work and home phones, electronic mail address).

Note: Only one article by the author is considered to be published in every issue of "Nakhchıvan Teachers Institute. Scientific works".

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основная цель журнала – публикация качественных научных статей по педагогике, психологии, истории, филологии, математике и информатике, биологии и искусствоведению, отвечающих установленным требованиям.
2. В журнале публикуются результаты исследований в виде оригинальных и тщательно отредактированных научных статей, ранее не представленных к другим изданиям.
3. Количество соавторов более трех человек нежелательно.
4. Автор носит прямую ответственность за качество содержания статьи и достоверность указанных в ней фактов.
5. Для опубликования статьи в журнале необходимо представить рецензию одного специалиста по этой области научных знаний и представления одного из сотрудников редколлегии.
6. Статьи могут быть написаны на одном из трех языков - азербайджанском, английском или русском. Ключевые слова и аннотации должны быть написаны и на двух других языках.
7. Текст статьи должен быть сверстан на компьютере шрифтом Times New Roman, (размер шрифта -14 pt) на бумаге А4 с полями: верхним – 2 см; нижним – 2 см; правым – 3 см; левым – 1,5 см, без переносов с межстрочным интервалом 1,5 см. Параметры внутритекстовых таблиц - 3,7 см с правой и левой стороны.
8. Текст статьи должен быть написан следующим образом: в правом верхнем углу первой страницы имя и фамилия автора (авторов) заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt), ниже прописным шрифтом (размер шрифта – 12 pt) - место работы (например, Нахчыванский институт учителей, Нахчыванский государственный университет, Нахчыванский отделение НАНА и т. д.), далее через интервал по середине заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt) – название статьи, ниже через интервал с начала строки с отступом - аннотацию и ключевые слова на языке оригинала, далее через интервал - основной текст статьи
9. В статье делаются ссылки на научные источники по тематике. Список литератур, данный в конце статьи, пишется прописными буквами размером 12 pt. Ссылки нумеруются по последовательности размещения их в тексте, а не по алфавиту. Ссылки вставляются прямо в тексте научной работы в виде [1, с. 2] или просто [1]. При повторной ссылке указывается номер той же литературы. Слово «Литература» пишется жирными буквами по середине, через интервал за текстом.
Список литературы составляется прописным шрифтом на языке оригинала. Напр:

Книги:

Мехрабов А., Джавадов И. Мониторинг и оценка в средних школах. Баку, 2007, 182 с.

Статьи в сборнике:

Габиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в истории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.

Журнальные статьи:

Сейидов М.А., Сейидова А.М. Методика применения химических методов в обучении химическим элементам // Известия Нахчыванского института учителей, 2008, №1 (13), с. 97-100.

10. В аннотации имя и фамилия автора пишутся прописными и жирными, название статьи заглавными и жирными, а сама аннотация и ключевые слова прописными буквами. Аннотация должна полностью отражать содержание статьи, подробно освещать полученные результаты. Аннотации на разных языках должны быть идентичны, соответствовать содержанию статьи.
11. Общий объем статьи должен быть в пределах 5-15 страниц, включая графические материалы, фото, таблицы, список литературы и аннотации.
12. Напечатанная рукопись вместе с дискетой лично представляется в редакцию. Можно представить рукописи и через интернет. При этом рукопись можно отправить на mail-адрес редакции (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).
13. Автор вместе с рукописью представляет в редакцию и анкет автора, который содержит подробные сведения о нем (фамилии, имени и отчестве, месте работы, должности, ученой степени и ученом звании, адресе, рабочем и домашнем телефоне, электронном адресе)

Примечание. В каждом номере журнала «Нахчыванский институт учителей. Научные труды» предусмотрена публикация одной статьи автора.

DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

Nəşriyyatının direktoru: Zöhrə Sadiqova
Redaktor: Tünzalə Abdullayeva
Korrektor: Aruzə Qurbanova

Yığılmağa verilmişdir: 16.12.2022
Çapa imzalanmışdır: 29.12.2022
Kağız foarmatı: A4
Şərti çap vərəqi: "Times New Roman" qarnituru
Tirajı: 100

İnternet saytı: https//elmieserler.net
E-mail: contact@elmieserler.net
elmihisse@nmi.edu.az
Ünvan: Az – 7003, Naxçıvan şəhəri,
Heydər Əliyev prospekti-2